**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI BİZNES UNİVERSİTETİ**

***“Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində” mövzusunda***

**Beynəlxalq elmi-praktiki konfransın materialları**

**Bakı, 25 noyabr, 2020-ci il**

*******

***"Digital Economy: Azerbaijan at the New Stage of Economic Development"***

**Conference Proceedings of the International Scientific-Practical Conference**

**Baku, November 25, 2020**

*******

***“Цифровая экономика: Азербайджан на новом этапе экономического развития”***

**Материалы международной научно-практической конференции**

**Баку, 25 ноября, 2020**

**Redaktor**: İbad Abbasov, iqtisad elmləri doktoru, professor

**Tərtib edənlər:** İslam İbrahimov, iqtisad elmləri doktoru, professor
Sabir Əmirxanov, professor
Məleykə Abbasova, hüquq üzrə fəlsəfə doktoru

**Editor:** Ibad Abbasov, D.Sc. (Econ.), Professor

**Compilers:** Islam Ibrahimov, D.Sc. (Econ.), Professor
Sabir Amirkhanov, Professor
Maleyka Abbasova, Ph.D. in Law

**Редактор:** Ибад Аббасов, доктор экономических наук, профессор

**Составили:** Ислам Ибрагимов, доктор экономических наук, профессор
Сабир Амирханов, профессор
Малейка Аббасова, доктор философии по праву

"Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində". - Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2020-ci il, 548 səh.

"Digital Economy: Azerbaijan at the New Stage of Economic Development". - Conference Proceedings of the International Scientific – Practical Conference. Baku, 2020, 548 p.

"Цифровая экономика: Азербайджан на новом этапе экономического развития". – Материалы научно-практической конференции. Баку, 2020, 548 стр.

**ISBN: 978-9952-37-226-7**

**©"Bakı Biznes Universiteti" nəşriyyatı, 2020.**
**©"Baku Business University" Press, 2020.**
**© Изд-во "Бакинский Университет Бизнеса", 2020.**

## KONFRANSIN ELM KOMİTƏSİ

**Sədr:**
- **İbad Abbasov,** iqtisad elmləri doktoru, professor, Azərbaycan;

**Üzvlər:**
- **Ziyad Səmədzadə,** akademik, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan;
- **Nazim Müzəffərli (İmanov),** iqtisad elmləri doktoru, professor, Azərbaycan;
- **Akif Musayev,** iqtisad elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan;
- **Səlim Müslümov,** iqtisad elmləri doktoru, professor, Azərbaycan;
- **Vahid Novruzov,** iqtisad elmləri doktoru, professor, Azərbaycan;
- **Sakit Yaqubov,** iqtisad elmləri doktoru, professor, Azərbaycan;
- **İslam İbrahimov,** iqtisad elmləri doktoru, professor, Azərbaycan;
- **Nataliya Şalimova,** iqtisad elmləri doktoru, professor, Mərkəzi Ukrayna Milli Texniki Universiteti, Kropivnitskiy, Ukrayna;
- **Corcios Dafoulas,** dosent, MUHEC Universiteti, Böyük Britaniya, London;
- **Cuzeppe Qalloppo**, professor, Tuşçiya Universiteti, İtaliya;
- **Mahir Səbzəliyev,** riyaziyyat elmləri doktoru, professor, Azərbaycan;
- **Rahim Sadıqov,** iqtisad üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan;
- **Andriyana Andreyeva,** dosent, Varna İqtisadiyyat Universiteti, Bolgarıstan;
- **İlahə Əliyeva,** filoloqiya elmləri üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan;
- **Alibekov Şahizin,** iqtisad elmləri doktoru, professor, Ümumrusiya Dövlət Ədliyyə Universitetinin Şimali Qafqaz filialı, Rusiya Federasiyası;
- **Desislava Serafimova,** dosent, Varna İqtisadiyyat Universiteti, Bolgarıstan;
- **Qalina Kuzmenko**, iqtisad elmləri namizədi, dosent, Ukraynanın Əməkdar iqtisad-çısı, Mərkəzi Ukrayna Milli Texniki Universiteti, Kropivnitskiy Ukrayna;
- **Sabir Əmirxanov,** professor, Azərbaycan.

## SCIENTIFIC COMMITTEE OF THE CONFERENCE

**Chairman:**
- **Ibad Abbasov,** D.Sc. (Econ.), Professor, Azerbaijan;

**Members:**
- **Ziyad Samadzadeh,** Academician, Full Member of Azerbaijan National Academy of Sciences, Azerbaijan;
- **Nazim Muzaffarli (Imanov),** D.Sc. (Econ.), Professor, Azerbaijan;
- **Akif Musayev,** D.Sc. (Econ.), Professor, Correspondent Member of Azerbaijan National Academy of Sciences, Azerbaijan;
- **Salim Muslumov,** D.Sc. (Econ.), Professor, Azerbaijan;
- **Vahid Novruzov,** D.Sc. (Econ.), Professor, Azerbaijan;
- **Sakit Yagubov,** D.Sc. (Econ.), Professor, Azerbaijan;
- **Islam Ibrahimov,** D.Sc. (Econ.), Professor, Azerbaijan;
- **Nataliia Shalimova,** D.Sc. (Econ.), Professor, Central Ukrainian National Technical University, Kropyvnytskyi, Ukraine;
- **Dr.Geogios Dafoulas**, Associate Professor, Middlesex University, UK, London;
- **Giuseppe Galloppo**, Professor, Tuscia University, Italy;

- **Mahir Sabzaliev,** D.Sc. (Math.), Professor, Azerbaijan;
- **Rahim Sadigov,** Ph.D. (Econ.), Associate Professor, Azerbaijan;
- **Andriyana Andreeva,** Ph.D., Associate Professor, University of Economics-Varna, Bulgaria;
- **Ilakha Aliyeva,** Ph.D. (Phil.), Associate Professor, Azerbaijan;
- **Alibekov Shakhizin,** D.Sc. (Econ.), Professor, North-Caucasus Institute of the All-Russian State University of Justice, Russian Federation;
- **Desislava Serafimova**, Ph.D, Associate Professor, University of Economics-Varna, Bulgaria;
- **Halyna Kuzmenko,** Ph.D, Associate Professor, Honored Economist of Ukraine, Central Ukrainian National Technical University, Kropyvnytskyi, Ukraine;
- **Sabir Amirkhanov,** Professor, Azerbaijan.

## НАУЧНЫЙ КОМИТЕТ КОНФЕРЕНЦИИ

**Председатель:**

- **Ибад Аббасов,** доктор экономических наук, профессор, Азербайджан;

**Члены комитета:**

- **Зияд Самедзаде,** доктор экономических наук, профессор, Действительный член Национальной Академии Наук Азербайджана, Азербайджан;
- **Назим Музаффарли (Иманов),** доктор экономических наук, профессор, Азербайджан;
- **Акиф Мусаев,** доктор экономических наук, профессор, Член-корреспондент Национальной Академии Наук Азербайджана, Азербайджан;
- **Салим Муслимов,** доктор экономических наук, профессор, Азербайджан;
- **Вахид Новрузов,** доктор экономических наук, профессор, Азербайджан;
- **Сакит Ягубов,** доктор экономических наук, профессор, Азербайджан;
- **Ислам Ибрагимов,** доктор экономических наук, профессор, Азербайджан;
- **Наталия Шалимова,** доктор экономических наук, профессор, Центральный Украинский Национальный Технический Университет, Кропивницкий, Украина;
- **Джордж Дафоулас**, доцент, Университет Миддлэссэкса, Великобритания, Лондон;
- **Джузеппе Галлоппо**, профессор, Университет Тушчия, Италия;
- **Махир Сабзалиев,** доктор математических наук, профессор, Азербайджан;
- **Рахим Садыгов,** доктор философии по экономике, доцент, Азербайджан;
- **Андрияна Андреева,** доцент, Экономический Университет-Варна, Болгария;
- **Илаха Алиева,** доктор философии по филологии, доцент, Азербайджан;
- **Алибеков Шахизин,** доктор экономических наук, профессор, Северо-Кавказский Институт Всероссийского Государственного Университета Юстиции (РПА МинЮста России), Российская Федерация;
- **Десислава Серафимова,** доцент, Экономический Университет-Варна, Болгария;
- **Галина Кузменко,** кандидат экономических наук, доцент, Заслуженный экономист Украины, Центральный Украинский Национальный Технический Университет, Кропивницкий, Украина;
- **Сабир Амирханов,** профессор, Азербайджан.

*Abbasov İbad Musa oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Bakı Biznes Universitetinin rektoru*

# GİRİŞ NİTQİ

## RƏQƏMSAL İQTİSADİYYAT VƏ RƏQƏMSAL TƏHSİL

Bu bir danılmaz həqiqətdir ki, hazırda bəşəri dünyamız yeni bir inqilabi prosesi yaşayır. Bir tərəfdən sürətlə baş verən mürəkkəb texnoloji dəyişikliklər, innovativ inkişaf prosesləri, süni intellektin formalaşması və inkişafı, digər tərəfdən isə genlərin düzülüşündən nanotexnologiyaya qədər, bərpa olunan enerjidən ən kiçik hissələrin hesablanması vacibliyini ortaya qoyan çoxşaxəli, üfüqi və şaquli istiqamətdə sürətli inkişaf edən köklü dəyişikliklər, informasiya və kommunikasiya bazasında digər sahələrin, o cümlədən iqtisadiyyatın da rəqəmsallaşmasını şərtləndirir. Çünki bu və ya digər sürətli inqilabi dəyişikliklərin və proseslərin bir araya gətirilməsi, onların əlaqələndirilməsi və bu prosesin cəmiyyətin xeyrinə yönəldilməsi bütün sahələrin rəqəmsallaşması ilə mümkündür. Bu əlaqələndirmənin düzgün optimallaşdırılması sosial-iqtisadi sistemin yeniləşməsi və sosial faydalılığın yüksəlməsi ilə nəticələnə bilər. Apardığımız tədqiqatlar göstərir ki, bu inqilabi dəyişikliklərin önündə iqtisadiyyatın rəqəmsallaşması gedir. Bu rəqəmsallaşmada isə hələlik ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, İtaliya, Fransa, Kanada kimi inkişaf etmiş ölkələr liderlik edir. Bunu aşağıdakı məlumatlardan da görmək mümkündür.[1] Aşağıdakı cədvəldən göründüyü kimi son dövrlərdə bu ölkələrin iqtisadiyyatının rəqəmsallaşmasının Ümumi Daxili Məhsulda xüsusi çəkisi 5-7 % ətrafında dəyişir.

***Cədvəl 1.***

**2010–2017-ci illərdə bəzi ölkələr üzrə rəqəmsal iqtisadiyyatın ÜDM-də xüsusi çəkisi, %-lə**

| Ölkələr | 2010 | 2016 | 2017 |
|---|---|---|---|
| ABŞ | 4,7 | 5,4 | 7,4 |
| Böyük Britaniya | 8,3 | 12,4 | 7,1 |
| Yaponiya | 4,7 | 5,6 | 6,9 |
| Almaniya | 3,0 | 4,0 | 6,3 |
| Fransa | 2,9 | 3,4 | 5,7 |
| Kanada | 3,0 | 3,6 | 5,1 |
| İtaliya | 2,1 | 3,5 | 4,5 |

Qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatının rəqəmsallaşmasında bu ölkələr liderlik etsə də, son dövrlərdə bu prosesə ciddi şəkildə Çin, Cənubi Koreya, Hindistan da fəal qoşulmuşlar.

İqtisadiyyatın bəzi sahələrinin, o cümlədən elektron ticarətin lider ölkələr üzrə dinamik inkişafını 2 nömrəli cədvəldə müşahidə etmək mümkündür [2]:

*Cədvəl 2.*

**Elektron ticarət sahəsində lider ölkələr (2018)**

| Reytinqdə yeri | Ölkələr | Elektron kommersiya seqmentində satışın ümumi dəyəri, mlrd. dollar | ÜDM-ə nisbəti, % | B2B, mlrd. dollar | Elektron kommersiyanın ümumi həcmində xüsusi çəkisi, % | B2C, mlrd. dollar | B2C seqmentində bir müştəriyə düşən orta illik xərc, dollar |
|---|---|---|---|---|---|---|---|
| 1 | ABŞ | 8883 | 46 | 8129 | 90 | 753 | 3851 |
| 2 | Yaponiya | 2975 | 61 | 2828 | 95 | 147 | 3248 |
| 3 | Çin | 1931 | 16 | 869 | 49 | 1062 | 2574 |
| 4 | Almaniya | 1503 | 41 | 1414 | 92 | 88 | 1668 |
| 5 | Cənubi Koreya | 1290 | 84 | 1220 | 95 | 69 | 2983 |
| 6 | Böyük Britaniya | 755 | 29 | 548 | 74 | 206 | 4658 |
| 7 | Fransa | 734 | 28 | 642 | 87 | 92 | 2577 |
| 8 | Kanada | 512 | 31 | 452 | 90 | 60 | 3130 |
| 9 | Hindistan | 400 | 15 | 369 | 91 | 31 | 1130 |
| 10 | İtaliya | 333 | 17 | 310 | 93 | 23 | 1493 |
| | 10 ölkə | 19315 | 36 | 16782 | 87 | 2533 | 2904 |
| | ***Dünya üzrə:*** | ***29367*** | – | ***25516*** | – | ***3851*** | – |

Yuxarıdakı məlumatlardan göründüyü kimi, ticarət sahəsində rəqəmsallaşmada liderlik dünyanın ən inkişaf etmiş olan ABŞ, Böyük Britaniya, Yaponiya, Almaniya kimi nəhəng ölkələrdən fərqli olaraq Cənubi Koreyanın payına düşür. Belə ki, ticarət sahəsində rəqəmsallaşmanın ön sırasında Cənubi Koreyadan sonrakı yerləri Yaponiya, ABŞ və Almaniya bölüşdürür. İqtisadiyyatın digər sahələrinin rəqəmsallaşmasına dair ayrı-ayrı ölkələr üzrə statistik məlumatların məhdudluğu hələlik çoxşaxəli təhlilin aparılmasına imkan vermir. Bu, onu qeyd etməyə əsas verir ki, dünyada gedən rəqəmsallaşma prosesi yeni bir istiqamət olduğu üçün, bu sahədə məlumatların toplanması, qruplaşdırılması və statistik hesabatlarda vahidləşdirilməsi hələ tam formalaşmamışdır. Bu isə bir sıra məsələlər üzrə dərin tədqiqatların aparılmasına, ümumiləşdirməyə və fikir yürütməyə bəzi çətinliklər yaradır. Hesab edirik ki, yaxın zamanlarda rəqəmsallaşma sahəsində gedən proseslərin statistik hesabatlarda öz əksini tapması aktual məsələlərdən biri kimi öz həllini tapmalıdır. Lakin bəzi statistik məlumatların mövcudluğu müəyyən sahələrdə tədqiqat aparmağa imkan yaratdığı üçün bir sıra məsələlər üzrə şərh vermək mümkündür.

Məsələn, ayrı-ayrı sahələrin rəqəmsallaşması səviyyəsi və onlar arasında optimal əlaqə və ya nisbi təsir münasibətlərinə dair fikir yürütmək üçün Avropa ölkələrində son illərin yekunlarına dair sosial-iqtisadi sahələrin rəqəmsallaşma səviyyəsinə nəzər salmaq kifayətdir [3].

*Cədvəl 3.*

**Avropada sosial-iqtisadi sahələrin rəqəmsallaşma səviyyəsi**

| Sahələr | ÜDM-də xüsusi çəkisi, %-lə |
|---|---|
| Təhsil | 2 |
| Maliyyə fəaliyyəti | 5 |
| Topdan və pərakəndə ticarət | 11 |
| Tikinti | 7 |
| Elektrik enerjisi, qazın, suyun istehsalı və bölgüsü | 2 |
| Səhiyyə və sosial xidmətlər | 4 |
| Kimya və əczaçılıq sənayesi | 2 |
| Emal sənayesi | 12 |
| Neft-qaz sənayesi | 9 |
| Nəqliyyat və anbar | 5 |
| Faydalı qazıntılar hasilatı (neft və qazdan başqa) | 5 |

Məlumatlardan göründüyü kimi, Avropa ölkələrində sahələr üzrə rəqəmsallaşmasının ÜDM-də xüsusi çəkisinə görə emal sənayesi, ticarət və neft-qaz sənayesi digər sahələrə nisbətən daha yüksəkdir. Təəssüflə qeyd etmək lazımdır ki, rəqəmsallaşmanın ən aşağı səviyyəsində həyati əhəmiyyətə malik olan ən vacib sahələr tibb və xüsusilə təhsilin rəqəmsallaşmasının digər sahələrə nisbətən ləng getməsi qalan bütün sahələrdə inqilabi dəyişikliklərin uğurla və faydalı davam etməsini sual altına ala bilər. Çünki, minilliklərlə tarixi təcrübəyə malik olan təhsil cəmiyyətdə baş verən bütün inqilabi proseslərin nəticələrini öz üzərində daşımaqla yanaşı, zamanın tələbinə uyğun hədəflərini dəyişərək həmin şəraitə uyğun olaraq, ictimai-iqtisadi formasiyaların formalaşmasını və onun müasir sivilizasiyaya qoşulmasını təmin etmişdir. Təhsil, həmçinin bütün inqilabi dəyişikliklərdə ümumbəşəri dəyərləri, o cümlədən şəxsiyyətin formalaşması və inkişafını, insanlar və mədəniyyətlərarası ünsiyyətin qurulmasını, dövlətlər və millətlərarası münasibətlərin inkişaf etdirilməsini, Vətən və dövlət düşüncə tərzinin formalaşmasını və s. bu kimi dəyərlərin qorunub saxlanılmasını və inkişaf etdirilməsini təmin etmişdir.

Etiraf etmək lazımdır ki, bütün tarixi dövrlərdə qarşımıza çıxan ilk suallardan biri təhsilin necə qurulması və baş vermiş inqilabi dəyişikliklərin gələcək nəsilə necə və hansı formada ötürülməsi məsələsidir. Çünki, təhsil yalnız fərdin formalaşması ilə məhdudlaşmır. O, həm də dövlətin və cəmiyyətin inkişafı üçün faydalıdır. Daha doğrusu, Ulu Öndər, Ümummilli Liderimiz Heydər Əliyevin təbirincə desək "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" [4]. Bəli, hazırda dünyada gedən qlobal proseslər informasiya kommunikasiya bazasında baş verən sürətli texnoloji dəyişikliklər, bir çox sahələrin, o cümlədən iqtisadiyyatın rəqəmsallaşması təhsil sisteminin qarşısında yeni hədəflər qoyur və yeni məsələlərin həllini şərtləndirir. Həmçinin XXI əsrin çağırışlarından və yeni minilliyin inkişaf hədəflərini proqnozlaşdıran aşağıdakı mənbələrin məlumatlarının müşahidəsi bu məsələnin nə dərəcədə aktual olduğunu əsaslandırır [5].

2035-ci ilə dünya rəqəmsal iqtisadiyyatının proqnozlaşdırılan həcmi 16 trln. dollar təşkil edəcəkdir [6].

2025-ci ildə Çində ÜDM artımının 22 %-nə qədəri internet texnologiyası hesabına təmin ediləcəkdir.

2025-ci ildə ABŞ-da rəqəmsal texnologiyalar hesabına yaradılan dəyərin gözlənilən artımı 1,6-2,2 trln. dollar ətrafında olacaqdır.

ABŞ-da rəqəmsal iqtisadiyyatın həcmi ÜDM-in 10,9 %-ni təşkil edir [7].

2018-ci ildə rəqəmsal texnologiyalardan istifadə etməklə göstərilən xidmətlərin ixracının həcmi 2,9 trln. dollar olmuşdur ki, bu da dünya üzrə xidmət ixracının 50 %-ni təşkil edir.

2025-ci ilə qədər internet dünya iqtisadiyyatına ildə 4-11 trln. dollar gəlir gətirəcəkdir.

2025-ci ildə rəqəmsallaşma ÜDM artımının 19-34 %-ni təmin edəcəkdir.

2036-cı ildə iş proseslərinin 50 %-ə qədəri avtomatlaşdırılacaqdır [8].

Proqnozlara görə 2017-2022-ci illər ərzində rəqəmsal transformasiyaya yönəldilən xərclər ildə orta hesabla 16,7 % artaraq 2 trln. dollar təşkil edəcəkdir.

Analitiklər hesab edir ki, 2020-ci ildə rəqəmsal transformasiyaya yönəldilən ümumi xərclər 1,25 trln. dollar olacaqdır ki, bunun da təxminən 50%-ni iqtisadiyyatın 4 sahəsi – diskret istehsal, emal sənayesi, nəqliyyat, pərakəndə ticarət təmin edəcəkdir [9].

"Huawei" korporasiyasının proqnozlarına görə dünyada rəqəmsal iqtisadiyyatın həcmi 2017-ci illə müqayisədə (12,9 trln. dollar) 2025-ci ildə 23 trln. dollara çatacaqdır [10].

Bütün bu kimi proqnozlar və qlobal çağırışlar bir daha təhsilin də rəqəmsallaşmasını tələb edir. Lakin, rəqəmsal təhsil və ya təhsilin rəqəmsallaşması bir çox cəhətdən tədqiqatçılar arasında mübahisəli olmaqda qalır. Bu mübahisələri 3 istiqamətdə qruplaşdırmaq mümkündür. Bunlardan birincisi, ənənəvi təhsildən tamamilə imtina etməyi təklif edir. İkinci qrup isə, təhsil prosesini rəqəmsallaşdırmaqla zənginləşdirmək vasitəsini seçir. Üçüncü məsələ isə, rəqəmsal proseslərin təhsil proqramlarına gətirilməsi və onların təhsil prosesinə qatılmasıdır ki, bu haqda hələ fikir söyləyən yoxdur. Qeyd etmək istərdik ki, birinci qrup tədqiqatçılar və mütəxəssislər belə düşünür ki, ənənəvi təhsil öz işini görmüşdür. Ənənəvi məktəblərə, kolleclərə, universitetlərə ehtiyac yoxdur. Bu fikri əsasən dəstəkləyənlərdən biri amerikalı sahibkar, ixtiraçı, mühəndis və milyarder İlon Maskdır. O, Amerikada tanınmış ən varlı milyarderlərdən biri olmaqla kosmik sahədə bir sıra yeni texnologiyaların tətbiqində uğur qazanmış mühəndisdir. Lakin, onu da diqqətdən qaçırmaq olmaz ki, internet resurslarının məlumatına görə onun nəzarəti altında fəaliyyət göstərən əməkdaşların heç birinin ali təhsili olmadığı göstərilir. Təbii ki, bu fikirlə qətiyyən razılaşmaq olmaz. Ənənəvi təhsil mütləqdir, lakin yeniləşməni daim çevik şəkildə özündə ehtiva edən formada mütləqdir, dünyada gedən rəqəmsallaşma proseslərinə uyğun olaraq yenidən qurulması vacib olan təhsil sisteminə çevrilməlidir. Tarixi təcrübə göstərir ki, istər kosmik tədqiqatlarda, istər informasiya-kommunikasiya texnologiyalarında əldə edilən bütün uğurların mərkəzində ənənəvi təhsil dayanır.

İkinci qrup tədqiqatçılar təhsilin rəqəmsallaşmasında bir sıra məsələləri eyniləşdirir. Yəni, bu qrup tədqiqatçılar təhsil prosesinin rəqəmsallaşması, təhsilin idarə edilməsinin rəqəmsallaşması, elektron universitet, tədris resurslarının rəqəmsallaşması kimi amillərin avtomatlaşdırılmasını rəqəmsal təhsil kimi təqdim edirlər. Fikrimizcə, burada iki məsələ aydın formada öz həllini tapmalıdır. Təhsil resurslarının rəqəmsal-

laşması, təhsilin idarə edilməsinin rəqəmsallaşması, tədrisin təşkilinin rəqəmsallaşması, bunlar yalnız təhsil resurslarına surətli əlçatanlığı təmin edən prosesdir. Təbii ki, bu rəqəmsallaşma ilə biz razıyıq. Lakin, bu gün qarşımızda daha ciddi və vacib məsələ dayanır. Belə ki, hazırkı dövrdə dünyada yeni bir inqilabi proses gedir. Mübahisəli fikir olsa da bu proses 4-cü sənaye inqilabı adlanır. Bu proseslər o dərəcədə sürətlə baş verir ki, bəzən dəyişən texnologiyaların ömür müddəti heç 1 il də çəkmir, onlar yeniləşir və yeni texnologiya özündən əvvəlkini dəyərdən salır. Bu sürətli dəyişiklikləri idarə etmək üçün təbii ki, bütün sahələrin, o cümlədən iqtisadiyyatın da rəqəmsallaşması və avtomatlaşmasını ön plana çəkir. Lakin bu rəqəmsallaşmanı özündə daşıyan kadr potensialı qənaətbəxş deyildir. Bu, hər şeydən öncə onunla izah olunur ki, ayrı-ayrı sahələrdə baş verən inqilabi texnoloji dəyişikliklər və iqtisadi əməliyyatların rəqəmsallaşması, zamanında obyektiv və subyektiv səbəblərdən təhsil proqramlarında öz əksini tapmadığı üçün tədris prosesinə qatıla bilmir. Qeyd etmək lazımdır ki, rəqəmsallaşma prosesinin bütövlükdə yeniləşən dünyanın təhsil prosesinə vaxtında qatıla bilməməsinin obyektiv səbəblərindən biri təhsil müəssisələrinin muxtariyyətinin kifayət qədər məhdud olmasıdır. Belə ki, məlumdur ki, ayrı-ayrı ixtisaslar üzrə mütəxəssis hazırlığı üçün müxtəlif təhsil proqramları hazırlanır. Bu proqramlar, məsələn, bakalavr səviyyəsi üçün, ən azı 4 il müddətinə qüvvədədir və dəyişilməz olaraq qalır. Həmin müddət ərzində bu və ya digər sahədə baş verən çox böyük sayda dəyişikliklərin qismən və bəzən tam olaraq öyrənmə və öyrətmə prosesindən kənarda qalması qeyri-ənənəvi təhsilin və ya ənənəvi universitetlərin fəaliyyəti haqqında qeyri-obyektiv fikir söylənilməsinə zəmin yaradır. Dünyada baş verən inqilabi proseslərin maneəsiz, zamanında tədris prosesinə qatılmasını təmin etmək üçün vacib məsələlərdən biri təhsil müəssisələrinə, xüsusilə ali təhsil müəssisələrinə, universitetlərə maksimum muxtariyyətin verilməsi vacibdir.

Dünyada bu və ya digər sahədə baş verən inqilabi dəyişiklikləri tədris prosesinə zamanında gətirmək üçün vacib amillərdən biri də pedaqoji kadrların vaxtaşırı təkmilləşdirilməsidir. Daha doğrusu, ən vacib tətbiqi sahələr üzrə mərkəzləşdirilmiş təkmilləşmə və ixtisasartırma kurslarının yaradılması zaman-zaman baş verən yeniliklərin tədris prosesinə gətirməsini təmin edə bilər.

## Ədəbiyyat siyahısı:


1. http://ar2016.rostec.ru/digital-g20/
2. Global E-commerce Sales Surged to $29 Trillion. UNCTAD, March 29, 2019
3. https://www.mckinsey.com/~/media/McKinsey/locations/europe
4. Aforizmlər, “Azərbaycan Universiteti” nəşriyyatı, Bakı, 1997
5. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli A/RES/70/1 nömrəli Qətnaməsi
6. hppts//www.bcg.com/capabilities/digital-technology-data/overview
7. https://www.mckinsey.com/mgi/overview
8. https://unctad.org/meetings/en/SessionalDocuments/a74221_ru.pdf
9. https://www.itweek.ru/ digitalization
10. https://www.ukrinform.ru/rubric-technolog

*Ziyad Səmədzadə, akademik,*
*AMEA-nın həqiqi üzvü,*
*Milli Məclisin üzvü,*
*Azərbaycan İqtisadçılar İttifaqının sədri*

# RƏQƏMSAL İQTİSADİYYAT: DÜNƏN, BU GÜN, SABAH BARƏDƏ BƏZİ DÜŞÜNCƏLƏR

1. Müasir dünya iqtisadiyyatının inkişafında qabaqcıl texnologiyaların və innovasiyaların rolu əhəmiyyətli dərəcədə artır. 1995-ci ildə biznes və konsaltinq sahəsi üzrə Kanada mütəxəssisi Donald Tapskot dünya iqtisadiyyatında baş verən irəliləyişləri xarakterizə etmək üçün yeni termin – "rəqəmsal iqtisadiyyat" təklif etdi. Ötən illər ərzində bu termin, necə deyərlər, ildırım sürəti ilə yayıldı və onun real həyatda təsdiqi istiqamətində miqyaslı işlər görüldü. Mütəxəssislər belə hesab edirlər ki, rəqəmsal iqtisadiyyatın inkişafı qloballaşmanı sürətləndirən vacib amillərdən biridir.

**Bir tərəfdən, rəqəmsal iqtisadiyyat yeni sahələrin cəmi kimi ənənəvi anlamda dünya iqtisadiyyatının sürətlə artan hissəsidir. Digər tərəfdən, yeni texnologiyalar oturuşmuş təsərrüfat subyektlərinin bəzi fəaliyyət aspektlərinə transformasiya təsiri göstərir ki, bu da əsasən işin vergi, maliyyə mexanizmlərinin rəqəmsal mexanizmlərlə (və ya rəqəmsal elementlərə malik) əvəzlənməsinə, həmçinin sonrakı modernizasiyaya gətirib çıxarır.**

Rəqəmsal iqtisadiyyatın artımı birbaşa rəqəmsal və mobil texnologiyalarla əlaqəli bazarların inkişafı ilə bağlıdır. Bunlara aiddir: onlayn satış (e-commerce), maliyyə xidmətləri (məsələn, onlayn bankinq), sosial internet xidmətləri - sosial şəbəkələr, onlayn oyunlar, təhsil, səhiyyə - elektron dövlət xidmətləri və s. Artıq reallıq göstərir ki, biliklər istehsalı, rəqəmsal təsərrüfat fəaliyyətinin ənənəvi sahələri ilə birləşdirilməsi yeni iqtisadi güc yaradır ki, onun da qiymətləndirilməsi vacib məsələlərdən biridir. Rəqəmsal iqtisadiyyat ənənəvi sahələrə təsir göstərərək, qlobal miqyasda əhəmiyyətli dəyişikliklərlə nəticələnir.

2. 1990-cı illərdə yaşlı əhalinin internetə çıxışı çox aşağı idi, amma artıq 2020-ci ildə inkişaf etmiş ölkələrdə bu kateqoriyanın internetə çıxışı əhəmiyyətli dərəcədə artmışdır. Bu gün dünya əhalisinin yarısının internetə girişi təmin edilmişdir. Bu meylin güclənməsi prosesi davam etsə də, qeyri-bərabərlik özünü göstərir, daha az inkişaf etmiş, kasıb ölkələrdə internetə giriş əhalinin az hissəsini əhatə edir. Bu ciddi uğursuzluğun yumşaldılmasına bir çox amillər, o cümlədən kasıb ölkələrdə ödəniş haqlarının yüksək olması təsir edir. Mütəxəssislərin hesablamalarına görə, inkişaf edən ölkələrdə az inkişaf etmiş İKT infrastrukturuna görə 2015-ci ildə geniş zolaqlı mobil internet haqqı 3 dəfədən çox olmuşdur.

3. Müasir dünyada özünü göstərən meyillərdən biri də elektron ticarətin daha sürətli inkişafıdır. Bu artımın əsas hissəsi (dünya üzrə elektron ticarətin 70%-i) Çin və ABŞ-ın payına düşür.

Amma bu prosesi də birmənalı qiymətləndirmək olmaz. Bu meylin sürətli inkişafı kiçik ölkələrin qloballaşma prosesinə qoşulmasını sürətləndirməklə yanaşı,

milli iqtisadiyyata da təsirsiz qalmır.

Respublikamızda elektron ticarətin inkişafı üçün qanunvericilik bazası formalaşmış, müvafiq təşkilati tədbirlər nəzərdə tutulmuşdur ki, bunların da nəticəsində ticarət dövriyyəsinin həcmində ildən-ilə artım müşahidə edilir. Eyni zamanda, qeyd etməliyik ki, elektron ticarətin artım dinamikası, onun perspektiv inkişaf amilləri milli iqtisadiyyatın inkişaf istiqamətləri ilə əlaqələndirilməli, dərin araşdırmalara ehtiyacı olan bir məsələ olaraq daima diqqət mərkəzində olmalıdır.

Belə bir fikir də bildirilir ki, rəqəmsal iqtisadiyyat hələ 10-15 il ənənəvi iqtisadiyyatdan çox asılı olacaqdır. Ekspertlər hesab edirlər ki, texnologiyaların müasir inkişaf mərhələsində və bazarların hazırkı vəziyyətində rəqəmsal iqtisadiyyata məqsəd deyil, təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılması vasitəsi kimi baxılmalıdır.

Rəqəmsal texnologiyalar insan fəaliyyətinin bütün sahələrində istifadə edildiyinə görə onun bazar həcmini müəyyənləşdirmək və qiymətləndirmək çətindir. Problem ondadır ki, ÜDM və iqtisadi fəallığın mövcud qiymətləndirmə üsulları dəyişmiş əmək şərtlərinə və istehlak tərkibinə adekvat ola bilməz. Məsələn, internet-servislər yeni xidmətlər təklif edir, istifadəçilər bir-birinə birbaşa pul köçürür, mal və xidmətlərin geniş çeşidi alıcıya yeni logistika marşrutları ilə ötürülür. Bundan əlavə, bəzi xidmətlər birbaşa və ya bilavasitə reklam hesabına havayıdır, misal üçün elektron poçt və sosial servislər. Yeni menecerlər bir-biri ilə havayı ünsiyyət qurur ki, bu da mobil rabitə verənləri və internet-provayderləri biznes-modellərini dəyişdirməyə vadar edir.

Onlayn-televiziya və iqtisadiyyatın ÜDM-də daha böyük paya malik digər rəqəmsal sahələri sürətli inkişaf edir ki, bu da ÜDM-in həcm göstəricilərinə təsirsiz ötüşmür.

Beynəlxalq araşdırmalara görə, İKT bazarının həcmi ÜDM-in 3-6%-ni təşkil edir. Mütəxəssislər belə hesab edirlər ki, rəqəmsal texnologiyaların tətbiqi nəticəsində işçilərin, xüsusilə peşə kadrlarının sayı ÜDM-ə nisbətən daha çox artır.

ABŞ-ın beş ən böyük kapitallaşmış şirkəti texnoloji şirkətlərdir (Apple, Alphabet, Microsoft, Facebook və Amazon). Onların toplam kapitallaşması 3 trln. dollardan artıqdır. Eyni zamanda, belə fikir də səslənir ki, rəqəmsal texnologiyaların tətbiqi verilən patentlərin sayının azalması ilə müşahidə olunur, ənənəvi iş yerlərinin ixtisarı sürətlənir, məhsulun yaşam dövrü azalır.

4. Azərbaycan müstəqillik illərində özünün yeni iqtisadi sistemini qurmuş, iqtisadi müstəqilliyini və iqtisadi təhlükəsizliyi təmin etmiş rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirir. Buna misal olaraq, həmçinin rəqəmsal iqtisadi sektorun inkişafında yüksək texnologiyalara əsaslanan elektronika və nanoelektronika, kosmik peyklər və yeni informasiya texnologiyalarının tətbiqi, ixrac potensialının gücləndirilməsinə yönələn innovativ və rəqabətə davamlı məhsul və xidmətlərin istehsalının ildən-ilə artması meyillərini qeyd etmək olar. **Həmçinin, regional və beynəlxalq səviyyədə informasiya və tranzit xidmətlərinin genişləndirilməsi, müvafiq təhlükəsizlik strukturları ilə birlikdə kiber təhlükəsizliyin möhkəmləndirilməsi, eləcə də Azərbaycanın təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən yeni fiber-optik magistralın yaradılması ilə bağlı işləri də qeyd etmək istərdim.**

Azərbaycanda Data Mərkəzi qurulub. Ümumi investisiya dəyəri 60 milyon ABŞ

dolları olan Data Mərkəzdə yüksək gücə malik texnoloji hesablama, kommunikasiya və təhlükəsizlik avadanlıqları var. Məqsəd İKT sahəsində istehsalyönümlü fəaliyyəti stimullaşdırmaq, bu sahədə innovasiyaların tətbiqinə, eləcə də tətbiqi elmi tədqiqat işlərinin genişləndirilməsinə, ixracyönümlü layihələrin icrasına nail olmaq və bu sahəyə xarici investisiyaları cəlb etməkdir.

**Prezident İlham Əliyev dünyanın ən son texnologiyalarına əsaslanan Data Mərkəzinin açılmasını ölkəmiz üçün çox əlamətdar hadisə hesab edərək demişdir:**

**"Bildiyiniz kimi, blokçeyn texnologiyası bu gün dünyada çox böyük diqqətə malik olan bir sahədir. Bir çox ölkələr, şirkətlər bu texnologiyanı öz ölkələrinə gətirmək üçün çalışırlar, fəaliyyət göstərirlər. Burada da Azərbaycan ön sıralardadır. Belə böyük və müasir, bütün dünya standartlarına cavab verən Data Mərkəzinin yaradılması onu göstərir ki, biz gələcəyə baxırıq, biz ölkəmizi dünyada gedən mütərəqqi proseslərə uyğun şəkildə inkişaf etdiririk. Bu, həm elm mərkəzidir, həm sənaye müəssisəsidir və həm də böyük biznes sahəsidir".**

Mərkəzin açılması ölkəmizdə yüksək texnologiyaların tətbiqinə, informasiya texnologiyalarının inkişafına, yerli, yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə və informasiya təhlükəsizliyinin təmin edilməsinə xidmət edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə Azərbaycanda Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Data Mərkəzində "Hökumət buludu" yaradılmış və həmin Fərman ilə "Hökumət buludu" (G-cloud) Konsepsiyası" təsdiq edilmişdir.

Akademik Əli Abbasov qeyd edir ki, innovativ rəqabət qabiliyyətli və ixracyönümlü İKT potensialının formalaşdırılması, ölkənin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi, yüksək texnologiyaların geniş tətbiqi, vətəndaşların və cəmiyyətin mövcud imkanlardan, məhsul və xidmətlərdən səmərəli bəhrələnməsi üçün şərait yaradılması və onların İKT biliklərinin, bacarıqlarının və hazırlığının yüksəldilməsi, elektron xidmətlərin inkişaf etdirilməsi və dövlət idarəçiliyinin bütün səviyyələrində rəqəmsal texnologiyalardan istifadə edilməsi, həmçinin mövcud İKT infrastrukturunun və İKT istifadəçilərinin informasiya təhlükəsizliyinin təmin edilməsi, rəqəmsal fərqin aradan qaldırılması, yüksək ixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması, görülən işlərə elmi dəstək verilməsi və ölkənin qlobal informasiya məkanına sıx inteqrasiyası vacibdir. İKT-nin, o cümlədən internet iqtisadiyyatının inkişaf etdirilməsi ənənəvi iqtisadi sahələrin inkişafında da mühüm rol oynayacaqdır.[1]

"Elektron ticarət haqqında", "Elektron imza və elektron sənəd haqqında" qanunların, "www.azexport.az" internet portalı haqqında", "Lisenziyalar və icazələr" portalı haqqında", "ASAN" ödəniş sistemi haqqında" əsasnamələrin qəbulu rəqəmli iqtisadiyyatla bağlı qanunvericilik bazasını formalaşdırmışdır.

Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinin fəaliyyətinin müasir İKT-dən istifadə etməklə təkmilləşdirilməsi özəl sektorun rəqabətə davamlılığının artırılması üçün yeni inkişaf imkanları yaradır.

---

[1] Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün MİLLİ STRATEGİYA, 02 aprel 2014.

Startap hərəkatının genişləndirilməsinə və vətəndaşların innovativ ideyalarının reallaşdırılmasına dəstək məqsədilə "12B-İdeyadan Biznesə"-2019 layihəsi çərçivəsində 12 şəhər və rayonda startap turları və müsabiqələri keçirilmiş və qaliblər mükafatlandırılmışdır.

Mütəxəssislərin apardığı hesablamalar, proqnozlar göstərir ki, yaxın illərdə internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsi 2016-cı ildəki 20 faizdən 2020-ci ilə 80-100 faiz səviyyəsinə çatdırılacaq.

Nəzərdə tutulmuş kompleks tədbirlərin həyata keçirilməsi nəticəsində POS-terminallar vasitəsilə aparılan nağdsız əməliyyatların payının əhəmiyyətli dərəcədə artırılmasını, ölkədə İKT, o cümlədən genişzolaqlı şəbəkə infrastrukturunun inkişaf etdirilməsini, əhalinin təhlükəsiz, ucuz və keyfiyyətli İKT xidmətlərinə artan tələbatının, İKT sektorunda rəqabət qabiliyyətli, ixracyönlü və innovativ iqtisadi potensialın gücləndirilməsini, elm tutumlu və yüksək texnoloji məhsulların yaradılmasını və dünya bazarına çıxış imkanlarının genişləndirilməsini təmin etmək mümkün olacaqdır.

5. Hazırda respublika üzrə əhalinin hər 100 nəfərinə düşən sabit şəbəkə abunəçilərinin sayı 15-ə, hər 100 ailəyə düşən abunəçilərin sayı 62-yə, hər 100 nəfərə düşən mobil abunəçilərin sayı 105-ə bərabərdir. Əhalinin 80%-i internet, 75%-i isə genişzolaqlı internet istifadəçisidir.

Televiziya və radio yayımının təşkili və keyfiyyətinin yaxşılaşdırılması üzrə işlər davam etdirilmiş və 32 ədəd müxtəlif güclü vericinin quraşdırılaraq istismara verilməsi davam etdirilir.

İnformasiya və rabitə sektorunun 2019-cu ildə ÜDM-də payı 0,1% artaraq 2,2%, o cümlədən qeyri-neft sektorunda 3,4% təşkil etmişdir. Heç şübhəsiz ki, ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, rəqəmsal iqtisadiyyatın formalaşması istiqamətində xeyli işlərin görülməsi, dünyanın aparıcı informasiya-kommunikasiya şirkətləri ilə əməkdaşlığın daha da təkmilləşdirilməsi, İKT parklarının yaradılması iqtisadiyyatın bu mühüm sahəsinin ÜDM-də payının əhəmiyyətli dərəcədə artmasını təmin edəcəkdir.

***Cədvəl***

**Azərbaycan Respublikasında İKT-nin inkişafını xarakterizə edən əsas göstəricilər**

| İndikatorlar | 2016 | 2017 | 2018 |
|---|---|---|---|
| Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı, nəfər | 78 | 79 | 80 |
| Əhalinin hər 100 nəfərinə düşən genişzolaqlı internet istifadəçilərinin sayı, nəfər | 72 | 73 | 75 |
| Əhalinin hər 100 nəfərinə düşən kompüter istifadəçilərinin sayı, nəfər | 70,8 | 71,7 | 72,4 |
| Mobil rabitə ilə əhatə olunmuş ərazidə yaşayan əhalinin ümumi sayında xüsusi çəkisi, faizlə | 100 | 100 | 100 |

| | | | |
|---|---|---|---|
| Kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə | 63,1 | 63,8 | 64,1 |
| İnternetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə | 77,2 | 77,8 | 78,2 |
| Kompüterdən istifadə etmiş müəssisələrin ölkədə fəaliyyət göstərən bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 65,3 | 66,9 | 67,2 |
| İnternetə çıxışı olan müəssisələrin bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 51,6 | 52,5 | 52,9 |
| İnternet vasitəsilə əmtəə və xidmətlər sifariş vermiş müəssisələrin internetə çıxışı olan müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 6,2 | 6,3 | 6,3 |
| İnternet vasitəsilə sifariş qəbul etmiş müəssisələrin internetə çıxışı olan müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 5,2 | 5,3 | 5,5 |
| İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat | 1527.5 | 1662.6 | 1786.9 |
| İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə | 1,6 | 1,5 | 1,4 |
| İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat | 198,2 | 170,2 | 183,7 |
| İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi, faizlə | 2,7 | 3,7 | 4,5 |
| İKT məhsullarının idxalı, faizlə | 38,0 | 52,0 | 56,0 |

Görülmüş işlərin nəticəsidir ki, Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) qiymətləndirməsinə görə, İKT-nin inkişaf dinamikası üzrə Azərbaycan 1-ci onluqda yer almışdır. İnternetə qoşulma, genişzolaqlı çıxışa və hökumətin İKT-yə yanaşması, əlçatanlıq dərəcəsinə görə Azərbaycan son 10 ildə Mərkəzi Avropa ölkələri sırasında öncül, MDB ölkələri arasında isə 1-2-ci yerləri bölüşdürür. Üç süni peyk, iki telekommunikasiya peyki, bir yer səthinin müşahidə peyki informasiya infrastrukturunun güclənməsi və informasiya təhlükəsizliyinin təminində xüsusi rol oynayır.

Bu gün respublikada dövlət, bələdiyyə və sosial xidmətlərin verilməsi müasir standartlara cavab verən rəqəmsal platformalar üzərindən həyata keçirilir. Məsələn, E-hökumət portalı üzərindən 35 dövlət qurumu tərəfindən 400-dən çox elektron xidmətlər, ASAN platforması üzərindən E-imza, elektron və mobil identifikator, elektron vergi və gömrük xidmətləri, E-turizm, E-kommersiya və E-ticarət xidmətləri, E-ödəniş və digər bank xidmətləri çox uğurla həyata keçirilir.

Hazırda 30 mərkəzi icra hakimiyyəti, 79 yerli icra hakimiyyəti, 96 məhkəmə orqanı, 7 publik hüquqi şəxs, dövlətə məxsus 9 hüquqi şəxs və 2 özəl təşkilat olmaqla, 223 qurumun cərimə, vergi, rüsum, kommunal, lizinq, kredit, xidmət haqqı və digər istiqamətlərdə 570 xidmət üzrə ödənişləri "ASAN ödəniş" sistemi vasitəsi ilə həyata keçirilə bilər.

Respublikanın iqtisadi, elmi-texniki həyatında əlamətdar hadisələrdən biri də 2019-cu ilin 21-25 oktyabr tarixlərində ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Bey-

nəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında aparılan seçkilər zamanı Bakı şəhərinin 2022-ci ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanması olmuşdur. Qeyd edək ki, 68 ölkəni təmsil edən 398 qurumun üzv olduğu bu Federasiya kosmik sahədə fəaliyyət göstərən ən nüfuzlu beynəlxalq təşkilatdır.

Prezident İlham Əliyev "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi qəbul edərkən demişdir:

"Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının Prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etmişdim və ona öz niyyətimizi bildirmişdim ki, biz çox istəyirik, növbəti Konqres Bakıda keçirilsin. Çünki biz hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar, doğrudan da, çox təsirlidir. Gənc, müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir.

Bu mübarizədə qələbə əldə etməyimiz, əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var".

Hesab edirəm ki, 2022-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. O vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir. Bu gün isə biz müstəqillik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcəkdir".

Xatırlatmaq yerinə düşərdi ki, 1973-cü ildə Sovet İttifaqı dönəmində Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında Bakıda keçirilmişdi. Bu mühüm tədbirin Bakıda keçirilməsində respublika rəhbəri Heydər Əliyevin müstəsna rolu olmuşdu. O, Azərbaycanda yaradılmış elmi-texniki potensialı, xüsusilə də mərhum, görkəmli elm təşkilatçısı, alim, tanınmış ictimai xadim Tofiq İsmayılovun başçılığı ilə aparılan kosmik tədqiqatlar sahəsində əldə edilən nailiyyətləri əsas götürərək, İttifaq hökuməti və SSRİ Elmlər Akademiyası qarşısında bu məsələni qaldırmış və onun həllinə nail olmuşdu.

6. XXI əsr texnoloji mübarizə əsridir. Ölkəmizin kadr potensialı, texniki imkanları buna hazır olmalıdır. Ən vacib məsələlərdən biri müasir, ən yeni texnologiyaların Azərbaycana gətirilməsidir. Bu məsələdə də dövlətin, həm də biznesin dəstəyi çox vacibdir.

Bu texnoloji rəqabət mübarizəsində iqtisadi müstəqilliyimizi qorumaq taleyüklü vəzifədir. Ona görə də dövlətimizin iqtisadi və informasiya təhlükəsizliyinin təmin edilməsi kimi fundamental problemlərin elmi araşdırılması, tədris və təbliğ edilməsi işinə professional iqtisadçılar öz töhfəsini verməlidirlər.

*Musayev Akif Fərhad oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü;*
*Əsədova Səbinə Sadıx qızı,*
*dissertant,*
*AMEA Hüquq və İnsan Hüquqları İnstitutunun böyük elmi işçisi*

# KƏND TƏSƏRRÜFATININ RƏQƏMSAL TRANSFORMASİYASI: REALLIQLAR VƏ GÖZLƏNTİLƏR

**Rəqəmsal iqtisadiyyatın inkişafı**

Qloballaşmanın geniş vüsət aldığı hazırkı yüzillikdə, xüsusilə informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə bir sıra ictimai həyat təcrübələri elektron və rəqəmsal mühitlə əvəz olunmuşdur. Belə ki, İKT və şəbəkə texnologiyalarının tətbiqi nəticəsində iqtisadi əlaqələrin, iri müəssisələrdə korporativ şəbəkə və sistemlərin qurulması, lokal və qlobal şəbəkələrdən istifadə iqtisadiyyatın bir sahəsi olan rəqəmsal iqtisadiyyatın yaranmasına səbəb olmuşdur. Bunun əsasında inkişaf edən informasiya texnologiyaları özü ilə bərabər cəmiyyətə "e-kommersiya", "e-Ticarət", "e-Demokratiya", "e-İdarəetmə" və "e-hökumət" kimi anlayış və faktlar gətirmişdir.

"Rəqəmsal iqtisadiyyat" termini ilk dəfə 1995-ci ildə yaranmış və hər şeydən öncə informasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı ilə bağlı olmuşdur. 2000-ci illərin əvvəllərində bu termin tez-tez elektron kommersiyanın sinonimi kimi işlədilirdi. Lakin texnoloji və informasiya infrastrukturunun tədricən inkişaf etməsi və böyük məlumat bazalarından istifadə bütün cəmiyyətin genişmiqyaslı rəqəmsal transformasiyasına səbəb oldu. Üstəlik, əgər rəqəmsallaşmanın əvvəlki mərhələsi yüz milyonlarla istehlakçının internetə əlçatanlığının xeyli genişlənməsi ilə səciyyələnirdisə, hazırkı mərhələ isə geniş spektrli rəqəmsal servis, məhsul və sistemlərin yeni yaradılmış kiberfiziki sistemə inteqrasiyasından ibarətdir. Artıq bu gün aydın görünür ki, internet və mobil kommunikasiyaların inkişafı rəqəmsal iqtisadiyyatın əsas texnologiyalarını təşkil edir, çünki məhz onlar insanların rəqəmsal iqtisadiyyatın subyektləri olmasına imkan verir.

Dünya birliyinin inkişaf etmiş Avropa məkanı öz sənədləri səviyyəsində "rəqəmsal iqtisadiyyat" terminindən istifadə etməyə meyllidir, lakin Amerika cəmiyyəti isə IBM, Deloitte və bir sıra digər kompaniyaların timsalında daha texnoloji istilah olan "API iqtisadiyyat"a üstünlük verir [7]. "Dünya Bankının tərifinə görə, rəqəmsal iqtisadiyyat – rəqəmsal informasiya-kommunikasiya texnologiyalarından istifadəyə əsaslanan iqtisadi, sosial və mədəni münasibətlər sistemidir. Bu, çox geniş tərif olsa da, rəqəmsal iqtisadiyyatın mahiyyətini dəqiq əks etdirir. Belə ki, rəqəmsal transfermasiya ilə əlaqədar proseslər iqtisadiyyatın və sosial fəaliyyətin bütün sahələrinə, o cümlədən istehsalata, səhiyyəyə, təhsilə, maliyyə xidmətlərinə, nəqliyyata və s. təsir göstərmişdir" [5].

Online və offline sahələrinin hazırda baş verən inteqrasiyası rəqəmsal iqtisadiyyatın gələcək inkişafının perspektivlərini təsdiq edir. Bu inkişaf bir neçə fundamental amil sayəsində mümkün olmuşdur – internet şəbəkəsinə ümumi qoşulma, sensor mobil

qurğuların sürətlə yayılması və böyük məlumat bazalarının yaradılması. “Boston Counultinq Group”un (BCG) məlumatlarına əsasən, internet istifadəçiləri olan insanlardan başqa, bu gün təxminən 10 milyard maşın və mexanizm də - qurğu, ölçmə aparatı və cihazlar internet istifadəçisidir. Yaxın vaxtlarda bu rəqəmin iki dəfə artacağı gözlənilir. Ümumdünya məlumatlarının 99%-i rəqəmsallaşmışdır və 50%-dən çoxu unikal IP ünvanına malikdir. BCG-nin proqnozlarına görə, məlumatların həcmi bundan sonra hər iki ildən bir düz iki dəfə artacaqdır.

2016-cı ildə Dünya Bankı rəqəmsal iqtisadiyyatın vəziyyəti haqqında “Rəqəmsal dividendlər” adlı məruzə hazırlamışdır. Burada onun inkişafının səmərəli cəhətləri qeyd olunmuşdur. Məsələn:

- əmək məhsuldarlığının artması;
- şirkətlərin rəqabət qabiliyyətliliyinin yüksəlməsi;
- istehsal xərclərinin azalması;
- yeni iş yerlərinin yaradılması;
- insanların tələbatlarının daha tam şəkildə təmin edilməsi;
- yoxsulluğun və sosial bərabərsizliyin aradan qaldırılması.

Bu gün dünya biznesinin təxminən 12%- i internet üzərindən aparılır. Yaxın 30 ildə biznesin 80%-i internet vasitəsilə aparılacağı proqnozlaşdırılır. İstifadə olunan tərifdən asılı olaraq, rəqəmsal iqtisadiyyatın ölçüsü qlobal ÜDM-in 4.5 ilə 15.5% arasında olduğu təxmin edilir.

Rəqəmsal iqtisadiyyat özünün böyük həcmdə informasiya toplamaq, istifadə etmək və emal etmək qabiliyyətinə görə böyük sürətlə inkişaf edir. Nəzərə alsaq ki, qlobal trafik 1992-ci ildə gündə 100 Gb idisə, bu gün saniyədə 45000 Gb –dir və 2022-ci ildə 150700 Gb olması pronozlaşdırılır.

Qloballaşma şəraitində rəqəmsallaşma prosesləri Azərbaycan üçün də geniş imkanlar açır. Qədəm qoyduğumuz dördüncü sənaye inqilabı (“Sənaye 4.0”) rəqəmsallaşmanı, texnologiyaların birləşməsi və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir. Bu baxımdan Sənaye 4.0 şəraitində Azərbaycan özünün yerləşdiyi əlverişli coğrafi mövqe (regionun enerji mərkəzi, habelə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin mərkəzi), zəngin təbii sərvətləri və insan resurslarından istifadə etməklə qısa zamanda yeni sıçrayışlarla inkişaf edə və dünya üzrə İKT sahəsində yeni trendləri ölkədə tətbiq edə bilər. Rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu ölkənin dayanıqlı inkişafı üçün yeni pəncərə aça bilər. Hazırda Azərbaycan İKT sahəsinin inkişafına görə dünya üzrə 65-ci yerdə qərarlaşıb və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) “State of Broadband Report 2018” sənədinə əsasən, Azərbaycan MDB məkanında internetin əhatə olunması, yayımına görə ilk yerdədir (79%). Dünya Bankının “Doing Business 2019” hesabatında isə ölkəmiz Avropa və Mərkəzi Asiyada ən çox islahat aparan 10 ölkə sırasına düşüb və dünya üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb [9].

**Kənd təsərrüfatının rəqəmsallaşması: mövcud təcrübə və perspektivlər**

Rəqəmsallaşma Azərbaycanın kənd təsərrüfatı sektorunu da böyük çağırışlarla üz-üzə qoyur. Ənənəvi kənd təsərrüfatının “qapalı sahədə şaquli kənd təsərrüfatı” (“indoor vertical farming”) ilə əvəzlənməsi nəticəsində məhsuldarlığın artırılması, süni

yolla və hər bitkinin ehtiyacına görə tənzimlənən xüsusi işıq və kimyəvi maddələrlə, dərmanlamaya ehtiyac qalmadan sağlam tərəvəz məhsullarının istehsal edilməsi reallığa çevrilir.

İlk əvvəl onu qeyd etmək lazımdır ki, kənd təsərrüfatının rəqəmsal transfermasiyası bir sıra sistematik dəyişiklikləri ehtiva edir:

- dövlətlə münasibətlərdə, belə ki, bu transformasiyaya istehsalçılara dövlət dəstəyinin göstərilməsi, subsidiyaların verilməsi şərtlərinin, iş prosesinin sadələşdirilməsi, kredit və sığorta faizlərinin tənzimlənməsi, biznesin etibarlı, əlverişli, təhlükəsiz və səmərəli kommunikasiya sistemləri ilə təminatının təşkili hesabına nail olmaq mümkündür;

-maliyyə və sığorta sahələrində, çünki kənd təsərrüfatı istehsalının kreditləşdirilməsi və sığortalanması prosesini sadələşdirən texnologiyaların yaradılması zəruridir;

- kənd təsərrüfatı məhsullarının istehsalı vasitələrində;

- saxlama və emal infrastrukturunda;

- nəzarət, idarəetmə və kadr hazırlığı proseslərində (bu sahə üzrə ixtisaslı mütəxəssislərin azlığı kənd təsərrüfatında aşağı məhsuldarlığın ən əsas səbəblərindən biridir) [10].

Məlum olduğu kimi, kənd təsərrüfatı sahəsinin intensiv inkişafı hər bir dövlətin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən biridir. Məhdud torpaq sahələri səbəbindən istifadə olunan təbii ehtiyatların həcmini artırmaqla, sözügedən məsələnin həllinə nail olmaq mümkün deyil, məhz bu baxımdan da əsas diqqət istehsalın səmərəliliyinin artırılmasına yönəldilməlidir. İqtisadiyyatda məhsuldarlığın artmasına dövlətin bu istiqamətdə apardığı siyasətə kompleks yanaşma və iqtisadi sahələrin rəqəmsallaşdırılması yolu ilə nail olmaq mümkündür.

Beynəlxalq təcrübəyə əsaslanaraq, rəqəmsallaşmanın səmərəliliyini sübut edən bir neçə nümunəyə nəzər salaq:

- İnventarlaşdırma, əkinlərin vəziyyətini və görülən işlərin keyfiyyətini izləmək üçün pilotsuz uçuş aparatları (məsələn - Yaponiyada gecə vaxtı zərərverici həşəratlarla mübarizə aparacaq dronlar yaradılıb).

- GPS / GNSS – mexanizatorların, eləcə də tarlaların daha dəqiq işlənməsinə imkan verən antenaların işinə nəzarət üzrə izləmə sistemləri. Müvafiq kompüter proqramları ilə birlikdə GPS nəzarəti traktorların və özüyeriyən kombaynların hərəkətini optimallaşdırmağa və yanacağa qənaət etməyə imkan verir.

- Mobil devayslar - torpaq şəraitinə, hava proqnozlarına, sahə xəritələrinə, GPS naviqasiyasına uyğun olaraq məhsul istehsalı üsullarını müəyyənləşdirmək məqsədilə aqrobiznes üçün xüsusi tətbiqlər. Fermerlər üçün mobil tətbiqetmə - seeCrop. Proqram bitki xəstəliklərini, həmçinin zərərvericilərin və alaq otlarının sahələrdəki vəziyyətini dəqiq şəkildə müəyyən etməyə və lokallaşdırmağa imkan yaradır.

- Suvarma sistemləri - ərazidə lazımi miqdarda suyun səmərəli paylanması.

- "Əşyaların İnterneti" - sensorlarla və birlikdə işləmək üçün internetlə təmin olunmuş, bizim nə etdiyimizi bilən və avtomatik çalışaraq həyatımızı asanlaşdıran gündəlik cihazlardan ibarət nəhəng sistemdir. Yəni "Əşyaların İnterneti" real həyat aspektlərini (temperatur, işıq, təzyiq, insanların və ya əşyaların varlığı, yaxud yoxluğu və s.) hiss edə bilən və bu real həyat məlumatlarını emal edib ona uyğun hərəkət edə

bilən cihazlar deməkdir.

- Robototexnika. Yem paylayan robotlar, iqlimə nəzarət sistemləri heyvanların sağlamlığına və ətraf mühitin qorunmasına mühüm töhfə verməklə yanaşı, kənd təsərrüfatında işləyənlərin işini asanlaşdırırlar.

-Torpağın nəmliyini və münbitliyini, eləcə də iqlim dəyişkənliyini müəyyən edən sensorlar.

Misal olaraq qeyd edə bilərik ki, 2017-ci ilin noyabr ayından ABŞ-da iribuynuzlu heyvanların saxlanıldığı fermer təsərrüfatlarında onların sağlamlıq durumlarının məsafədən izlənilməsi məqsədilə "Əşyaların İnterneti" (İnternet of things) sistemi işə salınıb. 2018-ci ilin fevralında "Əşyaların İnterneti" sistemi tam olaraq fermer təsərrüfatlarının ixtiyarına verilmişdir. ABŞ "Əşyaların İnterneti"nin (İoT) verdiyi imkanlardan kənd təsərrüfatında istifadə etməklə, məhsuldarlığın artırılmasını strateji hədəf kimi qarşıya qoymuşdur.

Qeyd etmək lazımdır ki, hal-hazırda bir çox ölkələrdə "Əşyaların İnterneti"nin inkişafında əsas katalizatorlardan biri kənd təsərrüfatıdır. Yeni texnologiyalar istehsalın daha səmərəli olmasına kömək edir və eyni zamanda, yeni qazanc mənbəyi yaradır. Bu sistem zərərvericilərə qarşı mübarizə, suya qənaət, məhsulların saxlanması və emalına nəzarət, ərazidə kənd təsərrüfatı texnikası və işçilərin hərəkətini optimallaşdırmaq və s. məqsədlər üçün tətbiq olunur.

Bu gün dünya əhalisinin artımına paralel olaraq kənd təsərrüfatı məhsullarına olan tələbat da artmaqdadır. Bu tələbin dolğun şəkildə ödənilməsi üçün həm istehsal həcminin artırılmasına, həm də məhsulun keyfiyyətinin yüksəldilməsinə ehtiyac duyülur. Bütün istehsal sahələrində olduğu kimi, kənd təsərrüfatında da istehsal həcminin, məhsulların keyfiyyətinin və çeşidlərinin artırılması mütərəqqi texnologiyaların tətbiqi ilə bağlıdır. XX əsrin son rübü və XXI əsrin ilk onillikləri yeni texnologiya dövrü kimi qiymətləndirilə bilər. Yeni texnologiyaların tətbiqində mühüm əhəmiyyət kəsb edən rəqəmsal texnologiyalar demək olar ki, bütün istehsal sahələrinə nüfuz etmiş və müəssisələrin rəqabət qabiliyyətliliyini müəyyən edən mühüm meyara çevrilmişdir.

Kənd təsərrüfatı sahəsində rəqəmsal texnologiyalardan aktiv istifadəyə keçilməsi bir sıra qlobal problemləri həll etmək ehtiyacı ilə bağlıdır:

1.Tələb və təklif arasında uyğunsuzluq şəraitində kənd təsərrüfatı məhsullarına daim artmaqda olan tələb aclıq və ərzaq çatışmazlığının geniş yayılması probleminin daha da kəskinləşməsinə gətirib çıxarır. İstehsalçıların imkanları ekosistemin potensialı və istifadə olunan texnologiya səbəbindən məhduddur.

2.Yüksək rəqabət və spekulyativ təşkilatların aktiv fəaliyyəti fonunda yaranan beynəlxalq ərzaq bazarlarının qeyri-sabitliyi. Ticarət maneələri dövlətlərarası səviyyələrdə tətbiq edildiyindən inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrin istehsalçıları ilə rəqabət aparması çətinləşir, eyni zamanda texnologiyaların idxalından asılılıq da mənfi təsir göstərir.

3.Yeniliklərin və rəqəmsal texnologiyaların tətbiqinə qarşı sosial müqavimət aradan qaldırılmalı və yüksək ixtisaslı kadr çatışmazlığı problemi həll edilməlidir.

4.Qloballaşmaya yönəlik dünya kənd təsərrüfatı sisteminin inkişafı kiçik kənd təsərrüfatı istehsalçılarının bazardan çıxmasına səbəb olur.

5.Beynəlxalq bazarda dövriyyədə olan kənd təsərrüfatı məhsullarının struk-

turunda GMO texnologiyalarından istifadə edilməklə yetişdirilən məhsulların kütləvi istehsalı insanlar üçün zərərli olan ərzaq məhsullarının payını durmadan artır [3].

Kənd təsərrüfatını inkişaf etdirmək üçün əlverişli təbii şəraitə malik olan Azərbaycanda mövcud potensialın səmərəli istifadəsi üçün mütərəqqi texnologiyaların tətbiqi, bu sahədə kadr hazırlığının artırılması və inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə zəruridir.

Azərbaycanın kənd təsərrüfatında elektron texnologiyaların tətbiqi və rəqəmsal kənd təsərrüfatına keçid sahəsində ilk addımlar atılmaqdadır. Ümumiyyətlə kənd təsərrüfatının inkişafının intellektual sistemlərinin yaradılması yaxın illərdə Azərbaycan iqtisadiyyatında əsas vəzifələrdən biridir.

"Rəqəmsal əkinçilik" anlayışı bəzən "dəqiq əkinçilik" də adlandırılır, yəni hesablanacaq və asanlıqla idarə edilə bilən məna kəsb edir. Eyni zamanda, bu anlayışa "nöqtəvi" tərif də uyğunlaşdırılır. Bunu necə təsvir edə bilərik? Belə ki, tam formatlı layihə böyük məlumat bazalarını əlaqələndirən birləşmiş mobil tətbiqetmələr sisteminə bənzəyəcəkdir. Bir çox ölkələr bu modelə doğru irəliləyirlər - Qərb liderləri kimi, Azərbaycan və Rusiya da bu istiqaməti seçirlər.

Kənd təsərrüfatının rəqəmsallaşması ilə bağlı mövcud vəziyyətin təhlili göstərir ki, "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Prezident İlham Əliyevin 2014-cü il 16 aprel tarixli Fərmanına uyğun olaraq "Elektron kənd təsərrüfatı" informasiya sisteminin (EKTİS) 3 il müddətində mərhələlərlə yaradılması istiqamətində tədbirlərin icrası ölkədə müvafiq komponentlər üzrə icra olunaraq başa çatdırılmışdır. Kənd təsərrüfatı bitkilərinin monitorinqi, əkilmiş bitkilərin xəritələşdirilməsi və məhsuldarlığın qiymətləndirilməsi, həmçinin subsidiya ərazilərinə nəzarətin təmin edilməsi üçün "Azersky" peykinin imkanlarından istifadə edilmiş və bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyinin sifarişilə "Azərkosmos" ASC ilə müvafiq pilot lahiyə həyata keçirilmişdir. EKTİS-in tərkib hissəsi olan Subsidiya Siyasətinə dair informasiya sistemi (SSİS) işlək vəziyyətə gətirilmiş, süni mayalanmadan doğulmuş buzovlara görə subsidiyaların sistem üzərindən verilməsi təmin edilmiş, bu sistemin təkrar əkin üçün tətbiq edilməsi məqsədilə hazırlıq işləri görülmüş, o cümlədən sistemin məlumat bazasının formalaşdırılması üçün sistemdə 320 mindən çox fermer, fermerlərə aid 280 mindən çox torpaq sənədi, 220 minə yaxın iribuynuzlu heyvan (onlardan 140 minə yaxın süni yolla mayalandırılmış inək), 100 mindən çox süni mayalanmadan doğulmuş buzov, 184 nəfər toxumçu fermer qeydiyyata alınmışdır [2].

2015-ci ildən etibarən Avropa İttifaqı (Aİ) ölkələrinin tətbiq etdiyi "İnteqrasiya Olunmuş Nəzarət Sistemi"nin (IACS) prinsiplərinə əsaslanan "e-kənd təsərrüfatı" informasiya sistemi 7 altmoduldan, o cümlədən "Torpaq Sahələrinin İdentifikasiyası", "Fermer Təsərrüfatlarının Reyestri" və "Subsidiyaya Ərizələrin Qeydiyyatı və Təhlili" modullarından ibarət təşkil edilmişdir. "E-kənd təsərrüfatı" informasiya sistemi çərçivəsində müvafiq məlumat bazalarının, o cümlədən aeroşəkillər və peyk təsvirləri əsasında əldə olunan ortofoto xəritələr üzrə elektron məlumat bazalarının yaradılması və idarə olunması üçün zəruri olan informasiya-kommunikasiya texnologiyaları infrastrukturu quraşdırılmışdır. Bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyinin müvafiq struktur bölmələrinin institusional potensialı formalaşdırılaraq, yaradılmış sistemin

Xaçmaz, Quba və Göygöl rayonlarında pilot tətbiqini həyata keçirmişdir.

Beynəlxalq məsləhətçilər qrupu cəlb edilməklə, "Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sistemi"nin yaradılması üçün texniki tapşırığın hazırlanmasına başlanılmışdır [8].

"E-kənd təsərrüfatı" informasiya sisteminin tətbiqi başa çatana qədər hər il subsidiya alan istehsalçılar və onların əkin sahələri ilə bağlı məlumatlar (subsidiya alan istehsalçının fəaliyyət göstərdiyi rayon və kənd, subsidiyaya təqdim olunan əkin sahələrinin ölçüsü və əkin növləri) əsasında elektron məlumat bazası yaradılmışdır.

MDB ölkələri arasında ilk dəfə Azərbaycanda Aİ təcrübəsinə uyğun "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi" (FTMMS) qurulmuşdur. Birbaşa kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq iqtisadi göstəricilərinin toplanmasını və təhlilini nəzərdə tutan bu monitorinq sistemi aqrar siyasətin nəticələrinin fermer təsərrüfatları səviyyəsində təhlili, istehsalçıların fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, aqrar siyasətin təkmilləşdirilməsi ehtiyaclarının sistemli şəkildə müəyyənləşdirilməsi və digər məsələlər baxımından mühüm informasiya mənbəyi kimi çıxış edir. Ölkənin hər bir rayonunu və kənd təsərrüfatının bütün sahələrini əhatə edən təqribən 4 min təsərrüfatın 2014-cü və 2015-ci il üzrə göstəriciləri toplanmış və elektron məlumat bazası yaradılmışdır.

2016-cı ilin mart ayında "Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları" müəyyənləşdirilmişdir [1]. Həmin ilin dekabr ayında təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində" ölkə ərazisində bütün torpaqların elektron kadastr uçotuna alınması, ərazilərin rəqəmsal xəritələrinin hazırlanması, avtomatlaşdırılmış torpaq kadastr informasiya sisteminin, mükəmməl torpaq bankının yaradılması planlaşdırılmış, "iqliməsaslı ağıllı kənd təsərrüfatı" təşviq edilməsi nəzərdə tutulmuşdur.

Rəqəmsal kənd təsərrüfatına keçid istehsal həcminin artırılması, kənd təsərrüfatının modernləşdirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, mexanikləşdirmə səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatında avromatlaşdırma, istehsal xərclərinin azaldılması, kənd təsərrüfatında biznes proseslərinin avtomatlaşdırılması, CPS naviqasiya texnologiyalarının tətbiqi, aqroparkların fəaliyyətlərində səmərəliliyin artırılması, fermerlər və kənd təsərrüfatı müəssisələri arasında koordinasiyanın təmin edilməsi, aqrotexniki xidmətlərin fasiləsiz və keyfiyyətli həyata keçirilməsi baxımından böyük əhəmiyyət kəsb etməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən artıq aqrar sahədə subsidiyalar 2020-ci ildən etibarən fermerlərə Subsidiya İnformasiya Sistemi (SİS) vasitəsilə veriləcək. Aqrar sahədə tətbiq edilən dəstək tədbirləri ilə bağlı yeni mexanizmin formalaşdırılması bu sahədə hesabatlılığın, şəffaflığın və büdcə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi, fermerlər üçün müraciətlərin sadələşdirilməsi və elektronlaşdırılaraq asanlaşdırılması və istənilən nöqtədən əlçatanlığının təmin edilməsi məqsədini daşıyır.

2019-cu il ərzində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfin-

dən yeni mexanizmin vaxtında işə düşməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, hesabat ilində elektron hökumət www.mygov.az konsepti çərçivəsində www.eagro.az portalı vasitəsilə 448352 fermer qeydiyyatdan keçirilmiş və onlara elektron kabinet formalaşdırılmışdır. Bununla belə, 2020-ci ildən etibarən subsidiyaların elektron qaydada veriləcəyini nəzərə alaraq, Nazirlik tərəfindən yeni sistemin tətbiqi və 2019-cu ildə aparılan payızlıq əkinlərin elektron kabinetlər vasitəsilə bəyan edilməsi ilə bağlı bölgələrdə məlumatlandırma işləri aparılmışdır. Aparılmış maarifləndirmə tədbirləri nəticəsində 2019-cu ildə əkinləri bəyan edən fermerlərin sayı 343971 min nəfərə çatmışdır. Fermerlərə bitkiçilik sahəsində onlara veriləcək əkin subsidiya məbləğini hesablaya bilmələri üçün elektron kalkulyator (http://akia.gov.az /az/calc/) istifadəyə verilmişdir.

Ölkə ərazisində fitosanitar tədbirlərin səmərəliliyinin artırılması və keyfiyyətinin yaxşılaşdırılması məqsədilə "Fitosanitar portal" elektron məlumat bazası işlənib hazırlanmışdır. Hazırda portalla əlaqədar əməkdaşların maarifləndirilməsi və təlimatlandırılması işləri aparılır. 2020-ci ilin əvvəlindən məlumat və hesabatların portal üzərindən qəbulu həyata keçirilməyə başlamışdır. Bu məqsədlə fitosanitar müşahidə və mübarizə işlərində müasir texnologiyaların tətbiqi, sahə üzrə mütəxəssislərin yenidən hazırlanması məqsədi ilə mütəmadi olaraq təlimlər təşkil edilir [11] .

Azərbaycanda rəqəmsal kənd təsərrüfatına keçid kənd təsərrüfatının maddi-texniki və tədqiqat bazasının genişləndirilməsini, dövlət və özəl sektorun əməkdaşlığının gücləndirilməsini, rəqəmsal kənd təsərrüfatı sahəsində inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsini tələb edir.

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı sahəsinin rəqəmsallaşdırılması ilə məhsuldarlığı artırmaq üçün bir neçə inteqrasiya olunmuş layihələrin hazırlanması zəruridir:

-"Ağıllı kənd təsərrüfatı müəssisəsi";
- "Ağıllı ferma";
-"Ağıllı tarla" ;
- "Ağıllı istixana";
- "Ağıllı bağ".

Transformasiyalar kənd təsərrüfatının inkişafının baytarlıq seqmentinə də təsir etdi. Belə ki, Rusiyada «ВетИС» dövlət informasiya sisteminin tətbiqi ilə sənayedə vahid informasiya mühiti formalaşdı. Proqramın funksionallığı istənilən mərhələdə kənd təsərrüfatı məhsullarının hərəkətini izləməyə və baytarlıq sənədlərinin yoxlanılmasına imkan verir.

Kənd təsərrüfatı kompleksində innovativ rəqəmsal texnologiyaların populyarlaşmasında əsas problemlərdən biri yeni texnologiyaların imkanları barədə fermer təsərrüfatlarında məlumatlılığın aşağı olmasıdır. Əlavə bir maneə isə əsas fondların modernləşdirilməsi üçün lazımı vəsaitin olmamasıdır. Mütəxəssislər problemlərin həllini rəqəmsal informasiya massivlərinin optimallaşdırılmasında və bu vasitələrin səmərəli istifadəsini izləyən xüsusi xidmətlərin yaradılmasında - məsələn, torpaqların distansion zondlaşdırılması, aeroçəkilişlərin aparılması və ya dəqiq hava proqnozunun verilməsində görür.

Tədqiqatlar göstərir ki, kənd təsərrüfatı sahəsinin rəqəmsallaşması yalnız dövlət

tərəfindən bu sahəyə əlavə sərmayələrin yönəldilməsi üzərində qurularsa, o zaman sözügedən prosesdən əldə olunan səmərə tam olmayacaqdır. İnnovasiyaların tətbiqi sayəsində intellektual kooperasiyanın formalaşması və inteqrasiya proseslərinin inkişafı məqsədilə biznes, elm və təhsil müəssisələrinin qarşılıqlı əlaqəsi və bunun üçün şərait və mexanizm yaradılması vacibdir. "İntellektual kooperasiya" dedikdə, istehsal olunan hər bir məhsul vahidinin maya dəyərini azaltmaq üçün biliklərin vəhdəti ilə müşayiət olunan cəmiyyətdəki münasibətlər sistemi nəzərdə tutulur. İnnovativ inteqrasiya - əmək bölgüsü üzərində qurulmuş və yeni məhsul, yaxud xammal əldə etmək üçün bazar subyektlərinin ixtisaslaşmasına üstünlük verən münasibətlər sistemidir [4].

Kənd təsərrüfatı sahəsinin səmərəliliyinin qiymətləndirilməsində rəqəmsallaşdırmanın üstünlükləri həm biznes, həm də dövlət üçün faydalı olan hazır məhsulun keyfiyyətinə xələl gətirmədən gəlirlilik və istehsal həcminin artmasında özünü göstərir. Yerli təsərrüfatlar e-ticarət yolu ilə reklam və sifariş qəbuluna keçməyə başlayırlar, lakin belə sahibkarların payı son dərəcə aşağı olaraq qalır. Onu da qeyd etmək lazımdır ki, biznes və hökumət arasındakı əlaqələrin rəqəmsallaşmasında çətinliklər də yaranır. Məsələn, təsərrüfat subyektlərinə subsidiyaların ayrılması və ya icazələrin verilməsi üçün onların müraciətlərinin qəbul edilməsi sisteminin təkmilləşdirilməsinə xüsusi zərurət vardır. İlkin qərarvermə mövcud məlumatların təhlili əsasında və avtomatik olaraq proqram təminatı tərəfindən həyata keçirilərsə, bu cür prosedurların ənənəvi üsullarla müqayisədə daha sürətli yerinə yetirilməsinin şahidi ola bilərik. Digər tərəfdən, sistemdəki boşluq ondan ibarətdir ki, burada hansısa nasazlıq yarandıqda vaxtında qəbul olunmayan qərarın və ya hüquqazidd hökmün verilməsində kimin məsuliyyət daşıyacağı bəlli deyil [6].

Beləliklə, fiziki və hüquqi şəxslərin sorğuları da daxil olmaqla, texnoloji cəhətdən eynicinsli əməliyyatları avtomatlaşdıran bir mexanizmin hazırlanması vacibdir. Lakin eyni zamanda fors-major halları da nəzərə alınmalı və belə bir hal baş verdiyi təqdirdə bütün maraqlı tərəflərin müvafiq hərəkətlər alqoritminin yazılması da məqsədəuyğun olardı.

Son illərdə ölkəmizdə sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması məqsədilə bir çox dəstək mexanizmləri işə salınıb. Bunlara misal olaraq, Azexport.az portalının, Rəqəmsal Ticarət Qovşağının və Bir Pəncərə İxraca Dəstək Mərkəzinin fəaliyyətə başlamasını misal gətirmək olar.

Rəqəmsal Ticarət Qovşağında yer alan online Vahid İxrac Ərizəsinin istifadəyə verilməsinin səbəbi elə məhz sahibkarların ixrac üçün iş yükünü və ixrac prosedurlarının icrasında məmur sahibkar təmasını minimuma endirmək olmuşdur. Bu xidmət eyni zamanda respublikanın bölgələrində yerləşən sahibkarlar üçün icazələrin alınması prosedurunu daha da asanlaşdıracaq.

Qeyd etmək lazımdır ki, İxracda tələb olunan icazələrin, ixrac gömrük bəyannaməsinin və ixrac təşviqinin vahid elektron ərizə əsasında verilməsi Prezident İlham Əliyevin "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanında nəzərdə tutulub.

Sistemin işə salınması ixrac proseduralarının icrasında məmur sahibkar təmasını

minimuma endirəcək və sənədlərin icra müddətini bir neçə dəfə azaldacaq. Bundan əlavə respublikanın bölgələrində yerləşən sahibkarlar üçün icazələrin alınması proseduru daha rahat olacaq. Müxtəlif sertifikatların alınması zamanı xərclər minimu-ma endiriləcək bu da öz növbəsində yerli bazarlara üstünlük verən sahibkarların xarici bazarlara ixraca marağını artıracaqdır. Ümumilikdə ixrac proseslərinin sadələşdirilməsi ölkəmizin ixrac potensialının tam reallaşdırılmasına və nəticədə ticarət balansında müsbət saldonun daha da artırılmasına şərait yaradacaq.

Rəqəmsal modelin gündəlik təcrübəyə nə dərəcədə sürətli daxil olmasını sübut edən faktlardan biri də odur ki, 2019-cu ilin yanvar-mart aylarında Azexport.az portalı vasitəsilə 178.4 milyon dollar dəyərində ixrac sifarişləri qəbul edilmişdir (bu, 2018-ci ildə Azərbaycanda ümumi meyvə və tərəvəz ixracının təxminən 30% -ni təşkil edir). Əsas sifarişlərin coğrafiyasına nəzər salmaq maraqlıdır: Rusiya - 11,5%, Türkiyə - 9,9%, ABŞ - 7%, Hindistan - 6,6%, Gürcüstan - 5,3% [12].

Əmtəə istehsalı sahəsində ölkənin kənd təsərrüfatı "yeni platoya" qədəm qoydu: meyvə və tərəvəzin ixracı 11,1% artaraq 530 milyon dollar təşkil etmişdir. 2018-ci ildə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi 4,6% artmışdır (bitkiçilik- 6,8%, heyvandarlıq - 2,7%), 1.5 milyon tondan çox tərəvəz və 1 milyon tondan çox meyvə və giləmeyvə istehsal edilmişdir. Bu isə müstəqillik dövründə əldə edilmiş ən yüksək nəticə hesab edilir. 2019-cu ilin 1-ci rübünün nəticələrinə görə, meyvə və tərəvəz ixracının həcmi 28,2% artmışdır.

Aparılan tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki, Azərbaycanın kənd təsərrüfatı sahəsinin rəqəmsal iqtisadiyyata keçidini mərhələlərə bölmək olar. Birinci mərhələ demək olar ki, tamamlanmışdır. Beləliklə, Kənd Təsərrüfatı Nazirliyinin keçmiş kənd təsərrüfatı idarəsi inzibati bir quruluşdan xidmət sektoruna çevrildi. Dəstək mərkəzlərində, "bir pəncərə" prinsipinə əsasən, fermerlərə təxminən 70 növdə xidmət göstərilir. Nazirliyin nəzdində fəaliyyət göstərən dörd strukturun bazasında baytarlıq, fitosanitar xidmətlərin, habelə toxum nəzarəti və texniki nəzarət xidmətlərinin çevik və səmərəli idarə olunmasını təmin edən Aqrar Xidmətlər Agentliyi yaradıldı. Kiçik sahələrə bölünmüş torpaqların sistemləşdirilməsinin rəqəmsal xəritələri yaradılır, şoranlaşmış və əkin üçün əvvəllər yararlı olmayan torpaq sahələri yararlı hala gətirilir.

Hal-hazırda ikinci mərhələdə rəqəmsal kənd təsərrüfatı portalının digər platformalarla ("Kənddən şəhərə") inteqrasiyada tətbiqi üzərində işlər aparılır. Sistemin təqdim edilməsi ilə dövlət xidmətləri fermerlər üçün daha əlçatan olacaq, subsidiyaların verilməsində şəffaflıq və çeviklik təmin ediləcəkdir. 2020-ci ildən başlayaraq məhz bu sistem vasitəsilə subsidiyalar veriləcək. Elektron sistem fermerlərə məhsullarını bazar tələblərinə uyğun düzgün planlaşdırmağa kömək edəcək, həmçinin bazardakı məhsullara tələbat və tələbin dəqiq proqnozlaşdırılmasını asanlaşdıracaq. Bu günə qədər sistemdə 100 mindən çox fermer qeydiyyata alınıb. Bu mərhələdə elmlə daha dərin inteqrasiyanı nəzərdə tutur. Aqrar Elm və İnnovasiya Mərkəzi (Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda Azərbaycanda sağlam toxumluq kartof istehsalı üzrə milli sistemin yaradılması layihəsi) tərəvəz, bostan və kartof bitkilərinin yeni çeşid və hibridlərini yaratmağı planlaşdırır.

Kənd təsərrüfatının rəqəmsallaşdırılması mərhələlərini izah edərkən hərəkət pers-

pektivini, strateji hədəflərini təxmin etmək zəruridir. Hal-hazırda onlar bir qədər fantastik görünsələr də, lakin innovasiyaların tətbiqi tempinə görə, yaxın 10 il ərzində həyata keçirilməsi tamamilə realdır. Eyni zamanda, dəqiq əkinçilik texnologiyalarının tətbiqi nəticəsində Azərbaycanın kənd təsərrüfatı sektorunda gözlənilən məhsuldarlığın artımının 50%-dən çox olacağı proqnozlaşdırılır.

Beləliklə, rəqəmsal texnologiyaların tətbiqi sayəsində bir neçə istiqamətdə səmərəliliyə nail olunma təmin edilir:

- aqronomik: əkinlərin gübrələrə olan həqiqi ehtiyaclarını nəzərə alaraq məhsuldarlığı artırmaq;
- texniki: torpaq sahələrinin problemli ərazilərinin tez müəyyənləşdirilməsi (kənd təsərrüfatı əməliyyatlarının planlaşdırılmasının təkmilləşdirilməsi də daxil olmaqla) hesabına təsərrüfat səviyyəsində vaxtın səmərəli idarə olunması;
- ekoloji: kənd təsərrüfatı istehsalının ətraf mühitə mənfi təsirinin və torpaqların daha da şoranlaşmasının qarşısının alınması (məhsulların azot gübrəsinə olan ehtiyacının daha dəqiq qiymətləndirilməsi nəticəsində bu gübrələrin istifadəsi və yayılması məhdudlaşdırılır);
- iqtisadi: məhsuldarlığın artması və ya xərclərin azaldılması aqrobiznesin səmərəliliyini artırır.

Yuxarıda göstərilənləri ümumiləşdirərək bir daha qeyd etmək lazımdır ki, rəqəmsal texnologiyaların tətbiqi ölkənin kənd təsərrüfatı sektorunu yeni səviyyəyə qaldırmağa qadirdir. Lakin bununla belə, innovasiyaların tətbiqi mərhələli şəkildə həyata keçirilməlidir, çünki fermerləri yeni texnologiyalara hazırlamaq üçün maliyyə xərcləri və vaxt tələb olunur. Eyni zamanda, aqrar sahədə innovasiyaların və informasiya texnologiyalarının tətbiqi üzrə dövlət proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə baxmayaraq, ümumi innovasiya potensialı kifayət qədər yüksək olmadığı üçün, həmçinin bu sahələr islahatların aparılması baxımından daha "konservativ" olduğuna görə, burada köklü dəyişikliklərin edilməsi müəyyən zaman və ardıcıl fəaliyyət tələb edir. Məhz bu səbəbdən də istehsalın rəqəmsallaşdırılması məsələlərində biznesi stimullaşdırmaq məqsədilə dövlət yalnız subsidiya sistemi vasitəsilə deyil, həm də təlim proqramları, maliyyə şəraitinin optimallaşdırılması və qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müvafiq addımlar atır. Qeyd olunanları nəzərə alaraq, aşağıdakı tövsiyələri təklif edirik:

1. Kənd təsərrüfatının rəqəmsal transformasiyası prosesinə kiçik fermerlərin cəlb edilməsi məqsədilə həyat qabiliyyətli rəqəmsal qərarların qəbul olunmasını təmin edəcək davamlı biznes modellərinin yaradılması;
2. Rəqəmsal savadlılıq Azərbaycanın gələcəyi və insan kapitalının inkişaf etdirilməsi üçün əsas element olmasını nəzərə alaraq müvafiq dövlət institutlarında çalışan mütəxəssislərin geniş informasiya axını ilə işləməyi bacarmaları, analitik təhlillərin aparmaları və "deep learning" peşəkarlığına malik olmaları istiqamətində müvafiq addımların atılması daha da genişləndirilməsi;
3. Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat subyektləri kimi qeydiyyata alınması ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://www.e-qanun.az/framework/32277

2.“Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar” mövzusunda Beynəlxalq konfransın materialları. Bakı: UNEC-2020, 542 səh.

3. И. В. Ковалева. Цифровизация сельского хозяйства как стратегический элемент управления отраслью // Экономика и бизнес: теория и практика. 2019. №3-1. - с. 131-133).

4. Добрунова А. И., Дорофеев А. Ф., Поляков А. С., Ягуткина Е. С., Ягуткин С. М. Развитие субъектов аграрного бизнеса в условиях цифровизации экономики искусственного интеллекта // Московский экономический журнал. 2019. №1. - с. 305-314.)

5.Добрынин А.П., Черных К.Ю., Куприяновский В.П., Куприяновский П.В, Синягов С.А. Цифровая экономика - различные пути к эффективному применению технологий (BIM, PLM, CAD, IOT, Smart City, BIG DATA и другие) // International Journal of Open Information Technologies. 2016. №1. С.4-11

6.Дарков А.А. Гражданско-правовые аспекты регулирования применения цифровых технологий в агропромышленном комплексе // Государственная служба и кадры. 2019. №1. - с. 26-32).

7.The Power of the API Economy. Stimulate Innovation, Increase Productivity, Develop New Channels, and Reach New Markets. IBM Corp. 2014.

8.https://www.agro.gov.az/uploads/documents/1/noMd5ao2nDJwgMRCyTsPdDPPXLXZ2bwkk4DprYOl.pdf

9. http://anl.az/down/meqale/palitra/2019/sentyabr/671074.htm

10. https://static.president.az/pdf/38542.pdf

11. https://www.agro.gov.az/az/hesabatlar-1 9

12 www.azexport.az

*Novruzov Vahid Tapdıq oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri;*
*Əhmədov Qoşqar,*
*Azərbaycan Respublikasının Auditorlar Palatasının*
*“Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsi”nin rəisi, magistr*

## RƏQƏMSAL İQTİSADİYYAT ŞƏRAİTİNDƏ AUDİT

Audit zamanı innovasiyalardan istifadə olunmasında başlıca məsələ insanın kompüterlə qarşılıqlı əlaqəsində səmərəliliyin artırılması məqsədilə audit prosedurlarının ardıcıllıqla yerinə yetirildiyi auditin təşkilidir.

Audit zamanı kompüterdən istifadə olunarkən auditin metodologiyasının məqsədi və əsas elementləri qorunub saxlanır. Auditor tərəfindən kompüterdən istifadə olun-

ması həm iqtisadi subyektin əllə mühasibat uçotunu apardığı təqdirdə, həm də mühasibat uçotunda avtomatlaşdırılmış vasitələrdən istifadə edildiyi halda mümkündür.

İqtisadi subyektin mühasibat uçotunu əllə apardığı təqdirdə auditor nəzərə alınan bütün təsərrüfat əməliyyatları üzrə mühasibat məlumatları bazasının və ya mühasibat registrlərinin yekun qeydlərinin təhlil edilməsindən ötrü zəruri proqram təminatının mövcudluğu problemini həll etməlidir.

Əgər iqtisadi subyektin bütün mühasibat uçotu və ya onun ayrı-ayrı sahələri avtomatlaşdırılıbsa, bu zaman auditorun ixtiyarında olan iqtisadi subyektin uçot məlumatları bazası (onun ayrı-ayrı kompüter faylları) həmin məlumatların təhlil olunması üçün müasir informasiya texnologiyalarının səmərəli metodlarının tətbiqinə imkan verir.




İqtisadi subyektin məlumatları bazasından və ya onun ayrı-ayrı sahələrindən istifadə olunması mümkünlüyü təşkilati və texniki baxımdan subyektin məlumatlar bazasından istifadəyə razılığı göstərilməklə auditin keçirilməsinə dair müqavilə ilə təmin edilməlidir. Kompüterlər tətbiq olunmaqla həyata keçirilən audit sistemi zəruri olduğu təqdirdə öz tərkibində iqtisadi subyektin məlumatlar bazasının dəyişdirilməsini təmin edən bloka malik olmalıdır. Həmin məlumatların yenidən işlənməsi auditor tərəfindən istifadə olunan proqram təminatı vasitələri ilə mümkündür.

Təhlil aparılmasından ötrü yenidən işlənmiş və ya əldə olunmuş məlumatlar bazasının surəti təsərrüfat subyektinin bütün mühasibat registrlərini və hesabat sənədlərini tərtib etdiyi ilkin sənədlərlə eyni olmalıdır. Auditor həmin məlumatların məzmununun təhlilinə başlamazdan əvvəl belə bir uyğunluğun mövcudluğuna əmin olmalı, yaxud da özü müstəqil şəkildə həmin məlumatlar bazasının surətini çıxarmalıdır. Müvafiq yoxlamalar üçün xüsusi test sistemi tətbiq olunmalıdır.

Auditor tərəfindən auditin keçirilməsi üçün istifadə olunan normativ-sorğu məlumatları yoxlanılan dövrə uyğun olmalıdır. Auditor həm əldə olunmuş məlumatların, həm də audit prosedurları gedişində yaranan informasiyaların məxfiliyini təmin etməli, eləcə də onları üçüncü şəxslərin əlinə keçməkdən qorumalıdır.

Şirkətlərin rəqəmsallaşdırılması getdikcə daha artıq məlumatları generasiya etdi-

yindən auditor peşəsi yeni-yeni problemlərlə qarşılaşmalı olur. İri məlumatların təhlili auditorlara yüksək keyfiyyətli auditləri həyata keçirməyə və risklərin eyniləşdirilməsinə, eləcə də biznesi başa düşməyə daha çox diqqət yetirməyə kömək edir. Texnoloji platforma mərkəzləşdirmə, standartlaşdırma və avtomatlaşdırma ilə müxtəlif yerlərdə çalışan auditorların böyük qruplarını birləşdirə bilir. İri məlumatların təhlili auditin ayrılmaz tərkib hissəsinə çevrilir. Sİ auditorlara innovasiyalardan faydalanmağa, etibarlı sistemlərin və mürəkkəb strukturlu veb-texnologiyaların əsasında informasiya-kommunikasiya texnologiyaları şəbəkələrinin köməyi ilə auditləri həyata keçirməyə imkan yaradır. Auditorlar çox böyük əminliklə daha keyfiyyətli məsləhətlər verə bilirlər. Şirkətlərin idarəetmə, əməliyyat və maliyyə komandaları daha səmərəli əlavə dəyər əldə edə, həmçinin, daha dərin anlayış və yeni perspektivlərlə riskləri idarə edə bilərlər.

Auditor tərəfindən auditin həyata keçirilməsi zamanı istifadə olunan sistemin proqram vasitələri aşağıdakıları təmin etməlidir:

Ekspertin (mütəxəssisin) əsas vəzifələri auditora kompüterdən istifadə etməklə yoxlamaların həyata keçirilməsində, habelə təsərrüfat subyektinin məlumatlarının auditor tərəfindən istifadə olunan kompüterdə və proqram sistemində işlənib hazırlanmasına imkan verən formaya salınmasında kömək göstərilməsindən ibarətdir.

Mütəxəssis, həmçinin, auditora təhlilin qeyri-standart prosedurunun yerinə yetirilməsində, auditorun tətbiq etdiyi sistemlərin testləşdirilməsində, kompüterdə auditora lazım olan audit işçi sənədlərinin hazırlanmasında köməklik göstərir.

| **Auditor tərəfindən auditin həyata keçirilməsində istifadə olunan sistemin proqram vasitələri aşağıdakıları təmin etməlidir:** | | | | | |
|---|---|---|---|---|---|
| 1) Təsərrüfat subyektinin mühasibatlığında mövcud olan məlumatlar bazasının məzmununun təhlili. Əgər belə bir məlumat varsa və əlçatandırsa. | 2) İqtisadi subyektin mühasibat uçotu registrlərində mövcud olan göstəricilərin yoxlanılması. | 3)Avtomatlaşdırılmış mühasibat uçotu sistemində istifadə olunan alqoritmlərin testləşdirilməsi. | 4) Mühasibat hesabatları formalarında mövcud olan göstəricilərin mühasibatlıqda ilkin sənədlərin işlənib hazırlanması zamanı tərtib edilən mühasibat registrlərində və ya məlumatlar bazasında olan məlumatlarla uyğunluğunun yoxlanılması. | 5) Azərbaycan Respublikasında mühasibat uçotu və auditi tənzimləyən normativ və qanunvericilik aktları sahəsində axtarış-sorğu informasiya sisteminin imkanlarından istifadə olunması. | 6) Audit sənədlərinin (işçi və yekun) tərtib olunması. |

Kompüterlər tətbiq olunmaqla auditor yoxlamaları planının tərtib olunması zamanı hər bir planlaşdırma mərhələsi iqtisadi subyektin tətbiq etdiyi informasiya texnologiyalarının və KOD sisteminin audit prosesinə təsiri nəzərə alınmaqla dəqiqləşdirilməlidir. Audit prosedurlarının həcminin və xarakterinin müəyyənləşdirilməsi zamanı uçot informasiyalarının təkmilləşdirilməsi səviyyəsi nəzərə alınmalıdır.

| Kompüterlərdən istifadə etməklə auditin həyata keçirilməsi planlaşdırılan zaman aşağıdakıları nəzərə almaq lazımdır: |
|---|
| 1) Audit təşkilatında həm auditin həyata keçirilməsində, həm də kompüterlərdən istifadə olunmaqla əlaqəli audit xidmətlərinin göstərilməsində zəruri olan təminatların (informasiya, proqram, texniki) mövcudluğu |
| 2) Auditor yoxlamalarının başlanması tarixi auditora iqtisadi subyektlə razılaşdırılmış şəkildə məlumatların təqdim edilməsi tarixinə uyğun olmalıdır |
| 3) İnformasiya texnologiyaları sahəsində çalışan ekspertlərin işə cəlb olunması faktı |
| 4) Auditorun informasiya texnologiyaları sahəsində biliyi, təcrübəsi və ixtisası |
| 6) Auditin həyata keçirilməsi zamanı kompüterdən istifadə edilməsinin səmərəliliyi |

Audit proqramında kompüterdən istifadə olunmaqla hansı audit prosedurlarının yerinə yetiriləcəyinin qeyd edilməsi məqsədəuyğun olardı.




Audit təşkilatında planlaşdırma mərhələsində audit sübutlarının toplanılması və əks etdirilməsi də daxil olmaqla, auditin həyata keçirilməsi, habelə auditor hesabatının hazırlanması zamanı kompüterlərin tətbiqini tənzimləyən şirkətdaxili standartlara malik olmaq məqsədəuyğun hesab edilir.

Auditin həyata keçirilməsi, habelə aşağıda qeyd olunan bir sıra hallarda bəzi audit sübutlarının əldə olunması və onların qiymətləndirilməsi zamanı kompüterlərdən istifadə olunması sayəsində audit prosedurlarının səmərəliliyi yüksəldilə bilər:

1) Mühasibat uçotunun sahələri və əməliyyatları üzrə böyük miqdarda bir-birinə oxşayan məlumatlar yoxlamaya məruz qalır;

2) Yoxlanılan iqtisadi subyektdə mühasibat əməliyyatlarının formalaşdırılmasının vahid şəklə salınmış standart sistemindən istifadə olunur;

3) Müvafiq ilkin sənədlərin, mühasibat uçotu registrlərinin mövcudluğunu təsdiq və şərh etmək üçün məlumat-axtarış sistemi vardır və istifadə olunur;

4) Uçot məsələlərinin həllində müəyyən bir alqoritmin icrasında avtomatlaşdırılmış nəzarət sistemi vardır və istifadə edilir.

Auditin həyata keçirilməsi üçün kompüterlərdən istifadə olunması zamanı hesablaşmaların və eləcə də alternativ balansın tərtib edilməsində olduğu kimi, bu cür audit prosedurlarının aparılmasının səmərəliliyi də artır.

Maşın yönlü prosedurların tətbiq olunduğu zaman auditor yoxlamasının rəhbəri və ya onun həmin işi həvalə etdiyi şəxs xüsusi biliyə və KOD şərtləri daxilində iş qabiliyyətinə malik olan işçi heyətin, eləcə də auditlə məşğul olan digər şəxslərin işlərinə nəzarəti təmin etməlidir.

| **Kompüterlərin tətbiqi auditora aşağıdakı prosedurları həyata keçirməyə imkan verir** | | | |
|---|---|---|---|
| 1) Kompüter məlumatları bazasında hesablar üzrə əməliyyatlar və qalıqların testləşdirilməsi. | 2) Kompüter məlumatları bazasında qəbul edilmiş adi parametrlərdən kənarlaşmaların aşkarlanması məqsədilə analitik prosedurlar. | 3) Yoxlanılan iqtisadi subyektin məlumatlar bazasının testləşdirilməsi. | 4) Yoxlanılan iqtisadi subyektin informasiya, riyazi, proqram, texniki təminatının testləşdirilməsi. |

**Kompüterdən istifadə etməklə audit təşkilatının yerinə yetirdiyi nəzarət prosedurlara aşağıdakılar daxil ola bilər:**

1) bir neçə işlənmə mərhələsindən keçən yoxlama məlumatlarının ardıcıllığına nəzarət

2) ilkin məlumatlara nəzarət

3) məlumatların yoxlanılması nəticələrinin və planlaşdırılması, onların ayrı-ayrı əməliyyatlar və bütövlükdə fəaliyyət növləri üzrə nəzarət məlumatları ilə müqayisəsi

4) kompüterdən istifadə etməklə auditin keçirilməsi zamanı auditorun işinin proqram və aparat təminatı ilə təmin olunmasının və iş qabiliyyətinin müasir tələblərə uyğunluğunun təsdiqlənməsi

5) yoxlanılan iqtisadi subyektdə istifadə olunan kompüter təminatının qüvvədə olan qanunvericiliyə uyğunluğunun təsdiqlənməsi

6) yoxlanılan iqtisadi subyektdə audit keçirilən dövrdə kompüterdən istifadənin qüvvədə olan qanunvericiliyə uyğunluğunun təsdiqlənməsi

Auditorun kompüter fayllarının surətinə münasibətdə maşın yönlü prosedurları həyata keçirməsinə bir şərtlə yol verilir ki, auditor həmin sənədlərin surətlərinin həqiqətən də iqtisadi subyektin fayllarının orijinalına uyğun olması məsələsinə tam əmin olsun.

Auditor iqtisadi subyektin KOD müqaviləsinə əsasən, üçüncü şəxsdən alınmış kompüter fayllarına münasibətdə maşın yönlü prosedurları həyata keçirə bilər.

Təbiidir ki, süni intellekt (Sİ) və informasiya texnologiyaları ilə bağlı olan hər bir şey son dərəcə əhəmiyyətli hesab olunur, lakin əgər sahibkarın özü çalışdığı sahədə yeni texnologiyaları tətbiq etməyə başlamasa və yenilikləri işə salmasa, o zaman böyük şirkətlərdən çox geridə qala bilər.

Bu kimi şəraitlərdə uçotun inkişafının əsas istiqamətlərindən biri uçotun təşkili və aparılması qaydalarının sadələşdirilməsi və məsuliyyət hissinin artırılmasıdır. Bu baxımdan da uçotun və auditin tənzimlənməsi texnologiyalarının işlənib hazırlanması sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi zərurəti meydana çıxır.

Audit kontekstində rəhbərliyin maliyyə hesabatları ağıllı kontraktın mənbə kodunun ehtimal olunan biznes məntiqinə uyğunluğunun yoxlanılması üçün nəzarət vasitələrinin bərqərar edilməsinə görə cavabdehlik daşımalıdır.

Ağıllı kontraktların/blokçeynin subyektində auditi həyata keçirən auditor yəqin ki, rəhbərliyin ağıllı kontraktın kodunun üzərində nəzarətini gözdən keçirəcəkdir. Lakin bir çox şirkətlər artıq blokçeyndə işləyən digər subyektlər tərəfindən yaradılan ağıllı kontraktlardan təkrar istifadə etməyi seçə bilərlər.

Son zamanlarda, informasiya texnologiyalarının, kompüter texnologiyasının inkişafı ilə mühasibat məlumatlarının barkodlanması etibarlı və sürətli bir lazer cihazı istifadə edərək yayıldı və populyarlaşdı. Bir lazer cihazından istifadə edərkən bir səhvin görünüşü bir milyon simvola qədər azalır, bir adam 100 simvoldan ibarət səhvlərin kodlandığı məlumatı oxuduqunda 1-3 səhv tapa bilər. Xarici təcrübədə bu üsulu tətbiq edən kompüterlər üçün mühasibat proqramlarının hazır paketləri yaradıldı. Bu metod sahələrarası əhəmiyyətə malikdir, buna görə də onun altındakı tənlik bütün müəssisələr üçün ümumi xarakter daşıyır.



**Ədəbiyyat siyahısı:**


1. Alan Anderson, Denise Clayton Delahanty (2020). Innovation in audit: It's not just about technology. Article.
2. Gabriel VLĂDUŢ, Narcisa Melania TĂNASE, Mihaela CARAMIHAI, Anca Alexandra PURCĂREA (2018). Innovation Audit for business excellence. Article.
3. Helena Karlsson (2015). Innovation Auditing The Audit & The Auditor.
4. Утегенова Сарбиназ Турдымурадовна. Инновации в аудите. Журнал «Экономика и юриспруденция», № 2 (13), 2015
5. PWC (2018). Движение со скоростью инноваций (Основные инструменты и компетенции в сфере внутреннего аудита на базе технологий).
6. Саенко К.С. Инновационный Аудит В Системе Информационного Мониторинга Хозяйственной Деятельности. Журнал «Аудит и Финансовый Анализ» №6, 2009.
7. Гомельская Д.А., Еремеева Е.О., Короткова А.И. Возможности цифровизации для сбора и анализа данных о клиентах аудируемого лица. Журнал «Вестник науки и образования» № 3, 2019.



*Müslümov Səlim Yanvar oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Bakı Biznes Universitetinin "Maliyyə" kafedrasının müdiri*


## AZƏRBAYCANDA MALİYYƏ SEKTORUNUN RƏQƏMSALLAŞDIRILMASININ MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

Müasir qlobal iqtisadi məkanın qurulmasının əsas elementi kimi hazırda rəqəmsal texnologiyaların çıxış etdiyi artıq ümumi qəbul olunmuş fikirdir. Rəqəmsallaşdırma və avtomatlaşdırma iqtisadi sistemlərin bütün tərkib hissələrini, o cümlədən maliyyə sektorunu da əhatə edir. Kifayət qədər böyük həcmdə rəqəm məlumatını, süni intellekti, mobil platformaları, blokçeyni özündə birləşdirən rəqəmsal maliyyə iqtisadi problemləri həll etmək və rəqəmsal maliyyə xidmətinə olan tələbatın sabit artımını təmin etmək qabiliyyətinə malikdir. Bəzi tədqiqat qruplarının qiymətləndirmələrinə görə, təkcə süni intellekt dünya üzrə Ümumi Daxili Məhsulun həcmini 2030-cu ilə qədər 15-20 trln. ABŞ dolları qədər artıra bilər. Xüsusilə sabit və inklyüziv investisiyalara maliyyə axınlarının artırılması istiqamətində rəqəmsal maliyyənin imkanları çox böyükdür, çünki ümumi risklərin azaldılmasına və maliyyə bazarlarının potensial problemlərinin ortadan qaldırılmasına yönəldilmiş beynəlxalq əməkdaşlıqda rəqəmsal maliyyənin təsiri artıq həlledici amilə çevrilir.

Davamlı iqtisadi inkişafın maliyyələşdirilməsi üçün rəqəmsal texnologiyalardan istifadə həm xüsusi, həm də vençur kapitalı bazarının fəaliyyətinin səmərəliliyini kifayət qədər yüksəldə bilər, çünki rəqəmsal maliyyə bu bazardakı ayrı-ayrı maraqlı tərəflərin qrupları arasındakı sərhədləri götürür və yenidən, başqa bir keyfiyyətdə

müəyyənləşdirir. Başqa sözlə, əvvəl formalaşmış və mövcud vəziyyətlə müqayisədə ətalətli sayılacaq praktika öz yerini yeni, surətlə dəyişən və tərəflərin rentabelliyinin bu dəyişmələrə hazırlıq dərəcəsindən asılı olan bir sistemə verir. Bu sistemin praktiki tətbiqi maliyyə sferasının bir çox sahələrini əhatə edir: rəqəmsal bankçılıq (hesablaşma və ödəmələrin, elektron pul köçürmələri sisteminin tətbiqi); qeyri-bank sığortası (p-2-p- kreditləşmə, yəni mobil proqramlar vasitəsilə bir şəxsin vəsaitinin digər şəxsə borca verilməsi); kifayət qədər böyük məlumat bazası üzrə informasiyanın elektron emalı (bu, göstərilən xidmətlərin, xüsusilə rabitə operatorlarının xidmətinin keyfiyyətini yüksəltməyə, yeni platformalar yaratmağa, fiziki şəxslərə öz maliyyəsini səmərəli idarə etməyə imkan yaradır); kriptovalyutalar (bitkoin, ethereum və s.); kraudfandinq xidmətləri (xüsusi internet sahələrin köməyi ilə hansısa layihəyə və ya öz biznesinə vəsait cəlb etmək üsulu).

Bütün bu alətləri, adətən, 4 qrupa ayırırlar: 1) ödəmə alətləri; 2) kredit alətləri; 3) təhlil xidmətləri; 4) qeyri-mərkəzləşdirilmiş idarəetmə platformaları.

1-ci qrupa ödəmə zəmanətləri, elektron pulqabı, elektron pul və anında (dərhal) köçürmənin təmin edilməsi funksiyalarını aid etmək olar.

2-ci qrupa aid funksiyalar bunlardır: p-2-p kreditləşdirmə və xüsusi kreditləşdirmə.

3-cü qrupun funksiyaları kimi: a) müştəri bazasının təhlili; b) təşkilatın biznes-proseslərində böyük rəqəmsal məlumat bazası; c) maliyyə məsləhətləri; d) süni intellekt çıxış edir.

Nəhayət, 4-cü qrupa: tranzaksiya (əməliyyat) xərclərinin azaldılması; açıqlığın təmin olunması; yeni alətlərin yaradılması və kraudfandinq zamanı investisiya axtarışı funksiyaları xasdır.

Bu maliyyə texnologiyalarının Azərbaycan Respublikasında yayılması imkanları hazırda fərqli xarakter daşıyır.

Təbiidir ki, maliyyə texnologiyaları ilk növbədə bank sektorunda surətlə tətbiq edilməklə bankların kreditləşmə və pul tədavülünün təmin olunması kimi ənənəvi funksiyaları üzrə inhisarçı mövqelərini sarsıdır. Məhz buna görə də banklar öz fəaliyyətində optimallaşdırma aparır və bazara yeni əlavə funksional məhsullar-xidmətlər çıxarırlar (məsələn, Azərbaycan Beynəlxalq Bankı tərəfindən İBA Mobile, Kapitalbank tərəfindən Birbank, Paşabankın, Rabitəbankın çatbotları və s.). Bununla da müştəriyə xidmət asanlaşır və informasiyanın yığılması mexanizmi təkmilləşdirilir. Eyni zamanda, potensial müştərinin həm maliyyə, həm də sosial baxımdan kredit reytinqini müəyyənləşdirməyə imkan verən proqramlara da tələbat artır.

Bu gün Azərbaycanın əksər bankları tərəfindən mobil və rəqəmsal bankçılığın tətbiqi intensivləşdirilir. Hazırda onlayn kredit təminatı və mobil operatorların vasitəsilə pul köçür-mələri və müxtəlif ödənişlərin (kommunal ödənişlər, kreditin və faizinin ödənişi, vergi ödənişləri, sığorta ödənişləri və s.) təmin olunması həm hüquqi, həm də fiziki şəxs qismində müştərilərin sayının artmasında güclü rol oynayır. Bu proseslərin genişləndirilməsində Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsinə dair dövlət Proqramı"nın icrası xüsusi rol oynayır. Proqram ölkə-

mizdə rəqəmsal ödənişlərin artırılması üçün yeni maliyyə və bankçılıq məhsullarının, innovativ ödəmə həllərinin, rəqəmsal valyutaların, yeni informasiya texnologiyaları məhsullarının tətbiqini nəzərdə tutur.

Bu Proqram çərçivəsində Azərbaycan Mərkəzi Bankı tərəfindən həyata keçirilən mühüm tədbirlər sırasında qlobal elektron mühitlərdə artan kibertəhdidlərin qarşısının alınması məqsədilə ödəniş sistemləri sahəsində qabaqlayıcı elementlərin tətbiqi xüsusi qeyd olunmalıdır. "Hökümət ödəniş portalının" (HÖP) qurulması və bu portala 2019-cu ilin sonuna 13 mərkəzi icra hakimiyyəti orqanının, 4 kommunal xidmətləri müəssisəsinin, 5 stasionar və mobil rabitə operatorunun, Elektron Lisenziyalar Portalının, "Elektron Məhkəmə" Portalı üzərindən 97 məhkəmə orqanının, İcbari Sığorta Bürosu vasitəsilə 14 sığorta şirkətinin və digər orqanların (Əmanətlərin Siğortalanması Fondunun, İpoteka və Kredit Zəmanət Fondunun, Dövlət İmtahan Mərkəzinin, 2 dövlət agentliyinin, 5 ali məktəbin, Milli Sertifikat Xidmətləri Mərkəzinin inteqrasiya olunması ölkə üzrə 520-dən çox xidmət (o cümlədən 500-dən artıq dövlət xidməti) üzrə ödənişlərin "Azəripoçt" MMC, "Naxçıvanpoçt" MMC və 30 bankın 2500-ə yaxın ödəniş məntəqəsində, 1000-dən çox ödəniş terminallarında nağd formada və portalın internet resursundan, bankların elektron bankçılıq xidmətlərindən istifadə etməklə ödəniş kartları və bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilməsinə imkan yaratmışdır. Həmin il bu portal vasitəsilə icra olunan ödəniş əməliyyatlarının həcmi 2018-ci ilə nisbətən 34% artaraq 3,3 mlrd. manata çatmışdır.

2019-cu ildə ölkədə ödəniş kartlarının sayı 7,5 mln. ədəd, bankomatların sayı 2712 ədəd, POS-terminalların sayı isə 67681 ədəd olmuş, il ərzində ödəniş kartları ilə 22,3 mlrd. manat məbləğində əməliyyatlar aparılmışdır ki, bunun da 4,8 mlrd. manatını nağdsız hesablaşmalar təşkil etmişdir. Hazırda Mərkəzi Bank 24/7/365 rejimli "Ani ödənişlər sistemi"nin yaradılması, rəqəmsal identifikasiya sisteminin "Blockchain" platformasında yaradılması və ödəniş xidmətləri üzrə tarif siyasətinin optimallaşdırılması layihələrini icra edir.

Ölkəmizdə təkcə bank sektorunda deyil, maliyyə və sığorta xidmətlərinin göstərilməsi sahəsində də müasir rəqəmsal texnologiyaların tətbiqi dairəsi sürətlə genişlənməkdədir. İnternet və mobil rabitədən istifadənin artması ənənəvi maliyyə xidmətlərinin alternativ kanallarla və yeni bazar iştirakçıları tərəfindən daha aşağı xərc və yüksək sürətlə təklif edilməsi imkanlarını artırmışdır. Bütün bunlarla bərabər, fond bazarının inkişaf səviyyəsinin kifayət qədər olmaması tam funksional maliyyə bazarlarının, beynəlxalq standartlara uyğun, rəqəmsallaşdırılmış proseslərə malik maliyyə sisteminin qurulması məsələsinin həllinə mənfi təsir göstərir. Azərbaycanda səhm və istiqraz bazarının səmərəli fəaliyyət mərhələsinin təmin olunması üçün iqtisadiyyatın liberallaşmasının başlıca istiqaməti – yəni istehsal və xidmət sahələrində mövcud olan dövlət müəssisələrinin açıq səhmdar cəmiyyətlərə çevrilməsi yolu ilə özəlləşdirilməsinə ehtiyac duyulur. Məhz bu proses nəticəsində normal fond birjasının formalaşması, qeyd edilən yeni yaranacaq açıq səhmdar cəmiyyətlərin həmin birjanın listinqinə daxil olması və onların səhmlərinin alqı-satqısına xarici investorların cəlb edilməsi, bu investorların isə öz gözlənilən gəlirlərini daha düzgün qiymətləndirmək üçün rəqəmsal texnologiyalara əsaslanan aktuari xidmətlərdən istifadə etməsi baş verə bilər. Belə-

liklə, ölkəmizdə maliyyə institutlarının fəaliyyətinin rəqəmsallaşması sürəti daha çox bu prosesin zəruriliyini ortaya qoyan rəqabət mühitinin formalaşmasından asılıdır ki, bu mühitin də yaranması iqtisadiyyatın liberallaşması səviyyəsinə bağlıdır.

Bu gün bütün dünyada maliyyə xidmətlərinin göstərilməsində innovativ texnologiyaların (qısa olaraq fintеklərin) hərtərəfli tətbiqi müşahidə olunmaqdadır, çünki fintеklər yeni informasiya texnologiyalarını və maliyyə xidmətlərini, həmçinin startapları və müvafiq informasiyanı birləşdirən mürəkkəb sistem kimi kəskin rəqabət şəraitində üstünlüyü təmin edən əsas vasitəyə çevrilmişdir. Bəzi beynəlxalq auditor təşkilatlarının hesablamalarına görə, artıq fintеklər bank bazarının 30%-inə, sığorta bazarının 25%-inə yiyələniblər. Bunun da əsas səbəbləri yeni maliyyə texnologiyalarının inkişafı, onlayn kreditləşdirmənin və maliyyəlişdirmənin həcminin genişlənməsi, süni intellektin robotlaşdırılmış versiyalarının ortaya çıxması, ödəmə sistemlərində innovasiyaların artması, qabaqcıl texniki həllərin (bulud texnologiyalarının, tətbiqi proqramlaşdırmanın açıq interfeyslərinin) geniş tətbiqi, virtual valyutaların və virtual bankların meydana gəlməsi və sairədir. Təbiidir ki, bu texnologiyaların yaranması müasir nəsil insanların vaxta və pula qənaət etmək üçün xidmətləri rəqəmsal formada almaq istəyi və tələbi ilə bağlıdır.

Bu və ya digər ölkədə fintеklərin ugurlu inkişafı bu sahəyə və infrastruktura qoyulan investisiyaların həcmindən asılıdır. Bunu ABŞ-ın, Avropanın və aparıcı Asıya dövlətlərinin təcrübəsi tamamilə təsdiqləyir. Bu dövlətlər fintеklərin inkişafına iri həcmli investisiyalar cəlb edərək ( məsələn, ABŞ-da təkcə 2020-ci ilin ikinci rübündə startaplara 29,9 mlrd. ABŞ dolları cəlb edilib) bu sahədə böyük uğurlar əldə edirlər. Bu bir daha sübut edir ki, hazırda investisiyaların istiqaməti innovasiyalara doğru surətlə dəyişir və Azərbaycanda bunun nəzərə alınması məqsədəuyğun olardı.

Məsafədən bank xidməti, mobil bankçılıq, internet-bankçılıq, anında ödəmələr, uzaqdan identifikləşdirmə, elektron ticarət və maliyyə sferasında olan digər innovasiyalar qısa müddətdə nağd puldan virtual pula keçidi, demək olar ki, təmin etmişdir. Lakin digər tərəfdən, bu keçid həm də kibertəhlükəsizlik məsələlərini ortaya çıxarmışdır. Həqiqətən də fintеklərdən kifayət qədər düşünülməmiş şəkildə istifadə təhlükələrin yaranmasına səbəb ola bilər. Buna görə də fintek layihələrinin reallaşdırılması zamanı təhlükəsizliyin təmin olunmasına da kompleks şəkildə baxmaq zəruridir (həm fintek layihəsinin işlənilməsi, həm tətbiqi, həm də istismarı zamanı). Diqqət çəkən məqam budur ki, fövqəlmilli ödəmə sistemlərinin yaranması və sürətli inkişafı dövlət orqanları üçün ciddi iqtisadi təhlükəsizlik problemləri doğurur, çünki iqtisadi subyektlərin dövlət tərəfindən nəzarət olunan ödəniş sistemlərindən fövqəlmilli sistemlərə keçid imkanı ortaya çıxır.

Nəhayət, fintеklərin qanunvericilik çərçivəsində inkişafı üçün bu sahənin səmərəli dövlət tənzimlənməsi mexanizminin hazırlanması və hüquqi-normativ bazasının dəqiq formalaşdırılması kimi məsələlər də qısa müddətdə öz həllini tapmalıdır. Eyni zamanda, bu sahə üzrə əhalinin maarifləndirilməsi və ali məktəblərdə biznesin maliyyə texnologiyaları üzrə mütəxəssislərin hazırlanması vacib problemlərdəndir.

*Sakit Mamadi Yagubov,*
*D.Sc. (Econ.), Professor,*
*Vice-Rector for Science and innovations,*
*Azerbaijan State University of Economics;*
*Ali Imash Aliyev,*
*Associate Professor,*
*Azerbaijan State University of Economics,*
*Department of "Mathematics and Statistics"*

# OFFICIAL STATISTICS IN THE DIGITAL AGE: CONTEMPORARY CHALLENGES AND TRENDS

Data is the new and basic value of modern times and the 21st century. Any serious scientific research can't be carried out without big data processing. Political and economic decisions are decided based on data analysis.

The most interesting and new religion is dataism. It worships data rather than God or humans. Dataism shows that the world consists of dataflow and the value or substance of each event is determined by the contribution it receives from the data analysis [4, p. 231].

Statistics are important motive forces of the digital economy. Dataism offers to politicians, businessmen, and ordinary consumers revolutionary technologies, ample and new opportunities, it changes our world unbelievably. Economists regard the economy as a data processing system. In the economy, experts see a data collection about requirements and opportunities, and a decisions making mechanism from them, that is, they look at the economy from data processing.

Statistics are the language of the digital society. Experts consider that in 2020 nearly 50 billion mechanisms will be connected to the internet, the amount of data that they generate will reach 44 trillion GB [11]. Big data is used in the different segments of the economy. The rapid development of such technologies requires a special approach to their regulation to provide user protection. This is a favorable perspective for business in the global competitive condition.

Big data is "the fuel of the new digital economy" [11]. Technologies based on big data are used extensively for cost reduction and increase of efficiency in the world and most different areas of business.

$$lqə.m.=\frac{lq1{,}013+lq0{,}920+lq2{,}456+lq5{,}460+lq5{,}980}{5}=$$
$$\frac{0{,}01030+0{,}08318+0{,}02858+0{,}02700+0{,}09550}{5}=\frac{0{,}24456}{5}=0{,}048912=1{,}061=6{,}1\%$$

2014-2018-ci illər

$$lqə.m.=\frac{lq5{,}007+lq1{,}245+lq1{,}008+lq1{,}060+lq1{,}108}{5}=$$
$$\frac{0{,}01016+0{,}01758+0{,}01019+0{,}01148+0{,}01282}{5}=\frac{0{,}06223}{5}=0{,}012446=1{,}028=2{,}8\%$$

Hesablamalardan görünür ki, bazis illərində əmək məhsuldarlığının artım əmsalı 2010-2013-cu illərdə 1,061 və artım sürəti 6,1%, 2014-2018-ci illərdə isə müvafiq olaraq 1,028 və 2,8% olmuşdur. Yəni müqayisə edilən illərdə əmək məhsuldarlığının əmsalı və orta illik artım sürəti aşağı düşmüşdür. Bütün bunları nəzərə alaraq, gələcək-

də əmək məhsuldarlığının artım sürətinə nail olmaq üçün bazis illərində əmək məhsuldarlığına təsir edən amillərin göstəricilərinin artım sürətlərinə əsasən üç variant müəyyənləşdirmişik. Birinci variant, orta hesabla bütövlükdə bazis dövrünü, ikinci variant, orta hesabla ən yaxşı beş ilin göstəricisini əhatə edir, üçüncü variantda bu göstəricilərlə bərabər texniki tərəqqinin inkişafı nəzərə alınır. Variantlar üzrə hesablanmış göstəricilər 2-ci cədvəldə öz əksini tapmışdır.

Əsas istehsal fondlarının dinamikasının təhlili və onların baza dövründə əmək məhsuldarlığı göstəriciləri ilə əlaqəsi göstərir ki, 2014-2018-ci illərdə əsas istehsal fondlarının artım sürəti, əmək məhsuldarlığının artım sürətini xeyli qabaqlamışdır. Lakin istehsal fondlarının daim artım tempinin yüksəldilməsi heç də həmişə fond qaytarmanı tam təmin etmir. Bunu əmək məhsuldarlığına, fondla təmin olunmanın təsirinin kəmiyyət ölçüsü daha aydın göstərir. Belə ki, 2010-2013-cu illərdə orta hesabla fondla təmin olunmanın 1% artımı hesabına əmək məhsuldarlığı 1,61% artmışdırsa, bu göstərici 2014-2018-ci illərdə 0,45% təşkil etmişdir. Yəni son beş ildə fondla təmin olunmanın artım sürətinə baxmayaraq, əmək məhsuldarlığının artım sürəti, təxminən 3,6 dəfə aşağı düşmüşdür.

Kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsinin həlledici amillərindən biri əməyin enerji gücləri ilə təmin olunmasıdır. Tədqiqat göstərir ki, əmək məhsuldarlığının dinamikası ilə əməyin enerji gücləri ilə təmin olunma dinamikası arasında mühüm qanunauyğunluq vardır. Yəni əmək məhsuldarlığının artımı, əməyin enerji gücləri ilə təmin olunmasının yüksəldilməsindən xeyli asılıdır. Təəssüflər olsun ki, son illərdə onun əmək məhsuldarlığının artım sürətinə az təsir etmişdir. 2010-2013-cu illərdə orta hesabla enerji güclərinin 1% artması ilə əmək məhsuldarlığı 0,34% artmışdırsa, bu göstərici 2014-2018-ci illərdə 0,13% təşkil etmişdir.

Ümumiyyətlə hesablamalar nəticəsində müəyyən olmuşdur ki, əmək məhsuldarlığının yüksəldilməsini təmin edə bilən digər amillərin də (elektrik enerjisindən, mineral gübrələrdən, kənd təsərrüfatına yararlı torpaq sahələrindən istifadə, melxiorasiya işlərinin aparılması, elmi nailiyyətlərin tətbiqi və s.) təsir gücü çox aşağı olmuşdur.

Beləliklə əmək məhsuldarlığının yüksəldilməsinə təsir edən amillərin göstəricilərinin təhlili, nəinki bazis dövründə əmə məhsuldarlığında yaranmış bu cür səviyyənin təmayülünü göstərir, həm də gələcəkdə onun səviyyəsinin və artım sürətinin yüksəldilməsi ehtiyatlarını aşkar etməyə imkan verir. Bu baxımdan tərtib etdiyimiz variantlarda nisbət əmsallarını yuvarlaqlaşdıraraq, gələcəkdə əmək məhsuldarlığının səviyyəsinə və artım sürətinə aid hesablamalar aparmışıq. Hesablamalar aşağıdakı düstur vasitəsi ilə yerinə yetirilmişdir.

$$ƏMAS\ I, II, III = 1,2 \dots r \times AGƏ\ 1, 2 \dots r$$

Burada:

ƏMAS – uyğun dövrlər üzrə əmək məhsuldarlığının artım sürəti;

AGƏ– amillərin göstəricilərinin nisbət əmsalları;

AGAS – amillərin göstəricilərinin artım sürəti.

*Cədvəl 2.*

**Müasir vəziyyət və proqnozlaşdırma dövrləri üçün nisbət əmsalları**

| № | Göstəricilər | Müasir vəziyyət | | Amillərin göstəricilərinin artım sürəti və nisbət əmsallarının variantları | | |
|---|---|---|---|---|---|---|
| | | 2010-2013-cü illər | 2014-2018-ci illər | I Orta hesabla son 10 ildə | II Orta hesabla ən yaxşı beş ildə | III Elmi-texniki inkişafı nəzərə almaqla |
| 1. | Əmək məhsuldarlığı-nın artım sürəti, %-lə | 6,1 | 2,8 | 4,5 | 6,1 | 7,5 |
| 2. | Əsas istehsal fondlarının artım sürəti, % | 3,8 | 6,2 | 5,0 | 6,2 | 6,6 |
| | 1:2- ə nisbəti ($Ə_1$) | 6,1 | 0,45 | 0,90 | 0,98 | 1,11 |
| 3. | Enerji güclərinin artım sürəti, %-lə | 17,8 | 21,1 | 16,3 | 21,1 | 19,7 |
| | 1:3-ə nisbəti ($Ə_2$) | 0,34 | 0,13 | 0,28 | 0,29 | 0,37 |
| 4. | Elektrik enerjisinə tələbatın artım sürəti, %-lə | 11,4 | 19,7 | 15,5 | 19,7 | 18,6 |
| | 1:4 nisbəti ($Ə_3$) | 0,54 | 0,14 | 0,29 | 0,31 | 0,39 |
| 5 | Mineral gübrələrin xərclənməsinin artım sürəti, %-lə | 10,7 | 10,9 | 10,8 | 10,9 | 11,9 |
| | 1:5 nisbəti ($Ə_4$) | 0,57 | 0,26 | 0,42 | 0,56 | 0,61 |
| 6. | Meliorasiyaya xərclərin artım sürəti, %-lə | 3,3 | 8,4 | 5,8 | 8,4 | 8,2 |
| | 1:6 nisbəti ($Ə_5$) | 1,85 | 0,33 | 0,78 | 0,73 | 0,89 |
| 7. | Kənd təsərrüfatı elminə məsarifin artma sürəti,%lə | 4,6 | 2,3 | 3,4 | 4,6 | 4,8 |
| | 1:7 nisbəti ($Ə_6$) | 1,33 | 1,22 | 1,32 | 1,33 | 1,52 |
| 8. | Kənd təsərrüfatına yararlı torpaq sahəsinə məsariflərin artma sürəti, %-lə | 4,2 | 2,3 | 3,4 | 4,2 | 4,5 |
| | 1:8 nisbəti ($Ə_7$) | 1,45 | 1,22 | 1,32 | 1,45 | 1,62 |

*Cədvəl 3.*

**Proqnozlaşdırma dövrləri üçün yuvarlaşdırılmış nisbət əmsalları**

| S/N | I variant | II variant | III variant |
|---|---|---|---|
| 1. | 0,90 | 1,00 | 1,10 |
| 2. | 0,30 | 0,30 | 0,40 |
| 3. | 0,30 | 0,30 | 0,40 |
| 4. | 0,40 | 0,60 | 0,60 |
| 5. | 0,80 | 0,80 | 0,90 |
| 6. | 1,30 | 1,30 | 1,50 |
| 7. | 1,30 | 1,50 | 1,50 |

Qeyd edilən düsturda göstəriciləri yerinə qoyaraq, gələcəkdə variantlar üzrə əmək məhsuldarlığının artım sürətini rəqəmsallaşdıra bilərik.

| ƏMAS I variant | ƏMAS II variant | ƏMAS III variant |
|---|---|---|
| 0,90·5,0=4,50 | 1,00·6,2=6,20 | 1,10·6,6=7,26 |
| 0,30·16,3=4,89 | 0,30·21,1=6,33 | 0,40·19,7=7,88 |
| 0,30·15,5=4,65 | 0,30·19,7=5,91 | 0,40·18,6=7,44 |
| 0,40·10,3=4,32 | 0,60·10,9=6,54 | 0,60·11,9=7,14 |
| 0,80·5,8=4,64 | 0,80·8,4=6,72 | 0,90·8,2=7,38 |
| 1,30·3,4=4,42 | 1,30·4,6=5,68 | 1,50·4,8=7,20 |
| 1,30·3,4=4,42 | 1,50·4,2=6,30 | 1,50·4,5=6,75 |

$$\text{ƏMAS I} = \sqrt[4]{4{,}50 \cdot 4{,}89 \cdot 4{,}65 \cdot 4{,}64} = 4{,}7\%$$

$$\text{ƏMAS II} = \sqrt[4]{6{,}33 \cdot 6{,}54 \cdot 6{,}72 \cdot 6{,}30} = 6{,}4\%$$

$$\text{ƏMAS III} = \sqrt[4]{7{,}26 \cdot 7{,}88 \cdot 7{,}44 \cdot 7{,}38} = 7{,}5\%$$

Beləliklə, respublikanın kənd təsərrüfatında əmək məhsuldarlığının artım sürətini rəqəmsallaşdırıb, proqnozlaşdırmaq üçün hesablanmış parametrlərdən istifadə edilməsi daha məqsədəuyğundur.

2018-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə orta illik işçilərin sayını və onların hər birinə düşən ümumi məhsulun dəyərini müəyyənləşdirdikdən sonra, variantlar üzrə hesablanan əmək məhsuldarlığının artım sürətinin əmsallarını əsas götürərək, onun səviyyəsini rəqəmsallaşdırmaq olar.

Hesablamalardan aydın olur ki, 2018-ci ilə nisbətən 2025-ci ildə əmək məhsuldarlığının səviyyəsi 23,5%, 2030-cu ildə 63,0% və 2035-ci ildə isə 2,2 dəfə yüksələ bilər.

*Fərhadi Püstə Oruc qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Biznes Universiteti*

## KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ RƏQABƏTƏDAVAMLILIĞI ANLAYIŞI VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

"Rəqabətədavamlılığı" anlayışının izahı ilə bağlı müxtəlif fikir və mülahizələrin mövcud olduğu kimi, rəqabətqabiliyyətliliyin bütün aspektlərini əhatə etməyə imkan verən onun ölçülməsinin vahid konsepsiyası da yaradılmamışdır. Vahid yanaşmanı əldə etməyə imkan verməyən başlıca problem rəqabətədavamlılığ termininin özünün izahı zamanı yaşanan problemlə eynilik təşkil edir və rəqabətqabiliyyətlilik məfhumu tətbiq edilə biləcək subyektlərin çoxlu sayda olması və onları bir-birindən fərqləndirən cəhətlərin əhəmiyyətli dərəcədə olmasıdır. Bu səbəbdən iqtisadi ədəbiyyatlarda rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi məqsədilə istifadə olunan çoxlu sayda fərqli yanaşmalara rast gəlmək mümkündür. Onlar adı çəkilən məfhumun özünün mahiyyətinin müəyyənləşdirilməsi vəziyyətində olduğu kimi konkret hallarda istifadəsi mümkün olan metodiklərdən başlamış universal kimi tətbiq edilməyə iddia edilən metodiklərə qədər geniş bir diapazonda dəyişir.

Rəqabətqabiliyyətliliyin hal-hazırda tətbiq edilən qiymətləndirilmə metodiklərin kifayət qədər müfəssəl icmalı K.Borodin tərəfindən təqdim olunur. Alim həmçinin rəqabətqabiliyyətliliyin universal tərifinin verilməsində ciddi çətinlikləri olduğunu da qeyd edir ki, həmin çətinliklər rəqabətqabiliyyətliliyin ölçülməsi nəzərdə tutulan tədqiqatın səviyyəsinin spesifikasiyası ilə bağlıdır. K.Borodinin mülahizələrinə görə, rəqabətqabiliyyətlilik anlayışının müəyyənləşdirilməsində müşahidə olunan gözə çarpan ziddiyyətlərin digər səbəbi isə həyata keçirilən tədqiqat işlərinin metodologiyalarında mövcud olan fərqlərlə bağlıdır.

Məlumdur ki, aqrar sahənin spesifik təbii iqlim xüsusiyyətlərinə malik olması başqa sahələrə nisbətən az gəlirliyi, əhalinin yoxsul hissəsinin əsasən kəndin payına düşməsi maliyyə imkanlarının azlığı və s. amillər bu sferada səmərəli nəticələr əldə etmək imkanlarını xeyli çətinləşdirir. Bu kimi obyektiv və subyektiv amillərin təsiri nəticəsində aqrar sahədə kəmiyyət və keyfiyyət dəyişikliklərini istiqamətləndirmək və ölkənin iqtisadiyyatında ərzaq təhlükəsizliyini təmin etmək üçün qarşıya qoyulan vəzifələrin miqyası və aktuallığı daha kəskin xarakter alır.

Hazırki dövrün xarakterik xüsusiyyəti onunla ifadə edilir ki, vahid dünya təsərrüfatı sisteminin formalaşması prosesi yaşanır. Bu prosesin idarəediciləri müxtəlif istiqamətli ixtisaslaşdırılmış beynəlxalq təşkilatlardır. Bu təşkilatlar bütün ölkələrin təbii, iqtisadi, texniki, texnoloji və s. potensialından səmərəli istifadə edilməsinə əsaslanır. Ölkələr üçün iqtisadi münasibətlər sistemi vahid standartlar və qaydalarla tənzimlənir. Belə ki, BMT-ə üzv olan ölkələr üçün 2020-ci ilədək müddətə icrası mühüm sayılan aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- İfrat dərəcədə yoxsulluğun və aclığın aradan qaldırılması;
- ümumi ibtidai təhsilə nail olunması;
- gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək;
- ətraf mühitin mühafizəsini təmin etmək və s.

Bu qlobal vəzifələrin əsası əhalinin yoxsulluğunun azaldılması və tədricən ləğvi, ərzaq təhlükəsizliyinin təmin edilməsi hesab edilir. Ərzaq təhlükəsizliyinin qiymətləndirilməsində gün ərzində istehlak edilmiş ərzaq məhsullarının kaloriliyi onlardakı zülalların, yağların və karbohidratların miqdarı ümumi göstəricilər hesab edilir. Bu amillər insanın fiziki gücünü, normal fəaliyyətini və həyat tərzini formalaşdırır. Müasir dövrdə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin iki amilinə daha çox diqqət yönəldilir:

1) Ərzaq bazarında məhsulların mövcudluğu
2) Onların əldə edilməsi üçün maliyyə imkanlarının olması.

Bu amillərdən biri çatışmırsa ərzaq təhlükəsizliyi təmin edilmir. Bazarda ərzaq məhsulları mövcuddursa, lakin onu ala bilmək imkanı yoxdursa, ərzaq təminatı həll edilməmiş hesab edilir. Dünyada ərzaq təhlükəsizliyi problemi həmişə alimlərin, beynəlxalq təşkilatların, dövlətlərin diqqət mərkəzində olmuş, təhlillər və araşdırmalar aparmışlar. 1968-ci ildə "Ümumdünya sisteminin inkişafını modelləşdirən və proqnozlaşdıran "Roma klubu" Beynəlxalq təşkilat yaradılmışdır. Bu təşkilat "artım həddi" barədə 1972-ci ildə geniş müzakirələr aparmış, 130 il üçün (2100-cü ilədək) cəmiyyətin inkişaf meylini proqnozlaşdırmışlar. Alimlər aşağıdakı problemlərin kəskinləşməsi meylini göstərmişlər və həmin amillərin nəzərə alınmasını zəruri hesab edirlər:

1. Sürətlə sənayeləşmə;
2. Əhalinin sürətlə artımını;
3. Ərzaq çatışmazlığının geniş yayılmasını;
4. Təbii ehtiyatların tükənməsini;
5. Məskunlaşma mühitinin pisləşməsini.

Bu ölkələrdə milli təhlükəsizlik istiqamətində aparılan daxili və xarici siyasətin yeni prizmadan baxılmasına məsuliyyəti xeyli artmışdır. Ərzaq təhlükəsizliyi ilə əlaqədar mühüm tədbirlərdən biri 1992-ci ildə keçirilmişdir. Dünyanın 1600-dən çox alimi beynəlxalq tədbirdə aşağıdakı problemlərə diqqəti artırmağı tövsiyyə etmişlər:

1) Torpaqdan istifadə, taxıl əkini sahələrinin azalması;
2) İçməli su qıtlığı və ondan istifadə problemi;
3) Ətraf mühitin çirklənməsi prosesi;
4) Heyvanların saxlanması problemi;
5) Məhsuldarlıq səviyyəsinin aşağı olması və s. qeyd etmək olar.

Göstərilən problemlər, təhlükəsizlik tədbirləri görməyi tələb edir. Çünki, bu problemlər ərzaq təminatını gələcəkdə təhlükə altına alır. Aqrar-sənaye bazarının spesifik xarakteri, ilk növbədə, bundan ibarətdir ki, həmin bazar ərzaq məhsulları ilə ticarət edilməsini həyata keçirir, bu məhsulların insan tərəfindən istehlakı isə təxirə salına bilməz. Bununla yanaşı, istehlak müəyyən fizioloji tələbatlarla məhdudlaşdırılır ki, bu da lokal bazarda tələbin yuxarı hüdudunu müəyyən dərəcədə təyin etmiş olur.

Kənd təsərrüfatı istehsalı bioloji proseslərlə bağlıdır ki, bu da bazar qiymətlərində baş verən dəyişikliklərə kifayət qədər tez bir surətdə reaksiya vermək və istehsal həcmini dəyişmək imkanlarının məhdudluğunu şərtləndirir. Bu zaman ayrı-ayrı sahələr istehsal tsiklinin sürətliliyindən asılı olaraq bu riskə müxtəlif dərəcədə meyilli olur. Xüsusi şərtlərin zəruriliyini və məhsulun məhdud saxlama müddətinə malik olmasını mütləq şəkildə nəzərə almaq lazımdır. Aqrar bazarda rəqabətin özünü büruzə vermə xüsusiyyətini ayrı-ayrı ölkələrə uyğun bir şəkildə təyin edən amillər mövcuddur. Təbii - iqlim amili ölkə ərazisinin nəhəng sahəsi, ayrı-ayrı regionlarda torpaq və iqlim uyğunluqlarının müxtəlifliyi ilə tamamlanır ki, bu da kənd təsərrüfatı istehsalının ixtisaslaşmasını və yerləşdirilməsini müəyyən edir, istehsal olunan məhsulun keyfiyyətinə təsir göstərir.

Müəyyən təbii - iqlim zonalarında istehsalın bölüşdürülməsi məhsulun iri həcminin məkan yerdəyişməsini müəyyənləşdirir ki, bu da onun dəyərində nəqliyyatın payına düşən tərkib hissəsini artırmış olur. Nəqliyyat strukturlarının inhisarçılığı bir o qədər də əlverişli və münasib regionlarda istehsalın artımına gətirib çıxardır və ümumilikdə ölkə üzrə kənd təsərrüfatı məhsulunun rəqabətqabiliyyətliliyin aşağı düşməsinə səbəb olur. Kənd təsərrüfatı, bir qayda olaraq, iqtisadiyyatın digər sahələri ilə müqayisədə bir o qədər də inkişaf etməmiş nəqliyyat və bazar infrastrukturuna malik rayonlarda yerləşir ki bu da həmin rayonun investisiya cəlbediciliyinə mənfi təsir göstərir. Kənd təsərrüfatının hətta bir regionun hüdudları daxilində yerləşən ayrı-ayrı altsahələrin müxtəlif iqtisadi effektivliyi bəzi sahələrdə istehsalın artırılması hesabına digərlərin sıxışdırılaraq aradan çıxarılmasına gətirib çıxardır ki, bu da əkin dövrlərinin aparılmasına, əkin sahələrinin hədsiz dərəcədə yüklənməsinə, habelə məhsuldarlığın və potensialın sonrakı azalmasına mənfi təsir göstərə bilər.

Aqrar sənaye kompleksinə daxil olan idarə və müəssisələr kənd təsərrüfatı sahələri ilə qarşılıqlı istehsal və iqtisadi əlaqələrinə malikdirlər və onların fəaliyyətləri əsasən kənd təsərrüfatının bilavasitə tələbatına uyğun qurulur və inkişaf etdirilir. Kənd təsərrüfatı inkişaf etdikcə, məhsul istehsalı artdıqca və keyfiyyəti yaxşılaşdıqca kənd təsərrüfatına xidmət göstərən aqrokimyəvi, texniki, təmir, nəqliyyat, tikinti sahələrinin, habelə tədarük, emal və satış müəssisələrinin fəaliyyəti də artır, onların səmərəliliyi yüksəlir. Deməli, kənd təsərrüfatının inkişafı ASK-yə daxil olan müəssisə və təşkilatın səmərəli fəaliyyətinə tam təminat verir. Həmin müəssisə və təşkilatların faydalı və məqsədyönlü işləməsi isə öz növbəsində kənd təsərrüfatının inkişafında həlledici əhəmiyyətə malikdir. ASK-də müxtəlif istiqamətdə fəaliyyət göstərən, lakin vəhdət

halında kompleks daxil olan sahələr əsasən 3 sahəyə ayrılır. Onların arasındakı istehsal və sosial xarakterli xidmət sahələri isə infrastruktura adlanır.

**I sahə- istehsal vasitələri istehsal edən müəssisələr.** Bu sahəyə kənd təsərrüfatı, yeyinti və yüngül sənaye sahələri, habelə tədarük sistemini istehsal vasitələri ilə təmin edən sənaye sahələrinin məcmu daxildir. Birinci sahəyə daxil olan sahələrin istehsal etdikləri vasitələr ASK-nin inkişaf etdirilməsində xüsusi əhəmiyyətə malikdir.

**II sahə-kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələr.** Bu sahəyə kənd təsərrüfatı xammalı istehsal edən kəndli fermer təsərrüfatları, kiçik müəssisələr, istehsal kooperativləri, assosiasiyalar, kollektiv təsərrüfatlar, sənaye müəssisələrinin yardımçı təsərrüfatları və s daxildir. ASK-nın ikinci sahəsi respublikada üstün inkişafa malikdir.

**III sahə-kənd təsərrüfatı məhsullarını emal edən müəssisələr.** Bu sahəyə kənd təsərrüfatı xammalını ilkin və son emal edən və hazır məhsula çevirən emal müəssisə və təşkilatları daxildir. Azərbaycan Respublikasında ASK-nin digər sahələrinə nisbətən III sahə yaxşı inkişafa və geniş imkanlara malikdir. Belə ki, respublikada kənd təsərrüfatı xammalı istehsalının ixtisaslaşması nəzərə alınaraq emal müəssisələri regionlar üzrə yerləşdirilmiş, onların istehsal gücü, infrastrukturu və s.xammal ehtiyatına uyğunlaşdırılmışdır.

*Sxem 1.*

**İstehsal xərclərinin strukturu**



Hazırda tərəvəz, meyvə emal edən müəssisələr əsasən Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında; üzüm emal edən təşkilatlar Şirvan, Gəncə-Qazax; tütün emalı edən Şəki-Zaqatala; pambıq isə Şirvan Muğan–Salyan və Mil-Qarabağ zonalarında inkişafa malikdirlər. Ət-süd emalı isə onları ən çox istehlak edən yerlərdə Bakı, Gəncə və Sumqayıtda cəmləşdirilir. Əlbəttə bunlar düzgündür və belə də olmalıdır.

Bazar münasibətləri inkişaf etdikcə, məhsul istehsalı artdıqca emal müəssisələrinin gücü çoxaldılmalı və onlar düzgün yerləşdirilməlidirlər. Aqrar sferada rəqabətin təzahürünün digər spesifikası aqrar-sənaye kompleksinin sahələri strukturunda kənd təsərrüfatının mövqeyindən ibarətdir. Nisbətən kiçik kənd təsərrüfatı istehsalçıların böyük miqdarı aqrar-sənaye kompleksinin birinci və üçüncü sferaların sənaye müəssisələri ilə qarşılıqlı münasibət qurmaq məcburiyyətində qalırlar. Bundan əlavə, yerli iqtisadiyyat yanacaq-energetika resursları bazarının yüksək inhisarlaşması ilə xarakterizə olunur ki, bu da həmçinin kənd təsərrüfatı sferasında fəaliyyət göstərən istehsalçıların rəqabətli mövqelərinə mənfi təsir göstərir.

Beləliklə, Azərbaycan təcrübəsində kənd təsərrüfatı məhsulu bazarında mövcud olan rəqabət mükəmməllikdən uzaqdır və yeyinti sənayesi sferasında yüksək təmərküzü ilə bir tərəfdən, digər tərəfdən isə təmin edici sahələrin oliqopolistik və inhisar xarakterli bazarları ilə müəyyən olunur. Bundan əlavə, kənd təsərrüfatı məhsulunun istehsalı bioloji proseslərlə əlaqədardır ki, bu da sahənin bazar çevikliyini aşağı salır, təbii-iqlim şəraitinin təsiri və məkan yerləşdirilməsi isə milli iqtisadiyyatın digər sahələri ilə müqayisədə həmin sahəni daha da riskli edir.

Bunun nəticəsində aqrar ərzaq bazarı rəqabət qüvvələrinin kor-təbii təsiri əsasında tam özünü tənzimləyən bazar qismində çıxış edə bilməz və dövlət tərəfindən müvafiq müdaxilələrin həyata keçirilməsini tələb edir. Bununla yanaşı, kənd təsərrüfatı tərəfindən istehsal olunan məhsulun strateji xarakteri əhali üçün ərzaq məhsullarının iqtisadi əlçatanlığının təmin olunması ilə onun istehsalçıları üçün münasib gəlirliliyi arasında dövləti kompromiss axtarmağa vadar edir. Bazar münasibətlərin inkişafı istehsalçılar tərəfindən istehsal amilləri və maksimum gəlirin əldə edilməsi məqsədilə öz məhsulunun satış bazarları uğrunda aparılan mübarizə ilə qırılmaz surətdə bağlıdır. Və əgər "rəqabət" anlayışı kifayət qədər aydın olsa da, "rəqabətqabiliyyətliliyin" öyrənilməsinin iqtisadi məzmunu və üsulları mübahisə və müzakirə predmeti qalmaqda davam edir.

İnkişaf etmiş ölkələrin böyük əksəriyyəti öz iqtisadiyyatının rəqabətqabiliyyətliliyin hansı vəziyyətdə olmasının təhlili və onun yüksəldilməsi yollarının axtarışı məqsədilə xüsusi komissiyalar və işçi qrupları yaratmışlar. Bu istiqamətdə atılan addımların birinciliyi Amerika Birləşmiş Ştatlarına məxsusdur. ABŞ 1985-ci ildə ölkə Prezidentinin yanında rəqabətqabiliyyətlilik məsələləri üzrə Komissiya yaratmış, daha sonra isə 1986-cı ildə Rəqabətqabiliyyətlilik siyasəti üzrə şura formalaşdırmışdır ki, bu da məhz sözü gedən istiqamətdə əməli tədbirlərin həyata keçirilməsilə bağlıdır. Birləşmiş Ştatlardan sonra digər ölkələr də hərəkətə keçmişdilər. 2001-ci ildə Avropa İttifaqına daxil olan üzv-ölkələr Lissabon Deklarasiyasını qəbul etmişdilər. Həmin deklarasiyanın əsas və başlıca məqsədi belə müəyyənləşdirilmişdir ki, "2010-cu ilə qədər Avropa İttifaqı dünyada ən rəqabətqabiliyyətli və iqtisadiyyatla bağlı dərin və hərtərəfli biliklərə əsaslanan, mümkün qədər daha çox və daha yüksək keyfiyyətli iş

yerlərinin yaradılması şəraitində dayanıqlı iqtisadi artımı reallaşdırmaq iqtidarında olan, eləcə də sosial vəhdətin daha yüksək dərəcəsinə malik iqtisadiyyata çevrilməlidir.

Həmin strukturun yaradılmasının əsas məqsədi icra hakimiyyəti orqanlarının, sahibkarlar cəmiyyətinin və elmi ictimaiyyətin praktiki qarşılıqlı fəaliyyətin təmin edilməsindən ibarət olmuşdur ki, burada əsas hədəf qismində iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və sahibkarlığın inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərmək iqtidarında olan effektiv mexanizmlərin yaradılması ilə bağlı təkliflərin işlənib hazırlanması çıxış edirdi.

Məsələnin hamı tərəfindən qəbul edilməsinə baxmayaraq, rəqabətdavamlılıq konsepsiyası tam dəqiq və dəqiq müəyyənləşdirilmiş kimi bu vaxta qədər hələ də görünmür. O, müxtəlif formalarda istifadə olunur və onun bir çox izah və şərhləri mövcuddur. Müxtəlif beynəlxalq təşkilatların və hökumət strukturlarının fikirləri nöqteyi-nəzərdən rəqabətdavamlılıq aşağıdakı kimi müəyyənləşdirilir: Beynəlxalq bazarlarda mövcud tələblərə müvafiq olaraq əmtəə və xidmətləri istehsal etmək və eyni zamanda, vətəndaşlar üçün yüksək həyat səviyyəsini və onun uzunmüddətli perspektivdə qorunub saxlanılması imkanını təmin etmək vacib və məqsədəuyğundur.

Müəssisənin rəqabətqabiliyyətliliyindən sahənin, regionun və daha sonra da ölkənin rəqabətqabiliyyətliliyinə qədər yüksəlməklə, rəqabətdavamlılıq məfhumu təkcə bazarın payını, resurslardan istifadə effektivliyini və tədqiqat obyektinin maliyyə müvəffəqiyyətliliyini deyil, həm də ümumilikdə cəmiyyətin rifah halını xarakterizə edən meyarların get-gedə daha böyük kəmiyyətini əhatə etməyə başlayır.

*Sxem 2.*

**Rəqabətqabiliyyətlilik obyektləri ilə məhsulun rəqabətqabiliyyətliliyinə təsir göstərən amillərin qarşılıqlı bağlılıq sxemi**




Bu zaman rəqabətqabiliyyətlilik obyektləri ikitərəfli təsirə malikdir. Rəqabətqabiliyyətli məhsulun istehsalı müəssisələrin və öz növbəsində, həm də sahələrin, regionların rəqabətqabiliyyətliliyin yüksəlməsinə gətirib çıxardır.

Bununla birgə, makroiqtisadi mühit təsərrüfat fəaliyyətilə məşğul olan bütün

subyektlərin rəqabətqabiliyyətliliyinə təsir göstərir.

Beləliklə biz belə düşünürük ki, rəqabətdavamlılığın tərifini bir qədər dar mənada, konkret tədqiqat obyektinə müvafiq vermək daha məqsədəuyğundur. Rəqabətdavamlılıq anlayışının baza tərkib hissəsinin məfhumu qismində resursların istifadə effektivliyi çıxış edir və o, bazar iqtisadiyyatı, eləcə də rəqabət şəraitində liderliyə yiyələnməsinə təminat verir.

**Ədəbiyyat siyahısı:**

1.Ə.H.Hacıyev Aqrar sənaye kompleksinin iqtisadiyyatı Bakı-2006 səh.75-80.

2.Осипов А.Н. Повышение конкурентоспособности зернового производства России (теория, методология, практика). - Автореферат диссертации д.э.н. - М. - 2008.

3. (Климова Н.В. Повышение конкурентоспособности молока и молочной продукции (теория, методология, практика). - Автореферат диссертации д.э.н. - М. - 2004.);

4.İslam İbrahimov Aqrar sahənin iqtisadiyyatı. Bakı -2016 səh.167-170

5.Бородин К.Г. Конкурентоспособность в рыночной экономике. – М.: ТЕИС, 2005. – 125 с.

*Əliyev Nazim Kazım oğlu,*
*hüquq elmləri doktoru;*
*Mədətova Şahzadə Qafar qızı, doktorant,*
*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi*

## AZƏRBAYCAN RESPUBLİKASINDA MALİYYƏ NƏZARƏTİNİN BƏZİ NƏTİCƏLƏRİ: VERGİ DAXİLOLMALARI KONTEKSTİNDƏ

Müasir şəraitdə dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsi kifayət qədər mürəkkəb məsələlərdən sayılır və ona olan münasibət birmənalı deyildir. Bu qiymətləndirmə həm dövlət maliyyə nəzarətinin müxtəlif tədbirlərinin, həm də dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətlərinin keyfiyyət parametrlərini nəzərdən keçirməyə imkan yaradır. Əksər hallarda dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin səmərəliliyi aşkar olunmuş pozuntuların miqyası, bərpa olunmuş vəsaitlərin, həmçinin tətbiq olunmuş cərimə və sanksiyaların həcmi ilə ölçülür. Fikrimizcə, dövlət maliyyə nəzarətinin səmərəliliyinin qiymətləndirilməsinə vahid yanaşmanın formalaşdırılması zəruridir. İstənilən fəaliyyətin, o cümlədən nəzarət fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi metodikasının hazırlanması isə olduqca mürəkkəb məsələlərdən biri sayılır.

Ümumi qəbul olunmuş fikrə əsasən, səmərəli nəzarət müasir nəzarət texnologiyaları əsasında gerçəkləşdirilən real, nəticəli, resurslara qənaət edən nəzarətdir. Səmərəlilik nəzarət fəaliyyətinin qiymətləndirilməsinin əsas meyarı və məqsədidir (1; 2; 3; 4). Bu baxımdan hesab etmək olar ki, nəzarətin səmərəliliyi – nəzarət orqanının

əldə etdiyi nəticələrin və onun məqsədinin, bu məqsədə çatmaq üçün sərf olunan zaman, vasitə və resurslara nisbətidir.

S.A.Salixov bu fikri inkişaf etdirərək qeyd etmişdir ki, nəzarətin səmərəliliyi onun nəticələrinin nəzarətin keçirilməsinə çəkilən xərclərə nisbəti ilə müəyyən edilir. Səmərəliliyin artırılması üçün xərclərin azaldılması lazımdır (5). Lakin təcrübə göstərir ki, xərclərin azaldılması heç də həmişə səmərəliliyin artmasına gətirib çıxarmır. Buna görə də xərcləri nəzarətin operativliyə və keyfiyyətə təsir etməyəcək səviyyədə tənzimləmək lazımdır.

*Cədvəl 1.*

**Maliyyə nəzarəti orqanının fəaliyyətinin qiymətləndirilməsi üzrə meyarlar**

| Kriteriyalar | Müəyyən olunma Formula | Qeyd |
|---|---|---|
| Məhsuldarlıq | Mm = MPm / BVm | burada, Mm - məhsuldarlıq kriteriyası; MPm - müəyyən edilmiş pozuntuların məbləği; BVm - büdcə vəsaitlərinin məbləği |
| Büdcə vəsaitlərinin məqsədsiz istifadə olunması | BVmi = Pm / P | burada, Pm-büdcə vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi ilə bağlı pozuntuların məbləği; P - pozuntuların ümumi məbləği |
| Büdcə vəsait-lərinin qeyri-sə-mərəli istifadəsi | BVqs == Pm / P | burada, Pm-büdcə vəsaitlərinin qeyri- səmərəli istifadəsi üzrə pozuntuların məbləği; P - pozuntuların ümumi məbləği |
| Təsirlilik | Tm = q / Q | burada, q – nəzarətin yekunları üzrə icra edilmiş qərar və göstərişlər; Q – nəzarətin yekunları üzrə qəbul edilmiş qərar və göstərişlərin sayı |
| İqtisadi səmərə-liliyin qiymət-ləndirilməsi | İs = İe / Xmn | burada, İs-fəaliyyətin iqtisadi səmərəliliyi; İe–nəzarət tədbirlərindən əldə olunan iqtisadi effekt; Xmn–maliyyə nəzarəti orqanının saxlanmasına çəkilən xərclər |
| Dinamiklik | Dm = Nz / Gnorma | burada, Nz- nəzarət tədbirinin keçirilməsinə sərf olunan zaman; Gnorma – normativ və ya plan göstəricisi |

Maliyyə nəzarəti orqanlarının fəaliyyətinin məhsuldarlığı müəyyən olunmuş pozuntuların məbləğini yoxlanılmış büdcə vəsaitlərinin ümumi məbləğinə bölməklə müəyyən olunur:

$$Mm = MPm / BVm$$

burada, Mm – məhsuldarlıq meyarı;

MPm – müəyyən olunmuş pozuntuların məbləği;

BVm – yoxlama ilə əhatə edilmiş büdcə vəsaitlərinin məbləği.

Maliyyə nəzarəti orqanlarının fəaliyyətinin təsirliyi isə nəzarətin yekunları üzrə icra olunmuş qərar və göstərişlərin sayının qəbul olunmuş qərarların ümumi sayına bölməklə müəyyən edilir: (https://moluch.ru/archive/90/18832/).

$$Tm = q / Q$$

burada, Tm – təsirlik meyarı;

q – nəzarətin yekunları üzrə icra olunmuş qərar və göstərişlər;

Q – nəzarətin yekunları üzrə qəbul olunmuş qərar və göstərişlərin sayı

İqtisadi baxımdan maliyyə nəzarəti orqanlarının fəaliyyətinin təsirliyini eyni zamanda nəzarətin yekununda büdcəyə qaytarılan vəsaitlərin həcminə görə də qiymətləndirmək mümkündür. Bunu aşağıdakı kimi əks etdirmək olar:

$$BBvm = BBv / Bv$$

burada, BBvm – bərpa edilmiş büdcə vəsaitləri meyarı;

BBv – bərpa edilmiş büdcə vəsaitləri ;

Bv – büdcəyə qaytarılması təklif edilən vəsaitlərin həcmi.

Maliyyə nəzarəti orqanlarının fəaliyyətinin iqtisadi səmərəliliyi isə aşağıdakı kimi müəyyənləşdirilir: (https://moluch.ru/archive/90/18832/).

$$İs = İe / Xmn$$

burada, İs-fəaliyyətin iqtisadi səmərəliliyi;

İe – nəzarət tədbirlərindən əldə edilən iqtisadi səmərə;

Xmn – maliyyə nəzarəti orqanının saxlanması üçün çəkilən xərclər

İntensivlik meyarı maliyyə nəzarəti orqanının işlə yüklənmə səviyyəsini, nəzarətin ardıcıllığını və sistematikliyini xarakterizə edir. Bu meyarın qiymətləndirilməsi bütövlükdə maliyyə nəzarəti orqanı, həmçinin onun ayrıca bir fəaliyyət istiqaməti üzrə gerçəkləşdirilə bilər.

Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin təşkilatı idarəetmə sisteminin əsas həlqələrindən olan Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən 2019-cu ildə həyata keçirilən 23 nəzarət tədbiri ilə yuxarıda göstərilən nöqsanların nəticəsi kimi 3077,9 min manat məbləğində əsassız və artıq ödənişlərin reallaşdırıldığı aşkarlanmış, həmin məbləğin 1540,3 min manatının büdcəyə bərpası təmin olunmuş, 1443,1 min manatlıq mənimsəmə hallarına görə isə yoxlama materialları aidiyyatı orqanlara göndərilmişdir (6).

Hesablama Palatası tərəfindən isə analoji dövrdə gerçəkləşdirilən 17 nəzarət tədbiri ilə qeyd edilən nöqsanlarla əlaqədar ümumilikdə 232 hal müəyyən olunmuş və 2,2 mln. manat məbləğində vəsaitin dövlət büdcəsinə, 87,2 min manat məbləğində vəsaitin isə büdcədənkənar fondların hesabına bərpa olunması təmin olunmuşdur (8).

*Cədvəl 2.*

**Hesablama Palatası tərəfindən 2017-2019-cu illərdə bərpa olunmuş vəsaitlər**

| Göstəricilər | 2017 | 2018 | Artım tempi %-lə | 2019 | Artım tempi %-lə |
|---|---|---|---|---|---|
| Keçirilən səyyar vergi yoxlaması | 11520 | 12219 | 5,7% | 7088 | - |
| Yoxlamaya sərf olunmuş iş günlərinin sayı | 351602 | 342367 | - | 215876 | - |
| Hesablanmış əlavə vəsait, faiz, tətbiq olunmuş maliyyə sanksiyası və cərimələr (min manat) | 905423,6 | 1064719,3 | 15% | 971990,2 | - |

***Mənbə: Azərbaycan Respublikası Vergilər Nazirliyinin məlumatları əsasında hazırlanmışdır.***

Azərbaycan Respublikası Vergilər Nazirliyinin məlumatlarına əsasən, 2018-ci ildə bitmiş səyyar vergi yoxlamalarının 90,7%-i növbəti yoxlamalara aid olurdusa, 2019-cu ildə bu rəqəm 51,7%-ə enmişdir. Sözügedən yoxlamalardan hesablanmış əlavə vəsait, maliyyə cəza tədbiri və cərimələrin növbəti yoxlamalar üzrə hesablanmış cərimələrin, əlavə vəsait və maliyyə cəza tədbirlərinə uyğun olaraq dəyəri hissəsi ilə 15,3 % aşağı düşmüşdür. Amma hesablanmış maliyyə cəza tədbiri, əlavə vəsait və cərimələrin ümumi məbləği 17,5 % artaraq 1064,8 mln. Manat olmuşdur. Əlavə yoxlamalar üzrə isə hesablanmış vəsaitlərin dəyərində uyğun şəkildə 2,5; 2,7 və 2,3 dəfə artım müşahidə olunmuşdur. Nəzarət və yoxlama tədbirləri sonrasında hesablanmış əlavə vəsait, maliyyə cəza tədbiri və cərimələrin 2018-ci ildə 81,7 %-i, 2019-cu ildə isə 58,8 %-i növbəti yoxlamalara aid olur. 2019-cu ildə yoxlamaların sayı 43,3 % azalsa da, cəza tədbirləri hesabına tətbiq olunmuş cərimələrin dəyəri cəmi 15,3% azalmışdır. 2018-ci ildə nəzarət və yoxlama tədbirləri hesabına tətbiq edilmiş maliyyə cəza tədbirləri sayəsində daxil olmuş vəsaitlərin 1,8 %-i əlavə hesablanmış vəsaitlərin, 1,4 %-i isə inzibati cərimələrə aid olur. 2019-cu ildə növbəti yoxlamaların sayının ciddi şəkildə azalması ilə əlaqədar olaraq, bundan əvvəlki il ilə müqayisə nəticəsində hesablanmış əlavə vəsaitlər 17,5 %, maliyyə sanksiyaları 11,5 % azalmışdır.

*Cədvəl 3.*

**2018-2019-ci illərdə Vergilər Nazirliyində başa çatdırılmış səyyar vergi yoxlamaları (mln. manatla)**

| | Yoxlamaların sayı | | Hesablanmış əlavə vəsait, maliyyə sanksiyası və cərimələr | | o cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Əlavə vəsait | | Maliyyə sanksiyası | | İnzibati cərimələr | |
| | 2018 | 2019 | 2018 | 2019 | 2018 | 2019 | 2018 | 2019 | 2018 | 2019 |
| cəmi | 11530 | 12218 | 904,4 | 1064,6 | 561,2 | 658,8 | 343,5 | 403,8 | 0,0 | 17,0 |
| o cüm - lədən | | | | | | | | | | |
| növbəti | 10454 | 6337 | 736,5 | 625,2 | 461,5 | 382,0 | 274,0 | 242,0 | 0,0 | 8,0 |
| növbə - dən kənar | 1055 | 5882 | 167,0 | 439,5 | 99,5 | 277,8 | 68,4 | 160,8 | 0,0 | 9,0 |

VN-də tətbiq olunan Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin "Audit" modulu səyyar vergi yoxlamalarının müəyyən olunması prosesində vacib rola malikdir. Bu, səyyar vergi yoxlamalarının konkret təyin edilməsinə, qanun pozuntularının varlığı faktlarının təyin olunmasına əsaslanan proqram təminatı sistemidir ki, nəticə etibarı ilə bu yoxlamaların reallaşdırılması üçün vergi ödəyicilərinin ayırd edilməsi prosesinin tam şəffaflığını təmin edir.

Ölkəmizdə VN-nin 2018-2019-cu illərdə həyata keçirdiyi operativ vergi nəzarəti tədbirlərinin təhlilindən məlum olur ki, bu illərdə qanun pozuntusu aşkar olunmuş yoxlamaların sayı 2019-cu ildə az (18309), 2018-ci ildə (101796) çox olsa da, tətbiq olunmuş maliyyə cəza tədbirlərinə əsasən, hesablanmış vəsaitlər 2012-ci il ilə müqayisədə uyğun şəkildə 1,4 və 6,4 dəfə, 2019-cu ildə isə yoxlamaların sayının bir qədər azalmasına baxmayaraq, maliyyə cəza tədbiri 4,2 dəfə çox olmuşdur. 2018-ci ildə maliyyə cəza tədbiri və cərimələr 94,5 % pay təşkil etmişdirsə, 2019-cu ildə bu rəqəm 59,8 % olmuşdur.

*Cədvəl 4.*

**Vergilər Nazirliyinin 2013-2019-cu illərdə təşkil etdiyi operativ vergi nəzarəti tədbirləri (min manat)**

| Operativ vergi nəzarəti tədbirləri | | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Pul hesablaş-malarının apa-rılması qayda-larına əməl edilməsi | nöqsan aşkar edilmiş obyektlərin sayı | 62291 | 17256 | 8976 | 17892 | 20652 | 34227 | 34103 |
| | tətbiq olunmuş maliyyə sanksiyaları | 5341,0 | 8229,6 | 6032,2 | 10592,2 | 10799,5 | 14960,7 | 16542 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Aksiz markalarının tətbiqi | nöqsan tapılmış obyektlərin sayı | 543 | 1303 | 334 | 623 | 704 | 1764 | 1950 |
| | tətbiq olunmuş maliyyə sanksiyaları | 5,8 | 34,0 | 9,94 | 34,3 | 40,3 | 54,35 | 73,82 |
| Vergi uçotunda durmayan vergi ödəyicilərinin müəyyən olunması | nöqsan tapılmış obyektlərin sayı | 4026 | 2903 | 2302 | 3346 | 3246 | 34227 | 2557 |
| | tətbiq olunmuş maliyyə sanksiyası | 163,2 | 103,8 | 96,7 | 125,8 | 116,3 | 14960,7 | 102,0 |
| Fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma | nöqsan tapılmış obyektlərin sayı | 840 | 731 | 536 | 1375 | 1747 | 2844 | 2643 |
| | tətbiq edilmiş maliyyə cəza tədbiri | 31,5 | 26,4 | 30,1 | 52,4 | 65,5 | 109,75 | 105,75 |
| Xüsusi razılıq tələb olunan fəaliyyət növləri ilə lisenziya olmadan məşğul olan şəxslərin müəyyən olunması | nöqsan tapılmış obyektlərin sayı | 5730 | 3954 | 3075 | 4598 | 5782 | 7865 | 7964 |
| | tətbiq olunmuş maliyyə sanksiyaları | 23,8 | 39,3 | 51,9 | 87,4 | 104,6 | 417,65 | 276,24 |
| Valyutanın ödəniş vasitəsi kimi qəbul olunması faktlarının müəyyən edilməsi | nöqsan aşkar edilmiş obyektlərin sayı | 2076 | 1104 | 1156 | 1670 | 2552 | 4846 | 4688 |
| | tətbiq olunmuş maliyyə sanksiyası | 61,5 | 26,2 | 23,3 | 50,6 | 51,0 | 282,36 | 277,58 |
| Valyutanın Ictimai yerdə alınıb-satılması və ya dəyişdirilməsi | nöqsan tapılmış obyektlərin sayı | 872 | 550 | 793 | 1128 | 1916 | 5420 | 5770 |
| | tətbiq olunmuş maliyyə cəza tədbirləri | 19,0 | 14,6 | 29,4 | 44,3 | 84,8 | 434,78 | 611,3 |
| Əmək müqaviləsi bağlamadan işəgö-türən tərəfindən fiziki şəxslərin hər hansı işlərə cəlb olunması | nöqsan tapılmış obyektlərin sayı | 2936 | 3083 | 1138 | 2768 | 4239 | 10605 | 13364 |
| | tətbiq olunmuş maliyyə sanksiyaları | 53,7 | 106,4 | 1162,0 | 5130,0 | 7459,0 | 4683 | 5223,0 |
| Cəmi həyata keçirilmiş nəzarət tədbirləri | nöqsan aşkar edilmiş obyektlərin sayı | 79325 | 30883 | 18409 | 33410 | 40718 | 101695 | 73037 |
| | tətbiq olunmuş maliyyə sanksiyaları | 5708,7 | 8580,4 | 7445,5 | 16118 | 18612,3 | 35902,4 | 23210,7 |

***Mənbə: AR Vergilər Nazirliyinin materialları əsasında hazırlanmışdır.***

*Cədvəl 5.*

**Büdcə vergi daxilolmalarının icrası**

| **İllər** | **2017-ci il** | | | **2018-ci il** | | | **2019-cu il** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Göstəricilər (milyon manatla) | Proqnoz | İcra | İcra faiz | Proqnoz | İcra | İcra faiz | Proq-noz | İcra | İcra faiz |
| Cəmi | 7112 | 7118 | 100.1 | 7010 | 7016 | 100.1 | 7210 | 7645 | 106 |
| O cümlədən, | | | | | | | | | |
| Neft sektoru | 2300 | 2090 | 90.9 | 1610 | 1610 | 100 | 1755 | 1840 | 104 |
| Qeyri-neft sektoru | 4812 | 5028 | 104.5 | 5400 | 5406 | 100.1 | 5455 | 5805 | 106 |

***Mənbə: AR Vergilər Nazirliyinin materialları əsasında hazırlanıb.***

Vergi daxilolmaları cədvəlinə uyğun olaraq deyə bilərik ki, aparılan islahatlar özünü doğrultmuşdur. 2017-ci ildə qeyri-neft sektorundan gələn vergi daxil olmaları 5405.5 milyon manat təşkil edir ki, ötən ilə nisbətən bu rəqəm təxminən 400 milyon manat artmışdır. Həmçinin diqqəti cəlb edən bir başqa məqam proqnozlaşdırılan vergi daxilolmalarının icrasının 100 % reallaşdırılmasıdır. Bu, vergi siyasətinin düzgün aparıldığı və vergidən yayınma hallarının minimum səviyyədə olmasından xəbər verir.

## Ədəbiyyat siyahısı:


1. Əkbərova S. D. Müasir şəraitdə maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2018.
2. Xankişiyev A., Kərimov A. və q. Maliyyə nəzarəti. Bakı, Turan, 2012.
3. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. «Büdcə sistemi». Bakı: Nurlan, 2014.
4. Бурцев В.В. Государственный финансовый контроль и методология и организация. - М.: ИВЦ «Маркетинг», 2010.
5. Салихов З. А. Методология, методика и организация контрольно-ревизионной работы: монография / З.А. Салихов; М-во образования и науки Рос. Федерации, Федер. агентство по образованию, Финансовая акад. при Правительстве Рос. Федерации, Изд-во Уральского государственного университета, 2005.
6. www.taxes.gov.az
7. www.maliyye.gov.az
8. www.stat.gov.az

*Годжаева Эльмира Магомед кызы,*
*доктор философии по экономике, доцент,*
*АзербайджанскийУниверситет Туризма и Менеджмента*

# ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИОННЫХ ПРОЦЕССОВ НА СОЦИАЛЬНО – ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ В АЗЕРБАЙДЖАНЕ

В Азербайджанской Республике достигнутые результаты есть следствие, прежде всего, разработки и применения Президентом страны Ильхамом Алиевым комплекса инновативных технологий, обеспечивших наиболее эффективное использование экономических возможностей для всестороннего развития страны и повышения благосостояния населения. Полученные результаты с затратами наименьших финансовых средств есть итог применения инновативных технологий.

Необходимо отметить, что данная констатация была предметом анализа в отчете Всемирного экономического форума. Например, в августе 2018 года Президентом Азербайджана Ильхамом Алиевым был подписан Указ о создании юридического лица публичного права "Агентство устойчивого и оперативного социального обеспечения" (Агентство DOST). Агентство создано с целью улучшения качества услуг, предоставляемых гражданам в сферах занятости, труда, социальной защиты и обеспечения, применения инновативных решений, ускорения перехода к электронным услугам, предотвращения случаев волокиты. Центр DOST №1 открылся в мае 2019 года. В нем оказываются 126 видов услуг, в том числе услуги по занятости, социальным пособиям и пенсиям, социально-медицинской экспертизе и реабилитации, социальной страховке, трудовым отношениям и др. В 2019-2025 годах в Баку и регионах страны планируется открыть еще 31 центр DOST.

Надо отметить, что на «Давосе-2019» выступление, интервью и встречи Президента Азербайджанской Республики Ильхама Алиева были встречены с большим интересом. Успешно проводимые в Азербайджане реформы были высоко оценены влиятельными финансовыми структурами, участвующими в форуме, а также руководителями всемирно известных компаний и представителей СМИ.

В связи с осуществляемыми в стране успешными реформами, позиции Азербайджана были охарактеризованы 25-м местом в отчете Всемирного банка «Doing Business - 2019». Конечно, это стало возможным в результате реформ, осуществляемых в Азербайджане за последние двадцать лет во всех сферах экономики. При этом надо учитывать влияние глобализационных процессов на вызовы новой эпохи, что, в свою очередь, приводит к интенсификации региональных процессов.

Следовательно, инновационные технологии, в первую очередь, цифровая экономика, изменяя методы производства, повышая производительность и конкурентоспособность, придают современную сущность понятию «пределы рынков продукции и услуг». Так, 12 процентов продажи товаров и 50 процентов оказываемых услуг в мире осуществляются посредством интернета.

В современных условиях очень важно использовать положительные качества глобализации, и при этом в возможной степени сокращать ее негативные последствия. Необходимо указать преимущества глобализации:

- возможность свободной торговли, отвечающей интересам всех сторон;
- распространение современных передовых промышленных технологий, а также увеличение прямых инвестиций, создание транснациональных компаний или же сотрудничество с ними;
- всесторонняя защита интересов потребителей и предотвращение роста цен, путем правильного регулирования факторов внутренней и внешней конкуренции;
- расширение масштабов инноваций и повышение производительности труда и качества продукции;
- мобилизация финансовых ресурсов и улучшение национальных систем законодательства;
- свободное распространение идей и знаний, возможности использования достижений мировой цивилизации;
- международное распределение труда и снижение себестоимости производимой продукции;
- улучшение уровня, качества и благосостояния населения.

Исходя из вышеизложенного, следует отметить, что туризм, образование и занятость за рубежом, интернет - торговля и в последнее время организуемые в Баку мероприятия по льготной торговле, привлекают иностранных туристов.

Сегодняшняя ситуация, которая происходит в мире, а именно снижение цен на нефть и пандемия коронавируса говорят о том, что в мире будут пересмотрены определенные ценности социально – экономического характера, несмотря на то, что туризм составлял важную часть экономики многих стран мира. По высоким темпам развития, он расценивался как экономический феномен последнего столетия. В мировой экономике туризм конкурирует только с нефтедобычей. В мировой экономике доход, получаемый от туризма, превалировал над доходами автомобильной промышленности. Неслучайно, что туризм обеспечивал до 10 процентов общего дохода в мире. Этот сектор постепенно приобретал все большее значение как важный источник валютных поступлений и расширения внешних связей. Но в тоже время, если по прогнозам Всемирной туристской организации, в 2020 году число иностранных туристов должно было составить 1, 6 млрд человек, а поступления от международного туризма - 2 трлн. долларов США, то на сегодняшний день данные цифры будут видоизменены с учетом пандемии коронавируса, который сильно повлиял на социально – экономическое развитие многих стран мира. Мы прекрасно понимаем, что в каждой стране туризм положительно влиял и, уверены, в последующем повлияет на развитие других сфер экономики, а именно на развитие свыше 30 областей экономики: транспорт и связь, строительство, сельское хозяйство, производство потребительских товаров и др.

Следует отметить, что развитие туризма как сферы, представляющей важное социально-экономическое значение в Азербайджанской Республике, всегда находится в центре внимания государства. Еще в 1999 году был принят Закон

Азербайджанской Республики «О туризме», в 2002 году - «Государственная программа развития туризма в Азербайджанской Республике в 2002 - 2005 годах», а в 2009 году - «Государственная программа по развитию курортов в Азербайджане в 2009-2018 годах». К месту отметить, что Президент Ильхам Алиев объявил 2011 год в нашей стране «Годом туризма».

Одним из важных документов, направленных на развитие туризма в нашей стране, является «Стратегическая дорожная карта по развитию специализированной туристической индустрии в Азербайджане», утвержденная Указом главы государства от 6 декабря 2016 года. Инфраструктура социально – экономических регионов, сдача в эксплуатацию отелей и лечебных центров высокого уровня в столице и регионах, прокладка новых дорог, упрощение визового режима и др. способствовали и поспособствуют стремительному росту конкурентоспособности нашей страны и в сфере туризма.

В 2017 году Азербайджанская Республика была страной, которая наиболее продвинулась (13 ступеней) в международной рейтинговой таблице. По данным Всемирного совета по туризму и путешествиям, Азербайджан в последние годы (2010-2017 годы) входил в десятку стран с самими высокими темпами развития туризма. Наряду с этим, следует признать, что громадные резервы нашей страны в туристической сфере полностью не используются. Например, в Испании на долю туризма приходилось 18,3 процента валюты, в целом поступившей от экспорта продукции и услуг, в Австрии - 11, 8 процента, Греции - 33, 6 процента, Португалии - 15 процентов, а на Кипре - 53 процента.

Увеличение количества иностранных туристов было особенно связано с ростом отелей и гостиничных услуг в нашей стране в последние годы.

Таким образом, количество объектов размещения в стране уже увеличивается, а конкурентоспособность туризма будет возрастать, что, в свою очередь, снизит стоимость услуг для туристов и повысит качество услуг. Теперь давайте проанализируем зависимость количества туристов, прибывающих из стран, от количества гостиниц и типов гостиниц, и сделаем прогнозы на основе результатов на ближайшие годы. (табл. 1)

***Таблица 1.***

**Информация о средствах размещения и туристах, прибывающих в страну**

| **Года** | **Предприятия размещения (YMS)** | **Численность прибывших туристов (OGTS)** | **Года** | **Предприятия размещения (YMS)** | **Численность прибывших туристов (OGTS)** |
|---|---|---|---|---|---|
| 2006 | 285 | 1 262.0 | 2013 | 530 | 2 508.9 |
| 2007 | 320 | 1 332.7 | 2014 | 535 | 2 297.8 |
| 2008 | 370 | 1 898.9 | 2015 | 536 | 2 006.2 |
| 2009 | 452 | 1 830.4 | 2016 | 548 | 2 248.8 |
| 2010 | 499 | 1 962.9 | 2017 | 563 | 2 696.7 |
| 2011 | 508 | 2 239.2 | 2018 | 596 | 2 849.6 |
| 2012 | 514 | 2 484.1 | | | |

***Источник: Госкомстат, 2019г.***

Анализ базы данных показывает, что существует корреляция между количеством объектов размещения и количеством туристов, прибывающих в страну. Рассмотрим эконометрическую оценку базы данных. Прежде всего, давайте построим уравнение. Это уравнение зависимости будет следующим:

LOG(OGTS) = C(1) + C(2)*LOG(YMS) (1)

Зададим основное уравнение регрессии, используя данные таблицы 1. Рекомендуется делать это с помощью программного пакета Eviews, поскольку решение проблемы вручную требует много времени и слишком много вычислений. Следующие результаты могут быть получены с теми, которые наблюдаются на начальном этапе:

LOG(OGTS) = 1.50905041628 + 0.995365473716*LOG(YMS) (2)
s.s. (0.454178) (0.122463)

R-squared=0.857258, Adjusted R-squared=0.844284, Durbin Watson=1.744058

Модель (2) показывает, что модель адекватна. Таким образом, стандартная ошибка параметров значительно меньше значений параметров. Коэффициент определения (R-квадрат) = 0,857258 указывает на то, что примерно 85,7% изменения числа туристов, прибывающих в страну, обусловлено стабильными факторами и изменением размещения. Близость скорректированного детерминированного коэффициента (Скорректированный R-квадрат) к значению определения указывает на то, что совпадение в достоверности результата намного ниже.

Результат модели (2) показывает, что увеличение количества объектов размещения на 1% способствует увеличению числа туристов, прибывающих в страну, на 0,99%.

Таким образом, состояние и современные проблемы экономической и инвестиционной среды и пути их решения, являющиеся одними из традиционно обсуждаемых на Давосском форуме в текущем году находились в центре внимания. Отрадно, что высокий уровень созданного в нашей стране бизнес-климата особо подчеркивается руководителями зарубежных компаний.

Следовательно, надо отметить, что в соответствии с отчетом за 2018 год Всемирного экономического форума абсолютным рекордсменом по самому эффективному использованию экономических ресурсов для инклюзивного развития страны является Азербайджанская Республика. Рейтинг Азербайджана по уровню инклюзивного развития на 23 пункта выше рейтинга экономических возможностей страны. Эта особенность предопределила тот факт, что опыт Азербайджанской Республики по оптимальному управлению экономическими и человеческими ресурсами в целях инклюзивного развития стал предметом анализа в отчете Всемирного экономического форума 2020 года.

## Список использованной литературы:


1. Государственный Комитет по Статистике Азербайджанской Республики, 2019, с. 814.

2. Стратегическая дорожная карта для развития специализированной индустрии туризма в Азербайджанской Республике 2016 г.

3. Гуляев, В.Г. Туризм: экономика и социальное развитие / В.Г. Гуляев. - М.: Финансы и статистика, 2003.

4. Новиков В.С. Инновации в туризме. 3 - е издание. Изд – во «Академия», М, 2010 г., с. 207.

5. Овчаров А.О. Туристический комплекс России. Тенденции, риски, перспективы. М: Инфра-М, 2011. с.106.



*Hacıyev Fazil Şöhlət oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*


## AZƏRBAYCANIN DAYANIQLI SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

XXI əsrdə bəşəriyyətin qarşısında ən qlobal problemlərdən biri də ölkələrin dayanıqlı sosial-iqtisadi inkişafının yaxşılaşdırılmasıdır. Belə ki, son on il ərzində Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələr əldə olunmuşdur. Bunların da əsas səbəbi Azərbaycanda davamlı inkişafın təmini üzrə böyük iqtisadi layihələrin həyata keçirilməsidir. İqtisadiyyatın innovasiya yolu ilə inkişafı, innovasiyanın təşviqi probleminin həlli, innovativ sahibkarlığın formalaşması və inkişafı, əsaslı vergi islahatları və bu sahədə kadr çatışmamazlıqlarının aradan qaldırılması ilə bağlıdır. Burada ən başlıca səciyyəvi cəhət odur ki, Azərbaycan Respublikasının gələcək inkişafı mühüm dövlət proqramı “Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri” üzrə həllini tapacaqdır.

Azərbaycanın son illər əldə etdiyi dayanıqlı sosial-iqtisadi uğurları nüfuzlu beynəlxalq reytinq qurumlarının hesabatlarında da öz ifadəsini tapıb. Dünya Bankı tərəfindən dərc edilmiş “Doing Business 2020” reytinqində Azərbaycan islahatçı ölkələrin ilk iyirmiliyinə daxil edilib. Bütövlükdə isə, 190 ölkə arasında 34-cü yer tutur. “Biznesin qurulması” indikatoruna görə ölkə 9-cu yerdədir. Bu hesabatda Azərbaycan biznesin qeydiyyatını sadələşdirməklə “Biznesə başlama” göstəricisi üzrə dünyada ilk beşliyə daxil olub və ən yaxşı təcrübəyə malik ölkələrdən biri kimi qeyd edilib.

Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bildirmişdir ki, bu gün Azərbaycanın qarşısında duran ən mühüm strateji məqsəd ölkəmizin müstəqilliyini bundan sonra da gücləndirmək və respublikamızı dünyanın ən inkişaf etmiş, rəqabətədavamlı dövlətlər səviyyəsinə

yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regiondakı sürətli inkişaf davam etdiriləcəkdir.

Bütün bu elmi aktuallıq kəsb edən məsələləri nəzərə alaraq, məqalədə Strateji Yol Xəritəsinin səmərəli reallaşdırılması baxımından sənaye, kənd təssərüfatı, sahibkarlıq və innovasiyalar sahəsində mövcud vəziyyətin təhlili və ümumilikdə Azərbaycanın müasir sosial-iqtisadi inkişafında vergitutma amili, rolu və əhəmiyyətinin qiymətləndirilməsi tədqiqat predmetinə çevrilmişdir.

Azərbaycan Respublikasında uğurla həyata keçirilən sənayeləşmə dövründə ölkənin sənaye potensialının gücləndirilməsi, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun, rəqabətqabiliyyətli məhsulları istehsal etmək gücündə olan sənaye parklarının yaradılması və inkişaf etdirilməsi zəruriliyi Strateji Yol Xəritəsinin tələblərindən irəli gəlir. Hazırda, respublikada sənayenin iqtisadiyyatdakı xüsusi çəkisi dünya üzrə orta göstəricini 30% üstələyir. BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının məlumatlarına görə, Azərbaycan Avropada sənayenin ümumdaxili məhsuldakı payına görə ilk yerlərdən birini tutur. Bu inkişafın sürətləndirilməsi Azərbaycan Respublikasının Prezidentinin 2016-ci il 6 dekabr tarixli fərmanı ilə Azərbaycanda ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi təsdiq edilmişdir. Burada göstərilmişdir ki, ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir [1].

Sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsində bildirilir ki, əsas müddəaları ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı son on ildə sürətlə inkişaf etmiş, iqtisadiyyatın diversifikasiyası neft amilindən asılılığı azaltmış, iqtisadi artımda qeyri-neft sektorunun payı yüksəlmişdir. 2008-ci ildən başlayaraq dünyada gedən iqtisadi proseslər yerli müəssisələrin rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixcracyönümlü qeyri-neft iqtisadiyyatının dinamik inkişafını və innovasiyalı iqtisadiyyatın lokomativi olan insan kapitalından səmərəli istifadəni gerçəkləşdirmək istiqamətində islahatların daha da dərinləşdirilməsini zəruri etmişdir. Bununla əlaqədar, ölkə iqtisadiyyatının prioritet sektorlarının, beynəlxalq məsləhətçilər də cəlb olunmaqla, hərtərəfli təhlili nəticəsində sahəvi yanaşmanın tətbiqi və müvafiq sahələr üzrə spesifik təkliflərin hazırlanması üçün ardıcıl işlər görülmüşdür.

2020-ci ilin yanvar ayının 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanında olan 2019-cu ilin yekununa həsr olunmuş müşavirədə vurğulamışdır ki, “Azərbaycan dördüncü sənaye inqilabının lideri olmalıdır. Hazırda dördüncü sənaye inqilabı Azərbaycana qlobal inqilabi rəqabətə öz rolunu dəyişmək imkanı verir. Bu isə, ölkə iqtisadiyyatının mövcud potensialından tam şəkildə istifadə etmək və innovasiyaların tətbiqinə şərait yaradacaqdır”. Belə ki, Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiyaların həcmi 1,1 milyard ABŞ dolları təşkil edən 9 müəssisəyə rezident statusu verilib. Bunlardan polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edən “Azertexnolayn” zavodu 2013-cu ildə fəaliyyətə başlayıb və burada 750 nəfərdən çox işçi çalışır. Artıq zavodda istehsal olunan məhsulun yarıdan çoxu ixrac edilib. Bundan başqa, 2017-ci ildə müəssisələr - yüksək

təzyiqə davamlı xortum və fitinqlər istehsal edən “MST Engineering Services”, tikinti məhsulları və qatqıları istehsal edən, İsveçrənin beynəlxalq miqyaslı kimya şirkəti olan “SİKA” MMC, yüksək keyfiyyətli sintetik və yarısintetik sürtkü yağları istehsal edən “Alco Lubricant Company”, pestisid və aqrokimyəvi məhsullar istehsal edən “Aqrokimya Azərbaycan”, 2018-ci ildə isə daha 3 müəssisə-polipropilen və yüksək sıxlıqlı polietilen istehsal edən “SOCAR Polymer”, ferrorintlər istehsal edən “Bakı Əlvan Metallar və Ferroərintilər Şirkəti”, Float texnologiyası əsasında şüşə lövhələr istehsal edir. [7].

Balaxanı Sənaye parkında fəaliyyət göstərən 5 rezident tərəfindən işlənmiş mühərrik yağlarının emalı, plastik (*PET*) butulkaların təkrar emalından PET qırıntılarının, tullantı kağızlardan istifadə etməklə çap-poliqrafiya məhsullarının istehsalı, təkrar emal olunmuş plastik materiallardan irihəcmli müxtəlif məhsulların istehsalı, taxta-ağac məmulatların emalı sahələrində 5 müəssisə yaradılıb. Bu müəssisələrə rezidentlər tərəfindən 22,4 milyon manat investisiya yatırılıb. Balaxanı Sənaye Parkına yeni rezidentlərin cəlb edilməsi məqsədilə maraq göstərən sahibkarlara şərait yaradılmışdır [7].

Neftçala Sənaye Zonasında ümumi investisiya qoyuluşu 49 milyon manatdan çox olan sənaye zonasında 5 müəssisə - karton stəkan istehsal edən “Sun Rise Production”, polietilen boru istehsal edən “Toğrul-2008”, kənd təsərüffatı təyinatlı qurğuların istehsalı müəssisəsi “Petroqeoaz”, modul tipli məktəb binalarının istehsalı ilə məşğul olan “Providence Doytch Limited” və balıq yemi istehsal edən “Kəhf” şirkətləri avtomobil istehsal edən “Azeurocar” fəaliyyət göstərir. [7].

Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 13 iyun tarixli sərəncamı ilə yaradılmış Masallı Sənaye Zonasının təşkili ilə bağlı işlər intensiv olaraq davam etdirilir. Sahibkarların sənaye zonasına marağı böyükdür. Belə ki, sahibkarlar tərəfindən artıq ümumi dəyəri 30 milyon manatdan çox olan 33 layihə təklifi təqdim olunub. Bu layihələrə əsasən, mebel istehsalı, avtomobil təmiri, alüminium və plastik qapı - pəncərə istehsalı, müxtəlif növ tikinti materiallarının istehsalı sahələrini əhatə edir. Bununla yanaşı, Ağstafada özəl təşəbbüs əsasında yaradılmış sənaye zonası fəaliyyətə başlayıb. [13].

Qaradağ Sənaye Parkının rezidenti - Bakı Gəmiqayırma Zavodu ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri, ümumilikdə, dəniz və mühəndislik işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir. 2016-cı ildə zavodda hər biri 80 sərnişin tutumuna malik “Üfüq”, “Zəfər” və “Turan” sərnişin gəmiləri istismara verilib. İndiyədək isə müəssisədə 50 tonluq dartıcı qüvvəyə malik yedək gəmisi tikilib. Həmçinin zavod 6-cı nəsil yarımdalma qazma qurğusunun pantonlarının inşasını başa çatdırıb və sifarişçiyə təhvil verib. Zavodun ən böyük cari sifarişi isə BP şirkəti üçün ümumi dəyəri 378 milyon ABŞ dolları olan “Xankəndi” Sualtı Tikinti Gəmisinin layihələndirilməsi və tikintisidir [13].

Ölkənin sosial-iqtisadi inkişafında sənayenin artan rolunun müasir vəziyyətinin təhlili göstərir ki, bu sektorda vergitutma ilə bağlı yaranacaq məsələlərin də diqqətdə saxlanılması zəruridir.

Son illərdə sahibkarlıq fəaliyyətindən və mülkiyyətdən gələn gəlirlərin sürətlə artması biznes mühitinin formalaşdırılması və özəl mülkiyyətin əsaslarının

möhkəmləndirilməsi fonunda baş verib ki, buna da səbəb qanunvericilik bazasının təkmilləşdirilməsi, müxtəlif dövlət proqramları həyata keçirilərək iqtisadiyyatın ayrı-ayrı sahələrinə dövlət qayğısının artırılması, vergilərin təkmilləşdirilməsi və iqtisadiyyatın idarə edilməsinə müasir yanaşmanın ortaya qoyulması olub. Gəlirlərin artımının inflyasiyanı ciddi faizlərlə üstələməsi həm son istehlaka, həm də yığıma yönəldilən vəsaitlərin effektiv artımına gətirib çıxarıb.

Belə ki, biznes mühitinin dinamik inkişafı şəraitində respublikada təkcə yerli sərmayədarlar üçün deyil, həm də xarici investisiyalara əlverişli vergi mühiti yaradılıb. Biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib, vergi qanunvericiliyində çoxlu güzəştlər müəyyən edilib, sahibkarlığın və ixracın təşviqinə yönələn tədbirlər reallaşdırılıb. Təkcə özəl sektor, kiçik və orta sahibkarlıq, sadəcə olaraq biznes mühitini yaxşılaşdırmaq, yeni iş yerləri yaratmaq üçün deyildir. İnnovasiyalı sahibkarlığın inkişafı, əslində, ölkədə sosial-iqtisadi inkişafa təkan verir ki, bu da çox böyük radikal islahat deməkdir. Bu islahat Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarına əsasən uğurla aparılır.

Azərbaycan Respublikasının Prezidentinin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli fərmanına uyğun olaraq son illərdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız yoxlamaların qarşısının alınması və digər istiqamətlər üzrə davam etdirilib. Fərmanla müəyyənləşdirilmiş vəzifələr sahibkarlıq sahəsində 8 istiqamət üzrə geniş islahatların aparılmasını tələb edir [13].

Belə ki, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi sahəsində vergi orqanlarının tərəfindən çox mühüm islahatlar həyata keçirilməkdədir. Vergi sisteminin qabaqcıl Avropa standartlarına uyğunlaşdırılması, texniki potensialın gücləndirilməsi, vergi auditinin inkişaf etdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının davamlı tətbiqi, vergi ödəyicilərinin, xidmət sahələrinin, o cümlədən elektron xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaratmış olur.

Ölkə sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində hazırda sistemli tədbirlər davam etdirilir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının aparılması, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində keçirilən islahatların davamı olaraq, tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə zəruri dəyişikliklər edilib.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda onun tətbiq dairəsi, yoxlamaların məqsəd və prinsipləri, yoxlayıcı orqanların səlahiyyətləri ilə yanaşı, sahibkarlara məsləhətlərin verilməsi kimi çox əhəmiyyətli müddəalar nəzərdə tutulub.

Hazırda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, son illər ərzində həyata keçirilən kompleks və ardıcıl tədbirlər, səmərəli dövlət dəstəyi

sistemi, vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, dövlətlə birgə maliyyələşdirmə və risklərin bölüşdürülməsi səmərəli nəticəsini verib. Sənaye və texnologiyalar parklarının və zonalarının, aqroparkların, biznes-inkubatorların yaradılması, maarifləndirici tədbirlərin, biznes forumların, sərgilərin təşkili və s. kimi tədbirlər nəticəsində sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. ÜDM-də özəl bölmənin payı 80%-i, məşğulluqda 75%-i ötüb. Son dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla sahibkarlıq sahəsində lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, satınalmalarda yerli sahibkarlara üstünlük verilməsi, gömrük sahəsində görülən işlər, ixracın və investisiyaların təşviqi mexanizmlərinin tətbiqi biznesin inkişafına göstərilən diqqətin davamlı olmaqla özəl bölmənin inkişafında xüsusi əhəmiyyət daşıyır.

Bütün bunlar ölkədə sahibkarlıq fəaliyyətinin genişlənməsi, hər şeydən öncə ölkədə ümumdaxili məhsulun ilbəil artmasına imkan verir. Bu baxımdan ölkədə iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin məhsul buraxılışına diqqət yetirmək məqsədə uyğundur:

***Cədvəl***

**İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərində məhsul buraxılışına görə payı, (*faizlə*)**

| № | Sahələrin adı | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| 1. | İqtisadiyyatın bütün sahələri üzrə - cəmi | 8,6 | 9,6 | 10,6 | 10,5 | 10,7 |
| 1.1 | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1,5 | 1,8 | 4,3 | 4,8 | 5,1 |
| 1.2 | Sənaye | 1,4 | 1,2 | 1,6 | 2,2 | 2,4 |
| 1.3 | Tikinti | 17,8 | 12,6 | 16,0 | 5,0 | 5,0 |
| 1.4 | Topdan və pərakəndə ticarət avtomobillərin və motosikletlərin təmiri | 57,5 | 53,1 | 49,8 | 46,9, | 47,1 |
| 1.5 | Nəqliyyat və anbar təsərrüfatı | 13,4 | 15.1 | 16,0 | 18,8 | 18,9 |
| 1.6 | Yaşayışın təşkili və ictimai iaşə | 28,2 | 49,4 | 49,9 | 50,3 | 50,8 |
| 1.7 | Informasiya və rabitə | 1,4 | 4,3 | 5,8 | 7,8 | 8,0 |
| 1.8 | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 22,1 | 14,7 | 22,4 | 31,2 | 31,9 |
| 1.9 | Təhsil | 1,7 | 18,6 | 19,5 | 24,7 | 25,1 |
| 2.0 | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 8,7 | 12,2 | 18,5 | 25,8 | 25,9 |
| 2.1 | Digər sahələr | 50 | 46,9 | 41,6 | 44,9 | 50,1 |

***Mənbə: Azərbaycanda kiçik sahibkarlıq statistik göstəriciləri. (2018). Bakı. s. 21***

Cədvəldən göründüyü kimi kiçik sahibkarlıq subyektlərində 2014-cü ildən başlayaraq hər il dinamik olaraq məhsul istehsalın həcmi artmışdır. Bu artıma əsasən milli iqtisadiyyatın sahələrində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 5,1%, sənayedə 2,4%, topdan və pərakəndə ticarət avtomobillərin və motosikletlərin təmirində 47,1%, nəqliyyat və anbar təsərrüfatında 18,9% əmlakla əlaqədar əməliyyatlarda 31,9%, təhsil 25,1%, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 25,9% və digər sahələrdə 50,1% olduğu halda tikinti sektorunda son iki ildə dəyişiklik olmamışdır. [9].

Ümumiyyətlə, şəffaf biznes və sağlam rəqabət mühitində sahibkarlığın genişlənməsinə əlverişli şərait yaradılması Azərbaycanın dinamik və uzunmüddətli inkişafı məqsədilə aparılan uğurlu siyasətin əsas istiqamətləri sırasındadır. Bu siyasət milli iqtisadiyyatda, eyni zamanda, yeni iş yerlərinin açılmasında, əmək bazarının inkişafında, məşğulluq səviyyəsinin yüksəldilməsində özəl sektorun, o cümlədən biznesin rolunun əhəmiyyətli şəkildə artmasına səbəb olub. Təsadüfi deyil ki, respublika iqtisadiyyatında məşğul əhalinin 70%-dən çoxunu qeyri-dövlət sektorunda çalışanlar təşkil edir.

Kənd təsərrüfatı məhsullarının istehsalı və reallaşdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar keçirilən konfransda konkret vəzifələr müəyyən edilmişdir. Bu vəzifələrdən biri də regionlarda aqroparkın yaradılmasıdır. Hazırda respublikanın 33 rayonu üzrə 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatlarının yaradılması üzrə işlər davam etdirilir. Bununla yanaşı olaraq, 23 aqropark və 20 fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihə investisiya təşviqi sənədi verilib. Bütün bunlar aqrar sahənin əsas sahələrindən olan pambıqçılığın inkişafına şərait yaratmış olacaqdır. Bu məqsədlə əlaqədar dövlət orqanlarının və pambıq istehsalı və emalı ilə məşğul olan müəssisələrin nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb, tədarük qiymətləri artırılıb, yüksək məhsuldarlıq əldə edən fermerlərə əlavə stimullaşdırıcı tədbirlərin tətbiqi xüsusilə vergitutmanın təkmilləşdirilməsi nəzərdə tutulub.

Aqrar sahənin ən vacib istiqamətlərindən biri olan pambıqçılıqda mütərəqqi texnologiyanın tətbiqi nəticəsində məhsuldarlıq artmışdır. Pambıq əkilən sahələrdə məhsuldarlıq 29,5 sentner olmuşdur.

Göründüyü kimi, dövlət dəstəyi olan yerdə, işlər düzgün təşkil olunanda qarşıya qoyulan istənilən məqsədə çatmaq mümkündür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Biz Azərbaycanda pambıqçılığı artıq, demək olar ki, bərpa etmişik və bundan sonra gələcək illərdə ancaq inkişaf yolu ilə gedəcəyik" [7].

Pambıqçılığın inkişafı, öz növbəsində, yüngül sənayenin inkişafına da təkan verəcək. 2016-cı ildə Mingəçevirdə təməli qoyulan yüngül sənaye parkında tikiləcək 9 zavoddan biri də iplik müəssisədir. Onun xammalla yerli istehsal hesabına təchiz olunması gəlirin yüksəlməsinə şərait yaradacaq.

Hazırda ənənəvi və ixracyönümlü sahələrin dirçəlməsi istiqamətində geniş iş aparılır, davamlı olaraq stimullaşdırıcı tədbirlər görülür. Bu sahələrdən biri də barama-

çılıqdır. Ölkəmizdə baramaçılıq üçün münbit şəraitin olması, vaxtilə toplanılan zəngin təcrübə nəzərə alınaraq, ipəkçiliyin inkişafı üçün kompleks tədbirlər görülür. Ötən il uzun fasilədən sonra barama istehsalında müəyyən irəliləyişlər əldə edilib. Belə ki, kümçülərimiz 22,6 ton barama tədarük edib ki, bu da 2016-cı illə müqayisədə altı dəfə çoxdur. Barama istehsalında kümçülərimiz 204 milyon manata yaxın gəlir əldə ediblər.

Azərbaycan Respublikasının 2019-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında baramaçılıq sahəsində vəziyyəti ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: “Keçən il baramaçılıqla bağlı çox ciddi addımlar atılmışdır. Mən burada da bir neçə rəqəmi qeyd etmək istərdim. Azərbaycanda barama istehsalı ilə məşğul olan şəxslərə emal müəssisələrinə təhvil verdikləri baramanın hər kiloqramına görə 5 manat məbləğində subsidiya verilir. Baramaçılığın yeni bazasının möhkəmləndirilməsi məqsədilə dövlət vəsaiti hesabına 2016-2019-cu illər ərzində Çin Xalq Respublikasından 4,5 milyon ədəd tut tingləri tədarük edilib. 2019-cu ilin investisiya proqramına uyğun olaraq, Zərdab, Füzuli, Bərdə, Ağsu, Zaqatala rayonlarına gücü 200 ton olan yaş barama qurutmaxanalarının və 120 kvadratmetr sahəsi olan inkubasiya otaqlarının tikintisi başa çatmaq üzrədir”.

Kənd təsərrüfatının ənənəvi sahələrindən olan fındıqçılığın inkişafı da diqqət mərkəzindədir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə, Azərbaycan fındıq istehsalı üzrə dünyada dördüncü yeri tutur. Ölkəmizdə ildə təqribən 35 min ton fındıq istehsal olunur. Fındıqçılığın inkişafının sürətləndirilməsi, fındıq pöhrələrinin tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamına əsasən 700 min manat ayrılıb.

Dövlət başçısı fındıq bağlarının genişləndirilməsinin vacibliyini qeyd edərək deyib: “Qarşıya məqsəd qoyulub ki, 2016-cı ildən başlayaraq bir neçə il ərzində əlavə 40 min hektarda fındıq bağları salaq və bu proses gedir. Bu, fermerlərin də böyük marağına səbəb olub. Bu, yaxşı gəlir mənbəyi olacaqdır. Burada da dövlət öz üzərinə böyük vəzifə götürüb. Çünki bütün bu lazımi avadanlıq, texniki tədbirlər və tinglərin alınması dövlət hesabına həyata keçirilir. Dövlət bunu alır və fermerlərə pulsuz verir. Bax dövlətin, bir daha demək istəyirəm ki, siyasəti özünü bu istiqamətdə də göstərir. Biz fındıqçılığın coğrafiyasını da genişləndiririk və hazırda 13 rayonda bu sahədə işlər gedir”.

Xatırlatmaq yerinə düşər ki, 2016-cı ildə ölkəyə ən çox valyutanı fındıq gətirib: 105 milyon dollar. Hazırda 46 rayonda fındıq yetişdirilməsi üçün potensial var. Hesablamalara görə, fındıq istehsalını və ixracını iki dəfə artırmaq, əldə olunan valyutanı 200 milyona asanlıqla çatdırmaq mümkündür.

Əlavə fındıq bağlarının salınması istiqamətində real addımlar atılır. 2016-cı ildə 16328,5 hektar fındıq bağı salınıb. Bunun 3158 hektarı Zaqatala, 2264,2 hektarı Balakən, 2250,2 hektarı Qusar, 2037 hektarı Xaçmaz, 1787,5 hektarı Qax, 1203 hektarı Quba rayonlarının payına düşür . [7].

Aqrar sahənin perspektivli sahələrindən biri də üzümçülükdür. Belə ki, Nazirlər Kabinetinin iclasında qeyd olunduğu kimi, son illər ərzində dövlətin dəstəyi hesabına üzümçülük inkişaf edib. Yeni bağlar salınaraq, üzüm sahələri genişləndirilir. Bu baxımdan, üzümçülüyü və şərabçılığı Strateji Yol Xəritəsinin tətbiqi şəraitində inkişaf

etdirmək üçün “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” qəbul olunmuşdur. Bu sahədə üzümçülüyün və onun emal sənayesinin inkişafını təmin etmək məqsədilə yeni üzümlüklərin salınması, süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, tingli təsərrüfatlarının yaradılmasının və üzümçülük təsərrüfatları üçün əsas və köməkçi materialların istehsalının dəstəklənməsi, üzümçülüyün infrastruktur təminatının yaxşılaşdırılması, üzümçülüyün və şərabçılığın elmi təminatının və kadr potensialının gücləndirilməsi və s. kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bununla əlaqədar olaraq, Gəncədə və Abşeronda 15 hektar ampeloqrafik kolleksiya bağlarında 6 calaqaltı Amerika sortu, eləcə də Azərbaycanın və dünyanın üzümçülük ölkələrindən gətirilmiş 310 növ üzüm becərilir. Qiymətli yerli üzüm sortlarının itirilməsinin qarşısı alınır. Ölkədə yerli üzüm sortlarının sayının həmişə qəbul edildiyi kimi 200 yox, 450-yə yaxın olduğu müəyyən edilmişdir. Bundan əlavə, 16 süfrə, 20-yə yaxın texniki istiqamətli üzüm hibridləri yaradılmış, yeni növ ağ və qırmızı, habelə “Nektar” tipli ətirli süfrə və tünd şərabların texnologiyası işlənib hazırlanmışdır. Eyni zamanda, perspektivdə dövlət tərəfindən üzümçülüyün inkişafına ciddi vəsaitlər ayrılıb, emal sənayesi qorunub, tədarük edilən üzümün saxlanması üçün inşa edilən soyuducuların sayı artırılır [13].

Bütün bunlar Strateji Yol Xəritəsinin səmərəli reallaşdırılması baxımından Azərbaycanın kənd təsərrüfatı sektorunun inkişafinda vergitutma ilə bağlı bir sıra yeni tədbirlərin həyata keçirilməsini şərtli edir.

Azərbaycan Respublikasında son illərdə aparılan geniş miqyaslı islahatlar ölkənin sosial-iqtisadi inkişafına öz müsbət təsirini göstərib. Nəticədə isə Azərbaycanın şəhər və kəndlərinin siması dəyişib, insanların həyat tərzi yeniləşib. Geniş miqyaslı dövlət proqramları həyata keçirilib, xalqı düşündürən sosial-iqtisadi problemlər həll edilib. İstehsal və sosial infrastruktur obyektləri yaradılıb, yeni iş yerləri açılıb. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası sürətlənib. Respublika Qafqaz bölgəsində lider mövqelərini möhkəmləndirib və dünya birliyində nüfuzunu artırıb.

Fikrimizcə, hazırda dövlətin maliyyə-vergi dəstəyi əsasında respublikada dayanıqlı sosial-iqtisadi inkişafın formalaşması və stimullaşdırılması hər şeydən öncə ümumdaxili məhsulun artmasını və əhalinin həyat səviyyəsinin yaxşılaşmasına imkan verəcəkdir.

Ümumiyyətlə, Strateji Yol Xəritəsinin tətbiqi şəraitində dayanıqlı sosial-iqtisadi sahədə aparılan radikal iqtisadi islahatlar ümümdaxili məhsulun artırılmasına və özəl sektorun inkişafına öz bəhrəsini verməkdədir. Bu isə idxaldan asılılığın azaldılmasına və qeyri-neft məhsullarının ixracının genişləndirilməsinə tam şərait yaratmaqdadır.

## Ədəbiyyat siyahısı:

1. ”Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi” haqqında Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2016-ci il Sərəncamı.

2. “2014-cü ilin Azərbaycan Respublikasında “Sənaye ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2014-cü il Sərəncamı.

3. “Azərbaycan Respublikasında Kənd təsərrüfatı ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 12 yanvar, 2015-ci il Sərəncamı.

4. Azərbaycan Respublikasında “Sahibkarlıq günü” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 aprel, 2016-cı il Sərəncamı.
5. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı: 2012, 41 s.
6. “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”.
7. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
8. Azərbaycanda kiçik sahibkarlıq. Statistik məcmuə. (2016). Bakı: “Elm” 210 s.
9. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. (2010) Bakı: “Elm” 248 s.
10. Səmədzadə Z.Ə. XXI əsrdə Azərbaycanın iqtisadi inkişaf modelinin əsas xüsusiyyətləri. Strateji təhlil jurnalı. Strateji araşdırmalar mərkəzi, say 5, 2012.s.9-21
11. Abbasov A.B. (1998) Sahibkarlıq fəaliyyəti: növləri təşəkkülü və inkişaf problemləri. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 212 s.
12. Hacızadə E.M., (2018). Azərbaycan və dünya iqtisadiyyatı Bakı: Elm, 128 s.
13. Hacıyev F.Ş. İnnovasiyalı sənaye potensialının təhlili və audit qiymətləndirilməsi. Azərbaycan vergi jurnalı 2016, № 1. S.143-154.
14. Hacıyev F.Ş. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında vergilərin rolu. Azərbaycan vergi jurnalı 2016, № 4. S.71-86
15. http://anfes.gov.az/ - Sahibkarlığa Kömək Milli Fondunun saytı.
16. Колос А.В. Организация предпринимательской деятельности. 2005, М.: 416 с.

*Cabbarov Ayətulla Suvahil oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti*

## SIĞORTA TƏŞKİLATLARINDA STRATEJİ İDARƏETMƏNİN ANALİTİK UÇOT İNFORMASİYA SİSTEMİNİN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

Sığorta təşkilatları müasir iqtisadiyyatın inkişafının dinamikliyini və təhlükəsizliyini təmin edən vacib iqtisadi qurumdur. Milli sığorta bazarının inkişafı və uçot sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması sığorta təşkilatlarında mühasibat uçotunun nəzəri baxımdan əsaslandırılması və analitik-uçot təminatının təkmilləşdirilməsi zərurəti yaratdı. Sahibkarlıq və maliyyə riskləri, təşkilatın rəqabətqabiliyyətliliyinin təmin edilməsi kimi problemlərin hökm sürdüyü bir şəraitdə aktivlərin strateji idarə edilməsi o cümlədən sığorta ehtiyatları haqqında uçot informasiyasının etibarlılığı bu təşkilatların fasiləsiz fəaliyyətinə və onlara olan inama təsir edir.

Müasir şəraitdə uçotu informasiyasının formalaşmasının məqsəd və vəzifələri mühasibat uçotu metodikasında dəqiqləşmələrin aparılmasını tələb edir. Eyni zamanda sığorta ehtiyatları üzrə uçot informasiyanın formalaşmasında daxili və xarici amillər də nəzərə alınmaqla analitik-uçot sistemi formalaşdırılması zərurətini aktuallaşdırır. Bu baxımdan risklərin və aktivlərin səmərəli istifadəsinin amilli təhlilin aparılması və strateji idarəetmə üçün informasiyanın hazırlanması texnologiyasının yenidən işlənib hazırlanması və müasir tələblər çərçivəsində təkmilləşdirilməsi aktual məsələlərdəndir.

Müasir bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən əksər subyektlər üçün təbii və qeyri-təbii amillərin nəticəsində yarana biləcək risklər qaçınılmazdır. Günümüzdə risklərdən yayınmaq və ya risklərin qarşısının alınmasının ən səmərəli və ən geniş yayılmış forması olan sığorta fəaliyyətinin effektiv tənzimlənməsi və bu sektorun beynəlxalq standartlar səviyyəsində inkişaf etdirilməsi iqtisadiyyatın bazar münasibətləri çərçivəsində möhkəmlənməsi üçün mühüm iqtisadi əhəmiyyət kəsb edir. Əksər qabaqcıl inkişafa malik ölkələrdə sığorta bazarlarının keçdiyi inkişaf mərhələləri və həmçinin, ÜDM-in həcmində sığorta ödənişlərinin yüksək paya sahib olması göstərir ki, sığorta istənilən ölkədə iqtisadiyyatın inkişaf tempinə mühüm təsir göstərə bilir. Bu cəhətdən qeyd edə bilərik ki, sığorta – iqtisadiyyatın strateji sahələrindən biridir.

Belə ki, respublikamızda fəaliyyət göstərən sığorta təşkilatlarının sayı 2020-ci ilə 35 vahidə bərabər olmuşdur. Onlardan 34-ü qeyri-dövlət mülkiyyətli, 26-sı xüsusi mülkiyyətli, 3-ü xarici mülkiyyətli və 5-i birgə (xarici qarışıq) mülkiyyətli müəssisələrdir. (Cədvəl 1)

***Cədvəl 1.***

**Mülkiyyət növünə görə sığorta təşkilatlarının sayı**

| **Mülkiyyət növünə görə sığorta təşkilatları** | **01.01.2020** | **01.01.2019** | **Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə** |
|---|---|---|---|
| **Cəmi** | 35 | 36 | 97,2 |
| ondan: | | | |
| qeyri-dövlət mülkiyyəti | 34 | 35 | 97,1 |
| xüsusi mülkiyyət | 26 | 27 | 96,3 |
| xarici mülkiyyət | 3 | 3 | 100 |
| birgə (xarici qarışıq) mülkiyyət | 5 | 5 | 100 |

***Mənbə: "Sığorta təşkilatlarının fəaliyyətinin əsas göstəriciləri" statistik bülleten – Bakı-2020***

2020-ci ilin əvvəlinə respublikamızda sığorta təşkilatların aktivləri 1411510,3 min manat olmuşdur ki, bu da əvvəlki ilə nisbətən 33.6 % artmışdır. Eyni tarixə qeyri-dövlət mülkiyyətli sığortaçıların (təkrar sığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin aktivləri 1375399,8 min manat olmuşdur. 2019-cu ilin əvvəlinə sığortaçıların (təkrar sığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin xalis mənfəəti 105105,9 min manat olduğu halda 2020-ci ilin əvvəlinə 846.62 min manat artaraq 113568,5 min manat olmuşdur. (Cədvəl 2)

2020-ci ilin əvvəlinə sığorta (təkrarsığorta) təşkilatları tərəfindən bağlanmış müqavilələrin sayı 3249229 vahid olmuşdur. Bu müqavilələrin dəyəri əvvəlki ilə nisbətən 5.1% artaraq 592848129,0 min manat olmuşdur. 2019-cu ildə sığorta haqları isə 782287.8 min manat olmuşdur.(7)

*Cədvəl 2.*

**Sığorta təşkilatlarının aktivləri və xalis mənfəəti**

| sıra | Göstəricilər | 01.01.2020 | 01.01.2019 |
|---|---|---|---|
| 1. | Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin aktivləri | 1411510,3 | 1056321,4 |
| | xalis mənfəəti | 113568,5 | 105105,9 |
| 2. | Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin aktivləri, (Qeyri-dövlət mülkiyyəti ) | 1375399,8 | 1026815,9 |
| | xalis mənfəəti | 113558,4 | 100653,9 |
| 3. | Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin aktivləri, (Xüsusi mülkiyyət ) | 1241136 | 899046 |
| | xalis mənfəəti | 104682,7 | 96751,6 |
| 4. | Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin aktivləri, (Xarici mülkiyyət ) | 44467,1 | 48437 |
| | xalis mənfəəti | 1162,3 | 1608,3 |
| 5. | Sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin aktivləri, (Birgə (xarici qarışıq) mülkiyyət ) | 89796,7 | 79332,9 |
| | xalis mənfəəti | 7713,4 | 2294 |

***Mənbə: "Sığorta təşkilatlarının fəaliyyətinin əsas göstəriciləri" statistik bülleten – Bakı - 2020***

Bütün bu qeyd olunanlar sığorta təşkilatlarında analitik-uçot sisteminin nəzəri və tətbiqi baxımdan öyrənilməsinin vacibliyini əks etdirir. Bu vaciblik əsasən sığorta təşkilatlarında aktivlərin xüsusi önəm daşımasından irəli gəlir. Beləki, sığorta təşkilatlarının likvidliyi və ödəməqabiliyyətliliyinin olması onların hər zaman öz öhdəliklərinin vaxtında təmin etmələri üçün əhəmiyyətlidir. Bu isə öz növbəsində sərəncamında olan aktivlərin xüsusəndə qısamüddətli aktivlərin səmərəli idarə edilməsini tələb edir.

Statistik göstəricilərin təhlili onu deməyə əsas verir ki, sığorta təşkilatlarında ümumi aktivlərdə qısamüddətli aktivlərin payı 70 faizdən çoxdur. Bəzən bu göstərici 80 %-dək arta bilir (cədvəl 3).

Bu baxımdan hər bir sığorta təşkilatında qısamüddətli aktivlərin uçotu və onların maliyyə hesabatlarında tanınması və bütövlükdə qısamüddətli aktivlərin idarə olunmasının uçot–analitik informasiya bazasının formalaşdırılması günün vacib məsələlərindəndir.

*Cədvəl 3.*

**Sığorta təşkilatlarında qısamüddətli aktivlərin strukturu**

| Qısamüddətli aktivlərin strukturu | 01.01.2019 | 01.01.2020 |
|---|---|---|
| ehtiyatlar | 699,6 | 666,8 |
| debitor borcları (uzun və qısamüddətli) | 99599,5 | 143164,3 |
| pul vəsaitləri və onların ekvivalentləri | 419826,3 | 469413,5 |
| O cümlədən: | | |
| nağd pul | 467,4 | 4981,8 |
| bank hesabları | 401824,1 | 459656,7 |
| digər pul vəsaitləri | 17534,8 | 4775 |
| qısamüddətli maliyyə aktivləri | 82863,3 | 141585,9 |
| sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 45285,2 | 114918,5 |
| sair aktivlər | 32274,2 | 31327,4 |
| Cəmi qısamüddətli aktivlər | 763411,4 | 1042662,3 |

***Mənbə: "Sığorta təşkilatlarının fəaliyyətinin əsas göstəriciləri" statistik bülleten – Bakı-2020***

Bütövlükdə, iqtisadiyyatımızın bazar münasibətlərinə keçidi ilə əlaqədar olaraq sahibkarlığın inkişafı, müəssisələrin yeni təşkilati-hüquqi formalarının və müxtəlif mülkiyyət növlərinin yaranması, ölkənin dünya birliyinə inteqrasiyası idarəetmədə əsaslı dəyişikliklərin aparılmasını, nəzarətin təşkili, metodologiyası və həyata keçirilməsi sisteminin yenidən qurulmasını tələb edir.

İqtisadi islahatlar sivil bazar iqtisadiyyatı münasibətlərinin formalaşmasına, səmərəli sahibkarlıq, investisiya və şəffaf informasiya mühitinin yaradılmasına istiqamətlənib.

Yaradılan bu münbit şəraitdə ölkəmizdə sığorta sferasında kifayət qədər yeni sahibkarlıq subyektləri yaranmış və müəssisələrin birgə fəaliyyəti mədəniyyəti inkişaf etmişdir. Belə olan şəraitdə sığorta təşkilatlarının iqtisadi informasiya mühitinin formalaşması onların təşkil etdiyi uçot sisteminin əhatəliliyindən və bu əsasda tərtib edilən maliyyə hesabatının keyfiyyətindən asılıdır.

Beləliklə, sığorta təşkilatlarının uçot informasiya təminatının formalaşdırılmasının nəzəri və konseptual əsasları istiqamətində aparılan tədqiqatlar əsasında belə nəticəyə gəlirik ki, sığorta təşkilatlarında strateji idarəetmənin təşkili və fəaliyyət nəticələrinin etibarlı surətdə qiymətləndirilməsi ilk növbədə istifadə olunan informasiyanın keyfiyyətindən asılıdır. Bu isə öz növbəsində sığorta təşkilatları qarşısında bir sıra vəzifələr qoyur. Bunlara aşağıdakıları aid etmək olar:

- beynəlxalq standartların tələbləri səviyyəsində hesabatlıq sisteminin təmin olunması;
- müəssisənin fəaliyyət xüsusiyyətləri və idarəetmə sisteminin tələbləri əsasında əsaslandırılmış uçot sisteminin formalaşdırılması;
- investisiya cəlbediciliyin idarə olunmasının və qiymətləndirilməsinin həyata

keçirilməsi məqsədilə daxili və xarici informasiya istifadəçilərinin maraqlarını təmin edən hesabatlıq sistemini təmin etmək;

- daimi investorların maraqları öyrənilməklə hesabatların təkmilləşdirilməsi;
- strateji idarəetmənin hədəf göstəricilərinin qiymətləndirilməsinə münbit şərait yaradan analitik-uçot informasiya bazasının yaradılmasını təmin etmək.

Fikrimizcə bu qeyd olunan istiqamətlərdə işlərin görülməsi sığorta təşkilatlarının strateji idarəetmənin analitik-uçot informasiya təminatının yüksəldilməsini təmin edəcəkdir.

**Ədəbiyyat siyahısı:**


1. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. 25 dekabr 2017-ci il.
2. Ataşov B.X. Maliyyə bazarları. Ali məktəblər üçün dərslik. Bakı, "Kooperasiya", 2016
3. Дэвид Бланд. "Страхование: теория и практика". Москва.ФИС – 2015.
4. Р.Т.Юлдашов, Ю.Н.Тронин. "Российское страхование: системный анализ понятий и методология финансового менеджмента". Москва, 2010.
5. Фатхутдинов Р.А. Стратегический менеджмент. – 9 изд., испр., доп. – М.: Дело, 2008. – 448 с.
6. Долгов А. И., Прокопенко Е. А. Стратегический менеджмент: учебное пособие. М.: Флинта, 2011. – 278 с
7. "Sığorta təşkilatlarının fəaliyyətinin əsas göstəriciləri" statistik bülleten – ADSK, Bakı-2020
8. www.maliyye.gov.az
9. www.stat.gov.az



*Həsənov İsmayıl Cəfər oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*Bakı Biznes Universiteti*


## TİKİNTİDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

Müasir dövrdə rəqəmsal texnologiyaların həyatımızda rolu getdikcə artmaqdadır. Onlara sahib olmaq yalnız dizayner üçün deyil, tikinti sahəsindəki hər bir mütəxəssis üçün məcburi bir tələbə çevrilir. İxtiraçılıq probleminin həlli nəzəriyyəsi tərəfindən ortaya qoyulan nümunələr rəqəmsal texnologiyaların tətbiqinin necə olacağını müəyyənləşdirməyə imkan verir. Texniki sistemlərin inkişaf qanunlarından biri insanın texniki sistemdən uzaqlaşdırılması qanunudur [1].

Bu statistik qanundur və çoxlu sayda ixtiranın təhlili nəticəsində aşkar edilmişdir. Bu qanuna görə, insan özünə aid olan funksiyalarını tədricən texnologiyaya ötürür. Funksiyaların əvvəlcə icra, daha sonra isə idarəetmə və qərar qəbuletmə səviyyəsində ötürülməsi baş verir. Tikintidə əvvəllər bütün əməliyyatlar insanlar tərəfindən yerinə

yetirilirdi. Çoxlu sayda insanın əl əməyi ilə təbii materialların (daş, ağac) istifadəsi, ev, körpü, su kəmərləri, kommunikasiya sistemlərinin tikilməsi ötən əsrlərin tikintisinə xas olan xarakterik cəhətlərdir.

Müasir tikintidə insanlardan bir çox funksiya müxtəlif texniki sistemlərə verilmişdir, müxtəlif avadanlıqlardan geniş istifadə olunur (ekskavatorlar, qala vinçləri, ölçü sistemləri və s.). Bir çox işlər alətlər, enerji çeviriciləri və enerji mənbəyi kimi xidmət edən texniki cihazlar tərəfindən həyata keçirilir. Tikinti işlərinin böyük bir hissəsi (bəzək, kərpic işi, pəncərələrin quraşdırılması, qapıların quraşdırılması və s.) isə hələ də əl əməyindən istifadə etməklə həyata keçirilir. Belə əməliyyatlarda texnologiya hələ də insanları işçi orqanının səviyyəsindən, enerji mənbəyindən və enerji çeviricisindən kənarlaşdırılmayıb, lakin bu cür proseslərin əmək intensivliyi azalır və bəzi əməliyyatlarda (bitirmə üçün səth hazırlığı, suvaq, beton səthini düzəltmək) ifaçı səviyyəsində insanın iştirakını istisna edən hallər artıq istifadə olunur [2].

İnsanın qərar qəbuletmə səviyyəsindən uzaqlaşdırılması prosesi o qədər də nəzərə çarpmır. Hal-hazırda investisiya-tikinti layihəsinin bütün mərhələlərində insanlar tərəfindən qərar qəbuletməsində üstünlük əldə edilməsi izlənilir.

İnsanın texniki sistemdən kənarlaşdırma prosesi ardıcıl olaraq davam edir: duyğu orqanlarının fəaliyyəti sensorlarla əvəz edilir, informasiyaların texniki avadanlıqlara çevrilməsi artıq praktiki olaraq həyata keçirilmişdir. Hazırda qərar qəbuletmə, əmrvermə, idarəetmə orqanlarının funksiyalarını texniki sistemlərə köçürmək lazım gəlir [3].

Bu baxımdan tikintidə rəqəmsal modellərə keçid prosesində həll ediləcək əsas vəzifələr bunlardan ibarət ola bilər:

- qərar qəbul etmə müddətinin qısaldılması (Time-to-Decision, T2D);
- layihələrin yerinə yetirilməsi və reallaşdırılması müddətinin qısaldılması (Timeto-Execution, T2E);
- məhsulun bazara daxil olma müddətinin qısaldılması (Time-toMarket, T2M).

Layihələndirmə mərhələsindəki rəqəmsal texnologiyalar, tikinti obyektinə onun yaradılması və sonrakı istismarı prosesində təsir göstərən bütün amilləri tam nəzərə almağa imkan verir [4]. Tikinti prosesinin mürəkkəbliyi artdıqca bu amillərin sayı da artır:

- tikintinin həcmi artır: tikintinin optimal səviyyəsinə çatmaq vəzifəsi qarşıda durur;
- ölkənin hər bir sakini üçün ildə ən azı bir kvadrat metr mənzil tikmək lazımdır;
- məhsulların, komponentlərin və xammalların miqdarı artır: yeni yükdaşıyan konstruksiyalar, istilik izolyasiya materialları, yeni pəncərə sistemləri və s. meydana çıxır. Bu artım mənzillərin rahatlığı, enerjinin səmərəliliyi və yaşayış üçün ehtiyatların (su, elektrik, istilik və s.) sərfiyyatının azalmasına daim artan tələbatla şərtlənir;
- tikintinin davametmə müddəti qısalır: tikintinin uzunmüddətli olması təkcə inşaat konstruksiyalarının tikintinin başa çatmasına qədər köhnəlməsinə gətirib çıxarmır, həm də tikintisi tamamlanmamış obyektdə kapitalın "dondurulması", müflis olmaq, kreditlərin verilməsindən imtina edilməsi və s. şəklində maliyyə vəsaitlərinin itkisi

riskinin yaranmasına səbəb olur;

- tikinti işlərinin aparılmasının məhsuldar texnologiyalarına və təşkilati metodlarına zərurət artır.

Uilyam Eşbinin Zəruri Müxtəliflik Qanununa [5] uyğun olaraq, mürəkkəb prosesləri sadə bir sistemin köməyi ilə idarə etmək mümkün deyil. Mürəkkəb sistem yalnız daha mürəkkəb bir sistem tərəfindən idarə oluna bilər. Nəticədə, dizaynerlər, sifarişçilər, podratçılar və digərlərinə tələblər artmaqdadır. Sifarişçilər sadəcə olaraq tikinti obyektlərinin layihələrini deyil, eyni zamanda bu obyektlərin funksionallığının maksimal səviyyəsi ilə xərcləri minimuma endirmək meyarlarına əsaslanan həlləri almaq istəyirlər. Podratçılar çox vaxt mürəkkəb obyektlərdəki işlərin təhvil verilmə tarixlərinə və dəyərinə uyğunlaşmırlar və tələb olunan məhsuldarlıq göstəriciləri əldə olunmur.

Hal-hazırda inşaat müəssisələrinin və tikinti proseslərinin avtomatlaşdırılmasına, intellektuallaşmasına və rəqəmsallaşdırılmasına, eyni zamanda "sistem mühəndisliyinə" keçməyə, yəni fərdi əməliyyatları deyil, eyni zamanda bütün məhsulun dizayn müddətindən başlayıb, utilizasiyada qurtarmaqla ayrı-ayrı əməliyyatları planlaşdırmağa ehtiyac var.

İqtisadi ədəbiyyatlarda rəqəmsal texnologiyalara bir neçə istiqamətdə izahlar və təriflər verilir (ingilis dilində - *Digital Technology*). Onları tədqiq etdikdən sonra yekun olaraq bu qənaətə gəlmək olar ki, rəqəmsal texnologiyalar qısa müddətdə bir sıra müxtəlif tapşırıqları yerinə yetirməyə imkan verən məlumatların kodlaşdırılması və ötürülməsi üsullarına əsaslanan diskret bir sistemdir.

İdarəetmədə istifadə olunan rəqəmsal sistemlər funksional təyinatına görə şərti olaraq aşağıdakı növlərə bölünür:

- məhsullarn həyat dövrünün nəzarət texnologiyası və texnoloji proseslərin avtomatlaşdırılmış idarəetmə sistemləri kimi təşkil və idarəetmə;
- sex səviyyəsində istehsal proseslərinin idarəetmə sistemləri.

Tikinti sektorunda riyazi modellər və ya rəqəmsal modellər bina və qurğuların layihələndirilməsində, istehsalında və istismarında istifadə olunan biliklərdən istifadə edir:

1) əsas qanunlar və elmlər (elastiklik və plastiklik nəzəriyyəsi, maşınların möhkəmliyi, dinamikası və dağılması mexanikası, istilik-kütlə mübadiləsi, hidroaerodinamika, akustika, riyazi fizika və s.);

2) real obyektlərin və fiziki-mexaniki proseslərin rəqəmsal həndəsi (CAD) və sonlu- elementli tam miqyaslı modelləri;

3) məhsulların hazırlandığı materiallar haqqında məlumatlar, o cümlədən qravitasiya, istilik, elektromaqnit və digər sahələrin təsiri altında, yüksək sürətli deformasiya, vibrasiya, zərbə, az və çox dövrlü yüklənmə barəsində məlumatlar daxil olmaqla;

4) müəyyən vəziyyətlərdə konstruksiyanın davranışını təmin edən məlumatlar da (proqramlaşdırılmış davranış) daxil olmaqla istismar rejimləri (istismar şəraiti, normal istismar şəraitinin pozulması, qəza vəziyyətləri və s.) haqqında informasiyalar;

5) Həm bütövlükdə konstruksiya, həm də onun ayrı-ayrı elementlərinin istehsal

və quraşdırma texnologiyaları barədə məlumatlar.

Tikinti üçün rəqəmsal layihələndirmə və modelləşdirməyə aşağıdakılar aiddir [4]:

- alətlərin, mexanizmlərin və maşınların rəqəmsal modelləri;
- quraşdırma proseslərinin modelləşdirilməsi, yığılma qabiliyyətinin təhlili;
- konstruksiyaların keyfiyyətinə və qurulmasına nəzarət;
- tikinti işlərinin istehsalının rəqəmsal layihəsi;
- tikintinin təşkilinin rəqəmsal modeli.

Hər bir texnologiya müəyyən bir alternativ dəstinə, başqa sözlə nəticə əldə edilə bilən vasitələrə uyğun gəlir. Texnologiyaların test yerinin təyinatı tikinti prosesinin müxtəlif variantlarını daim izləmək, təhlil etmək və praktikada qiymətləndirməkdən ibarətdir.

Rəqəmsal texnologiyalar tikintidə getdikcə daha çox istifadə olunur. İstifadə istiqamətlərdən biri də ağıllı ev və ağıllı şəhər layihələridir. Bu layihələrə əhəmiyyətli miqdarda vəsaitin xərclənməsi gözlənilir. Texnologiyalar fərqli məqsədlər üçün istifadə edilə bilər və fərqli nəticələrə səbəb olur. "Ağıllı şəhər" tipli layihələrin əsaslandırmaya ehtiyacı var. Bu cür layihələrin təsvirlərində belə tipli suallara cavab vermək lazım gəlir: qoyuluşların ödənmə müddəti, əhalinin həyat keyfiyyəti ilə əlaqəsi, cəmiyyətə və ətraf mühitə təsiri və digər suallar [4].

Rəqəmsal texnologiyalarla hansı vəzifələrin həll edilə biləcəyini, şəhər sistemində və binaların tikintisində necə istifadə edilə biləcəyini başa düşmək lazımdır. Rəqəmsal texnologiyaların istifadəsi onların imkanları ilə deyil, cəmiyyətin ehtiyacları ilə əsaslandırılmalı, hansı vəzifələri həll edə biləcəkləri, hansı problemləri, arzuolunmaz təsirləri aradan qaldıracağı əsas götürülməlidir. Avtomatlaşdırılmış layihələndirmə sistemində lazımlı proqramların istifadəsi, layihələndirmə, tikinti və istismara tətbiq olunan müasir kompüter rəqəmsal texnologiyalarının inkişafında dünya trendinin bir hissəsidir.

## Ədəbiyyat siyahısı:

1. Байбурин, А. Х. Надежность организационно-технологических систем : учеб. пособие / А. Х. Байбурин, Н. В. Кочарин, Д. А. Байбурин, С. М. Вайсман. — Челябинск : Изд. центр ЮУрГУ, 2018. — 84 с.

2. Вайсман, С. М. Разработка организационно-технологических решений в строительстве с использованием технологий информационного моделирования (ТИМ) / С. М. Вайсман, А. Х. Байбурин // Вестник ЮУрГУ. Сер. «Строительство и архитектура». — 2016. — Т. 16, № 4. — С. 21—28.

3. Гусаков, А. А. Системотехника строительства / А. А. Гусаков. — Москва : Стройиздат, 2004. — 368 с.

4. Талапов, В. В. Технология BIM: суть и особенности внедрения информационного моделирования зданий / В. В. Талапов. — Москва : ДМК-Пресс, 2015. — 410 с.

5. Эшби, У. Р. Введение в кибернетику / У. Р. Эшби. — Москва : Иностранная литература, 1959. — 432 с.

*Забаштанский М.Н.,*
*доктор экономических наук, профессор;*
*Драгунов Д.Н., аспирант,*
*Черниговский Национальный Технологический Университет,*
*г. Чернигов, Украина*

# ФИНАНСОВОЕ ОБЕСПЕЧЕНИЕ СФЕРЫ ЗДРАВООХРАНЕНИЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Процессы глобализации, которые в данное время охватили большинство стран мира, осуществляют непосредственное влияние на функционирование большинства сфер и отраслей экономики данных стран.

Особенно сильное влияние процессы глобализации осуществляют на сферу охраны здоровья, поскольку применение современных инновационных методов и подходов лечения является основополагающим в процессе определения продолжительности жизни населения, повышению продуктивности труда, эффективному развитию национальной экономики. Кроме того, приоритетной задачей каждой страны мира является сохранение здоровья нации и формирование трудового потенциала необходимого для обеспечения экономического развития.

Решение данной задачи находится в плоскости финансового обеспечения сферы здравоохранения, что позволяет поддерживать ее техническое и финансовое состояние на должном уровне. Именно наличие необходимого объёма финансовых ресурсов определяет способность данной сферы осуществлять инновационное обновление основных средств, внедрять передовые достижения в медицине, что будет способствовать улучшению состояния здоровья и повышать уровень жизнедеятельности общества.

В настоящее время финансирование сферы охраны здоровья осуществляется за следующими направлениями: медицинское оборудование; поликлиники и амбулатории; скорая помощь; специализированные поликлиники; стоматологические поликлиники; станции скорой и неотложной помощи; фельдшерско-акушерские пункты; больницы и санаторно-курортные учреждения: больницы общего профиля; специализированные больницы и другие специализированные учреждения; родильные дома; фундаментальные исследования и разработки в сфере здравоохранения; станции переливания крови.

Направления использования бюджетных средств, в процессе финансового обеспечения здравоохранения разных стран, имеют свои особенности. В менее развитых странах распределение финансовых ресурсов направлено на развитие служб первичного звена, а в экономически развитых странах акцент делается на внедрение новых медицинских технологий, совершенствование административно-управленческих механизмов и повышение качества медицинской помощи.

Необходимым условием развития государства выступает формирование действенной системы здравоохранения в стране. Страны, в которых основным показателям здоровья является средняя продолжительность жизни, которая

включает в себя детскую смертность и ряд других критериев связанных со здоровьем человека считаются развитыми. В тройку ведущих стран по основным показателям здоровья на сегодня относят Японию, Германию и США. Система здравоохранения в Японии - одна из самых развитых в мире. Ориентация на профилактику и реабилитацию населения позволила существенно снизить расходы на здравоохранение и повысить ее качество. Финансовая система здравоохранения основывается на полном охвате всего населения медицинским страхованием.

В данное время в мире существует несколько моделей финансового обеспечения здравоохранения.

Модель социального обеспечения, распространенная в Японии. Источником финансирования является обязательные отчисления, связанные с уровнем доходов. В Японии основными системами финансового обеспечения являются система страхования здоровья, она охватывает в основном мелких собственников и членов их семей, инвалидов и других неработающих лиц. Вторая система страхования лиц наемного труда, охватывающая наемных работников, является крупнейшей в Японии [1].

Модель социального страхования – финансируется за счет страховых взносов. Именно в Германии впервые было введено обязательное социальное медицинское страхование, которое, по оценкам европейских исследователей, отвечает самым высоким международным стандартам качества [2].

Модель частного финансирования – основным источником финансирования являются платежи пациентов. Данная система используется в США, где все держится на финансовом обеспечении системы частного страхования. Значительную роль в обеспечении части населения медицинской помощью играет некоммерческое страхование, которое является государственной программой поддержки для отдельных слоев населения [3].

Бюджетная модель – основными источниками финансирования являются налоговые поступления национальных бюджетов. Данная модель получила распространение в Великобритании, Швеции, Финляндии, Испании, Канаде, Австралии, Греции и Украине, где государство финансирует более 80% всех расходов на здравоохранение [4].

Глобализация создает широкие возможности для экономического роста и развития, а зарубежный опыт стран с развитыми системами здравоохранения доказывает тот факт, что медицинская сфера может эффективно и качественно функционировать только при условии существования медицинского страхования. Накопленный десятилетиями мировой опыт в этой сфере свидетельствует о высокой эффективности различных моделей и систем обязательного медицинского страхования. Именно поэтому каждая страна должна создать собственную модель медицинского страхования с учетом национальной специфики, тенденций и особенностей своего социально-экономического развития, что будет способствовать росту сильной и здоровой нации, как следствие, построении сильной и эффективной экономики.

**Список использованной литературы:**

1. Матвієнко Ю. Система охорони здоров'я в Японії / Ю.Матвієнко [Електронний ресурс]. – Режим доступу: http://msvitu. com/archive/2013/ november/article-10.php?print=1 (дата обращения: 03.11.2019).
2. Ettelt S. Основы политики. Планирование оказания медицинской помощи. Обзор международного опыта / S. Ettelt, E. Nolte, S. Thomson, N. Mays and International Healthcare Comparisons Network. – M. : Реал Тайм, 2009. – 64 с. 40.
3. Зеленевич В.О. Зарубіжний досвід фінансування охорони здоров'я / В.О. Зеленевич [Електронний ресурс]. – Режим доступу : http://intkonf.org/ zelenevich-vo-ktn-kuzmin-aizarubizhniy-dosvid-finansuvannya-ohoroni-zdorovya (дата обращения: 29.12.2019).
4. Мних М.В. Медичне страхування за кордоном та можливості його реалізації в Україні // Держава і економіка. – 2006. - №6. с. 39-41.

*Kazımov Mirəli Sahib oğlu,*
*hüquq elmləri doktoru;*
*Qarayev İmran Əliyar oğlu,*
*iqtisad elmləri namizədi,*
*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi*

## İQTİSADİ ARTIMIN STİMULLAŞDIRILMASINDA VERGİ SİYASƏTİNİN ROLU

Müasir qloballaşan dünya iqtisadiyyatında vergi siyasətinin iqtisadi inkişaf meylləri əsasında qurulması mühüm əhəmiyyət kəsb edir. Bu, bir tərəfdən, iqtisadiyyatın inkişafının davamlı xarakter almasına, digər tərəfdən isə, vergi daxilolmalarının sürətlənməsinə şərait yaradır. Son zamanlar Azərbaycanda vergi sahəsində aparılan islahatların əsas istiqamətlərindən birini vergi mexanizmləri vasitəsi ilə kölgə iqtisadiyyatının səviyyəsinin aşağı salınması təşkil edir. Aparılan müşahidələr göstərir ki, vergi daxilolmalarının stimullaşdırılmasında iqtisadi artım önəmli rol oynayır.

Nəzəri tədqiqatlar və praktiki müşahidələr sübut edir ki, vergi gəlirləri birbaşa olaraq ölkədəki mövcud iqtisadi artım səviyyəsindən asılıdır. Yalnız iqtisadi artım hesabına yüksək vergi daxilolmalarını təmin etmək mümkündür. Müxtəlif vergi növlərinin və vergi dərəcələrinin tətbiqi, vergi inzibatçılığının keyfiyyəti, vergi qanunvericiliyinin təkmilləşdirilməsi səviyyəsi bilavasitə iqtisadi artıma təsir göstərir. İqtisadi ədəbiyyatda bu problemlər daimi diqqət mərkəzində olmuşdur [1,2,3,4, 8,9,10, 11].

Vergilər həqiqətən hər bir ölkənin iqtisadiyyatının dövlət tənzimlənməsinin əsas elementlərindən biridir və vergitutma qaydasında həyata keçirilir. Vergitutma isə iqtisadi mədəniyyətin mühüm elementi kimi ictimai və dövlət həyatında təşəkkül tapan münasibətlərin ahəngdar inkişafına nail olmaq məqsədi ilə formalaşdırılan büdcənin

əsas təminat mənbəyidir və bilavasitə ölkədə həyata keçirilən vergi siyasətinin məzmunundan asılıdır. Vergi siyasətinə anlayış verməyə cəhd etsək, onu ölkənin və cəmiyyətin, habelə ayrı-ayrı sosial qrupların maliyyə vəsaitlərinə olan ehtiyacının ödənilməsi, maliyyə ehtiyatlarının yenidən bölüşdürülməsi hesabına bütövlüklə dövlətin iqtisadi-maliyyə təhlükəsizliyinin təmin edilməsi məqsədilə elmi və təcrübi cəhətdən hazırlanmış fəaliyyətin ümumi istiqaməti kimi xarakterizə etməliyik. Vergi siyasətinin əsas məqsədi, şübhəsiz, vergilərin mahiyyəti və funksiyalarından doğur və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınması və büdcə vasitəsi ilə onun yenidən bölüşdürülməsində ifadə olunur. Vergi siyasətinin normativləşdirilməsi müvafiq qanunvericilik aktlarının qəbulu yolu ilə həyata keçirilir ki, bu da öz əksini dövlətin ümumi iqtisadi inkişaf proqramlarında, iqtisadi (maliyyə) təhlükəsizliyi doktrinasında və s. bu kimi mühüm konseptual sənədlərdə tapır. Vergi siyasətinin cari dövr üzrə mənzərəsi isə, adətən, dövlət büdcəsi haqqında illik qəbul edilən qanunda formalaşdırılır.

Vergi siyasəti ilə bağlı həlli zəruri olan məsələlər sırasında ilk yerdə onun məqsəd və vəzifələrinin kifayət qədər aydın müəyyən edilməsi dayanır ki, bu da əsas etibarı ilə ölkənin konkret iqtisadi şəraitindən asılıdır. Məqsəd və vəzifələri müəyyən edildikdən sonra dövlət onun həyata keçirilməsi üsullarını işləyib hazırlayır. Vergi siyasətinin əsas məqsədi isə dövlətin ümumi iqtisadi siyasəti, vergilərin mahiyyəti və funksiyaları ilə bağlı olub, məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsi ilə yenidən bölüşdürülməsindən ibarətdir.

Qeyd etdiyimiz kimi, vergi siyasətinin məzmunu ölkənin ümumi iqtisadi inkişafı və dövlətin tipi ilə bilavasitə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə sosial yönlü bazar iqtisadiyyatının formalaşdırılması, müasir dünya iqtisadiyyatına inteqrasiya istiqamətində apardığı məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti də həyata keçirilir. Bunun nəticəsidir ki, ölkəmiz dünyanın iqtisadi və maliyyə seqmentlərində baş verən çətinliklərə, böhranlara baxmayaraq, artıq xeyli müddətdir ki, əsas iqtisadi və sosial göstəricilərə görə dünya ölkələri içərisində öncül yerlərdə qərarlaşmışdır. Belə ki, "Doing Business" hesabatında ölkəmiz biznes mühitinə görə dünya miqyasında 25-ci yerdədir. Son hesabatda Azərbaycan 20 ən islahatçı ölkə sırasında yer almışdır. Davos Ümumdünya İqtisadi Forumunun dərc olunmuş son hesabatına əsasən (bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilən tədqiqatın nəticələri əsasında hazırlanmışdır və burada rəqabətqabiliyyətliliklə bağlı bir çox meyarlar (ictimai-siyasi vəziyyət, cinayətkarlığa qarşı mübarizə, iqtisadi islahatlar, sosial islahatlar, infrastruktur və s.) nəzərə alınmışdır, Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə görə dünyada 18-ci yerdə, polis orqanlarına əhali tərəfindən olan inamın səviyyəsinə görə 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində yerimiz 37-cidir. Hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan 10-cu, rəhbərliyin dəyişikliklərə, yəni, islahatlara meyillilik səviyyəsinə görə dünyada 5-ci yerdədir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə ikinci, biznesi başlamaq baxımından 8-ci yerdədir. Minimum pensiyanın alıcılıq qabiliyyəti səviyyəsinə görə MDB məkanında birinci yerdə, orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Göründüyü kimi, ölkəmizin dinamik iqtisadi inkişafının nəticələri bilavasitə sosial sferaya da öz müsbət təsirini

göstərir.

Aydındır ki, ölkənin iqtisadi inkişafı müxtəlif məzmunlu və xarakterli amillərdən asılıdır. Lakin bu amillər sırasında vergi növlərinin və vergi dərəcələrinin tətbiqi, vergi inzibatçılığının keyfiyyəti, vergi qanunvericiliyinin təkmillik səviyyəsi iqtisadi artıma, şübhəsiz, özünün həlledici təsirini göstərir. Bu baxımdan dövlət büdcəsinin formalaşmasında ölkə iqtisadiyyatının vəziyyətindən birbaşa asılı olan vergi yığımlarının rolu çox mühümdür. Ölkə iqtisadiyyatı güclü olduqca vergi orqanları üçün fiskal öhdəliklərin icrası asanlaşır, əksinə, iqtisadi böhran və ya durğunluq şəraitində vergi orqanları tərəfindən dövlət büdcəsinə daxilolmaların təmin edilməsi imkanları xeyli dərəcədə mürəkkəbləşir.

Ölkədə həyata keçirilən vergi siyasəti, şübhəsiz, birbaşa makroiqtisadi səviyyədə vergi yükünə təsir göstərir. Qloballaşan dünyada iqtisadi artımın əsas göstəricisi olan ÜDM-in formalaşmasında ölkədə fəaliyyət göstərən multi-milli korporasiyalar, beynəlxalq şirkətlər əhəmiyyətli rol oynayır. Yalnız o faktı qeyd etmək olar ki, hal-hazırda dünyada həyata keçirilən beynəlxalq ticarət əlaqələrinin 80%-i multi-milli korporasiyalar tərəfindən həyata keçirilir. Həmin şirkətlərin müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərməsi onların gəlirlərinin artırılması məqsədilə vergilərin minimuma endirilməsi məsələsini real surətdə həyata keçirilməsinə imkan verir ki, nəticədə külli miqdarda vəsait dövlət büdcəsindən yayındırılır. Cədvəl l-də müxtəlif ölkələr üzrə vergi yükünün göstəriciləri verilmişdir. Göründüyü kimi, Azərbaycanda vergi yükü digər ölkələrlə müqayisədə xeyli aşağıdır. Burada ölkə üzrə vergi yükü gömrük rüsumlarından daxilolmalar nəzərə alınmaqla hesablanmışdır.

***Cədvəl 1.***

**Ölkələr üzrə vergi yükünün paylanması (2017-ci il ÜDM-ə nisbətdə %-lə)***

| | |
|---|---|
| Azərbaycan | 12,1 |
| Belcika | 44,6 |
| Türkiyə | 24,9 |
| ABŞ | 27,1 |
| Meksika | 16,2 |
| İsvecrə | 28,5 |
| Polşa | 33,9 |
| İsvec | 44 |

*** Revenue Statistics 2018/ Tax revenue trends in the OECD. OECD 2018**

Lakin göründüyü kimi, inkişaf etmiş ölkələrdə vergi yükü kifayət qədər yüksəkdir. Ən yüksək vergi yükü güclü sosial siyasət həyata keçirən Skandinaviya ölkələrində müşahidə edilir. İsveçdə vergi yükü 2017-ci ildə 44% təşkil etmişdir. Vergitutma iqtisadiyyatının əsas prinsiplərinə görə iqtisadi artımı stimullaşdıran vergi siyasəti aşağıdakı ümumi cəhətləri özündə birləşdirməlidir:

- vergi yükünün aşağı salınması;
- vergi yükünün istehsaldan istehlaka və əmlaka keçirilməsi;
-aşağı vergi dərəcələrini tətbiq etməklə, vergitutma bazasının genişləndirilməsi;
- vergi kreditlərinin verilməsi;

- vergi qanunvericiliyinin sadələşdirilməsi və s .

Vergi siyasətinin iqtisadi artıma təsir mexanizmlərinin araşdırılması sahəsində aparılan beynəlxalq təcrübə sübut edir ki, bu ümumi cəhətlər hər bir ölkədə fərqli təsir dərəcəsinə malikdir. Məsələn vergi yükünün istehsaldan istehlaka keçirilməsi ancaq iqtisadi islahatlar apardıqdan sonra gözlənilən nəticələri verə bilər. Əmlak vergisinin dərəcəsinin artırılması ev təsərrüfatlarının əmlakdan azad olunmasını stimullaşdırılır və nəticədə onun satışından əldə olunan vəsaitin investisiyalar istiqamətində yönəldilməsinə şərait yaranır. Belə olduğu halda əldə olunan vəsaitlər daha mobil xarakter daşıdığına görə qisa müddətdə mənfəət verən sahələrə yönəldilməklə iqtisadi artımı stimullaşdırır.

Qloballaşmanın sürətlənməsi, informasiya imkanlarının gücləndirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı vergi sisteminin formalaşmasında aşağıdakı ümumi prinsiplərin nəzərə alınması zərurətini qarşıya çıxarır:

- Vergilər birbaşa olaraq maya dəyərinə təsir göstərir. Bu isə qlobal iqtisadiyyatda rəqabət qabiliyyətli mühitdə struktur dəyişikliklərin baş verməsinə, iqtisadiyyatın müxtəlif sektorlarında nisbi üstünlüklərin əmələ gəlməsinə səbəb olur;
- Gəlir vergisinin yüksək olması əmək resurslarının miqrasiyasına səbəb olur. Bu isə növbəsində yüksək təhsil səviyyəsinə malik olan işçilərin aşağı vergi dərəcəli ölkələrdə işləməklə yüksək gəlirlərin əldə edilməsini stimullaşdırır;
- Hüquqi şəxslərin mənfəət vergisi dərəcəsi investisiyaların hansı ölkələrdə yerləşdirilməsinə təsir göstərir. Vergi siyasətı ölkədə rəqabətqabiliyyətli mühitin formalaşmasında mühüm rol oynayır. Lakin aşağı vergi dərəcələri hesabına iqtisadiyyatını inkişaf etdirən ölkələr çox qısa bir müddət ərzində investiyaların cəlb edilməsinə baxmayaraq uzun müddətli dövrdə daimi vergi sistemindən həssas şəkildə asılı bir vəziyyətə düşürlər;
- Beynəlxalq aləmdə əmək bazarında baş verən dəyişikliklər, iqtisadiyyatın tələbləri ilə əmək bazarında məşğulluğun strukturundakı uyğunsuzluq, yüksək ixtisaslı mütəxəssislərlə, ixtisassız əmək arasındakı fərqlər vergi sisteminin təkmilləşdirilməsini tələb edir;
- Qloballaşma şəraitində tətbiq edilən korporativ vergilərin dərəcəsi multi-milli şirkətlərin istehsalının hansı ölkədə təşkil edilməsinə birbaşa təsir göstərir və beləliklə kapitalın yüksək vergi dərəcələrinə malik olan ölkələrdən aşağı vergi dərəcəli ölkələrə axını baş verir.

Bu isə onu göstərir ki, iqtisadi artımı stimullaşdırmaq məqsədi ilə aparılan vergi siyasəti beynəlxalq aləmdə baş verən proseslərə uyğun şəkildə aparılmalıdır. Artıq heç bir ölkə qapalı şəkildə öz vergi siyasətindəki mövcud problemləri təklikdə beynəlxalq konvensiyalara qoşulmadan həll etmək iqtidarında deyildir. Bu isə vergi siyasəti sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsini tələb edir.

İqtisadi nəzəriyyə sübut edir ki, vergi siyasəti birbaşa olaraq ümumi daxili məhsulun (ÜDM) artım sürətlərinə təsir göstərir. Lakin, buna baxmayaraq bir çox səbəblərə görə bu təsirlərin riyazi-iqtisadi modellər vasitəsi ilə qiymətləndirilməsi kifayət qədər çətindir. Bu səbəblərin ümumi cəhətlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Vergi sistemi bir çox müxtəlif tipli vergilərdən ibarətdir. Bu vergi növləri isə

xarakterinə və xüsusiyyətinə görə bir-birindən fərqlidir. Məsələn, istehlak vergiləri ilə birbaşa vergilərin iqtisadi artıma təsiri tam şəkildə fərqlidir.

- Yalnız bir vergi növü dərəcəsində baş verən dəyişikliklər ÜDM-in müxtəlif komponentlərinə təsir göstərir. Məsələn, fiziki şəxslərin gəlir vergisində və sosial vergilərin dərəcələrində baş verən azalmalar məşğulluğun səviyyəsini artırmaqla yanaşı, yüksək ixtisaslı təhsilə çəkilən xərclərin alternativ dəyərini artırır. Bu isə öz növbəsində təhsilə yönəldilən investisiyaların stimulunu azaldır.

- Vergi islahatları, adətən, bir vergi növünü yox, ümumi vergi sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bunun nəticəsində ÜDM-in determinantlarının əksər komponentləri təsirə məruz qalır.

- İqtisadi islahatlar yalnız vergi siyasətini deyil, digər sahələrdəki, məsələn, investisiya, sahibkarlığın inkişafı, sosial sahələrdə dövlət tərəfindən həyata keçirilən siyasəti nəzərdə tutur. Çox vaxt bu siyasətlər paralel olaraq həyata keçirildiyinə görə hansının təsirinin daha çox olmasını demək mümkün deyildir. Ekonometrik modellərə daxil olan izahedici dəyişənlərdə olan multikolleniarlıq xüsusi riyazi metodların tətbiq edilməsini tələb edir.

Vergi siyasətinin iqtisadi artıma təsirinin hərtərəfli araşdırılması ümumi tarazlıq modelinin qurulmasını zəruri edir. Bu modellər sisteminin əsas məqsədi iqtisadi sistemdə baş verən dəyişikliklərə uyğun olaraq makro və mikro səviyyədə vergi proqnozlarının və potensialının qiymətləndirilməsi və vergi siyasətində baş verə biləcək dəyişikliklərin kompyuter imitasiyası şəklində təhlilinin aparılmasından ibarətdir.

Beynəlxalq təcrübədə istehlak vergiləri iki əsas təsnifat üzrə qruplaşdırılır:

- Ümumi istehlak vergiləri;
- Xüsusi istehlak vergiləri.

Birinci qrup vergilərə klassik olaraq əlavə dəyər vergisi (ƏDV) və malların satışından və xidmətlərin göstərilməsindən tətbiq edilən satış vergisini göstərmək olar. İkinci növ vergilərə bir qrup mal və xidmətlər üçün tətbiq edilən aksizləri və idxal rüsumlarını aid etmək olar. İqtisadi ədəbiyyatda, adətən, istehlak vergiləri dolayı vergilər olmaq etibarı ilə neytral xarakter daşıyır və mənfəət vergisinə nisbətən ev təsərrüfatlarının və şirkətlərin qərarvermə prosesinə az təsir göstərir. Adətən, istehlak vergiləri proqressiv xarakter daşımır və vahid vergi dərəcəsi üzrə tətbiq edilir. Bu xüsusiyyətinə görə istehlak vergilərinin ÜDM-ə təsiri nisbətən zəifdir.

İqtisadi sistemdə baş verən dəyişikliklər birbaşa olaraq vergi potensialına və vergi daxilolmalarının proqnoz göstəricilərinə təsir göstərir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün ümumi iqtisadi tarazlıq modellərinin aşağıdakı əsas alt sistemləri hazırlanmalıdır:

- Çox sektorlu ümumi tarazlıq modelinin qurulması;
- İstehlak vergiləri üzrə mikrosimulyasiya modellərinin qurulması;
- Birbaşa vergilər üzrə simulyasiya modellərinin qurulması;
- Ümumi tarazlıq modeli çərçivəsində vergi sistemi modellərinin uzlaşdırılması;

Vergi siyasətinin təhlil edilməsi prosesində qarşıya qoyulan əsas məsələlərdən biri də iqtisadiyyatın vergi yükünün qiymətləndirilməsindən ibarətdir. Vergi yükünün qiymətləndirilməsi zamanı iqtisadiyyatın mövcud vəziyyəti, onun quruluşu, xarici iqtisadi əlaqələri nəzərə alınmaqla yanaşı, vergi yükünün struktur və konyunktur tərkib

hissələri də təhlil olunmalıdır.

Əgər dövlət büdcəsinə daxil olan vergilər xarici bazardakı mövcud qiymət münasibətlərindən asılıdırsa, onda belə vergi daxilolmaları vergi yükünün konyunktur, əks halda isə struktur komponentləri adlandırılır. Vergi gəlirlərinin struktur tərkib hissələri fundamental amillərdən –vergi qanunvericiliyindən, vergi dərəcələrindən asılı olmaqla iqtisadiyyatın strukturu ilə təyin olunur. Konyunktur komponent isə bilavasitə xarici bazardakı mövcud qiymətlərin səviyyəsindən asılı olmaqla dəyişməyə meyllidir. Azərbaycan iqtisadiyyatının ixrac potensialında neft sektorunun payı yüksək olduğundan, onda dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər vergi yükünə təsir göstərə bilir.

Dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər bir çox iqtisadi və siyasi amillərdən asılı olduğundan onun qiymətlərinin dinamikasını proqnozlaşdırmaq mümkün deyildir. Bu isə vergi daxilolmalarının proqnozlaşdırılması üçün struktur komponentlərdən istifadə olunmasını zəruri edir. Dünya bazarında neftin qiymətindəki baş verən dəyişikliklər əgər orta qiymətlərindən kəskin şəkildə fərqlənərsə, onda vergi yükündə baş verən dəyişikliklər (vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi) ümumi vergi yükünə təsir göstərən vergi sisteminin dəyişilməsi kimi qiymətləndirilə bilməz. Dünya bazarında qiymətlərin qalxması nəticəsində büdcəyə daxil olan vergi gəlirlərinin artması və onun ÜDM-də xüsusi çəkisinin yüksəlməsi həmçinin vergi yükünün artması kimi qəbul edilməməlidir.

Azərbaycanda ölkə iqtisadiyyatında baş verən inkişaf vergi sistemində səmərəli islahatların aparılmasına, bu sahədə mobil və aktiv vergi siyasətinin həyata keçirilməsinə şərait yaratmışdır. 2003 - 2020-ci illər ərzində vergi sisteminin təşkilati-nəzarət potensialının daha da gücləndirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, vergi inzibatçılığının bütün sahələrində müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması sahəsində həyata keçirilən iri miqyaslı tədbirlər qısa müddətdə öz müsbət təsirini göstərmişdir.

Hal-hazırda dünyanın inkişaf etmiş ölkələrində verginin istehsaldan istehlaka ötürülməsi meylləri artmaqdadır. Mənfəət vergisinin dərəcələri aşağı salınmaqla dolayı vergilərin dərəcələri qaldırılır. Gələcəkdə əmlak vergisinin potensial mənbə kimi rolunun artması da beynəlxalq təcrübədə əsas gözləntilərdən biridir.

Azərbaycanda vergi sisteminin inkişafının növbəti mərhələsi olaraq vergi siyasəti vasitəsi ilə kölgə iqtisadiyyatının səviyyəsinin aşagı salınması vacib istiqamətlərdən biri kimi qeyd olunur. Azərbaycanın müasir dövrdə əldə etdiyi nailiyyətlər həm də ölkə həyatında şəffaflığın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilməsi ilə bağlıdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının İqtisadiyyat naziri cənab Mikayıl Cabbarov 2019-cu il 18 fevral tarixində "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda keçirilən beynəlxalq forumda demişdir: "2018-ci ildə apardığımız işlərdə şəffaflığa nail olunmasına çalışmışıq və fəaliyyət prinsiplərimizi indi də dəyişməz saxlayırıq. Çünki ölkə Prezidenti vergi sistemində şəffaflığın təmin edilməsini prioritet vəzifə olaraq müəyyən etmişdir. Vergi sistemində başlanılan yeni islahatlar, vergi ödəyiciləri ilə aydın və şəffaf münasibətlərin qurulması işgüzar mühitdə böyük gözləntilər yaratmışdır".

Vergi sistemində ədalətli və şəffaf münasibətlərin formalaşdırılmasının təminatlarından biri vergi ödəyiciləri arasında vergitutma rejiminin bərabərləşdirilməsi, ayrı-seçkiliyə yol verməyərək, hamı üçün eyni şərtlərin tətbiq edilməsidir. Fikrimizcə, bazar iqtisadiyyatı şəraitində biznes münasibətlərinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsi çox vacib istiqamətlərdən biridir. Bazarın ayrı-ayrı iştirakçılarına seçmə yolu ilə verilən hətta ən kiçik güzəştlər bəzən bütün iqtisadiyyatın rəqabətliliyinə öz mənfi təsirini göstərir və işgüzar aktivliyin rəsmi sahədən qeyri-rəsmi sahəyə keçidinə gətirib çıxarır. Dövlətin, vətəndaşın və sahibkarın maraqları bir-birinə uyğun gəlməlidir. Ədalətli qanunlar paketi ilə sağlam rəqabət məkanı yaradılmalı, səmərəli işlək mexanizmlərin tətbiqinə nail olunmalıdır. Bütün vergi ödəyicilərinə münasibətdə qanunun dəqiq və eyni cür tətbiqinə nail olmadan, vergi sahəsində şəffaflığın və qanunçuluğun təmin edilməsindən və iqtisadiyyatın uğurlu inkişafından danışmaq mümkün deyildir.

## Ədəbiyyat siyahısı:


1. Musayev A.F. "Moderləşdirmə və aktiv vergi siyasəti" Azərbaycanın vergi jurnalı, 2012 № 6
2. Qarayev İ.Ə. Beynəlxalq təcrübədə vergi xərcləri və vergi güzəştlərinin tətbiqi. Azərbaycanın vergi jurnalı 2017 № 3
3. Garayev İ.A. Globalization and Tax policy. EcoMod 2017. İnternational Conference on Economic Modeling . Sloveniya 2017. p. 64-66
4. Qarayev I.Ə., Rəcəbov B.Ə., Rəsulova G.B. Vergi siyasəti və iqtisadi artımın stimullaşdırılması Azərbaycanın vergi jurnalı 2016 № 1
5. Musayev A.F. "Vergi siyasətinin iqtisadi problemləri" Bakı. 2004
6. Musayev A.F., Qarayev İ.Ə. "Sosial siyasət və iqtisadi inkişaf" Azərbaycanın vergi jurnalı 2013 № 1
7. Musayev A.F., Qarayev İ.Ə. "Elektron kommersiya və vergitutma" Azərbaycanın vergi jurnalı 2013 № 2
8. Тарасов В.Ф., Владыка М.В., Сапрыкина Т.В., Семыкина Л.Н. Налоги и налогообложение. Учебник, Москва, 2012
9. Пансков В.Г. Налоги и налогообложение. Учебник Москва 2018
10. David Romer Advanced makroeconomics. Second edition. Mc.Graw.Hill 2013
11. OECD (2010) *Tax Policy Reform and Economic Growth*, OECD Tax Policy Studies, No. 20
12. W.Beck, J.Laurent, van der Macsen and Alan Walker Social Quality: A Vision for Europe. Kluwer Law International 2002
13. The Journal of Private Enterprise, The Impact of Economic Growth, Tax Policy and Economic Freedom on İncome İnequality. 24 (1), 2008, 23-31
14. OECD (2009) Transver Pricing Guidelines for Multinational Enterprises and Tax Administrators.

*Москаленко В.А.,*
*кандидат экономических наук, доцент,*
*Черниговский Национальный Технологический Университет,*
*г. Чернигов, Украина*

# СОВРЕМЕННЫЕ МЕТОДИКИ КАЛЬКУЛЯЦИИ СЕБЕСТОИМОСТИ УСЛУГ В ГОСТИНИЧНОМ БИЗНЕСЕ

Сегодня, отечественная и мировая индустрия туристического и гостиничного бизнеса находится в жестких условиях конкурентной борьбы за каждого клиента и вынуждена очень быстро реагировать на изменения условий хозяйственной деятельности [1]. Основные ошибки и трудности в развитии предпринимательства в отрасли гостиничных услуг сопряжены с незрелостью стратегического и экономического планирования [2].

Определение себестоимости услуг размещения гостей в номерах гостиницы и дополнительных услуг, формирующих имидж гостиницы, на сегодняшний день, является одной из основных задач учета, планирования и управления в гостиничном бизнесе. В первую очередь показатель себестоимости одних суток размещения гостей используется для принятия множества управленческих решений. Прибыльность бизнеса зависит от информации о калькуляции себестоимости по таким причинам: полная себестоимость услуг размещения является базой для установления цены продажи номерного фонда гостиницы; информация о себестоимости лежит в основе прогнозирования и управления производством, а также используется при решении огромного количества текущих оперативных задач управления.

Таким образом, эффективная организация управления затратами и процесса калькуляции себестоимости услуг должна стать приоритетным направлением в развитии гостиничного бизнеса. Учитывая международный опыт определения себестоимости услуг размещения гостей в номерном фонде, мы выделяем эксплуатационную и полную себестоимость.

Эксплуатационную себестоимость человеко-суток используют, как правило, в управленческом учете, для формирования информации необходимой для принятия текущих и стратегических управленческих решений. Эксплуатационная себестоимость определяется как сумма общих эксплуатационных расходов на единицу услуг. Полная же себестоимость услуг размещения включает и эксплуатационные расходы (прямые и определенная часть общих эксплуатационных расходов), и общие хозяйственные расходы (административные расходы, сбытовые расходы и другие общехозяйственные расходы). Полная себестоимость используется в гостиничном бизнесе для ценообразования.

Исходя из этого следует четко классифицировать все расходы гостиницы в три основные группы:

- прямые эксплуатационные расходы;
- общие эксплуатационные расходы;
- общие хозяйственные расходы.

К прямым эксплуатационным расходам относят: заработную плату обслуживающего персонала которую прямо списываем на  отдельные категории номерного фонда гостиницы; социальные отчисления (с прямой заработной платы); амортизацию номерного фонда; текущий ремонт номерного фонда; затраты на содержание помещений номерного фонда (отопление, доставка воды канализация, электроэнергия, стирка белья и другие подобные затраты);  другие материальные затраты (в том числе на приобретение предметов индивидуального использования клиентов); затраты на содержание телефонов, радио, часов, компьютеров, и прочее.

Общие эксплуатационные расходы включают: расходы на содержание помещений общего использования гостиницы и примыкающей территории; амортизационные отчисления; расходы на противопожарные мероприятия; износ малоценного инвентаря; расходы на охрану труда и технику безопасности; расходы на повышение профессиональной квалификации кадрового состава и другие общие эксплуатационные расходы.

Общие хозяйственные расходы в свою очередь можно объединить в три группы: административные расходы гостиничного комплекса (заработная плата сотрудников аппарата управления с отчислениями на социальные мероприятия, расходы на подготовку управленческих кадров, расходы на командировки, расходы на содержание административных помещений, расходы на приобретение канцелярских принадлежностей, затраты на содержание офисной техники и прочее); расходы на сбыт (расходы на маркетинг, в том числе рекламу, представительские расходы по сбыту услуг); другие общие хозяйственные расходы.

Себестоимость единицы услуг размещения гостей является основой для расчета минимального уровня цены на проживание в номере гостиницы. Тем не менее планирование себестоимости услуг проживания в номерах отличающихся между собой по качеству и категорией, связанные с трудоемкими расчетами затрат по каждой калькуляционной статье. Поэтому на практике большинство предприятий гостиничного хозяйства определяют только плановую среднюю стоимость единицы услуг (одних человеко-суток размещения гостей) и на этом основании устанавливают коэффициенты пересчета к действующим ценам на услуги размещения в номерах определенной категории [3].

Такая методика формирования тарифов на услуги проживания в отечественных гостиничных комплексах, на наш взгляд, экономически недостаточно обосновывает формирование стоимости услуг. Мы считаем, что экономически целесообразным будет применение методики дифференциации общей стоимости услуг размещения по отдельным категориям номеров гостиницы, используя при этом «метод эквивалентных чисел». Для расчетов используются показатели прямых эксплуатационных затрат по категориям номеров гостиницы. Такие расчеты буду служить более объективной базой определения гостиничных тарифов.

Таким образом для определения тарифов необходимо сначала рассчитать прямые эксплуатационные по отдельным категориям номеров гостиницы. Используя этот показатель рассчитывают коэффициент соотношения прямых

эксплуатационных затрат по категориям номеров гостиницы к средней величине прямых затрат в расчете на один номер. Далее план реализации номеров (человеко-суток) корректируют на коэффициент соотношения прямых эксплуатационных расходов по категориям номеров гостиницы к средней величине прямых расходов в расчете на один номер и таким образом получают те званые «эквивалентные числа», которые поменяют при распределении общих эксплуатационных административных и других общехозяйственных расходов.

Принципы рассмотренной выше методики применяют и при расчетах себестоимости дополнительных услуг гостиничного бизнеса (услуги камеры хранения, фитнес-центра, салона красоты, сдачи в аренду конференцзалов, спортивных площадок и прочее).

Таким образом, использование данной методики даст возможность более эффективно осуществлять управление затратами гостиничного хозяйства и главное устанавливать реальные тарифы на все предоставляемые гостиницей услуги.

**Список использованной литературы:**


1. Грищенко Д.А. Инновационное развитие гостиничного предприятия. *Инновационная наука*. 2016. №1. С. 53 – 55
2. Рогова И.А. Гостиничный бизнес в современных условиях: актуальные тенденции и условия развития. Вестник университета. 2018. №3. С.83– 87
3. Москаленко В.А. Особливості калькулювання собівартості послуг та оподаткування в готельному бізнесі. *Вісник НУБіБ.* 2014. №4. С.144-–151



*Həsənov Əbdül-Səməd Həsənağa oğlu,*
*iqtisad elmləri namizədi, dosent,*
*AMEA İqtisadiyyat İnstitutu*


## DÜNYA BANKININ "DOİNG BUSİNESS" 2020 HESABATINDA AZƏRBAYCAN ÜZRƏ "BEYNƏLXALQ TİCARƏT" İNDİKATORUNUN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

"Biznesin aparılması" məruzəsi (ingilis dilində Doing Business Report) – 10 indikator əsasında 190 ölkədə sahibkarlıq fəaliyyətinin sadəliyini qiymətləndirən Dünya Bankı qrupunun illik tədqiqatıdır. Məruzə kiçik və orta müəssisələrin bütün həyat tsiklləri ərzində fəaliyyətlərini tənzimləyən normativ aktların qiymətləndirilməsi və təcrübədə tədbiqi qaydalarının qiymətləndirilməsinə həsr olunur. Bu məruzələr 2003-cü ildən, əsasən də payızda tərtib edilir. 2005-ci ildən (Doing Business 2006) məruzəyə biznesin aparılmasının sadəliyi üzrə dünya ölkələrinin reytinqi daxil edilib, 2006-cı ildən isə (Doing Business 2007) dövlətlər indikatorlar üzrə də təsnifləşdirilir.

Ümumi indeks 10 daxili indikatorlara əsaslanır: 1. Müəssisələrin qeydiyyatı – müəssisə yaratmaq üçün prosedurlar, vaxt, xərclər və minimal kapital; 2. Tikintilərə icazələrin alınması – prosedurlar, vaxt və anbar tikintisinə xərclər; 3. Elektrik Təchizatı şəbəkələrinə qoşulma – elektrik təchizatını almaq üçün prosedur, vaxt və xərclər; 4. Əmlakın qeydiyyatı – kommersiya daşınmaz əmlakının qeydiyyatı üçün prosedur, vaxt və xərclər; 5. Kreditlərin alınması – yuridik hüquqların gücü və kredit informasiyalarının dərinliyi; 6.Minoritar investisiyaların qorunması – maliyyə göstəricilərinin açıqlığı, rəhbərliyin cavabdehliyi və investorlar tərəfindən məhkəmə iddialarının sadəliyi; 7.Vergi qoyma – vergilərin sayı, vergi hesabatlarının hazırlığı üçün vaxt, ümumi vergi mənfəətin payı kimi; 8. Beynəlxalq ticarət – ixrac və idxal üçün lazım olan sənədlərin sayı, xərclər və vaxt; 9. Kontraktların icrasının təmin olunması – borcların ödənilməsini təmin etmək üçün prosedur, vaxt və xərclər; 10. Müəssisənin bağlanması – müflis olmuş şirkətin bağlanması üçün ödənişlərin faizi, vaxt və əlavə xərclər [1] .

*Cədvəl 1.*

**Azərbaycan Respublikasının Dünya Bankının "Doing Business" hesabatında 2006-2020-ci illər üzrə reytinqinin dinamikası.**

| İllər | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbay-can | 98 | 99 | 96 | 33 | 38 | 54 | 66 | 67 | 70 | 80 | 63 | 65 | 57 | 25 | 34 |

***Mənbə: [2]***

Cədvəldən göründüyü kimi, Azərbaycan Respublikası son illər böyük irəliləyiş əldə edib. Belə ki, "Doing Business" hesabatının 2006-2020-ci ilin tədqiqatlarından göründüyü kimi, respublikamız 190 ölkə arasında 98-ci pillədən 34-cüyə yüksəlmişdir. Ayrı-ayrı illərdə də yaxşı nailiyyətlər əldə edilmişdir və ölkəmiz Dünya Bankının "Doing Business" hesabatında yüksək yerləri tutmuşdur. Məsələn, 2019-cu ildə - 25-ci yeri, 2009-da – 33-cü, 2020-də - 34-cü, 2010-da - 38-ci yeri və s. Respublikamız üçün nisbətən aşağı yerləri tutmaq, 2006-2008-ci illərdə müşahidə edilmişdir, müvafiq olaraq: 2006 – 98, 2007 – 99, 2008 – 96-cı yerlər. Son illərdə bu reytinqdə irəliləmələr Azərbaycanda aparılan davamlı islahat proseslərinin nəticəsidir.

Yuxarıda qeyd edildiyi kimi, "Biznesin aparılması" hesabatı 10 indikator üzrə tədqiqat aparır. Onlardan biri də "beynəlxalq ticarət" indikatorudur. Əvvəllər o, 6 göstərici əsasında qurulurdusa, hal-hazırda göstəricilərin sayı 8-ə çatıb.

"Biznesin aparılması" tədqiqatı bu indikator üzrə məhsul ixracı və idxalı logistikası üçün vaxt və maliyyə xərclərini qiymətləndirir. 2018-ci ildə tətbiq edilən metodologiyaya əsasən, tədqiqatda, göndərilən malların ixracı və idxalı zamanı 3 mərhələni (sənədlərin tərtibatında tələblərə riayət edilməsi, sərhəd tələblərinə riayət və

məhsulların ölkədaxili daşınması) keçmək üçün məcmu vaxtı və maliyyə xərclər (rüsumlardan başqa) ölçülür. "Biznesin aparılması" tədqiqatı ixrac prosedurlarının qiymətləndirilməsi zamanı rəqabətqabiliyyətli məhsullar hər bir ölkə üçün baxılır, idxal prosedurlarının qiymətləndirilməsi zamanı isə vahid və geniş yayılmış məhsul – avtomobil ehtiyat hissələri nəzərə alınır. Prosedurların qiymətləndirilməsi zamanı, baxılan məhsul və ticarət tərəfdaşı nəzərə alınaraq, ən geniş yayılmış, nəqliyyat daşıma növündən istifadə edilir (ən tanınmış liman hava limanı, ya da sərhədkeçmə məntəqəsi kimi). Layihə üzrə məlumatların yığılmasının son raundu 2018-ci ilin may ayında yekunlaşmalı idi. [3]. 2020-ci ilin hesabatında metodologiyada bir balaca dəyişiklik edilib.

***Cədvəl 2.***

**Dünya Bankının "Doing Business" 2020 hesabatında "Beynəlxalq ticarət" indikatoru üzrə birinci 17 ölkənin reytinqi.**

| Ölkə | Qlobal reytinq | Beynəlxalq ticarət |
|---|---|---|
| Danimarka | 4 | 1 |
| Avstriya | 27 | 1 |
| İspaniya | 30 | 1 |
| Fransa | 32 | 1 |
| Sloveniya | 37 | 1 |
| Portuqaliya | 39 | 1 |
| Polşa | 40 | 1 |
| Çex Respublikası | 41 | 1 |
| Niderland | 42 | 1 |
| Slovakiya | 45 | 1 |
| Belçika | 46 | 1 |
| Xorvatiya | 51 | 1 |
| Macarıstan | 52 | 1 |
| Rumıniya | 55 | 1 |
| İtaliya | 58 | 1 |
| Lüksemburq | 72 | 1 |
| Estoniya | 18 | 17 |

Dünya Bankının "Doing Business" 2020 hesabatında dünya ölkələrinin "Beynəlxalq ticarət" indikatoru üzrə reytinqinə nəzər saldıqda görürük ki, bu indikator üzrə Avropanın 16 ölkəsi 1-ci yerdədilər. Bunlar Danimarka, Avstriya, İspaniya, Fransa, Sloveniya, Portuqaliya, Polşa, Çex Respublikası, Niderland, Slovakiya, Belçika, Xorvatiya, Macarıstan, Rumıniya, İtaliya və Luksemburq ölkələridir.

Qeyd etməliyik ki, bu 16 ölkə, qlobal reytinqdə də nisbətən qabaqcıl yer tutaraq 4-cü yerdən (Danimarka) 72-ci yerə qədər (Luksemburq), qərarlaşıblar. Deməli, bu ölkələrin "Beynəlxalq ticarət" indikatoru üzrə 1-ci yeri tutmaları qlobal reytinqdəki nisbətən yuxarı mövqe tutmalarına da təsir göstərib.

Azərbaycan "Beynəlxalq ticarət" reytinqində 83-cü yeri tutub.

Çox maraqlıdır ki, qlobal reytinqdə 1-ci yeri tutan Yeni Zelandiya "Beynəlxalq ticarət" indikatoru üzrə 63-cü yeri, 2-ci yeri tutan Sinqapur 47-ci yeri, 3-cü yeri tutan Honkonq – 29-cu yeri, 4-cü yerdə olan Danimarka – 1-ci yeri, 5-ci yerdə olan Koreya Respublikası – 36-cı yeri, 6-cı yerdə qərarlaşan nüfuzlu ABŞ 39-cu yeri tutmuşlar.

Qlobal reytinqdə 34-cü yeri tutan Azərbaycan, qeyd etdiyimiz kimi "Beynəlxalq ticarət" göstəricisinə görə 83-cü yerdədir (keçən ilin hesabatında respublikamız, müvafiq olaraq 25-ci və 84-cü yerdə olmuşdur).

"Beynəlxalq ticarət" indikatoru üzrə reytinq və subindekslərinin 190 ölkə üzrə təhlil aparılması bir az çətin məsələ olduğuna görə, biz reytinqdə birinci 20 yeri tutan ölkələrin göstəricilərini təhlil etmişik.

Cədvəldən göründüyü kimi, 16 ölkə birinci yeri tutmuşdur, yəni göstəriciləri yüksək olmuş və bu da onlara liderlik etməyə imkan vermişdir. Bunlar Avropa qitəsini təmsil edən ölkələrdir: Danimarka, Avstriya, İspaniya, Fransa, Sloveniya, Portuqaliya və s. Bu 16 ölkə "Beynəlxalq ticarət" indikatorunun 8 subindeksinə görə eyni nəticə göstərmişlər.

8 subindeksdən 6-sı üzrə: ixraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat), ixracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları), ixracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları), idxala sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat), idxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları) və idxalın dəyəri: sənədlərin rəsmiləşdirilməsi (ABŞ dolları) subindeksləri üzrə "0" saat və "0" ABŞ dolları nəticələri göstərilmişdir, yəni nə vaxt, nə də pul sərf edilməmişdir. Beynəlxalq ticarət üçün çox sadə şərait yaradılmışdır. 2 subindeksə görə əsasən isə hərəsinə cəmi 1 saat vaxt sərf olunmuşdur – bunlar ixraca sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat) və idxala sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat). Bu o deməkdir ki, bu 16 ölkənin idxalı və ixracı zamanı bütün sərhəd-gömrük nəzarəti və sənədlərin rəsmiləşdirməsinə cəmi 1 saat və 0 xərc sərf edilib.

17-ci yeri Estoniya tutur və onun birinci 16 ölkədən fərqi bir subindeksə görə dəyişir – ixraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat) – 2 saatdır.

18-ci yeri İsveç tutur: burada qabaqda gedən ölkələrlə fərq iki subindeksə görə dəyişir – ixracın dəyəri: sərhəd və gömrük nəzarəti – 55 dollar və ixracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi – 40 dollar.

Litvada (19-cu yer) ixracla əlaqədar 4 indeksdə artım var, müvafiq olaraq 7 saat; 58 dollar; 3 saat və 28 dollar.

San-Marinonun (20-ci yer) beynəlxalq ticarət subindekslərində birinci 16 ölkə ilə müqayisədə yalnız idxala aid subindekslərində fərq bilinir, müvafiq olaraq 4 saat; 50 dollar; 3 saat və 100 dollar.

Azərbaycanın "Doing Business" 2020 hesabatında beynəlxalq ticarət indikatoruna görə subindeksləri biz sonra cədvəldə verib təhlil edəcəyik. Respublikada bu sahədə görüləsi işlər çoxdur və onların həll edilməsi ölkəmizin qlobal reytinqdə yüksək yer tutmağa köməklik göstərəcək.

*Cədvəl 3.*

**Dünya Bankının "Doing Business" 2020 hesabatında "Beynəlxalq ticarət" indikatorunun subindeksləri üzrə birinci 20 ölkənin məlumatları**

| Ölkələr | Beynəl-xalq ticarət-reytinq | Beynəlxalq ticarət indikatoru | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | İxraca sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat) | İxracın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları) | İxraca sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat) | İxracın dəyəri: sənədlərin rəsmiləşdirilmə-si (ABŞ dolları) | İdxala sərf edilən vaxt: sərhəd və gömrük nəzarəti (saat) | İdxalın dəyəri: sərhəd və gömrük nəzarəti (ABŞ dolları) | İdxala sərf edilən vaxt: sənədlərin rəsmiləşdirilməsi (saat) | İdxalın dəyəri: sənədlərin rəsmiləşdirilmə si (ABŞ dolları) |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** |
| Danimarka | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Avstriya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| İspaniya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Fransa | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Sloveniya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Portuqaliya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Polşa | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Çex Respublikası | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Niderland | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Slovakiya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Belçika | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Xorvatiya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Macarıstan | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Rumıniya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| İtaliya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Lüksemburq | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| Estoniya | 17 | 2 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 0 |
| İsveç | 18 | 2 | 55 | 1 | 40 | 0 | 0 | 1 | 0 |
| Litva | 19 | 7 | 58 | 3 | 28 | 0 | 0 | 1 | 0 |
| San-Marino | 20 | 0 | 0 | 1 | 0 | 4 | 50 | 3 | 100 |

“Doing Business” hesabatının “Beynəlxalq ticarət” indikatoru və onun subindekslərinin təhlili və qiymətləndirilməsi onların yaxşılaşdırılması üzrə bəzi nəticə və təklifləri irıli sürməyə imkan vermişdir:

1. Fikrimizcə, sərhəd-gömrük məntəqələrin buraxılış qabiliyyətinin artırılması üçün stimullaşdırıcı tədbirlər görülməli, yüksək dərəcədə İKT-dən istifadə artırılmalı, bütün sahələrdə tədbiq edilməlidir, sərhəd və gömrük nəzarəti və sənədlərin rəsmiləşdirilməsi prosesi kökündən dəyişdirilməli, bu işdə “Doing Business” hesabatında yüksək reytinqli yerləri tutan ölkələrin qabaqcıl təcrübəsindən istifadə etmək və normativ-hüquqi bazanı təkmilləşdirmək lazımdır.

2. Respublikadan kənd təsərrüfatı və ən əsası tez xarab olan məhsulların xarici ölkələrə vaxtında və keyfiyyətli vəziyyətdə çatdırılması üçün sərhəd və gömrük nəzarəti və sənədləşdirmə çox-çox sadələşdirməlidir. Bu öz növbəsində, respublikanın nüfuzuna, ixracın artırılmasına və sahibkarların gəlirlərinin yüksəlməsinə böyük xeyir verə bilər.

3. Ən pis vəziyyət “İxracın dəyəri: sənədlərin rəsmiləşdirilməsi” subindeksi üzrədir – cəmi 37,5%. Bu vəziyyət islahatlar aparmaq və gömrük və sərhəd məntəqələri üzrə normativ – hüquqi aktları, bu sahədə böyük təcrübəsi olan, aparıcı dövlətlərin səviyyəsinə gətirməyi tələb edir.

**Ədəbiyyat siyahısı:**


1. https://ru.wikipedia.org/wiki/
2.www. doingbusiness.org.ru 2006-2020-ci illər üzrə hesabatlar
3.www. russian.doingbusiness.org.ru/methodology/trading-across-borders 2020



*Həsənova Məleykə Hacı qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent;*
*İsfəndiyarov Ağamirzə Məsim oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*


## SOSİAL-MƏDƏNİ XİDMƏTLƏRİN İNKİŞAFINDA RƏQƏMSAL TEXNOLOGİYALARIN YERİ

Bu gün texnoloji tərəqqi bəşəriyyət qarşısında yeni üfüqlər açıq. Dünya ölkələri artıq dördüncü sənaye inqilabına qədəm qoyur. Bəşəriyyətin sənaye cəhətdən inkişafının keçdiyi yola nəzər salsaq, ilkin əl əməyindən mexanikləşmə, elektrikləşmə, avtomatlaşdırmaya keçidi hazırki mərhələdə istehsalın robotlaşma, süni intellektdən hərtərəfli istifadə, iqtisadiyyatın və sosial-mədəni xidmətlərin rəqəmsal texnologiyalara keçidi ilə səciyyələnir. Yəni “sənaye 4.0” rəqəmsallaşma, texnoloji infrastruktur quruculuğu ilə əlaqədar olaraq istehsal və xidmətlərdə yeniliklərin tətbiqinə, onun daha da təkmilləşdirilməsinə gətirib çıxarır. Artıq dünyanın bir sıra ölkələri yeni (rəqəmsal) inkişaf mühitinə qədəm qoyaraq bu istiqamətdə təşəbbüslər göstərilir. İstehsal və xidmət sahələrində rəqəmsal texnologiyaların qurulması ən çox gündəmdə olan və müzakirə

olunan problemlərdəndir. Dünya ölkələri üzrə texnoloji tərəqqi müxtəlif səviyyələrdə olduğundan, dövlətlər rəqəmsallaşma səviyyələrinə görə fərqli inkişafa malikdirlər və bir neçə qrupa bölünürlər. Rəqəmsallaşma üzrə ölkələr: lider, əsas qrup, geri qalanlar, yeni başlayanlara bölünürlər.

Lider kateqoriyasına: Cənubi Koreya, Böyük Britaniya, Danimarka, Çin, İsveçrə.

Əsas qrupa: ABŞ, Almaniya, Yaponiya, Hindistan və Avropa İttifaqı.

Digər dövlətlər isə geridə qalanlara aid edilir. Dünya ölkələri arasında nəqliyyat dəhlizi kimi tanınan Avropa ilə Şərqi birləşdirən Azərbaycan da artıq "sənaye 4.0" qədəm qoyur. Yeni iqtisadi inkişaf hədəflərinə çatmaq üçün iqtisadiyyat və sosial-mədəni xidmətlərin qurulmasında böyük potensiala malikdir. Buna ölkəmizin yerləşdiyi coğrafi mövqe, təbii və insan resursları imkan verir.

Dayanıqlı və təhlükəsiz infrastruktur rəqəmsal iqtisadiyyat quruculuğunun əsasını təşkil edir. Yəni rəqəmsal texnologiyalar əsasında yeni rəqəmsal məhsullar yaranması baş verir. Məhsul və xidmətlərin dayanıqlı sabit infrastruktur olmadan həm ölkə daxilində, həm də ölkələrarası bağlantı xidmətlərinin qabaqcıl standartlara uyğunluğu əsasında reallaşması baş verə bilməz. Dünya ölkələri üzrə bağlantı xidmətləri sürətlə inkişaf edir və həm mobil, həm də geniş zolaqlı internet istifadəçilərinin sayı artır. Müasir iqtisadiyyatda əşyalar, enerjilər deyil, insanın biliyi, əməyi ilə məhsullarda, xidmətlərdə təmərküzləşən informasiyalar daha çox satılır və alınır. Buraya elmtutumlu sənaye məhsulları, tikinti materialları, interyer və geyim məhsulları, əczaçılıq preparatları, rabitə vasitələri, mədəniyyət və incəsənət əsərləri, turizm, kitabxana informasiya sistemləri və s. daxildir. Bu tipli əmtəələrin bəzilərini nəzərdən keçirək:

- kompüterlər, onların yerinə yetirdiyi bütün funksiyaları həyata keçirən avadanlıq növləri, CD-diskləri;
- proqram məhsullarının istehsalı;
- kompüter oyunları istehsalı;
- internet-xidmətlər istehsalı;
- patent-lisenziya məhsulları;
- "Zəka istehsalı";
- idarəetmə texnologiyaları istehsalı;
- süni intellektin istehsalı və istifadə edilməsi; iqtisadiyyat və xidmətlərdə vasitəçilik fəaliyyəti;
- kommunikasiya xidmətləri;
- KİV-nin informasiya xidmətləri;
- sosial-mədəni informasiya əmtəələrinin istehsalı və s.

Buraya ənənəvi əmtəələrdən fərqlənən bir sıra informasiya məhsullarını da aid etmək olar. Bəşəriyyətin sosial həyatında rastlaşdığı, müasir dövrdə əmtəə xüsusiyyəti daşıyan çoxsaylı informasiya məhsullarını əlavə etmək olar. Sosial-mədəni informasiya əmtəələrinə təhsil, səhiyyə, incəsənət, mədəniyyət, şou-biznes, turizm, arxitektura, vəkillik, siyasətçi və s daxildir. Göstərilən təsnifat sübut edir ki, müasir informasiya amilləri iqtisadi sistemin bütün komponentlərində öncül mövqeyə yiyələnərək ictimai istehsalın və ÜDM-in əsas amilinə çevrilmişdir. İnformasiya getdikcə daha çox əmək predmet rolunda çıxış edir. Dünyanın sənaye cəhətdən inkişaf etmiş ölkələrində informasiya amillərinə çəkilən xərclərin xüsusi çəkisi, istehsal xərclərinin əsas hissəsini təşkil edir. Belə ki, müəssisələrin istehsal etdikləri məhsullar daha çox informasiya

əmtəələri və xidmətləri formasını alır.

İnternet iqtisadiyyatının tərkib hissəsi kimi sosial mədəni xidmətlərin yerinə yetirilməsi proseslərində də əhəmiyyətli dərəcədə yeniliklər müşahidə olunur. Yüksək texnoloji inkişaf XX əsrin əsas fenomenlərində biridir. Kinematoqrafiyanın, televiziyanın, videotexnikanın, işıqlı musiqinin, səs-görüntü təsvirlərinin, o cümlədən mədəniyyət və incəsənətin bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi vahid bir məfhumun yeni ekran mədəniyyətinin yaranmasına səbəb olmuşdur. Müasir dövrdə audiovizual kommunikasiyalar ənənəvi incəsənəti əvəz edir, onların yeni texnoloji vasitələr hesabına təqdimatına vəsilə olur. Texnoloji cəhətdən inkişaf etmiş ölkələrdə sosial-mədəni mühit dəyişmiş, təhsilin, elmin, incəsənətin, estetik tərbiyənin və mədəni xidmətlərin funksiyaları transformasiyaya uğramışdır. Məhz kompüterin ekranı kinematoqrafın audio-vizual-təsvir imkanları genişlənmiş yeni tip mədəniyyətin (elmi, gündəlik, bədii) maddi daşıyıcısına çevrilmişdir. İnformasiya texnologiyalarının sürətli inkişafı iki tip ənənəvi (şəxsi təmas, yazı mədəniyyəti) mədəniyyətlə yanaşı üçüncü yeni tip – ekran mədəniyyətinin yaranmasına səbəb olmuşdur. Ekran mədəniyyətinin əsas məqsədi yeni texnologiyaların köməyi ilə klassik mədəniyyət tərəfindən mənimsənilməsi mümkün olmayan yeni sosial-mədəni səviyyəyə çatmasıdır. Kompüter texnologiyaları mövcud olan "mədəniyyət piramidasına" – dünya mədəniyyətinin ənənəvi simasına-yeni meyarlar əlavə edir. Ekran mədəniyyətinin kompüter səhifəsi simasında yeni töhfəsinə aşağıdakılar daxildir:

- şəxsin mədəni "informasiya məkanına" sərbəst daxil olması hesabına yeni ünsiyyət tipinin yaranması;
- məlumatların sərbəst yayılması;
- informasiya məkanın hüdudsuzluğu;
- qapalı məlumatların insanlar üçün əlçatan olması;
- dünya mədəniyyəti və incəsənətinin qavranması;
- ekran-poliloqun köməyi ilə (dürüst və dolğun) əks əlaqənin yaradılması və s.

Audiovizual kommunikasiyanın rəqəmsal (digital) forması müxtəlif növ ekranları vahid mədəni kommunikasiya ekranı keyfiyyət itirilmədən sonsuz həddədək genişlənə, səsi isə iri məkanda yayıla bilən tele-kompüterdə birləşdirir.

Müasir dövrdə kompüter texnologiyalarının yardımı ilə "Ekran dili" əsasında həm insanın insanla, həm də insanın dünya ilə təbii ünsiyyəti, daha dəqiq desək dünyanın insan tərəfindən audiovizual qavranması baş verir. Kinematoqrafiyada rəqəmsal elektron sistemlərdən istifadə edilməsi iqtisadi cəhətdən xeyli sərfəlidir. Belə ki, rəqəmsal elektron kinofilmlərin istehsalına (çəkiliş və montaj) sərf olunan maliyyə vəsaitlərinin məbləği kinolentlə çəkilən filmlərlə müqayisədə 15-20% az vəsait sərf olunur.

Ölkəmiz yeni rəqəmsal proseslərdən istifadə edərək elektron hökümət portalı (e.qov.az) yaratmış və buraya bir sıra yeni sosial xidmətlər daxil etmişdir:

- notarial xidmətlər;
- təcili pul köçürmələri;
- viza verilməsi;
- kommunal xidmətlər;
- şəxsiyyət və sürücülük vəsiqələri;
- əmlak üzrə çıxarışlar;
- xarici pasportların verilməsi;

- miqrasiya xidmətləri;
- elektron sığorta xidmətləri və s.

İqtisadiyyat və xidmət sahələrində aparılan islahatlar, dövlət və sosial mədəni sektor tərəfindən həyata keçirilən yeni proqramlar rəqəmsal iqtisadiyyatla yanaşı, sosial-mədəni xidmətlər təklifinin yeni üsullarını formalaşdırır. Ölkəmiz qabaqcıl dünya təcrübəsindən istifadə etməklə ən qısa zamanda rəqəmsal sosial-mədəni xidmətlər üzrə regionda lider dövlətə çevriləcəkdir.

**Ədəbiyyat siyahısı:**


1. Mahmudov R.Ş. İnternet iqtisadiyyatının elmi nəzəri əsasları. B. 2015 İnformasiya cəmiyyəti problemləri, B. 2015 N1 s.56-63
2. Mahmud Məmmədov "İnformasiya iqtisadiyyatı" (mühazirələr)
3. Семёнов А., Переверзев Л., Булин-Соколова Е. Информационные и коммуникационные технологии в общем образовании. Теория и практика. Юнеско 2006.
4. htpp://www.asan.gov.az/
5. htpp://www.oecd.org/internet/oecd-digital-economy-outlook-2015-9789264232440-en.htm



*Abbaszadə Mahir Tapdıq oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*AMEA İqtisadiyyat İnstitutu*


## MİLLİ İQTİSADİYYATIN RƏQƏMSALLAŞMASINDA MÜASİR İNNOVASİYALARIN ROLU

Müasir iqtisadi şəraitdə dünya ölkələri yeni inkişaf mühitinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində yeni tədbirlər həyata keçirməkdədirlər. Nəzərə alaq ki, son illər rəqəmsal texnologiyaların tətbiqi, xüsusilə də milli iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın formalaşdırılması əsas müzakirə olunan məsələlərdən hesab olunur. Avropa Birliyi və bir sıra dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan və beynəlxalq nəqliyyat tranzit imkanlarına malik Azərbaycan da artıq yeni inkişaf mərhələsindədir. İnkişaf etmiş ölkələrdə olduğu kimi ölkəmiz üçün də milli iqtisadiyyatın rəqəmsallaşdırılması, müasir innovasiyalı inkişafa keçid, rəqəmsal iqtisadiyyatın formalaşdırılması, müasir innovasiyaların tətbiqi əsas prioritet istiqamətlərdən hesab olunur. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası milli iqtisadiyyatın tam rəqəmsallaşması, rəqəmsal iqtisadiyyatın təşkili və dayanıqlı inkişaf üçün bütün imkanlara malikdir [1].

Ümumiyyətlə, rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artımına təsiri çox böyükdür. Müxtəlif dövlətlərin iqtisadi inkişaf göstəricilərinə nəzər salsaq görərik ki, son illər üzrə rəqəmsal sektorun orta hesabla Cənubi Koreya iqtisadiyyatında payı 12%, İsveçdə 8.6%, Finlandiyada 8,3%, ABŞ-da 7,4%, Böyük Britaniyada isə 7,1 % təşkil edir [6]. Dünya İqtisadi Forumunun illik hesabatlarına əsasən, növbəti onillikdə milli iqtisadiyyatda yaranan yeni dəyərin 70%-i məhz rəqəmsal platformaların pa-

yına düşəcəkdir. Dünyanın ən böyük "Google" şirkətinin proqnozlarına əsasən, təkcə Cənub Şərqi Asiyada rəqəmsal iqtisadiyyatın həcmi 2025-ci ilə qədər üç dəfə artacaq və 240 milyard ABŞ dollar olacaqdır ki, bu da çox böyük göstərici hesab olunur [6].

Müasir qloballaşan dünyada ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Qətər, Çin, Rusiya kimi dövlətlər rəqəmsal iqtisadiyyatın formalaşmasına daha çox üstünlük verirlər. Bu dövlətlərdə artıq müasir innovasiyalı texnologiyalar milli iqtisadi sahələr üzrə daha çox tətbiq olunur [3]. Məsələn, bu dövlətlər hətta xüsusiləşmiş dövlət təşkilatları yaradaraq, yeni milli inkişaf proqramları qəbul edirlər. Nəticədə bu ölkələr rəqəmsal transformasiya proseslərinin daha çevik formada aparılmasını həyata keçirilir [4]. Rəqəmsal iqtisadiyyatın inkişafında müasir innovasiyaların rolu böyükdür. İnnovasiya yönümlü tədbirlərin genişləndirilməsinin zəruriliyi onu göstərir ki, milli iqtisadi sahələr üzrə ixrac istiqamətlərinin yeni beynəlxalq bazarlara yönləndirilməsi mühüm şərtdir. Bu zaman dövlət və özəl müəssisələr yeni məhsul növlərinin istehsalını həyata keçirmək üçün innovasiya fəaliyyətini (müasir elmi ideyaların yaranması, onların elmi tədqiqatlarla əsaslandırılması, texniki işləmələrlə tətbiqi formaya salınması, sınaq istehsalının həyata keçirilməsi) geniş tətbiq etməli və müasir innovasiya infrastruktur bazasına malik olmalıdır. Bunun üçün isə, məhz dövlətin innovasiya fəaliyyətinin təşviqinə və innovasiyalı infrastruktur sahələrinin formalaşdırılmasına (elmi-tədqiqat mərkəzləri, laboratoriyalar, biznes inkubatorlar, innovasiya zonaları) istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi vacibdir [2].

Azərbaycan Respublikasında son illər innovasiyalı inkişafın təmini yönümündə aparılan davamlı iqtisadi islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm iqtisadi və strateji proqramlar rəqəmsal iqtisadiyyatın quruculuğu üçün mühüm baza rolunu oynayır. Məsələn, regional dövlətlər arasında daha çox iqtisadi inkişaf tempinə malik Azərbaycanın mövcud iqtisadi resurslardakı düzgün istifadə etməklə və beynəlxalq dünya təcrübəsinə əsaslanmaqla qısa zamanda müasir səviyyəli milli rəqəmsal iqtisadiyyatı tam formalaşdırmaq, eləcə də regional dövlətlər arasında rəqəmsal mərkəzə çevrilmək imkanları vardır.

Son dövrlər Azərbaycan Respublikası üzrə milli iqtisadiyyatın inkişafına yönələn birbaşa xarici investisiyaların həcmində də ciddi dəyişiklik müşahidə olunmuşdur [5] (Şəkil 1). Belə ki, əgər 2010-cu ildə bu göstərici 3614,9 mln ABŞ dolları olmuşdursa, 2018-ci ildə bu göstərici artaraq 4109,1 mln. ABŞ dolları təşkil etmişdir. 2017-ci illə müqayisədə 2018-ci ildə neft sektoruna yönələn birbaşa xarici investisiyaların həcmi azalaraq 3142,0 mln. ABŞ dolları olmuşdur. Qeyri-neft sektoruna yönələn birbaşa xarici investisiyaların həcmi isə 2017-ci illə müqayisə etdikdə 2018-ci ildə artaraq 967,1 mln. ABŞ dolları təşkil etmişdir. Neft sektoruna yönələn xarici investisiyaların həcminin azalmasının əsas səbəbi dünya bazarında neft-qaz məhsullarının qiymətinin aşağı düşməsi ilə bağlıdır. Nəticədə bu məhsullara olan tələbat beynəlxalq bazarlarda aşağı düşmüşdür. Ölkəmizdə qeyri-neft sektoruna yönələn xarici investisiyaların həcminin yüksəlməsi iqtisadi sahələr üzrə yeni innovasiyalı məhsul istehsalının və onların ixrac həcminin artması ilə bağlıdır.

Xüsusən də, Azərbaycan Respublikasında milli innovasiya sisteminin məqsədyönlü və nəzərdə tutulmuş parametrlərə uyğun təşəkkül tapması və inkişaf etdirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilməlidir. Təbii ki, həmin sistemin formalaşması və inkişafında əsas rol dövlətə məxsusdur. Çünki, fundamental xarakter daşıyan müxtəlif tədbirləri dövlət maliyyələşdirə bilər. Bu baxımdan, innovasiya xarakteri daşıyan məhsul və xidmətlərə dövlət tələbatının düzgün qiymətləndirilməsi və analoji istiqamətdə

sifarişlərin qəbul edilərək icra olunması da mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, milli iqtisadiyyatın rəqəmsallaşması və bu sahədə müasir innovasiyaların rolunun artırılması üçün yaxın dövrlər üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- milli iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın formalaşdırılması üçün müasir tələblərə uyğun dayanıqlı və təhlükəsiz innovativ İKT infrastrukturunun inkişaf etdirilməsi;
- ölkəmizdə rəqəmsal ekosistemin formalaşması istiqamətində davamlı iqtisadi tədbirlərin həyata keçirilməsi;
- inkişaf etmiş dövlətlərin rəqəmsal iqtisadiyyat və innovasiyalı inkişaf sahəsində həyata keçirdikləri beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi;
- özəl sektor tərəfindən milli iqtisadi sahələrin fəaliyyəti üzrə müasir innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması;
- ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində yeni dövlət proqramlarının, konsepsiyalarının və s. qəbulu və həyata keçirilməsi proseslərinin sürətləndirilməsi və s.

**Ədəbiyyat siyahısı:**


1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi, Bakı. İqtisad Universiteti, 2011, 365 s.
2. Abdullayev K.N. İnnovasiyalı inkişafın ümumi istiqamətləri // Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları (respublika elmi-praktiki konfransın materialları), Sumqayıt Dövlət Universiteti, Sumqayıt.: SDU-nin nəşr., 2010, səh. 66
3. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. М.: Восток-Запад, 2010, 224 с.
4. Инновационный менеджмент. Под ред. С.Д.Ильиновкой. М., ЮНИТИ, 2014, s.269
5. www.stat.gov.az _ sənaye_innovasiya_2019
6. www.weforum.org/gcr _Klaus Schwab /The Global Competitiveness Report-2019/ World Economic Forum/Geneva_(Switzerland)



*Əliyeva Roza Əligulovna,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Texniki Universiteti*


## AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQƏMSALLAŞMASI

Müasir Azərbaycan iqtisadiyyatında müxtəlif informasiya və telekommunikasiya sistemlərinin aktiv tətbiqi və istifadəsi əsasında böyümənin sürətlənməsi problemi getdikcə kəskinləşir. Şiddətli rəqabət şəraitində Azərbaycan müəssisələri xarici istehsalçılarla birlikdə xarici mühitin vəziyyəti haqqında tez bir zamanda məlumat almağa, onu təhlil etməyə və müvafiq idarəetmə qərarlarını qəbul etməyə imkan verən müasir informasiya texnologiyalarından istifadə etmək məcburiyyətində qalırlar.

Müasir idarəetmə, bazar həcmi, rəqiblərin davranışları, texnoloji yeniliklər, böyük həcmi, sürətli köhnəlməsi və sürətli keyfiyyət analizinin mümkünsüzlüyü barədə "kağız" məlumatları ilə artıq işləməyə qadir deyildir. Yuxarıda göstərilənləri nəzərə alsaq, müasir elektron sənəd idarəetmə sistemlərinin, son nəsil informasiya texnologiyalarının, o cümlədən süni intellektə əsaslanan proqram təminatının inkişaf səviyyəsinə uyğun elektron ticarət platformalarından istifadə şirkətin ən əhəmiyyətli rəqabət üstünlüklərindən birinə çevrilir.

Ümumiyyətlə, elektron sənəd mübadiləsi sistemləri, o cümlədən sənədin yaradılması və qanuni qüvvə ilə təmin edilməsi (elektron rəqəmsal imza vasitəsilə: ASAN İMZA) həqiqətən sənəd işləri zamanı qaçılmaz olan xərcləri, xüsusilə əməliyyat xərclərini əhəmiyyətli dərəcədə azalda bilər. Eyni zamanda, başa çatdırılmış tapşırıqlar üzrə idarəçilərin hesabat sistemi, həm hesabatların həm də eyni hesabatların müxtəlif hesabatlara daxil edilməsi proseslərinin çoxalmasını aradan qaldıraraq kəskin şəkildə dəyişə bilər. Əhəmiyyətli bir üstünlük həm idarəetmə, həm də istehsal baxımından bütün proseslərin sürətlənməsidir ki, bu da öz növbəsində məhsul yaratmaq və bazarına daxil olmaq, yüksək riskli investisiya qərarları qəbul etmək dövrlərini əhəmiyyətli dərəcədə azaldır.

Müasir informasiya və telekommunikasiya sistemlərinin tətbiq olunmasının digər bir üstünlüyü, bütün təlim proseslərinin sürətlənməsi və sadələşdirilməsi sayəsində fasiləsiz kadr hazırlığı, əlavə təlim imkanlarıdır. Bu vəziyyətdə kadr fəaliyyətinin tənzimlənməsi tamamilə fərqli bir keyfiyyət səviyyəsinə keçir, çünki yeni nəsil məlumat və telekommunikasiya sistemləri şirkətin bütün tənzimləmə sistemini eyni anda bütün təsir amillərini və nüanslarını nəzərə alaraq yeniləməyə və təkmilləşdirməyə imkan verir. Elm, texnologiya və təhsil sahələrində hal hazırda dövlət aşağıdakı strateji hədəfləri müəyyənləşdirmişdir:

- dövlət tərəfindən elmi və texnoloji təşkilatlarının inkişafı;
- sosial mobillik, əhalinin ümumi və peşə təhsili səviyyəsinin artması.

Hədəflərə çatmaq üçün bir sıra problemlərin həlli planlaşdırılır:

- texnoloji təhlükəsizliyin təmin edilməsi;
- dövlət innovasiya və sənaye siyasətinin təkmilləşdirilməsi;
- elm və texnologiyada dövlət-özəl tərəfdaşlığın inkişafı;
- elmin, təhsilin və sənayenin inteqrasiyası üçün şəraitin yaradılması;
- yeni nəsillərin alim və müəllim işinin prestiji ənənələrində vətəndaşlıq tərbiyəsi;
- elmi və texnoloji inkişafın prioritet sahələrində aparıcı elmi və texnoloji ehtiyatın yaradılması;
- tədqiqat və inkişaf sektorunun institusional inkişafı, strukturunun, idarəetmə və maliyyələşdirmə sisteminin təkmilləşdirilməsi, elm və təhsilin inteqrasiyası;
- tədqiqat və inkişaf sektorunun müasir maddi-texniki bazasının yaradılması;
- Azərbaycan tədqiqat və inkişaf sektorunun beynəlxalq elmi və texnoloji məkana inteqrasiyasının təmin edilməsi.

Hər hansı bir inkişaf edən ölkə elmi və texniki komponentə, yeni texnologiyaların inkişafına və kütləvi tətbiqinə, yüksək texnoloji sahələrin inkişafına və təhsilə kifayət qədər diqqət ayırdıqda davamlı və yüksək keyfiyyətli böyüməyə gedə bilər. Əmtəə iqtisadiyyatı bu cür problemləri tez və effektiv şəkildə həll etmək iqtidarında deyil, çünki resurs tərkib hissəsində məhdud təbiətə və təcrid vəziyyətinə düşür və nəticədə sosial-iqtisadi geriləmə, böyümə mənbələrinin itirilməsinə səbəb olur.

## Ədəbiyyat siyahısı:

1. Baronov V., Kalyanov G., Popov Y., Titovsky I. (2016). İnformasiya texnologiyaları və müəssisə rəhbərliyi. DMK Mətbuat, 326 səh.
2. Boyko I., Evnevich M., Kolyshkin A. (2017). Rəqəmsal əsrdə müəssisə iqtisadiyyatı. Rus işi, 18 (№ 7), 1127–1136.
3. Grigoryev M., Maksimtsev I., Uvarov S. (2018). Rəqəmsal platformalar təchizat zəncirlərinin rəqabət qabiliyyətini artırmaq üçün bir mənbə kimi. Sankt-Peterburq Dövlət İqtisad Universitetinin Xəbərləri, 2 (№110), 7–11.
4. Xromov I. (2018). Müasir iqtisadiyyatdakı virtual təşkilatlar. İqtisadiyyat: dünən,bu gün, sabah, 8 (№8), 377-388
5. Lapidus L.V. Rəqəmsal iqtisadiyyat: elektron biznesin idarə edilməsi və elektron şirkətlər ölçü: monoqrafiya. M .: INFRA-M, 2018.
6. Zinder E.Z. Rəqəmsal tətbiqində strateji və taktiki balansın idarə edilməsi xarici müəssisələr və elektron hökumətlər // İnformasiya Cəmiyyəti. 2017. No2.S. 9–22.
7. Arenkov I.A., Smirnov S.A., Sharafutdinov D.R., Yaburova D.V. Sistemin dəyişdirilməsi rəqəmsal iqtisadiyyata keçiddə müəssisə idarəetməsi // Rus Müəssisəsi, 2018. 19 cild, № 5
8. Dyatlov S. A. İnformasiya-şəbəkə iqtisadiyyatı: quruluşu, dinamikası, tənzimlənməsi.Sankt-Peterburq: Asterion, 2018.



*Natavan Gadir Mammadova,*
*Ph.D. (Econ.),*
*Baku Business University*


## BUSINESS SIMULATION GAMES AS A FORM OF STUDENT-CENTERED LEARNING

The traditional approach is supplanted by a broader view of teaching, which is focused on the formation of the student’s personality, his unique personality, development of research, and creative potential. At the end of the education, the student must acquire many such skills as the free expression of his thoughts at the teacher level, search skills and research thinking, the ability to set goals and achieve them. Student-centered learning is aimed at implementing this approach in education.

Student-centered learning is the formation of programs and teaching technologies not in the way the teacher and the department can and wants, but in the way that the future profession and student's capabilities require [1]. Student-centered learning cannot exist without the student himself, without his individual education, and also without his individually built trajectory [2]. An individual trajectory is such an organization of the educational process in which an individual approach and an individual form of education are priority, while the student has the freedom to choose disciplines and only he is responsible for himself and his trajectory [2].

The local approach to the learning process differs from the European one in focusing on fundamental education with a focus on narrow specialization. The

prevailing opinion is that the traditional approach is the most effective in university education. In the traditional approach to teaching a student is a passive learner, to whom the teacher's influence is directed. The student is only required to understand, remember and timely use the information received. The main character is a teacher who determines what a student should know in a particular discipline, as well as in his future specialty. The student is required to attend all classes, which are held under tight control. The curriculum, learning objectives and learning outcomes are initially strictly defined, they must be strictly followed and cannot be modified throughout the student's entire period of study.

In contrast to the traditional model of teaching in a student-centered model of teaching, the student is not only a participant in the educational process but also is the main active character in the university. The student is considered as a person - his experience, characteristics, perception abilities and skills, interests and needs are taken into account. The teacher in this educational process is a consultant who carefully observes the student and directs his activity in one direction or another [3]. Relatively mild academic discipline and a small classroom load, which boil down to the necessary optimum, attendance of classroom studies - preferably, the emphasis is usually placed on the student's independent work (up to 50% or more) [3]. Conducting lessons according to the new model requires a special scientific and methodological supply, improving the material base. Such a system improves the quality of students' training, as a result of which they become more competitive in the labor market.

Fundamental changes in the economic system necessitate the use of new approaches in the teaching of economic disciplines. The current rejection of state centralism, the development of initiative entrepreneurship forces each agent at all levels to seek his place in a dynamic situation.

In these conditions, a lot depends on how justified certain actions of a person pursuing his goals. It is necessary to know and take into account the factors affecting the efficiency of investments, securities prices, interest rates, salaries. The economically competent decisions of individuals contribute to increasing the efficiency of business processes as a whole. Social costs are reduced due to the rapid overflow of capital and labor in those parts of the economy where the most urgent need is currently felt. Due to this, the coordination of interests is possible: the principle of the "invisible hand" of A. Smith is in action.

Simulation problems in their subjects are more inclined to general theoretical issues than to applied ones. They can be used in the study of the history of economic thought, economic theory, microeconomics, showing the development of the concept of demand, utility. The series of equilibrium problems in the commodity and money markets illustrates both the general principles of studying and regulating macro processes and the discussions between Keynesianism and monetarism about the strategy of economic management.

In the process of conducting economic business games, the following educational goals are achieved [4]:

Educational: the formation of economic skills based on the inclusion of each student in the real process of solving emerging economic problems.

Educational: manifestation of personality traits in a business game. Activation of

attention takes place, temperament is revealed, a creatively thinking personality is formed.

Developing: acquiring skills of business prudence, the ability to quickly analyze the economic situation that has developed during the game, calculate the most profitable ways out of crisis situations and develop intellectual abilities.

The form of business games, perhaps, best contributes to the implementation of many economic goals and objectives. Such tasks make it possible to imitate the real situation on the market and present, with concrete examples, the actions of the most important factors of the economic situation. Students are placed at the center of a situation in which it can be explained how important it is to focus on demand, how to take into account costs, prices, incomes, and in what way it is better to finance production. The information secured by the game is well remembered for a long time.

Practical exercises in this form should be considered as an addition to the lecture course, but not a substitute for it. The material underlying the game must first be explained in a lecture. At this stage, it is advisable to talk about the general problems of this topic, to present a wide range of information, including information that is not embedded in the game. In this case, the students are pre-trained, have the necessary knowledge to understand the meaning of game actions. That is, the lecture and the game form a single whole, the effectiveness of each of these classes separately decreases.

Immediately before the start of the game, it is advisable for the teacher to outline its general course, to show the role of each participant in a simulated situation. To do this, you can use the sequence of actions that is provided at the beginning of the text of each game. All subgroups into which the students are divided should understand the meaning of the action not only of their team but also of the rest.

Having an idea of the big picture, those involved begin to perform game calculations. To facilitate the organization of the game, the text of the tasks is divided into subgroups, numbered. Participants must have one copy of the game text for no more than two or three people. At the same time, by the way, answers should be available to them.

All information transmitted from one subgroup to another must be checked by the teacher. To do this, the answers are given at the end of the text of each game. If at any stage the calculation turns out to be incorrect, then this may entail further errors, the lesson will lose its meaning. Therefore, the teacher must immediately correct possible inaccuracies, together with the student to find their reasons. In case of difficulties for the listeners in the actions, the leader of the lesson may suggest a solution. A delay in completing the tasks of one of the teams will entail the suspension of the entire game, will inevitably create an atmosphere of impatient expectation, and to some extent will “dampen” the participants.

When transferring the results of intermediate calculations from one subgroup to another, it is advisable to draw the attention of all those involved to the meaning and place of the obtained parameter in the general situation. To do this, you can use the comments to the tasks. Such a technique will allow, during the course of the game, to once again explain the economic patterns laid down in the foundation. In the end, when all the work is completed, the results are summed up, representatives of each of the teams speak with a story about their actions. Thus, feedback is provided, the

teacher can control the students' understanding of the educational material. The reports, in aggregate, make it possible to once again trace the course and show each participant the logic of the actions of other subgroups. The teacher reports that such a report will give up before the start of the game. This will serve as a good incentive for all, without exception, students to participate in the group.

The specifics of the educational opportunities of a business game as a method of active learning in comparison with traditional games is as follows:

1) In the game, the basic laws of the movement of professional activity and professional thinking are recreated on the basis of material dynamically generated and resolved by the joint efforts of participants in training situations.

In other words, the learning process is as close as possible to the real practical activities of managers and specialists. This is achieved by using models of real socio-economic relations in business games.

2) The method of business games is nothing more than a specially organized activity to operationalize theoretical knowledge and translate it into an activity context. The fact that in traditional teaching methods knowledge is given to each student without taking into account his willingness and ability to carry out the required transformation, in the business game it acquires a lively knowledge. This is not a mechanical accumulation of information, but a reproduction of some sphere of human reality.

**Conclusion**

Collaboration, risk-free business decision making, strategizing, and problem-solving all form the building blocks of business simulator games, and they belong to the realm of experiential and active learning. The underlying principle of these, according to the Learning Pyramid [8], is that 'learning by doing' is one of the most effective ways of retaining knowledge as it stimulates a real experience through an activity of practicing with coaching, comparing to other learning methods like reading, listening to a lecture, looking at visuals, watching live demonstrations, and completing written exercises.

The above and many other features of business games determine their advantages compared to traditional teaching methods. In general, this educational resource of business games is seen in the fact that they model the objective and social context more adequate for the formation of the personality of a specialist. This thesis can be specified in the following form [5]:

- the game can significantly reduce the learning time of educational material;
- provides an opportunity for the experiment, allows you to use different solutions;
- in a business game, events are not perceived abstractly, but in a real process, in the dynamics of the plot of a holistic business situation;
- a business game contributes to the acquisition of social experience.

Thus, a business game can justifiably be a teaching method that makes learning more interesting and attractive, stimulates students' mental activity, excites them, and creates a powerful incentive to acquire knowledge and skills.

**References:**

1. Nosko I.V. Student-centered education as a fundamental principle of Bologna reforms in higher education // Vector of science TSU. - 2011. - No. 1 (4). - P. 136–138.
2. Shevchik D.Y. The concept of a student-centered model for organizing an individual learning path in the specialty "Vocational training. Design "// Youth and Science: Sat. IX All-Russian materials. scientific and technical conf. students, graduate students and young scientists from the international. participation dedicated. 385th anniversary of the founding of the city of Krasnoyarsk (Sib. Fede. University, Krasnoyarsk, 2013) [Electronic resource]. - http://conf.sfukras.ru/sites/mn2013/ thesis/s002/s002-044.pdf
3. Kennedy D. Writing and using learning outcomes, University College Cork, 2007, P., 8 19, 73
4. Aksenov V.V. Economic business games. [Electronic resource]. - http://ecsocman.hse.ru/ text/18670745/
5. Aleshina O.G. Business game as a means of developing professional competencies of students // Young scientist. - 2014. - No. 4. - P. 908–910.



*Əbdürəhimova S.Ə.,*
*iqtisad elmləri namizədi;*
*Orucov A.S., baş müəllim,*
*Azərbaycan Texniki Universiteti*


## AZƏRBAYCANDA MİLLİ İQTİSADİYYATIN RƏQƏMSALLAŞMASI İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

Müasir dövrdə rəqəmsal texnologiyaların inkişafı bəşər cəmiyyəti qarşısında tərəqqi və inkişaf üçün yeni imkanlar açır. Hal-hazırda inkişaf etmiş dünya ölkələri "SƏNAYE 4.0"-Dördüncü Sənaye İnqilabına qədəm qoyur. Bu isə öz növbəsində istehsal sahələrinin avtomatlaşdırılması, robotlaşma, süni intellektdən geniş istifadə, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqini ön plana gətirir. "SƏNAYE 4.0" rəqəmsallaşma, texnoloji infrastruktur quruculuğu ilə sıx bağlı olaraq ən müxtəlif sahələrdə yeniliklərin tətbiqinə və inkişafa gətirib çıxarır.

Hazırda qabaqcıl dünya ölkələri yeni inkişaf mərhələsinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində yeni-yeni təşəbbüslərlə çıxış edirlər. Belə bir qloballaşma dövründə rəqəmsal texnologiyaların tətbiqi, xüsusilə də milli iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması ən çox gündəmdə olan məsələlərdən biridir.

Texnoloji inkişaf dünya üzrə müxtəlif regionlarda fərqli səviyyədə olduğundan dövlətlər də rəqəmsallaşma üzrə fərqli inkişaf səviyyəsinə malikdilər və ümumilikdə bir neçə qrupa bölünürlər. Belə ki, ölkələr rəqəmsallaşma üzrə liderlər, əsas qrup, geri qalanlar, yeni başlayan liderlər və rəqəmsallaşmada ötmə səviyyəsində olan dövlətlər kimi təsnif olunurlar. Əgər Cənubi Koreya, Danimarka, Böyük Britaniya, İsveçrə və Cin kimi dövlətlər liderlər kateqoriyasına, Almaniya, ABŞ, Yaponiya, Hindistan, Avropa İttifaqı ölkələri əsas qrupa daxildilərsə, digər dövlətlər müvafiq olaraq geri qalanlar, yeni başlayan liderlər rəqəmsallaşmada ötmə səviyyəsində olan kateqoriyasına aid edilirlər.

Hazırda dünyada enerji və nəqliyyat mərkəzi olaraq tanınan, Avropa İttifaqı və bir sıra dövlətlərin enerji təhlükəsizliyinə öz töhfəsini verən Azərbaycan Respublikası da artıq “SƏNAYE 4.0”-ə qədəm qoyur. Yeni dövr Azərbaycanın da qarşısında zamanın tələblərinə cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq kimi vəzifələr formalaşdırır. Sürətli inkişaf səviyyəsində olan dövlətlərdə olduğu kimi, ölkəmiz üçün də iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyatın qurulması, yeni innovasiyaların tətbiqi prioritet vəzifələr sırasındadır. Hazırda Azərbaycan Respublikası milli iqtisadiyyatın rəqəmsallaşması, rəqəmsal iqtisadiyyatın qurulması və dayanıqlı inkişaf üçün bütün imkanlara malikdir. Ölkəmizin yerləşdiyi əlverişli coğrafi mövqe, zəngin təbii resursları, həmçinin qiymətli insan kapitalı və son illər ərzində cənab Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş bir sıra Dövlət Proqramları, Strateji Yol Xəritələri və digər sərəncam və fərmanlar buna tam imkan verir.

Milli iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculugu dayanıqlı və təhlükəsiz infrastruktur quruculugu ilə sıx surətdə bağlıdır. Çünki, dayanıqlı və təhlükəsiz infrastruktur olmadan həm iqtisadiyyatın rəqəmsallaşması, yəni iqtisadi münasibətlərdə İKT-dən istifadə, həm də rəqəmsal iqtisadiyyata keçid və onun qurulması, yəni rəqəmsal texnologiyalar əsasında rəqəmsal məhsulların yaradılması-istehsalı həyata keçirilə bilməz. Məhz müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsas komponentini təşkil edir. Rəqəmsallaşma və infrasturukturun inkişafı mobil internet istifadəçilərinin də sayında artımın baş verməsinə səbəb olacaqdır. Hesablamalara görə mobil internet istifadəçilərinin sayı 2018-ci ildə olan 3,6 milyard nəfərdən 2025-ci ilə qədər olan dövrdə 5 mlyarda çatacaq.

Azərbaycanda rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu İKT sahəsində dayanıqlı infrastrukturun qurulması məsələsini gündəmə gətirir. Beynəlxalq bağlantı xidmətlərinin təkmilləşməsi, internet xidmətlərindən hər il daha çox sayda insanların istifadə etməsi üçün sabit texnoloji bazarın təkmilləşdirilməsi və yeni texnoloji infrastrukturun qurulması vacib əhəmiyyət kəsb edir. Hazırda reallaşmasına start verilmiş və Azərbaycan Regional Rəqəmsal Mərkəzə çevrilməsi üzrə icra edilən “Azerbaijan Diqital HUB” Proqramının da əsasında bu ideya dayanır. Azərbaycanın ilk mobil operatoru “Bakcell” şirkətinin törəmə müəssisəsi olan magistral internet provayderi “AzerTelekom” şirkəti tərəfindən icra olunan “Azerbaijan Diqital HUB” proqramı çərçivəsində əsas istiqamətlərdən ən başlıcası elə dayanıqlı infrastrukturun qurulmasıdır. Bu istiqamətdə şirkət tərəfindən həm ölkə daxilində, həm də ölkə xaricində texnoloji infrastrukturun qurulması üçün davamlı işlər aparılır. “Azərbaycan Dəmir Yolları” QSC ilə aparılan layihə işləri ölkə daxilində dəmir yollarının mühafizə zolağı boyunca magistral fiber-optik kabel xətlərinin çəkilməsi və beləliklə də Şimal-Cənub, Şərq-Gərb istiqamətində qonşu dövlətlərin telekom operatorları və şəbəkə bağlantılarının qurulmasını təmin edəcəkdir. “Digital HUB” proqramı çərçivəsində Avropa və Asiya arasında tarixi ipək yolunun üzərində yeni rəqəmsal ipək yolunun qurulması və bunun üçün Xəzər dənizinin dibi ilə Azərbaycan və Orta Asiya ölkələri arasında “Transxəzər magistralının çəkilməsi isə ölkə xaricində magistral infrastrukturun qurulması layihəsinin tərkib hissəsidir. Bütün bunların reallaşması həm ölkəmiz daxilində müasir dövrün tələblərinə cavab verən sabit texnoloji bazarın formalaşmasını, həm Azərbaycanın artıq internet və kontentin Asiya ölkələrinə ötürülməsində tranzit, sonrakı mərhələdə (Bakının internet Mübadilə Mərkəzinə çevrilməsi və Azərbaycanda Regional Data Mərkəzinin qurulması ilə) artıq mərkəzi ölkəyə çevrilməsini təmin edəcəkdir.

Hazırda ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Qətər, Çin, Rusiya kimi dövlətlər rəqəmsal iqtisadiyyat quruculuğuna xüsusi diqqət yetirir və istiqamətdə hətta xüsusi orqanlar yaradaraq, milli proqramlar qəbul edirlər və bu rəqəmsal transformasiya proseslərinin daha çevik formada aparılmasını təmin edir.

Rəqəmsallaşma əmək bazarını və təhsili köklü sürətdə dəyişməyə məruz qoyur. Rəqəmsal iqtisadiyyat həm də təkrarlanan əməliyyatları yerinə yetirən peşələrə tələbin azalmasını, texnologiyaların sürətlə dəyişməsi ilə əlaqədar peşələrin həyat tsiklinin qısalmasını, mütəxəssislərin çevikliyini və adaptasiyasını şərtləndirir. Eyni zamanda "rəqəmsal çevikliyə", yəni nəticələri yaxşılaşdırmaq məqsədilə yeni texnologiyaları tətbiq etmək bacarığı və istəyi olan mütəxəssislərə tələbi artırır.

Rəqəmsal iqtisadiyyatın təsirinə dair iki rəqəm göstərmək kifayyətdir. McKinsey hesablamalarına görə, iş yerlərinin avtomatlaşması hesabına dünya ÜDM-i 2030-cu ilə qədər 9 trilyon dollar arta bilər. 2030-cu ilə qədər dünya işçi qüvvəsinin təqribən 14 faizi öz peşəsini dəyişmək məcburiyyətində qalacaq. Bütün bunlar isə ali təhsilimizi ciddi çağırışlarla üz-üzə qoyur. Bunun üçün hansı tədbirlər həyata keçirilə bilər? 1. Rəqəmsal iqisadiyyat üçün yüksək ixtisaslı mütəxəssislər hazırlamaq üçün ən vacib istiqamətlər üzrə öyrədən proqramların tətbiqi üzrə işlərə başlamaq və birgə tədris proqramlarının həyata keçirilməsi vacibdir. 2. Yeni ixtisaslar ölkəyə gətirilməlidir. Bu baxımdan milli ali təhsil sistemi əmək bazarının tələblərindən daha çox, bazar iqtisadiyyatı tələblərinə uyğun müvafiq kompetensiyalara malik mütəxəssis hazırlamalıdır.

Hazırda ölkəmizdə aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza yaradır. Regionun Enerji və Nəqliyyat Mərkəzi statusuna sahib olan Azərbaycan yeni dövrdə mövcud resurslardan, qabaqcıl dünya təcrübəsindən istifadə etməklə qısa zamanda rəqəmsal iqtisadiyyat qurmaq və Regionun Rəqəmsal Mərkəzinə çevirmək imkanı yaradır.

*Babayev Zahir Ağasəf oğlu,*
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi*

## RƏQƏMSAL İQTİSADİYYATIN BEYNƏLXALQ-HÜQUQİ TƏNZİMLƏNMƏSİ
### *(Uçot və maliyyə münasibətləri kontekstində)*

İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində baş verən köklü dəyişikliklər beynəlxalq iqtisadi münasibətlər sistemindən də yan keçmədi. Regional və beynəlxalq təşkilatlanma prosesi, iqtisadi tutumlu elm sahələrinin inkişafı yeni çağırışları labüd etdi ki, bununda nəticəsində yeni dünyada yeni texnologiyaların, o cümlədən rəqəmsal texnologiyaların inkişafına zərurət yarandı. Bu gün qloballaşan dünyada rəqəmsal iqtisadiyyat makroiqtisadiyyatın əsas hissəsini təşkil edir desək yanılmarıq.

Nədir bu rəqəmsal iqtisadiyyat? - Rəqəmsal iqtisadiyyat rəqəmsal hesablama texnologiyalarına əsaslanan bir iqtisadiyyatdır. Bəzi müasir ədəbiyyatlarda Rəqəmsal iqtisadiyyata İnternet İqtisadiyyatı, Yeni İqtisadiyyat və ya Veb İqtisadiyyatı da deyilir. Lakin bu gün rəqəmsal iqtisadiyyat ənənəvi iqtisadiyyatla bir-birinə qarışaraq yu-

xarıda qeyd etdiyimiz kimi makroiqtisadiyyatın əsas hissəsini təşkil edir.(3)

İnformasiya kommunikasiya texnologiyalarından, şəbəkə texnologiyalarından istifadənin genişlənməsi rəqəmsal vasitələrdən istifadə olunmasına gətirib çıxardı. Böyük həcmli informasiya materiallarının, rəsmlərin, videoların, müxtəlif animasiya tipli məlumatların, filmlərin və s. ötürülməsi üçün qısa bir müddətdə multimediya vasitələri yarandı. Onlar geniş şəkildə tətbiq olunmağa başladı. Bu yeniliklərdən istifadə iqtisadiyyata öz təsirini göstərməyə başladı. Şəbəkə texnologiyalarından istifadə nəticəsində iqtisadi əlaqələrin qurulması, lokal və qlobal şəbəkələrdən istifadə, iri müəssisələrdə korporativ şəbəkə və sistemlərin yaranması və s. bu kimi məsələlər iqtisadiyyatın bir sahəsi olan rəqəmsal iqtisadiyyatın yaranmasına səbəb oldu.

”Rəqəmsal iqtisadiyyat” terminini ilk dəfə 1995-ci ildə 1943-cu il təvəllüdlü Yunan əsilli Amerikan alimi, ixtisasca memar olan Nikolas Neqroponte elmi dövriyyəyə daxil etmişdir. Bu terminin elmi ədəbiyyata salınması məsələsinə gəldikdə isə ilk dəfə 1997-ci ildə isə Don Tapscottun ”Rəqəmsal iqtisadiyyat: şəbəkə intellektinin mənfi cəhətləri və üstünlükləri” (“The Digital Economy: Promise and Peril in the Age of Networked Intelligence”) kitabında işlədilmişdir. Rəqəmsal iqtisadiyyat adlanan bu kitabda internet vasitəsilə kommersiyanı dəyişdirməyin yolu göstərilmişdir. (1)

Amerikalı iqtisadçı və statistika üzrə mütəxəssisi Thomas Mesenbourga görə “Rəqəmsal iqtisadiyyat” konsepsiyasını aşağıdakı 3 komponentlə eyniləşdirmək olar:

- İnfrastrukturun dəstəklənməsi (kompüter avadanlığı, proqram təminatı, telekommunikasiya, şəbəkə və s.);
- E-biznes (təşkilat hər bir prosesi kompüter şəbəkələri üzərindən aparır);
- E-kommersiya (malların transferi, məsələn onlayn əmtəə satışı və s.).

İqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı və təhlükəsiz infrastruktur quruculuğu ilə sıx bağlıdır. Çünki, bir qayda olaraq dayanıqlı və təhlükəsiz infrastruktur olmadan həm iqtisadiyyatın rəqəmsallaşması, yəni iqtisadiyyatda, iqtisadi münasibətlərdə İKT-dən istifadə, həm də rəqəmsal iqtisadiyyata keçid və onun qurulması, yəni rəqəmsal texnologiyalar əsasında rəqəmsal məhsulların yaradılması – istehsalı mümkün ola bilməz. Məhz müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsas komponentini təşkil edir. Hazırda dünyada sürətlə inkişaf edən elektron ticarət, 5G, robotlaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiqi sahələri də müvafiq magistral infrastrukturun qurulmasını və yenilənməsini tələb edir.

Dayanıqlı sabit infrastruktur olmadan həm ölkələrarası, həm də ölkədaxili bağlantı xidmətlərinin qabaqcıl standartlara uyğun təmin edilməsi mümkün deyil. Hazırda dünya üzrə bağlantı xidmətləri sürətlə inkişaf edir. Həm mobil, həm də genişzolaqlı internet istifadəçilərinin sayı artır. Operatorlar hər ötən il infrastruktura yeni sərmayə yatırımı ehtiyyacı ilə qarşılaşırlar. Böyük Britaniyanın telekom, media və texnologiya üzrə ixtisaslaşmış konsaltinq şirkəti olan “Analysys Mason”un məlumatına əsasən, 2014-cü ildən bəri operatorlar internet infrastrukturuna 300 milyard ABŞ dollarından çox sərmayə yatırıblar.

Aşağıdakı cədvəldən də göründüyü kimi Qlobal İnternet Protokolu (IP) trafiki 1992-ci ildə gündə təxminən 100 gigabayt (GB) idisə, 2017-ci ildə bu saniyədə 45000 GB-dən çox olmuşdur. Nəzərə alsaq ki, bu tendensiya hər gün artan templə davam edir, mütəxəssislərin hesablamalarına görə 2022-ci ilə qədər qlobal İP trafikinin saniyədə 150,700 GB-a çatacağdır. (2)

**Qlobal İnternet trafikinin təkamülü, seçilmiş illər (saniyədə Gigabaytla)**

| 2002 | 2007 | 2017 | 2022 |
|---|---|---|---|
| saniyədə 100 GB | saniyədə 2000 GB | saniyədə 45000 GB | saniyədə 150700 GB |

Bundan başqa araşdırmalar göstərir ki, internetə qoşulan cihazların da sayında artımın olacağı da nəzərdən keçirilməlidir. Məsələn, Mobil Operatorların Assosiasiyası olan "GSMA" təşkilatının "The Mobile Economy 2019" hesabatına əsasən dünya üzrə 2018-2025-ci illər dövründə Rəqəmsal dövriyyədə iştirak edən mobil qurğuların bağlantılarının səviyyəsi üç dəfə artaraq 25 milyarda çatacaq. Bu dövriyyədən əldə olunan gəlir isə 4 dəfə artaraq 1.1 trilyon ABŞ dolları həcmində olacaq. Rəqəmsallaşma və infrastrukturun inkişafı mobil internet istifadəçilərinin də sayında artımın baş verməsi ilə nəticələnəcək. Hesabata əsasən, mobil internet istifadəçilərinin sayı 2018-ci ildə olan 3.6 milyard nəfərdən 2025-ci ildə 5 milyarda çatacaq.(4)

Aparılan araşdırmalara əsasən qeyd etməliyik ki, rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artımına mühüm təsiri vardır. Müxtəlif dövlətlərin iqtisadi inkişaf göstəricilərinə nəzər salsaq görərik ki, rəqəmsal sektorun Cənubi Koreya iqtisadiyyatında payı 12%, İsveçdə 8.6%, Finlandiyada 8,3%, ABŞ-da 7,4%, Böyük Britaniyada isə 7,1 %-dir. Dünya İqtisadi Forumunun məlumatına əsasən, növbəti onillikdə iqtisadiyyatda yaranan yeni dəyərin 70%-i məhz rəqəmsal platformalara əsaslanacaq. "Google"in proqnozlarına əsasən, təkcə Cənub Şərqi Asiyada rəqəmsal iqtisadiyyatın həcmi 2025-ci ilə qədər üçqat artacaq və 240 milyard ABŞ dolları təşkil edəcək.(5)

Bütün bunlara baxanda görürük ki, Rəqəmsal iqtisadiyyatın genişlənməsi bir çox yeni iqtisadi imkanlar yaradır. Bundan əlavə, rəqəmsallaşdırma dəyər zəncirlərini müxtəlif yollarla dəyişdirir və dəyər əlavə etmək və daha geniş struktur dəyişikliyi üçün yeni imkanlar açır.

**Rəqəmsal iqtisadiyyatda uçot və maliyyə münasibətləri.**

İlk növbədə bu sahədə araşdırma tələb edən sual - Rəqəmsal iqtisadiyyatda dəyər ölçmək niyə çətindir? -sualıdır. Rəqəmsal iqtisadiyyatda əlaqəli dəyərin yaradılması və əldə olunan gəlirin ölçülməsi kifayət qədər çətin bir prosesdir. Birincisi, rəqəmsal iqtisadiyyatın geniş qəbul edilmiş tərifi yoxdur. İkincisi, xüsusən inkişaf etməkdə olan ölkələrdə onun əsas komponentləri və ölçüləri barədə etibarlı statistika yoxdur. Vəziyyəti yaxşılaşdırmaq üçün müəyyən cəhdlər olunsada, rəqəmsal iqtisadiyyatın sürətli inkişaf tempi ilə ayaqlaşmaq üçün yeni standartlar müəyyən etmək üzərində işlər bu gün də davam etdirilir. Bu gün müxtəlif mənbələrə görə rəqəmsal iqtisadiyyatın ölçüsü dünya ÜDM-in 4.5 ilə 15.5 faiz arasında dəyişir. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunda əlavə dəyərə gəldikdə, ABŞ və Çin birlikdə dünya ümumi dəyərinin 40 faizini təşkil edir. İKT sektorunda qlobal məşğulluq 2010-cu ildəki 34 milyondan 2015-ci ildə 39 milyona yüksəlmişdir ki, bu sahədə də ən böyük payı (38 faiz) kompüter xidmətləri sferası təşkil etdi.(6)

Son on ildə, rəqəmsal olaraq çatdırıla bilən İKT xidmətləri və xidmətlərinin qlobal ixracatı dünya iqtisadiyyatının artan rəqəmsallaşmasını əks etdirən ümumi xidmətlər ixracatından kəskin fərqlə artdı. 2018-ci ildə rəqəmsal olaraq çatdırılan xidmət ixracı 2.9 trilyon dollar və ya qlobal xidmətlər ixracının 50 faizini təşkil etmişdir. Daha öncə qeyd etdiyimiz kimi, rəqəmsal platformalar dünya iqtisadiyyatında getdikcə vacib rol oynayır. Bazar kapitalı 100 milyon dollardan çox olan rəqəmsal platforma

şirkətlərinin ümumi dəyəri 2017-ci ildə 7 trilyon dollardan çox qiymətləndirilib və bu göstərici 2015-ci illə müqayisədə 67 faiz yüksəkdir. Bəzi qlobal rəqəmsal platformalar müəyyən sahələrdə çox güclü bazar mövqelərinə nail olublar. Məsələn, Google İnternet axtarışı üçün bazarın 90 faizinə sahibdir. Facebook dünya sosial media bazarının üçdə ikisini təşkil edir və dünya iqtisadiyyatının 90 faizindən çoxunda ən yaxşı sosial media platformasıdır. Amazon, dünyanın onlayn pərakəndə satış fəaliyyətinin təxminən 40 faiz payına sahibdir. Çinin daxili sosial şəbəkəsi sayılan WeChat bir milyarddan çox aktiv istifadəçisinə sahibdir. Alipay-ın Çinin elektron ticarət bazarının təxminən 60%-nə sahib olduğu bir faktdır.(10)

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, inkişaf etməkdə olan ölkələrdə iki milyard fiziki şəxs və 200 milyon müəssisə rəqəmsal texnologiyalardan yararlana bilmir. Qeyd etməliyik ki, sürətlə yayılan rəqəmsal texnologiyalar indi maliyyə xidmətlərini daha ucuz qiymətə təqdim etmək imkanı verir və buna görə də maliyyə daxil olmasını artırmaqla və iqtisadiyyatda böyük məhsuldarlıq əldə etməyə imkan verən gəlir gətirir.

Ümumiyyətlə, hesab edirik ki, rəqəmsal maliyyənin geniş yayılması bütün inkişaf etməkdə olan ölkələrin illik ÜDM-ni 2025-ci ilə qədər 3,7 trilyon dollara çatdıra bilər, bu da indiki ilə müqayisədə 6 faiz artım deməkdir. Bundan əlavə ÜDM bütün sektorlarda 95 milyon iş yerinin açılmasına səbəb ola bilər. Rəqəmsal iqtisadiyyatda uçotun aparılmasının üstünlükləri ondan ibarətdir ki, Rəqəmsal ödənişlər satış və xərclərin elektron uçotunu yaradır, bu da müəssisələrə pul axınının izlənməsini və təhlilini yaxşılaşdırmağa imkan verir. Bundan əlavə rəqəmsal maliyyə provayderlərə nağd puldan rəqəmsal ödənişlərə keçidlə öz xərclərinə hər il 400 milyard dollara qənaət etmə imkanı yaradır. Dövlət orqanları isə rəqəmsal ödənişlərin təşfiqi ilə dövlət xərclərinə və vergi daxilolmalarından kənarlaşmaların qabağını almaqla illik ən azı 110 milyard dollar qənaət edə bilər. Bunun təqribən 70 milyard dolları təhsil, infrastruktur və səhiyyə kimi vacib sahələrə dövlət investisiyalarını səmərəli şəkildə istifadə edilməsinə imkan yarada bilər. Bundan əlavə, dövlətlər öz büdcələrində 40 milyard dollar civarında əlavə vergi daxilolmalarının təmin edilməsinə şərait yarada bilərlər.(8)

**Rəqəmsal iqtisadiyyatın beynəlxalq-hüquqi tənzimlənməsi.**

Qeyd etməliyik ki, rəqəmsal iqtisadiyyat qlobal xarakter daşıdığına və makro iqtisadiyyatın mühüm tərkib hissəsi kimi təkcə milli hüquq normaları ilə deyil beynəlxalq-hüquqi münasibətlərin predmetinə çevrilmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, rəqəmsal ticarətlə bağlı mövcud beynəlxalq hüquqi baza rəqəmsal iqtisadiyyatın müasir problemlərinin həllində arzulanan qədər effektiv deyil.

İkincisi, bu sahəni araşdıran müəlliflər çoxtərəfli səviyyədə bu sahədə ən vacib üç məsələni tədqiq edirlər:

- bazara çıxışın yaxşılaşdırılması;
- tənzimləmə prosesinin qarşısındakı maneələrin aradan qaldırılması;
- inkişaf etməkdə olan ölkələrin rəqəmsal iqtisadiyyata daha sürətli inteqrasiyasını dəstəkləmək.

Nəhayət, tədqiqatçılar beynəlxalq ticarət hüququnun islahatı üçün mövcud olan müxtəlif yolları - elektron ticarətlə əlaqədar Ümumdünya Ticarət Təşkilatının standartları ilə uygunlaşan yeni bir dövlətlərarası sazişin hazırlanmasını, elektron ticarətlə əlaqəli Xidmətlərlə Ticarət üzrə Baş Sazişin (GATS)-a düzəlişlərin edilməsini və rəqəmsal ticarətlə məşğul olmaq üçün çoxşaxəli institusional çərçivələrin inkişaf etdirilməsi-

ni müzakirə edirlər.

Qeyd etməliyik ki, milli və beynəlxalq vergi hüququ rəqəmsal inqilabın təsirləri ilə ayaqlaşmaqda çətinlik çəkir. Bu sahədə digər bir çətinlik, rəqəmsal məhsulların təsnifatı ilə bağlı yaranan fikir ayrılıqlarıdır. Xüsusi ilə qeyd etməliyi ki, rəqəmsal ticarəti tənzimləyən maneələri aradan qaldırmaq rəqəmsal ticarət üçün tənzimləmə bazası (həm daxili, həm də beynəlxalq səviyyədə) etibarlı, sabit, şəffaf, qarşılıqlı əlaqəli və proqnozlaşdırıla bilən olmalıdır. Bu gün bu sahədə mütərəqqi sayıla bilən nümunələrdən biri 1998-ci ildə Kristofer Coks və Senator Ron Wayden tərəfindən hazırlanmış İnternet Vergi Azadlığı haqqında Amerika Birləşmiş Ştatları qanunudur.(9)

Ümumdünya Ticarət Təşkilatı çərçivəsində danışıqlar, transsərhəd məlumat axını, elektron ticarət üçün sağlam tənzimləmə mühiti yaratmaq, inkişaf etməkdə olan ölkələrin maraqlarını təşviq etmək, texniki standartlarda yeniliyin artırılması və institusional yaxşılaşdırmalar daxildir. Elektron ticarət üçün sağlam tənzimləmə mühitinin yaradılması ÜTT üzvlərinin son bir neçə elektron ticarətlə bağlı təklifləri üçün ortaq olan digər bir mövzu, elektron ticarət üçün açıq, etibarlı və etibarlı tənzimləmə mühitinin yaradılmasıdır.(7)

Tədqiqat nəticəsində məlum olmuşdur ki, rəqəmsal ticarətlə bağlı mövcud beynəlxalq hüquqi baza rəqəmsal iqtisadiyyatın müasir problemlərinin həllində arzulanan qədər effektiv deyil, milli və beynəlxalq vergi hüququ rəqəmsal inqilabın təsirləri ilə ayaqlaşmaqda çətinlik çəkir. Bu sahədə digər bir çətinlik, rəqəmsal məhsulların təsnifatı ilə bağlı yaranan fikir ayrılıqlarıdır. Xüsusi ilə qeyd etməliyik ki, rəqəmsal ticarəti tənzimləyən maneələri aradan qaldırmaq rəqəmsal ticarət üçün tənzimləmə bazası (həm daxili, həm də beynəlxalq səviyyədə) etibarlı, sabit, şəffaf, qarşılıqlı əlaqəli və proqnozlaşdırıla bilən olmalıdır.

İnformasiya kommunikasiya texnologiyalarından, şəbəkə texnologiyalarından istifadənin genişlənməsi rəqəmsal vasitələrdən istifadə olunmasına gətirib çıxardı. Böyük həcmli informasiya materiallarının, rəsmlərin, videoların, müxtəlif animasiya tipli məlumatların, filmlərin və s. ötürülməsi üçün qısa bir müddətdə multimediya vasitələri yarandı. Onlar geniş şəkildə tətbiq olunmağa başladı. Bu yeniliklərdən istifadə iqtisadiyyata öz təsirini göstərməyə başladı. Şəbəkə texnologiyalarından istifadə nəticəsində iqtisadi əlaqələrin qurulması, lokal və qlobal şəbəkələrdən istifadə, iri müəssisələrdə korporativ şəbəkə və sistemlərin yaranması və s. bu kimi məsələlər iqtisadiyyatın bir sahəsi olan rəqəmsal iqtisadiyyatın yaranmasına səbəb oldu.

Bütün bunlara baxanda görürük ki, Rəqəmsal iqtisadiyyatın genişlənməsi bir çox yeni iqtisadi imkanlar yaradır. Bundan əlavə, rəqəmsallaşdırma dəyər zəncirlərini müxtəlif yollarla dəyişdirərək əlavə dəyər yaratmaq və daha geniş infrastruktur dəyişikliyi üçün yeni imkanlar açır.

## Ədəbiyyat siyahısı:

1. The Digital Economy.Promise and Peril In The Age of Networked Intelligence. Published: 1994, Length: 368 pages.
2. Digital Economy Report. 2019. United Nations Publications, 300 East 42nd Street, New York, New York 10017, United States of America Website: un.org/publications.
3. Data at the Docks: Modernizing International Trade Law for the Digital

Economy. Andrew D. Mitchell, Neha Mishra. http://www.jetlaw.org/wp-content/uploads/2018/06/3_Mitchell-Article_Final-Review-Complete.pdf

4. Digital Finance for all: Powering inclusive growth in emerging economies. september 2016, McKinsey Global Institute.

5. Goıng Digital Integrated policy framework OECD digital economy papers, February 2020 No. 292

6. Task Force on Taxation of the Digital Economy. By PIERRE COLLIN State Councilor, NICOLAS COLIN Finance Inspector, JANUARY 2013.

7. World Trade Organization - Home page - Global trade. www.wto.org

8. https://www.oecd.org/investment/internationalinvestmentagreements/thegeneralagreementontradeinservciesgatsananalysis.htm

9. https://www.analysysmason.com/

10. https://intl.alipay.com/

*Qəribov Asəf Heydər oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti*

## BEYNƏLXALQ İNFRASTURUKTUR LAYİHƏLƏRİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İŞTİRAKI PERSPEKTİVLƏRİ

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə düşünülmüş və uzaqgörən iqtisadi siyasətin reallaşması nəticəsində milli mənafeyə müvafiq strategiyaya uyğun səmərəli beynəlxalq əməkdaşlıq xətti bərqərar edilmiş və günü-gündən də bu mövqe möhkəmləndirilməkdədir. Ölkəmizdə çox mühüm beynəlxalq infrasturuktur layihələri reallaşdırılmış və bu istiqamətdə işlər davam etdirilməkdədir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmişdir. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmış və 2001-ci il fevralın 21-də rəsmi açılışı olmuşdur. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynamışdır. İlkin təhlilə görə, tarixi İpək Yolunun inkişaf etməsinin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

- bölgədə yerləşən ölkələrin ticarət-iqtisadi əlaqələrin inkişaf etməsi;
- nəqliyyat əlaqələrin inkişaf etməsi, yük və sərnişinlərin beynəlxalq daşınması;
- tranzit daşınmalar üçün əlverişli şəraitin yaradılması;
- yük daşınmaların müddətinin qısaldılması;
- daşınma tarifləri və vergilərə xüsusi güzəştlər;
- müxtəlif nəqliyyat sahələr arasındakı əlaqələrin koordinasiya edilməsi;
- çoxmodallı (birləşmiş) daşımaların təşkil olunması üzrə uyğunlaşdırılmış fəa-

liyyət proqramının işlənib hazırlanması (1. s 218).

Bu istiqamətdə hələlik yekun addım olaraq 2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasını göstərmək olar. 2007-ci il fevralın 7-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş imzalanmış, elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulmuşdur. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilmişdir.

Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldır. Sabitlik və təhlükəsizliyə xidmət edən Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafında, inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaqdır.

“Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”nə uyğun olaraq, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla ölkə hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir. Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcəkdir.

Azərbaycan dünyada yeganə ölkədir ki, onun həm Rusiya ilə, həm İranla quru sərhədi var və bu coğrafi yerləşmə üçtərəfli regional əməkdaşlığın inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycan hissəsinin yaradılması prosesi artıq son mərhələyə qədəm qoyub. Bu dəhlizin önəmli hissəsi olan Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilib. Azərbaycan, eyni zamanda, İran ərazisində Astara-Rəşt-Qəzvin dəmir yolunun tikintisinin maliyyələşdirilməsində də iştirak edir. Azərbaycan İran tərəfinə Astara-Rəşt dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə 500 milyon dollar dəyərində kreditin ayrılmasını nəzərdə tutulmuşdur (1. s. 3).

Həyata keçirilmiş beynəlxalq nəqliyyat infrasturukturu layihələri nəticəsində ölkəmizdə təkmil nəqliyyat-tranzit infrastrukturu formalaşdırılmış, eləcə də Azərbaycan Respublikası Avropa-Asiya arasında daşımalar sahəsində qısa yol, zaman sərfi baxımından daha rəqabət qabiliyyətlidir.Belə ki, yeni istismara verilmiş Bakı-Tbilisi-

Qars dəmir yolu xəttinin imkanlarının artırılması, ölkəmizi tranzit daşımalarda daha rəqabət qabiliyyətli edəcəkdir. Azərbaycan Respublikasının müxtəlif istiqamətləri əhatə edən nəqliyyat dəhlizlərinin qovşağına çevrilməsi milli təsərrüfatın, onun ayrı-ayrı sahələrinin davamlı inkişafı üçün münbit şərait yaratmışdır. İki və çoxtərəfli müqavilələr sayəsində artıq Azərbaycan Trans-Anadolu və Trans-Asiya nəqliyyat şəbəkəsinin strateji əhəmiyyətli bir tranzit qovşağına çevrilmişdir.

Son 20 ildə hava nəqliyyatı infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, ölkədə bu müddət ərzində 7 hava limanı tikilib ki, onların 6-sı beynəlxalq əhəmiyyətlidir. Halbuki əvvəl yalnız Bakıda beynəlxalq əhəmiyyətli hava limanı fəaliyyət göstərirdi. Digərləri yerli əhəmiyyətli hava limanı sayılırdı. Bu gün isə Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala hava limanlarından beynəlxalq reyslər həyata keçirilir.

Bütün bunların məntiqi davamı olaraq ölkəmizdə bir qayda olaraq beynəlxalq idman yarışları keçirilir. İldən-ilə bu yarışların sayı da artır və səviyyəsi də yüksəlir. Bu gün dünyanın ən mötəbər idman yarışlarının burada keçirilməsi artıq ənənə halını almışdır. Qeyd olunanlara nümunə olaraq biz 2015-ci ildə ölkəmizdə keçirilən ilk “Avropa oyunlarını”, 2017-ci ildə Bakıda baş tutan “İslam Həmrəylik Oyunlarını”, 2016-cı ildən hər il bir mərhələsi Bakı şəhərində keçirilən “Formula-1” yarışlarını və onlarla belə beynəlxalq idman yarışlarını göstərə bilərik.

Azərbaycanda turizm sahəsi də günü-gündən inkişaf edir və tezliklə iqtisadiyyatın ən mühüm sahələrindən birinə çeviriləcəkdir. Dövlətin gördüyü tədbirlər, ölkədə müasir turizm infrastrukturlarının yaradılması turist axınını ildən-ilə artırır, odur ki, paytaxtda və digər turist zonalarında çoxlu miqdarda yüksək xidmət səviyyəsinə malik mehmanxanalar tikilmişdir. Hal-hazırda onların sayı artıq 550-ni ötmüşdür. Azərbaycanın regionlarında da mehmanxanalar, istirahət zonaları, əyləncə və idman mərkəzləri fəaliyyət göstərir. Bunlara misal olaraq, Qafqaz mehmanxanalar şəbəkəsini, Qəbələ şəhərindəki Gabaland attraksionlar parkını, «Tufandağ» qış turizm kompleksini, Qusar rayonundakı möhtəşəm «Şahdağ» turizm mərkəzini, həm idmanla məşğul olmaq, həm də turistləri qəbul etmək üçün müvafiq infrastruktura malik 15-dən çox Olimpiya idman kompleksini və digərlərini göstərmək olar.

Bütün bunlar turizmin Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərdən birinə çevrildiyinə və qarşıda ölkənin iqtisadi inkişafına böyük perspektivlər açdığına dəlalət edir. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilmişdir. Hazırda turizm sektoru dünya üzrə ümumi daxili məhsulun 9 faizini, ixracın isə 6 faizini təşkil edir. Turizm sektorunun davamlı olaraq inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqidə əsas aparıcı qüvvəyə çevirib. Artıq bütün dünya dövlətləri turizm sektorunun iqtisadiyyata müsbət təsiri hesabına əhalinin məşğulluq, həyat səviyyəsi, tədiyyə balansının yaxşılaşdırılması kimi makroiqtisadi problemlərlə yanaşı, onunla birbaşa əlaqədar olan sahələrin, o cümlədən, xidmət, kənd təsərrüfatı və digər infrastruktur sahələrinin də inkişafına nail olmağa çalışırlar. Bununla yanaşı, turizmin inkişaf etdirilməsi mədəniyyət, idman, səhiyyə və digər sosial sahələrin gəlirlərinin artırılmasına geniş imkanlar yaradır. Bu baxımdan, turizmin inkişaf səviyyəsi istənilən dövlətdə sosial-iqtisadi, qanunvericilik, təhlükəsizlik və s. sahələrdə dövlət siyasətinin indikatoruna çevrilmişdir (4. s.218).

Hazırda Azərbaycanda bütün regionları əhatə edən geniş turizm xidmətləri sistemi sürətlə formalaşdırılır. Fikrimizcə, nəqliyyat sektorunun inkişafı, xüsusilə turizmin canlanmasına müsbət təsir göstərəcək. İstər nəqliyyat-tranzit, istərsə də turizm xidmətlərində keyfiyyətli və operativ təşkilatçılıq ümumi iqtisadi yüksəlişə və Azərbaycanın

dünyaya tanıdılmasına kömək etməklə bərabər, ölkəmizin qeyri-neft sektorunun inkişafı ilə bağlı bir çox məqsədləri reallığa çevirə bilər. Bunun üçün yerli turizm şirkətlərinin fəaliyyətinin dəstəklənməsi və xaricdən daha çox turistin cəlb edilməsi, eləcə də turizm sektorunda qiymətlərin cəlbediciliyinin artırılması məqsədəuyğun olardı .

Beləliklə yekun olaraq qeyd edək ki, ölkəmizdə həyata keçirilən beynəlxalq və yerli əhəmiyyətli infrasturuktur layihələrinin reallaşdırılması ölkə büdcəsinə daxilolmaları əhəmiyyətli artıracaq, məşğulluq problemlərinin həllində mühüm rol oynayacaq və əhalinin rifah səviyyəsini yüksəlməsinə öz təsirini göstərəcək. Fikrimizcə, reallaşdırılan beynəlxalq infrasturuktur layihələri ölkəmizin xarici ticarət əlaqələrinin genişlənməsinə, dünya dövlətləri ilə qarşılıqlı iqtisadi-siyasi bağlılığın artmasına və strateji tərəfdaşlığın möhkəmlənməsinə təsir edən əsas vasitələrdəndir. Eyni zamanda beynəlxalq infrasturuktur layihələri ölkə ərazisində istehsal olunan məhsulların dünya bazarlarına daha rahat və rəqabətqabiliyyətli şəkildə çıxarılmasını təmin edir ki, bu da öz növbəsində ölkənin investisya qabiliyyətliliyini daha da artırır və xarici investisiyaların cəlbedilməsinə şərait yaradır.

### Ədəbiyyat siyahısı:


1. Aras O. N., Süleymanov E. (2016), Azərbaycan iqtisadiyyatı, Bakı, Şərq-Qərb.
2. “Azərbaycan 2020: Gələcəyə Baxış inkişaf konsepsiyası.
3. Elşən Bağırzadə., Azərbaycanın xarici iqtisadi əlaqələri, Bakı–2014.
4. A.X.Nuriyev. Regionların inkişafının strateji məsələləri. Bakı 2013.
5. Əliyev A.Ə. Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri, Bakı, 2001.
7. www.astat.gov.az
8. www.economy.gov.az



*Əliyeva Səbinə Təbriz qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Texniki Universiteti*


## İNNOVASİYA VƏ İNVESTİSİYA FƏALİYYƏTİNİN İQTİSADİ ƏSASLARI

Ölkənin iqtisadi artımı və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə investisiyaları iqtisadiyyatın prioritet sahələrinə yönəltmək, iqtisadiyyatın quruluşunda elm tutumlu sahələrin payını artırmaq zəruri məsələlərdəndir. Ölkədə bəzi hallarda investisiya resurslarının məhdudluğu iqtisadiyyatın texnoloji bazasının təzələnməsinə, müasir tələblərə cavab verməsinə imkan vermir, bu da iqtisadi geriləməyə gətirir. Ölkədə investisiya imkanlarının, xüsusilə də innovasiya yönümlü investisiyaların artması istehsalın strukturunun dəyişən bazar konyunkturasına müvafiq olmasını təmin edir.

Bu səbəbdən ölkədə birinci növbədə 1992-ci ildə «Xarici investisiyaların fəaliyyəti haqqında», sonra isə 1995-ci ildə «İnvestisiya fəaliyyətinin qorunması haqqında» AR Qanunları qəbul edilmişdir. Müasir dünyada ölkənin davamlı iqtisadi inkişafına əsaslanan strategiyaların formalaşması və reallaşdırılması istiqamətində tədbirlərin görülməsi müşahidə olunur. Məlumdur ki, dövlətin sənayedə investisiya-innovasiya siyasəti – investisiya mənbələrini tapıb, onların səmərəli, elm tutumlu, innovasiyalara bağlı

sahələrə yönəldilməsidir. Bu siyasət isə bütövlükdə ölkənin iqtisadi siyasətinin tərkib hissəsi kimi müəyyənləşdirilir.

İnvestisiyaların məqsədi kimi qoyulmuş vəsaitlərdən istənilən yolla gəlirin əldə edilməsi çıxış edir, innovasiyanın isə məqsədi – investisiya obyektinin yaxşılaşdırılmasıdır. Odur ki, innovasiya fəaliyyəti investisiyaya nisbətən daha yüksək məqsədlərə xidmət edir.

İnvestisiyalar – innovasiya vasitələridir. Buradan belə nəticəyə gəlmək olar:

- investisiya fəaliyyəti kapital qoyuluşunun daha az mürəkkəb sferası olur nəinki innovasiya fəaliyyəti;
- innovasiya təşkilatı üçün proiritet innovasiyalara qoyulan kapital olmalıdır, İnvestisiyaların digər formaları torpağın alınması, əsas fondların, dövriyyə vəsaitlərinin, qeyri-maddi aktivlərin, qiymətli kağızların əldə edilməsi – onların ancaq strateji məqsədəuyğunluğu və ya vacibliyi zamanı əldə edilir;
- innovasiya təşkilatı üçün investisiya fəaliyyəti innovasiya fəaliyyətinin funksiyası, bir hissəsi kimi cıxış edir.

İnvestisiya fəaliyyətinin təşkilati-iqtisadi məsələləri aşağıdakı mərhələləri əhatə edir:

- investisiya ideyasının formalaşması;
- investisiya imkanlarının tədqiqi;
- layihənin texniki – iqtisadi əsaslandırması;
- layihə sənədləşdirməsinin hazırlanması.

İnvestisiya ideyasının formalaşması nəzərdə tutur:

- ideyanın seçilməsi və əvvəlcədən əsaslandırılması;
- innovasiya, patent, ekoloji təhlil;
- sertifikatlaşma işlərinin aparılmasının vacibliyinin yoxlanılması;
- layihəni həyata keçirəcək təşkilatın informasiya memorandumunun hazırlanması.

İnvestisiya imkanlarının layihə öncəsi imkanlarına aiddir:

- məhsula tələbin cari öyrənilməsi;
- baza, cari, proqnoz qiymətlərin səviyyəsinin qiymətləndirilməsi;
- iriləşdirilmiş normativlər üzrə və onların iqtisadi səmərəliliyinin cari qiymətləndirilməsi üzrə investisiyaların nəzərdə tutulan həcminin qiymətləndirilməsi.

Layihənin texniki – iqtisadi əsasları nəzərdə tutur:

- tama ştablı marketinq tədqiqatlarının həyata keçirilməsi;
- məhsul istehsalı proqramının hazırlanması;
- izahedici vərəqənin hazırlanması;
- giriş – icazə sənədləşdirməsinin hazırlanması;
- texniki həllərin işlənib hazırlanması.

İstehsalın təşkilati – texnoloji hazırlığının (İTTH) iqtisadi məsələləri sırasına daxildir:

- resursların istifadəsinin səmərəliliyinin təhlili;
- istehsalın onun proqressivliyinin müəyyən edilməsi ilə bağlı təşkilati-texniki səviyyəsinin təhlili;
- idarəetmə və istehsal proseslərinin səmərəli təşkilinin prinsiplərinə əməl edilməsinin təhlili;
- investisiya layihələrinin iqtisadi əsalandırılması;
- kəşflərdən, sənaye nümunələrindən istifadə hüququnun lisenziyasının alınması-

nın iqtisadi əsaslandırılması;

- istehsalın yeni obyektlərinin texnolojiliyinin göstəricilərinin iqtisadi əsaslandırılması;
- material, xammal, avadanlıq, əmək resurslarına olan tələbatın normallaşdırılması.

İstehsalın təşkilati–texnoloji hazırlığının (İTTH) səmərəlilik göstəriciləri:

- investisiyaların səmərəliliyi;
- istehsal proseslərinin səmərəli təşkilinin prinsiplərinə əməl etmə göstəriciləri;
- texnoloji təchizatın elementlərinin təsnifatı göstəriciləri;
- istehsalın avtomatlaşdırılması səviyyəsi.

İTTH xərclər – ilkin (əsaslı), cari və ləğvetmə xərclərinə bölünür:

İlkin xərclərə aiddir:

- lisenziyaların, nou- hau alınmasına xərclər;
- layihə- axtarış işlərinin dəyəri;
- tikinti – montaj işlərinin keçirilməsinə xərclər;
- avadanlıqların alınmasına, montajına, aprobasiyasına xərclər.

Cari xərclərə aiddir:

- material xərcləri;
- sosial fondlara ayırmalar;
- avadanlılqarın təmiri və xidməti xərcləri.

Ləğvetmə xərclərinə aiddir:

- demontaj xərcləri;
- sökülmə xərcləri.

Yoxlama sənədlərinin hazırlanmasına daxildir:

- tender müqavilələrinin hazırlığı;
- potensial investorla danışıqların keçirilməsi;
- obyektin sonrakı layihələndirilmə işləri üzrə tender müqaviləsi.

İşçi sənədlərin hazırlanmasına daxildir :

- layihənin sənədlərinin hazırlanması;
- hazırlayan təşkilatların və qeyri-standart texnoloji avadanlıqları göndərənlərin müəyyən edilməsi;
- layihə-konstruktor, tikinti və texnoloji sənədləşdirmənin hazırlanması və təsdiqi.

Tikinti- montaj və istismar işləri nəzərdə tutur:

- tikinti- montaj işləri;
- personalın öyrənilməsi;
- xammalın, materialların, komplektləşdirici məmulatların, enerji daşıyıcılarının göndərilməsi üzrə müqavilə sənədlərinin hazırlanması.

İqtisadi göstəricilərin monitorinqi özlüyündə birləşdirir:

- məhsulun sertifikasiyasını;
- diler şəbəkəsinin formalaşmasını;
- təmir mərkəzlərinin yaradılmasını;
- layihənin iqtisadi göstəricilərinin cari monitorinqini.

İnnovasiya təsnifatında qeyd edilmişdir ki, yeniliklər alınma və ya öz istehsalı ola bilər, innovasiyalar isə yeniliklərin tətbiqi nəticəsi olaraq ancaq təşkilatın özündə həyata keçirilə bilər.

İnnovasiyalar satıla bilməz, yeniliklər isə istehlak sferasında onların innovasiya-ya çevrilməsi üçün satıla bilir.

Yeniliklərin həyat yolu üç yoldan biri kimi inkişaf edir:
- innovasiya təşkilatında toplanma;
- innovasiya təşkilatında innovasiyaya çevrilmə;
- məhsul kimi satılma.

Təşkilatın səmərəli fəaliyyəti iqtisadi və maliyyə göstəriciləri ilə əks olunur. Bazar münasibətləri şəraitində göstəricilərin vahid bir sistemi yoxdur. Hər bir investor müstəqil olaraq bu sistemi müəyyən edir, bu zaman öz investisiya layihəsindən çıxış edir.

Göstəricilər sisteminə aşağıdakı tələblər qoyulur:
- məhsulun bütün həyat tsiklində prosesi göstəricilər əhatə etməlidir;
- perspektivə uyğun göstəricilər formalaşmalıdır minimum 3-5 il;
- konkret məhsulların konkret bazarlarda konkret dövr üçün rəqabətqabiliyyətli olması göstəricilərinə əsalanma;
- Göstəricilər, planın bütün bölmələri ilə uzlaşmalıdır;
- təşkilatın bütün maliyyə fəaliyyətinin aspektlərini əks etdirməlidir.

Yeniliklərin tətbiqi dörd növ səmərə verə bilər:
- iqtisadi;
- elmi- texniki;
- sosial;
- ekoloji.

Bütün bunlar aşağıdakı nəticələrə gəlməyə kömək edir:
-işlərin iqtisadi səmərəliliyi;
- yeniliklərin özündə tətbiqi və ya satışı;
- sosial və ekoloji səmərə ancaq potensial iqtisadi səmərə formasına malik ola bilər.

Özlüyündə, yeniliyin eldə edilməsinin və ya satılmasının son nəticələrini nəzərə alsaq, innovasiya fəaliyyətinin istənilən növünü dəyər ifadəsində qiymətləndirmək olar. Son qiymətləndirmə kriteriyası kimi burada faktiki iqtisadi səmərənin alınmasıdır. Qərarların alternativ həlli variantları 8 faktor üzrə müəyyən edilir:
- vaxt faktoru;
- keyfiyyət faktoru;
- maştab faktoru;
- istehsalda obyektin mənimsənilməsi faktoru;
1. informasiyanın alınması metodu.

İdarəetmə qərarının kriteriyası kimi iqtisadi səmərə çıxış edir.

İnnovasiya fəaliyyətinin səmərəliliyinin təhlilinin (auditinin) məqsədi onun mexanizminin öyrənilməsi və qoyulmuş investisiyaların geri qayıtmasıdır. Bu məqsəddən təhlilin aşağıdakı vəzifələri irəli gəlir:
- problemin ideya və strukturunun əsaslandırılmasının təhlili;
- İnnovasiya təşkilatının səmərəli strukturunun təhlili;
- İnnovasiya təşkilatının rəhbərliyinin səriştəsinin, innovasiya layihələri rəhbərlərinin təcrübəsinin təhlili;
- Innovasiya fəaliyyətinin dövlət himayədarlığının hüquqi əsaslandırılmasının təhlili;
- İnnovasiya təşkilatlarının maliyyə və material – texniki təminatının təhlili;
- İnnovasiya təşkilatlarının normativ-metodiki təminatının keyfiyyətinin təhlili.

İnnovasiya təşkilatlarının fəaliyyətinin səmərəliliyinin təhlilinin əsas mərhələləri:
- təhlilin problemlərinin, məqsəd və vəzifələrinin aşkar edilməsi;

- təhlilin aparılması üzrə müvəqqəti yaradıcı qrupun formalaşması;
- təhlil proqramı layihəsinin hazırlanması;
- innovasiya təşkilatlarının, hüquq və vəzifələri, təhlil proqramının hazırlanması.

Görülmüş işlər haqqında hesabatın hazırlanması, razılaşdırılması və təsdiqi. Təhlil metodları (müqayisə, balans, indeks, faktor), işlərin səmərəli təşkili prinsipləri xüsusi ədəbiyyatlarda şərh edilmişdir.

Müflis olmuş sahibkarların bazardan kənarlaşdırılması – bazar mexanizminin səmərəli fəaliyyətinin vacib şərtlərindən biridir. Lakin müflisləşmənin qarşısını almaq, bu strukturların sonrakı çiçəklənməsinə yardımçı olmaq – daha vacib və mürəkkəb vəzifədir. Məhz bu vəzifənin həlli antiböhran tədbirləri adlanan tədbirlər sisteminin tətbiqinə tabedir. Bəzən bu idarəetmə adı altında böhran şəraitində idarəetməni, ya da təşkilatın böhran vəziyyətindən çıxarılmasına istiqamətlənmiş idarəetmə başa düşülür.

A.P.Qradovun tərifinə görə antiböhran idarəetmə - aşağıdakı kimi təsnifləşir:
- makro və mikromühitin vəziyyətinin təhlili;
- böhranlı vəziyyətlərin yaranmasının iqtisadi mexanizminin aşkar edilməsi;
- firmanın fəaliyyətinin strateji kontrolinqi;
- sahibkarlıq fəaliyyətinin riskinin daimi uçotu və onun azaldılması üzrə tədbirlər sistemini əhatə edir.

Müəssisənin müflisləşməsi – daxili və xarici faktorların birlikdə neqativ təsiri altında yaranan nəticədir. Xarici faktorlar beynəlxalq və milli ola bilər, menecerlərin təcrübəsizliyi, rəhbərliyin səriştəsizliyi, saxtakarlıqlar, yeyintilər səbəblərdən biridir ki, bu da sonunda qeyri- səmərəli idarəetməyə gətirib çıxarır.

Belə situasiyanın informasiya mənbəyi kimi rəsmi mühasibat hesabatları cıxış edə bilir ki, bu da bir neşə ilin hesabatlarının müqayisəsi yolu ilə aparılır. Hesabatlar arasında forma 1 - mühasibat balansı, forma 2 - mənfəət və zərər haqqında hesabat, forma 5 - müəssisə balansına əlavə əhəmiyyətlidir.

Gözlənilən qeyri- normal vəziyyətin ilk simptomları kimi ola bilər:
- biznes üzrə tərəf müqabillərinin mənfi reaksiyası;
- mühasibat hesabatlarının gecikdirilməsi və ya normal olmayan keyfiyyəti;
- innovasiya təşkilatının növbəti yoxlamaları, lisenziyadan məhrumetmə, kommersiya fəaliyyətinə yersiz müdaxilə.

Böhran prosesinin əsas fazaları bu ardıcıllıqda ola bilər:
1. Strateji böhran;
2. Taktiki böhran;
3. Innovasiya təşkilatının lazımı resurslarla kifayət qədər təmin edilməməsi böhranı;
4. Innovasiya təşkilatının ödəməqabiliyyətinin olmaması.

Dünya təcrübəsi göstərir ki, innovasiya təşkilatlarının antiböhran idarəedilməsinin əsas prinsipləri aşağıdakılardır:
- bütün təsərrüfat subyektləri üçün stabil və etibarlı hüquq və öhdəliklərin müəyyən edilməsi;
- borclulara imkan verilməsi;
- onların fəaliyyətinin yenilənməsi.

İnnovasiya təşkilatlarının normal strukturunun qiymətləndirilməsi üçün göstəricilər:
- Cari likvidlik əmsalı;
- Öz vəsaitləri ilə təmin olunma əmsalı;

- Ödəmə qabiliyyətinin bərpası əmsalı.

Cari likvidlik əmsalı təşkilatın təsərrüfat fəaliyyətinin davam etdirməsi üçün kifayət qədər dövriyyə vəsaitləri ilə təminatını və təcili öhdəliklərini ödəməsini göstərir.

Öz vəsaitləri ilə təmin olunma əmsalı – sənaye müəssisəsində onun maliyyə sabitliyi üçün xüsusi dövriyyə vəsaitlərinin mövcudluğunu əks etdirir.

Ödəmə qabiliyyətinin bərpası əmsalı – müəyyən edilmiş dövr ərzində sənaye müəssisəsinin öz ödəmə qabiliyyətini bərpa etmək və ya itirməsi üçün real imkanların mövcudluğudur.

**Ədəbiyyat siyahısı:**


1.Axundov M.A. Strateji idarəetmə. Dərs vəsaiti. Bakı 2001

2.Şahbazov K.A., H.S. Həsənov, M.H. Məmmədov, Menecment 2007

3.Atakişiyev M.C. İnnovasiya menecmenti, Bakı 2004

4.Tağıyev A.H., İ.B. Əmirov, İnnovasiya menecmenti, Bakı 2010

5.Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri, Bakı 2009

6.Tağıyev A.H. -Bazar iqtisadiyyatının əsasları. Bakı 2000

7.Tofiq Quliyev Menecmentin əsasları, Bakı 2006

8.Maliyyə, kredit və pul tədavülü, «Ali məktəblər üçün dərs vəsaiti», Bakı, Nasir nəşriyyatı, 1999.

9. «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu 1992.

10.«İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu, 1995.



*Babayev Turqan Xəlil oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti*


## RƏQƏMSAL İQTİSADİYYAT VƏ BİZNES TƏHSİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Müasir dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafının ən vacib vəzifələrindən biri də biznesin rəqəmsal iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmasıdır. Rəqəmsal iqtisadiyyatın aktual problemlərindən biri də sahibkarlıq sferası üçün kadrların hazırlanması məsələsidir. Burada əsas "biznes-təhsil" verən ali və orta təhsilin məzmununda keyfiyyət dəyişikliklərinin aparılmasıdır. Yeni mərhələdə "biznes-təhsil" kadr hazırlığını konkret iki istiqamətdə nəzərdə tutur. Birincisi, yerli və xarici kapitalın iştirak etdiyi iri kompaniyaların bütün səviyyələri üçün menecerlərin hazırlanması. İkincisi isə kiçik və orta firmalar üçün müstəqil sahibkarların hazırlanmasıdır.

Azərbaycanda biznes-təhsili və bundan irəli gələn vəzifələri həyata keçirən özəl tədris müəssisələri - biznes məktəblər, kolleclər, tədris mərkəzləri və biznes tədrisi istiqamətli universitetlər fəaliyyət göstərir. Təhsil xidmətləri bazarının tələblərinə uyğun olaraq özəl universitetlərin yaranması və inkişaf etdirilməsi uğurla həyata keçirilir.

Biznes təhsili verən ali təhsil müəssisələrinin inkişafı nəticəsində təhsil xidmətləri bazarında rəqabət dərinləşmişdir. Bu proses digər dövlət universitetlərinin də müasir dövrdə təhsil xidmətləri bazarında gedən dəyişikliklərə uyğunlaşmasına və inkişaf etməsinə güclü təkan vermişdir. Bu baxımdan dövlət rəqəmsal iqtisadiyyatının əsas həlqəsi kimi geniş sahibkarlıq mühitinin yaradılması, kiçik və orta biznesin müdafiəsini təmin etmək üçün daima biznes təhsili verən özəl ali tədris müəssisələrinə dəstək göstərməlidir. Müasir mərhələdə rəqəmsal iqtisadiyyatda (digital economy) biliklərin istehsalı, toplanması, emalı və bölüşdürülməsi elektron daşıyıcıların və kompyuter şəbəkəsinin vasitəsilə həyata keçirilir. İnternet şəbəkəsi hər bir ölkənin elektron ticarətinə və beynəlxalq biznesə xidmət edən sahələrin formalaşması və inkişafı üçün çox geniş imkanlar açır. Belə ki, müasir iqtisadi həyatın mərkəzi fiqurunu artıq dəzgahın və ya konveyerin arxasında duran işçilər yox, proqramçılar və elmi işçilər təşkil edir. Məhz insan resursları və onların intellektual potensialı iqtisadiyyatın inkişafını təmin edir.

Bu baxımdan ”insan kapitalına” qoyulan investisiyalar prioritet olmaqla yanaşı, həm də iqtisadi cəhətdən çox səmərəli deməlidir. Müasir iqtisadi biliklər və vərdişlər gələcək mütəxəssislərə professional formada tədris olunmalı və öyrədilməlidir. Bu sahədə aparılan islahatların əsas məqsədi Universitetlərin fəaliyyətinin yeni xarici və daxili iqtisadi şəraitə və cəmiyyətin artan sosial tələbatına uyğun qurulmasını təmin etməlidir.

Fikrimizcə biznes kadrların hazırlanması Respublikamızda rəqəmsal iqtisadiyyatın formalaşmasına və iqtisadi artımın yüksəlməsinə birbaşa təsir göstərəcəkdir. Burada biznes-təhsilin əsas istiqamətlərindən biri kimi xarici iqtisadi münasibətlərin, beynəlxalq ticarətin seçilməsi daha məqsədəuyğundur. Bu baxımdan Bakı Biznes Universitetinin tədrisi prosesində xarici inteqrasiya olunmuş yeni öyrətmə metodlarının işlənməsi və tətbiqi əsas rol oynaya bilər. Belə ki, tədrisdə yeni məzmun və keyfiyyət dəyişikliyinin əldə edilməsi məqsədilə universitetdə tədris olunan dünya iqtisadiyyatı, beynəlxalq iqtisadiyyat, loqistika, beynəlxalq biznes və iqtisadi-riyazi informatika fənlərinin tədrisi prosesi ümumi mədəni, professional, peşə kompetensiyalarının tələbləri əsasında aparılır. Bu, xüsusi bir vəzifədir ki, yeni istiqamətlər və meyllər təhsil, tədris proqramlarında əks olunmalı, onun realizə texnologiyasını layihələşdirilməli, adekvat texnoloji tədris sistemi qurulmalı, daha da təkmilləşdirilməlidir. Universitet tərəfindən hazırlanan mütəxəssislər daha geniş spektrdə vərdişlərə sahib olmalıdır. Məsələn, xarici ticarət sahəsində olan mütəxəssis aşağıdakı qabiliyyətləri nümayiş etdirməlidir:

1. Müxtəlif fəaliyyət sferalarında iqtisadi biliklərin əsaslarından istifadə etmək qabiliyyəti;
2. Dünya iqtisadi sistemin əsas inkişaf meyllərini bilməli;
3. Dünya iqtisadiyyatının modellərini müxtəlif fəaliyyət sferalarında hadisə və proseslərin təhlili və proqnozlaşdırılmasında tətbiq etməyi;
4. Zəruri məlumatların yığılması, təhlil edilməsi və hesabat məruzəsi hazırlamağı və tədqiqat nəticələrini təqdim etməklə analitik məqalələr hazırlanmasını bacarmalı;
5. Hesabat məruzələrinin hazırlanması və qeydiyyatını aparmaq vərdişlərinə yiyələnmək;
6. Yerli və xarici informasiya mənbələrindən istifadə etməklə zəruri məlumatla-

rın toplanması, təhlil olunması və analitik hesabatların hazırlanması qabiliyyəti;

7. Analitik hesabatların və məqalələrin hazırlanması və qeydiyyatını aparmaq vərdişlərinə sahib olmaq.

Bunlara nail olmaq üçün biznes-təhsilin yeni vəzifəsi bu təhsil üzrə kadr hazırlığını rəqəmsal iqtisadiyyatda və elektron ticarətdə beynəlxalq kəmiyyət dəyişmələrin keyfiyyət dəyişmələrinə sürətlə keçməsinə və qloballaşmaya uyğunlaşmasına stimul yaratmaqdır.

*Hüseynova Aytən İlham qızı, müəllim,*
*Mingəçevir Dövlət Universiteti*

## MİLLİ İQTİSADİYYATIN RƏQƏMSALLAŞDIRILMASI VƏ TEXNOLOJİ İNFRASTRUKTURUN FORMALAŞMASI PERSPEKTİVLƏRİ

Son illərdə Azərbaycanın milli iqtisadiyyatının inkişafında xüsusi əhəmiyyət kəsb edən amillərdən biridə ölkədə yeni texnologiyalara əsaslanan İnformasiya Telekommunikasiya və Rəqəmsal iqtisadiyyatın formalaşdırılması olmuşdur. “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”-də qeyd edildiyi kimi “Azərbaycanda informasiya və telekommunikasiyanın (bundan sonra – İKT) inkişafı istiqamətində görülmüş tədbirlər bir sıra perspektiv irəliləyişlərə yol açmışdır. Belə ki, Azərbaycanda ilk telekommunikasiya peyki orbitə çıxarılmış, yüksəksürətli genişzolaqlı şəbəkə xidmətlərindən istifadə səviyyəsi iki dəfədən çox artırılmış və genişzolaqlı şəbəkələr üzrə göstərilən xidmətlərin qiyməti 2009-cu ildən 2012-ci ilədək 8,7 dəfə azalmışdır. Hazırda sabit genişzolaqlı şəbəkənin böyük hissəsi az sayda şirkətlərdə cəmləşmişdir. Bu bazar iştirakçıları öz bazar paylarını 2012-ci ildə 49 faizdən 2015-ci ildə 66 faizədək artırmışdır” [1].

Ümumiyyətlə araşdırılmalar göstərir ki, müasir dövrdə bəşəriyyət qarşısında duran və tərəqqi üçün yeni üfüqlər açan amillərdən biri rəqəmsal texnologiyaların inkişaf etdirilməsidir. Hazırda dünya “SƏNAYE 4.0” Dördüncü Sənaye İnqilabına qədəm qoyur. Bu ilk növbədə istehsal prosesinin avtomatlaşdırılması, robotlaşması, süni intellektdən geniş istifadə edilməsi, iqtisadiyyatın bütün sahələrində rəqəmsal və informasiya kommunikasiya texnologiyalarının daha geniş tətbiqi deməkdir. Məlum olduğu kimi, müasir dövrümüzdə rəqəmsallaşma yeni texnoloji infrastruktur quruculuğu ilə sıx bağlı olaraq müxtəlif sahələrdə texnoloji yeniliklərin tətbiqinə və inkişafa təsir göstərir. Hazırda bu sahədə inkişaf etmiş əksər dünya ölkələri yeni inkişaf mərhələsinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində daha müasir təşəbbüslər irəli sürürlər. Burada rəqəmsal texnologiyaların tətbiqi, xüsusilə də iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması bu ölkələrdə mütəxəssislər arasında ən çox müzakirə olunan məsələlərdəndir.

Digər sahələrdə olduğu kimi Rəqəmsallaşdırma və Texnoloji infrasturukturun yaradılmasında da texnoloji tərəqqi dünyanın müxtəlif regionlarında olduğu kimi müxtəlif ölkələrdə də rəqəmsallaşma üzrə fərqli inkişaf səviyyəsi mövcuddur. Rəqəmsallaşma səviyyəsinə görə dünya ölkələri bir neçə qrupa bölünürlər. O, cümlədən,

liderlər, əsas qruplar, geri qalanlar, yeni başlayanlar və rəqəmsallaşmadan kənarda qalan dövlətlər kimi təsnifləşdirilirlər. Burada Cənubi Koreya, Danimarka, Böyük Britaniya, İsveçrə və Çin kimi dövlətlər liderlər kateqoriyasına, Almaniya, ABŞ, Yaponiya, Hindistan, Avropa İttifaqı ölkələri əsas qrupa daxildirlərsə, digər dövlətlər müvafiq olaraq kənarda qalanlar, yeni başlayanlar və rəqəmsallaşmadan kənarda qalan səviyyəsində olanlar kateqoriyasına aiddirlər.

Regionda enerji və nəqliyyat mərkəzi olaraq tanınan, Avropa İttifaqı və bir sıra dövlətlərin enerji təhlükəsizliyinə öz töhfəsini verməkdə olan Azərbaycan da artıq "SƏNAYE 4.0"ə qədəm qoyur. Müasir dövr Azərbaycanın da qarşısında zamanın çağırışlarına cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq kimi vəzifələr formalaşdırır. Sürətli inkişaf səviyyəsində olan dövlətlərdə olduğu kimi, ölkəmiz üçün də iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi prioritetlər sırasındadır. Hazırda Azərbaycan Respublikası iqtisadiyyatın rəqəmsallaşması, rəqəmsal iqtisadiyyatın qurulması və dayanıqlı inkişaf üçün bütün imkanlara sahibdir. Ölkəmizin yerləşdiyi unikal coğrafi mövqe, təbii resursları, həmçinin qiymətli insan resursları və eləcə də son illər ərzində cənab Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş Dövlət Proqramları, Sərəncam və Fərmanlar buna tam imkan verir.

İqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı və təhlükəsiz infrastruktur quruculuğu ilə sıx bağlıdır. Çünki bir qayda olaraq dayanıqlı və təhlükəsiz infrastruktur olmadan həm iqtisadiyyatın rəqəmsallaşması, yəni iqtisadiyyatda, iqtisadi münasibətlərdə İKT-dən istifadə, həm də rəqəmsal iqtisadiyyata keçid və onun qurulması, yəni rəqəmsal texnologiyalar əsasında rəqəmsal məhsulların yaradılması – istehsalı mümkün ola bilməz. Məhz müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsas komponentini təşkil edir. Hazırda dünyada sürətlə inkişaf edən Əşyaların interneti (IoT), 5G, robotlaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiqi sahələri də müvafiq magistral infrastrukturun qurulmasını və yenilənməsini tələb edir. Dayanıqlı sabit infrastruktur olmadan həm ölkələrarası, həm də ölkədaxili bağlantı (connectivity) xidmətlərinin qabaqcıl standartlara uyğun təmin edilməsi mümkün deyil. Hazırda dünya üzrə bağlantı xidmətləri sürətlə inkişaf edir. Həm mobil, həm də genişzolaqlı internet istifadəçilərinin sayı artır. Operatorlar hər ötən il infrastruktura yeni sərmayə yatırımı ehtiyyacı ilə qarşılaşırlar. Böyük Britaniyanın telekom, media və texnologiya üzrə ixtisaslaşmış konsaltinq şirkəti olan "Analysys Mason"un məlumatına əsasən, 2014-cü ildən bəri operatorlar internet infrastrukturuna 300 milyard ABŞ dollarından çox sərmayə yatırıblar.

Araşdırmalar internetə qoşulan cihazların da sayında artımın olacağını göstərir. Məsələn, Mobil Operatorların Assosiasiyası olan "GSMA" təşkilatının "The Mobile Economy 2019" hesabatına əsasən dünya üzrə 2018-2025-ci illər dövründə Əşyaların interneti (IoT) bağlantılarının səviyyəsi üç dəfə artaraq 25 milyarda çatacaq. Bu dövrdə Əşyaların internetindən əldə olunan gəlir isə 4 dəfə artaraq 1.1 trilyon ABŞ dolları həcmində olacaq. Rəqəmsallaşma və infrastrukturun inkişafı mobil internet istifadəçilərinin də sayında artımın baş verməsi ilə nəticələnəcək. Hesabata əsasən, mobil internet istifadəçilərinin sayı 2018-ci ildə olan 3.6 milyard nəfərdən 2025-ci ildə 5 milyarda çatacaq.

Qeyd edilməlidir ki, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu Azər-

baycanda da İKT sahəsində dayanıqlı infrastruktur quruculuğu məsələlərini gündəmə gətirir. Beynəlxalq bağlantı xidmətlərinin təkmilləşməsi, internet xidmətindən hər il daha çox sayda insanın istifadə etməsi üçün sabit texnoloji bazanın təkmilləşməsi və yeni texnoloji infrastruktur quruculuğu vacib əhəmiyyət kəsb edir. Hazırda reallaşmasına start verilmiş və Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üzrə icra edilən "Azerbaijan Digital HUB" proqramının da əsasında bu ideya dayanır.

Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsi olan magistral internet provayderi "AzerTelecom" şirkəti tərəfindən icra olunan "Azerbaijan Digital HUB" proqramı çərçivəsində əsas istiqamətlərdən ən birincisi elə dayanıqlı infrastrukturun qurulmasıdır. Bu istiqamətdə şirkət tərəfindən həm ölkə daxilində, həm də ölkə xaricində texnoloji infrastrukturun qurulması üçün işlər aparılır. "Azərbaycan Dəmir Yolları" QSC ilə aparılan layihə ölkə daxilində dəmir yollarının mühafizə zolağı boyunca magistral fiber-optik kabel xətlərinin çəkilməsini və beləliklə də Şimal-Cənub, Şərq-Qərb istiqamətlərdə qonşu dövlətlərin telekom operatorları ilə şəbəkə bağlantılarının qurulmasını təmin edəcəkdir. "Digital HUB" proqramı çərçivəsində Avropa ilə Asiya arasında tarixi ipək yolunun üzərində yeni rəqəmsal ipək yolunun qurulması və bunun üçün Xəzər dənizinin dibi ilə Azərbaycan və Orta Asiya ölkələri arasında "Transxəzər magistralı"nın çəkilməsi isə ölkə xaricində magistral infrastrukturun qurulması layihəsinin tərkib hissəsidir. Bütün qeyd olunanların reallaşması həm Azərbaycan daxilində müasir dövrün tələblərinə cavab verən sabit texnoloji bazanın formalaşmasını, həm də Azərbaycanın artıq internet və kontentin Asiya regionu ölkələrinə ötürülməsində tranzit, sonrakı mərhələdə (Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsi və Azərbaycanda Regional Data Mərkəzin qurulması ilə) artıq mərkəzi ölkəyə çevrilməsini təmin edəcək.

Aparılan tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələrin ÜDM-nin artımına rəqəmsal iqtisadiyyatın inkişafının mühüm təsiri vardır. Bu dövlətlərin iqtisadi inkişaf göstəricilərinə nəzər salsaq görərik ki, Cənubi Koreya iqtisadiyyatında rəqəmsal sektorun payı 12%, İsveçdə 8.6%, Finlandiyada 8,3%, ABŞ-da 7,4%, Böyük Britaniyada isə 7,1 %-dir. Belə ki, Davos İqtisadi Forumunun proqnozlarına əsasən, qarşıdakı onillikdə iqtisadiyyatda yaranan yeni dəyərin 70 faizə qədəri məhz rəqəmsal iqtisadiyyata əsaslanacaq. Digər beynəlxalq təşkilat olan "Google"in proqnozlarına əsasən, yalnız Cənub Şərqi Asiyada rəqəmsal iqtisadiyyatın həcmi 2025-ci ilə qədər üçqat artacaq və 240 milyard ABŞ dolları təşkil edəcəkdir.

Hazırda dünyanın digər inkişaf etmiş ölkələri olan ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Qətər, Çin, Rusiya kimi ölkələrdə rəqəmsal iqtisadiyyat inkişafına xüsusi diqqət yetirilir və bu istiqamətdə hətta xüsusiləşmiş qurumlar yaradaraq, xüsusi milli proqramlar qəbul edirlər. Bu da rəqəmsal transformasiya və yeniləşmə proseslərinin daha operativ formada aparılmasını təmin edir.

Hazırda ölkəmizdə də aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza formalaşdırır. Təsadüfi deyildir ki, Azərbaycanın İKT sektoru 2017-ci ildə 1,038 milyon manat (610 milyon dollar) və ya ÜDM-nin 1,5 faizi (qeyri-neft ÜDM-nin 2,2 faizi) həcmində gəlirləri formalaşdırmışdır. Lakin, 2010-cu ildən sektorun inkişaf etməsinə baxmayaraq, onun artım səviyyəsi ölkə üzrə ümumi iqtisadiyyatdakı artım ilə müqayisədə daha az olmuşdur; nəticə etibarilə, onun ÜDM -də payı azalmışdır. Lakin bunun

əsas səbəbi ÜDM qeyri neft sektorunun daha yüksək templə inkişaf etməsi olmuşdur.

Eyni zamanda İKT-in tərkibində telekommunikasiya sektorunun gəlirləri ümumi gəlirlərinin 88 faizinə bərabər olmuşdur, bu da o deməkdir ki, Azərbaycanda hələ də kompüter və informasiya xidmətlərinin sənayesi vasitəsilə dinamik inkişafı təmin olunmamışdır və onun inkişafı üçün iqtisadiyyatın rəqəmsallaşdırılması səviyyəsinin inkişafına ehtiyac vardır.

Beləliklə araşdırmalar göstərir ki, Regionun Enerji və Nəqliyyat Mərkəzi statuslarına sahib olan Azərbaycanın mövcud durumu ona imkan verir ki, gələcək dövr üçün özünün mövcud resurslardan və texniki imkanlarından, o, cümlədən qabaqcıl dünya təcrübəsindən istifadə etməklə qısa zamanda dünya standartlarına cavab verən rəqəmsal iqtisadiyyat qurmaq və Regionun Rəqəmsal Mərkəzinə çevrilmək imkanı vardır.

**Ədəbiyyat siyahısı:**


1.“Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı.

2.F.Allahverdiyev “Rəqəmsal iqtisadiyyat quruculuğu: Azərbaycan üçün açılan imkanlar” Real-TV. 24 sentyabr 2019-cu il.

3.Azərbaycanın statistik göstəriciləri, Statistik məcmuə, Bakı, Səda, 2015.



*Samira Kamil Mammadova,*
*Ph.D., Associate Professor,*
*Azerbaijan State Oil and Industry University*


## SUPPLY CHAIN RISK MANAGEMENT AND LOCAL COMPANIES

Supply chain process is the main part of some organizations and nowadays all companies try to focus on supply chain management. Experience of western countries shows that managing supply chains in proper way leads to success of the firms and helps to establish better connections with foreign partners. Unfortunately experience of local firms is not so bright and there are too many things to learn and implement in local system if we want to be on one step with leading countries. Using models and implementing them in local firms will give better opportunities and easier risk handling during crises – both, economic, political and natural disasters.

First and main target of supply chain risk management is to establish the safe flow of merchandise and services from origin to end users. There are two sides of supply chain risk management. First is that companies, have to save goods from damages and theft during distribution process. Second side is that firms should be very meticulous and do not allow unauthorized goods and contraband to get into shipments, loss of intellectual property and technology in the shipments and getting in shipments harmful elements - tempering.

Effective program for safe and healthy supply chain process covers different standards for physical safety, control to access, organization bond, trainings and professional improvement, procedural security, IT safety, safety of business-partner

relations and transportation security from the first to last chain of the process.

Even if the company has very strong and good lain security plan, it can face the crises. Crises are unexpected accidents; they need fast reaction and have very big pressure on organizational performance. They cause very high stress and need sharp but careful decision making. A crisis is a tricky situation concerning looming unexpected or substantial modification that needs crucial consideration and action to defend life, assets, property, processes or revenue, the environment and status. Crisis actions consist of natural disasters, major infrastructure collapses, fires, political turbulence, labour disputes, epidemics, IT breakdown, or security threats.

Crisis management is the main segment of risk management process and it has different levels and stages of handling and prioritization. It covers how organization reacts to critical situations, how it detects risks and which decisions and ways will be taken in consideration during handling this situation. It has several periods in developing and implementing actions:

- Formulation of crisis management tools and strategies;
- Reacting. It includes different stages;
- Risk estimation;
- Detecting risks;
- Planning of critical events;
- Risk alleviation;
- Response to emergency situations;
- Communication with internal and external partners;
- Improvement and Renewal of business;
- Examination, Training and Implementation of planned actions.

Organizations must have special department with crisis management team.

***Figure 1.***

**Structure of Crisis Management department.**




First in crisis Team for responding to incidents will take care of it. When this team is not able to handle the situation, it activates team for functional crises. TFC tries to go deeper and understand the reason of crisis and solve it. When it's impossible to deal with it this team calls up the TCMT – Theatre Crisis Management Team,

responsible to regional accidents which have influence on organization and its employees. After, if it’s necessary Corporate Crisis Management Team (CCMT) and Executive Crisis Management Team (ECMT) will be activated. This structure is can be applied in all type of organizations but can be different in decision making process.

A perfect crisis responding flow have to be like it is shown in figure 2.

***Figure 2.***

**Perfect crisis responding flow [1]**




Sharp changes in global economy leads in new technologies for risk management in supply chain and in supply chain management in general. These technologies cover risk measurement and tracking, analysing data, modelling and planning uncertainties, risk mitigation and etc. and requires from risk management new approaches and non-traditional way of thinking and acting.

In 2011 Ou Tang analysed more than 200 investigation works and identified that in its evolution Supply Chain Risk Management (SCRM) had several transformations. Table1 shows evolution stages of this transformations.

***Table1.***

**Evolution stages of SCRM [2]**

| T1 (1995–1999) | T2 (2000–2004) | T3 (2005–2009) |
|---|---|---|
| Performance | Innovation | Management |
| Successes | Industry | Systems |
| Power | Logistics | Model |
| Entry | EDI | Performance |
| Strategies | Model | Networks |
| Order | Management | Information |
| Quantity discount | Information | Product |
| Inventory | Organizations | Integration |
| Management | Interface | Design |
| Coordination | Perceptions | Products |

As it can be seen stage 1 mostly covers operational and organizational part, inventory management and flow of goods, risk management, etc. Stage 2 is mostly about innovations, interface and perceptions. Stage 3 is more about network, system adaptation, information usage, integration scenario, etc. Trends on technology in Supply Chain Risk Management is more related with complexity of network and

system itself and new technologies allow companies predict risks and be ready for unexpected crises. It helps firms to be more flexible in crises situations and organize their work safer.

The input of technologies in Supply Chain Risk Management is indeed to set up and upgrade the planning and monitoring of the stages:

1) Supply chain (risk) tracking, risk determination and notification
2) Data analysis and risk evaluation
3) Modeling and alleviation of risks
4) Supply chain contingency planning
5) Supply chain risk follow-up and management.

Our country became independent almost 28 years ago and for these years it showed very sharp economic growth and positive tendency in supply chain management. But it still cannot compete with leading countries of the world which have long experience and had a long evolution progress. And our country can implement these knowledge. Actually it's good that we have the example and experience of leading countries - we can just apply this practice without any tries and failures as it was with others. But unfortunately not all local firms try to go on step with other countries. Too many countries developed their supply chains and try to be on same level as their foreign partners. But when it comes to local relations unfortunately not all firms try to work in proper way.

The second issue is that too many local companies do not have risk management plan. They start analysing process after the uncertainty takes place. Of course they often use different risk handling methods but what if they could avoid this risk with the help of risk predicting plan? What if they knew beforehand what to do if this kind of risk happened? The answer is that they would react immediately and would not spend time for analysis and decision making because decision has been made before.

Risk management itself in local firms is not high developed and too many companies started implementation of Supply Chain Risk Management plan only after second big devaluation took place in 2015. This moment showed firms that economy will not always be growing as it was last 24 years and crises have the tendency to happen. It showed firms how weak their systems, how vulnerable supply chain is and how it can affect the whole company performance. Unfortunately some companies couldn’t handle the crisis, some still forcing it. But companies which had predicted it before and had plan of action for this kind of situations could reinforce their performance and continue existing. Using methods mentioned here can help local countries react to risks faster and reinforce after crises not during years but several months or a year maximum. While leading companies are in step of using information, adaptation of network, our companies are still somewhere in between handling inventory issues and trying to implement some innovations in this field.

Adopting local supply chain process, building strong network and relations will help local firms to be aware of new researches in supply chain management area and can implement them faster.

Using new technologies which have great potential in supply chain risk, trying them in local performance can do crossing to new approach smoother.

One of other problems of local firms is that they do not take mathematical

modelling seriously. They do not believe the quantifying of risks and supply chain processes and think it's useless and waste of time. In fact as it was told earlier quantifying of risks and their influence on the performance and quantifying effect of risk management events on the company will lead to better results, because we cannot control what we cannot measure.

Our recommendation is that local firms have to take into account practice of foreign firms and the argument that economic environment of our country is not the same as in theirs is not correct - the situation is different because of the efforts of their companies and organizations.

Some companies are sure that if they handled crisis and could reinforce they will be able to handle all risk and avoid all problems. In fact it's not correct and companies besides having risk management plan have to upgrade and update it continuously. Economy is very vulnerable and there can be falls and umps in it and risk management plan have to be flexible and ready for all these changes.

Followings can be recommended to local companies:

- Do not underestimate the risk management plan. If firms avoided some crucial aftermaths of the crisis it doesn't mean they will always do. Always have risk management plan for supply chain processes. Moreover having risk management plan for chains separately is not enough. As supply chain is a complex process and can include cross networks risks companies have to take it into account and have risk management plan for whole supply chain process.
- Always have alternatives. Do not rely on one strategy, one supplier, and one supply chain network. Having alternative plan will save companies to avoid performance stuck when one partner cancels the contract on one risk assessment strategy fails. If the company has one supplier, for example, then when this supplier crushes or terminates the contract, the company will stay without supplier and goods and will need start search new one. It will cause time wastage what is very crucial for some companies – fashion and sports retailers for instance.
- Always use quantifying methods in supply chain risk management. Even if company has alternative strategies for risk events, it has to evaluate them and choose the best convenient strategy. It's possible only by using quantifying methods and has numeric reflection of weigh. If company doesn't have quantified measures for their risks, performance, their alternatives, then it will not be possible to determine which choice decision makers should make and how this choice will affect to performance.
- Use new technologies in supply chain management. Radio Frequency Identifications are better than barcode system which is widely used in our countries. Also GPS system in delivery tracking is very useful and can help to be aware of shipments current situation.
- Always analyze and use practice of leading companies. They have tried too many methods before chose the most convenient one and now local firm and just implement the current strategy of the foreign firm. No need to give a try and low risk of fail.
- Use risk treatment methods for risk management. Risks can happen any time and it can be both big and small risks. Periodical risk treatment plan can avoid risk

assembling and accumulation.

- Have risk management department in company. Of course each department tries to handle risks related to their work but it's very helpful to have risk management department with people who are specialized and focused on assessing, measuring, tracking and monitoring, handling risks and implementing new approaches to this problem. This department should have different teams and each team have to be in charge of different level of risk situations.

These recommendations can increase the performance level of companies. Increasing the performance level of supply chain will lead to increase in whole company performance and with indirect ways – to better reputation the country.

**References:**


1. Zsidisin, George A., "Business and Supply Chain Continuity", Critical Issues Report, January 2007.
2. Blackburn, J., Time Based Competition: The Next Battleground in American Manufacturing, McGraw-Hill Publishers, Massachusetts, 1990



*Mahmudova Gülnarə Rəşid qızı,*
*ictimai elmlər üzrə fəlsəfə doktoru*


## RƏQƏMSAL İQTİSADİYYAT KONTEKSTİNDƏ AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNES (KOB)

Yaşadığımız dövr əslində sənaye olaraq adlandırılan dördüncü sənaye inqilabının yaşandığı dövrü ifadə etməkdədir. İstehsalda buxar gücünün istifadə edilməsi ilə başlayan birinci sənaye inqilabını, kütləvi istehsala keçmək üçün elektrik enerjisinin istifadə edilməyə başlandığı ikinci sənaye inqilabı izlədi. Daha sonra informasiya və kommunikasiya texnologiyalarının istifadəsi ilə üçüncü sənaye inqilabı başlamış oldu.

İnformasiya texnologiyaları kompyuter və informatika sahəsində aparılan tərəqqilərdən başlayaraq bu günə qədər adından daha çox istifadə edilən bir anlayış olmuşdur. İnformasiya texnologiyaları dedikdə qısaca elektron mühitdə informasiyanın əldə edilməsi, saxlanması, emalı, daşınması, ötürülməsi, işlənməsi və istifadəsini özündə cəmləşdirən proseslər bütünü başa düşülür.

İnformasiya və kommunikasiya texnologiyalarının həyatın hər sahəsinə nüfuz etməsi nəticəsində Amerikalı iqtisadçı Piter F. Drucker (Peter F. Drucker) 1993-cü ildə dünyada dəyər istehsalının ənənəvi torpaq, kapital və əməyin yerini məlumat və biliyin aldığını qeyd edir. Artıq sənaye və maddi iqtisadiyyatdan maddi olmayan iqtisadiyyata, yəni "bilik iqtisadiyyatı"na keçid yaşandığını ifadə edən Drucker bir şeylər istehsal etmək işindən "biliyin biliyə" tətbiqi işinin çoxaldığını ifadə etmişdir [1, s.617]. Biliyin və bilik ehtiva edən informasiyanın tətbiq çərçivəsi qloballaşma prosesi ilə

birlikdə daha da genişləndi.

Qloballaşmanın da təkan verici gücüylə “zaman” və “məkan” anlayışları aradan qalxaraq iqtisadi, siyasi, ictimai, mədəni və s. kimi həyatın hər sahəsində qlobal mübadilə prosesi daha da sürətləndi. Dünyanı əhatə edən qloballaşma prosesi ilə birlikdə istifadə sahəsi genişləyən informasiya və kommunikasiya texnologiyalarının rəqəmsallaşması ilə dördüncü sənaye inqilabı da başlamış oldu. Beləliklə, daha çox məlumat daha qısa müddətdə və daha effektiv, ucuz, sürətli bir şəkildə daha geniş sahələrə və kütlələrə çatdı. Bu gün rəqəmsal texnologiyadan istifadə edilməyən sahələr qlobal inkişaflardan geri qalmaq problemi ilə üzləşmək məcburiyyətindədir.

Texnoloji inkişaflar və həyatın bütün sahələrində gedən sürətli dəyişikliklər iqtisadiyyatın strukturunu və iqtisadi fəaliyyətin xarakterini dəyişdirdi. Cozef S. Nay (Joseph S. Nye) müasir dünyada gücün hərbi güc, yumuşaq güc (soft power)-dən başqa sadaladığı iqtisadi güc [4, s.37] qloballaşma prosesi nəticəsində kapitalist sistemin bütün dünyaya yayılmasını sürətləndirdi. Lakin bir tərəfdən qloballaşma, digər tərəfdən informasiya texnologiyalarının sürətli inkişafı, sənayenin texnoloji cəhətdən daha intensiv istehsala keçməsi, kapital hərəkətlərinin milli sərhədləri aşması kimi biznes mühitdə və ictimai həyatda baş verən dəyişikliklərin iqtisadiyyat sahəsində də öz təzahürünü tapması nəticəsində iqtisadiyyatın rəqəmsallaşması zəruri hal aldı.

Rəqəmsal iqtisadiyyat ilk dəfə Don Tapscott tərəfindən 1995-ci ildə istifadə edilmişdir. Tapscottun təsvir etdiyi anlayışa görə, rəqəmsal iqtisadiyyat informasiya və rabitə texnologiyaları tərəfindən təmin edilən iqtisadi fəaliyyətlərin, biznes əməliyyatların və peşəkar qarşılıqlı əlaqələrin dünya miqyasında formalaşdığı şəbəkədir rəqəmsal texnologiyalara əsaslanan [2] və eyni zamanda “şəbəkə iqtisadiyyatı”, “yeni iqtisadiyyat”, “informasiya iqtisadiyyatı”, “bilik iqtisadiyyatı” və s. anlayışlar ilə də ifadə edilən “rəqəmsal iqtisadiyyat” bilik, yenilik və bacarıq kimi xüsusiyyətlərə əsaslanaraq ümumilikdə milli iqtisadiyyata təsir göstərir.

Rəqəmsal iqtisadiyyatı ənənəvi iqtisadiyyat anlayışından ayıran amillərə diqqət çəkən Tapscott bunların bilik (məs. smart telefonlar), rəqəmsallaşdırma, virtuallaşdırma (məs. virtual oyun), molekulyarizasiya (məs. blogerlər), inteqrasiya (məs. Internetdən işləmək), bilavasitəçilik (məs. e-hökümət), uyğunlaşma (məs. interaktiv TV), innovasiya  istehlak üçün istehsal (məs. forum saytları), sürətlilik (məs. e-mail), qloballaşma (məs. e-jurnal), uyumsuzluq (məs. internet qadağası) olduğunu ifadə edir [2].

Dünyanın və xüsusən də iqtisadiyyatın rəqəmsallaşması insan həyatını əsaslı bir şəkildə asanlaşdırdı. İstehlakçıların bir çox fəaliyyətləri distans (uzaq məsafədən) sürdürmələrinə imkan yarandı. Bu gün smart cihaz və qurğuların inkişafı ilə e-ticarət, e-bankçılıq, e-hökümət, e-imza, e-şirkət kimi xidmətlər rəqəmsal biznes mühitin ən bariz nümunələridir.

“Sahibkar” termini ilk dəfə XVII əsrdə Parisdə bankçılıq fəaliyyəti ilə məşğul olan Riçard Kaltilyon (Richard Cantillon, 1680-1734) tərəfindən istifadə edilmişdir. Kaltilyon  (1755) - ci ildə adlı əsərində sahibkarı təsvir edərkən onun ən böyük xüsusiyyətinin risk olduğunu qeyd etmişdir [3, s.6].

Kaltilyondan sonra sahibkar anlayışına fərqli çərçivədən baxanlardan biri də

tanınmış iqtisadçı, sosioloq və siyasətçi Yosef A. Şumpeter olmuşdur. Şumpeter sahibkarı istehsal amillərini bir araya gətirərək istehsalı təmin edən şəxs olaraq təsvir edir. İqtisadi həyatın içində dinamizm olduğunu ifadə edən Şumpeter əsas hərəkətverici qüvvənin innovativ sahibkarların yaradıcılıqlarına bağlı olduğunu vurğulayır. Şumpeterə görə, sahibkar davamlı olaraq yenilik axtaran, innovativ və dinamik bir xüsusiyyətə sahib olan insandır [5, s.137]. Beləliklə Şumpeter "yenilik" anlayışını sahibkarlıq fəaliyyətinin mərkəzinə qoyaraq sahibkarın və ya sahibkarlıq subyektinin yenilik axtaran, yenilik ortaya qoymağa çalışan innovativ tərəfinə diqqət çəkir.

Drucker 1964-cü il başqa bir anlayış ortaya ataraq, sahibkarı "fürsətləri ən üst səviyyəyə çıxaran", Albert Shapero "təşəbbüs göstərən və ehtimal daxilində uğursuzluq riskini öz üzərinə alan", Robert Hisrich "zaman və səy göstərərək müxtəlif dəyərlər istehsal edən, fərqli riskləri öz üzərinə götürən və nəticədə maddi və ya mənəvi qazanc alan" şəxs olaraq ifadə edirlər.

Biznes subyekti təsis etmək yoluyla fəaliyyət göstərən sahibkarlar bunu fərdi və şərikli şəkildə həyata keçirə bilirlər. Sahibkarlıq subyektlərinin dünyadakı bölgü meyarlarına baxdıqda, bunların işə cəlb etdikləri işçi sayı və illik gəlirləri nöqtəyi nəzərindən iri, orta, kiçik və mikro olmaq üzrə təsnifatlandırıldığını görmək mümkündür.

Bölgü meyarından asılı olmayaraq, sahibkarlıq subyektləri iqtisadiyyatın inkişafında hərəkətverici böyük bir qüvvəyə malikdirlər. Bunlar biznes mühitini yaxşılaşdıraraq təkcə iqtisadi problemlərin aradan qaldırılmasına təsir etməməkdə, həmçinin sosial məsələlərin də həllində böyük rol oynamaqdadırlar. Dünya təcrübəsindən də görüldüyü kimi, xüsusilə də kiçik və orta biznes subyekləri (KOB-lar) iqtisadiyyatın diversifikasiyasında, iqtisadi dayanıqlılığın gücləndirilməsində, yeni iş yerlərinin yaradılmasında, müxtəlif məhsul, iş və xidmətin təqdim edilməsində, yerli xammalın istifadə edilməsində, məhsuldarlığın yüksəldilməsində, biznes mühitinin əlverişliliyinin artırılmasında, sağlam rəqabətin formalaşmasında, yoxsulluğun azaldılmasında, məşğulluğun artırılmasında, əlavə dəyərin yaradılmasında, kapital qoyuluşunun artırılmasında, ixrac potensialının yüksəldilməsində böyük rol oynayırlar. Bu səbəbdən, sahibkarlıq subyektlərinin vəziyyəti hər hansı bir ölkənin sosial-iqtisadi rifahını, inkişaf dinamikasını göstərən amillərin başında gəlməkdədir.

Sahibkarlıq fəaliyyətinin formalaşması üçün buna uyğun şəraitin yaradılması zəruridir. Bunlar hər şeydən əvvəl hüquqi şərtlər (sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericilik), iqtisadi şərtlər (maliyyə-kredit həcmi, kapital qouluşlar, sahibkarlıq subyektlərinin sayı, işə cəlb etdiyi işçi və s.) və sosial şərtlər (mal, iş və xidmət müxtəlifliyi, innovativ məhsul və yanaşma və s.-dir).

İnformasiya texnologiyaları sahəsindəki tərəqqilər rəqəmsal iqtisadiyyatın formalaşmasına səbəb olmuşdur. Texnoloji inkişafların qloballaşma prosesi ilə qarşılıqlı əlaqəsi bu gün biznes mühitində özünü daha çox hiss etdirmişdir. Kapitalın sərbəst mübadiləsi, qlobal maliyyə bazarlarının inteqrasiyası, tədqiqat, təhlil, istehsal, marketing kimi sahələrdə əlaqələrin inteqrasiyası dünyanı qlobal bir bazar halına çevirdi. Bununla yanaşı, rəqabətin də qloballaşdığı bir dünyada sahibkarlıq subyektlərinin uğur əldə etmələri onların bilik və informasiyaları necə idarəetmələrindən asılıdır. Belə bir şə-

raitdə, iqtisadiyyatın əsas oyunçularından olan və ölkə iqtisadiyyatının dinamikasında mühim bir yer tutan KOB-ların müasir dövrün tələblərinə cavab verməsi üçün rəqəmsal transformasiyası zərurət kəsb edir.

KOB-ların rəqəmsal transformasiyası eyni zamanda onların qloballaşmasını da təmin edərək onlar üçün yeni fürsətlər yaradır. İnformasiya və komunikasiya texnologiyaları hər şeydən əvvəl sahibkarların qərar qəbul etmə qabiliyyətlərinə təsir göstərir, xərcləri azaldır, məhsul, iş və xidmət müxtəlifliliyinə yol açır, məlumatın mütəmadi axışını təmin edir, yeni şərtlərə uyğunlaşmaq üçün çeviklik qazandırır, rəqabət gücələrini inkişaf etdirir, elmi-tədqiqat və innovasiya sahəsində aparılan işlərini asanlaşdırır, keyfiyyətin və səmərəliliyin yüksəldilməsini təmin edir.

KOB-lar sahib olduqları texnoloji bacarıqları, ixrac etdikləri məhsullar, bağladıqları nou-hau (know-how) müqavilələri, xüsusilə əməyin ucuz olduğu ölkələrdə qurduqları istehsal müəssisələri vasitəsilə qlobal səviyyədə istehlakçıların tələblərinə cavab vermək üçün qlobal bazarlara çıxırlar. Bazarların sürətlə dəyişdiyi, yeni texnologiyaların sürətlə inkişaf etdiyi və məhsulların çox qısa bir müddətdə köhnəldiyi qlobal rəqabət şəraitində KOB-ların dəyişən şərtlərə uyğunlaşmaq, rəqabət sahələrini genişləndirmək, davamlılıqlarını qorumaq, məhsuldarlıqlarını artırmaq, əməliyyat xərclərini azaltmaq və çeviklik qazanmaq məqsədilə innovatif texnologiyalardan istifadə edərək innovativ məhsullar yaradır, əldə etdikləri informasiyaları biliyə çevirirlər. Bu səbəbdən, hər şeydən əvvəl sahibkarlıq subyektlərinin, xüsusilə də KOB-ların rəqəmsal dünyaya uyğunlaşması istiqamətində bir sıra zəruri islahatların aparılması vacibdir. Bir çox KOB-lar rəqəmsal texnologiyadan istifadə etmə bilik, bacarıq və imkanına malik deyillər. Bunun üçün də belə KOB-lara dövlət tərəfindən lazımi köməkliklərin göstərilməsi milli iqtisadiyyatın inkişafının, mövcud sosial balansın və sabitliyin də təminatıdır.

İqtisadiyyatın əsasını təşkil edən sahibkarlıq subyektləri rəqəmsal iqtisadiyyatın yaşandığı müasir dünyada günün tələb və ehtiyaclarına cavab vermək üçün yeni kommunikasiya və informasiya texnologiyalarının üstünlüklərindən yararlanmalıdırlar. Rəqəmsal texnologiya KOB-lara məlumatları, müştəriləri və maliyyə vəsaitlərini daha asan yollarla, daha sürətli və daha ucuza təmin etmələrinə imkan yaratmaqla yanaşı, bunların istehsal etdikləri mal, iş və xidmətlərin qlobal səviyyədə mübadiləsini asanlaşdır.

Azərbaycanda İqtisadiyyat Nazirliyi tabeliyində yaradılan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOB-ların ümumdaxili məhsulda, ixracda və məşğulluqdakı payını və qlobal çağrışları nəzərə alaraq bunların inkişafı istiqamətində müxtəlif işlər görməkdədir. İndiyə qədər İqtisadiyyat Nazirliyi rəqəmsal iqtisadiyyat istiqamətində apardığı islahatlar çərçivəsində 68 xidməti elektronlaşdırmışdır. Süni intellekt və blokçeyn kimi rəqəmsal texnologiyaların tətbiq edilməsi yoluyla elektron vergi bəyannaməsi, elektron vergi hesab-fakturası kimi xidmətlər rəqəmsallaşdırıldı.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması məqsədilə bunların dövlət qeydiyyatı üçün vahid "bir pəncərə" sistemi, sahibkarlıq subyektlərinin lisenziyalaşdırma işlərinin sadələşdirilməsi və elektronlaşdırılması üçün "Lisenziyalar və icazələr" (www.lisenziya.gov.az) portalı da yaradılaraq istifadəçilərin xidmətinə verilmişdir. Həmçinin Azərbaycanda sahibkarlıq subyektləri tərəfindən istehsal olunan

malların vahid məlumat bazasının yaradılması məqsədilə “www.azexport.az” saytı yaradılmışdır. Beləliklə Azərbaycan mənşəli mallar haqqında məlumatlar verilərək, həm daxili həm də xarici bazarda satışı asanlaşdırılmışdır.

KOB-ların rəqəmsal iqtisadiyyata uyğunlaşdırılması və bu yolla fəaliyyətlərinin və qarşılıqlı əlaqələrinin asanlaşdırılması, səmərəliliyinin artırılması məqsədilə yeni dəstək mexanizmlərinin sahibkarların istifadəsinə verilməsi nəzərdə tutulur. Dövlət funksiyalarından biri olan və 2020-ci ildə xidmətə açılması nəzərdə tutulan “e-KOB evi” portalı vasitəsilə “dövlət-biznes” (“G2B”) və “biznes-biznes” (“G2G”) xidmətlərin (müraciətlər, sorğular, cavablar, məlumatlar, uçotlar, konsaltiqlər, ödənişlər və s.) vahid məkanda göstərilərək KOB-ların vaxta və xərclərə qənaət etmələri, eyni zamanda xidmət keyfiyyətinin yüksəldilməsi planlaşdırılır. Hal-hazırda bu istiqamətdə aparılan texniki işlər yekunlaşmaq üzrədir.

Məlumatın böyük qüvvə olduğu rəqəmsal dünyada bunun səmərəli bir şəkildə istifadə edilməsini təmin edən informasiya və kommunikasiya texnologiyaları strateji bir əhəmiyyət kəsb edirlər. İnformasiya texnologiyalarında əldə olunan nailiyyətlər kapitalizmin fundamental daşlarından olan iqtisadiyyatı ciddi şəkildə dəyişdirmişdir. Bu gün dünyada fəaliyyət göstərən bütün iqtisadi subyektlər bu amili mərkəzə alaraq strategiyalarını və fəaliyyət planlarını məhz bu istiqamətdə formalaşdırırlar. İqtisadiyyatın da rəqəmsallaşdığı dünyada milli iqtisadiyyatların inkişafında, sosial balansın və sabitliyin təminatında böyük rola malik olan KOB-ların da transformasiyası zəruri bir hal almışdır. Azərbaycanda KOB-ların qlobal rəqəmsal iqtisadiyyata uyğunlaşdırılması məqsədilə “e-KOB evi”, “Lisenziyalar və icazələr”, www.azexport.az kimi müxtəlif portallar yaradıldı və xidmətlər elektronlaşdırıldı. İqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən KOB-ların yüksək texnologiyalar tətbiq edərək səmərəliliklərini artırmaları və rəqəmsal dünyanın tələblərini düzgün təhlil etmələri və çağrışlarına cavab vermələri məqsədilə infrastrukturun müasirləşdirilməsi, internet provayderlərinin səmərələliyinin artırılması və internet istifadəçi sayının çoxalması, yeni nəsil texnologiyalarının tətbiqi kimi sahələrdə müxtəlif işlər görülməyə davam edir.

## Ədəbiyyat siyahısı:


1. Bang A., Cleemann C.M., Bramming P. How to Create Business Value in the Knowledge Economy: Accelerating Thoughts of Peter F.Drucker. In ManagementDecision. 2010, №4, pp.616-627.
2. Tapscott D. The Digital Economy: Promise and Peril in the Age of Networked Intelligence. 1 edition. 1997, USA, McGraw-Hill, 342 pp.
3. Hisrich R.D. and Peters M.P. Entrepreneurship-Starting Developing and Managing a New Enterprise. 1995, USA, Irwin Publishing Ltd., 650 pp.
4. Nye J.S. Yumuşak Güç. 2005, Ankara, Elips Kitap, 170 sayfa.
5. Schumpeter J.A. The Theory of Economic Development: An Inquiry into Profits, Capital, Credit, Interest, and the Business Cycle translated by Redvers Opie. 1961, New York, Oxford University Press, 255 pp.

*Əliyeva Jalə Rəhman qızı, elmi işçi*
*AMEA İqtisadiyyat İnstitutu,*

# KƏND ƏHALİSİNİN HƏYATINDA KƏND TƏSƏRRÜFATININ ROLU VƏ YERİ

Respublikamızda əhalinin böyük əksəriyyəti, daha dəqiq desək 47,2%-i kənd yerlərində məskunlaşmışdır. Kənd əhalisinin gəlirlərinin tərkibində kənd təsərrüfatından əldə olunan gəlirlər əsas gəlir mənbələrindən biri kimi çıxış edir. Kənd təsərrüfatı ölkənin sosial-iqtisadi problemlərinin həllində, xüsusən də kənd yerlərində yaşayan əhalinin məşğulluğunun təmin olunmasında müstəsna rol oynayır. Başqa sözlə desək, yoxsulluğun azaldılması, əhalinin məşğulluğunun təmin olunması kənd təsərrüfatının inkişafından və onun fəaliyyət dairəsindən birbaşa asılıdır. Kənd əhalisinin gəlirlərinin tərkibində kənd təsərrüfatından gələn gəlirlərin kənd əhalisinin həyatında əhəmiyyətli rol oynamasına baxmayaraq, müqayisə edilən dövr ərzində onun həcmi bir o qədərdə yüksək olmamışdır. Bu göstərici üzrə kənd əhalisinin gəlirlərində müqayisə edilən dövr ərzində 3 dəfə, başqa sözlə 44,8 manat artım baş versədə, cəmi gəlirlərin tərkibində xüsusi çəkisi 12 faiz bəndi azalmaqla 37,4%-dən 25,4%-ə enmişdir.

***Cədvəl***

**Kənd yerləri üzrə əhalinin ayda hər nəfərinə düşən gəlirlərinin quruluşunda baş vermiş dəyişikliklər**




| | 2005 | 2015 | 2017 | 2018 |
|---|---|---|---|---|
| cəmi gəlirlər | 60,3 | 230,4 | 256,8 | 265,4 |
| kənd təsərrüfatından gəlirlər | 22,6 | 61 | 67,4 | 67,4 |

***Mənbə: [1]***

Qeyd edək ki, 1995-1996-cı illərdə aqrar, sovxoz və kolxozların və torpaq islahatları ilə bağlı qəbul edilmiş qanunlar mülkiyyət formalarını təsbit etmiş, nəticədə kənd yerlərində ailələr torpaq sahiblərinə çevrilmiş və yeni iqtisadi münasibətlərin əsası qoyulmuşdur. Torpaq sahələrinin xarakteristikasının təhlilinə əsasən 2005-2018-ci illər ərzində dövrün əvvəlində kənd yerlərində ev təsərrüfatlarının 96,2%-i, dövrün sonunda isə 93,5%-i torpaq sahəsinə malik olmuşdur.

Kənd əhalisinin həyat səviyyəsi, maddi rifah halı maliyyə-kredit mexanizmindən əhəmiyyətli dərəcədə asılıdır. Kənd təsərrüfatı maliyyə vəsaitlərinin əldə olunması baxımından özünü tam təmin edə bilmir. Baxmayaraq ki, bu sahəyə dövlət büdcəsin-

dən ayrılan vəsaitlərin həcmi hər il artırılır, bununla belə kənd təsərrüfatının maliyyələşdirilməsi sistemində çatışmazlıqlar qalmaqdadır. Kənd yerlərində özəl təsərrüfatların inkişaf etdirilməsi və gəlirlərinin artırılması məqsədilə yerlərdə xırda kredit maliyyələşdirmə banklarının tələbata uyğun olaraq yerləşdirilməsi, güzəştli kredit verilməsi, yanacaq-enerji daşıyıcılarının qiymətlərinin artımı ilə əlaqədar güzəştli yanacaqla təmin edilməsi məqsədəuyğun sayılır.

Kənd yerlərində güzəştli kreditlərin verilməsi kənd əhalisinin öz təsərrüfatlarını genişləndirməklə yanaşı kiçik və orta sahibkarlığın inkişafına əlavə maliyyə dəstəyidir. Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafını nəzərdə tutan Dövlət Proqramının icrasının ilk ilinin yekunları ilə bağlı konfransında bankların, xüsusilədə özəl bankların iqtisadiyyatın inkişafına təkan verməlırin vacibliyindən bəhs edilib. Onların daha çox biznes kreditlərinə üstünlük vermələrinin, verilən kreditlərin faiz dərəcələrinin aşağı salmalarının zəruriliyindən, kənd yerlərində kredit əldə edilməsi üçün təklif olunan girov əmlakının yerlərdə deyil, məhz paytaxtda tələb olunmasının yol verilməz olduğunu vurğulanmışdır [2].

Məlumdur ki, ÜDM-in həcminin artması  müxtəlif sahələrin iş və xidmətlərinin həcminin artması ilə birbaşa əlaqədardır. Belə ki, kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyaların həcminin artması kənd təsərrüfatı üzrə ümumi məhsul istehsalının həcminin, bu isə kənd təsərrüfatında ixracın həcminin artımına səbəb olur. Kənd təsərrüfatı üzrə ümumi məhsul istehsalı ilə ÜDM arasındakı asılılığı əks etdirən 1 saylı qrafikə nəzər salaq.

***Qrafik 1.***

**Kənd təsərrüfatı üzrə ümumi məhsul istehsalı ilə ÜDM arasında zaman amilindən asılılıq**




***Mənbə: [3]***

Qrafikdən göründüyü kimi kənd təsərrüfatında məhsul istehsalının həcmi ilə ÜDM-in zaman amilindən asılığı trend modelinə əsasən y=4,216*X-8433,7 çüt korrelyasiyanın xətti tənliyi ilə ifadə olunmaqla $R^2$=0,9422 olduğundan Çeddok şkalasına görə funksional asılılığa daha yaxındır. Başqa sözlə desək Çeddok şkalasına görə əlaqə sıxlığının 0,9-0,99 aralığında olması tədqiq olunan göstəricilər arasında əlaqə sıxlığının "olduqca yüksək" olduğunu göstərir.

Son dövrlər bəzi amillər səbəbindən kənd təsərrüfatında çalışanların sayının azalmasına baxmayaraq, respublikamızda məşğul əhalinin fəaliyyət növləri üzrə bölgüsündə ümumilikdə bu sahənin payı yüksək xüsusi çəkiyə malikdir (Cədvəl 2).

*Cədvəl 2.*

**Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünün quruluşu, %**

| İqtisadi fəaliyyət növləri | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2005-ci illə müqayisədə 2018-ci ildə +artma, -azalma, faiz bənd |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 38,7 | 38,2 | 36,4 | 36,4 | 36,3 | -2,4 |
| Sənaye | 7,2 | 7,1 | 6,8 | 7,2 | 7,4 | +0,2 |
| Tikinti | 5,2 | 6,7 | 7,2 | 7,2 | 7,3 | +2,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4,3 | 4,1 | 4,2 | 4,2 | 4,1 | -0,2 |
| Informasiya və rabitə | 0,8 | 1,3 | 1,3 | 1,3 | 1,3 | +0,5 |
| digər | 43,8 | 42,6 | 44,0 | 43,7 | 43,6 | -0,2 |

***Mənbə: [1]***

Statistik məlumatların təhlilinə əsasən müqayisə edilən dövr ərzində əhalinin məşğulluğunun təmin edilməsində kənd təsərrüfatının payı digər iqtisadi fəaliyyət növlərindən olan sənaye ilə müqayisədə dövrün əvvəlində 31,5 faiz bənd, dövrün sonunda 28,9 faiz bənd, tikinti üzrə müvafiq olaraq, 33,5-29,0 faiz bənd, nəqliyyat və anbar təsərrüfatı üzrə 34,4-32,2 faiz bənd, informasiya və rabitə üzrə isə 37,9-35,0 faiz bəndi qədər çox olmuşdur.

Baxmayaraq ki, 2005-ci illə müqayisədə 2018-ci ildə respublikada məşğul əhalinin tərkibində kənd təsərrüfatında məşğul olanların xüsusi çəkisi 2,4 faiz bəndi qədər azalmışdır, 1995-ci ildə məşğul əhalinin 30,8%-i bu sahədə çalışırdısa, artıq 2018-ci ildə bu rəqəm 36,3%-ə yüksəlmişdir.

Bu sektorun inkişafının həm ölkə iqtisadiyyatında həm də kənd əhalisinin həyatındakı yerinin mühümlüyünü nəzərə alaraq kənd təsərrüfatı məhsullarının emal sahələrini inkişaf etdirmək, ticarət və təchizat məsələlərini təkmilləşdirmək, kənd təsərrüfatı istehsalçılarına xidmətlərin təşkili, sosial və infrastruktur sahələri inkişaf etdirmək yolu ilə kəndlə şəhər arasındakı fərqləri aradan qaldırmaq istiqamətində fəaliyyətin genişləndirilməsi zəruridir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" adlı sənəd çərçivəsində kənd təsərrüfatının inkişafının prioritet elan olunması da bu məqsədə xidmət edir. Sənəddə nəzərdə tutulduğu kimi kənd təsərrüfatının dayanıqlı inkişafına nail olunması və onun

rəqabətqabiliyyətli sektora çevrilməsi kimi strateji hədəflərə nail olunması isə respublikada çoxsahəli kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təmininə səbəb olacaqdır [4]. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı sonuncu Dövlət Proqramının icrası ilə bağlı konfransda Prezident İlham Əliyevin də vurğuladığı kimi kənd təsərrüfatında aparılan islahatların dərinləşdirilməsi, məhsul istehsalında yeni yanaşmalar və müasir texnologiyaların tətbiqi, kənd təsərrüfatı məhsullarının ixracının artırılması kimi məsələlərin həyata keçirilməsi zəruridir.

**Ədəbiyyat siyahısı:**


1. https://www.stat.gov.az/;
2. http://dedrx.gov.az/news
3. Azərbaycanın Kənd Təsərrüfatı. Bakı: 2018, 568 s;
4. https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf.



*Hacıyeva Rəna Cavadxan qızı,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent;*
*Xəlilov Səbuhi İlqar oğlu, magistrant*
*Qərbi Kaspi Universiteti*


## ELEKTRON CƏMİYYƏTİN YARADILMASININ ƏSAS PRİNSİPLƏRİ

İnformasiya cəmiyyətinin əsas fəlsəfi mənası bütün insanların informasiya, bilik tələbatını ödəməkdən, onların arasında sosial kommunikasiya mühiti yaratmaqdan, bilik və düşüncələrini, istədikləri məlumatı ictimaiyyətə çatdırmaqdan ibarətdir. Onun əsas məqsədi informasiya bolluğunun yaradılması və bu prosesin köməyi ilə bir tərəfdən bəşəriyyətin qarşısında duran problemləri həll etmək, digər tərəfdən isə cəmiyyətin inkişafını təmin etməkdir. Yəni informasiya cəmiyyəti elə bir cəmiyyətdir ki, burada əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın, ən əsası isə onun ali forması olan biliyin istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olur.

Bu gün İKT Azərbaycanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin irəliləməsi, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi münasibətlərin vacib tərkib hissəsinə çevrilmişdir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır (1).

Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının əsas istiqamətləri qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma və tərəqqiyə nail olunması və iqtisadiyyatın şaxələndirilməsidir. Bu məqsədlə ölkəmizin ümumi daxili məh-

sulunun tərkibində, həmçinin dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi, iqtisadiyyatda innovasiyaların tətbiqinin genişləndirilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi nəzərdə tutulur. Mövcud resurslardan və coğrafi mövqelərdən istifadə olunmaqla, Azərbaycan Respublikasının bütün bölgələrinin sosial-iqtisadi inkişafının müasir tələblər səviyyəsində təmin edilməsi və iqtisadiyyatımızın rəqabət qabiliyyətinin yüksəldilməsi milli məhsulların dünya bazarında layiqli yer tutmasına şərait yaradacaqdır.

Müasir tələblər baxımından ölkədə informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsi bütövlükdə dövlətin hərbi-siyasi və sosial-iqtisadi potensialının göstəricilərindəndir. Azərbaycan bu mənada istisna hal təşkil etmir və informasiya cəmiyyətinə keçid üçün ölkədə əlverişli şəraitin yaradılması Azərbaycan dövlətinin siyasi məqsədlərindən biridir. Ölkənin informasiyalaşdırılması yolu ilə informasiya cəmiyyətinin formalaşdırılması təşkilati, sosial-iqtisadi, elmi-texniki, texnoloji və ən başlıcası, siyasi amillərə malik olan mürəkkəb prosesdir, onun müvəffəqiyyətlə həyata keçirilməsinə cəlb olunan siyasi inzibati, maliyyə, insan, texniki və s. resurslardan səmərəli istifadə olunmasını, prioritetlərin və fəaliyyət istiqamətlərinin düzgün müəyyən edilməsini, görülən işlərin tənzimlənməsini və əlaqələndirilməsini tələb edir.

Cəmiyyətin informasiyalaşdırılmasına yönəlmiş Milli Strategiya ayrı-ayrı sahələr üçün yaradılan ənənəvi konsepsiya və proqramlardan fərqli olaraq çoxaspektlidir və onun əhatə dairəsinə dövlət siyasəti, sosial-iqtisadi sfera, texnika və texnologiyalar, elm və mədəniyyət daxildir. Strategiya və onun həyata keçirilməsilə bağlı fəaliyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğundur, milli maraqların qorunmasına xidmət edir, beynəlxalq qurumların-BMT-nin, Avropa Şurasının müvafiq standartlarını, tələb və tövsiyələrini, baxılan sahə üçün mühüm olan və Azərbaycan Respublikası tərəfindən qəbul olunmuş digər beynəlxalq aktların müddəalarını nəzərə alır (2).

İnformasiya cəmiyyətinin qurulması zamanı milli səviyyədə aşağıdakı prinsiplərə əməl olunmalıdır:

1. Liderlik-dövlət idarəetmə və yerli özünüidarəetmə orqanlarının, təşkilat və müəssisələrinin rəhbərləri İKT-nin inkişafını və geniş tətbiqini öz fəaliyyətləri ilə bilavasitə təmin etməlidirlər.

2. Bərabərlilik – cəmiyyətdəki mövqeyindən və mülkiyyət formasından asılı olmayaraq, prosesin bütün iştirakçılarının maraqları eyni dərəcədə nəzərə alınmalı, sosial ədalət prinsipi gözlənilməlidir.

3. Şəffaflıq və cəlbolunma – həyata keçirilən fəaliyyət barədə ictimaiyyət geniş məlumatlandırılmalı, açıq ictimai müzakirələr təşkil edilməli və qərarların qəbulunda vətəndaşların, ictimai təşkilatların təklifləri nəzərə alınmalıdır.

4. Əməkdaşlıq – həyata keçirilən fəaliyyətdə dövlət, biznes və vətəndaş cəmiyyəti tərəfdaşlığına xüsusi fikir verilməlidir.

5. Maarifləndirmə – informasiya cəmiyyəti quruculuğuna geniş kütlələrin cəlb olunması, cəmiyyətin hər bir üzvünün bu prosesdə fəal iştirakının təmin edilməsi üçün bu texnologiyalara dair bilik və məlumatlar əhatəli şəkildə əhaliyə çatdırılmalıdır.

6. Sosialyönlülük–vətəndaşların sosial maraqlarının qorunması, hüquqlarının tə-

min olunmasına hərtərəfli şərait yaradılması əsas götürülməlidir.

7. Millilik–ölkədə yaşayan bütün xalqların mənafeyi nəzərə alınmaqla, milli informasiya resurslarının inkişafına, elmi və mədəni irsin müasir texnologiyalar vasitəsilə qorunmasına, yerli İKT sənayesinin inkişafına, yerli istehsalçıların maraqlarına üstünlük verilməlidir.

8. Mərhələlilik–İKT-nin sürətli inkişafını nəzərə alaraq və mövcud imkanlardan səmərəli istifadəni təmin etmək məqsədi ilə fəaliyyət ardıcıl və mərhələlərlə həyata keçirilməli, proqram və layihələr hazırlanarkən prioritetlər, maliyyə və nəticələrin qısa müddətdə əldə edilməsi əsas götürülməlidir.

9. İnnovativlik- elmi-texniki tərəqqinin yenilikləri nəzərə alınmalı, müasir elmi tədqiqatların aparılmasına diqqət artırılmalıdır.

10. Beynəlxalq əməkdaşlıq–qlobal informasiya cəmiyyəti quruculuğunda, İKT sahəsi ilə bağlı beynəlxalq layihələrin həyata keçirilməsində ölkəmiz fəal iştirak etməli, ikitərəfli və çoxtərəfli əməkdaşlıq genişləndirilməli, həyata keçirilən fəaliyyətin ümumdünya informasiya cəmiyyətinin inkişafı ilə sıx əlaqəsi təmin olunmalıdır (3).

Azərbaycan hələ keçmiş SSRİ üçün hesablama və statistik işləri təmin edən dörd respublikadan biri idi. Respublikamızda hərbi elektronika və radio avadanlıqları üçün möhkəm istehsalat bazası var idi. Ozon, Büllur, Radiozavod, Ulduz və başqa bir neçə müəssisə yarımkeçiricilər, radio avadanlığı, idarəetmə qurğuları və digər yüksək texnoloji məhsullar istehsal edilirdi.

Azərbaycan Avropa, Mərkəzi Asiya və Yaxın Şərq arasında həyat əhəmiyyətli keçid yolunu oynayır. Bu baxımdan qloballaşma prosesinə uyğunlaşmanı inkar etmək yox, öz tarixini, milli dəyərlərini, mentalitetini nəzərə alaraq ona ehtiyatla qoşulmaq lazımdır. Bu prosesdə daha dolğun iştirak etmək və ondan faydalanmaq üçün informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi və sənayenin bu sahəsinin inkişafı zəruridir. Ümumiyyətlə, XX əsrin son on illiyindən başlayaraq İKT cəmiyyətin inkişafına təsir edən ən vacib amillərdən birinə çevrilmişdir. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm, təhsil, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr İKT tətbiqinin verdiyi üstünlüklərdən istifadə edirlər. Bu baxımdan respublikamız özünün potensial imkanlarından səmərəli istifadə etməlidir.

Hazırda respublikanın İKT sənayesi nisbətən gəncdir və texnologiya həvəskarı olan sahibkarlar tərəfindən inkişaf etdirilir. Malayziya, Sinqapur, BƏƏ və digər ölkələrdən idxal edilmiş hissələrdən kompüter və digər sistemləri quraşdıran xeyli sayda kiçik quraşdırıcı müəssisələr fəaliyyət göstərir. Həmçinin “HP”, ”Compaq”, ”Xerox”, ”Panasonic”, ”Nokia”, ”Ericsson”, ”Siemens”, ”Oracle”, ”Microsoft” öz mallarını yerli bazarda təqdim etmək üçün ticarət müəssisələri, distribütorlar və səlahiyyətli satıcılar vasitəsi ilə iştirak edirlər.

Ümumən respublikada telekommunikasiyanın inkişafı, kompüterlərin yığılması, proqram təminatının yaradılması və sistem inteqrasiyası ilə məşğul olan 80 şirkət mövcuddur. Qeyd edək ki, 1997-ci ildə belə şirkətlərin sayı 44 idi. Hazırda 40-a yaxın şirkət müxtəlif proqram məhsulları hazırlayır. Təqribən 10 şirkət kompüterlərin yığıl-

ması və sistem inteqrasiyası ilə məşğuldur. Telekommunikasiya sektorunda təqribən 20 kiçik və orta müəssisə telefon şəbəkəsinin kiçik komponentlərinin istehsalı və yığılması ilə məşğuldur.

Məlumatın elektron emalı sənayesində ən yeni informasiya texnologiyalı və tam inteqrasiya xidmətlərini təmin edən 10-a qədər şirkət var. CEN şirkətlər qrupu, RİSK, AZEL bu sahənin aparıcı şirkətləridir. Bu sahədə fəaliyyət göstərən şirkətlər əsasən xarici ölkələrdən "baqaj" şəklində gətirilən hissələrin yığılması və quraşdırılması ilə məşğuldurlar. Həmçinin yerli tələbatı ödəmək üçün kassa maşınları və hesablayıcı qurğular istehsal olunur. Lakin kompüter texnikasını istehsal edən mütəşəkkil sənaye yoxdur. Bu sahə ilkin yaranma mərhələsindədir və yalnız yığma işləri ilə kifayətlənir.

Azərbaycanda proqram təminatı sənayesi sürətlə inkişaf edir. 40-a yaxın şirkət proqram təminatının hazırlanması və sistem inteqrasiyası ilə məşğul olur. Bu şirkətlər hökumətə, korporativ (özəl) sektora və eləcə də neft sektorundakı çoxmillətli şirkətlərə müəyyən xidmətlər göstərirlər. Şirkətlərin 90%-nə qədəri proqram təminatı tərtibatı hazırlayır və dünyanın aparıcı şirkətlərinin kompüter, rabitə avadanlığı və proqram təminatı məhsullarını yayırlar. Bu şirkətlərin 7-9 illik təcrübəsi vardır. Sahənin hasilatı 2001-ci ildə 11,3 milyon ABŞ dolları həcmində olmuşdur. Bu isə ümumi İKT hasilatının 14 %-dir. Bu sahədə aparıcı şirkətlər RİSK, AZEL, Sinam İnvest, Corpus Technology, Peter-service-dir. Qeyd edək ki, bu sahə hələ gəncdir və onun sonrakı inkişafı üçün respublikanın potensial imkanları vardır.

Azərbaycanda bir neçə müəssisə telekommunikasiya və radio avadanlığı istehsalı üzrə ixtisaslaşmışdır. Əsasən kiçik və orta müəssisələr olan 17 şirkət quraşdırma və istehsalat sahəsində fəaliyyət göstərirlər. Bu şirkətlər əsasən mobil radiostansiyaları, telefon kabeli, paylama qutuları, neft sektorunun telimetrik avadanlıqlarının yığılması və istehsalı ilə məşğuldurlar. Bu sahənin hasilatı 2002-ci ildə 28,7 milyon ABŞ dolları həcmində olmuşdur. Mütəxəssislərin fikrincə, Azərbaycan gələcəkdə bu sahənin məhsulları ilə beynəlxalq bazarda uğurla iştirak etmək imkanına malikdir. Bu sahənin aparıcı şirkətləri "Azərbaycan Kommunikasiyaları", "Bahar LTD", "Azeurotel", "Akhundoff" və sairədir.

Respublikanın informasiya texnologiyaları sənayesinin ümumi ixracı 2001-ci ildə 10 milyon ABŞ dollarına bərabər olmuşdur. İxrac edilən əsas məhsullar sayğaclar, kalkulyatorlar, rəqəmli telefonlar, mikrodalğa stansiyaları, telefon kabelləri, hərbi işlər üçün yarımkeçirici cihazlardan ibarət olmuşdur. Qeyd edək ki, respublikanın bu sahədə ticarəti defisitli xarakter daşıyır. Belə ki, 2004-cü ildə mənfi saldo 150 milyon ABŞ dolları olmuşdur. İdxal əsasən Türkiyə, ABŞ, Böyük Britaniya, Almaniya və Asiya ölkələrindən olmuşdur. Respublikamızda sənayenin bu sahəsinin inkişafını şərtləndirən potensial imkanlar genişdir. Azərbaycan ölkənin müqayisəli üstünlüklərindən istifadə edərək regionda tanınmış proqram təminatı və İKT xidmətlərinin təchizatçısına çevrilə bilər.

Azərbaycanın İKT sektoruna yaxından nəzər yetirdikdə iki əsas istiqaməti müəyyən etmək olar-"müxtəlif sahələrin fəaliyyətinin təmin edilməsi üçün texnologiyalar" və "yeni iqtisadiyyat". Ölkədə nəinki milli, hətta region miqyaslı bir sıra iri İKT layihələrin reallaşdırılmasını müşahidə edə bilərik. Qeyd etmək lazımdır ki, Azərbay-

canda dövlət sektorunda, təhsildə, biznesin müxtəlif seqmentlərində informasiya texnologiyalarının sistemli tətbiqi həyata keçirilir. Qeyd edilməlidir ki, HP şirkəti bu cür yüksək səviyyəli layihələrin reallaşdırılmasında Azərbaycanın fəal tərəfdaşlarındandır.

İKT böyük gəlir mənbəyidir. Bu gün informasiya-kommunikasiya texnologiyaları ilə bağlı biznes dünya iqtisadiyyatının ən dinamik və yüksək gəlirli sektorlarından biridir. İnformasiya kommunikasiya texnologiyaları özü isə bütün sahələrdə birinciliyi təmin edən güclü vasitədir. Statistikaya görə, dünya ölkələrinin gəlirlərində neftin payı 3% təşkil etdiyi halda, İKT sahəsində əldə olunan gəlirlər 8% təşkil edir. Dünyanın bütün ölkələrində informasiya texnologiyalarına olan diqqət və bu sahəyə qoyulan sərmayə durmadan artır. Bu böyük gəlir mənbəyindən daha da çox faydalanmaq üçün milli strategiyalar hazırlanır və həyata keçirilir. Bu baxımdan Azərbaycan da istisna təşkil etmir. Son illər bu sahəyə Azərbaycan hökumətinin qayğı və diqqətinin artması, İKT üzrə Milli Strategiyanın yaradılması və təsdiq edilməsi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması və bu nazirlik tərəfindən aparılan islahatlar bizim ölkəmizdə də İKT sahəsində görülən işlərin canlanmasına səbəb olmuşdur.

Yaşından, yaşadığı ərazidən asılı olmayaraq, cəmiyyətin bütün üzvlərinin İKT-nin yaratdığı imkanlardan istifadəsinə şəraitin yaradılması, məqsədli təlim proqramları vasitəsilə əhalinin İKT savadlılığının artırılması, vətəndaşların, xüsusilə də aztəminatlı sosial qrupların İKT-dən bəhrələnməsi üçün onlara müasir texnologiyalardan istifadə üzrə bilik və bacarıqların öyrədilməsi bu istiqamətin əsas məqsədlərindəndir. Bu istiqamətin məqsədlərinə çatmaq üçün aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

1. Cəmiyyətin bütün üzvləri, xüsusilə də ucqar kənd yaşayış məntəqələrində yaşayan və ya xüsusi tələbləri olan insanların kompüterdən, internet xidmətlərindən, "E-hökumət" portalından istifadə bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi;

2. Kütləvi və məqsədli İKT aksiyaları və təlimlər keçirməklə, bütün vətəndaşlar, biznes qurumları və dövlət tərəfindən İKT biliklərinə yiyələnmənin stimullaşdırılması və hər bir fərdin informasiya cəmiyyətinin aktiv qurucusu olması üçün tədbirlər görülməsi;

3. Kiçik və orta sahibkarların biznes proseslərində İKT-ni tətbiq etmələrinə və İKT vasitəsilə üstünlük əldə edilməsinə kömək göstərilməsi.

## Ədəbiyyat siyahısı:


1. http://president.az/articles/11312
2. ictfund.gov.az/uploads/s/3.pdf
3. president.az/articles/11312
4. Abbasov Ə., Əlizadə M., Seyidzadə E., Salmanova M., "İnformatika və kompüterləşmənin əsasları", Bakı, 2006.
5. Bəybalayev Q. "Müasir telekommunikasiya sistemlərinin optik lifli rabitə xətləri", Bakı, 2006.
6. Yusifov F.F., "İnformasiya cəmiyyətinin monitorinqi: mövcud problemlər və onların həlli yolları İnformasiya cəmiyyəti problemləri" Bakı, 2010, №2, s.30–37.

*Rüstəmov Pərviz Hacı oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

# FAİZSİZ MALİYYƏ BAZARLARININ TARİXİ VƏ TƏŞƏKKÜL TAPMASININ İLKİN MƏRHƏLƏSİ

Məlum olduğu kimi, faizsiz maliyyə bazarlarının meydana gəlməsində bir çox yanaşmalar mövcuddur. İlkin olaraq Babil şahlığının ən görkəmli hökmdarı Hammurapini (e.ə. 1792-1750) qeyd etmək lazımdır. O, Mesopotamiyanı öz hakimiyyəti altında birləşdirdi. Ölkə onun qanunları əsasında idarə olunurdu. Hammurapi Şumer və Akkadda istifadə olunan qanun və qaydaları toplayıb 282 maddədən ibarət ilk qanunlar külliyyatı yaratdı. Bu külliyyat onun adı ilə "Hammurapinin qanunları" adlandı. Əhali arasında mübahisəli məsələlər bu qanunlarla həll edilirdi. Bu qanunlar hündür qara bazalt daş sütun üzərində yazılmış və dövrümüzə qədər qalmışdır (1, səh. 96-97).

Qədim dövrün bir çox adətləri, səciyyəvi cəhətləri dövrün ən görkəmli qanunvericisi, Babil sülaləsinin altıncı şahı olan Hammurapinin adı ilə bağlı qanunlarda öz əksini tapmışdır. Hökmdar Hammurapi öz dövrünün ən məşhur şəxsiyyətlərindən biri olmuşdur. Bu onun hazırladığı «Hammurapi kodeksi» ilə əlaqədar olmuşdur. Hammurapi kodeksi mixi yazısında yazılmışdır. Belə ki, bu qanunda əsas göstərilən məsələlər əsasən aşağıdakılardan ibarətdir:

- ticarət işlərində qanuni problemlərin aradan qaldırılması;
- tacirlə onun işçisi arasında səfər vaxtı münasibətlərin tənzimlənməsi;
- malların mənimsənilməsində hüquqi məsələlərin həll edilməsi;
- borc verən və borc alan arasında pul etibarın saxlanılması;
- borc üçün götürülmüş pula görə mənafe nisbətinin müəyyən edilməsi.

İqtisadi məsələlərdə faizin müəyyən edilməsi və onun tənzimlənməsini «haqq edilməmiş qazanc» adlandırırlar (2, səh. 30-33).

Hammurapi kodeksində ən vacib məsələlərdən biri də faizin müəyyən edilməsi və onun tənzimlənməsi olmuşdur. Babil şahlığının ən görkəmli hökmdarı Hammurapinin Qanunun faizlə əlaqəli irəli sürdüyü maddələri bizə o dövrdəki ən yüksək faiz dərəcələri haqqında bir fikir verməkdədir. Bu qanunda faiz dərəcələri 17%-20% ilə göstərilməkdədir. Belə ki, həmin dövrdə faiz dərəcələrini tacirlər sərbəst formada müəyyən edirdi. Məhz buna görə də həmin dövrdə faiz dərəcələrinin 17%-20% olması, o zaman üçün ən ədalətli hesab edilirdi. Buradan göründüyü kimi əgər faiz dərəcələri 17%-20%-dən cox olmasaydı, qeyd edilən maddələr təyin olunmayacaqdı.

Məşhur filosof və alim Platun (b.e.ə. 427-347), faizi əxlaqa zidd taparaq rədd etmiş və faizin qadağan edilməsini istəmişdir. Ona görə, ideal bir cəmiyyətdə fərdlər maddi çıxar düşüncəsindən uzaq yaşamalı, belə bir cəmiyyətdə yoxluq ilə həddindən artıq bolluğa fürsət verilməməli və pul, şəxsən sərvət deyil, sərvət əldə etmənin vasitə-

si olmalıdır. Platon faizlə bağlı fəaliyyəti mənəvi və əxlaqa zidd hərəkət kimi görürdü. Bu səbəblə də Platona görə, ideal bir dövlətdə bərabərsizliklərə, qısqanclığa, eqoizmə, əxlaqsızlığa və fərdi çəkişmələrə gətirib çıxaran faiz qadağan edilməlidir.

Sələmçiliyə olan bu cür münasibət bəsləyənlərdən biri də Platonun şagirdi Aristotel (b.e.ə. 384-322) idi. Aristotel (b.e.ə. 384-322) isə, faiz səbəbiylə zəngin olmağı təbiətə zidd tapmış və pulun şəxsən məhsul meydana gətirməyəcəyini və pulun bir qazanc və ya sərvət vasitəsi olaraq istifadə edilə bilməyəcəyini qarşıya qoymuşdur. O, faizi "yumurta verməyən toyuğa" bənzətmişdir. Pulu, yumurta verməyən sonsuz bir toyuğa bənzədən və "pul balalamaz" deyən Aristotelə görə pul, bu xüsusiyyəti səbəbiylə, bir insandan, bir bitkidən və ya bir heyvandan çox daha fərqli bir şeydir. Onun "Siyasət" adlı kitabında faizə olan münasibəti belədir: "Ən çox iyrənməyi haqq edən faizçilikdir: çünki bundan əldə olunan qazanc, birbaşa pulun öz varlığından irəli gəlir və pulun doğuşuna yol açmış olan səbəbə ziddir. Çünki pul mübadilə üçün yaradılmışdır, halbuki faiz pulun miqdarını çoxaldır və beləliklə də, təbiətə ən zidd olan pul qazanma tərzidir" (3).

Bu sahədə dəyərli töhfələrini verən alimlərdən biri də İbn Xaldun olmuşdur. O, Şərqin və Ərəb dünyasının böyük mütəfəkkiri, sosioloqu, iqtisadçısı, tarixçisi, filosofu və dövlət xadimi olmuşdur. XIV əsrdə yaşayıb yaratmış və dünya islam elminə və mədəniyyətinə böyük xidmət göstərmiş dahi şəxsiyyətlərdən biridir. İbn Xaldun həmçinin İslam dünyasının böyük iqtisadçı alimi, dünya iqtisadi fikir tarixinin inkişafında xüsusi yeri və rolu olan dahi bir şəxsiyyət olmuşdur. Onun yeddi cilddən ibarət olan əsərlərinin birinci üç cildi «Müqəddimə» adı ilə dəfələrlə ərəb, türk, ingilis və digər dillərdə nəşr olunmuşdur.

İbn Xaldun «Müqəddimə» əsərində sosial-iqtisadi həyat məsələlərinin tədqiqinə, təhlilinə və geniş aspektdə şərh olunmasına xüsusi bölmələr və fəsillər həsr etmişdir. İbn Xaldunun böyük elmi xidmətlərindən biri də cəmiyyətin keçirdiyi təbii-tarixi inkişaf mərhələləri və onun hərəkətverici qüvvələri haqqında yanaşmalarıdır. Onun fikrincə, cəmiyyət öz inkişafında köçərilik, oturaq həyat və mədəniyyət mərhələsindən keçməlidir. O, bütün bu inkişaf mərhələlərinin birindən digərinə keçməsi prosesini əmək bölgüsü və məhsuldar qüvvələrin inkişafı ilə koordinasiya edirdi.

İbn Xaldun dəyər (qiymət) qanunu, mübadilə və bazar qanunları, azad iqtisadi fəaliyyət, azad ticarət, rəqabət, sələmçilik, tələb və təklif haqqında özünün konkret sosial-iqtisadi konsepsiyasını irəli sürmüşdür (4, səh. 35-37).

İslam maliyyə-iqtisad sisteminin inkişafında ən görkəmli yer tutan, XII əsrdə yaşayıb yaratmış dahi Azərbaycan şairi, filosof və mütəfəkkir bir şəxsiyyət olan Nizami Gəncəvidir. O, yaxşı təhsilli olmuş, tarix, etika, fəlsəfə, məntiq, ilahiyyat, astronomiya, kimya, fizika, tibb, botanika, riyaziyyat, Qurani-Kərim təfsiri, musiqi, təsviri sənət və s. elmlərə dərindən bələd olmuşdur.

Bildiyimiz kimi, natural təsərrüfatın üstünlük təşkil etdiyi orta əsrlərdə, əmtəə-pul münasibətlərinin inkişaf edib genişlənməsi istehsalçıların təbəqələşməsinə, ticarət

və sələmçilik fəaliyyətinin genişlənməsinə səbəb olurdu. Belə ki, bu, zamanın təbii qanunauyğunluqlarının nəticəsi idi. Bu qanunlara uyğun olaraq tədricən sərvətin pul formasında özünü göstərməsi, pula, qızıla marağı artırırdı. Bu dövrdə pul, qızıl varlanmağa olan istəyi artırırdı. Pula, qızıla olan hərislik artırdı, onu yığmaq, toplamaq, xəzinə yaratmaq bir vasitəyə çevrilirdi. Nizamı Gəncəvi insanlar üzərində pulun, qızılın təsirini görüb, müşahidə edərək, bu kimi məsələlərə qarşı öz sərt fikirlərini irəli sürürdü. O, pulu insanın maddi və mənəvi tələbatına xidmət edən bir vasitə kimi görürdü. Bildiyimiz kimi, sələmçiliklə pul, qızıl və gümüş yığmaq Nizaminin əxlaq və ədalət prinsipinə uyğun gəlmirdi. Bu baxımdan, pulun yerinə yetirəcəyi bir sıra funksiyaları öz əxlaq və ədalət prinsipləri əsasında izah etməyə çalışır və bununla bağlı dəyərli fikirlərini qələmə alırdı. (5, səh. 96-98).

Aparılan elmi-nəzəri araşdırmalardan göründüyü kimi, faizsiz maliyyə bazarlarına tarix boyu həm Şərq, həm də Qərbdə təxminən eyni yanaşmalar mövcud olmuşdur. Onun insan cəmiyyəti üçün yaratdığı problemlərdən bəhs edilmişdir. Bu baxımdan, İslam maliyyə-iqtisad sisteminin iqtisadiyyata tətbiq edilməsi və ondan səmərəli bəhrələnməsi bəşər cəmiyyətinə öz müsbət töhfəsini verəcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. İlqar Həsrət oğlu Hüseynov, Nigar Timuçin qızı Əfəndiyeva. Qədim dünya mədəniyyəti. Dərslik. Azərbaycan dilində. Bakı: “Mars-print” NPM, 2009, 96-97 s.

2. Orucov T. Ümum dünya tarixi. (I kitab) Qədim dünya tarixi. Bakı: «Adiloğlu» nəşriyyatı, 2011-ci il, 30-33 s.

3. https://www.tkbb.org.tr/Documents/Yonetmelikler/Katilim-Finans.pdf

4. T. S. Vəliyevin ümumi elmi redaktəsi ilə. Ümumi iqtisadi nəzəriyyə. Bakı: «Siyasət» nəşriyyatı, 1995, s. 35-37.

5. Vəliyev T. S., Həsənov A. C. Azərbaycan iqtisadi fikir tarixi. Bakı: ADİİ-nin nəşriyyatı, 1996, s. 96-98.

*Cəfərov Pərviz Tahir oğlu, baş müəllim*
*Sumqayıt Dövlət Universiteti*

## RƏQƏMSAL TEXNOLOGİYALAR VƏ MİLLİ İQTİSADİYYAT

Rəqəmsal iqtisadiyyat rəqəmli hesablama texnologiyalarına əsaslanan iqtisadiyyat sahəsi hesab olunur və bəzən onu internet iqtisadiyyatı və ya yeni iqtisadiyyat adlandırırlar. Rəqəmsal iqtisadiyyat termini 1997-ci ildə Don Tapskottun “Rəqəmsal iqtisadiyyat: şəbəkə intellektinin mənfi cəhəti və üstünlükləri” kitabında işlədilmişdir.

Qloballaşma prosesində, informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə, bir sira ictimai həyat təcrübələri elektron və rəqəmsal mühitlə əvəz olunmuşdur. İKT və şəbəkə texnologiyalarından istifadə nəticəsində iqtisadi əlaqələrin qurulması, lokal və qlobal şəbəkələrdən istifadə, iri müəssisələrdə korporativ şəbəkə və sistemlərin yaranması iqtisadiyyatın yeni sahəsi olan rəqəmsal iqtisadiyyatın yaranmasına səbəb olmuşdur. Rəqəmsal iqtisadiyyatın inkişafı nəticəsində informasiya texnologiyaları cəmiyyətə e-Kommersiya, e-Ticarət, e-Demokratiya, e-İdarəetmə və e-Hökumət kimi anlayış və faktları özü ilə bərabər gətirmişdir.

Yeni iqtisadiyyatın mərhələsi olan rəqəmsal iqtisadiyyat yeni iqtisadiyyat və onun sərhədləri kimi özünün müxtəlif inkişaf mərhələlərini keçir. Texnoloji inqilab nəticəsində dünyada rəqəmsal keçid mərkəzlərinin, rəqəmsal robotların, layihələndirmə üçün virtual mühitin, sürətli prototip sistemlərinin yaradılması baş verdi. Rəqəmsal mühitin yaradılmasının əsasını dövlət orqanları, vətəndaşlar, o cümlədən biznes qurumları arasında səmərəli münasibətin formalaşdırılması təşkil edir.

Rəqəmsal texnologiyaların mövcud olan üstünlükləri və imkanları məqsədəuyğun, düzgün şəkildə istifadə edilərsə, bu cəmiyyətdə hərtərəfli tarazlığın yaranmasına şərait yaradar. Rəqəmsal iqtisadiyyatın əhatə dairəsinin genişlənməsi, onun daha çox dünya ölkələrini əhatə etməsi rəqəmsal fəzanın istifadəsi səviyyəsindən asılıdır. Rəqəmsal iqtisadiyyat anlayışının mahiyyətinə nəzər saldıqda onun sərhədsiz olduğunu qeyd etmək olar, ancaq dünya Rəqəmsal Vahid Bazarı hələlik parçalanmış vəziyyətdədir və fərqli milli bazar təcrübələri ilə xarakterizə edilir.

Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi və şaxələndirilməsi məqsədi ilə iqtisadiyyatın bütün sahələrinə rəqəmsal texnologiyaların tətbiqi həyata keçirilir. Azərbaycanda rəqəmsal texnologiyaların tətbiqi iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin etmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri və rəqəmsal texnologiyaların milli iqtisadiyyata geniş miqyasda tətbiqini nəzərdə tutmuşdur.

## Ədəbiyyat siyahısı:

1.Kərimov S.Q.İnformasiya sistemləri, Bakı, 2008

2.Əkbərov M. Elektron kommersiya, Bakı, 2011.

3. Azərbaycan Respublikası milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.

# II BÖLMƏ

## *SOSİAL – SİYASİ SAHƏLƏRDƏ MÜASİR TEXNOLOJİ VASİTƏLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ*

# SECTION II

## *THE IMPORTANCE OF MODERN TECHNOLOGICAL DEVICE USAGE IN SOCIO-POLITICAL FIELDS*

# РАЗДЕЛ II

## *ВАЖНОСТЬ ИСПОЛЬЗОВАНИЯ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЧЕСКИХ СРЕДСТВ В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ СРЕДЕ*

*Mustafayev Azər Xoşbəxt oğlu,*
*fəlsəfə elmləri doktoru, professor,*
*AMEA-nın Fəlsəfə İnstitutu*

## SOSİAL ELMLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİNDƏ FƏLSƏFƏNİN YERİ VƏ ROLU

Fəlsəfə elminin müasir sosial elmlər sistemində yeri nəzəri və praktiki əhəmiyyətilə diqqəti cəlb edir. Məlum olduğu kimi, cəmiyyət haqqında sosial elmlər min ildən artıq mövcud olsa da, bu elm sahəsi, yəni cəmiyyətşünaslıq yalnız XIX əsrdə meydana gəlmişdir. Bu isə fəlsəfə elminin təkamülünə təsir etmişdir.

Sosial fəlsəfə cəmiyyət haqqında elmlərdən biri olsa da, daim digər ictimai elmlərlə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Başqa sözlə, fəlsəfənin metodologiyası və predmeti digər sosial elmlərdən fərqlənir. Cəmiyyətin dərk olunması haqqında klassik təsəvvürlərə gəldikdə burada fəlsəfənin varlığı, idrakı və təfəkkürü mücərrəd-ümumi səciyyələndirməsi baxımından önə çıxır. Bu zaman ontologiya, fəlsəfə tarixi, hüquq fəlsəfəsi, antropologiya qarşılıqlı əlaqədə olur.

Fəlsəfənin klassik, qeyri-klassik, postklassik tipləri də diqqəti cəlb edir. "Fəlsəfə sosial-humanitar elmlərin işini özünün ümumiləşmiş sxemlərilə tamamlayır"[7,30]. Qeyd etmək lazımdır ki, fəlsəfənin digər sosial elmlərə birbaşa təsiri olmasa da, lakin son 30 ildə ictimai elmlərin ontoloji əsasları haqqında müasir fəlsəfi ədəbiyyatda bu diskussiyalar indi də davam etməkdədir.

İctimai elmlər və humanitar elmlər arasında münasibətlərin qarşılıqlı kontekstdə tədqiqilə bilavasitə sosial fəlsəfə məşğul olur. Fəlsəfənin bu sahəsi artıq müstəqil fəlsəfi bilik sferalarından birinə çevrilmişdir. Fəlsəfə rasionallığa, biliyə, sistemliyə, məntiqliyə əsaslanan elmi-nəzəri dünyagörüşü tipidir. Fəlsəfə elmləri doktoru, professor İ.Məmmədzadə fəlsəfə elmini aşağıdakı kimi səciyyələndirir:

1. Fəlsəfə, əlbəttə ki elmdir, lakin dünyaya özünəməxsus idraki, tarixi və münasibəti ilə fərqlənən spesifik elmdir.
2. Fəlsəfə mədəniyyətin və ehtimal ki, yüksək mədəniyyətin bir hissəsidir.
3.Köhnə anlayışlara yeni mənalar, yeni anlamlar yükləməklə fəlsəfə mədəniyyətin bir bütövlük və sistem kimi dərkini modelləşdirmiş olur.
4. Fəlsəfədə onun bir-birilə bağlı ümumimetodoloji və etik statuslarını görmək lazımdır [4,7-9]. Göründüyü kimi, fəlsəfə elm, mədəniyyət, əxlaqın vəhdəti olub gerçəkliyin ən ümumi prinsiplərini dərk edən idrak sahəsidir.

Fəlsəfə dünyagörüşü tipi kimi üç mərhələdən - kosmosentrizm, teosentrizm və antroposentrizm mərhələlərindən keçmişdir.

Deməli, fəlsəfə spesifik metodları olan elm sahəsidir. Onun metodları isə aşağıdakılardır:

- dialektika;
- metafizika;
- ehkamçılıq;
- eklektika;
- sofistika;
- hermenevtika [6,17].

Bütün bu metodlar vasitəsilə fəlsəfi tədqiqatlar həyata keçirilir.

Müasir sosial elmlərin analitik, intuitiv, fenomonoloji və s. fəlsəfi metodları var-

dır. Bundan başqa sosial elmlər ümumelmi yanaşmalara və tədqiqat metodlarına struktur-funksional, modelləşmə, formallaşma, mücərrədləşmə, ideallaşdırma, induksiya və deduksiya metodlarına əsaslanır.

Fəlsəfənin tədqiq etdiyi problemlər və sahələr cəmiyyətin, elmlərin, fəlsəfi biliklərin özünün inkişafı ilə bağlı tarixən dəyişmişdir. "Fəlsəfi biliklərin özünün çərçivəsində hələ erkən mərhələlərdən onun differensiasiyası başlanmış, nəticədə etika, məntiq, estetika ondan ayrılmış və tədricən aşağıdakı fəlsəfi bölmələr əmələ gəlmişdir:

- ontologiya-varlıq haqqında təlim;
- qnoseologiya idrakın təbiəti və imkanları haqqında təlim;
- antropologiya-insan haqqında təlim;
- aksiologiya-dəyərlərin təbiəti və strukturu haqqında təlim;
- praksiologiya- insan və dünyanın praktiki münasibətləri haqqında təlim;
- sosial fəlsəfə - cəmiyyətin spesifik xüsusiyyətlərini, onun dinamikasının və inkişaf perespektivinin, ictimai proseslərin məntiqinin, bəşər tarixinin mənası və təyin edilməsinin öyrənilməsi"[8,12].

Fəlsəfənin Şərq və Qərb tipləri mövcuddur. Dünya fəlsəfi tarixinə hər bir xalq, o cümlədən Azərbaycan xalqı öz töhfəsini vermişdir.

XX əsrdə fəlsəfədə strukturalizm, poststrukturalizm, neotolizm kimi cərəyanlar əmələ gəlmişdir.

İctimai elmlər sosiomədəni fenomen olaraq mədəni-dünyagörüşü, sosial güc funksiyalarını yerinə yetirir. Bu elmlər təcrübəli, bilikli alimlərin həyata keçirdikləri fəaliyyət növü və sosial təsisat olub özündə elmi əməyin bölgüsünü və kooperasiyasını, elmi təşkilatları, müəssisələri, məktəbləri və birlikləri əks etdirir. Sosial elmlər öz strukturu olan koqnitiv, təşkilati və mənəvi ehtiyatlardan istifadə edən təsisatdır. Bu baxımdan həmin elmlərə aşağıdakı komponentlər daxildir:

- biliklər və onların daşıyıcılarının məcmusu;
- spesifik idraki vasitələr, müəssisələr, məqsəd və vəzifələrin mövcudluğu;
- müəyyən funksiyaların yerinə yetirilməsi;
- elmi nailiyyətlərin qiymətləndirilməsi, ekspertizası və nəzarət formalarının işlənib hazırlanması;
- müəyyən sanksiyaların mövcudluğu [9,13].

Beləliklə, sosial elmlərin institusionallaşması prosesində onların məzmun və mahiyyətini, eləcə də nəticələrini konkretləşdirmək mümkün olur.

Fəlsəfə sosial elmlərin metodologiyasıdır. Elmlərin fəlsəfi əsasları zəmində onların ideallarını və normalarını əsaslandıran ideya və prinsiplər yaranir. Bu mənada sosial elmlər təsisat, idraki fəailiyyət və mədəniyyətin xüsusi sferası kimi çıxış edir.

Məlum olduğu kimi, mənəvi mədəniyyət dörd sferadan-əxlaq, incəsənət, din və elmdən ibarətdir.

XX əsrin ikinci yarısında elmlərin fəlsəfəsində bir çox konsepsiyalar və yanaşmalar meydana çıxır. Bunlardan internalizmin və eksternalizmin adlarını çəkmək olar.

Müasir dövrdə, daha dəqiq desək, XXI əsrdə postklassik elmlərdə dəyişikliklər baş verir, humanitar və təbiətşünaslığa xidmət edən bilik sahələri arasında inteqrativ proseslər güclənir, elmlərin inkişafında etik amillər, məsuliyyət məsələləri, humanitar nəzarət önə çıxır, qlobal böhranların aradan qaldırılmasında sosial elmlərin, o cümlədən fəlsəfi elmlərin rolu artır. Alimlər bəşəriyyətin gələcəyilə əlaqədar iki bir-birinin əksinə ideya irəli sürür. Onlardan biri nikbin ssenaridir. Bu ssenariyə görə bəşəriyyətin mövcud qlobal problemlərin yeni texnologiyanın və ekoloji etikanın köməyilə öhdə-

sindən gəlməyə yetərli qədər gücü vardır. Bu yeni ekoloji etikanın mahiyyəti ondan ibarətdir ki, insan təbiət üzərində hökmranlığından könüllü olaraq imtina edir, öz eqoist maraqlarını təbiətlə yanaşı, ahəngdar mövcud olmağa tabe edir. İnsan, təbiəti fəth etməkdən əl çəkir və onunla bərabər hüquqlu mövcudat kimi davranır.

Digər ideya isə bədbin ssenaridir. Bu ssenariyə görə neqativ şəraiti yalnız təbii ehtiyatları sərf etmək hesabına dəyişmək olar. Bu halda isə biosferin və bəşəriyyətin tənəzzülü qaçılmazdır.

Azərbaycanda sosial elmlərin müqayisəli təhlili və fəlsəfənin həmin elmlər sistemində yeri məsələsi akademik R.Mehdiyev, AMEA-nın müxbir üzvü S.Xəlilov, fəlsəfə elmləri doktoru, professor İ.Məmmədzadə və başqaları tərəfindən ətraflı araşdırılmışdır.

Akademik R.Mehdiyev təkamül fəlsəfəsi, Azərbaycan fəlsəfi elminin müasir, aktual problemləri haqqında yazdığı çoxsaylı əsərlərilə ölkədə və xaricdə böyük şöhrət qazanmışdır. Akademikin "Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair" məqaləsi dərin elmi-nəzəri və praktiki əhəmiyyətilə diqqəti cəlb edir. Müəllif haqlı olaraq müasir fəlsəfənin strukturunda ənənəvi bilik metodları ilə, klassik filosofların əsərlərinin araşdırılması ilə kifayətlənməməyi, müasir dövrün siyasi, iqtisadi, sosial, mədəni-mənəvi sahələrinin zamanın yeni tələbləri baxımından fəlsəfi prizmadan təhlil edilməsini, bu sahədə dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən milli xüsusiyyətlərə uyğun olaraq istifadə edilməsini tövsiyə edir.

R.Mehdiyev sosial elmlərin-politologiya, sosiologiya, kulturologiya, sosial-psixologiyanın tədqiqat obyektlərini müqayisəli təhlil edərək burada fəlsəfənin xüsusi yer tutduğunu diqqətə çatdırır: "Bütün bu hadisələri isə qarşılıqlı surətdə biri-biri ilə əlaqələndirən, proseslərin ümumi mənzərəsinin sürətlə dəyişdiyi həyatda insanın mövqeyini formalaşdıran, rəhbər tutduğu mənəvi meyarları, qoruyub saxlamağa çalışdığı prioritetləri dəyərləndirməyə imkan verən prinsiplər məhz fəlsəfənin predmetinə aiddir" [10]. Müəllif sosial elmlər sistemində fəlsəfənin aparıcı yer tutduğunu, həmin elmlərin metodoloji əsaslarını təşkil etdiyini bir daha sübut edir.

R.Mehdiyev siyasətin fəlsəfəsilə yanaşı milli fəlsəfi fikir tarixinin müasir çağırışlar kontekstindən öyrənilməsi zərurətindən bəhs edir, əxlaqi-mənəvi, milli-demokratik modellərin hərtərəfli araşdırılmasını xüsusi olaraq diqqətə çatdırır. Alimin xidmətlərindən biri də Şərq-Qərb fəlsəfəsinin müqayisəli təhlili əsasında Şərq fəlsəfəsinin Qərbdə maraq doğurmasını nəzərə çatdırmasıdır: "Əlbəttə, Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikir tarixinin öyrənilməsi də öz aktuallığını saxlamaqdadır. Milli fəlsəfi irsin müasir dünya fəlsəfi fikir sistemində yeri, ideya potensialı və imkanları bir daha nəzərdən keçirilməlidir. Bu məqsədlə Şərq-Azərbaycan fəlsəfəsinin spesifikasını daha dəqiq müəyyənləşdirməklə yanaşı, onun müasir Qərb fəlsəfəsi ilə müqayisəsinə böyük ehtiyac yaranmışdır. Belə ki, reallıqda bəzi mövqelərə görə artıq tarixi keçmişdə qalması bəyan edilən Şərqin bir sıra fəlsəfi təlimləri və ideyaları indi gözlənilmədən xüsusi aktuallıq kəsb etmişdir. Müasir Qərb filosoflarının, bir tərəfdən, qədim hind-Çin fəlsəfəsinə, digər tərəfdən, orta əsr islam fəlsəfəsinə, xüsusən, sufizm və işraqilik təlimlərinə böyük diqqət yetirmələri heç də təsadüfi deyildir. Şərq fəlsəfi təlimlərinə dərindən bələd olan alim və mütəxəssislərin ABŞ-da və Avropa ölkələrində geniş tədqiqat aparmaları müxtəlif fəlsəfi ideyaların və təlimlərin sintezi, biri-birindən bəhrələnməsi üçün əlverişli şərait yaradır. Şərq fəlsəfəsi yarandığı vaxtdan insan, onun mənəvi aləmi, şüur və nəfs münasibətlərini, insan həyatının ali, əxlaqi-mənəvi me-

yarlara tabe etdirilməsi məsələlərini başlıca təhlil mövzusu kimi müəyyən etmişdir. Qərbdə isə bu məsələlər daha sonralar, psixologiyanın bir elm kimi formalaşmasından və insanın daxili aləminin tədqiqat predmetinə çevrilməsindən sonra diqqət mərkəzinə gətirilmişdir"[10]. R.Mehdiyev Qərbdə Şərq fəlsəfəsinə marağın artdığını yüksək qiymətləndirir, ortaq konseptual sistemin yaradıldığını alqışlayır.

XXI əsrdə Azərbaycanda fəlsəfi fikrin ictimai gerçəkliyə münasibəti yeni, müasir tələblər baxımından araşdırılması, bu sahədə sosial elmlərin və fəlsəfənin qarşılıqlı əlaqəsinin intensivləşdirilməsi, indiki informasiya cəmiyyətində fəlsəfənin yeri, rolu və əhəmiyyətinin tədqiqi öndə duran əsas vəzifəyə çevrilmişdir.

AMEA-nın müxbir üzvü S.Xəlilov humanitar və sosial elmlər arasında fərq olduğunu nəzərə çatdıraraq yazır: "İnsan, onun mənəviyyatı, estetik dünyası, arzu və idealları-humanitar sahənin əsas predmetidir. Tarix, bədii ədəbiyyat, incəsənət də humanitar sahəyə aiddir. Bu başqa məsələdir ki, göstərilən humanitar hadisələrin hər birinin öz elmi və fəlsəfi səviyyəsi də vardır. Tarix, tarixşünaslıq ("tarix elmi"-bəzən sadəcə "tarix" də deyilir; yəni hər iki məna eyni sözlə ifadə olunur) və tarix fəlsəfəsi, bədii ədəbiyyat, ədəbiyyatşünaslıq (filologiya) və ədəbiyyat fəlsəfəsi (aşağı yarusda bu sahə "ədəbi tənqid" kimi məlumdur), incəsənət, sənətşünaslıq və sənət fəlsəfəsi (estetika), din, dinşünaslıq və din fəlsəfəsi, mənəvi tərbiyə, pedaqogika və etika geniş planda götürdükdə humanitar sahəyə aiddir. Son vaxtlar daha inteqrativ bir elm sahəsi kimi insanşünaslıqdan, bəzən də antropologiyadan bəhs olunur. Mənaları eyni olsa da bu iki tədqiqat istiqamətində bəzən fərqli məzmunlar qruplaşdırılır"[1, 181-182]. Müəllif qeyd edir ki, sovet dövründə insan özü də ilk növbədə sosial varlıq kimi götürüldüyünə görə, insanşünaslıq da cəmiyyətşünaslığın içərisində əridilmişdi. İnsan fərdiyyətinin önə çəkilməsi daha çox Qərb dünyası üçün səciyyəvi idi. Belə ki, istər humanitar təfəkkürlə, insan haqları ilə, istərsə də irsiyyət, fərdi-psixoloji problemlərlə bağlı məsələlər də daha çox Qərbdə öyrənilirdi. Hətta insanın sosiallaşması problemi də bədii ədəbiyyatda öz əksini tapmışdı. Bu mənada müasir çağırışlar fonunda qarşımızda duran vasitələrdən biri də insanşünaslığı bərpa etmək, fərdi cəmiyyətdə itirmək, fərdiyyətini itirmək təhlükəsinin qarşısını almaqdır. Dini həm humanitar, həm də cəmiyyət həyatına aid edən S.S.Xəlilov tarixi humanitar, tarixşünaslığı və tarixi fəlsəfəni ictimai elmlərə aid edir. Deməli, o, "humanitar və ictimai elmlər" bölgüsündə insan və cəmiyyət amillərinə əsaslanır.

Müstəqillik dövründə fəlsəfənin taleyilə bağlı S.Xəlilov göstərir ki, marksizm-leninizm fəlsəfəsindən imtina edildikdən sonra Azərbaycanda fəlsəfə bir müddət tənəzzülə uğradı. Bir tərəfdən, Azərbaycan fəlsəfəsinə Qərbin, Rusiyanın dünyəvi, digər tərəfdən Şərqin dini fəlsəfəsi təsir etməyə başladı. Buna görə də alim, Azərbaycan fəlsəfəsinin milli inkişaf yolu ilə getməsi zərurətini xüsusi qeyd edir: "Azərbaycan fəlsəfi fikrinin öz siması, öz problematikası, öz dəsti-xətti olmalıdır. Mütləq ruha gedən yol milli ruhdan keçməlidir. Lakin bunun üçün əvvəlcə milli özünüdərk tələb olunur ki, bu vəzifənin də ictimai miqyasında yerinə yetirilməsi milli fəlsəfi fikrin inkişafından kənarda mümkün deyil"[2,60]. Müəllif milli fəlsəfi fikrin ümumbəşəri ideyalardan bəhrələnməsi zərurətindən danışaraq bu prosesdə milli özünüdərketmənin həlledici rol oynadığını da xüsusi qeyd edir.

S.Xəlilov fəlsəfənin sosial elmlər sistemindən fərqləndiyini də diqqətə çatdırır: "Fəlsəfənin predmeti dünyadan kənara çıxır və özünü mənəvi bir varlıq olaraq dünya-

dan ayırmış insanın dünya ilə münasibətini əks etdirir. Elm obyektiv dünyam, insansız (mənsiz, mənəvi faktorsuz) dünyanı öyrəndiyi halda, fəlsəfə məhz insanlı dünyanı, inşaniləşmiş, eybəcərləşmiş dünyanı öyrənir. İncəsənət də dünyanı ifadə edir, bədii obrazları, rəmzlərlə "əks etdirir". Lakin burada söhbət elmdəki mənada inikasından deyil, ideya-estetik yaşantıdan gedir. Ədəbiyyat, incəsənət, elmə nisbətən fəlsəfəyə daha yaxındır. Elmdən fərqli olaraq ədəbiyyat və incəsənət bütün xalqın istifadəsinə verildiyi kimi, fəlsəfə də bütövlükdə xalqın dünyagörüşünün formalaşmasında əhəmiyyətli dərəcədə iştirak edir"[3,198-199]. Burada fəlsəfənin müxtəlif səviyyələrinin nəzərə alınması zərurətindən bəhs edən müəllif qeyd edir ki, fəlsəfə, elmi-fəlsəfi tədqiqatlar geniş xalq kütlələri üçün nəzərdə tutulmur. Lakin əsas məsələ həmin araşdırmalar zamanı fəlsəfi bilikləri öyrənməklə yanaşı, fəlsəfi düşüncə tərzinin mənimsənilməsi zərurəti də önə çıxmalıdır.

Fəlsəfə elmləri doktoru, professor İ.Məmmədzadə fəlsəfənin sosial elmlərlə əlaqəsindən bəhs edərək yazır: "Fəlsəfə elm olaraq böyük tarixə malikdir və ondan bir çox elmlər yaranmış və yaxud onun tərkib hissəsinə çevrilmişdir. Odur ki, fəlsəfənin digər elmlərlə əlaqəsi aktual məsələlərdən biri olmuşdur ki, bu da bir çox alimlərin düşüncəsində geniş üfüqlər açır. Fəlsəfəyə həmçinin fəlsəfə tarixi, tarixin fəlsəfəsi, etika və estetika, sosial fəlsəfə və metodologiya və bir çox fənlər daxildir. Bu, çox vaxt fəlsəfi biliyin özünəməxsus xüsusiyyətlərinin itirilməsinə, onun bir sıra fənlərdən ibarət olmasına dəlalət edir. Hazırda belə bir vəziyyətin yaranması fəlsəfənin mahiyyətinə və digər fəlsəfi münasibətə aydınlıq gətirməyi ortaya çıxarır. Azərbaycan fəlsəfəsinin inkişafı hazırda fəlsəfi fənlərin ictimai və humanitar elmlərlə əlaqəsindən asılıdır"[5,19]. Müəllif söylədikləri fikirlərlə yanaşı, fəlsəfənin mahiyyəti, dəyərləri, strukturu, sosial və humanitar elmlər sistemində yeri və rolunu da ciddi dəlillər əsasında araşdırmışdır.

Eyni zamanda İ.Məmmədzadə sosial fəlsəfənin tədris vəsaiti kimi ləğv edilməsinin əsassız olduğunu sübut edir. Fəlsəfənin sosial elmlər üçün böyük əhəmiyyət kəsb etdiyini göstərən alim yazır: "Sosiologiya, siyasi elm və kulturologiya kəmiyyət məlumatlarını verir, onları isə keyfiyyət baxımından yalnız fəlsəfə dərk edə bilər. Sözsüz ki, hər filosof bu işi bacarmaz. Belə olan surətdə kəmiyyət rəqəmlərinin müqayisəsi, müxtəlif elmlərdə məlumatların istifadəsi məhz fəlsəfənin üzərinə düşür. Çünki, fəlsəfə həm siyasi tədqiqatçılar, həm də kulturoloqlar və başqaları tərəfindən anlaşılandır. Fəlsəfənin ictimai elmlər arasında əlaqələndirici funksiyanı yerinə yetirilməsi, ölkəmizdə müasirləşmə ideologiyasının yaradılmasına da səbəb ola bilər. Artıq bu kimi işlər Azərbaycan filosofları tərəfindən aparılır"[5,30].

Sonra müəllif sosial elmlərin fəlsəfə ilə münasibətlərini araşdırır. "Təbii ki, politologiya və sosiologiyanın baza anlayışları fəlsəfəsinin daxilində formalaşmışdır. Buna görə də, metodologiya aktual anlayışların və onların qarşılıqlı əlaqəsinin, məntiqinin məzmununun açılmasını özündə ehtiva edir"[4,157].

Beləliklə, qədim dövrdən indiyə qədər sosial elmlər sistemində fəlsəfə mənəvi və ictimai gerçəkliyi dəyərləndirərək həmin elmlərlə qarşılıqlı əlaqədə inkişaf etmiş və bu gün də inkişaf etməkdədir.

## Ədəbiyyat siyahısı:

1. Xəlilov S.S. Elmşünaslığa giriş. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2010, 440 s.

2. Xəlilov S.S. Qərb və Şərq: ümumbəşəri ideala doğru. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2004, 624 s.

3. Xəlilov S.S. Baxış bucağı: fəlsəfi publisistika. Bakı: Elm və təhsil, 2010, 256 s.

4.Məmmədzadə İ.R. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı: Təknur, 2012, 216 s.

5.Məmmədzadə İ.R.Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 226 s.

6.Григоревич Е.Н., Климович А.В., Круев П.П. Философия и методология науки. Брест: БрГУ им. А.С.Пушкина, 2016, 659 с.

7.Кемеров В.Е. Позиции и пути современной социальной философии // Вестник Волгоградского государственного университета. Серия 7.Филосфия. 2011, №2, (14) с. 28-34

8.Лукьянова Л.И. Философия и методология науки. Гродна: ГрГМУ, 2016, 221 с.

9. Обидина Ю.С. Философия и методология науки. Йошкар Ола: Изд.ва Марийск .Гос.Унверситет, 2017, 238 с.

10. Mehdiyev R. Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair//https: azerteg.az/ xeber/ 04.05.2009

*Hüseynov İlqar Həsrət oğlu,*
*kulturologiya elmləri doktoru, professor,*
*Bakı Biznes Universiteti*

## SOSİAL İŞİN TƏŞKİLİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN ROLU

Özünəməxsus tədqiqat obyekti olan sosial iş bir elm kimi sosial münasibətləri, sosial qarşılıqlı fəaliyyət proseslərini araşdırır. Sosial iş elmi müxtəlif bioloji və sosial amillərin təsiri nəticəsində yaranan problemlərini həll etmək zərurətindən ortaya çıxmışdır. Sosial iş fəlsəfə, psixologiya, sosiologiya, tibb, siyasətşünaslıq, iqtisadiyyat, antropologiya, etika və s. elmlərin kəsişməsində meydana gəlmişdir. Sosial iş sahəsindəki araşdırmaların sahəsi olduqca genişdir və mürəkkəb bir sistem çərçivəsində müəyyən edilir.

Sosial işin gerçəkləşməsində sosial işçilər böyük rol oynayır. Sosial işçi əhalinin həssas qruplarına - yaşlılara, əlillərə, yetimlərə, çoxuşaqlı ailələrə kömək edən mütəxəssisdir. Sosial işçinin əsas vəzifəsi köməyə ehtiyacı olanların yaşayış şəraitini yaxşılaşdırmaq, psixoloji dəstək, sosial və hüquqi müdafiəni təmin etməkdir. Sosial işçi müxtəlif dövlət qurumları üçün sənədlər toplayır, müavinət və subsidiyaların verilməsinə nəzarət edir. Bundan əlavə, sosial işçi hüquqi, psixoloji və pedaqoji problemlər barədə məsləhətlər verir, çətin həyat vəziyyətlərini aradan qaldırmağın yollarını insanlara təklif edir.

Köməyə ehtiyacı olan insanları izləmək və kimlərin köməyə ehtiyacı olduğunu müəyyənləşdirmək də sosial işçinin vəzifəsidir. Sosial işçi eyni zamanda gənclərlə də

işləyə bilər, bu baxımdan sosial işçi gənclər arasında antisosial hadisələrin qarşısının alınmasını həyata keçirir, gənc ailələrə yardım təşkil edir, məşğulluq sahəsində gənclərin problemlərini müəyyənləşdirir və həll edir. Sosial işçinin fəaliyyəti sosial siyasətlə bağlı olmalıdır. "Sosial siyasətin həyata keçirilməsində sosial işçi yaxından iştirak edir. Sosial işçi anlayışı XIX əsrin sonlarından etibarən Amerika və Qərbi Avropada yayılmağa başladı. II Dünya müharibəsindən sonra müstəqil ixtisas kimi inkişaf etməyə başladı. Artıq dünyada sosial problemlərin araşdırılması, həll edilməsi istiqamətində işlərin görülməsini bu sahədə ixtisaslaşmış adamlara həvalə edilirdi." (1, səh.92)

Hal-hazırda, rəqəmsal texnologiyalar ümumi sosial xidmət sisteminin bir hissəsi olaraq həm ölkəmizdə, həm də xaricdə müştərilərlə sosial işdə geniş istifadə olunur. Bu gün sosial xidmətlər və qurumların fəaliyyətini kompüter avadanlıqları, müxtəlif rəqəmsal məlumatlar, müştərilərə xidmət edə biləcək kompüter proqramları olmadan təsəvvür etmək çətindir. Həm sosial iş sahəsində çalışan mütəxəssislər, həm də müştərilər yeni mesajlaşma vasitələrini və yeni rabitə kanallarını aktiv şəkildə mənimsəmişlər.

Rəqəmsallaşdırma çərçivəsində müştəri və sosial işçinin fəaliyyətinin əsas xüsusiyyət odur ki, internetdə müxtəlif bilik sahələrinə aid geniş məlumat vardır, rəqəmsal texnologiya istifadəçilər arasında fərdi əlaqələrin qurulmasına və genişlənməsinə şərait yaradır və qlobal bir sosial xidmət çərçivəsində fəaliyyət göstərir. Şəbəkə əlaqələrinin mövcudluğu sosial iş formalarına, mütəxəssislərin müştərilərlə ünsiyyətinə çevrilən yeni texnoloji formaların yaranmasına səbəb olur.

Rəqəmsal texnologiya həm ölkə daxilində, həm də xaricdə sosial işçilərə müxtəlif məlumat və materialları sərbəst şəkildə yaymaq üçün geniş imkanlar yaradır. Vahid dünya informasiya sistemlərinin istifadəsi qlobal məlumat məkanını yaratmaq imkanı verir. Müştərinin və cəmiyyətin ciddi sosial problemlərinin həlli üçün müxtəlif yollar arayan sosial işçinin bu problemləri həll etmək məqsədilə rəqəmsal texnologiyaya müraciət edir. Sosial işçinin müasir informasiya məkanında fəaliyyəti ona yaradıcılıq üçün geniş imkanlar yaradır. Bu baxımdan sosial işçilər internet şəbəkəsinin texniki üstünlüklərindən bəhrələnir, bu üstünlükləri düzgün bir şəkildə dəyərləndirir.

Müasir dövrdə rəqəmsal texnologiyanın intensiv və geniş yayılması prosesi danılmaz bir faktdır. Bu proses hazırda sosial iş sistemində də özünü büruzə verir. Müvafiq sahədəki texnoloji inkişaflar həm müştərinin, həm də sosial işçinin imkanlarını artırır və onların bir-biri ilə əlaqə saxlamaq yollarından dəyişiklik özünü biruzə verir. Rəqəmsal aləmdə sosial işçinin fəaliyyətini digər fəaliyyət növlərindən fərqləndirmək lazımdır, belə ki, sosial işçinin fəaliyyətinin bir sıra özünəməxsus xüsusiyyətləri vardır. "Bizdə sosial işləri görməli olan mütəxəssislə sosial xidmətçi işi qarışdırılır. Biz bunun dövlət səviyyəsində qaldırılmasını, aydınlaşdırılmasını istəyirik, sosial xidmətçi problemin həll yolunu lazımi müdaxilə metodlarını bilmir. Sosial işçi bu sahə üzrə mütəxəssis deməkdir. Sosial işçi benefisiarla söhbət edərkən hansı ifadələri qurmalıdır və s. kimi incə təfərrüatları bilir, yanaşma tərzi fərqlidir. Sosial işçi ekosistemdəki bütün problemləri tapıb görməyi bacarmalıdır." (2)

Sosial iş sahəsində informasiya sistemlərinin tətbiqi ilk dəfə 1980-ci illərin ikinci yarısında baş vermişdir. Məhz bu dövrdən başlayaraq sosial iş sahəsində müvafiq qeydlərin aparılması və sosial iş prosesinin təşkili məqsədilə kompüter əsaslı informasiya sistemlərindən istifadə edilmişdir. Rəqəmsal texnologiyanın əsas səciyyəvi xüsusiyyəti perspektivli gələcəklə əlaqəlidir. Rəqəmsal texnologiyanın inkişafı sosial problemlərinin effektiv həllinə yönəldilməlidir. Bu gün sosial işlə məşğul olan qurum-

ların fəaliyyətini rəqəmsal texnologiyalar olmadan təsəvvür etmək çətindir.

Hazırda internet, telekommunikasiya şəbəkələri və müasir kompüter sistemlərinə əsaslanan informasiya texnologiyaları müxtəlif məlumat və materialların sərbəst şəkildə yayılması üçün geniş imkanlar yaradır. Müasir dövrdə ortaq dünya informasiya sistemlərinin istifadəsi sosial iş sahəsində də informasiya texnologiyalarının tətbiqini təmin edir. Sosial işin rəqəmsal texnologiya ilə təmin edilməsində əsas məqsəd həm müştərilər, həm də sosial işçilər üçün zəruri məlumatlara sərbəst çıxış əldə etmək üçün əlverişli şərait yaratmaqdır. Modern çağda rəqəmsal texnologiyalar həm qlobal, həm regional və həm də yerli səviyyədə məlumat axınını sürətləndirir. Yüksək keyfiyyətli məlumat müxtəlif sahələrdəki mütəxəssislərin hərəkətlərini diqqət mərkəzində olması nöqteyi-nəzərindən informasiya texnologiyalarının rolu getdikcə daha vacib bir hala gəlməkdədir.

Sosial işdə rəqəmsal texnologiyalardan istifadənin bir sıra üstünlükləri vardır. Ümumiyyətlə, rəqəmsal texnologiyalarının əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Müəyyən edilmiş alqoritmlərə uyğun olaraq məlumatların kompüterdə işlənməsi;
2. Elektron mühitində böyük həcmdə məlumatların saxlanması;
3. Tez zamanda məlumatların uzun məsafələrə ötürülməsi.

Rəqəmsal texnologiyalar vasitəsilə sosial işdə zəruri məlumatların yayılması və səmərəli istifadəsi mümkündür. Sosial işçilər rəqəmsal texnologiyalar vasitəsilə vaxtda əhəmiyyətli qənaət etməyə imkan verir. Rəqəmsal texnologiyalar son illərdə insan cəmiyyətinin həyatında mühüm yer tutur, bu baxımdan da informasiya proseslərinin optimallaşdırılması və avtomatlaşdırılması müasir dövrdə böyük aktuallıq kəsb edir. Hal-hazırda inkişaf etmiş ölkələrdə əhalinin əksəriyyəti məlumatın hazırlanması, saxlanması və ötürülməsi prosesləri ilə bu və ya digər dərəcədə bağlıdır, buna görə də işgüzar əhali bu proseslərə uyğun rəqəmsal texnologiyaları mənimsəyir və praktik olaraq istifadə edirlər.

Tədqiqatçılar tərəfindən müasir dövrün informasiya əsri adlandırılması heç də təsadüfi bir əhəmiyyət kəsb etmir. İnformasiya proseslərinin ötürülməsində rəqəmsal texnologiyaların rolu əvəzsizdir. İnformasiya prosesləri mürəkkəb istehsal və ya sosial proseslərin vacib elementləridir. Buna görə də, çox vaxt informasiya texnologiyaları müvafiq istehsal və ya sosial texnologiyaların tərkib hissəsi kimi çıxış edir. Rəqəmsal texnologiyaları bu gün insanlar arasında, həmçinin kütləvi informasiya vasitələrinin hazırlanması və yayılması sistemlərində qarşılıqlı əlaqənin təmin edilməsində son dərəcə vacib rol oynayır. Sosial işdə ənənəvi telekommunikasiya vasitələri ilə yanaşı müasir informasiya texnologiyalarından da istifadə olunur.

Rəqəmsal texnologiyalar vasitəsilə sosial işin vəzifələri icra olunur. Sosial işin vəzifələri sıralarına aşağıdakılar aiddir:

– kliyentin cəmiyyətdəki sosial adaptasiyası;
– zəif qrupun nümayəndələrinin özlərini təsdiq etməsi üçün real şəraitin yaradılması;
– sosial və şəxsi problemlərin diaqnostikası;
– sosial profilaktika; ehtiyacı olanlara sosial kömək və sosial təminat, kliyentə sosial xidmətlə bağlı məsləhətlərin verilməsi;
– sosial reabilitasiya və terapiya;
– sosial nəzarət və sosial hamilik, qəyyumluq;
– sosial layihələşdirmə və sosial layihələrin ekspertizası;
– kliyent və müxtəlif təşkilatlar arasında olan məsələlərin müəyyən edilməsində

vasitəçilik edilməsi;

– fədakarlığın, mücahidliyin reklamı və təbliği, sosial iş sahəsində innovasiya fəaliyyəti. (3, səh. 3)

Cəmiyyətin müasir inkişaf mərhələsində rəqəmsal texnologiyalar prinsipial əhəmiyyət kəsb edir. Sosial iş sahəsində rəqəmsal texnologiyalarının istifadəsi hazırda ölkəmizdə də önəmli bir əhəmiyyət kəsb edir. Rəqəmsal, onlayn və digər elektron texnologiyalar sosial iş praktikasını dəyişdirdi. Müasir sosial işçilər müştərilərə onlayn məsləhət, telefon danışığı, video məsləhət, internet əsaslı müdaxilələr, elektron sosial şəbəkələr, e-poçt və mətn mesajlarından istifadə etməklə xidmətlər göstərə bilirlər. Sosial işçilər müştərilərə xidmət göstərmək, müştərilərlə ünsiyyət qurmaq, müştərilər haqqında məlumat toplamaq, həmkarları ilə ünsiyyət qurmaq, tələbələr və praktikantlar yetişdirmək üçün rəqəmsal texnologiyadan geniş istifadə edirlər. Sosial işçilər ictimaiyyətə veb saytlar vasitəsilə məlumat verməli, həmçinin zəruri məlumatları yerində dəyərləndirməlidir.

Rəqəmsal texnologiya önümüzdəki illər ərzində sosial iş praktikasını kəskin şəkildə dəyişdirmək və inkişaf etdirmək potensialına malikdir. Texnoloji yenilik davamlı olaraq həyatın mənzərəsini dəyişdirir. Rəqəmsal texnologiya sahəsindəki yenilikləri sosial işə tətbiq etməklə bu sahədə bir sıra nailiyyətlər əldə etmək mümkündür. Rəqəmsal texnologiyaların inkişafı nəticəsində ucqar bölgələrdə yaşayan insanlara onlayn xidmətlər göstərmək mümkündür. Bu tip texnologiyaların inkişafı nəticəsində kəndlərdə iqtisadi dəstək ala bilməyən insanların üzləşdikləri coğrafi maneələri ortadan qaldırmaq mümkündür. Sosial işçilər müvafiq təşkilatlarda idarəetmə məqsədilə ünsiyyət üçün rəqəmsal texnologiyadan istifadə edirlər.

Rəqəmsal texnologiya sayəsində insanların məlumat toplamaq və informasiyanı paylaşmaq qaydaları dəyişdir. Bununla yanaşı, rəqəmsal texnologiya vasitəsilə insanların bir-biri ilə necə münasibət qurmaları müəyyənləşir. Müasir dövrdə fəaliyyət göstərən informasiya-kommunikasiya texnologiyaları içərisində ənənəvi sistemlərlə yanaşı, rəqəmsal sistemlər də böyük rol oynayır. “Bu gün dünyada informasiya-kommunikasiya texnologiyalardan istifadə etməyən elə bir sahə, demək olar ki, yoxdur. Müasir dövrdə biz, bir çox işlərimizi asanlaşdırmaq üçün internetə müraciət edirik. Kompüterlər və mobil elektron cihazlar vasitəsilə daha sürətli və praktik işləri həyata keçiririk. Bütün bunların nəticəsində isə vaxtdan səmərəli istifadə olunaraq, daha çox keyfiyyətli iş görmək mümkün olur. Heç şübhəsiz ki, qloballaşma və bazar iqtisadiyyatı şəraitində mobillik və vaxtdan səmərəli istifadə etmək məhz içtimaiyyət üçün “qızıl sərvət” hesab olunur.” (4, səh. 348-349)

Kompüter tərəfindən idarə olunan rəqəmsal sistemlər proqram təminatı ilə idarə oluna bilər. Tez-tez bu proqram məhsulu yenilənərək istehsalçının iştirakı olmadan dəyişdirilə bilər. Müasir həyatı rəqəmsal texnologiyalar olmadan təsəvvür etmək çətindir. İnsanların hamısının fərdi kompüteri olmasa da, amma demək olar ki, hər kəsin smartfon və ya planşeti vardır. Bu baxımdan da sosial iş sahəsində çalışan şəxslərin müştərilərlə əlaqə yaratması o qədər də problemli bir məsələ deyil. Artıq internet texnologiyası həyatımıza möhkəm bir şəkildə daxil olmuşdur, rəqəmsallaşma gündəlik həyatımızın getdikcə daha çox sahəsini əhatə edir. Gündəlik həyatda informasiya və rabitə texnologiyalarının tətbiqi, fərdi kompüter avadanlıqlarının, telekommunikasiya sistemlərinin və şəbəkələrinin kütləvi istifadəsinin həcmi bu gün də genişlənməkdədir.

Müasir dövrdə hər bir insan rəqəmsal texnologiyadan istifadə etməyi öyrənməli-

dir. Dövlətin sosial iş sahəsində yürütdüyü siyasətdə rəqəmsal texnologiyanın üstünlüyü nəzərə alınmalıdır. Hazırda müasir informasiya-kommunikasiya texnologiyaları və rəqəmsal sistemləri dərindən mənimsəyən, müvafiq texnologiyadan istifadə etməklə sosial iş sahəsində səmərəli işləyə bilən mütəxəssislər tələb olunur. Sosial iş sahəsində çalışan peşəkar mütəxəssis eyni zamanda həm informasiya sahəsinin hüquqi normalarına da ciddi əməl etməlidir.

**Ədəbiyyat siyahısı:**


1. Məlikli G.Q. Sosial problemlərin öyrənilməsi və nəzəri metodoloji aspektləri. Baki Universitetinin xəbərləri №4. Sosial-siyasi elmlər seriyası. 2012 .
2. Azərbaycanda sosial işin təşkili. https://uafa.az/ngo/az%
3. Əhmədov Y. P. Sosial işin nəzəriyyəsi və təcrübəsi (dərs vəsaiti). Bakı, PG nəşrlər evi, 2013.
4. Hüseynov İ. İctimaiyyətlə əlaqələr. Ali məktəblər üçün dərslik. Azərbaycan dilində. Bakı, 2016, 418 səh.



*Piriyev Əzim Səlim oğlu, dosent,*
*Bakı Biznes Universiteti*


## SOSİAL İŞİN MƏZMUNU, TƏDQİQAT İSTİQAMƏTLƏRİ, TƏDRİSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Sosial iş-sosial həyat fəaliyyətinin müxtəlif sferalarında baş verən innovasion proseslərin ümumi iqtisadi qanunauyğunluqlarını və inkişaf dinamikasını üzə çıxaran, insanın yaradıcı imkanlarını inkişaf etdirən, bəşəriyyətin yaratdığı sosial-mədəni dəyərlərin şəxsiyyətin mənəvi dəyərlərinə çevrilməsinə xidmət edən elm sahəsidir. Bu elm sahəsi politologiya, sosiologiya, məntiq, fəlsəfə, psixologiya, sosial iş nəzəriyyəsi və təcrübəsi, sosial işin tədqiqat metodları, psixi sağlamlıq, sosial yardım sistemi, sosial psixologiya, sosial pedaqogika, antropologiya, sosial ədalət, insan davranışı və sosial mühit, ünsiyyət mədəniyyəti, insan hüquqları və sair sahələri əhatə edir.

Bu sahə tarixçilik prinsipinə, didaktik və dialektika qanunlarına, milli özünüdərk prosesinə və cəmiyyətin sosial-iqtisadi prinsiplərinə əsaslanır. Intellektual və zəkalı insan bu elmin başlıca idrak obyekti olmaqla yanaşı, həm də bu sahənin əsas prioritetlərini müəyyən edir. Sosial iş bəşəriyyətin tarixi inkişaf təcrübəsinin təhlilinə istinadən xalqın həyati maraqlarını əks etdirən qlobal dəyərlər sisteminin formalaşmasına və əhalinin müxtəlif təbəqələrinin sosioloji tədqiqatlar vasitəsilə öyrənilməsi və tətbiqinə xidmət edir.

Mövcud sosial problemlərin araşdırılması bu gün cəmiyyət həyatı üçün prioritet vəzifələr müəyyənləşdirir. Bu sahənin inkişaf etdirilməsi bu gün dövlətin qarşısında duran ən başlıca vəzifələrdən biri hesab olunur. Dövlətin sosial sahələr üzrə qəbul etdiyi normativ-hüquqi aktlar, aparılan sosial islahatlar bu deyilənləri bir daha təsdiqləyir. Sosial iş cəmiyyətin mühüm sosial problemlərinin həllini-işsizlik, qaçqın və köçkün həyat tərzi, müxtəlif ağır xəstəliklər, əlillik, ailədaxili münaqişələr, narko-

maniya və alkoqolizm, cəmiyyətdə xalqın üzləşdiyi müxtəlif problemlər, uşaq və qadınlara qarşı zorakılıq və sair bu kimi müxtəlif problemləri əhatə edir.

Sosial işin məzmunu dedikdə əhaliyə lazımı sosial xidmətin və yardımın göstərilməsi proseslərinin düzgün və hərtərəfli təşkil edilməsidir. Sosial iş bir-birilə əlaqəli olan dəyərlər, nəzəriyyələr və tətbiq sistemlərindən ibarətdir. Sosial işin dəyərləri peşənin milli və beynəlxalq əxlaq qaydalarını özündə təcəssüm etdirir. Sosial iş sahəsində çalışanların əsas məqsədi hər kəsin bacarıqlarını və qabiliyyətlərini üzə çıxarmaqdır. Sosial iş ictimai mühitin müsbət anlamda dəyişdirilməsi, cəmiyyətdə mövcud real vəziyyətin yaxşılaşdırılması istiqamətində aparılan işlərlə xarakterizə olunur.

Bu sahənin əsas vəzifəsi yardıma ehtiyacı olan şəxslərə kömək və qayğı göstərmək, onların konstitusiya hüquqlarını müdafiə etmək, nəticə etibarı ilə ehtiyacı olan şəxslərin müstəqil fəaliyyət göstərmək qabiliyyətini təmin etməkdir.

Sosial iş eyni zamanda dəstək, qoruma, korreksiya və reabilitasiya yolu ilə insanların və sosial qrupların çətinliklərinə kömək etməyə yönəldilmiş peşəkar fəaliyyət sahəsidir. Bu sahə həm də sosial həyatın müxtəlif aspektlərini əhatə etdiyindən kompleks xarakter daşıyır.

Elm kimi sosial iş sosial proseslərə və cəmiyyətin sosial inkişafına səbəb olan zəruri əlaqələri və hadisələri aşkar edir və öyrədir. Burada fərdlərin və qrupların davranışına iqtisadi, psixoloji, pedaqoji və idarəetmə təsirinin xarakteri təhlil edilir və istiqamətləndirilir, həmçinin müxtəlif sosial qruplarla sosial işin həyata keçirilməsi qanunauyğunluqları, prinsip və metodları öyrənilir. Sosial işin vacib istiqamətlərindən biri də sosial işin funksiyalarının səmərəli şəkildə reallaşdırılması yollarının təyin edilməsi, kadr və informasiya təminatı, əhalinin sosial müdafiə xidmətinin təhlili, sosial iş sistemində idarəetmə mexanizminin fəaliyyət prinsiplərinin təyin edilməsidir. Buraya həm də sosial ziddiyyətlərin və münaqişələrin optimal həlli yollarının təyini və təhlili daxildir.

Sosial iş bir elm kimi həm də sosial həyatın müxtəlif tərəflərini, cəmiyyətin sosial inkişafına səbəb olan əlaqələri, hadisələri araşdırır və öyrənir. Eyni zamanda sosial işin həyata keçirilməsi qanunauyğunluqlarını, sosial təbəqələrlə iş prinsiplərini və metodlarını araşdırır.

İxtisasın əsas tədris istiqamətlərinin prinsipləri aşağıdakılardır:

- əhalinin sosial müdafiə xidmətinin və həlli yollarının təhlili;
- sosial işin funksiyalarının reallaşması yollarının müəyyən edilməsi;
- sosial iş sistemində idarəetmənin fəaliyyət mexanizmi prinsipinin təyin edilməsi;
- sosial münaqişələrin və ziddiyyətlərin həlli yollarının araşdırılması və təhlil edilməsi.

Sosial iş aşağıdakı tədqiqat sahələrini əhatə edir:

- sosial yardımın və müdafiənin müxtəlif növlərinə və formalarına ehtiyac duyan ayrı-ayrı fərdlərin, ailələrin və əhalinin müxtəlif sosial qruplarının ehtiyaclarının üzə çıxardılması;
- sosial diaqnozun qoyulması və sosial müdafiə proqramının hazırlanması məqsədi ilə əhalinin müxtəlif sosial qruplarının həyat vəziyyətlərinin kompleks qiymətləndirilməsi;
- ayrı-ayrı şəxslərə və sosial qruplara göstərilən sosial müdafiənin, yardımın və dəstəyin təminatı, sosial xidmətlərin göstərilməsi sahələrinin tədqiqi;
- müştərinin fiziki, psixi və sosial resurslarının cəlb edilməsi yolu ilə onun prob-

leminin həlli yollarının araşdırılması;

- müasir standartlaşdırmanın imkanları əsasında sosial xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi.

Psixososial, tibbi-sosial və məqsədli sosial yardım sahələrində problemlərin üzə çıxarılması, ifadə etmə və həlli yollarının təhlil edilməsi, sosial işçilərin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə elmi araşdırmaların nəticələrindən istifadə etmə yollarının, əhalinin müxtəlif qruplarının maddi rifahının, onların fiziki, psixi və sosial sağlamlığının təminatına peşəkar dəstəyin verilməsini əhatə edir.

Sosial işin tədqiqatının təşkili:

- tədqiqatların daha mükəmməl kompleks xarakterini təmin etmək üçün müvafiq qurumlar və təşkilatlar üzrə məlumatlar və faktların cəlb edilməsini;
- əmək və əhalinin sosial müdafiə nazirliyinin (dövlət məşğulluq xidməti) fəaliyyətini;
- əhalinin sosial müdafiə fondunun (pensiya sistemi, sosial xidmət sistemi, sosial sığorta sistemi, sosial müdafiə sistemi) fəaliyyətini;
- Səhiyyə Nazirliyinin (tibbi və sosial ekspertizanın dövlət xidməti) xidməti, Fövqəladə Hallar Nazirliyinin xidməti, penitensiar sistem, müəssisələr və firmaların (dövlət, özəl, ictimai, eləcə də sənaye və kənd təsərrüfatı) xidmətini nəzərdə tutur.

Bunlara həmçinin:

- ritual xidmətlər;
- güc strukturları;
- mədəniyyət sistemində xidmət;
- təhsil sistemində xidmət;
- miqrasiya xidməti və s. daxildir.

“Sosial iş” ixtisasının məqsədi:

- kadr hazırlığı;
- nəzəri və praktiki biliklərə yiyələnmək;
- məlumatların toplanması və təhlilində müasir üsullardan istifadə etmək;
- proseslərə və cəmiyyətin sosial inkişafına səbəb olan zəruri əlaqələri və hadisələri aşkar etmək;
- fərdlərin və qrupların davranışına iqtisadi, psixoloji, pedaqoji və idarəetmə təsirinin xarakterini təhlil etmək və istiqamətləndirmək;
- müxtəlif sosial qruplarla sosial işin həyata keçirilməsi qanunauyğunluqlarını, prinsip və metodlarını öyrətmək;
- kadr və informasiya təminatı, əhalinin sosial müdafiə xidmətinin təhlili, sosial iş sistemində idarəetmə mexanizminin fəaliyyət prinsiplərini təyin etmək;
- sosial ziddiyyətlərin və münaqişələrin optimal həlli yollarını araşdırmaqdan ibarətdir.

Sosial iş ixtisasının tədrisinin nəticələri:

Sosial müdafiəni, yardımı və dəstəyi təmin etmək, fərdi və sosial qruplara (yaşlı insanlara, əlillərə, disfunksiyalı ailələrə, azadlıqdan məhrumetmə yerlərindən azad edilmiş insanlara, riskli qruplardakı gənclər, miqrantlara, zorakılığa məruz qalan qadınlara, kişilərə və s.) sosial xidmətlər göstərməkdən;

- müxtəlif səviyyələrdə münaqişə vəziyyətlərini (fərdlərarası, qrupdaxili, siyasi, əmək) həll etməkdən;
- cəmiyyətdə ictimai təhlükəli hadisələrin (terrorizm, narkomaniya, alkoqolizm

və s.) qarşısını almaqdan;

- hüquqi, sosial, psixoloji və pedaqoji problemlərə dair məsləhətləşmələr aparmaqdan;

- regional, bələdiyyə və korporativ sosial proqramlar hazırlamaqdan və psixo-sosial və sosial iş sahəsində yenilikçi platformalar yaratmaq üçün pilot layihələrdə iştirak etmək, əlavə maliyyə mənbələri (maliyyə vəsaiti) cəlb etmək üçün sosial layihələr hazırlamaqdan ibarət olmalıdır.

Müasir dövrdə baş verən sürətli inkişaf, informasiya-kommunikasiya texnologiyalarının tərəqqisi, ayrı-ayrı sahələrdə həyata keçirilən innovasiyalı proseslər tədris prosesində də müasir dövrün tələblərinə cavab verən yeni yanaşmaların mövcudluğunu tələb edir. Hazırda sosial sahədə müxtəlif problemlərin həllinin elmi əsaslarla həyata keçirilməsi, sosial işin institutlaşması və bu sahədə mütəxəssis hazırlığı vacib məsələlərdən sayılır. Bu baxımdan beynəlxalq təcrübə, sosial işin ictimai xarakteri, sosial iş və şəxsiyyət, sosial etnik münasibətlərin əhəmiyyəti, özünü inkişaf motivasiyasının gücləndirilməsi, insanların sosial müdafiəsi, sosial ekspertiza texnologiyaları, əhalinin məşğulluq sferasında sosial işin texnologiyaları, sosial işdə sosial diaqnostika və onun tətbiqi metodları, sosial işə əsas elmi yanaşmalar, sosial işdə modellər və nəzəriyyələr, sosial işdə qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərinin rolu kimi məsələlər öz əksini tapmışdır.

Ona görə də "Sosial iş" ixtisasının tədris proqramı və digər tədris-metodik vəsaitlər əsasında tədrisin interaktiv metodlarından istifadə yolu ilə həyata keçirilməsi mühüm məsələ olaraq qalır.

Fənnin tədrisi məqsədilə tərtib edilən, hazırlanan tədris proqramı və digər tədris-metodik vəsaitlər vasitəsilə kursun predmeti, məqsədi, vəzifələri, sosial iş nəzəriyyəsi və təcrübəsində tarixilik və beynəlxalq təcrübə, sosial işin ictimai xarakteri, sosial işə əsas elmi yanaşmalar, sosial işin metodları, nəzəriyyələr, rol və kommunikativ proseslər, sosial iş nəzəriyyəsi və təcrübəsi ictimai elmlər strukturunda və digər məsələlər öyrədilir mühüm yer tutur.

Sosial iş və insan amili, sosial iş və şəxsiyyət, qarşılıqlı sosial təsir sistemində insan resursları, sosial işdə sosial-etnik münasibətlərin əhəmiyyəti, qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərinin rolu, bioloji və sosial cəhətlər, tələbatlar, əqidələr, iddia səviyyələri arasında fərqlilik, sosial işin texnoloji mahiyyəti, sosial işdə diaqnostika və onun tətbiqi metodları, sosial işdə profilaktika, adaptasiya, reabilitasiya və terapiya vasitələrinin tətbiqi, sosial ekspertiza texnologiyaları, əhalinin məşğulluq sferasında sosial işin texnologiyalarıda tədris edilir.

Eyni zamanda valideynlərini itirmiş uşaqlarla və gənclərlə sosial işin texnologiyaları, deviant davranışlı şəxslərlə sosial iş, ictimaiyyət tərəfindən qanun pozuntularının deviant kimi müəyyənləşdirmə imkanları kimi mövzular da tədris olunur. Əsas məqsəd isə sosial iş nəzəriyyəsi və təcrübəsi sahəsində bütün bu proseslərin yüksək səmərəlilikdə həyata keçirilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün tələbələrə aşağıdakı məsələləri aşılatmaq vacib məsələdir:

- kursun predmetini, əhəmiyyətini və mahiyyətini izah etmək;

- sosial iş nəzəriyyəsi və təcrübəsində tarixilik və beynəlxalq təcrübəni sosial işin ictimai xarakterini və nəzəri-metodoloji əsaslarını tədris etmək;

- sosial iş nəzəriyyəsi və təcrübəsilə bağlı elmi yanaşmalar, modellər və nəzəriyyələri elmi ardıcıllıqla izah etmək;

- qarşılıqlı sosial təsir sistemində insan resurslarının mühüm əhəmiyyətini aydınlaşdırmaq;

- məşğulluq sferası, davranış normaları və ekspertiza texnologiyaları ilə bağlı elmi məlumatları çatdırmaq və hərtərəfli şəkildə mənbələrə istinad etməklə tələbələri bilik, bacarıq və vərdişlərə yiyələndirmək vacib məsələlərdən biridir.

Təlim prosesindən sonra gözlənilən nəticələr:

"Sosial iş" kursunu öyrənən bakalavriatlar aşağıdakıları əldə edəcəklər:

Sosial işin ictimai xarakterini; sosial iş nəzəriyyəsinin metodoloji əsaslarını; sosial işə əsas elmi yanaşmaları; sosial işin metodları, sosial işdə modelləri, nəzəriyyələri; rol və kommunikativ prosesləri; sosial iş nəzəriyyəsini və təcrübəsini; sosial iş və insan amili, sosial iş və şəxsiyyət məsələlərini; qarşılıqlı sosial təsir sistemində insan resursları, sosial işdə sosial-etnik münasibətlərin əhəmiyyətini; qrup və kollektivlərin qarşılıqlı fəaliyyətlərinin rolunu; sosial işin texnoloji mahiyyətini; sosial işdə diaqnostika və onun tətbiqi metodlarını; sosial işdə profilaktika, adaptasiya, reabilitasiya və terapiya vasitələrinin tətbiqini; sosial ekspertiza texnologiyaları, əhalinin məşğulluq sferasında sosial işin texnologiyalarını; valideynlərini itirmiş uşaqlarla və gənclərlə sosial işin texnologiyalarını; ictimaiyyət tərəfindən qanun pozuntularının deviant kimi müəyyənləşdirmə imkanlarını daha dərindən öyrənib bunu təcrübədə tətbiq edəcəklər.

Mühazirənin təşkili metodikası:

- fənn üzrə mühazirələr interaktiv metodlar əsasında proyektor və slaydlardan istifadə ilə yerinə yetirilməlidir;

- mühazirə prosesində mövzunun hər bir plan sualı nəzərdə tutulan vaxt ərzində ətraflı izah olunur və yeri gəldikcə aktiv tələbələrin də fəallıqlarının artırılmasına diqqət verilir;

- mövzunun hər bir plan sualının nəticələndirmək, sualı olan tələbələrə ətraflı cavab vermək, irəli sürülən əlavə şərh və təkliflərə də vaxt ayırmaq;

- bugunki mövzunu əvvəlki və gələcək mövzularla əlaqəli şəkildə izah etmək və gələn mövzu haqqında tələbələrdə müəyyən təəssürat yaratmaq, maraq oyatmaq;

- mövzu ilə əlaqəli ən yeni materialları tələbələrə çatdırmaq və izah etmək.

Tələbə təlim-tədris prosesindən sonra aşağıdakıları bacarmalıdır:

- cəmiyyətdə davranışın etik qaydalarına əməl etməyi;
- sosial iş prinsiplərini təcrübədə tətbiq etməyi;
- sosial iş təcrübəsinin nəticəsi barədə statistik hesabatı hazırlamağı;
- sosial proqram və layihələri tətbiq etməyi;
- dövlətin sosial siyasət sahəsində qəbul etdiyi normativ-hüquqi aktları həyata keçirmək yollarına nail olmağı;
- fərdlər, qruplar və ailələrlə sosial iş layihələrini tətbiq etməyi;
- sosial və iqtisadi mühitin sosial işə təsirinin tədqiqat metodlarından istifadə etməyi;
- sosial iş sahəsində idarəetmənin təhlilini;
- sosial ədalət prinsiplərini və insan haqlarını qorumağı;
- ünsiyyət mədəniyyəti vasitəsilə insan davranışı və sosial mühiti tənzimləməyi;
- sosial rifahı vətəndaş cəmiyyətində tətbiq etməyə nail olmağı da bacarmalıdır;
- Azərbaycan dilində sərbəst yazışma aparmaqla bərabər xarici dillərdən ingilis

və rus dilini də bilməlidir.

Bacarıqlara nail olmaqla bərabər peşəkar davranış nümayiş etdirmək mühüm məsələ olaraq qalır. Peşəkar davranış nümayişləri aşağıdakılardan ibarət olmalıdır:

- fəaliyyətlərinin humanist, etik çərçivədə olmasını və müştərinin və geniş ictimaiyyətin maraqlarına cavab verməsini təmin etmək;
- peşəkar davranmaq, eqoizm, aqressivlik, sərt düşüncə, konflikt yaratma, işinə laqeyd yanaşma, səbrsizlik kimi davranışlardan qaçmaq, tolerant olmaq və başqalarının fikirlərini qəbul etmək;
- müəssisənin xidmət göstərdiyi və işlədiyi insanlar, həmkarlar, müdirlər, peşəkar assosiasiyalar və qanunlar qarşısında müəyyən öhdəliklərə malik olmaq və məsuliyyət daşımaq;
- həmkarlar, rəhbər işçilərlə etik qaydalar haqqında müzakirələr aparmaq və qərarlar vermək;
- sosial xidmətlərdən sui istifadə edən insanların maraq və ehtiyaclarını dəstəkləməmək;
- məlumatın məxfi saxlanmasını təmin etmək, lakin məxfilik o zaman pozula bilər ki, özünün və digərlərinin həyatı təhlükə altında olsun.

“Sosial iş” ixtisası peşəsində fərdin fəaliyyətinin qiymətləndirilməsi prosesi “sosial işçi” peşəsi üzrə müvafiq peşə standartlarının qiymətləndirilməsində öz əksini tapır. Fərdin sistemli qiymətləndirilmələr vasitəsilə dəyər verilməsi işəgötürənə müxtəlif məqsədlər (yəni işəgötürmə, karyerada irəli çəkmə, heyətin qiymətləndirilməsi, təlim ehtiyaclarının qiymətləndirilməsi) baxımından faydalı ola bilər. Bu meyarlar peşə standartındakı vəzifə və fəaliyyətlərlə birbaşa əlaqəlidir. Onlar ölçülə bilən formada müəyyən edilməlidir ki, qiymətləndirmə nümunələri hazırlayanlar üçün qiymətləndirmə maddələrinin formalaşdırılması baxımından faydalı olsun. Beləliklə, “Sosial iş” ixtisasının məzmunu tələbəyönümlü tədrisin keyfiyyətindən birbaşa asılıdır.

*Əhmədov Aqil Pirmurad oğlu,*
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu*

## AZƏRBAYCAN RESPUBLİKASININ MİQRANT HÜQUQLARININ QORUNMASI SAHƏSİNDƏ MÜSBƏT TƏCRÜBƏSİ

Miqrasiya müsbət inkişafın göstəricisi kimi dünya xalqlarının həyatında az əhəmiyyət daşımır. İnsanlar müxtəlif səbəblər üzündən miqrasiya edir və daha yüksək, təmin olunmuş həyat uğrunda mübarizə aparırlar. Müasir dövrdə sosial-iqtisadi tərəqqi yolunu tutmuş Azərbaycan Respublikası kimi inkişaf etməkdə olan dövlətlərdə həyatın müxtəlif sahələrilə yanaşı, miqrasiya kimi beynəlxalq prosesə diqqət yetirilməsi heç də təsadüfi hal sayılmır. Azərbaycan bir zamanlar Ermənistanın işğal siyasətinin nəticəsi olaraq qaçqın problemi ilə üzləşmiş və ölkədə daxili miqrasiya yüksəlmişdir. Qonşu ölkənin Azərbaycanın tarixi ərazilərinə qarşı əssasız torpaq iddiaları həmçinin Cənubi Qafqaz regionunda sülh və əminamanlığın davamlı olmasına maneə yaradır, ciddi təhdid vasitəsi olaraq qalır. Bədnam ölkənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin həlli ilə bağlı qeyri-konstruktiv mövqeyi eləcə də bölgənin əmək miqrasiyasına öz mənfi təsirini göstərir və əməkçi miqrantların təhlükəsizliyi kimi məsələlərin yarana biləcəyinə işarə edir. Bu isə öz növbəsində əməkçi miqrantların regional hüquqlarının qorunması kimi problemləri aktuallaşdırır. Bütün çətinliklərə baxmayaraq Azərbaycan Respublikası dövlət müstəqilliyinin bərpasından ötən dövr ərzində davamlı inkişafın bir parçası olan miqrasiya siyasətini inkişaf etdirərək əməkçi miqrantların hüquqlarının qorunmasına diqqət yetirir. Hazırda dövlət başçısının əməkçi miqrantların hüquqlarının qorunması ilə bağlı məsələlərə ciddi əhəmiyyət verməsi, qeyri-qanuni miqrasiya ilə mübarizənin gücləndirilməsi probleminə həssas yanaşması mövzunun elmi-nəzəri aktuallığını göstərir.

Ulu Öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycan Respublikası üçün miqrasiya proseslərinin beynəlxalq normalara uyğun tənzimlənməsinin təmini, miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi prioritet istiqamətlərdəndir [9]. Ardıcıl iqtisadi və sosial siyasətin reallaşdırılması nəticəsində Azərbaycan Respublikasında yoxsulluq səviyyəsi hazırda 5 faizədək azalıb [6, 54].

Azərbaycanda miqrasiya siyasətinin genişlənməsi və hüquqi bazasının inkişafında Dövlət Miqrasiya Xidmətinin (DMX) rolu böyükdür və mövcud sahədə əsas dövlət orqanı olaraq çıxış edir. Bu səbəbdən, DMX-nin miqrant hüquqlarının müdafiəsi ilə bağlı dünyanın inkişaf etmiş dövlətləri ilə imzaladığı ikitərəfli və çoxtərəfli sənədlər respublika ərazisində hərəkət edən əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi kimi mühüm məsələlərdə ciddi əhəmiyyət daşıyır. Azərbaycan hökümətinin son on ildə miqrant hüquqlarının qorunması sahəsində sazişlər imzaladığı ölkələrdən: Almaniya, Fransa, İsveç, İsveçrə, Niderland, Belçika, Türkiyə, Rusiya, Latviya, Estoniya, Moldova, Lüksemburq, Gürcüstan, Belarus, Pakistan və Qazaxıstanın adlarını çəkmək olar. Diplomatik münasibətlərdə miqrant hüquqlarının qorunması kimi həlli vacib məsələlər əməkdaşlıq üçün yeni imkanlar yaradır müsbət inkişafa yol açaraq ikitərəfli münasibətlərə töhfə verməyə davam edir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələrinə dair Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində təsbit edildiyi kimi, irqindən, dinindən və cinsindən asılı olmayaraq əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ölkə qanunları və məhkəmə qarşısında hüquqları eynidir. Yəni bu, onların sosial və əmək vəziyyəti ilə birbaşa bağlı olan milli hüquq norması kimi, əməkçi miqrantların yarana biləcək problemləri ilə bağlı dövlət orqanlarına müraciətinin təmin olunmasında mühüm rola malikdir.

Azərbaycan Respublikası coğrafi mövqeyinə, geosiyasi əhəmiyyətinə və son illərdəki sürətli inkişafına görə əcnəbilər tərəfindən cəlbedici ölkəyə çevrilmişdir. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycana gələn əcnəbilərin sayı ildən-ilə artmışdır. Miqrasiya proseslərinin tənzimlənməsi, qabaqcıl dünya ölkələrinin miqrasiya təcrübəsinin Azərbaycanda tətbiq olunması və miqrasiyanın Azərbaycanda milli təhlükəsizliyin strateji hədəflərindən biri kimi aktuallaşması Prezident İlham Əliyev tərəfindən də vurğulanmışdır. Belə ki, 2008-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasında çıxışı zamanı ölkə başçısı miqrasiya məsələlərinin vacibliyini vurğulayaraq demişdir: "Biz miqrasiya siyasətimizi gücləndirməliyik. Çox ciddi sistem yaratmalıyıq. Hər gələn vətəndaş qeydiyyatdan keçməlidir. Qanunsuz heç bir adam belə burada işləməməlidir [3, 209-210]. Qeyd etmək lazımdır ki, miqrant hü-

quqları fundamental insan hüquq və azadlıqlarının qorunması ilə birbaşa bağlıdır və mövcud sahədə BMT-nin qəbul etdiyi beynəlxalq konvensiya bütün dünya dövlətlərini bu problemə riayət etməyə çağırır. Azərbaycan Respublikası Prezidentinin məsələyə münasibəti bir daha onu göstərir ki, miqrasiya siyasəti ölkədə milli qanunvericilik əsasında möhkəm təmələ əsaslanır və burada heç bir halda miqrant hüquqlarının pozulmasına yol verilmir.

2009-cu ildə "Maneələrin aradan qaldırılması: İnsan miqrasiyası və inkişafı" adlı hesabatda Azərbaycan 182 ölkə sırasında 86-cı pillədə yer almışdır. Bununla da Azərbaycan bu göstəricilərlə orta inkişaf etmiş ölkələr sırasına düşmüşdür. 2009-cu il hesabatında sərhədlər daxilində və xaricində miqrasiya mövzusu yer almışdır. Miqrasiya əsasən regionda münaqişə, insanların daha yaxşı yaşamaq və təhsil almaq istəyi ilə metropoliya və meqapolislərə axını nəticəsində baş verir. Son vaxtlar əhalinin qlobal səviyyədə mobilliyi artmış və miqrasiya axınları ayrı-ayrı dövlətlərdə və regionlarda sosial vəziyyətə təsir edən ciddi faktorlardan birinə çevrilmişdir [9, 459]. Hazırda Azərbaycanda miqrasiya prosesləri müsbət sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirilir və əməkçi miqrantların, onların ailələrinin hüquqlarının qorunmasında dövlət qanunları və beynəlxalq qanunvericiliyə yüksək səviyyədə riayət olunur.

Ölkədə insan hüquqlarının yüksək səviyyədə təmin olunması miqrasiya sahəsində həyata keçirilən dövlət siyasətinin inkişafına əhəmiyyətli təsir göstərir. Bu sahədə Azərbaycan Respublikasının Konstitusiyası ölkədə yaşayan əcnəbi vətəndaşların, əməkçi miqrantların sosial müdafiəsinin tənzimlənməsinə müsbət yanaşmaqla beynəlxalq hüquq normalarına riayət olunduğunu əks etdirir. Bu gün Azərbaycanda müşahidə olunan sosial-iqtisadi tərəqqi miqrasiya siyasətinin inkişafına təkan vermiş və ölkədə miqrasiya qanunvericiliyi formalaşmışdır. Müstəqil dövlət siyasətini inkişaf etdirən Azərbaycanda, həmçinin miqrasiya siyasətinin inkişafına təkan verən müxtəlif sənədlər qəbul olunur və son 27 ildə mövcud sahəyə maraq artaraq beynəlxalq qanunvericilik öyrənilmiş, milli qanunvericiliyə tətbiq edilmişdir [4, 216].

Azərbaycanın regional və qlobal miqyasda geoiqtisadi rolunu gücləndirmək, Dünya Ticarət Təşkilatına qəbul, Avropa İttifaqı ilə Azad Ticarət Sazişi və Gömrük İttifaqı arasında rasional seçim, daxili iqtisadi inkişaf vektorlarını dünya iqtisadi təmayüllərinə uyğunlaşdırmaq, makroiqtisadi sabitliyi qorumaqla davamlı inkişafı təmin etmək, iqtisadiyyatın diversifikasiyasını və regional tarazlaşmanı düzgün tənzimləmək və orta təbəqəyə dayanıqlı sosial siyasət əsas çağırışlar olaraq müəyyənləşdirilib [8, 30]. Tarixi kökləri tarixin dərin qatlarına qədər uzanan miqrasiyanın, xüsusilə də əmək miqrasiyasının başlandığı gündən əsas məqsədlərindən biri insanların rifah halının, sosiallaşmasının yüksəlməsinə diqqət yetirmək olmuşdur. Bu gün Azərbaycan miqrasiya sahəsində Avropa ilə əməkdaşlığa əhəmiyyət verir, lakin son illər yaşanan ictimai-siyasi, hərbi hadisələr dünyanın siyasi xəritəsində bir sıra dəyişikliklərə gətirib çıxarmış və miqrasiya proseslərinin tənzimlənməsində qlobal problemlər meydana çıxmışdır.

Avropa Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün iqtisadi tərəqqi nümunəsi sayılsa da, bir çox məsələlər var ki, burada Avropa dəyərləri öz əhəmiyyətini kifayət qədər azaltmış olur. Belə məsələlərdən biri, bəlkə də birincisi miqrasiya siyasəti və miqrant hüquqlarının qorunması ilə bağlıdır. Azərbaycanda həyata keçirilən miqrasiya siyasəti bu sahəni tənzimləyən beynəlxalq və milli qanunvericilik bazası əsasında inkişaf edir. Respublikanın illər ötdükcə irəliləyən sosial-iqtisadi siyasəti, ge-

nişlənən enerji siyasəti, qeyri- neft sektorunun dirçəldilməsi və həyata keçirilən şəffaf xarici siyasət ölkəyə olan marağı daha da artırmışdır. Buna səbəb olan beynəlxalq tədbirlər və onların əhəmiyyətini də xüsusilə qeyd etmək olar.

Belə olduğu zaman Azərbaycana qazanc dalınca və ya daimi yaşamaq üçün üz tutan miqrantların sayında son illər artım müşahidə olunur. Azərbaycan ötən 29 ildə miqrasiya sahəsində beynəlxalq və regional təcrübəni nəzərdən keçirə bilmişdir. 13 mart 1996-cı ildə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Ardınca 1997-ci ildən başlayaraq BMqT ilə vətəndaşlıq çərçivəsində "Azərbaycanda miqrasiyanın idarəetmə potensialının yaradılması adlı xüsusi Proqram" həyata keçirilməyə başlanmışdır. Bu sahədə, ən mühüm beynəlxalq konvensiyalardan biri dünya birliyi tərəfindən 1990-cı ildə qəbul olunmuş "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə" sənəddir. Azərbaycan 11 dekabr 1998-ci ildə qəbul etdiyi qanunla bu konvensiyaya qoşulmuşdur. Konvensiyanın müddəalarına uyğun olaraq 1998-ci il oktyabrın 28-də "Əmək miqrasiyası haqqında" 4 fəsil, 22 maddədən ibarət qanun qəbul edilmişdir. 2000-ci il dekabrın 8-də isə "Beynəlxalq Miqrasiya Təşkilatı"nın konstitusiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir [1, 192]. Göründüyü kimi, Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində miqrasiya sahəsində qoşulduğu beynəlxalq qanunvericilik ölkədə miqrant hüquqlarının qorunmasında baza olaraq bu gün də həssas yanaşılan məsələlər sırasındadır.

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli təhlükəsizliyin və sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin mənfi təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədi ilə 2006-2008-ci illər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı qəbul olunmuşdur [7, 540-541]. Siyasi və hüquqi əhəmiyyəti ilə diqqət çəkən belə dövlət əhəmiyyətli sənədlər ölkə ərazisində çalışan miqrantların hüquqlarının müdafiəsinə təkan verir, onların dövlət orqanlarına müraciətlərinin təmin olunması və s. məsələlərdə effektiv vasitəyə çevrilir. Bəzən Azərbaycan qeyri-qanuni miqrasiya, insan alveri və qaçaqmalçılıq kimi problemlərlə də üzləşməli olur. Burada sərhəd təhlükəsizliyi və miqrasiya kimi həssas məsələlərin müzakirəsinə diqqət artır.

Qeyri-leqal miqrasiya və insan alveri kimi sərhəd təhlükəsizliyinə ciddi təhdidlərdən hesab olunan əməllərə qarşı daha effektiv mübarizə aparılmasında Azərbaycan Respublikası Prezidentinin 2004-cü il mayın 6-da özündə insan alverinə qarşı mübarizənin bütün aspektlərini birləşdirən "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nın, o cümlədən 2005-ci il iyunun 8-də "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun, 2009-cu ilin fevralın 6-da 2009-2013-cü illəri əhatə edən "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi mühüm əhəmiyyətə malik oldu [5, 314-315]. Respublikanın milli qanunvericiliyində öz əksini tapmış sənədlər Azərbaycanda miqrasiya siyasətinə marağın artdığını və mövcud sahəyə dövlət səviyyəsində ciddi əhəmiyyət verildiyini göstərir. Ölkə qanunları və stabil siyasət Azərbaycanda miqrasiya sahəsində yaranan istənilən anlaşılmazlıqları və mənfi təsirləri həll etməyə qadirdir və dövlət başçısının bu məsələdə

yürütmüş olduğu müdrük siyasət öz bəhrəsini verir.

Azərbaycan Dövlətinin miqrant hüquqlarının qorunması sahəsində beynəlxalq təşkilatlarla həyata keçirdiyi çoxtərəfli əməkdaşlığı da mühüm siyasi və hüquqi əhəmiyyətə malikdir. Bununla bağlı respublikanın – BMqT, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz, BMT, BƏT, Aİ, ATƏT, Beynəlxalq Qızıl Xaç Komitəsi, MDB kimi beynəlxalq və regional qurumlarla qurduğu münasibətləri beynəlxalq miqrasiya qanunvericiliyinin Azərbaycanın mövcud sahədə inkişaf etdirdiyi hüquqi bazasının inkişafında səmərəli olmuşdur. BMT ilə "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi (2014-2017) uğurla reallaşdırılmışdır. Bu layihə çərçivəsində görülmüş işlərdən biri DMX tərəfindən təyin olunmuş cərimələrin "ASANPAY" ödəniş sistemi vasitəsilə ödənilməsi proqramının Xidmət tərəfindən hazırlanması və artıq istifadəyə verilməsi olmuşdur [10].

Ötən dövr ərzində və xüsusilə də son 17 ildə Azərbaycan Respublikası beynəlxalq münasibətlərini inkişaf etdirərkən qlobal miqrasiya proseslərinin tənzimlənməsini də diqqətdən kənarda qoymamışdır.

Hazırda ölkə qanunvericiliyində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində olma müddətləri müəyyən edilmiş, onlara Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün nəzərdə tutulmuş sənədlər təsdiq edilmiş, əcnəbilərin qeydiyyat sistemi təkmilləşdirilmiş, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul üzrə əlavə meyarlar müəyyən edilmiş, miqrasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət gücləndirilmişdir [2, 49]. Mövcud sahədə qazanılan mühüm uğurlardan biri 2007-ci ildə respublikada Dövlət Miqrasiya Xidmətinin (DMX) yaradılması və 2010-cu ildə inzibati binasının açılması ilə gerçəkləşmiş oldu. BMqT baş direktorları Brunson Mak Kinlinin 2000-ci ildə Prezident Heydər Əliyev, həmçinin 2015-ci ildə Uilyam Leysi Svinqin Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşləri Azərəbaycana olan marağın təzahürü idi. Yüksəksəviyyəli görüşlər bir daha təsdiq edir ki, Azərbaycanda gedən inkişaf və quruculuq işləri dünya birliyinin, əməkçi miqrantların diqqət mərkəzindədir. Bu səbəbdən, milli və beynəlxalq qanunvericilik Azərbaycanda çalışan əməkçi miqrantların hüquqlarının müdafiəsində ciddi əhəmiyyət daşıyır və buna yüksək səviyyədə riayət olunur.

Məqalə boyu sadalanan bütün müsbət məqamları aşağıda göstərildiyi kimi sadalamaq mümkündür:

- Azərbaycanda milli inkişaf və tərəqqinin davamı olaraq Prezident İlham Əliyevin dəstəklədiyi davamlı inkişaf, respublika ərazisində miqrasiya siyasətinin genişlənməsinin və beynəlxalq təcrübənin öyrənilməsinin zəruriliyini göstərməklə, miqrant hüquqlarının qorunması kimi qlobal problemlərə diqqət çəkir;
- Bu səbəbdən, qlobal miqrasiya prosesləri dünyanın bütün regionlarını əhatə etməklə, Cənubi Qafqaz bölgəsinin müasir beynəlxalq münasibətlərə inteqrasiyasında yaxından iştirak edir;
- Bölgənin inkişaf etməkdə olan dövləti Azərbaycan Respublikasının iqtisadi qüdrəti və reallaşdırdığı nəhəng layihələr əməkçi miqrantların hüquqlarının müdafiəsi kimi məsələləri gündəmə gətirir;
- Baxmayaraq ki, hazırda Ermənistan bölgədə Azərbaycan və Gürcüstana qarşı süni münaqişə ocağının alovlanması və davam etməsində birbaşa məsuliyyət daşıyır, Azərbaycan və Gürcüstan ikitərəfli yüksək münasibətlər quraraq bir sıra sahələrdə, o cümlədən qeyri-qanuni miqrasiya və əməkçi miqrantların hüquqlarının qorunması kimi

mühüm məsələlərdə birgə əməkdaşlıqlarını davam etdirərək, regionda sülh və əmin-amanlığın davamlılığına töhfələr verməkdədirlər;

- Azərbaycan Respublikasının milli qanunvericiliyində miqrasiya ilə bağlı təsbit olunmuş məsələlərin, konstitusion və beynəlxalq hüququn norma və prinsiplərinə uyğunlaşdırılması mövcud sahədə stabil inkişafa müsbət təsir göstərmişdir;

- Ölkədə miqrasiya siyasətinin həyata keçirilməsində çıxış edən əsas tərəf DMX-dir. Dövlət Miqrasiya Xidmətinin son 13 ildə keçdiyi inkişaf yolu əməkçi miqrantların hüquqlarının müdafiəsi kimi mühüm məsələlərin tənzimlənməsinə əhəmiyyətli təsir göstərmişdir;

- Ötən illər ərzində əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquqlarının qorunması istiqamətində Azərbaycan hökumətinin atdığı addımlar bir daha onu göstərir ki, miqrasiya qlobal proses olub bütün dünya dövlətlərinin sosial-siyasi və hüquqi inkişafına təsir göstərə biləcək gücə malikdir;

- Bununla bağlı, Azərbaycanın xüsusilə dünyanın inkişaf etmiş dövlətləri ilə ikitərəfli formatda reallaşdırdığı əməkdaşlığı, həmçinin beynəlxalq təşkilatlarla çoxtərəfli qaydada həyata keçirdiyi əməkdaşlığı müsbət nəticələr verməklə, ölkənin beynəlxalq maraqlarının və təhlükəsizliyinin qorunmasına əhəmiyyətli təsir göstərir.

**Ədəbiyyat siyahısı:**


1. Abdullayev F.N. Müasir Azərbaycanda miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı. “ Elm və təhsil”, 2009, 328 s.
2. Aslanova A.F. Azərbaycanda miqrasiya proseslərinin iqtisadi-demoqrafik aspektləri // Azərbaycan Dövlət İqtisad Universiteti, iqt. ü. fəl. dok. (5308.01 - “Ümumi iqtisadiyyat”) elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya işi. Bakı, 2017, 148 s.
3. Əliyev A. Azərbaycan Respublikasının miqrasiya siyasəti milli təhlükəsizlik kontekstində // “Strateji Təhlil”. Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal, № 1-2(15-16), 2016, s. 205-217.
4. Əhmədov A.P. Azərbaycan Respublikasında həyata keçirilən miqrasiya siyasəti insan hüquqlarına göstərilən ali dəyərdir // Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası. ”Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə”. Elmi-nəzəri jurnal, № 3(59), 2017, s. 41-47.
5. Əsgərov Q. Transsərhəd axınları və sərhəd təhlükəsziliyi // Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası. ”Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə”. Elmi-nəzəri jurnal, № 3(59), 2017, s. 311-316.
6. Ələkbərov U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. Bakı: “Təhsil”, 2017, 176 s.
7. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi LTD, 2016, 700 s.
8. Qasımlı V. İqtisadi modernizasiya. Bakı: “SAM”, 2014, 312 s.
9. Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. Məqalələrdən seçmələr (1997-2011). Bakı: “Çaşıoğlu”, 2012, 464 s.
10. Nəbiyev F.H. Miqrantların hüquqlarının müdafiəsi və onların cəmiyyətə inteqrasiyası sahəsində əsaslı tədbirlər görülür // “Xalq Qəzeti”, 18 dekabr 2016-cı il.

*Ахундова Нигяр Рашид кызы,*
*кандидат исторических наук, доцент,*
*Бакинский Университет Бизнеса*

# РОЛЬ УСОВЕРШЕНСТВЕННЫХ ПРОГРАММ ДЛЯ ИЗУЧЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

Азербайджан – страна с древнейшей и богатейшей историей. История Азербайджана насчитывает многие тысячелетия. Она нашла весьма богатое отражение в древнейших ассирийских, парфянских, ахеменидских, сасанидских надписях, античных ассирийских, сирийских, арабских, персидских, турецких, европейских и других источниках.

Весьма богатое отражение получили памятники материальной и духовной культуры азербайджанского народа в путевых заметках, описаниях историков, географов, ученых, творениях поэтов, писателей, художников, посетивших в разные периоды Азербайджан воочию ознакомившихся с многочисленными археологическими, эпиграфическими, нумизматическими, этнографическими, архитектурными памятниками, шедеврами изобразительного искусства. (7,с 3)

Представленные программы для изучения истории Азербайджана охватывают период с древнейших времен до наших дней и содержат ключевые моменты каждого периода. В программах учитываются новые научные исследования ученых-историков, касающиеся сложнейших проблем социально-экономического, политического и духовного развития Азербайджана, в которых нередко по новому рассматриваются ранее известные события исторического развития, выдвигаются новые точки зрения, предлагаются новые решения ряда вопросов, особенно связанные с периодом после октябрьского переворота в России и связанные с этими событиями в Азербайджане. В связи с этим усовершенствование программы по истории Азербайджана является важным итогом в творческом процессе по изучению истории Азербайджана.

Естественно, в программе сложно дать анализ спорных проблем, что более характерно для лекционного курса и семинарских занятий, призванных привлечь внимание студентов на дискуссионные проблемы, различные точки зрения ученых в исследовании тех или иных проблем.

Программы по истории Азербайджана служат основой для углубленной самостоятельной работы студентов по дополнительной литературе. С этой целью, наряду с общей литературой, учебниками, предлагается специальная литература к каждой отдельной теме, что позволяет студенту глубже изучить суть социально-экономических, политических и духовных процессов развития Азербайджана на разных исторических этапах.

Курс истории Азербайджана является составной частью всемирной истории.

Азербайджан последовательно прошел в своём историческом развитии те же этапы, что характерны для всего человечества: первобытнообщинный строй и раннеклассовое общество, феодализм и капитализм, социализм и период рыночной экономики. (7, с 4)

Капиталистический этап в Северном Азербайджане оказался временно прерванным на 70 с лишним лет в связи с Октябрьским 1917 года переворотом в России.

В XX в. на территории Северного Азербайджана сменили друг друга три республики:

I. Азербайджанская Демократическая Республика (Джумхурият) (28 мая 1918 г. – 28 апреля 1920 г.).

II. Азербайджанская Советская Социалистическая Республика (28 апреля 1920 г. – 18 октября 1991 год).

III. Азербайджанская Республика (18 октября 1991 г. – по наши дни).

К концу восьмидесятых годов XX века мир с удивлением наблюдал за тем, что происходило на 1/6 части земной суши в пределах государства, именуемого СССР (Союз Советских Социалистических Республик).

В 1985 году началась перестройка во всех сферах жизни и деятельности СССР, что привело к распаду этого государства.

В итоге развала СССР в Северном Азербайджане появилась Третья Республика. 18 октября 1991 года был принят Конституционный Акт «О государственной независимости Азербайджанской Республики». Во главе с Президентом, Республика идет по пути развития, освещенном нормами и принципами мирового сообщества и АДР (Азербайджанская Демократическая Республика). Гейдар Алиев является основателем и строителем Азербайджанской Республики.

Согласно Конституции 1995 года Азербайджанская Республика является правовым, суверенным, унитарным, светским, демократическим государством, которая развивается в духе «Декларации прав человека» и других основообразующих документов ООН, Хельсинского Совещания 1975 г. и ОБСЕ. (6, с 5)

Программы по истории Азербайджана позволят осознанно освоить студентам курс по истории Азербайджана, усвоить, что азербайджанский народ, как и многие этносы, имеет богатую историческую память, что является основным элементом самосознания, которая в свою очередь приводит к инстинкту самосохранения нации. Азербайджанцы всегда жили на своей территории, не мигрировали и почти во все времена имели политические образования – государства, общую культуру, единый язык. Формирование азербайджанского народа началось с IV века до н.э., с появлением государства Атропатена и закончилось в XI в. с приходом в Азербайджан сельджуков, когда тюркский язык стал основным языком общения на Южном Кавказе, а азербайджанский тюркский народ – главной этнической силой на Южном Кавказе.

На территории Азербайджана с древнейших времён существовало несколько языковых групп:

I) тюркоязычные (азери, гунны, хазары, сабиры, огузы и др.);

II) ираноязычные (талыши, таты, курды);

III)кавказоязычные (удины, лезгины (лезгияры), хыналыгцы, будуги, гырызы) и др.

Историю азербайджанского народа, несомненно, должны знать как молодежь, студенты вузов, так и любой гражданин страны.

Программы по «Истории Азербайджана» усовершенствуются в связи с развитием общества и необходимостью включения актуальных тем для вузов Азербайджанской Республики. Программы рассчитаны для студентов технических, экономических, юридических, переводческих и других факультетов государственных и частных вузов по всем специальностям на ступени бакалавр.

Программы состоят из 30-60 часов лекций и 15-30 часов семинарских занятий. Это зависит от программы тех или иных вузов.

Программы раскрывают основные проблемы истории Азербайджана по установленным темам. К каждой теме дается раскрытый план, литература, план семинарских занятий, сетка часов.

Работа по усовершенствованию программ по истории Азербайджана играет важную роль в исследованиях исторических процессов и преподавании не исследованных и не изученных проблем предмета истории Азербайджана.

Особенно важным вопросом является - формирование азербайджанского народа, которое началось с IV века до н.э. с появлением государства Атропатена и закончилось в XI в. с приходом в Азербайджан сельджуков, когда тюркский язык стал основным языком общения на Южном Кавказе, а азербайджанский тюркский народ - главной этнической силой на Южном Кавказе.

Программы должны охватывать вопросы государственности Азербайджана начиная с периода первых государственных образований (Кутии, Луллуби, Хуриты, Касситы, Туруки, Субареи, и др), государства Манна, Атропатена, Албания, период раннего средневековья (III-VII вв.), Гирдиманское государство, государство в составе Арабского Халифата (VII – середина IX вв), азербайджанские государства середина IX – середины XI вв. (Ширваншахов Мазъядидов (861-1027 гг), Кесранидов (1027 – 1382гг.), Саджидов (879-941гг), Саларидов (941-981гг), Раввадидов (981-1054гг), Шедддадидов (971-1087гг), в составе Сельджукской империи, государство (Атабеков) Эльденизов, Азербайджан в период Монгольского господства (XII – XIV вв), государство Эльханидов (Хулагидов) (1256-1357гг), Государство Каракоюнлу (1410-1468 гг), Аккоюнлу (1468-1501 гг), Сефевидское государство (1501-1736 гг), Азербайджан в составе империи Надир шаха (1736-1747гг), Независимые государства Азербайджана (ханства), Азербайджан после Тюркменчайского мирного договора, в составе Российского государства и Азербайджан в XX веке и сегодня.

Азербайджан последовательно прошел в своём историческом развитии те же этапы, что характерны для всего человечества: первобытнообщинный строй и раннеклассовое общество, феодализм и капитализм, социализм и период рыночной экономики.

Капиталистический этап в Северном Азербайджане оказался временно-прерванным на 70 с лишним лет в связи с Октябрьским 1917 года переворотом в России.

В XX в. на территории Северного Азербайджана сменили друг друга три республики:

I.Азербайджанская Демократическая Республика (Джумхурият) (28 мая 1918 г. - 28 апреля 1920 г.).

II. Азербайджанская Советская Социалистическая Республика (28 апреля 1920 г. - 18 октября 1991 год).

III. Азербайджанская Республика (18 октября 1991 г. - по наши дни).

Каковы наши цели в изучении истории нашей Родины:

1.Главная цель - познать прошлое и объяснить событиями прошлого современные процессы человеческого бытия истории азербайджанского народа.

2. Процесс познания – любой процесс исторического развития, происходящий в обществе составляет основу научного познания, в данном случае предмета Истории Азербайджана

3. Процесс раскрытия истории развития человеческого общества, т.е. все, что произошло в древности (период первобытного, рабовладельческого, феодального общества в истории Азербайджана).

4.На основе источниковой базы, владея теорией и методологией познания используя методику исследовательской деятельности раскрыть студентам историю Азербайджана как науку.

5.Важнейшая цель исторического образования – воспитание историей азербайджанского народа, формирование гуманистических ценностей и патриотических чувств, свободных, демократических идей молодого поколения.

6. Изучение основных этапов истории Азербайджана и ее место и роли в мировом историческом процессе – главная и важнейшая цель курса истории Азербайджана

Итогом обучения является:

1) выявить сформировались ли у студента научные представления об истории Азербайджана

2) поняли ли они основные, ведущие тенденции и особенности исторического пути Азербайджана.

3) могут ли студенты на основании знаний о прошлом объяснить современные процессы развития азербайджанского общества и выявить возможные перспективы.

4) способствовать формированию у студентов гуманитических ценностей и патриотических чувств, гордость и ответственность за судьбу Родины – Азербайджана!

## Список использованной литературы:

1. Программа по курсу «История Азербайджана», Баку-2001 (составитель к.и.н. Нигяр Ахундова) Министерство образования Азербайджанской Республики, Бакинский Университет Бизнеса, кафедра гуманитарных наук), 54с.

2. Программа по курсу «История», (составитель к.и.н. Нигяр Ахундова) Министерство образования Азербайджанской Республики, Бакинский Университет Бизнеса, кафедра гуманитарных наук). Баку – 2004. к.и.н., доцент 105 с.

3. Программа по курсу «История Азербайджана, (составитель д.ф.и.н. доц. Нигяр Ахундова) Министерство образования Азербайджанской Республики, Бакинский Университет Бизнеса, кафедра гуманитарных наук). Баку – 2014, 72 с.

*Əmirxanov Sabir Abuzər oğlu, professor,*
*Bakı Biznes Universiteti*

## SOSİAL İŞİN TƏŞKİLİ METODLARI VƏ RƏQƏMSALLAŞDIRMA

Məlum olduğu kimi, reallığın hər hansı bir sahəsi barədə biliklərin müəyyən sistemi kimi elm mühüm əhəmiyyətə malikdir. Məhz sosial iş elmi biliyin bir sahəsi olmaqla, onda həm ictimai, həm də təbiət elmlərinin xüsusiyyətləri əks olunmaqla, tədqiqatın statistik və riyazi metodlarından geniş istifadə olunur. Sosial işin öyrənilməsində mövcud olan yanaşmalardan məlum olmuşdur ki, bu elm həm sosial inkişaf sahələrini, digər tərəfdən insan həyatı ilə əlaqədar problemləri əhatə edir. Buna görə də sosial iş özünəmüvafiq tədqiqat predmeti, obyekti və spesifik problem həlli metodlarına, metodologiyalarına malikdir. Beləliklə, sosial iş şəxsiyyətin, sosial qrupun və ya icma ilə bağlı sosial prosesləri və hadisələri əhatə etdiyindən onun subyektlərinə sosial işçilər, sosial pedaqoqlar və psixoloqlar, müvafiq iş sahələri üzrə araşdırmalar aparan tədqiqatçılar, kadr hazırlığında iştirak edən professor-müəllim heyəti, sosial siyasəti formalaşdıran, təkmilləşdirən, həm də həyata keçirən idarəetmə kadrları aiddir.

Müxtəlif tarixi dövrlərə müvafiq olaraq sosial işin qarşısında duran əsas vəzifə insanların sosial problemlərinin aradan qaldırılması məqsədilə mütəxəssis kadrların fəaliyyətinin forma, metod, imkan və yollarının mövcudluğunu və gələcək həyat şəraitini sosial yönümlük baxımından təmin etmək, daha da yaxşılaşdırmaq üçün müvafiq qüvvələrin fəallığını stimullaşdırmaqdır. Buna görə də mövcud sosial iş metodlarından hazırki tələbata uyğun istifadədə, yeni üsulların həm kiçik qrup, həm də cəmiyyət çərçivəsində tətbiqi məqsədilə elmi-tədqiqat axtarışlarını rəqəmsallıqdan istifadə ilə şərtləndirmək zəruridir. Çünki, bu, müasir zamanın tələbidir.

Bilavasitə informasiya kommunikasiya texnologiyalarından istifadə zəminində fəaliyyətin kəmiyyət və keyfiyyət göstəriciləri, həmçinin zaman və məkan çərçivəsində inkişafın nəticələrini qiymətləndirmək, davamlı tədbirləri kompleks şəkildə həyata keçirmək mümkündür.

Məlum olduğu kimi, müxtəlif sosial iş metodlarına müvafiq olaraq rəqəmsallaşdırmanın tətbiqi zərurəti meydana çıxır. Forma və istiqamət baxımından sosial işin obyektinə (fərdi, qrup, icma) və subyektinə (xüsusi mütəxəssisin tətbiq etdiyi, kollektiv sosial xidmət, sosial işdə idarəetmə orqanları) görə fərqli olduğundan, müvafiq olaraq rəqəmsallıqdan istifadə həyata keçirilir. Sosial işçi fərdi iş metodu vasitəsilə yeni sosial mühitə uyğunlaşma zamanı subyektə fərdi kömək göstərir. Bu zaman sosial işçi ilkin əlaqə vasitəsilə tələbatı müəyyənləşdirir, problemlə bağlı aydınlaşdırma aparır, köməyin zəruriliyini motivə çevirir, həllin müəyyən edilməsi, yerinə yetirilməsi məqsədilə strateji istiqamət seçir, həll işini razılaşdırır ki, bütün bu mərhələlərdə bu və ya digər dərəcədə müvafiq informasiya kommunikasiya texnologiyasından istifadə edir.

Qrupla sosial iş prosesində insanların fəaliyyətinin ayrı-ayrı sahələri aydınlaşdırılır, mövcud çətinliklərin aradan qaldırılması istiqamətində sosial işçi tərəfindən müvafiq işlər həyata keçirilir. Qrupla sosial işlə əlaqədar mövcud sahə, sosial mübadi-

lə və sosial sistem nəzəriyyələri vasitəsilə sosial sistem öyrənilir, dəqiq məlumatlar əldə etdikdən sonra müvafiq təkliflər irəli sürülür. Anket sorğularından istifadə etməklə bioqrafiq məlumatlar əldə edilir, şəxsi keyfiyyətlər üzə çıxarılır ki, bu prosesdə də müvafiq statistikaya ehtiyac yaranır. Sosiometriya vasitəsilə şəxsiyyətlərarası emosional münasibətlər qiymətləndirilir, lazımi təhlillər aparılır. Bu prosesdə sosiometrik matrisa (cədvəl), sosioqram tərtib edilir, qrupun sosiometrik əmsalı hesablanır. Kommunikometriya vasitəsilə münasibətlər prosesində qrup üzvlərinin yeri müəyyən edilir. Xüsusi qrup metodlar da mövcuddur ki, məhz onların köməyilə sosial-psixoloji vəziyyətlərin tədqiqi, diaqnozu, modelləşdirilməsi və onların optimallaşdırılması, inkişafı yerinə yetirilir. Işgüzar oyunlar, sosial-psixoloji treninqlərlə münasibətlər sistemi modelləşdirilir, ünsiyyətin inkişafı məqsədilə fəal psixoloji metodlar tətbiq edilir.

İcmada (mikro-sosial mühitdə) sosial iş prosesində istifadə edilən əsas metodlardan-sosial diaqnostikadan, sosial proqnozdan, mikro-sosial mühitin sosial planlaşdırılmasından, ərazi özünüidarəetmə sisteminin inkişafından və praktik işlərdən müvafiq riyazi-statistik məlumatlar ümumiləşdirilir və məqsədyönlü fəaliyyət planlaşdırılır.

Təşkilati metodlar prosesində də tapşırıqların həll edilməsi məqsədilə tətbiq olunan üsul və vasitələrin istifadəsi zamanı rəqəmsal yanaşmalara zərurət yaranır. Pedaqoji metodlar içərisində şəxsiyyətin şüurunun formalaşdırılmasında anlayışlardan, mühakimələrdən, qiymətləndirmədən istifadədə, idraki fəaliyyətin təşkilində tapşırıqların, məşğələlərin tətbiqində, fəaliyyətin stimullaşdırılmasında da rəqəmsal yanaşmalara müraciət edilir.

Sosial-psixoloji metodlar sırasında formalaşdırıcı eksperimentlər, diaqnostik, psixogenetik, longitiudal, həyat yolunun tətbiqi, psixoloji kömək, söhbətlər (müsahibələr) əsnasında qrafiklərdən, diaqramlardan, rəqəmli təhlillərdən istifadəyə önəm verilir. Təbiidir ki, bütün bu proseslərdə müasir texniki vəsait və texnologiyalardan istifadə qaçılmazdır.

Sosial-iqtisadi metodların məqsədi optimal formalaşdırılmalar aparmaq, sosial-müdafiə sisteminin günün tələbləri səviyyəsində səmərəli təşkilinə, sosial mühitin daha da yaxşılaşdırılması istiqamətində səfərbərliyi yüksəltmək, dövlət tərəfindən həyata keçirilən sosial xidmət işinin keyfiyyət nəticələrinin artırılmasına nail olmaqdan ibarətdir. Bundan ötrü sosial işdə istifadə edilən statistik, riyazi, mühitdə mövcud fəaliyyətin təhlili, eyni zamanda həmin fəaliyyətdən yaranan nəticələrin obyektiv və müqayisəli şəkildə hərtərəfli qiymətləndirilməsi, balans işlərinin təşkili, indeksləşdirmə, dinamika sıralarının texnoloji təhlili metodlarından istifadə edilir.

Qeyd edək ki, sosial işdə öyrənmə nəzəriyyəsinə əsaslanan metodlar sırasında müsbət möhkəmləndirmə, formalaşdırma, işarələr sistemi xüsusilə əhəmiyyətlidir. Müsbət möhkəmləndirmə metodu fəaliyyətdən dərhal sonra möhkəmləndirmənin sistem şəklində yaradılmasını zəruri edir. Əlbəttə, hər hansı hərəkətin möhkəmləndirilən davranışı gücləndirdiyini dəqiqləşdirmədən, bu hərəkətin şəxs üçün müsbət möhkəmləndirici stimul olması barədə qənaətə gəlmək olmaz. Yəni, arzulanan davranışdan sonra müsbət möhkəmləndirmə olmalıdır, bundan sonra onun tezliyi aşağı enməlidir ki, davranış tədricən möhkəmləndirilsin. Bu halda yeni davranışın davamlılığına əmin

olma baş verir. Formalaşdırma da tədrici proseslə son nəticədə tam olaraq hərəkəti mənimsəməni nəzərdə tutur. İşarələr sistemi metodu uşaq və yeniyetmələrlə səmərəli sosial işin həyata keçirilməsində mühüm əhəmiyyətə malikdir. İşarələr sistemi metodu həvəsləndirmə simvollarının cəmləşdirilməsi, yarış monitorlarının məqsədyönlü formada təşkili üsullarından ibarətdir. Bu prosesdə yarış monitorlarında ulduz və yaxud başqa işarələrin nümayişi, yerinə yetirilən hərəkətin müvəffəqiyyətini təsdiq edəndən dərhal sonra müvafiq nişanın verilməsi kimi mərhələlərlə davam etdirilir. İşarələr sistemi vasitəsilə təkcə rəğbətləndirmə yox, həm də cəzalandırma da yerinə yetirilir, yəni lazımsız davranışdan sonra işarə silinir.

Sosial iş nəzəriyyəsi və təcrübəsində istifadə edilən metodlar içərisində modelləşdirmənin də əhəmiyyəti böyükdür. Modelləşdirmə ümumi elmi metod kimi real sferanın əvvəlcədən planlaşdırılan simvolik sxemi kimi qəbul edilir. Bu metod sosial elmlərə riyaziyyatdan gətirilsə də, əsasən iqtisadiyyatda, sonralar isə sosial elmlərdə, o cümlədən sosial işdə tətbiq edilməyə başlamışdır. Modelləşdirmə hər hansı prosesi necə etməyi göstərməkdən ibarətdir. Sosial işin təşkilində modelləşdirmə sosial vərdişlər treninqinin də başlıca modelidir. Modelləşdirmə hər hansı proqramda müvafiq məsələ ilə bağlı göstəriş verməyi, sonraki fəaliyyəti hansı istiqamətdə davam etdirməyi, arzuolunmaz davranışların necə aradan qaldırmağın öyrənilməsin də mühüm əhəmiyyət kəsb edir.

Sosial vərdişlər treninqinin əsas komponentləri modelləşdirmə və formalaşdırmadır. İlkin mərhələdə davranışla bağlı fərdə izahlar verilir, sonraki mərhələdə ona uyğun davranış nümayiş etdirilir, sonraki mərhələdə isə davranışı özü təcrübədə sınaqdan keçirilir və nəticədə əks əlaqə nəticəsində dəstək alır. Sonraki mərhələlərdə isə fərd həmin yeni davranış metodunu dəfələrlə təcrübədən keçirir. Bu prosesdə koqnitiv elementlərə də diqqət yönəlir və müvafiq qaydaların öyrənilməsi də baş verir ki, bu da fərdin xeyrinədir.

Sosial işin təşkilində özünə nəzarət treninqlərinin də əhəmiyyəti böyükdür. Bu treninq növündə geniş komponentlər dəstindən istifadə edilir. Məsələn, qəzəblənməyə nəzarət prosesində fərd problemli vəziyyətin ayrı-ayrı mərhələlər üzrə düzgün təhlil etməyi öyrənir. Fərd qəzəbə səbəb olan məsələlərin ardıcıllığının qarşısını almağı, qəzəbə səbəb olmanı və inkişafının ayrı-ayrı detallarını, alternativ cavabın tapılmasını öyrənir. Bütün bu proseslərdə rəqəmsal fəaliyyətdən müvafiq səviyyədə istifadə edilir.

Yadda saxlamaq lazımdır ki, sosial işin təşkili prosesində mütəxəssislər bir neçə metoddan istifadə etməklə, məsələ ilə bağlı ümumiləşdirmə aparırlar, keyfiyyət və səmərəlilik baxımından, həm də dəqiq informasiyanın, rəqəmlərin, nəticələrin əldə edilməsi üçün konkret yanaşmaları əlavə edir, lazımsızları aradan qaldırırlar. Buna görə də cəmiyyətdə, mühitdə baş verən hadisələrin məzmun və mahiyyəti dəyişdikcə, yeni yanaşmaların seçilməsi, yeni metodlardan istifadənin rəqəmsallıq çərçivəsində həyata keçirilməsi aktuallıq kəsb edir. Bu baxımdan ölkəmizdə elmi təfəkkürlü, hərtərəfli bilik, bacarıq, vərdişlərə malik, ən müasir texnologiya zəmnində fəaliyyət göstərə biləcək sosial işçi kadrların və bu sahədə elmi araşdırmaların aparılmasına dövlətimiz tərəfindən yüksək qayğı, diqqət göstərilməkdədir.

*Əliyev Şakir Rüstəm oğlu, dosent,*
*Əliyeva Gülnarə Nurəddin qızı, baş müəllim,*
*Əsgərova Radə İsfəndiyar qızı, assistent,*
*Azərbaycan Texnologiya Universiteti*

# AZƏRBAYCAN XALÇAÇILIQ SƏNƏTİNDƏ ORNAMENTAL KOMPOZİSİYALARIN İNKİŞAFI

Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim sahələrindən biri hesab edilir. Azərbaycan xalqının mənəvi dünyasını, gözəllik duyumunu, fitri istedadını, dünya fəlsəfi baxışlarını sirli naxışlarda yaşadan Azərbaycan xalça sənətinin qədim tarixi vardır.

Elmi mənbələrə əsasən e.ə. II minilliyə aid edilən xalça sənətinin Azərbaycan ərazisində geniş yayılmasına və inkişaf etməsinə səbəb bu ərazidə olan əlverişli coğrafi – iqlim şəraiti və müvafiq təsərrüfat fəaliyyəti olmuşdur.

Yarandığı ilkin dövrlərdə tələbatı ödəyən, yəni köçmə həyat tərzi keçirən insanların çadırlarında örtük, döşənək, pərdə kimi istifadə edilən xalça getdikcə yüksək bədii əhəmiyyət kəsb etmiş, insanların estetik ehtiyacına cavab vermiş, onların həyatını ayrılmaz hissəsi, istehsal fəaliyyətlərinin aparıcı növü olmuşdur.

Azərbaycanda xalçaçılığın keçdiyi inkişaf yolu dörd əsas və ardıcıl dövrə bölünür. Birinci dövr xalça sənətinin ibtidai dövrüdür. Bu dövrdə toxunan xalça məmulatı bəzəksiz, saya yerli və bir rəngli olurdu.

İkinci dövr xalça sənətinin texniki və başlıca olaraq, bədii cəhətdən inkişafının ilk dövrüdür. Bu dövrdə sadə dolama texnikası ilə əmələ gələn kilim toxuma üsulu inkişaf edir. Bu texnikanın meydana gəlməsi xalçaların üzərində ibtidai formalarda sadə naxışlar toxumağa imkan yaratmışdır.

Üçüncü dövr vərni, şəddə, zili, sumax, ladı toxuma üsulunun meydana gəlməsi dövrüdür. Mürəkkəb dolama texnikasının çox geniş yayıldığı bu dövrdə xalça bəzəyinin mürəkkəbləşməsi və müxtəlif ölçülü naxış elementlərinin inkişafı üçün geniş imkanlar yaranmışdır.

Ümumiyyətlə, xalça məmulatlarının özünəməxsus ornamentləri olur. Bu ornamentlər palaz zolaqları, kilimlərə xas olan klassik elementlər, şəddə və vərni elementləri, zili, ladı, sumax elementləri adı altında birləşərək bir – birindən fərqlənir.

Xalça toxuma sənətinin dördüncü dövrü düyünləmə, yəni əvvəllər dolama ilmə, sonralar isə qullabı ilmə texnikası ilə əmələ gələn xovlu xalça toxuma üsulunun inkişaf etdiyi dövrüdür. Bu dövr istər texniki, istərsə də bədii cəhətdən xalça sənətinin yüksək inkişaf dövrü hesab edilir. Hələ eramızdan əvvəl tətbiq olunan ilmə düyün texnikası, bütün başqa üsüllardan fərqli olaraq, mürəkkəb kompozisiyaların tətbiq edilməsinə imkan yaratmışdır.

Azərbaycan xalçası tarixən ixrac məhsulu olmuşdur. Təsadüfi deyildir ki, intibah dövrünün İtaliya, Holland, Flamand rəssamlarından Hans Mamlingin "Məryəm körpəsi ilə", Karlo Krivellonun "Müjdə", Hans Holbeynin "Elçilər" tablolarında Qarabağ, Gəncə, Qazax xalçalarının təsviri verilmişdir.

Azərbaycan xalçaları sənət sahəsi kimi naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür: Quba xalçaçılıq məktəbi; Şirvan xalçaçılıq məktəbi; Gəncə xalçaçılıq məktəbi; Qazax xalçaçılıq məktəbi; Qarabağ xalçaçılıq məktəbi; Təbriz xalçaçılıq məktəbi; Abşeron xalçaçılıq məktəbi.

Quba xalçaları geniş naxış müxtəlifliyi ilə fərqlənirlər. Onların ornamentlərinin böyük əksəriyyəti üslublaşdırılmış coğrafi və bitki motivləri ilə xarakterizə olunur. Qonaq kənd və Dəvəçi rayonları daxil olmaqla 35 - ə yaxın ornament kompozisiyalı xalçaları əhatə edir. Quba xalçalarının bəzəyinin həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzək isə heyvan motivləri təşkil edir. Quba xalçalarının ən parlaq kompozisiyalarına "Qədim – Minarə xalçası", "Qımıl xalçası" , "Alpan xalçası", "Hacıqayıb xalçası", "Qırız xalçası" və s.

"Şirvan xalçaları" mürəkkəb təsvirləriylə və çoxlu miqdarda insan, quş, məişət təsvirləri ilə xarakterizə olunur. Bu məktəb özündə 25 kompozisiya cəmləşdirir. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur. Şirvan qrupuna "Mərəzə xalçası", "Qobustan xalçası", "Kürdəmir xalçası", "Hacıqabul xalçası " və s. kompozisiyalar daxildir.

Gəncə hələ X – XI yüzülliklərdə ipək xalçalarının istehsal mərkəzi kimi tanınmışdır. Əsrlər boyu yüksək keyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xüsusi xalça emalatxanaları olmuşdur. Gəncə xalça məktəbinə "Gəncə xalçası", "Qədim Gəncə xalçası", "Samux xalçası", "Fəxralı xalçası", "Çaylı xalçası" və kompozisiyalar daxildir.

Gəncə qrupuna daxil olan "Fəxralı" namazlıq xalçası öz yüksək bədii xüsusiyyətinə, toxunuşuna görə digər xalça kompozisiyalarından fərqlənir.

Qazax xalçaçılıq məktəbinə Qazax, Gürcüstan ərazisindəki azərbaycanlılar yaşayan Borçalı və 1988 – ci ilə qədər azərbaycanlıların tarixi yaşayış məskəni olan ərazidə Göyçə xalçaçılıq mərkəzləri aiddir. Göyçə xalçaçılıq mərkəzini Bəmbak, Səmbəli, İçevan, Qaraqoyunlu və Göyçə gölü ətrafındakı ərazi əhatə edir. Qazax qrupuna "Şıxlı xalçası", "Qaraqoyunlu xalçası", "Dəmirçilər xalçası", "Kəmərli xalçaları", "Göyçəli xalçaları" və s. çeşnili xalçalar daxildir.

Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Qarabağ xalçaları həyat eşqi və parlaq kaloriti ilə seçilirlər. Onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıq və süjetli. "Bağçagüllər xalçası", "Balıq xalçası", "Şəmbəran xalçası", "Muğan xalçası", "Xanlıq xalçası" və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi Şuşada cəmlənmişdir. Şuşada klassik çeşnili xalçalarla yanaşı, yeni xalça kompozisiyaları "Bağçadagüllər xalçası", "Buta xalçası" və s. çeşnilər toxunurdu. Qarabağ xalçalarının rəng – boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərini ən zərif çalarlarını özündə əks etdirir.

Təbriz xalçaçılıq məktəbi Azərbaycanın ən qədim və məşhur xalçaçılıq məktəbidir. Öz kompozisiya tələbatına süjetlərin təsvirinə, parçanın koloritinə və texnologiyasına görə Cənubi Azərbaycan xalçaları XVI əsrdə Təbriz məktəbinin yüksək tərəqqisi dövründə dekorativ tətbiqi sənətin həmin məktəbə xas ənənələrinin inkişafına dəlalət edir. Bu xalçalarda klassik dövrün miniatür rəngkarlığının təsiri hələ də duyulur.

Azərbaycan xalçaları nəinki Qərbi Avropa ölkələrində (İtalya, Fransa, İngiltərə və s.) hətta Rusiyada da məşhur idi.

Heç təsadüfi deyil ki, XVI – XVII əsrin rus arxiv sənədləri arasında 1684 və 1688 – ci illərdə Şamaxıdan Rusiyaya satışa göndərilmiş bir çox xalçaların adlarına rast gəlinir. XVI – XVII əsr Azərbaycan xalçaları məzmun etibarı ilə də rəngarəng və mürəkkəb olmuşdur. Onların üzərində insan, heyvan rəsmləri, gül – çiçək naxışları ilə yanaşı, əsl mənada real səpgidə toxunmuş süjetli kompozisiyalara da rast gəlirik. Bu

əsrdə Azərbaycan Xalçalarında dövrün ən çox yayılmış bəzək ünsürlərindən olan nəbati ornamentlərindən istifadə olunmuşdur. Gül – çiçək, budaq, ağac ünsürlərinin birləşməsindən əmələ gələn ornamentlər xalça üzərində nisbətən səthi üslubda verilsə də, burada dövrün ənənəvi nəbati bəzəklərindən olan sərv, nar, ərik ağaclarının, lalə, qızılgül, qərənfil, nərgiz və s. güllərin təsvirlərini asanlıqla seçə bilirik.

Xalça üzərində, adətən ahənglə qurulmuş nəbati ornamentlərdə budaqlar əsas ana xətti, onların üzərində yerləşən gül, çiçək və yarpaqlar isə əlavə ünsürləri təşkil edirdi.

Bu dövrün ornamental xalçaları arasında 1530 – cu ildə Ərdəbildə Şeyx Səfi məscidi üçün toxunmuş və hazırda Nyu – Yorkda Metropoliten müzeyində saxlanan xalını 1539 – cu ildə Təbrizdə yenə həmin məscid üçün toxunmuş və indi Londondakı Viktoriya və Albert müzeyində saxlanılan xalını göstərmək olar.

Azərbaycanın Şirvan, Qarabağ, Gəncə, Qazax və s. yerlərində toxunan xalçalar ornamentlərinin məzmunu etibarı ilə Cənubi Azərbaycanın "Şeyx Səfi" tipli ornamental xalçasına oxşasa da, üslub xüsusiyyətlərinə görə onlardan fərqlənir.

XVII əsrdə Şirvanda toxunmuş və hazırda Amerikanın Pensilvaniya müzeyində saxlanılan xalça stilizə olunmuş nəbati ornamentlərlə bəzədilmiş, xalçanın ara sahəsində xalça boyu üç cərgə iti dilimlərlə olan uzun sxematik rəsmlər verilmişdir. Rəsmlərin hər birinin yuxarı hissəsində qarşı – qarşıya duran iki üçbucağa bənzər xətt vardır. Diqqətlə baxdıqda bu rəsmlərin dekorativ tətbiqi sənətimizdə geniş yayılmış ənənəvi bəzək elementləri olduğunu görərik. Buradakı ornament motivləri hətta kompozisiya üslubları Təbriz, Ərdəbil xalçaları üçün də səciyyəvidir.

XVI – XVII əsrlərdə Azərbaycanda yüksək səviyyəli ornamental xalçalarla yanaşı, bədii xarakter daşıyan süjetli xalçalar da toxunurdu. Bunlardan "ovçuluq" adı ilə məşhur olan müxtəlif kompozisiyalı xalçaları, məişət sahələrini, klassik Şərq poemalarından götürülmüş epizodları göstərmək olar.

Budapeşt dekorativ – sənətlər müzeyində saxlanılan XVI əsr xalça fraqmentlərinin süjetli rəsmləri daha mürəkkəbdir.

Xalçanın yeləni onun ara sahəsində rast gəlinən rənglər vəhdətində yarpaq, çiçək və qıvrım budaq rəsmlərindən təşkil edilmişdir. Şərq aləmində geniş yayılmış "İslami" ornament kompozisiyası əsasında qurulmuş bu nəbati bəzəklər xalçaya xüsusi bir gözəllik verir.

Hal – hazırda Gürcüstan Dövlət incəsənət müzeyində saxlanılan XVII əsrdə Qarabağda toxunmuş şəddədə qeyd olunan rəmzi mahiyyətli bəzək ünsürlərinin əksəriyyətinə rast gəlirik. Quş, it, dəvə, at və rəmzi mahiyyətli ornament motivləri ilə bəzədilmiş XVII əsr xovsuz xalça nümunəsi bizim üçün xüsusi ilə maraqlıdır, çünki eyni kompozisiyalı şəddələrə sonrakı əsrlərdə də təsadüf edilir. Araşdırmalar göstərir ki, el sənətimizin başqa növləri kimi xalçaçılıq sənəti də qədim əsrlərdə çox zəngin bir inkişaf yolu keçmişdir və bu inkişaf yolunda hər zamanın özünə məxsus ornamentləri ilə məşhurdur.

## Ədəbiyyat siyahısı:


1. Kərimov L. "Azərbaycan xalçası", Bakı , 1961
2. Буткевич Л.М. «История орнамента» Москва, 2008
3. Степанова А.П. «Теория орнамента». Ростов на- Дону, 2011
4. Rasim Ə. "Azərbaycan dekorativ – tətbiqi sənətləri" Bakı, 1976
5. Vidadi V. "Azərbaycan xalçaçılıq sənəti" Bakı, 2013

*Axundova Nigar Rəşid qızı,*
*tarix elmləri namizədi, dosent;*
*Şirəliyeva Gülnarə Rəfail qızı,*
*tarix üzrə fəlsəfə doktoru,*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

# İCTİMAİ İŞDƏ MƏDƏNİYYƏT APARICILARI OLAN BƏDİİ ZİYALILARIN ROLU
## (Heydər Əliyev Fondunun nümunəsində)

İctimai iş peşəkar fəaliyyətdir. Onun əsas məqsədi ayrı-ayrı şəxslərə, sosial qruplara, şəxsi və sosial çətinliklərin öhdəsindən gəlməyə kömək etməkdir. Bu kömək sosial yardıma ehtiyacı olan insanlara dəstək, onların müdafiəsi, reabilitasiyası yolu ilə həyata keçirilir. Bu gün müxtəlif fondlar və sosial iş üzrə mütəxəssislər tərəfindən sosial qrupların müdafiəsi üçün hazırlanmış yeni formalar mövcuddur.

Bu mütəxəssislərin, fondların əsas işi maddi və mənəvi köməyə ehtiyacı olanlara yardım etməkdir (əlillərə, tənhalara, yetim uşaqlara, xəstələrə, habelə əhalinin maddi köməyə ehtiyacı olan hissəsinə).

Biz mədəniyyətin, bədii yaradıcı təfəkkürlü ziyalıların inkişafı məsələsinə toxunacağıq və Heydər Əliyev Fondunun mədəniyyətin inkişafındakı rolu haqqında məlumat verəcəyik.

Fəaliyyət və məqsədləri kifayət qədər geniş olan, ictimai həyatın demək olar ki, bütün sahələrini əhatə edən, humanitar-mədəni tərəqqiyə xidmət edən, xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və dünyada təbliği istiqamətində mühüm işlər görən Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi dövr ərzində Azərbaycanın mədəni-mənəvi inkişafının mühüm amilinə çevrilmişdir. Milli mədəniyyətimizin hamısı rolunda çıxış edən Fond mühüm ictimai-humanitar Mərkəz kimi bu günə qədər xalqımızın mənəvi-mədəni yüksəlişinə xidmət edən bir çox möhtəşəm layihə və proqramları uğurla həyata keçirmişdir. Fəaliyyət göstərdiyi müddətdə Fond Azərbaycanın hüdudlarından kənarda da milli mədəniyyətimizin, maddi və mənəvi sərvətlərimizin tanıdılması və təbliğində, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında da mühüm tədbirlər həyata keçirir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 mart 2004-cü il tarixli Fərmanında müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin Azərbaycan tarixindəki xidmətlərini nəzərə alaraq, onun xatirəsini əbədiləşdirmək məqsədi ilə həyata keçirilməsi planlaşdırılan kompleks tədbirlər sırasında ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması da nəzərdə tutulmuşdu.

2004-cü il mayın 10-da, Ulu Öndərin doğum günündə Bakı şəhərinin «Azneft» meydanında, Niyazi küçəsində milli-memarlıq üslubunda tikilmiş binada Heydər Əliyev Fondunun açılış mərasimi oldu. Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fondun məqsədlərindən danışarkən bildirmişdi ki, Heydər Əliyev Fondu xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir.

Heydər Əliyev Fondu ictimai təşkilatdır və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti istiqamətlərindən birini də mədəniyyətlə bağlı layihə və proqramların hazırlanaraq həyata keçirilməsi təşkil edir. Bu məqsədlə Fondun strukturunda Humanitar Proqramlar Departamenti, Departamentin tərkibində isə Mədəniyyət və Turizm Şöbəsi fəaliyyət göstərir. Fondun digər struktur bölmələri, o cümlədən Beynəlxalq əlaqələr departamenti Fondun beynəlxalq təşkilatlarla, MDB ölkələri və digər xarici ölkələrlə mədəni əməkdaşlığının qurulmasında və inkişaf etdirilməsində fəal iştirak edirlər.

Fond fəaliyyəti dövründə Milli liderimizin Azərbaycanın mədəni tərəqqisi, sivil dünyaya inteqrasiyası, xalqın mənəvi dəyərlərinin qorunması naminə müəyyən etdiyi ideyaların reallaşmasına daim dəstək vermişdir.

Fondun ilk addımlarından biri zəngin mədəniyyətimizin mühüm sahəsini təşkil edən musiqi irsinin qorunması və təbliği ilə bağlı olmuşdur. Azərbaycanın əsrarəngiz muğam sənətinin inkişaf etdirilməsi sahəsində Fondun həyata keçirdiyi təşəbbüs və layihələr qədim musiqi sənətin daha da populyarlaşmasına imkan yaratmışdır.

Fondun Prezidenti Mehriban xanım Əliyeva Azərbaycan xalqının milli musiqi irsinin yaşadılması və təbliği işini canlandırmaq məqsədilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması təşəbbüsü ilə çıxış etmişdi. 2005-ci il fevralın 2-də Heydər Əliyev Fondunda Azərbaycan muğamları ilə bağlı layihələrin təqdimatı keçirildi. Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında təşəbbüsləri dəstəkləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı 2005-ci il aprelin 6-da xüsusi Sərəncam imzaladı. Sərəncamda muğam Azərbaycan xalqının mədəni-mənəvi irsinin möhtəşəm abidəsi kimi qeyd olunur, zəngin fəlsəfi və ədəbi zəmində təşəkkül tapmış Azərbaycan musiqisinin muğamsız təsəvvür etməyin mümkün olmadığı vurğulanırdı. 2005-ci il avqustun 24-də Dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu. Mərasimdə ölkə Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyeva, UNESCO-nun Baş direktoru K.Matsuura və başqa qonaqlar iştirak etmişdi.

Ən müasir texnologiyalarla tikilmiş Beynəlxalq Muğam Mərkəzinin 2008-ci il dekabrın 27-də açılışı oldu. Beynəlxalq Muğam Mərkəzinin binasının forması Azərbaycanın qədim musiqi aləti tarın hissələrini xatırladır. Beynəlxalq Muğam Mərkəzinin istifadəyə verilməsi muğam sənətinin inkişaf etdirilməsi, beynəlxalq səviyyədə təbliği, bütövlükdə Azərbaycan mədəniyyətinin, musiqisinin tanıdılması istiqamətində mühüm rol oynadı. Beynəlxalq Muğam Mərkəzində keçirilən ilk tədbirlərdən biri 2009-cu il martın 18-25-də Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin, Respublika Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə «Muğam aləmi» Beynəlxalq Muğam Festivalı keçirildi. Beynəlxalq Muğam festivalının rəsmi açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etmiş, festivalın əhəmiyyətindən danışmışdır. Azərbaycanı muğamsız, muğamı isə Azərbaycansız təsəvvür etməyin mümkün olmadığını vurğulayan Prezident, Azərbaycanda muğam festivalının ənənəyə çevriləcəyini ümid etdiyini bildirmişdi.

11 ölkədən 20 gənc muğam ifaçısının iştirak etdiyi Beynəlxalq Muğam müsabiqəsi əsil incəsənət hadisəsinə çevrilmiş və bütün dünyada böyük əks-səda doğurmuşdu.

Festival çərçivəsində keçirilmiş tədbirlər sırasında Muğam sənətinə həsr edilmiş beynəlxalq elmi simpoziumu xüsusi qeyd etmək lazımdır. Simpoziumda çıxış edən Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva bu tədbirin keçirilməsini muğam sənətinin inkişafında yeni bir mərhələnin başlanğıcı olacağına əminliyini bildirmiş və qeyd etmişdi ki, bu simpozium muğamın təkcə Azərbaycan mədəniyyəti və elmi kimi yox, bütün dünya musiqi ictimaiyyəti üçün nə qədər dəyərli, nə qədər maraqlı olduğunun göstəricisidir. Mehriban xanım muğamı, muğam sənətini milli sərvətimiz adlandıraraq, bu sənət növünün Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərinin daşıyıcısı olduğunu bildirmişdir.

Muğam aləmi Beynəlxalq elmi simpoziumunda 17 ölkədən 80 məruzə dinlənilmişdi.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2005-ci ildən «Azərbaycan muğamları» layihəsi çərçivəsində «Qarabağ xanəndələri» musiqi albomunun hazırlanması, albomu YUNESCO mənzil qərargahında təqdimatının keçirilməsi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından müstəsna əhəmiyyət kəsb edirdi. Əslində muğam albomuna bu adın verilməsi təsadüfi deyildi. Mehriban Əliyeva 2005-ci il aprelin 8-də Albomun Bakıda keçirilmiş təqdimat mərasimində çıxışında göstərmişdi ki, təsadüfi deyil ki, Fondun ilk layihəsi Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsi ilə bütün dünyaya çatdırırıq. Qeyd olunan albomda əslən Qarabağdan olan 24 muğam sənətkarının ifaları daxil edilmişdi. Fond bunun ardınca Azərbaycan muğamlarına həsr edilmiş "Muğam Ensiklopediyası"nın elektron və kitab variantlarını nəşr etmiş, muğam jurnalını təsis etmiş, «Muğam Antologiyası» çərçivəsində S.Ürməvinin «Şərəfiyyə risaləsi», «Kitabi-ədvar», F.Şirvaninin «Musiqi məcəlləsi» əsərlərini çap etdirmişdi.

Heydər Əliyev Fondunun Muğam sənətinin qorunub saxlanılmasına, gələcək nəsillərə çatdırılmasına xidmət edən layihələrindən biri də gənc muğam ifaçılarının respublika müsabiqələrinin keçirilməsidir. 2005-ci ildən başlayaraq mütəmadi keçirilən muğam müsabiqələrində ölkənin bütün regionlarından gənc ifaçılar iştirak edir. Muğam müsabiqələrinin keçirilməsi gənc istedadların üzə çıxarılması, gənc nəslə muğam sənətinin sevdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Muğam müsabiqəsinin laureatları qısa müddətdə öz ifaları ilə muğamsevərlərin böyük rəğbətini qazanmış, onların bir çoxu müxtəlif mükafatlara, fəxri adlara layiq görülmüşlər.

Muğam sənətinə Fondun göstərdiyi diqqətin mühüm təzahürlərindən biri də 2009-cu ildə bu qədim sənətin inkişaf tarixindən, muğamın ifa olunduğu musiqi alətlərindən, milli muğam formalarından bəhs edən multimedia disklərinin hazırlanmasıdır. 2008-ci ildə Heydər Əliyev Fondu Azərbaycan musiqi sənətinin görkəmli nümayəndələri A.Babayevin, R.Babayevin, Ə.Məmmədovun yaradıcılığından bəhs edən musiqi albomları hazırlamışdır. Həmin albomlara sənətkarların həyat və yaradıcılığına həsr edilmiş kitablar, onların ifasında musiqi, mahnılar və videoyazılardan ibarət SD-lər daxil edilmişdir. Həmin ildə Fondun dəstəyi ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan cizgi filmləri toplusu da hazırlanmışdır.

Heydər Əliyev Fondunun ən böyük layihələrindən biri də 2009-cu ildən başlayaraq hər il keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalıdır. Artıq ənənə halını almış festival beynəlxalq miqyasda böyük marağa səbəb olmuşdur. Dünya səviyyəli mədəniyyət tədbirləri sırasında duran Qəbələ Beynəlxalq Musiqi Festivalı ölkəmizi dün-

yanın mədəniyyət mərkəzlərindən birinə çevirmişdir. Festival Azərbaycan milli musiqisinin nadir incilərinin, klassik musiqi müəlliflərinin əsərlərinin dünyaya tanıdılmasında mühüm rola malikdir. Ölkəmiz, onun zəngin mədəniyyəti haqqında dünyada dolğun təsəvvürlərin formalaşması baxımından da bu tədbir mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biri də kitab nəşridir. Bu sahədə əsas məqsədlər sırasında nəşr olunan kitablar vasitəsilə Azərbaycan, Qarabağ münaqişəsi haqqında həqiqətlərin xarici ölkə oxucularının diqqətinə çatdırmaqdan ibarətdir. Bu baxımdan Fondun təşəbbüsü və dəstəyi ilə rus və ingilis dillərində nəşr olunmuş «Qarabağ həqiqətləri» toplusu mühüm əhəmiyyət kəsb edir. Topluda Qarabağın tarixi, Qarabağa dair erməni iddialarının əsassızlığı, Qarabağ münaqişəsinin kökləri, erməni silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı faciəsi, Azərbaycana qarşı erməni təcavüzünün nəticələri haqqında məlumatlar öz əksini tapmışdır. «Qarabağ həqiqətləri» silsiləsinin davamı olaraq Fond 2007-ci ildə «Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması» adlı toplu da nəşr etdirmişdir. Kitabda Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın mədəni sərvətlərinə ziyan, məhv edilmiş tarixi və mədəni abidələr haqqında məlumatlar öz əksini tapmışdır. Kitabdakı fotoşəkillər, ona əlavə olunmuş film və multimediya diski erməni təcavüzkarlığının nəticələri haqqında aydın təsəvvür yaratmağa imkan verir.

Azərbaycan, ingilis, rus dillərində nəşr edilən «Şuşa qrafika» kitabında hazırda ermənilərin işğalı altında olan qədim Azərbaycan şəhəri Şuşanın tarixi, abidələri haqqında məlumatlar toplanılmışdır.

Fond həmçinin Azərbaycanın görkəmli yazıçı və şairlərinin, elm, mədəniyyət xadimlərinin əsərlərini xarici dillərə tərcümə edilərək nəşrini həyata keçirir, eləcə də xarici ölkə müəlliflərinin əsərlərinin nəşrinə yardım göstərir. Bu layihə çərçivəsində məşhur şərqşünas A.İmanquliyevanın «Yeni ərəb ədəbiyyatının korifeyləri», rus yazıçısı və tarixçisi R.İvanovun «Bəyazidin müdafiəsi: həqiqət və yalan», «Əlahəzrətin general-adyutantı», N.Tusinin «Əxlaqi-Nasiri», S.Fredrik Star və Svant E.Kornellinin «Bakı-Tbilisi-Ceyhan boru kəməri», «Qərbə açılan neft pəncərəsi» və başqa kitabları göstərmək olar.

Fond Azərbaycan xalqının qədim tarixə malik zəngin maddi-mədəni irsinin qorunub saxlanılması, tanıdılması ilə bağlı çoxşaxəli işlər aparır. Heydər Əliyev Fondu Azərbaycan ərazisində tarixi, dini və mədəniyyət abidələrinin üzə çıxarılması, bərpası və yenidən qurulması, muzeylərin əsaslı təmiri və onların yeni eksponatlarla zənginləşdirilməsi kimi nəcib işlərə də hamilik edir. 2005-ci ildən başlayaraq Fondun dəstəyi ilə Bakıda və Azərbaycanın müxtəlif regionlarında yeni mədəniyyət ocaqları yaradılmış, mövcud binalarda təmir işləri aparılmış, yenidən qurulmuşdur. 2009-cu ildə Fondun təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyinin açılması Azərbaycanın mədəni həyatında mühüm hadisəyə çevrilmişdi. Muzeydə Azərbaycanın avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 800-dən çox işi toplanmışdır. Onlardan Cavad Mircavadov, Rasim Babayev, Toğrul Nərimanbəyov, Altay Sadıqzadə, Hüseyn Haqverdiyev, Əliyar Əlimirzəyev, Namiq Məmmədov, Əli İbadullayev, Müseyib Əmirov, Mikayıl Əbdürrəhmanov, Zakir Hüseynov, Natiq Əliyev, Akif Əsgərov, Tokay Məmmədov və bir çox başqa rəssam və heykəltəraşların əsərləri nümayiş olunur.

2008-ci ildə Fondun dəstəyi ilə Qala Dövlət Tarix-Etnoqrafiya qoruğu yenidən qurulmuş, burada açıq səma altında Arxeoloji-Etnoqrafiya Muzey Kompleksi yaradıl-

mışdır. Kompleksdə Abşeron yarımadası ərazisində tapılmış arxeoloji materiallar, qayaüstü rəsmlər, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları yerləşdirilmişdir.

Suraxanı rayonu ərazisindəki dini tarixi abidələr (Pirhəsən ziyarətgahı, Möhsün Səlim, Buzovna Cümə məscidləri və s.), Gəncədə Həzrəti Zeynəb Məscidi, Cavad xanın, Comərd Qəssabın məzarları və məzarüstü türbələri əsaslı təmir edilmişdir. Bakıda A.Şaiqin ev muzeyi təmir edilmiş, Mərdəkanda H.Z.Tağıyevin, Tiflisdə M.F.Axundovun, M.Ş.Vazehin, H.B.Ağayevin, F.X.Xoyskinin qəbirüstü abidələri də yenidən qurulmuşdur.

Heydər Əliyev Fondu ideoloji-humanitar mərkəz kimi fəaliyyətə başladığı ilk gündən bu günümüzədək mədəni-intellektual dəyərlərimizin hamısı rolunu şərəflə oynamaqla yanaşı, ölkəmizin sərhədlərini aşaraq dünyada Azərbaycan haqqında obyektiv fikrin formalaşmasında, mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyasında mədəni dialoqda dövlətimizin fəal iştirak etməsində məhsuldar fəaliyyətini bu gün də davam etdirir.

*Məlikov Emin Nazir oğlu,*
*tarix üzrə fəlsəfə doktoru,*
*AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutu*

## AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNİN İQTİSADİ İNKİŞAFI VƏ SAHİBKARLIQ MÜHİTİNİN FORMALAŞDIRILMASI (2003-2018-ci illər)

Ölkədə sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsi sahəsində həyata keçirilən uğurlu siyasətdir. Sahibkarlığın inkişaf etdirilməsi məqsədilə qanunvericilik bazası təkmilləşdirilmiş, yerli və xarici investorlar cəlb edilmiş, müasir texnologiyalardan istifadə etməklə regionlarda biznes mühiti yaxşılaşdırılmışdır. Ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində ümumdaxili məhsul 2004-cü ilin birinci yarısında 10,6 faiz, onun adambaşına düşən həcmi isə 9,7 faiz artmışdır. 2004-cü ilin 6 ayı ərzində əhalinin nominal gəlirlərində 18,7 faiz artım müşahidə olunmuşdur. Ümumi olaraq respublika üzrə 2004-cü ilin ilk 6 ayı ərzində əmək haqqının səviyyəsi 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 19,4 faiz artmışdır (1). Ölkə Prezidenti İlham Əliyev cənub bölgəsinə səfəri çərçivəsində çıxışında demişdir: «Mən bu gün Astarada, Lənkəranda, Masallıda və Cəlilabadda olarkən çox sevinc hissi keçirirəm. Sevinirəm ki, Azərbaycan inkişaf edir, yeni iş yerləri açılır, yeni müəssisələr fəaliyyət göstərir. Ölkəmizdə istehsal olunmuş mallar digər ölkələrə ixrac olunur. Biz də bunu istəyirik» (2). Bölgədə sahibkarlığın inkişa-fına göstərilən dövlət dəstəyi ilə yeni iş yerlərinin açılması prosesi sürətlənmişdir. 2005-ci ildə "Sahibkalığa Kömək Milli Fondunun" vəsaitləri hesabına Respublikanın Cənub-Şərq bölgəsində sahibkarlığın inkişafı istiqamətində 180-dən çox layihəyə 24 milyard manatdan artıq güzəştli kreditlər verilmişdir. Bunun nəticəsində bölgədə 2500-dək yeni iş yerləri yaradılmışdır. 2005-ci ildə Lənkəran şəhərində İqtisadi İnkişaf Nazirliyi

tərəfindən keçirilən biznes forumda Lənkəran, Astara və Lerik rayonlarının sahibkarlarına ümumilikdə 2,5 milyard manatdan çox güzəştli kredit verilmişdir. Bununla Lənkəran rayonunda «Turkan» və «Dalğa» MMC-lər turizmin inkişafı, «Kamran-Fermer» MMC ət və süd məhsulları istehsalı, «Optimal» MMC meyvə-tərəvəz konservləri istehsalı, Astara rayonunda fəaliyyət göstərən «Əli» MMC əkinçiliyi və heyvandarlığın inkişafı məqsədilə kreditlə təmin edilmişlər. Nəticədə bu rayonlarda daha 350 yeni iş yeri açılmışdır (3). 2005-ci ildə Lənkəran rayonunda sahibkarlıqla məşğul olan 19 müəssisə özəlləşdirilmiş, həmin müəssisələrdən 12-si ticarət, 4-ü sənaye, 1-i iaşə,1-i kommunal xidmət müəssisəsi olmuşdur. Rayonda 660 sahibkarlıq subyekti qeydiyyata alınmış, onların 274-ü məişət, 192-si ticarət, 45-i sənaye, 149-u aqrar və digər sahələrlə məşğul olmuşdur. 2005-ci ildə Lənkəran rayonunda sahibkarlıqla məşğul olan 7 Səhmdar Cəmiyyət tərəfindən 184 min manatlıq məhsul istehsal edilmişdir (4). 2005-ci ildə Masallı şəhərində keçirilən biznes forumda Cəlilabad rayonunda fəaliyyət göstərən «Həziabad» istehsal kooperativi, «Səadət» və «Tural» MMC-lərə güzəştli kredit ayrılmışdır. Kredit hesabına heyvandarlıq və əkinçilikin inkişaf etmiş və rayonda 150-dək yeni iş yerləri yaradılmışdır. Bununla yanaşı Masallı rayonundakı «EMBAWOOD» MMC-yə, «Nur-M» SC-tinə, «Dastvənd» mehmanxana kompleksinə, «İstisu Fatmeyi-Zəhra» sanatoriyasının genişləndirilməsinə, Yardımlı rayonunda yeni kəndli-fermer təsərrüfatlarına və un dəyirmanı «İznur» MMC-nin nəzdində aqrotexniki xidmət müəssisəsinə güzəştli kredit verilmişdir. Birinci Dövlət Proqramına uyğun olaraq Masallı və Yardımlı rayonlarında 40-dan çox layihəyə 7 milyard manata yaxın kredit ayrılmış və bunun nəticəsində 600-dən artıq iş yeri açılmışdır (5).Yardımlı rayonunda Kənd Təsərrüfatının inkişafı və kreditləşdirilməsi layihəsi üzrə kəndli fermerlərə və torpaq mülkiyyətçilərinə heyvandarlığın inkişaf etdirilməsi üçün 267100 manat kredit verilmişdir (6, s. 33). Kredit hesabına bölgədə sahibkarlığın inkişafı sürətlənmiş və yeni müəssisələr yaradılmışdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) uğurlu həyata keçirilməsi nəticəsində ilə ölkədə yeni iş yerləri, yeni müəssisələrin yaradılması və qeyri-neft sektorunun inkişafı təmin edilmişdir. Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi siyasət və sahibkarlığın inkişafı istiqamətində tədbirlər Beynəlxalq Təşkilatların hesabatlarında da yer almışdır. Belə ki, Dünya Bankı və Maliyyə Korporasiyası tərəfindən hazırlanan «Doing Business» 2008-ci il üçün hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində 181 ölkə arasında 33-cü pilləyə yüksəlmişdir. İqtisadi artım yüksəlişinə görə Azərbaycan bir nömrəli islahatçı ölkə elan edilmişdir. 2007-2010-cu illərdə Cəlilabad rayonunda yaradılmış yeni müəssisələr hesabına ayrı-ayrı sahələr üzrə 4782 yeni iş yeri yaradılmışdır ki, onun da 1003-ü daimi iş yerləridir. «İkinci Kənd Təşkilatı inkişafı və kreditləşdirilməsi layihəsi» üzrə rayonda fermerlərə və torpaq mülkiyyətçilərinə bitkiçiliyin inkişaf etdirilməsi üçün 84,38 min manat kredit ayrılmışdır (7, s. 237). Sahibkarlığın inkişafı məşğulluq probleminin həllində əsas rol oynamışdır. Belə ki, rayonda 917 nəfər iş axtaran kimi məşğulluq orqanlarında qeydiyyatdan keçmiş və onların 648-i işlə təmin edilmişdir. Kişilərlə yanaşı, qadınların da əmək bacarığında rəqabətqabiliyyətinin artırılması və onlar arasında sahibkarlığın inkişaf etdirilməsi sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində rayonda 57 sahibkar qadın qeydiyyata alınmışdır (8).

Astara şəhərində 2010-cu ildə bölgədə sahibkarlığın inkişafına dair tədbir keçirilmiş və burada 300-ə qədər sahibkar iştirak etmişdir. Bölgədə fəaliyyət göstərən sahibkarlara göstərilən dövlət qayğısı nəticəsində 72 kəndli fermer təsərrüfatı, «Ələddin» MMC tərəfindən yeni sitrus bağları, Siyakü kəndində soyuducu kamerası, 40-a qədər arıçılıqla məşğul olan təsərrüfatlar yaradılmışdır. Tədbir bölgədə sahibkarlığın inkişafına müsbət təsir göstərmişdir. Belə ki, bölgənin 36 sahibkarlıq subyektinə 420 min manat güzəştli kredit verilmiş və bununla 90 yeni iş yerinin yaradılması reallaşdırılmışdır (9). 2011-ci ildə rayonda əhalinin məşğulluğu sahəsində dövlət siyasəti uğurla yerinə yetirilmiş, 294 nəfər işlə təmin edilmişdir. Sahibkalığın bölgədə inkişafı nəticəsində «Masallı Dəmir-Beton» ASC, «Cavid-Ş» MMC, «A.D.İ.» MMC, «Avanqard» MMC və «Bismark Qida Sənaye» MMC-ləri yaradılmışdır ki, bunlar ölkə iqtisadiyyatının inkişafında mühüm rola malikdirlər. 2009-2013-cü illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq "Sahibkarlığa Kömək Milli Fondu" bölgədə sahibkarlığın inkişafına dəstəyin həyata keçirilməsi istiqamətində layihələrə güzəştli şəkildə investisiya qoyuluşunu təmin etmişdir. Belə ki, Fond tərəfindən 2010-cu il iyulun 30-da Masallı və Cəlilabad rayonlarında fəaliyyət göstərən 29 sahibkarlıq subyektinə 340 min manat güzəştli kredit verilmiş, bu da 50-dən çox yeni iş yerinin yaradılmasını təmin etmişdir (10). İkinci Dövlət Proqramının uğurla icra edilməsi Lerik rayonunda yeni iş yerlərinin açılmasını sürətləndirmişdir. Belə ki, 2004-2013-cü illər ərzində rayonda 9123 yeni iş yeri açılmış və bunun 40 faizindən çoxu daimi iş yerləridir (11). Rayonda Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti hesabına Piran kəndində quşçuluq fabriki və gündəlik gücü 12 min ədəd olan çörək zavodu fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisə və təşkilatlarda 68 nəfər işlə təmin edilmiş, mövcud müəssisə və təşkilatlarda 10 nəfər işlə təmin edilmişdir. Lerik rayonunda 2012-ci ildə 748, 2013-cü ildə isə 1203 yeni iş yerlər açılmışdır (12, s. 51). 2013-cü ildə Yardımlı rayonuna Sahibkarlara Kömək Milli Fondu tərəfindən 81, layihə üzrə 659 min manat güzəştli kredit verilmişdir. Dövlət tərəfindən göstərilən dəstək və qayğı nəticəsində sahibkarlıq fəaliyyəti daha da genişlənmişdir. 2013-cü ildə rayonda 233 fiziki və 34 hüquqi şəxs sahibkarlıq subyekti kimi qeydiyyatdan keçmiş, bununla da rayonda sahibkar subyektlərinin sayı 1628 olmuşdur ki, bu 2012-ci illə müqayisədə 1,2 dəfə çoxdur. Rayonun sahibkarlıq subyektləri tərəfindən 82 milyon 128 min manatlıq məhsul istehsal olunmuşdur ki, bu da istehsal olunmuş ümumi məhsulun 97 faizini təşkil edir. Bu nəticə 2003-cü illə müqayisədə 9,23 dəfə, 2012-ci illə müqayisədə 1,1 dəfə çoxdur (13).2014-cü ildə Cəlilabad rayonunda güzəştli kredit hesabına iri taxılçılıq təsərrüfatı yaradılmışdır. Üçüncü Dövlət Proqramının həyata keçirilməsi ilə rayonda sahibkarlıq subyektlərinin sayı artırılmışdır. Dünyada baş vermiş maliyyə böhranına baxmayaraq ölkədə sahibkarlıq subyektlərinə dövlət dəstəyi artmışdır. Belə ki, "Sahibkarlığa Kömək Milli Fondun" vəsaiti hesabına rayonda 127 nəfərə 5 milyon 700 min manat güzəştli kredit ayrılmışdır. Bunun nəticəsində rayonda 614 yeni iş yeri açılmışdır. Rayon məşğulluq mərkəzinə müraciət edən 337 nəfər müxtəlif təşkilatlarda işlə təmin edilmişdir. Sahibkarlığın inkişafı sayəsində bölgədə işçilərin əmək haqqında artım müşahidə olunmuşdur. 2014-cü ildə hər işçiyə düşən orta aylıq əmək haqqı 281 manat təşkil edib ki, bu da 2013-cü ildəkindən 15 manat çoxdur. Cəlilabad rayonunda «Rizvan» MMC kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən əsas məhsul istehsalçısı kimi bölgənin böyük sahibkarlıq subyektlərindən biri olmuşdur.

2016-cı ildə Lerik rayonunun Anbu kəndində “Sahibkarlığa Kömək Milli Fondu” tərəfindən sahibkarlığın inkişafı məqsədi ilə kredit yarmarkası keçirilmişdir. Fond tərəfindən 2002-2016-cı illər ərzində Lerik rayonu üzrə 264 sahibkara 15.1 milyon manat, o cümlədən 2016-cı ildə 36 sahibkara 312, 5 min manat güzəştli kredit verilmişdir. Sahibkarlığın inkişafı istiqamətində rayonda 1537 yeni iş yerinin açılması mümkün olmuşdur. Üçüncü Dövlət Proqramının icrası ilə bağlı ümumilikdə Lerik rayonunda 11191 yeni iş yeri açılmışdır. Bölgədə yaradılan yeni iş yerləri əhalinin sosial-rifahının yaxşılaşdırılmasına kömək göstərmiş, əhalinin iri şəhərlərə axınını qarşısını almışdır. İşsizliyin aradan qaldırılması məqsədilə görülən tədbirlər müsbət nəticəsini vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 mart tarixli Fərmanı ilə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə» də bir sıra dəyişikliklər edildi. Dəyişiklikdə bir daha sahibkarların hüquqlarının qorunması və müdafiəsi ölkə başçısı tərəfindən təsdiq edildi. 2017-ci il sentyabrın 29-da Lənkəran şəhərində sahibkarlıq subyektləri arasında stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi məqsədilə “Sahibkarlığa Kömək Milli Fondu” tərəfindən «Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə» dair keçirilmiş forumda çəltik və çay emalı müəssisələrinin yaradılması üçün güzəştli kreditlər verilmişdir. 2017-ci ilin 9 ayı ərzində “Sahibkarlığa Kömək Milli Fondunun” vəsaiti hesabına Lənkəran rayonu üzrə sənaye sahələrinin inkişafı ilə bağlı 2 investisiya layihəsinin maliyələşdirilməsinə 20 min manat güzəştli kredit vəsaiti ayrılmışdır. Sahibkarlıq subyektlərinə dövlətin dəstəyi bölgədə işsizliyin aradan qaldırılması və əhalinin sosial rifahının yaxşılaşdırılmasında əsas rol oynamışdır. 2017-ci ildə təkcə Astara rayonundan olan 113 sahibkar 3 milyon manat güzəştli kredit verilmiş, ümumilikdə Respublikanın Cənub-Şərq bölgəsində sahibkarlıq subyektlərinin sayı 3100-ə çatmış, investisiya layihəsinin icrasına isə 118,7 milyon manat kredit ayrılmışdır. Bu da bölgənin iqtisadi inkişafının əsas amili kimi Respublika iqtisadiyyatının möhkəmləndirilməsində mühüm rola malikdir.

2018-ci il yanvarın 30-da Astara şəhərində yerli sahibkarlara sahibkarlığın inkişafına həsr edilmiş tədbir keçirilmişdir. Burada ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasət sahibkarlığın bölgədə inkişafına şərait yaratması və Dövlət Proqramlarının tətbiqi ilə yeni iş yerlərinin açılması bir daha vurğulanmışdır. Azərbaycan Respublikası Prezidenti tərəfindən 2018-ci il 31 iyul tarixli «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında» Fərman imzalandı. Fərman ölkədə qeyri-neft sektorunun inkişafı, sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, yeni istehsal və emal müəssisələrinin yaradılmasını nəzərdə tutur.

Beləliklə, həyata keçirilən dövlət tədbirləri nəticəsində Respublikanın Cənub-Şərq bölgəsində sahibkarlığın inkişafı ilə əhalinin sosial rifahı yaxşılaşmış və yeni iş yerlərinin yaradılmasına şərait yaradılmışdır. Dövlət tərəfindən verilən maliyyə dəstəyi nəticəsində bölgədə iri sahibkarlıq subyektləri yaradılmış məhsul istehsalı artmışdır. Bu sahədə yaradılmış, qanunvericilik bazası sahibkarlıq fəaliyyətinin bölgədə inkişafına şərait yaratmışdır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin cari arxivi. 2004-cü il üçün Nazirliyin hesabatı.
2. Qalib Arif. Cəlilabadda sahibkarlıq fəaliyyəti genişlənir. / "Xalq qəzeti", 2005, 8 mart.
3. Bayramov Ə. Lənkəran İqtisadi rayonunda 16 mindən artıq yeni iş yeri açılıb. "Xalq qəzeti", 2005, 28 iyun.
4. Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi. Sosial-məsələlər şöbəsinin 2005-cii ildə gördüyü işlər barədə arayış.
5. Cəlilabad, Masallı və Yardımlı sahibkarları 34 milyard manatdan çox güzəştli kredit aldılar. "Azərbaycan" qəzeti. 2005, 26 iyun.
6. Regional inkişafın 2 ili naliyyətlər və perspektivlər. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi. Bakı: 2006, 157 s.
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər). Statistik məcmuə.Bakı,yanvar-2008,636 s.
8. Cəlilabad rayon İcra Hakimiyyətinin cari arxivi. «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı" nın (2007-2010-cu illər) icra vəziyyət ilə bağlı Cəlilabad rayonunda görülmüş işlər barədə məlumat.
9. Həsənov Əlisəfa. Astarada sahibkarlara güzəştli kreditlər verilmişdir. "Respublika" qəzeti. 2010, 26 sentyabr.
10. Sahibkaralara güzəştli kredit verilmişdir. "Yeni həyat" qəzeti. 2010, 9 avqust.
11. Lerik rayon İcra Hakimiyyətinin cari arxivi. 2013-cü il üçün rayon icra hakimiyyətinin illik hesabatı.
12. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Lerik rayonunun statistik göstəriciləri (2009-2013-cü illər). Lerik-2014, 74 səh.
13. Yardımlı rayon İcra Hakimiyyətinin cari arxivi. 2013-cü il üçün rayon icra hakimiyyətinin illik hesabatı.

*Ширалиева Гюльнара Рафаил кызы,*
*доктор философии по истории,*
*Институт истории им.А.А. Бакиханова НАН Азербайджана*

## ИЗ ИСТОРИИ РАЗВИТИЯ МЕЖДУНАРОДНОЙ ТОРГОВЛИ НА ПРИМЕРЕ ТЕХНИЧЕСКИХ КУЛЬТУР (XVIII ВЕК)

Выгодное геостратегическое положение Азербайджана издавна определяло его роль моста между Западом и Востоком. Как Каспийское море, так и проходившие через его территорию сухопутные пути, обеспечивали его ведущее место в международной торговле в XVIII в. Именно через азербайджанские города шли огромные потоки товаров в европейские и восточные страны, что было одним из важных факторов развития экономики Азербайджана. Пути, связываю-

щие Азербайджан с зарубежными странами, с торгово-промышленными центрами в них, а также земледельческими и скотоводческими районами, в свою очередь, определили приоритеты развития отраслей сельского хозяйства, включая и развитие технических культур. Технические культуры являются важным фактором в развитии международной торговли. Богатая почва Азербайджана создавала благоприятные условия для разведения таких культур, как хлопок, шафран, лен, кунжут и др. Особого внимания заслуживают, хлопок и шафран, т.к. они играли важную роль в быту местного населения. На огромных участках Мильской, Муганской и Ширванской степей благодаря каналам и архам, издавна проведенным от рек Араз и Кура жители Азербайджана выращивали хлопок.

Развитие хлопководства, прежде всего, было связано с развитием ткацкой промышленности. Неслучайно, что больше всего хлопок разводили в окрестностях крупных городов. Первые данные о возделывании хлопчатника в Азербайджане относятся к раннему средневековью. Основными центрами производства хлопка в этот период были Гянджа и Нахчыван, где производство хлопчатобумажных тканей достигло высокого уровня. Высококачественные гянджинские хлопчатобумажные ткани, удовлетворяли не только потребности местного населения, но и вывозились за границу. Особенно популярными были такие ткани, как «ал-гянджи» и «ал-кутни», производимые из местного сырья. В позднем средневековье экономическое значение хлопка еще больше возросло. В этот период его производство в Азербайджане носило повсеместный характер. Ценные сведения о развитии хлопководства в стране имеются в большинстве источников этого периода. Наиболее подробно описывает хлопководство в Азербайджане в своих путевых заметках турецкий путешественник Эвлия Челеби. Он утверждает, что на полях Ширвана, Хоя, Гянджи и Нахчывана возделывался хлопок в огромном количестве и семи сортов: заги, монлайи, заферани, лали, хасс, баяз и зери. По его данным можно утверждать, что разведением хлопчатника больше всего занимались в окрестностях таких городов как Гянджа, Шамаха, Тебриз, Нахчыван, Марага, Меренд и Баку. Эти области Азербайджана и в первой половине XVIII в. являлись основными центрами хлопководства. Однако глубокий экономический упадок, начавшийся в конце XVII в. в странах Ближнего Востока не обошел стороной и производство хлопка. Тем не менее, производство хлопка не прекратилось. О развитии хлопководства в Гяндже и Гарабаге можно судить по данным «Пространного дефтера Гянджа-Гарабагского эялета». Согласно этим источникам становится ясно, что в 16-ти из 18-ти деревень Кюрекбасанского нахийе, прилегающих к городу Гянджа население занималось хлопководством. В 1727 г. турецкие налогосборщики с этого нахийе собрали 81200 агча налога, так называемый «ушр за возделывание хлопка». С каждого батмана (7,7 кг) хлопка, османские налогосборщики, взимали 120 агча, получается, что со всего нахийе ежегодно взимался натуральный налог в размере 67,8 батмана хлопка. Особенно много хлопковых плантаций было в деревнях Зазалы, Кюрд Сефи, Сераджан и Сорлуг Джаирли Кюрекбасанского нахийе. Налог за возделывание хлопка с этих 4-х деревень составлял 45 тысяч агча, что составляло больше

половины этого налога, собранного со всего нахийе.

Несмотря на трудные климатические условия, выращиванием хлопка занималось также население Абшеронского полуострова. И.Я.Лерх указывает, что здесь много сеют пшеницы, ячменя и хлопчатой бумаги, хлопок в значительном количестве выращивался в селении Шувелан. По утверждению С.Гмелина, хлопковые плантации он видел в разных местах Абшерона. Хлопководство развивалось и в окрестностях Тебриза, Нахчывана, Меренда, Мараги и Иревана, которые считались традиционными центрами выращивания этого растения. Однако отсутствие прямых данных, относящихся непосредственно к первой половине XVIII в. не позволяет судить о размерах хлопководства в этих регионах.

В изучаемый период в Азербайджане выращивали хлопчатник с грубым и коротким волокном, так называемый «гара гоза». Низкое качество производимого хлопка объясняется еще и невысоким спросом на него, так как на нужды населения шла лишь незначительная его часть. Отчасти это было связано с рутинным состоянием прядильной техники, т.к. обработка и очистка волокна от семян производились примитивным способом. Каждый день очищалось не более 12-15 пудов хлопка. В Азербайджане по сравнению с другими сельскохозяйственными культурами, хлопка производилось меньше и прежде всего на экспорт. Урожай хлопка полностью зависел от количества воды, поэтому разведение этой культуры доставляло большие трудности хлопководам. В летнее время, особенно в засуху у крестьян некоторых селений не было воды даже для питья, не говоря уже о поливе. Из-за засухи в ряде деревень крестьяне иногда годами не занимались посевом хлопчатника. Помехой хлопководству, была и сложная политическая ситуация в стране.

Другим ценным техническим растением, выращиваемым в Азербайджане, особенно в окрестностях Баку и Дербенда, являлся шафран. Он использовался в прядильной и ткацкой промышленностях. Шафраном красили в мягкий оранжевый цвет шелк и шерсть, а иногда и ковры. Использовался он и в приготовлении еды а также прохладительных напитков. Один из иностранных путешественников рассказывая об особенностях шафрана, писал: «Этот город (Баку – Г.Ш.) для всей Персиды поставляет шафран, который персы, помимо того, что употребляют с рисом, используют главным образом для окрашивания шелка».

И.Гербер, побывавший в северных провинциях Азербайджана указывает, что в 20-е годы XVIII в. в окрестностях Баку было расположено несколько сот шафранных садов. Рассказывая об экономическом значении шафрана, М.Биберштейн пишет, что в окрестностях города Дербенда все склоны холмов покрыты этим растением и этот город «снабжает не только достаточное количество для потребления всего этого края, но еще в значительном количестве экспортирует в соседние провинции». Культура шафрана заинтересовала и российские оккупационные власти. Российское правительство распорядилось о создании в Баку новых шафранных садов по европейскому образцу. В Дербенте все казенные плантации шафрана возделывались под контролем российских властей. В 1724 г. с казенных плантаций в Дербенте и Баку было собрано и отправлено в Россию 148 фунтов шафрана. К сожалению, в источниках первой половины XVIII в.

каких-либо сведений, касающихся обработки этой культуры нет. Участок, засеянный шафраном называемый местным населением тахтой, был длиной 50 и шириной12 шагов. На одну такую тахту высеивали 1 халвар шафранных луковиц. Когда цветы шафрана созревали, хозяин со всеми членами своей семьи собирал их и просушивал. Составитель этого документа указывает, что с одного халвара шафранных луковиц в первый год собирают 3, а в последующие 3-4 года 6 фунтов шафрана. Собранный урожай помещали в маленький котел, наливали в него немного воды и добавляли бараний жир. Полученную смесь держали на слабом огне, и постоянно мешали. В результате получали густую смесь в форме теста, что и являлось готовой продукцией.

Азербайджан с древних времен славился производством марены обладающей отличными красильными качествами. Краска, полученная из корня этого растения, служила незаменимым сырьем для окрашивания шелковых и хлопчатобумажных тканей. Окрашенные мареной ткани долгое время не теряли своего цвета. Кроме того, марена использовалась и в медицине для лечения некоторых болезней. Наиболее высокого развития мареноводство достигло в XVII-XVIII вв. В этот период география производства марены значительно расширилась. По Стрейсу, мареной и другими красильными растениями славилась Ширванская провинция, где они росли в изобилии. Крупнейшим центром по производству марены был округ Азадабад, расположенный на левом берегу Араза. Это подтверждается и данными Тавернье, который называет Джульфу «единственной местностью в мире, где произрастает марена» .

Интенсивное развитие ткачества увеличило спрос на марену. В XVIII в. окрестности Дербенда и весь Южный Дагестан являлись одним из крупных центров производства марены. М.Биберштейн пишет, что «марена, является чрезвычайно распространенным растением по всей гористой части страны. Жители страны собирают, сушат и продают ее купцам, которые посылают ее большим транспортом, как по суше в Кизляр, так и по морю в Астрахань». Марена являлась одним из ходовых товаров, и внутренней, и внешней торговли. Длинные корни этого растения разрезали в длину руки, помещали в мешки и отправляли в разные города и страны мира. Большой спрос на марену был в России. Появление ее на российском рынке относится именно к первой половине XVIII в., что было связано с развитием ткацкой промышленности. В годы русской оккупации Петр I требовал от комендантов Тарку и Дербенда поставлять в Россию от десяти до тридцати пудов корня марены. В последующий период вывоз марены из Азербайджана в Россию значительно вырос. За шесть лет из Азербайджана и Южного Дагестана в Кизляр было вывезено 39382 пуда 20 фунтов марены.

Подытоживая сказанное необходимо отметить, что в XVIII веке, несмотря на отмирание караванных путей с Востока на Запад, и в связи с освоением океанических путей, азербайджанские города благодаря своему экономическому потенциалу еще участвовали в международных экономических связях, а технические культуры играли важную роль в этом.

**Ədəbiyyat siyahısı:**

1. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanunu, 2018.
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bunlardan irəli gələn məsələlər haqqında" sərəncamı. Bakı, 16 mart 2016.
3. Abbasov Q., Səbzəliyev S. Mühasibat(maliyyə) uçotu, Bakı 2003.
4. Cəfərov A.M. Mühasibat uçotu, Bakı 2011.
5. Səbzəliyev S.M. "Maliyyə hesabatlarının hazırlanması və tərtib olunmasının məqsədləri, qaydaları və prinsipləri"tədris-metodiki vəsait. Bakı 2018.
6. Abbasov İ.M. "Audit"dərslik,Bakı 2007.
7. Hacıyev F.Ş. "Auditdə iqtisadi təhlil"dərs vəsaiti, Bakı 2018.

*Nəbiyev Fikrət Həbib oğlu,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi,*
*Nəbiyeva Minayə Fikrət qızı,*
*AMEA-nın elmi işçisi*

## AZƏRBAYCAN RESPUBLİKASINDA İNSANLARIN HÜQUQ VƏ AZADLIQLARININ TƏMİN EDİLMƏSİ

Keçən əsrin sonlarında müstəqilliyi bərpa edilmiş, hüquqi demokratik islahatların keçirildiyı Azərbaycan Respublikasında insanların hüquq və azadlıqlarının təmin edilməsinə başlandı. Bunların arasında qanunvericiliyin təkmilləşdirilməsi, dövlət strukturları tərəfindən proqramların qəbul olunması, bu sahədə beynəlxalq konvensiyaların ratifikasiyası, yəni-hüquq mühafizə mexanizmi yaradıldı

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş hərtərəfli inkişaf strategiyası əsasında irəliləyən Respublikamız sosial iqtisadi sahələrdə islahatlar istiqamətində böyük nailiyyətlər əldə etmişdir. Bütün bu tədbirlərin həyata keçirilməsi sayəsində xalqın sosial-iqtisadi vəziyyəti xeyli yüksəlmişdir. Cəmiyyətdə ictimai-siyasi sabitlik möhkəmlənmiş, demokratiyanın inkişaf etdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində cəsarətli addımlar atılmışdır. O cümlədən iqtisadi sahədə həyata keçirilən islahatların əsasını məhz xalqın rifahı və insan hüquqları ilə bağlı məsələlər daha da səmərəli həyata keçirilməyə başlandı.

Cəmiyyətdə demokratik hüquqi, sosial- iqtisadi və digər sahələrdə həyata keçirilən islahatlar uğurla inkişaf etdirilir. Ölkəmizdə həyata keçirilən islahatların təməli Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış 12 noyabr 1995- ci il tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında qoyulmuşdur. Məhz, vətəndaşların hüquqları Azərbaycan Respublikasının ilk Konstitusiyasında öz əksini tapmışdır.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 48 maddəsini əhatə edən üçüncü fəsli insan və vətəndaş hüquq və azadlıqlarına, həmin hüquq və azadlıqların təminatına həsr edilmişdir. Konstitusiyada təsbit edilən hüquqların bir hissəsi ölkə və-

təndaşlarının sosial iqtisadi-hüquqları təşkil edir və bu hüquqların təmin edilməsi Azərbaycan dövlətinin prioritet vəzifələri sırasına daxildir.

Konstitusiyanın 16-ci maddəsinin 1-ci hissəsində qeyd olunur ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşının rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Sosial-iqtisadi hüquqların təmin edilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində qanunvercilik Avropa standartlarına uyğun olaraq təkmilləşdirilmişdir. İqtisadi hüquqların təmin edilməsi üçün bir sıra dövlət proqramları qəbul edilmişdir.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası, ölkəyə xarici investorların cəlb edilməsi aparılan uğurlu iqtisadi siyasətin məntiqi nəticəsi oldu.

Prezident İlham Əliyevin siyasi hakimiyyət strukturuna rəhbər olduğu dövr çoxşaxəli və genişmiqyaslı fəaliyyət proqramının həyata keçirilməsi, Ulu Öndər tərəfindən təməli qoyulmuş siyasi xəttin davam etdirilməsindən xəbər verir.

Bu strateji xəttin sosial-iqtisadi mühitin inkişafına minlərlə iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafına nail olunması, sahibkarlarığın inkişafı üçün əlverişli şəraitin yaradılması, Dağlıq Qarabağ probleminin Beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi, Azərbaycanın mənafeyinə uyğun balanslaşdırılmış xarici siyasətin yeridilməsi, nüfuzlu dünya strukturlarına inteqrasiya edilməsini qeyd etmək olar. Əsasən ölkədə sosial-iqtisadi inkişafa önəm verən ölkə Prezidenti demişdir ki, məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil olan Azərbaycan dövləti yaratmaqdır. Qeyd etməliyik ki, dövlət başçısının ilk Fərmanı məhz Respublikamızın mövcud sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi tədbirləri ilə bağlı olmuşdur. Belə ki, Prezidentimiz 24 noyabr 2003-cü il tarixli “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Fərmanında proseslərin sürətləndirilməsi yolları nəzəri və konseptual sistemdə əsaslandırılmışdır. Bu ölkədə sosial-iqtisadi inkişafı sürətləndirmək üçün təkmilləşdirilmiş konsepsiyada iqtisadi inkişaf tədbirlərinin həyata keçirilməsi və beləliklə, sosial-iqtisadi inkişafın sürətləndirilməsi regionların inkişaf etdirilməsi isiqamətində reallaşdırılır. Prezident iqtisadi sahədə müşahidə edilən müsbət meylləri möhkəmləndirmək və daha da inkişaf etdirmək, sosial sahədə qarşıda duran problemlərin həllini sürətləndirmək məqsədi ilə imzaladığı bu Fərman, vaxtında qəbul edilmiş proqram xarakterli dövlət aktıdır. Hazırda ölkədə işsizliyin aradan qaldırılması, əhalinin faydalı əməyə cəlb edilməsi, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin tezliklə həll edilməsi, onlar üçün yeni qəsəbə və evlərin tikilməsi bu sahədə vacib məsələ olaraq qarşıya qoyulmuşdur. Ümumiyyətlə, son dövrlərdə əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edən proqram və qərarların qəbul edilməsi uğurla həyata keçirilir. Dövlət əhəmiyyətli qərarların qəbul edilməsi dövlət siyasətinin tərkib hissəsi kimi göstərilmişdir. Məhz əldə edilmiş uğurlu fəaliyyətin istiqamətləri mövcud problemlərin həllinə, insanların sosial-iqtisadi hüquqlarının təmin edilməsinə yönəldilmişdir. Dövlət başçısının 11 fevral 2004-cü il tarixli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2004-2008-ci illər)” əvvəlki Fərmanla əlaqədar olub onun həyata keçirilməsinə xidmət etmişdir. Dövlət proqramının icrası ilə bağlı nəzarəti məhz ölkə başçısı həyata keçirir. Bunun üçün dövlət başçısının bölgələrə səfərləri, onun mövcud vəziyyətlə tanış olması, onun ölkə əhalisi ilə mütəmadi görüşləri, sakinlərin sosial problemlərinin operativ həlli qazanılan uğurların həlledici mahiyyətini əks etdirir. Azərbaycan Res-

publikasının Prezidentinin iştirakı ilə Respublikanın regionlarında keçirilən müşavirələrdə əldə edilmiş nailiyyətlər, mövcud problemlər, eləcə də problemlərin aradan qaldırılması yolları ətraflı müzakirə olunur, təkliflər və kompleks tədbirlərin həyata keçirilməsi məqsədə müvafiq hesab edilir. Beləliklə, Azərbaycan Respublikası Prezidenti tərəfindən regionlarda sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı təsdiq edilmiş və plana əsasən işlər icra edilir. Respublikamızda sosial-iqtisadi inkişafın sürətləndirilməsi istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilir. O cümlədən, avtomobil yol infrastrukturunun bərpası, yenilənməsi və inkişaf etdirilməsi kimi tədbirlər həyata keçirilir. Respublika Prezidentinin 26 oktyabr 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)" ölkədə məşğulluq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ölkədə əmək bazarının inkişaf etdirilməsi, yeni iş yerlərinin açılmasının sürətləndirilməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədini güdür. Məqsədyönlü siyasət nəticəsində vətəndaşların Konstitusiyada təsdiq olunmuş sosial-iqtisadi hüquqlarını təmin edən qanunlar qəbul edilmişdir. Son dövlət sənədlərində sosial iqtisadi inkişafı sürətləndirmək üçün mühüm rol oynayan dövlət idarəçiliyində siyasətin tənzimlənməsi prosesi həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biri vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasından ibarətdir. Bu baxımdan son dövrlərdə sosial sahədə qəbul edilmiş qanunlar ölkə başçısının sosial müdafiə sahəsindəki qəbul etdiyi fərman və sərəncamlar xüsusi əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2006-cı il tarixində imzalamış olduğu Fərman və Sərəncamlara əsasən "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu müəyyən edilmiş, şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsdiq edilmiş, eləcə də məcburi köçkünlərə yemək xərci üçün ayrılan məbləğ 50 faiz artırılmışdır. Beləliklə, insan hüquqları sistemində xüsusi əhəmiyyət daşıyan sosial-iqtisadi hüquqlar insanların həyat şəraitini və sosial müdafiəsinin təşkili önəmli məsələlərdən biridir. İnsanlar üçün belə bir şəraitin yaradılması insan hüquqlarının müdafiəsi ilə bağlı olan mövcud şəraitə müsbət təsir edən mühüm şərtlərdəndir. İnsan hüquqlarını bəşəriyyətin mühüm kəşfi kimi qiymətləndirən Ulu Öndərimiz Heydər Əliyev həmişə cəmiyyətdəki mövqeyindən asılı olmayaraq həyatda insanları nəcib, xeyirxah, humanist amillər uğrunda mübariz olmağa, insan hüquqlarını qorumağa və hörmət bəsləməyə çağırmışdır. Azərbaycan Respublikası Prezidentinin "İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanı, eyni zamanda 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı bu sahədə aparılan böyük islahatları uğurla həyata keçirmək üçün təməl rolunu oynamışdır. Ölkədə demokratik hüquqi islahatlar insan hüquqlarının, beynəlxalq hüquq prinsipləri əsasında müdafiəsi sahəsində mühüm inkişafın əldə edilməsinə şərait yaradılmışdır. Bu müddət ərzində ölkəmiz 220-dən artıq beynəlxalq konvensiyaya qoşulmuşdur.

Qanunvericiliyin inkişafı tarixində əhəmiyyətli hadisələrdən biri də ölkə Prezidentinin tövsiyəsi ilə 28 dekabr 2001-ci ildə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsidir. Ombudsman kimi nüfuzlu demokratik institutların ya-

$Q_T = [0,T] \times \Omega$ silindrində parabolik tənliyə cırlaşan yarımxətti hiperbolik tənliklərdən ibarət

$$\left.\begin{aligned} k_{11}(x)u_{1_{tt}} + k_{12}(x)u_{1_t} - \Delta u_1 + |u_1|^{p-1}|u_2|^{p+1}u_1 = f_1(t,x) \\ k_{21}(x)u_{2_{tt}} + k_{22}(x)u_{2_t} - \Delta u_2 + |u_1|^{p+1}|u_2|^{p-1}u_2 = f_2(t,x) \end{aligned}\right\} \quad (1)$$

Sistemi üçün aşağıdakı sərhəd şərtləri

$$u_1(t,x) = u_2(t,x) = 0, t \in [0,T], x \in \Gamma \quad (2)$$

və

$$u_1(0,x) = \phi_1(x) \quad \sqrt{k_1(x)}u_{1_t}(0,x) = \psi_1(x). \quad (3)$$

$$u_2(0,x) = \phi_2(x) \quad \sqrt{k_2(x)}u_{2_t}(0,x) = \psi_2(x) \quad (4)$$

başlanğıc şərtləri daxilində qarışıq məsələyə baxaq.

Burada $k_{11}(\cdot)$, $k_{12}(\cdot)$, $k_{21}(\cdot)$, $k_{22}(\cdot)$ $\overline{\Omega}$)- da kəsilməz funksiyalardır və aşağıdakı şərtləri ödəyir:

(1) $$k_{11}(x) \geq 0, \quad k_{12}(x) \geq k_{10} > 0, \quad x \in \overline{\Omega} \ ;$$

(2) $$k_{21}(x) \geq 0, \quad k_{22}(x) \geq k_{20} > 0, \quad x \in \overline{\Omega}.$$

(3) $p > 0, \quad n \geq 3 \quad olduqda\ isə\ əlavə \quad p < \frac{n+2}{n-2} \quad n \geq 3.$

(4) $f_i(t,x) \in L_\infty(0,T;L_2(\Omega)), \quad i = 1,2.$

Aşağıdakı ədədləri təyin edək

$$\theta = \frac{2n(p+1)}{(n-2)(p+1)+2np} \ , \qquad \gamma = \frac{2n(p+1)}{(n+2)(p+1)-2np} \, .$$

Aydındır ki,

$$\frac{1}{\theta} + \frac{1}{\gamma} = 1, \qquad 1 < \theta < \frac{p+1}{p}, \quad 1 < \gamma \leq 2(p+1) \, .$$

**Teorem.** Tutaq ki, (i)-(iv) şərtləri ödənilir

$\phi_k(x) \epsilon H_0^1 \cap L^q(\Omega)$, $\psi_k(x) \epsilon L^2(0,T;L^2(\Omega))$, k=1,2, $q = p + 2$. Onda elə yeganə $u_1$ və $u_2$ funksiyaları var ki, $u_1, u_2 \ \epsilon L^\infty(0,T;\ H_0^1\ )$, $u_{1t}, u_{2t} \ \epsilon L^2(0,T;\ L^2(\Omega)\ )$, $u_1 u_2 \ \epsilon L^\infty(0,T;\ L^p(\Omega)\ )$, *bu funksiyalar zəif mənada* $L^2(0,T;\ H^{-1}\ ) + L^\theta(\Omega)$*- da*

$$L_{10}(u_1,u_2) = f_1(t,x) \ , \quad L_{20}(u_1,u_2) = f_2(t,x)$$

tənliklərini və (7), (8) başlanğıc şərtlərini ödəyir.

Burada

$$L_1(u_1,u_2) \equiv k_{11}(x) u_{1_{tt}} + k_{12}(x) u_{1_t} - \Delta u_1 + |u_1|^{p-1}|u_2|^{p+1}u_1,$$
$$L_2(u_1,u_2) \equiv k_{11}(x) u_{1_{tt}} + k_{12}(x) u_{1_t} - \Delta u_1 + |u_1|^{p-1}|u_2|^{p+1}u_1.$$

(10) - (4) məsələsini həll etmək üçün əvvəlcə əmsalları requlyarlaşdırılmış aşağıdakı məsələyə baxılır:

$$\left.\begin{array}{l} L_{1\varepsilon}(u_{1\varepsilon},u_{2\varepsilon}) = f_1(t,x) \\ L_{2\varepsilon}(u_{1\varepsilon},u_{2\varepsilon}) = f_2(t,x) \end{array}\right\} , \qquad (5)$$

$$u_{1\varepsilon}(t,x) = u_{2\varepsilon}(t,x) = 0, \quad t \in [0,T], \quad x \in \Gamma \ , \qquad (6)$$

$$u_{1\varepsilon}(0,x) = \phi_1(x), \quad u_{2\varepsilon}(0,x) = \phi_2(x) \ , \ x \in \Omega \ , \qquad (7)$$

$$u_{1\varepsilon t}(0,x) = \psi_{1\varepsilon}(x), \quad u_{2\varepsilon t}(0,x) = \psi_{2\varepsilon}(x) \ \ , \ x \in \Omega \ . \qquad (8)$$

Burada

$$L_{1\varepsilon}(u_{1\varepsilon},u_{2\varepsilon}) \equiv k_{11\varepsilon}(x)u_{1\varepsilon_{tt}} + k_{12}(x)u_{1\varepsilon_t} - \Delta u_{1\varepsilon} + |u_{1\varepsilon}|^{p-1}|u_{2\varepsilon}|^{p+1}u_{1\varepsilon},$$
$$L_{2\varepsilon}(u_{1\varepsilon},u_{2\varepsilon}) \equiv k_{11\varepsilon}(x)u_{1\varepsilon_{tt}} + k_{12}(x)u_{1\varepsilon_t} - \Delta u_{1\varepsilon} + |u_{1\varepsilon}|^{p-1}|u_{2\varepsilon}|^{p+1}u_{1\varepsilon}.$$
$$k_{11_\varepsilon}(x) = k_{11}(x) + \varepsilon, \quad k_{21_\varepsilon}(x) = k_{21}(x) + \varepsilon, \quad \varepsilon > 0 \ ,$$
$$\psi_{1\varepsilon}(x) = \frac{1}{\sqrt{k_{11}(x)+\varepsilon}}\psi_1(x), \qquad \psi_{2\varepsilon}(x) = \frac{1}{\sqrt{k_{21}(x)+\varepsilon}}\psi_2(x)$$

(5)-(8) məsələsi Qalyorkin üsulu ilə həll edilir, sonra həmin məsələnin həlləri üçün apriori qiymətləndirmələr alınır. Nəticədə limit funksiyaların verilən məsələnin həlli olduğu isbat edilir.

*Aslanov Həmidulla,*
*fizika-riyaziyyat elmləri doktoru, professor;*
*Axundov Ədalət,*
*riyaziyyat elmləri doktoru, professor,*
*AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu;*
*Hüseynov Zəfər,*
*fizika-riyaziyyat elmləri namizədi, dosent, Əməkdar müəllim,*
*Sumqayıt Dövlət Universiteti*

## İQTİSADİ GÖSTƏRİCİSİ PERİODİK XARAKTERƏ MALİK PROSESLƏRİN STASİONAR ZAMAN SIRALARININ HARMONİK ANALİZİ

Təbiət elmlərində funksional asılılıq dedikdə bir dəyişənin hər bir qiymətinə digər dəyişənin tam müəyyən bir qiymətinin uyğunluğu başa düşülür. İqtisadi məsələlərdə isə, funksional asılılıq dedikdə, əsasən bir dəyişənin hər bir qiymətinə digər dəyişənin hər hansı müəyyən qiyməti deyil, onun mümkün qiymətlər çoxluğunun uyğun gəldiyi məsələlərin öyrənilməsi zərurəti nəzərdə tutulur. Başqa sözlə, burada hər bir dəyişənin hər bir qiymətinə digər dəyişənin müəyyən paylanması uyğun gəlir. Belə asılılıq statistik və ya staxostik, ehtimal asılılığı adlanır. Statistik asılılığın yaranması onunla əlaqədardır ki, asılı dəyişən bir sıra nəzarətdən kənar və ya nəzərə alınmayan faktorlardan asılı olur. Eləcədə dəyişənin qiymətlərinin tapılmasında müəyyən təsadüfi səhvlərə yol verilə bilir. Məsələn, istifadə olunan gübrənin miqdarı ilə yığılan məhsulun miqdarı arasındakı asılılıq buna misal ola bilər.

Əgər iki dəyişən arasındakı aslılıq elə təsvir olunursa ki, bir dəyişənin hər bir qiymətinə digər dəyişənin müəyyən şərti riyazi gözləməsi (yəni, orta qiyməti) uyğun gəlsin, onda belə statistik asılılıq korrelyasiyalı asılılıq adlanır. Yəni, korrelyasiyalı asılılığı iki dəyişən kəmiyyətin birinin hər bir qiyməti ilə, digərinin şərti riyazi gözləməsi arasındakı funksional asılılıqdır.

Korrelyasiya asılılığı $M_x(y) = f_1(x)$, yaxud $M_y(y) = f_2(x)$ kimi ifadə oluna bilər. Bu tənliklər reqressiya tənlikləri adlanırlar. $f_1(x)$, $f_2(y)$ reqressiya funksiyası, onların qrafiki isə reqressiya xətti adlanır.Bəzi hallarda reqressiya əyrisi

$$\tilde{y} = \tilde{f}\left(\tilde{\alpha}_0, \tilde{\alpha}_1 \ldots \tilde{\alpha}_n, x\right) \qquad (1)$$

kimi təyin edilir. Burada $\tilde{y}$ $x$ dəyişəninin qeyd olunmuş qiymətində $y$ dəyişəninin şərti ortasıdır. $\tilde{\alpha}_0, \tilde{\alpha}_1 \dots \tilde{\alpha}_n$ isə əyrinin parametrləridir. $\left(\tilde{\alpha}_0, \tilde{\alpha}_1 \dots \tilde{\alpha}_n, x\right)$ approksiyasiya funksiyası düzgün seçildikdə, seçimlərin həcmi artdıqda, yəni $n \to \infty$ şərtində bu funksiya ehtimala görə $f(\alpha, x)$ funksiyasına yığılır.

İqtisadi proseslərin dinamikasının öyrənilməsində mövsümi rəqslərin tədqiqi və modelləşdirilməsi mühüm xarakteristikalardır. Əgər iqtisadi göstəricinin dəyişməsi periodik xarakterə malikdirsə, onda bu dəyişmələrə periodik Furye funksiyası uyğun gəlir və göstəricilərin riyazi funksiyalarla aproksimasiyası

$$y_i = f(\alpha_0, \alpha_1 \dots \alpha_n, t) + \sum_{k=1}^{P} \left( a_k \cos\frac{2\pi}{n} kt + b_k \sin\frac{2\pi}{n} kt \right) \qquad (2)$$

modelləri ilə təsvir olunur. Bu düsturun əmsallarının ən kiçik kvadratlar üsulu ilə tapmaq olar. Məsələn, mövsümi rəqslər periodu bir olan sinusoidal funksiyalarla təsvir olunursa, onda bu funksiyaların triqonometrik Furye sırasına ayrılışı harmonik analiz adını daşıyır və mövsümi rəqslərin analitik forması olaraq:

$$\tilde{y}_i = a_0 + \sum_{i=1}^{m} (a_k \cos kt + b_k \sin kt), \; t = 1, 2 \dots n \qquad (3)$$

triqonometrik çoxhədlisindən istifadə etmək olar. Burada $k$ – Furye sırasının sıra nömrəsidir, $m$ – harmonikaların sayı; $t$ – zaman anıdır və $0, \frac{2\pi}{n}, \frac{2 \cdot 2\pi}{n}, \dots, \frac{(n-1) \cdot 2\pi}{n}$ (aylıq verilənlər üçün $n = 12$) qiymətlərini alır. $a_0$, $a_k, b_k$ əmsalları ən kiçik kvadratlar üsulu ilə hesablanır (praktikada əksər hallarda Furye sırası ilə mövsümi proseslərin hamarlanmasında ən çoxu 5 harmonikadan istifadə olunur). Sonra isə, zaman sırasının periodik dəyişməsinin hansı harmonikada daha yaxşı təsvir olunması müəyyənləşdirilir. Harmonikaların sayının artması approksimasiya dəqiqliyinin artmasını yaxşılaşdırır, lakin bu halda

$$\sigma_{\tilde{y}_i} = \frac{\sum_{i=1}^{n} \left( y_i - \tilde{y}_i \right)^2}{n - p}$$

dispersiyası artır. ( $p$ – naməlum parametrlərin sayıdır). Ona görə də zaman sıraları halında klassik Furye analizi yanaşmalarını təsadüfi tərkibli zaman sırası nodelinə modifikasiya etmək lazımdır. Onun qurulması zaman sırasının dinamikasında tendensiyanın olub-olmamasından asılıdır. Stasionar dinamik sırada, yəni tendensiya mövcud olmadıqda, Furye sırasını qurmaq metodikası dinamika sıranın bilavasitə səviyyələrinə tətbiq olunur. Tutaq ki, stasionar zaman sırasının səviyyələri onun $\tilde{y}_i$ orta qiyməti ətrafında dəyişir, onun rəqsləri isə təkrarlanır. Zaman sırasının səviyyələrinin

təkrarlanma intervalını $p$ ilə işarə edək.

Prosesi təsvir etmək üçün aşağıdakı anlayışlar verilir:

**Tərif 1.** Stasionar periodik zaman sırasında periodun tərsi olan kəmiyyətə dinamik sıranın tezliyi deyilir və $f = \frac{1}{p}$ kimi işarə edilir.

**Tərif 2.** Stasionar periodik zaman sırasında orta səviyyədən pik nöqtəsinə qədər meyletmə zaman sırasının amplitudu adlanır və $A$ ilə işarə olunur.

**Tərif 3.** Stasionar periodik zaman sırasında başlanğıc andan 1-ci pik nöqtəsinə qədər olan məsafəyə onun fazası deyilir.

Stasionar periodik zaman sırasının 4 parametrlə xarakterizə etmək olar: $p$ periodu, $f$ – tezliyi, $A$ – amplitudu, $\varphi$ - fazası və $\tilde{y}$ orta qiymәti.

Onda zaman sırasını aşağıdakı kimi, analitik ayrılışla ifadə etmək olar:

$$y_i = \bar{y} + A\cos w(t-\varphi) \tag{4}$$

Burada $w$ – bucaq tezliyidir və zaman vahidində radianlarla ölçülür, $w = 2\pi f$; $0 \le w \le 2\pi$.

**Tərif 4.** (4) düsturuna stasionar zaman sırasının harmonik göstərilişi deyilir.
(4) düsturunu bəzən

$$y_i = \tilde{y} + a\cos wt + b\sin wt \tag{5}$$

şəklində də göstərirlər, burada $a = A\cos\varphi,\ b = A\sin\varphi\ a^2 + b^2 = A$ harmonikanın parametrləri ilə amplituda arasında əlaqəni göstərir. Harmonikanın parametrləri sıranın fazası ilə də əlaqədardır:

$$tg\varphi = \frac{\sin\varphi}{\cos\varphi} = \frac{b}{a} \quad \text{və ya} \quad arcts\frac{b}{a} = \varphi.$$

Periodik rəqsli stasionar zaman sıraları nəzəri olaraq orta qiymətlə sinusoid və kosinusoid sıralarının cəmi şəklində göstərilə bilər:

$$y_i = \tilde{y} + \sum_{i=1}^{\infty} a_i \cos w_i t + \sum_{i=1}^{\infty} b_i \sin w_i t\,. \tag{6}$$

İqtisadi göstəricilərin dinamikası sonlu $N$ uzunluğuna malik olduğundan

$$y_i = \tilde{y} + \sum_{i=1}^{n} a_i \cos w_i t + \sum_{i=1}^{n} b_i \sin w_i t \tag{7}$$

şəklində olur. Burada $n = \frac{N}{2}$. $\tilde{y} = a_0$ işarə etsək, (7) cəmi

$$y_i = a_0 + \sum_{i=1}^{n} \left( a_i \cos w_i t + \sum_{i=1}^{n} b_i \sin w_i t \right) \quad (8)$$

şəklində yazıla bilər. Bu düstura daxil olan parametrləri ən kiçik kvadratlar üsulu ilə tapmaq olar.

**Ədəbiyyat siyahısı:**

1. Həmidulla Aslanov, Funksional analiz, "MBM" nəşriyyatı Bakı, 2012, 420 səh.

2. Elşar Orucov, Ekonometrika, "AFPoliqraf ", Bakı 2018, 382 səh.

*Hüseynov Hidayət,*
*fikiza-riyaziyyat elmləri doktoru, professor,*
*Nəbiyev İbrahim,*
*fikiza-riyaziyyat elmləri doktoru, professor,*
*Bakı Dövlət Universiteti,*
*AMEA Riyaziyyat və Mexanika İnstitutu*

## ÇOXFAKTORLU İSTEHSAL FUNKSİYASININ BƏZİ XASSƏLƏRİ

Ümumi halda, istehsal funksiyaları – istehsal prosesində istifadə olunan əmək resursları və maddi nemətlər ilə istehsal edilən məhsul arasındakı əlaqənin mahiyyətini göstərir. Ölkə iqtisadiyyatını modelləşdirərkən əsas resurslar qismində əmək sərfi $L$ və istehsal fondlarının həcmi $K$ istifadə olunur. Bu zaman $Y = F(K, L)$ ikidəyişənli istehsal funksiyalarına baxılır. Ayrı-ayrı müəssisələrin iqtisadi fəaliyyətini modelləşdirərkən $Y$ ilə buraxılan məhsulun həcmi işarə olunur. Fərz olunur ki, resurslardan heç olmasa biri olmadıqda istehsal mümkün deyil, yəni

$$F(0, L) = 0, \qquad F(K, 0) = 0.$$

Bundan başqa istifadə olunan resurslar neçə dəfə artırsa, istehsalın həcmi də o qədər dəfə artır. Bunu riyazi olaraq aşağıdakı kimi belə yazmaq olar:

$$F(mK, mL) = mF(K, L).$$

Belə xassəyə malik olan funksiyaya xətti-bircins funksiya deyilir. İqtisadi nəzəriyyədə bir sıra xətti-bircins istehsal funksiyaları mövcuddur ki, müəyyən təhlillər məhz bu funksiyaların parametrlərini qiymətləndirməklə həyata keçirilir. Belə funksiyalardan biri amerikan riyaziyyatçısı Çarlz Kobb ilə amerikan iqtisadçısı Pol Qovard Duqlasın adları ilə bağlı yaratdıqları Kobb-Duqlas funksiyasıdır:

$$Y = Y_0 K^{\alpha} L^{1-\alpha}, \quad 0 < \alpha < 1,$$

burada $Y_0$ neytral texniki tərəqqinin vahid əmsalını, $\alpha$ və $1-\alpha$ isə uyğun olaraq kapital və əməyin gəlirdəki xüsusi çəkilərini göstərir. ABŞ-ın XX əsrin 20-ci illərində emal sənayesinə hesablanan bu funksiya istehsal həcminin istehsalın əsas faktorları olan əmək və kapitaldan asılılığını ifadə edir.

Kobb-Duqlas funksiyası iqtisadiyyatı dəqiq təsvir etdiyinə və riyazi cəhətdən asan təvsir olunduğuna görə iqtisadçılar tərəfindən geniş istifadə edilir.

Qeyd edək ki, istehsalın həcmi iki yox, daha çox dəyişəndən asılı ola bilər. Məsələn, fərz etmək olar ki, milli gəlir üç dəyişəndən - əmək resursları, istehsal fondları və təbii resurslardan asılıdır.

Yuxarıda biz xətti-bircins istehsal funksiyalarından bəhs etmişdik. Ümumi halda $k$ dərəcəli bircins istehsal funksiyalarına baxıla bilər. Xatırladaq ki, əgər

$$F(mx_1, mx_2, ..., mx_n) = m^k F(x_1, x_2, ..., x_n)$$

olarsa, onda $F(x_1, x_2, ..., x_n)$ funksiyasına $k$ dərəcəli bircins funksiya deyilir. Bu bərabərlik göstərir ki, istehsalın həcmi $m$ dəfə artdıqda buraxılan məhsulun həcmi $m^k$ dəfə artır. $k > 1$ olduqda istehsalın effektivliyi artır, $k < 1$ olduqda azalır, $k = 1$ olduqda isə sabit qalır.

$Y = F(x_1, x_2, ..., x_n)$ istehsal funksiyası üçün $\frac{F}{x_i}$ nisbəti $i$- ci resursun orta məhsuldarlığını, $\frac{\partial F}{\partial x_i}$ xüsusi törəməsi isə son (limit) məhsuldarlığını ifadə edir.

İndi istehsal funksiyalarının xüsusi törəmələrinin işarəsini müəyyən edək. Təbii olaraq hesab etmək olar ki, əgər $Y = F(K, L)$ istehsal funksiyası kəsilməz diferensiallanandırsa, onda

$$\frac{\partial F}{\partial K} > 0, \qquad \frac{\partial F}{\partial L} > 0,$$

olur. Çünki istifadə olunan $K$ fondlarının və zəhmətkeşlərin $L$ sayının artması $Y = F(K, L)$ milli gəlirinin artmasına səbəb olur. Bu xassəni Kobb-Duqlas funksiyası üçün yoxlayaq. Aydındır ki,

$$\frac{\partial Y}{\partial K} = Y_0 \alpha K^{\alpha-1} L^{1-\alpha}, \qquad \frac{\partial Y}{\partial L} = Y_0 (1-\alpha) K^{\alpha-1} L^{-\alpha}.$$

$K > 0, \quad L > 0, \quad 0 < \alpha < 1$ olduğundan alırıq ki, $\frac{\partial Y}{\partial K} > 0, \qquad \frac{\partial Y}{\partial L} > 0.$

Kobb-Duqlas funksiyasının ikinci tərtib xüsusi törəmələrini tapaq:

$$\frac{\partial^2 Y}{\partial K^2} = Y_0 \alpha (\alpha - 1) K^{\alpha-2} L^{1-\alpha},$$
$$\frac{\partial^2 Y}{\partial L^2} = Y_0 \alpha (\alpha - 1) K^{\alpha} L^{-1-\alpha},$$
$$\frac{\partial^2 Y}{\partial K \partial L} = Y_0 \alpha (1-\alpha) K^{\alpha-1} L^{-\alpha},$$
$$\frac{\partial^2 Y}{\partial L \partial K} = Y_0 \alpha (1-\alpha) K^{\alpha-1} L^{-\alpha}.$$

Buradan alınır ki,

$$\frac{\partial^2 Y}{\partial K^2} < 0, \qquad \frac{\partial^2 Y}{\partial L^2} < 0,$$
$$\frac{\partial^2 Y}{\partial K \partial L} > 0, \qquad \frac{\partial^2 Y}{\partial L \partial K} > 0.$$

İlk iki bərabərsizlik göstərir ki, əmək və istehsal resurslarının effektivliyi azalır. Sonuncu iki bərabərsizlik isə göstərir ki, bütün resursları artırmaqla hər bir resursun effektivliyini artırmaq olar.

*Mammad Bayramoglu,*
*D.Sc. (Math), professor,*
*Institute of Mathematics and Mechanics of NAS of Azerbaijan,*
*Bayramov Azad,*
*Ph.D., Associate Professor,*
*Azerbaijan State Pedagogical University*

## ON ASYMPTOTIC OF THE NEGATIVE SPECTR OF A DIFFERENTIAL OPERATOR EQUATION

Let $H$ be a separable Hilbert space. We consider the operator $L$ in the space $H_1 = L_2(0,\infty;H)$ defined by the following differential expression:

$$-\left(p(x)y^{(n)}(x)\right)^{(n)} + Ay(x) - Q(x)y(x)$$

with the boundary conditions

$$y(0) = y'(0) = \cdots = y^{(n-1)}(0) = 0.$$

Here $A$ is a positive self-adjoint operator from $D(A)$ to $H$ with $\overline{D(A)} = H$ such that $(A+I)^{-1}$ is compact operator ($I$ is the identically operator in $H$) and $\inf_{0 \neq f \in D(A)} (Af, f) = 0$. Assume that function $p(x)$ and operator function $Q(x) = Q^*(x)$ satisfies the some conditions.

Let $N(\varepsilon)$ be the number of negative eigenvalues of the operator $L$ smaller than $-\varepsilon$ $(\varepsilon > 0)$. In this work asymptotic formula for the $N(\varepsilon)$ as $\varepsilon \to +0$ is obtained.

We note that this problem in the case $n = 2$ considered in [1].

**References:**

1. M. Bairamoglu, A. M. Bayramov, K. Koklu, "On Asymptotic behaviour of the negative part of the differential operator with operator coefficients" İnternational Conference "Modern Problems of Mathematics and Mechanics" devoted to the 60th anniversary of the İnstitute of Mathematics and Mechanics 23-25 October , 2019, Baku, Azerbaijan.

*Aslanov Ramiz,*
*pedoqoji elmlər doktoru, professor,*
*AMEA Riyaziyyat və Mexanika İnstitutu*

## NƏSİRƏDDİN TUSİNİN ƏSƏRLƏRİNDƏ TƏRBİYƏVİ DƏYƏRLƏR

Yaxın və Orta Şərq IX-XIII əsrlərdə elmi fikrin mərkəzi olmuşdur. Yer kürəsinin bu hissəsi alimlərindən cəbr elminin banisi cəbrşunas Məhəmməd ibn Musa Xorezimiyə (IX əsr), təbib, filosof, astronom və həndəsəşunas Əbu Reyhan Biruniyə (973-1048), filosof, astronom və gərbdə Avesta adı ilə məşhur olan Əbu Əli İbn Sinaya (980-1037), filosof cəbrşunas, həndəsəşunas Ömər Xəyyama (1040-1128) Qərbdə Anaritus adı ilə məşhur olan həndəsəşunas Təbriziyə (X əsr), məşhur astronom, həndəsəşunas, riyaziyyatçı, filosof Nəsrəddin Tusiyə (XIII əsr) fəlsəfə, riyaziyyat və astronomiya elmləri xeyli minnətdardılar.

XIII əsrin 40-ci illərində N. Tusi Qəhistan adlanan bir vilayətin hakimi yanında çalışmış və uzun müddət onun xüsusi qonağı olmuşdur. Həmin hakimin adı Nasir idi. Bunun şərəfinə N.Tusi əxlaqə aid bir əsər yazir. Bu kitabın adını "Əxlaqi Nasiri" idi. Astronomiya, həndəsə, cəbr, triqonometriyaya aid yazmış olduğu əsərlər vasitəsilə Nəsirəddin Tusi təbiətşünaslar və riyaziyyat alimləri arasında böyük şöhrət qazanmışsa, onun geniş kütlələr arasında tanınmasına isə səbəb "Əxlaqi Nasiri" adlı kitabı olmuşdur. "Əxlaqi Nasiri" kitabından sonra N. Tusi yazmış olduğu "Təcrid" adlı kitabını Bağdad xəlifəsi Müstəsimiyə ithaf etməsini söyləyirlər. Müstəsimi bu kitabı bəyənmir. Qəhistanda olduğu zaman güyə Nəsrəddin Bağdad xəlifəsinə bir qəsid göndərir, həmin qəsidə də xəlifənin xoşuna gəlmir. Xəlifənin vəziri Əlgəmi adlı birisi isə Qəhistan hakimi Nasirə əmr verir ki Nəsrəddini möhkəm cəzalandırsın. O da öz əziz qonağı olan N.Tusini həbs etdirib dəhşətli qalalardan biri olan Əlamuta göndərir. N.Tusi Əlamut qalasında həbsdə olmasına baxmayaraq o yenə də öz elmi işlərini davam etdirir. O özünün həndəsəyə dair "Təhrir öqlidis" əsərinin ilk variantını 1248-ci ildə Əlamut qa-

lasında olduğu zaman yazmışdır.

Məşhur riyaziyyat tarixçisi Saleh Zeki bu dövr üçün belə bir qeyd verir; “Nəsrəddin bu müddət məhbusiyyətini heç boş keçirməmiş və riyaziyyata aid olan əsərlərinin çoxunu burada ikən yazmışdır”. N.Tusi 1258-ci ilə qədər Əlamut qalasında qalır.

N. Tusinin “Əxlaqi Nasiri” kitabı əxlaq və mənavi dəyərlərə malik olan qiymətli bir əsərdir [1], [3], [4]. Bununla belə həmin əsər Nəsirəddinin müəyyən dərəcədə fəlsəfi görüşlərini də əks etdirir.

Həmin əsər üç məqalədən ibarətdir. Birinci məqalə əxlaqın təmizliyinə, ikinci məqalə ailə tərbiyəsinə və nəhayət üçüncü məqalə ölkəni idarə etmək siyasətinə həsr olunmuşdur.

“Əxlaqi Nasiri” əsərinin əvvəlində Nəsirəddin təbiətin inkişaf qanunlarını, insan cəmiyyətinin bəzi tərəqqi məsələlərindən ümumi qeydlər verir. Bunların içərisində maddənin əbədiliyi haqqındakı fikri çox maraqlıdır. Nəsirəddin Tusi göstərir ki: “Əgər bir adam təbiətşünaslıq elmi ilə tanış olarsa və əgər cisimlərin halında, onların tərkibinə, onların ziddiyyətinə diqqət edərsə, o dərk edər ki, heç bir cisim yaranmır və məhv olmur. O ancaq öz həcmini, tərkibini, surətini, şəklini və keyfiyyətini dəyişir, bir maddədən başqasına keçir, lakin təbiətdə qalır və dövr edir”.

Nəsirəddin Tusi Yer üzərində mövcud olan cisimlərin bir-biri ilə əlaqəsindən danışarkən belə bir fikir irəli sürür: cansız və canlı cisimlər arasında, bitkilərlə heyvanlar arasında qəti sərhəd çəkmək mümkün deyildir. Nəsirəddinin bu fikri sonralar inkişaf etmiş təkamül nəzəriyyəsinin əsaslarına uyğun gəlir.

İnsan cəmiyyətinin inkişafından danışarkən Nəsirəddin aşağıda göstərdiymiz xüsusiyyətə malik olan cəmiyyətdən danışır və bu cəmiyyəti o ideal hesab edir. Nəsirəddin yazır: “Azadlıq şəhəri adlanan xalq şəhəri elə bir şəhərdir ki, buradakı cəmiyyətin hər bir üzvünün hüququ vardır. Bu şəhərin hər bir əhli bərabər hüquqa malikdir.

Bu şəhərdə əhali öz hökmdarından üstün tutulur, çünki onlar özləri hökmdarı seçirlər. Fikirləşmək lazımdır ki, burada nə tabe olan və nə də tabe edən var. Bu şəhərdə ən yaxşı adam o şəxs hesab olunur ki, xalqının nəfinə çalışır, onu düşmələrindən müdafiə edir və təşəxxüsü yoxdur.

Bu şəhərdə mədəniyyət artanda hər tərəfdən adamlar bura axışır. Şəhər böyüyür və əhalisi artır. Bu şəhərdə öz əhalisi ilə gəlmə arasında fərq yoxdur”.

Hökmdarlara Nəsirəddin həmişə sülhlə müharibəsiz və qırğınsız yaşamağı məsləhət görür. O,məsləhət görür ki, heç bir zülmə yol vermədən dövlətin ümumi varı artırılsın.

Uşaqların tərbiyəsi haqqında danışarkən Nəsirəddin göstərir ki, onları həmişə zəhmətə alışdırmaq və onu sevməyə sövq etmək lazımdır. Nəsirəddin belə bir göstəriş verir: “Uşaqlar yeməyin müxtəlif dadlarla kef verməsi üçün deyil, ancaq insanın aclıq və xəstəlikdən qorunması üçün olmasını bilməlidirlər. Tərbiyəçilər uşaqların nəzərində yeməyin əhəmiyyətini azaltmalı, onlar çox yeyən adamları tənqid etməlidirlər. Uşaqlar boş-boş özünü tərifləmə xasiyyətindən uzaqlaşdırılmalı, özlərinin zəngin valideynləri ilə, öz paltar və dövlətləri ilə fəxr etməməlidirlər. Uşaqların nəzərində həmişə qızıl və gümüşün dəyərini aşağı salmaq lazımdır, çünki bunların verdiyi ziyan əfi ilanın zəhərindən daha güclüdür.

“Əxlaqı Nasiri” əsərində əvvəldən axıra qədər elm, əmək və ağıl qızıl, dövlət yalan və şöhrətə qarşı qoyulur. “Əxlaqi Nasiri” əsəri insan tərbiyəsində zərif və nəcib hissləri inkişaf etdirir.

N.Tusinin “Müəllimlərin və tələbələrin ədəb qaydaları” kitabı da tərbiyə və əxlaq məsələlərinə həsr edilmişdir. Əsər 12 fəsildən ibarətdir [1], [2].

I fəsildə elmin əhəmiyyətindən və təhsil almağın oğlanlara və qızlara zəruri olmasından bəhs edilir.

II fəsildə qeyd olunur ki, “şagirdlər cəhaləti məhv etmək və “dini ehya etmək üçün” dərs oxumalıdırlar.

III fəsildə deyilir ki, əvvəlcə dini elmi, sonra isə həyat üçün lazım olan elmlərdən birini öyrənmək lazımdır.

IV fəsildə göstərilir ki, təhsil almaq üçün fəal və çalışqan olmaq lazımdır......

VI fəsildə oxuyuruq: “Dərc öyrənməkdə ardıcıl və inadcıl olmaq lazımdır. Hər kəs çətin və anlaşılmaz bir elmi məsələni aydınlaşdırdıqda bu işindən böyük bir ləzzət alır”.

VII fəsildə deyilir: “Təhsil müddəti məhdud deyildir. İnsan beşikdən qəbrə qədər təhsil ala bilər. Ancaq təhsil üçün ən münasib cavanlıq dövrüdür......”.

VIII fəsildə yazılır: “Müəllim tələbəyə qarşı mehriban olmalı və öyrətməkdə həsəd etməməlidir. O, çalışmalıdır ki, onun tələbəsi gələcəkdə böyük alimlərdən biri olsun”.

IX fəsildə göstərilir: “Tələbə müəllimin yanına gələrkən özü ilə kağız, qələm və mürəkkəb gətirməli və müəllimin sözlərini qeydə almalıdır, çünki yazılan şeylər məhv olmaz. Tələbə yaltaq olmamalıdır, ancaq o, öz müəllimi ilə şirin dillə danışmağı unutmamalıdır”.

X fəsildə deyilir ki, “tələbə bazar xörəyi yeməməlidir. O, az yeməli, namaz qılmalı və Quran oxumalıdır. Yaxşı yoldaşların sözlərinə qulaq asmalı və pis yoldaşların dəvətini rədd etməlidir.....”.

XI fəsildə oxuyuruq: “Zehni və idrak qüvvəsini gücləndirmək üçün şagird bal və ya şəkər qatılmış xörəklər və gündə 21 qırmızı məviz (iri kişmiş) yeməlidir. Çünki bu xörəklər səfranı və bəlğəmi azaldır. Bəlğəm və səfra isə zehni korlayır”. N.Tusinin əsərləri hal-hazırda da müasir qənclərin təlim və tərbiyəsində öz rolunu oynaya bilər.

N. Tusinin üç oğlu, bir qızı vardı. Onlar XIII əsrin axırına qədər Marağada yaşamışlar, sonralar isə Azərbaycanın şımal tərəfinə köçmüşlər.

N.Tusi dünya elm və mədəniyyət xəzinəsinə gözəl hədiyyə verən bir şəxsdir. N. Tusi 100 –dən artıq elmi əsərlər yazmışdır. Onun əsərlərinin çoxu dünya xalqlarının dillərinə tərcümə edilmişdir. N. Tusiyə həsr edilmiş çoxlu məqalələr, monoqrafiyalar, dissertasiyalar yazılmışdır. Buna baxmayaraq N. Tusinin qiymətli irsi öyrənilməli və tədqiq edilməlidir. Odur ki, tərəqqipərvər insanlar üçün N. Tusi əziz və qiymətlidir.

**Ədəbiyyat siyahısı:**

1. Асланов Р.М., Гасанова Т.Х. Нравственные взгляды в педагогических произведениях Насираддина Туси, Математическое моделирование в экономике, управлении и образовании: сборник научных статей по материалам III Междуна-

родной научно-практической конференции, Калуга, 2017, стр.105-115.
2. İshaqı N. İ. XVI-XVII əsrlər Azərbaycanında məktəb və mədrəsələr. Azərbaycan məktəbi,1979, Bakı, № 5, s.65-69 .
3. Məmmədbəyli G.D. Nəsrəddin Tusi, Bakı, 1957, 150 s.
4. Xace Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Baki, Elm, 1989 .

*Əliyev Soltan,*
*fikiza-riyaziyyat elmləri doktoru, professor,*
*Rüstəmov Yasin,*
*texnika elmləri doktoru,*
*AMEA İdarəetmə Sistemləri İnstitutu;*
*İbadova İradə,*
*fizika-riyaziyyat elmləri namizədi, dosent,*
*AMEA Riyaziyyat və Mexanika İnstitutu*

## SONSUZ DİSPERSİYAYA MALİK İMMİQRASİYALI VƏ DİSKRET PARAMETRLİ ŞAXƏLƏNƏN PROSESLƏR

Müasir həyatımızın müxtəlif sahələrində (tibb, fizika, texnika, demoqrafiya və s.) çox geniş tətbiqləri olan şaxələnən stoxastik proseslərə tez-tez rast gəlirik.

Şaxələnən prosesləri aşağıdakı kimi təsvir etmək olar.

Təsadüfi sayda hissəciklərdən ibarət olan sistemə baxılır. Bu hissəciklər müəyyən insanlar qrupu, hər hansı bioloji qanunla çoxalan bakteriyalar və ya nüvə reaksiyalarında olan neytronlar ola bilər. Hissəciklər bir-birindən asılı olmayaraq təsadüfi zaman ərzində çoxalaraq başqa, özü kimi hissəciklər yaradır və ya bir hissəsi məhv olurlar.

Bütün hissəciklər eyni paylanma qanunu ilə çoxalırlar.

Praktikada bəzən elə şaxələnən proseslər olur ki, burada hissəciklərin özlərinin çoxalmağından başqa, sistemdə hər hansı təsadüfi mexanizmin hesabına yeni hissəciklər əmələ gəlir və bu hissəciklər gələcəkdə əsas prosesin hissəcikləri kimi inkişaf edirlər. Misal üçün, demoqrafik proseslərdə bu cür hissəciklər kimi müəyyən zaman ərzində ölkəyə daxil olmuş immiqrantları qəbul etmək olar. Bioloji proseslərdə immiqrantlar qismində xarici mühitdən daxil olan individuumlara baxmaq olar. Nəhayət, idarəolunan zəncirvari proseslərdə immiqrasiya kimi sabit güc səviyyəsini saxlamaq üçün xarici mənbədən reaktora daxil olan hissəciklər selini qəbul etmək olar.

Riyazi olaraq diskret parametrli şaxələnən prosesləri aşağıdakı kimi təsvir etmək olar.

Fərz edək ki, $\{\xi_t,\ t=0,1,2...\}$ və $\{\eta_{it},\ i\geq 1,\ t=0,1,2...\}$ iki, asılı olmayan, müsbət, tamqiymətli təsadüfi kəmiyyətlər ailəsidirlər.

$\mu(t),\ t=0,1,2...$ prosesini

$$\mu(0)=0,\qquad \mu(t+1)=\sum_{i=1}^{\mu(t)}\eta_{it}+\xi_i$$

münasibəti ilə təyin edək. Əgər $\eta_{it}$ və $\xi_t$ təsadüfi kəmiyyətlərinə uyğun olaraq $t$ mo-

mentində yaşayan $i$-ci hissəciyin törəmələrinin sayı və $t$ momentində immiqrasiya olunan hissəciklərin sayı kimi baxsaq, onda $\mu(t)$ prosesi immiqrasiyalı və diskret parametrli şaxələnən proses olacaq.

Fərz edək ki, $\xi_t$ təsadüfi kəmiyyətləri eyni paylanmaya malikdirlər və hissəciklər də eyni paylanma ilə $\{p_k, k \ge 0\}$ çoxalırlar. Bu, bütün $(i,t)$ cütləri üçün $\eta_{it}$ təsadüfi kəmiyyətlərinin də eyni paylanmaya malik olması deməkdir.

$$P\{\eta_{it} = k\} = p_k$$

$f(s) = \sum_{k=0}^{\infty} p_k s^k = Ms^{\eta_{it}}$ $|s| < 1,$ ilə doğuran funksiyanı işarə edək. Təqdim olunan işdə sonsuz dispersiyaya malik immiqrasiyalı və diskret parametrli şaxələnən proseslər, $f(s)$ doğuran funksiyasının xüsusi formaya malik olması halında tədqiq olunurlar.

$f(s) = s + (1-s)^{1+\alpha} L(1-s), \qquad |s| < 1.$

Burada $L(x),\ x \to 0$ - da və $0 < \alpha \le 1$ olduqda yavaş dəyişən funksiyadır.

Qeyd edək ki, baxılan haldan fərqli olaraq riyazi gözləmənin vahid olması halında $(f'(1) = 1)$ immiqrasiyalı və diskret parametrli şaxələnən proseslər [1] işində tədqiq edilmişdir.

## Ədəbiyyat siyahısı:

1. Aliyev S.A., İbadova İ.A., Branching process with special generating function, Int. Conf., Modern problems of Mathematics and Mechanics devoted to the 60th anniv.of the IMM, Baku, 2019, p.94-96

*Сулейманов Надир,*
*доктор физико-математических наук, профессор,*
*Институт Математики и Механики НАН Азербайджана,*
*Фараджли Дунья*

# ОБ ОЦЕНКАХ ТИПА ВИМАНА-ВАЛИРОНА ДЛЯ РЕШЕНИЙ ПАРАБОЛИЧЕСКИХ УРАВНЕНИЙ

Рассматривается в гильбертовом пространстве параболическое уравнение вида

$$u' + A(t)u = 0,$$

где $A(t)$-положительный самосопряженный эллиптический оператор с дискретным спектром. Применяя новейшие асимптотические формулы для функции распределения $N(\lambda)$ собственных значений оператора $A(t)$ и некоторые собственные вероятностные методы, для решений уравнения (1) таких, что $\|u(t)\| \to \infty$ при $t \to 0$, установлены оценки типа

$$\|u(t)\| \le \psi(\mu(t)),$$

где, в частности, $\mu(t)=\max\limits_{n}|c_n(0)|e^{-t\lambda_n}; c_n(0)$-коэффициенты Фурье начальной функции $u_0(x)$ по системе $\{\varphi_k\}$ – собственных функций оператора $A(t)$, а $\{\lambda_k\}$-последовательность его собственных значений, $\psi(y)>0, y>0$-некоторая неубывающая функция.

## Список использованной литературы:


1. Сулейманов Н.М., Вероятность, целые функции и оценки типа Вимана-Валирона для эволюционных уравнений. Москва, Издательство МГУ имени М.В. Ломоносова, 2012, 235 с.
2. Сулейманов Н.М., Фараджли Д.Е. Об оценках типа Вимана-Валирона для эволюционных уравнений, Дифференциальные уравнения, 53 (2017), №8, 1090-1097.
3. Yu. Netrusov, Yu. Safarov, Weyl asymptotic formula for the Laplacian on domains with rongth boundaries, Comm. Math. Phys. 253 (2), (2005), 481-509.



*Сабзалиева Ильхама,*
*кандидат физико-математических наук, доцент,*
*Азербайджанский Государственный Университет*
*Нефти и Промышленности*


# АСИМПТОТИКА РЕШЕНИЯ КРАЕВОЙ ЗАДАЧИ ДЛЯ КВАЗИЛИНЕЙНОГО ГИПЕРБОЛИЧЕСКОГО УРАВНЕНИЯ

Исследованию сингулярной возмущённых гиперболических уравнений посвящено гораздо меньше работ чем работ, относящихся к эллиптическим и параболическим уравнениям. Следует отметить работы [1]-[3], относящиеся к нелинейным сингулярной возмущенным гиперболическим уравнениям.

В прямоугольнике $D=\{(t,x)\,|\,0\le t\le T,\ 0\le x\le 1\}$ рассматривается краевая задача

$$L_\varepsilon u \equiv \varepsilon\frac{\partial^2 u}{\partial t^2}+\varepsilon^{2k}\left(\frac{\partial u}{\partial t}\right)^{2k+1}+\frac{\partial u}{\partial t}-\frac{\partial^2 u}{\partial x^2}+au-f(t,x)=0, \qquad (1)$$

$$u\big|_{t=0}=0,\quad \frac{\partial u}{\partial t}\bigg|_{t=0}=0,\quad (0\le x\le 1), \qquad (2)$$

$$u\big|_{x=0}=u\big|_{x=1}=0,\quad (0\le t\le T), \qquad (3)$$

где $k$- произвольное натуральное число, $a>0$ – постоянное $f(t,x)$ – заданная гладкая функция.

При каждом фиксированном значении $\varepsilon$ существует единственное обобщенное решение краевой задачи (1)-(3). Нашей целью является построение полной асимптотики по малому параметру решения краевой задачи (1)-(3). Для этого проведены итерационные процессы.

В первом итерационном процессе приближенное решение уравнения (1) ищется в виде $W=\sum_{i=0}^{n}\varepsilon^i W_i$, причем функции $W_i(t,x)$ будем выбраны таким образом, что

$$L_\varepsilon W = O(\varepsilon^{n+1}). \qquad (4)$$

Для определения функции $W_i$ получаются следующие уравнения:

$$\frac{\partial W_i}{\partial t}-\frac{\partial^2 W_i}{\partial x^2}+aW_i = f_i(t,x);\ \ i=0,1,...,n. \qquad (5)$$

Здесь $f_0(t,x)=f(t,x)$, а через $f_i(t,x)$ обозначены известные функции, зависящие от производных $W_0,W_1,...,W_{i-1}; i=1,2,...,n.$

Для всех уравнений (5) по $x$ задаются следующие краевые условия:

$$W_i\big|_{x=0}=0,\quad W_i\big|_{x=1}=0;\quad i=0,1,...,n. \qquad (6)$$

Для начального условия по $t$ для уравнений (5) будем использовать первое условие из (2). Эти начальные условия будут написаны чуть позже. Тогда ВТО-рое начальное условие из (2) будет потеряно. Для компенсации потерянного условия следует построит погранслойную функцию вблизи $t=0$.

Погранслойную функцию вблизи границы $t=0$ следует искать в виде $V=\sum_{i=0}^{n}\varepsilon^{1+i}V_i(\tau,x)$ как приближенное решение уравнения

$$L_{\varepsilon,1}(W+V)-L_{\varepsilon,1}W=O(\varepsilon^{n+1}), \qquad (7)$$

где $\tau=t/\varepsilon, L_{\varepsilon,1}-$новое расщепление оператора $L_\varepsilon$ в координатах $(\tau,x)$. Для определения функций $V_i$ получаются следующие уравнения:

$$\frac{\partial^2 V_i}{\partial \tau^2}+\frac{\partial^2 V_i}{\partial \tau}=h_i;\ i=0,1,...,n, \qquad (8)$$

где $h_0\equiv 0$, а через $h_i$ обозначены известные функции, зависящие от функций $V_0,V_1,...,V_{i-1};\quad i=1,2,...,n$.

Подставив выражения $W$ и $V$ равенство $(W+V)\big|_{t=0}=0$ и сравнивая коэффициенты при одинаковых степенях $\varepsilon$, степени которых меньше чем $n+1$ имеем

$$W_0\big|_{t=0}=0,\quad W_i\big|_{t=1}=-V_{i-1}\big|_{\tau=0};\quad i=1,2,...,n. \qquad (9)$$

Краевые условия для уравнений (8) находится из требования

$\frac{\partial}{\partial t}(W+V)\Big|_{t=0}=0$ и имеют вид

$$\frac{\partial V_i}{\partial \tau}\Big|_{\tau=0}=-\frac{\partial W_i}{\partial t}\Big|_{t=0}; \quad i=0,1,...,n. \qquad (10)$$

Из (9) следует, что первой итерационный процесс и итерационный процесс для построения погранслойный процесс для построения погранслойных функций будут вложены друг в друга.

Предполагая, что функция $f(t,x)$ входит в пространство $C^{n+1,2n+6}(D)$ и удовлетворяет условию

$$\frac{\partial^{2r} f(t,0)}{\partial x^{2r}}=\frac{\partial^{2r} f(t,1)}{\partial x^{2r}}=0;\ r=0,1,...,n+2 \qquad (11)$$

из (5), (6) при $i=0$ и (9) определяется функция $W_0(t,x)$ которая входит в пространство $C^{n+2,2n+4}(D)$ и удовлетворяет условию

$$\frac{\partial^{i_1+2i_2} W_0(t,0)}{\partial t^{i_1}\partial x^{2i_2}}=\frac{\partial^{i_1+2i_2} W_0(t,1)}{\partial t^{i_1}\partial x^{2i_2}}=0; \quad i_1=i_2\le n+2. \qquad (12)$$

Функция $V_0(\tau,x)$ определяет как погранслойная решения уравнения (8) при $i=0$, удовлетворяющее краевому условию (10) при $i=0$. Продолжая процесс, поочередно определяются все функции $W_i$ и $V_i$ входящие в разложениях $W$ и $V$.

В итоге доказана следующая

**Теорема**. Пусть $f(t,x)$ заданная функция, входящая в пространство $C^{n+1,2n+6}(D)$ и удовлетворяющая условию (11).

Тогда для обобщенного решения задачи (1)-(3) справедливо асимптотическое представление в виде

$$u=\sum_{i=0}^{n}\varepsilon^i W_i+\sum_{i=0}^{n}\varepsilon^{1+i}V_i+z,$$

где функции $W_i$ определяются первым итерационным процессом, $V_i$ - функции типа пограничного слоя вблизи границы $t=0$ которые определяются Вторым итерационным процессом, а $z-$ остаточный член, причем для него справедлива оценка

$$\varepsilon\int_0^1\left(\frac{\partial z}{\partial t}\Big|_{t=T}\right)^2 dx+\varepsilon^{2k}\iint_D\left(\frac{\partial z}{\partial t}\right)^{2k+2} dtdx+\int_0^1\left(\frac{\partial z}{\partial t}\Big|_{t=T}\right)^2 dx+c_1\int_0^1\left(z\big|_{t=T}\right)^2\le c_2\varepsilon^{2(n+1)},$$

где $c_1>0, c_2>0$-постоянные, не зависящие от $\varepsilon$.

**Список использованной литературы:**

1. Ng Kin-Chung. An asymptotic solution of the nonlinear reduced wave equation// Acta math. Sci., Vol. 21, No 72, 2001, pp.275-281.
2. Chen Guo-un, Chen Jin-Jiefangjun. Asymptotic expansion for quasi-linear singular perturbation problem of hyperbolic partial differential equation //Liefangjun ligong daxue xuebaa . ziran. kexue ban. J.PLA Univ. sci and Texnol/ Ntur. Sci ed., 2004, V.5, No, p.91-94.
3. Bianchini Stefano. Hyperbolic limit of the Jin-Xin relaxation mode// Commun pure and Appl. Math., Vol 59, No 5 , 2006, p.688-753.



*Səmədova Səkinə,*
*fizika-riyaziyyat elmləri namizədi, dosent,*
*Azərbaycan Dövlət Neft və Sənaye Universteti*


## XÜSUSİ TÖRƏMƏLİ PARABOLİK TİPLİ KVAZİXƏTTİ TƏNLİK ÜÇÜN QARIŞIQ MƏSƏLƏNİN SONLU-FƏRQLƏR ÜSULU İLƏ HƏLLİ

Abstrakt parabolik tənliyə gətirilən kvazixətti tənlik üçün qarışıq məsələnin sonlu fərqlər üsulu ilə həllinə baxaq:

$$\frac{\partial^2 u}{\partial t^2} - a(t)\frac{\partial^3 u}{\partial t \partial x^2} - b(t)\frac{\partial^2 u}{\partial x^2} = f(u)\frac{\partial u}{\partial t} + g(u) \tag{1}$$

$$u(x,0) = u_0(x), \qquad u_t'(x,0) = u_1(x), \qquad 0 \le x \le l \tag{2}$$

$$u(0,t) = u(l,t) \tag{3}$$

$\Omega = \{0 \le t \le T; \quad 0 \le x \le l\}$ düzbucaqlısında $\tau = \frac{T}{n},\ h = \frac{l}{m}$ addımlı $\omega_{\tau h} = \omega_\tau \cdot \omega_h = \{t_k = k\tau,\ k = \overline{0,n},\ x_j = jh,\ j = \overline{0,m}\}$ şəbəkəsi quraq və $\omega_{\tau h}$ şəbəkəsində y funksiyasının qiymətlərini $y_k^j$ işarə edək. (1)-(3) məsələsi üçün

$$\frac{y_{k+1}^j - 2y_k^j + y_{k+1}^j}{\tau^2} - a(t_{k+1})\frac{y_{k+1}^{j+1} - y_k^{j+1} - 2y_{k+1}^j + 2y_k^j + y_{k+1}^{j-1} - y_k^{j-1}}{\tau h^2} - b(t_k)\frac{y_k^{j+1} - 2y_k^j + y_k^{j-1}}{h^2} =$$
$$= f(y_k^j)\frac{y_k^j - y_{k-1}^j}{\tau} + g(y_k^j) \qquad k = 1, \overline{n-1}; \quad j = 1, \overline{m-1} \tag{4}$$

$$y_k^0 = y_k^m = 0, \qquad k = \overline{0,n} \tag{5}$$

$$y_0^j = u_0(x, j) - \tau u_1(x_j) + O_1(1);\ y_1^j = u_0(x_j) + O_2(1),$$
$$O_2(1) - O_1(1) = O(\tau) \qquad (6)$$

fərqlər sxemini quraq.

Məlum olduğu kimi (4) –(6) sxeminin həlli mövcud teoremə əsasən korrektdir.

İndi H hilbert fəzasında

$$u''(t) + A(t)\, u'(t) + B(t)U(t) = f(t, u(t), u'(t)), \quad 0 \le t \le T \qquad (7)$$

$$u(0) = u_0, \quad u'(0) = u_1 \qquad (8)$$

məsələsinin sonlu fərqlər üsulu ilə həllinə baxaq. Burada A(t) operatoru hər bir $t \in [0;T]$ üçün müsbət müəyyən və öz-özünə qoşma, B(t) isə A(t)-yə tabe operatordur.

Əvvəlki işlərimizdən məlumdur ki, (7)-(8) məsələsi üçün $H_n$ hilbert fəzasında qurulmuş

$$\frac{y_{k+1} - 2y_k + y_{k-1}}{\tau^2} + A_n(t_{k+1})\frac{y_{k+1} - y_k}{\tau} + B_n(t_k)y_k = f_n(t_k, y_k, \frac{y_k - y_{k-1}}{\tau}) \qquad (9)$$

$$y_0 = \mu_0, \quad y_1 = \mu_1 \qquad (10)$$

fərqlər sxemi üçün (harada ki, həll komponentləri $H_n$ fəzasından olan $y = (y_0, ..., y_n)$ vektoru başa düşülür) aşağıdakı teorem doğrudur:

**Teorem.** Tutaq ki, aşağıdakı şərtlər ödənilir:

1. $A_n(t) \in B(H_n), \qquad A_n^*(t) = A_n(t) \ge C^2 I.$
2. A(t) operatoru D(A,E) –də güclü kəsilməz diferensiallanandır.
3. $A_n(t_k) \to A(t), \quad B_n(t_k) \to B(t), \quad A_n'(t_k) \to A'(t).$
4. $\|B_n(t) \cdot A_n^{-1}(t_k)\| \le C$ və $\|[A_n(t_{k+1}) - A_n(t_k)] \cdot A_n^{-1}(t_k)\| \le C\tau.$
5. $f_n(t_k, V, W)$ operatoru $H_n x H_n$ fəzasından $H_n$ fəzasına təsir edir və istənilən $(v_1, w_1), (v_2, w_2) \in S(R, H_n(A_n) x H_n(A_n^{\frac{1}{2}}))$ üçün Lipşits şərtini ödəyir.
6. $f_n(t_k, P_n v, P_n w) \to f(t, v, w).$
7. $\mu_0 = p_n u_0 - \tau p_n u_1 + A_n^{-\frac{1}{2}}(\tau)O_1(1), \ \mu_1 = p_n u_0 + A_n^{-\frac{1}{2}}(\tau)O_2(1),$ harada ki, $O_2(1) = A_n^{-1}(\tau) \cdot O_1(1)$ və $O_2(1) - O_1(1) = O(\tau),\ P_n \in B(E, H_n)$ isə $\|P_n\|_{B(E,H_n)} \le N$ və $\|P_n u\|_{H_n} \to \|u\|_H,\ n \to \infty$; xassələrinə malik operatordur. Onda (9)-(10) sxemi korrektdir və onun həlli (7)-(8) məsələsinin $u(t)$ həllinə yığılır.

(1) tənliyini (7) ilə müqayisə etsək,

$$A(t)u=-a(t)\frac{\partial^2 u}{\partial x^2},\quad B(t)u=-b(t)\frac{\partial^2 u}{\partial x^2},\quad f(t,u,v)=f(u,v)\cdot v+g(u) \tag{11}$$

olduğunu alarıq.

Tutaq ki, $H_n=L_2^{m_n}$ - $m_n$ ölçülü vektorlar fəzası

$$\|z\|_{L_2^{mn}}^2=\sum_{j=1}^{m_n}\left|z^j\right|^2\cdot h,\quad h=\frac{l}{m_n} \tag{12}$$

normasına malikdir. Eyni zamanda $P_n$ operatoru approksimasiya operatoru olduğundan hər bir $u\in C[0,l]$ üçün $P_n u=z=(z^1,z^2,.....,z^{m_n})\in L_2^{m_n}$, $z^j=u(jh)$ bərabərliyi doğrudur.

(12) normasına əsasən

$$\|p_n u\|_{L_2^{mn}}^2=\sum_{j=1}^{m_n}|u(jn)|^2\cdot h\le \max_{j=\overline{1,m_n}}\left|u(jn)^2\cdot h\cdot m_n\le l\cdot\max_{x\in[0,l]}|u(x)|^2=l\|u\|_{c[0,l]}^2\right|$$

alarıq.

Onda ixtiyari $z\in L_2^{m_n}$ üçün $A_n(t)$, $B_n(t)\in B(L_2^{m_n})$ operatorlarını aşağıdakı şəkildə təyin etmək olar:

$$[A_n(t)z]^j=-a(t)\frac{z^{j+1}-2z^j+z^{j-1}}{h^2},\quad j=\overline{1,m_n-1},\quad z^0=z^{mn}=0 \tag{13}$$

$$[B_n(t)z]^j=-b(t)\frac{z^{j+1}-2z^j+z^{j-1}}{h^2},\quad j=\overline{1,m_n-1}. \tag{14}$$

$A_n(t)$ və $B_n(t)$ operatorları $L_2^{m_n}$ fəzasında müsbət müəyyən öz-özünə qoşma operatorlardır.

(11) və (13) bərabərliklərindən və $P_n$ operatorunun tərifindən

$$\|P_nA(t)u-A_n(t)P_nu\|_{L_2^{m_n}}=$$

$$=|-a(t)|\left\|\frac{\partial^2 u(x_1)}{\partial x^2}-\frac{u(x_2)-2u(x_1)+u(x_0)}{h^2},\ldots,\frac{\partial^2 u(x_{m_n})}{\partial x^2}-\frac{u(x_{m_{n+1}})-2u(x_{m_n})+u(x_{m_{n-1}})}{h^2}\right\|_{L_2^{m_n}}$$

münasibətini almış oluruq.

$\|z\|_{L_2^{m_n}}^2=\sum_{j=1}^{m_n}\left|z^j\right|^2\cdot h\le l\max_{j=\overline{1,m_n}}\left|z^j\right|^2$ münasibətindən alınır ki, z vektorunun bütün komponentləri $n\to\infty$ şərtində $j=\overline{1,m_n}$-ə nəzərən müntəzəm olaraq $\left|z^j\right|\to 0$ olarsa, onda $\|z\|_{L_2^{m_n}}^2\to 0,\ n\to\infty$ olar. $\frac{\partial^2 u(x_j)}{\partial x^2}-\frac{u(x_{j+1})-2u(x_j)+u(x_{j-1})}{h^2}\to 0$ olduğundan $\max_{t\in[0,T]}\|A_n(t)p_nu-p_nA(t)u\|\to 0$ və analoji qaydada $\max_{t\in[0,T]}\|B_n(t)p_nu-p_nB(t)u\|\to 0$ alınır. Asanlıqla $A_n(t)$ operatorunun Lipşits şərtini ödəməsini də yoxlamaq olar.

$f_n(u,v)$ operatorunu aşağıdakı şəkildə təyin edək:

$$\left[f_n(z,w)\right]^j = f(z^j)\cdot w^j + g(z^j) \qquad (15)$$

$$\left[P_n f(u,v)\right]^j = \left[P_n\left[f(u)v + g(u)\right]\right]^j = f(u(jh))\cdot v(jh) + g(u(jh)) \text{ və}$$

$$\left[f_n(P_n u, P_n v)\right]^j = f(u(jh))\cdot v(jh) + g(u(jh)) \quad \text{münasibətləri ödənildiyindən}$$

$$\left\| f_n(P_n u, P_n v) - p_n f(u,v)\right\|_{L_2^{mn}} = 0,\ \forall u \in C^1[0,\, l]$$

alarıq.

Eyni zamanda $f_n(u,v)$ operatorunun da Lipşits şərtini ödədiyini yoxlamaq olar.

(13), (14) və (15) bərabərliklərindən istifadə etməklə, bütün $y_k = (y_k^1,....,y_k^{m_n}) \in L_2^{m_n}$ vektorları üçün

$$\left[A_n(t_{k+1})\frac{y_{k+1}-y_k}{\tau}\right]^j = -a(t_{k+1})\frac{y_{k+1}^{j+1} - y_{k+1}^{j+1} - 2y_{k+1}^j + 2y_k^j + y_{k+1}^{j-1} - y_k^{j-1}}{\tau h^2} \qquad (16)$$

$$\left[B_n(t_k)y_k\right]^j = -b(t_k)\frac{y_k^{j+1} - 2y_k^j + y_k^{j-1}}{h^2} \qquad (17)$$

$$\left[f_n(y_k, \frac{y_k - y_{k-1}}{\tau})\right]^j = f(y_k^j)\frac{y_k^j - y_{k-1}^j}{\tau} + g(y_k^j), \qquad k = \overline{1,n},\ j = \overline{1,m_n} \qquad (18)$$

olduqlarını almaq olar.

Nəhayət (9)-(10) və (16)-(18) –i nəzərə alsaq, (4)-(6) sxemini alarıq.

Onda teoremə əsasən (4)-(6) sxeminin korrektliyini və yığılmasını göstərmək olar.

(4)-(6) sxeminin yığılması

$$\max_{k=\overline{1,n-1}}\left\|A_n(t_{k+1})\left[y_{k+1} - P_n U(t_{k+1})\right]\right\|_{L_2^{mn}} + \left\|A_n^{\frac{1}{2}}(t_{k+1})\left[\frac{y_{k+1}-y_k}{\tau} - P_n\frac{u(t_{k+1})-u(t_k)}{\tau}\right]\right\|_{L_2^{mn}} \to 0,\ n \to 0$$

mənasında başa düşülür.

## Ədəbiyyat siyahısı:


1. S.Y.Yaqubov “Doktorluq dissertasiyası.” Bakı 1969.
2. S.Y.Yaqubov, L.Ş.Əbdülkərimov “Banax fəzasında parabolik tip kvazixətti diferensial tənlik üçün Koşi məsələsinin araşdırılması”. AEA-nın xəbərləri. 1966.
3. S.H.Səmədova “Namizədlik dissertasiyası”. Bakı 1976.

*Hüseynova Mahirə Nağı qızı, professor,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN ƏSƏRLƏRİNDƏ TOPONİMLƏRİN LEKSİK-SEMANTİK VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Əbdürrəhim bəy Haqverdiyevin əsərlərində toponimlər spesifik əlamətlər kəsb edir və personajların nitq aktlarına aydınlıq gətirən üslubi vasitə rolunu oynayır. İstər nəsr, istərsə də dramlarının dilində Ə. Haqverdiyev toponimlərə də xüsusi əhəmiyyət vermişdir. "Sənətkar yaradıcılığının və ictimai həyatının rəngarəngliyi onun bədii əsərlərində mövcud olan toponimlərdə də bilavasitə özünü göstərir. Bədii dildə obrazlara verilən xüsusi adlar kimi, toponimlər də həm üslubi, həm də şərti xarakter daşıya bilər. Poetik toponimika artıq bədii üslubda əsərin süjetinə, kompozisiyasına, ideyasına və s. xidmət edir. Bədii əsər yazan sənətkar hadisələrin cərəyan etdiyi məkanı seçir, məqamında işlənən coğrafi adlar bədii dilin təsir qüvvəsini artırır". Araşdırmalarımız göstərir ki, oxunaqlı əsərlərin müəllifi Ə. Haqverdiyev yaradıcılığında "... sözləri seçərək, onları məntiqi baxımdan bir-birinə bağlayaraq oxucu qəlbini riqqətə və ehtizaza gətirən gerçək bir dil mənzərəsi yaratmışdır. Bu zaman yazıçının əsərlərinin dilinə digər dil vasitələri ilə birlikdə axıcılıq və əlvanlıq gətirən toponimlər də işləkliyinə görə daha çox diqqəti cəlb edir.". Bu böyük söz sənətkarı çox zaman coğrafi adlardan öz real məqsədinə çatmaq məqamında istifadə etmişdir. Yazıçının əsərlərində adı çəkilən toponimlər əsasən, real və qeyri-real adlardır. Bu adlar xüsusi lay təşkil etməklə kontekstual şəraitdə mühüm əhəmiyyət kəsb edir və yazıçı əsərlərində bu toponimlərdən detallaşma vasitəsi kimi istifadə etmişdir. Məsələn, ədib "Şəbih" hekayəsində toponimlərdən istifadə etmişdir ki, bunlardan 4-ü real, 1-i isə uydurma toponimdir. Hekayədən bir parçaya nəzər salaq: "Özünüzə məlumdur ki, mən də həmişə məhərrəm ayında bir ay qalmış Qafqaz məmləkətinə gəlirəm və vaxtında, oxumalı məscidləri müəyyən edirəm. Ona görə də Allah mömin qardaşlara bərəkət versin, ildə beş-on şahı qılbeçələrmə çörək pulu aparıram. Bu il məhərrəm ayına ancaq on gün qalmış ***Badikubəyə*** varid oldum. Təhkiyələri bir-bir gəzib, gördüm hər yerdə mərsiyəxan tutulub. Getdim Gəncəyə, olmadı. İstəmədim İravana, Naxçıvan tərəfə gedim, məsləhət görmədilər: dedilər: "Gedərsən Molla Mahmud çakərlə Şaxtaxtılı oğlu o qədər vurarlar ki, bir belə də şişərsən." Çox fikir edəndən sonra dedim yenə ***Dəccəlabad*** yaxşıdır. Oranın əhli həm mömindilər, həm də mərsiyəxana ehtiram edirlər. Gəldim çıxdım ***Dəccəlabada.***

Məscidlərə getdim, mərsiyəxan hazır, təkyələrə getdim, həmçinin. Axtarıb bizim Molla Nəbiqulunu tapdım, çoxdan ***Dəccəlabadda*** müqimdir. Ərdəbildə arvadı ilə dalaşıb, dörd uşağı ilə qoyub gəlib, ***Dəccəlabadda*** iki arvad alıb. Biri iranlı, o biri həmin yerli. Yaxşı oğlandır, Allah pənahında saxlasın; ***Dəccəlabadda*** əməleyi-mövtadan hesab olunur".

Göründüyü kimi, hekayədə adı çəkilən Qafqaz, Badikubə, Gəncə, İrəvan, Naxçıvan, Ərdəbill toponimləri real, təkcə Dəccəlabad toponimi uydurmadır. Digər yer-yurd adları ilə müqayisədə Dəccəlabad toponimi işlənmə tezliyinə görə də aktivdir. Əslində Azərbaycanda Dəccəlabad adda şəhər yoxdur. Bu uydurma toponim nökt şəkilçi modeli əsasında yazıçının yaratdığı xüsusi addır. Dəccəl dinə görə, yalançı, ziyankar, tüy-

göz bir adam imiş. Ədib hekayədə bu toponimi satirik mənada Dəccəlabad adlandırmışdır.

Ümumiyyətlə, bütün bədii əsərlərdə yer-yurdlarını "... bir-birindən fərqləndirmək məqsədi ilə istifadə olunan hər bir həqiqi ad real toponimlər, yazılı ədəbiyyatda və folklorda müəyyən bədii məqsədlərlə bağlı işlədilən toponimlər adlanır".

Ə. Haqverdiyev əsərlərində istifadə etdiyi toponimlər vasitəsilə bədii nitqdə ülubi qayə əmələ gətirmiş və həm də daha çox hekayələrində kommunikativ, estetik funksiyaları yerinə yetirmişdir. Yazıçının hekayələrinin dilində toponimlərin istifadə imkanları genişləndikcə, çoxaldıqca üslubi – semantik rəngarənglikdə intensivləşmiş və çoxalmışdır. Məsələn, yazıçı "Pir" hekayəsində Mirzə Cavadın gərdiyi, oturduğu, durduğu yerləri təsvir etmək məqamında Tiflis, Bakı, İrəvan, Gəncə kimi toponimlərdən istifadə edərək bədii nitqin özünəməxsus üslubi qurumunu formalaşdırmışdır: "Mirzə Cavad küçə mirzəsi idi. Böyük sahələrdə, məsələn: Tiflisdə, Bakıda, İrəvanda, Gəncədə ondan görmək mümkündür. Bunlardan ya məscid darvazasının altında, ya meydanlarda, ya məhz küçələrdə görərsiniz. Bir xırda palaz salıb, qabaqlarında bir yeşik və yeşiyin üstündə iki-üç kitab, bir qələmdan, neçə varaq kağız, əyləyib müştəriyə müntəzirdilər".

Ə. Haqverdiyev "Fərman və Gövhərtac" hekayəsində də toponimik vahidlərdən müəyyən əlamətlə, keyfiyyətlə, hadisə ilə səciyyəvi olan yerin adını bildirmək üçün istifadə etmişdir. Yazıçı hekayədə Hacı Kamyabın ticarətlə məşğul olduğu, işlədiyi şəhərlərin, ölkələrin adlarını sadaladıqca əsərin dili də zənginləşir və informasiya dolğunluğu maksimum həddə yüksəldilir: "İbrahimin Hacı Kamyab adlı bir qardaşı var idi. Hacı Kamyab şəhərdə ən zəngin tacir sayılırdı. Onun ticarəti nəinki öz məmləkətində, hətta əcnəbi ölkələrdə də işləyirdi. ***İstanbulda***, ***Bakıda***, ***Tiflisdə***, ***Batumda*** onun amilləri var idi. Rusiyanın hər şəhərinə onun malı işləyirdi. İldə bir dəfə hacı özü səyahətə çıxıb, təştiş və bazarların tələbatına bələd olmaq üçün Rusiyanı, Türkiyəni gəzib qayıdırdı. Həştaddan çox kəndi var idi. Bir böyük gəbə, xalı fabriki var idi. Neçə yüz əmələ onun fabrikində və kəndlərində işlərdi. Vaqonlar dolusu Hacı Kamyabın cəbzəsi, kişmişi Rusiyaya gedərdi"

Bədii əsərlərdə istifadə olunan toponimlərin semantik-üslubi imkanlarının nəyə qadirliyindən bəhs edən A.İ.Yefimov yazır ki, bədii əsərin adlar sisteminin semantik-üslubi prinsip əsasında tədqiqi həmin sözlərin böyük əksəriyyətinin üslubi cəhətlərinin canlandırılmasına xidmət göstərir. Bu isə toponimik vahidlərin "ülubu pasportu" kimi dəyərləndirilə bilər.

Toponimik vahidlər müxtəlif xalqların, millətlərin adət-nənələrini bədii əsər təsvir etmək baxımından olduqca güclü informasiya keyfiyyətinə malikdirlər. Ə.Haqverdiyev yeri gəldikcə əsərlərində xarici toponimlərə də müraciət etmiş və adlar vasitəsilə istər xalqımıza, istərsə də digər millətlərə xas olan adətləri çox gözəl bir şəkildə vermişdir. Aşağıdakı mətnə diqqət yetirək: "Ağaya xəbər verəndə buyurdu ki, zəhmət çəkib gələ bilər. Onunla görüşmək ***Firənistanın*** əhvalatından və fəzilətindən bir qədər xəbərdar olmaq eyib etməz. Ağa onun gəlməyi üçün bir vaxt təyin etdi.

Həmin Firəng səyyahı nağıl edərdi:

Əcnəbi tələbələrə Azərbaycan dilinin təlimi prosesində dil materialı ilə kompleks tanışlıq baş verir, yəni, leksik, qrammatik və fonetik material, real nitq ünsiyyətində istirakı təmin edən müəyyən komplekslərdə birləşir. Nitq ünsiyyəti, nitq fəaliyyətinin müxtəlif növlərində dinləyib – anlama, danışıq, oxu və yazı – tələbələrin vərdiş və bacarıqlarının mövcudluğunu müəyyən edir. Dinləyib-anlama, yəni səslənən nitqin qavranılması və başa düşülməsi aktiv yaradıcı prosesi ifadə edir. Dinləyənlər artıq qısaca ifadə edilmiş fikirləri qavrayır və başa düşür.

Oxu, danışıq və yazı zamanı tələbə ona əlverişli olan sürəti seçə bilər. Dinləyən isə tamamilə məlumatın mənbəyindən asılıdır.

Eşitmə və artikulyasiya vərdişləri arasında möhkəm əlaqə mövcuddur. Nitqin qavranılması zamanı daxili danışıq baş verir. Əgər dinləyici danışanın mimikası, əl –

qol hərəkəti və danışıq üzvlərini müşahidə etmək imkanına malikdirsə, bu daxili danışığı yüngülləşdirir, buna görə də müəllimin canlı nitqi, tələbələr tərəfindən daha asan qavranılır. Dinləmənin başa düşülməsi üçün, daxili nitqin əhəmiyyəti çox böyükdür.

Başlanğıc mərhələsində dinləmə danışıqla sıx əlaqədə inkişaf etməlidir, belə ki, danışan, nitqi təkcə icra etmir, həm də qulaq asaraq qavrayır, bu da artikulyasiya və dinləmə duyğuları arasında möhkəm əlaqələrin müəyyən edilməsinə kömək edir.

Dinləyib - anlama təlimi fonematik və intonasiya eşitmənin formalaşmasından başlanır. Dəqiq tələffüz vərdişləri qavrayış prosesini yüngülləşdirən şərtlərdən biridir. Nitq eşitməsinin inkişafı üçün müxtəlif növlü çalışmalar mövcuddur. Bu " Dinləyin və aşağıdakı sözləri (söz birləşmələri, cümlələri) təkrarlayın " növlü çalışmalar ola bilər. Tələbələr təklif olunan materialı bir dəfə təqdim edildikdən, yəni verildikdən sonra təkrar etməlidirlər. Təqlid etmə çalışmaları, cümlə səviyyəsində, belə növdə ola bilər: "İntonasiyaya riayət edərək, cümlələri təkrar edin"; "Nəqli intonasiyanı suala və ya əksinə transformasiya edərək cümləni təkrarlayın". Nitq eşitməsinin inkişafı üçün təklif olunan ayrı və ya əlaqəli materialda səslərin, hecaların, cümlələrin, məna hissələrinin bölünməsinə aid çalışmalar üzərində işləmək lazımdır.

Dinləyib-anlama vərdişlərinin formalaşmasında ehtimali proqnozlaşdırma böyük rol oynayır. Tələbələrin malik olduqları dil təcrübəsi onlara sözün, cümlənin, məlumatların bir hissəsini eşidən kimi onun sonunu proqnazlaşdırmağa kömək edir. Ehtimali proqnozlaşdırma hecadan mətnə kimi dilin bütün səviyyələrində meydana çıxır. Məsələn, sözün başa düşülməsi fonematik eşitmənin, söz yaradıcılığı və sözlərin uzlaşması biliklərinin təşkil edilməsindən, xüsusən kontekstlə çoxmənalı sözlərin mənasını əlaqələndirmək bacarığından asılıdır. Cümlə səviyyəsində proqnozlaşdırma üçün sintaktik əlaqə növləri bilikləri əhəmiyyətlidir.

Beləliklə, dinləyib-anlamanın müvəffəqiyyəti leksik, qrammatik və fonetik vərdişlərin tərtib olunmasından asılıdır. Cümlə səviyyəsində ehtimali proqnozlaşdırma vərdişlərinin inkişafına aid çalışma növlərindən biri aşağıdakıdır: "Cümləni dinləyin, onları tamamlayın: *Mən məktub yazdım, onu zərfin içinə qoydum və...; Mən məktubu poçt qutusuna atdım. O indi...; Mənim qardaşım yaxşı üzür, çünki o...; Mənim bacım səyahət etməyi xoşlayır, çünki o...? Küçədə qar yağırdı, amma iş hələ də...*"

Mətn səviyyəsində dinləyib–anlama, bütün məlumatı yadda saxlamaq, natamam faktları və ümumi konteksti birləşdirmək bacarığı ilə əlaqəlidir. Mətnin dinləyib – anlamasının müvəffəqiyyətli olması üçün, başa salma mərhələsində yeni materialın düzgün seçimindən başlamaq lazımdır. Təxminən 50 sözdən ibarət, yarım dəqiqəyə səslənən mikromətn (məna hissələri) dinləyib – anlamasına aid çalışmalar təklif etmək lazımdır.

Artıq deyildiyi kimi, nitq məlumatlarının dinləyib – anlama vərdişi qısamüddətli və uzunmüddətli yaddaş fəaliyyəti ilə əlaqəlidir. Cümləni başa düşmək üçün, tələbə verilmiş cümlənin ibarət olduğu sözlərin bütün səs ardıcıllığını fikrində tutmalıdır. Nə qədər qısa olsa, onu yadda saxlamaq bir o qədər asan olur. Buna görə də, başlanğıc mərhələdə dinləyib – anlamanın təlimi zamanı 5-7 sözdən çox olmayan cümlələrdən istifadə etmək tövsiyyə olunur. Tədricən cümlənin uzunluğunu böyüdərək, onun həcmini 10-12 sözə qədər çatdırmaq olar. Bu, həmçinin bütün mətndə cümlə və məna hissələrinin miqdarına da aiddir.

Beləliklə, qısamüddətli yaddaş qavrama prosesində daxil olan məlumatı saxlayır. Sonra məlumatın lazımi hissəsi söz, söz birləşməsi və sintaktik konstruksiyalar, onların birləşmə qaydaları və sxemlərinin saxlandığı uzunmüddətli yaddaşa keçir. Qısamüddətli yaddaşın həcmini xüsusi çalışmaların köməyi ilə böyütmək olar. Məsələn: “Söz, söz birləşməsi və ya cümlə sıralarını dinləyin, onları təkrarlayın”; “Cümlə və ya cümlə sıralarını iki dəfə dinləyin; onlara nəyin əlavə olunduğunu və ya buraxıldığını müəyyən edin”; “Dinləyin və cümlələri təkrar edin” və s.

Qavranılmış məlumatın mükəmməl başa düşülməsi haqqında, yalnız dinləyicinin, onun əsas məzmununu bir neçə sözlə ifadə etməyi bacardığı halda danışmaq olar. Əgər tələbə dinlənilmiş məlumatın bütün söz və cümlələrini başa düşüb, lakin əsas fikrin, mənanın, hekayənin ideyasının nədən ibarət olduğunu deyə bilmirsə, deməli, anlamanın yüksək səviyyəsinə nail olmayıb. Tələbələrə eşidilmiş cümlələrin eyni fikri başqa sözlərlə ifadə etməyi öyrətmək, onlarda qəbul edilmiş məlumatın qısaldılması, sıxılması məqsədi ilə mətnin bir sözünün digəri ilə ekvivalent əvəz etmə vərdişlərini formalaşdırmaq lazımdır. Bu, qavranılan məlumatın daha dərin dərk edilməsinə, başa düşülməsinə kömək edir. Bu növlü çalışmalardan istifadə etmək olar: “Hekayəyə qulaq asın və onu maksimum qısaldılmış formada verin”; “Mətni dinləyin və ona sərlövhə (başlıq) verin” və ya “Verilmiş başlıq sıralarından ən uyğun olanını seçin ”; “Mətnə plan tərtib edin”; “ Mətnə qulaq asın və onun əsas ideyasını tərtib edin ” və s.

Beləliklə, öyrənilən dildə dinləyib anlama prosesini təmin etmək üçün, ilk növbədə artikulyasiya vərdişlərini formalaşdırmaq, fonematik və intonasiya dinləməsini, qısamüddətli yaddaşı və ekvivalent əvəz etmə vərdişlərini inkişaf etdirmək lazımdır. Dinləmənin uğurluluğu bir tərəfdən dinləyicinin özündən (onun yaddaşından, diqqətindən, marağından, nitq eşitməsinin inkişafından), digər tərəfdən–qəbul şəraitindən (tempdən, təqdim etmənin miqdarından, səslənmənin davamlılığından və s.), həmçinin nitq məlumatlarının dilinin mürəkkəbliyindən asılıdır. Təqdim olunan məlumatların nə dərəcədə tələbələrin nitq təcrübə və biliklərinə uyğun olduğunu nəzərə almaq vacibdir.

Nitq məlumatlarının qəbulu və başa düşülməsi üçün bəzi daha vacib şəraitləri nəzərdən keçirək.

Nitq məlumatlarının tempi məlumatın vacibliyi və yeniliyindən asılıdır. Daha vacib məlumat aramla, sait səslərin uzunluğunu vurğulamaq yolu ilə, ikinci dərəcəli məlumat isə daha sürətlə çatdırılmalıdır. Nitq tempi ifadəliliyin digər vasitələri–ritm, vurğu və pauza ilə sıx bağlıdır. Dinləyicinin imkanlarından kənara çıxan sürətli nitq tempi aktivliyin aşağı düşməsinə və anlama səviyyəsinin enməsinə gətirib çıxarır. Çox asta nitq tempi də uğurlu dinləməyə mane olur, belə ki, bu təqdim etmədə qəbuletmə zamanı uzanır, dinləyicinin diqqəti formaya yayınır, ümumiləşdirmə çətinləşir, daha sürətli yorğunluq baş verir və diqqət zəifləyir.

Nitq ünsiyyəti prosesində daha çox yayılmış “orta tempdən yüksək” və “orta tempdən aşağı” kimi qeyd olunan bu və ya digər tərəfə yayınan orta nitq tempidir. Başlanğıc mərhələdə təlimi nisbətən astalaşdırılmış tempdən başlamaq məsləhət görülür (pauzanın uzunluğunun və miqdarının böyüdülməsi hesabına). Bu temp təqribən dəqiqədə 180-220 hecaya və ya 60-70 sözə bərabərdir.

Təqdim etmənin miqdarı və nitq məlumatlarının həcmi. Məlumatın təkrar dinlənilməsi anlamanı yaxşılaşdırır, yəni məlumatın əldə olunmasına, onun daha dərindən

qavranılmasına və yaxşı yadda qalmasına imkan yaradır. Təkrar dinləmə iki növdə ola bilər: eyni mətnin iki dəfə təqdim edilməsi; şəkli dəyişdirilmiş mətnin təkrar təqdim edilməsi. Auditoriyada eyni mətnin iki dəfə təqdim edilməsi yalnız sonrakı nəql etmənin qurulmasında və ya mətnin müzakirəsində məqsədə uyğundur.

Ümumi xarakterli sualların köməyi ilə başa düşmə yoxlaması və daha kamil anlamaya dinləyicilərin diqqətini toplayan yeni praktik tapşırığın xülasə edilməsi təkrar dinləmədən öncə aparılır.

Məlumatın həcmi ya sözlərin və ya cümlələrin miqdarı ilə, ya da səslənmə zamanı ilə ölçülür. Başlanğıc mərhələ üçün təsvir və ya hekayə xarakterli 3-6 cümlədən başlayaraq sonra 10-15 cümləyə qədər artan çətin olmayan mətnlər tövsiyə olunur. Adətən dinləmə təlimini səslənməsi 3 dəqiqə müddətində aparılan mətnlərdən başlamaq tövsiyə olunur. Mətnlər üçün belə həcm optimal hesab olunur, belə ki, o məlumatı saxlamaqda tələbələrin imkanlarından kənara çıxmır.

Dinləmə üçün seçilən mətnlər tələbələrin yaş xüsusiyyətlərinə və maraqlarına uyğun olmalı, ciddi məntiqli və çətin olmayan süjet xəttinə malik olmalı, nitqin müxtəlif formalarını (monoloji və dialoji) əks etdirməli, məlumatın artıq elementləri ilə hazırlanmalıdırlar. Mətndə sözləri əlaqələndirən ara sözlərin, təkrarların, sinonimik ifadələrin olması, yaddaşın fəaliyyətini yaxşılaşdırır. Artıq elementlərə həmçinin dildən kənar nitq elementləri də aiddir: səsin yüksəldilməsi və alçaldılması, ritm, pauzalar, jestlər, mimika. Onlar məzmunu dəqiqləşdirir, diqqətin cəmləşdirilməsinə imkan yaradır. Eşidərək məna qavramasının nitq bacarıqlarının formalaşma ardıcıllıqları iki qrup tapşırıqların istifadəsini nəzərdə tutur – dil tapşırıqları və nitq tapşırıqları. Dil tapşırıqları tələbələri dinləməyə hazırlayırlar, nitq tapşırıqları isə dinləməni nitq fəaliyyəti kimi təlim edirlər. Tapşırıqlarda şifahi ünsiyyətin formaları kimi dinləmə və danışığın sıx qarşılıqlı fəaliyyəti nəzərə alınmalıdır.

Dil tapşırıqlarının məqsədi əvvəlcədən, mətni dinləməmişdən öncə dil və psixoloji çətinlikləri aradan qaldırmaqdan ibarətdir. Bu da dinləyiciyə diqqətini məzmunun qavramasında cəmləşdirməyə imkan yaradır. Buna görə də dil tapşırıqları arasından çətinlikləri aradan qaldıran aşağıdakı tapşırıqları seçmək olar: a) dilçilik xarakterli tapşırıqlar, b) psixoloji xarakterli tapşırıqlar.

Nitq tapşırıqları təbii ünsiyyətə yaxınlaşan şəraitdə nitq məlumatlarını qavramaq bacarıqlarını təkmilləşdirirlər. Onlar məlumatın daha vacib hissələrini ayırmağa; mətn səviyyəsində proqnozlaşdırmanın köməyi ilə məna bilməcələrini inkişaf etdirməyə; audiomətni mənalı parçalara bölməyə və onların hər birində əsas mənanı təyin etməyə imkan yaradır.

Nitq tapşırıqlarının bəzi növlərini nəzərdən keçirək.

Şifahi nitqin iki forması mövcuddur: monoloq və dialoq.

Monoloq – bu bir şəxsin auditoriyaya yönlənmiş davamlı danışığını təxmin edən təşkil olunmuş nitqdir. Monoloq məntiqi sıralanma çətinliyinə görə dialoqdan fərqlənir. Monoloq hekayə, çıxış, doklad və ya mühazirə formalarında ola bilər və müsahibənin tərkib hissəsi kimi çıxış edə bilər.

Monoloji nitqi qavramaq üçün tapşırıqlar.

1. Verilmiş mətni dinləyin və suallara ətraflı cavablar verin. (Bir neçə sual təqdim olunur.)

2. Dinlədiyiniz mətnin sonluğunu (başlığıcını, ortasını) bəzi dəyişikliklərlə ifadə edin.
3. Filmə baxın və onun əsas ideyasını izah edin.
4. Dinlədiyiniz məlumatda məna parçalarını ayırın və onlara başlıqlar verin.
5. Mətni dinləyin və növbəti plana əsasən ona resenziya qurun: a) məlumatın mövzusu; b) iştirakçılar; c) məzmunun xülasəsi; ç) əsas ideya; d) dinlənilmiş mətnin qiymətləndirilməsi.

Dialoq - özündə iki və daha artıq müsahibin məlumat mübadiləsi məqsədi ilə qarşılıqlı əlaqəsini əks etdirir. Dioloji nitq özünün yığcamlığı ilə xarakterizə olunur, xüsusən söhbətin mövzusu müsahiblərə yaxşı bəlli olanda ayrı-ayrı sözlər və ifadələr çox zaman jest və mimikalarla əvəz olunur. Dialoq emosional cəhətdən zəngindir, onda təkrarlar, mübahisələr, replikalarda paralellər və s. mövcuddur.

Dialoji nitqi qavramaq üçün tapşırıqlar.

1. Dialoqu dinləyin və eyni mövzulu dialoq qurun.
2. Dialoqun əvvəlinə qulaq asın, genişləndirin və partnyorlardan birinin sonuncu replikasını davam etdirin.
3. Səs yazısını dinləyin və iştirakçıların danışıqlarını nəql edin.
4. Adiomətndəki dialoqu dinləyin və onu monoloq şəklində danışın.
5. Adiomətndəki bir sıra sualları dinləyin və fasilə zamanı onlara təsdiq (inkar) cavablar verin.
6. Dialoqun əvvəlinə qulaq asın və digər tələbələrlə birlikdə dialoqu davam etdirin.

*MA Adrianna Bartnicka,*
*Supervisor of International Tourism & Hospitality Management*
*Assistant of Tourism Department,*
*WSG University, Bydgoszcz, Poland*

## ONLINE APPLICATIONS AS A METHOD OF LEARNING AND TEACHING FOREIGN LANGUAGES

The use of technology has become an essential part of the learning and teaching processes either in or out of the class. At every language class usually some forms of technologies are used. According to life long learning idea, more often people keep use those technologies even after classes. Innovations in this are continues to grow in importance as a tool to help teachers facilitate language learning for their students. This study focuses on the role and trends in using new technologies in learning foreign languages process. It discussed different online applications, either their popularity within students as well as quality provided by users opinions. Author of this paper defined the meaning, terms and use of technologies in language learning, reviewed previous studies in given area and stated recomendations for possibilities in use of technologies within teachers.

## Introduction

Information technologies are developing dynamically. More and more news is being spread around the world faster and faster. In a few seconds one can exchange information with someone who is thousands of miles away. Information, now available to everyone, orbits the world at a speed that half a century ago no one could have imagined. After the great industrial revolution here is the time of technological revolution. It is a system that drives each other - people create new technologies to make their lives easier, to do everything faster and better - thus, everyone's lifestyle also speeds up, so humanity needs new improvements and facilities. Communication methods are developing equally dynamically. Already, humanity has the ability to communicate with any place on Earth, the ability to conduct intercontinental videoconferences. According to the internationalization of communication and worldwide exchange of information, knowledge of foreign languages is essential. Young generations are better and better educated, open to exploring the world and traveling, more often call themselves global citizens. To fullfill their plans, make their dreams come true, and take advantage of the technological opportunities they need languages. Languages that will facilitate their communication, broaden their horizons, let explore the cultures, move freely either in virtual or real world. A rush lifestyle makes people feel the need for faster and more effective learning. What they look for are tools that would not only save them time but as well make this, often onerous, learning process more enjoyable. Here appears a great field for authors and producers of Internet applications.

The purpose of the article is to determine whether young generations actually use language learning applications and how much they value the availability of such tools. The author tried to determine how students evaluate the usefulness of applications in language learning, what are their priorities and expectations. The author's overriding question was whether web applications are a fully sufficient tool for learning languages. Only the worldwide recognizable applications have been analyzed.

## Importance of technologies in languages education

Observing the direction in which the development of civilization is heading, one can conclude that computers and the Internet are the dominant means of communication. At the same time, they are becoming increasingly used tools in education, including language education. The use of information technology provides access to authentic statements, current information and finally communication with representatives of a given language. The role of technology in language learning is becoming even greater, and its systematic use affects the quality of process. An important factor in the popularity of this method is the high availability of free materials and the flexibility of time and place of learning. Thanks to this, efficiency depends less on financial resources and time, and more on the individual motivation of learners.

It is widely believed that the success of language teaching consists of mastering five language skills:

- listenning with understanding;
- speaking;
- reading with understanding;
- writing;
- grammar knowledge.

There is a growing view that the first two play the major role and these are the skills that should be developed as the first priority. Succesfull communication matters more than grammar mistakes. Knowledge about foreign languages and new methods of teaching them make learning more effective and, above all, much more interesting. Moreover, thanks to technical achievements, learning process is associated more with pleasure than with duty. Computers, the Internet and smartphones should be widely used to make it more attractive, but also to improve.

Studies show that the traditional teaching method based on lectures and texts reading does not use the full potential of the human mind. It focuses only on the sense of hearing and sight. The discovery that each of the hemispheres of the brain has different functionalities was a revolution in the science world. The left hemisphere is more active when speaking, counting and solving logic puzzles. However, the right hemisphere is stimulated to tasks that require imagination or visualization. It is responsible for the forms, colors, imagination and overall. The synchronization of the hemispheres, stimulates all senses, ensures their harmonious cooperation and quicker information processing. That is why it is so important for both hemispheres to work in harmony for more efficient and effective work. Therefore, in the case of learning a foreign language when the left hemisphere is working, the right hemisphere should be stimulated with the help of images, ideas and emotions. Multimedia that affects the entire brain is helpful in this regard. The simplest examples are movies that stimulate emotions, thanks to which people remember much better what they saw and heard.

At each level of education technologies should be regarded as a significant part of teaching and learning programs. The use of technology has become an essential part of the learning and teaching processes either in or out of the class. At every language class usually some forms of technologies are used. According to life long learning idea, more often people keep use those technologies even after classes. Innovations in this are continues to grow in importance as a tool to help teachers facilitate language learning for their students. Vary tools appears in technologies market that might be used for teachers and learners connections concerning studies matter.

**Research Analysis**

Research has been organized within the students of International Tourism & Hospitality Management program, currently active at WSG University in Bydgoszcz, Poland. The choice of the group of respondents is fully justified. Tourism is one of the fastest growing service sectors in the world. Employment in this area is constantly growing, and participation in tourism requires knowledge and use of foreign languages. The group of 80 students, 18 – 29 years old, fulfilled a survey concerning importance and value of using modern technologies in learning and teaching foreign

languages process. The national diversity of responding group reflects the international community of WSG University. Namely rounding 48% of Polish students participated in the survey, 10% of Ruandan, 21% representatives from Sri Lanka and another 21% from Ukraine. Students have been asked about the number of languages known including official languages of their countries of origin. It should be noted that in African countires, i.e. here Ruanda, there are 3 languages in everyday use: local dialect, French and English, all together as official ones. Specifically Ukrainians use Russian language as an option and coming from same group of languages they have some easiness to learn Polish. Meanwhile Polish educational system provides the classes of English and German. Majority, means 32% has declared the knowledge of 3 languages. Only 10% mentioned just one, which means the use of only main national language.

Concerning the main area of research firstly they had been asked about most effective form of learning new language. The answers were evenly distributed with 34 votes for traditional classes in group of 10-15 students with lecturer, taken once or twice a week and another 34 votes for online courses with native speaker in small groups of 3-4 participants using videoconference with the schedule that fits everyone. Rest of participants admit that most effective in learning on their own using online applications in any available time. That means still the value of direct contact with lecturer is high rated. Same time students become conscious about different opportunities of private, cameral courses. On the other hand almost unanimously agreed in next following question „Do you find the online language applications useful?" for apps being helpful in learning process – 85% of responses. Only few people (5%) noted it's wasting of time and the rest of the group are not users of those.

Based on rankings created by independent sources the author has chosen few of worldwide recognizable applications and asked students whether they know them as well. Results of this multiple choise question are presented on a diagram below:




***Figure 1. Online language learning applications known within students***

Undoubtedly *Duolingo* is most recognizable language application. In the very next question 46% of responders confirmed using this particular application for learning. Despite *Duolingo,* from given above only *Babbel+*, *Quizlet* and *Memrise* are most common in use. There is no list of best apps that doesn't mention *Duolingo*. Luis von Ahn successfully merged gamification and learning addicting people to languages and producing an app with over 100 million users. The app has become a staple example of mobile language learning. Many *Duolingo* courses are created by native speakers themselves which empowers communities and language passionates to get involved and gave rise to perhaps less expected courses such as Guarani or Klingon. Another feature that makes *Duolingo* special is that it is not aimed solely at an English native speaker. For each language there are specific courses that aim at those with different first languages, which to date produces 81 courses.

Students had been asked about advantages and disadvantages of online languages learning applications. They suppose to choose maximum three pros and cons. Hereby are their answers with percentage of votes given. Students they don't find such applications addictive. They rather appreciate being handy, available any time and place. Different games and quizes solutions provided in those applications rise the value, attractiveness and user interest. Same time they are very helpful to memorize words and phrases. Unfortunately usually there are offered ready sets of vocabulary with no extended explanation of grammar use.

***Table 1.***

**Advantages and disadvantages of online language applications**

| ADVANTAGES | | DISADVANTAGES | |
|---|---|---|---|
| It's handy | 42% | It may be addictive | 6% |
| Helps to memorize words | 53% | There is no progres while learning | 2% |
| Use in time comfortable for user | 68% | No grammar explanations, just words | 2% |
| Learning and entertaining same time | 52% | It's time and battery waste | 0% |
| Saving my data and collected knowledge | 10% | Low quality of study materials | 2% |
| It's motivating with notifications and progress reports | 32% | Require high self-motivation | % |
| Available any place and time in my smartphone | 63% | I don't find any disadvantage | 1% |

One of next questions is a provement of those statements. Therefore asked for a kind of knowledge being able to collect thanks to apps, over 60% of students declare those are words meanings and phrases and only 10% states for grammar. The rest of the group voted for both being equally developed. As results show, one in five do not find any disadvantage of using languages apps. Surprisingly over one third of responders is ready to invest money and pay for application use if only that provides good quality materials.

Another thing are types of tasks and ways to learn foreign languages provided by applications authors. One of the question in the survey refers to that as well. From

given examples ones suppose to choose maximum three that matters most to them. As a result here's the list of the most appreciated and the highest rated tasks:

1. Listening / quiz or memory games;
2. Translations;
3. Repeating words;
4. Matching the meanings / writing;
5. Self prepared lists of words to learn.

First choice of games and quizes confirms the thesis that while having fun and entertainment people learn most. As well as that users seek for an enjoyable way to cover the struggle of learning process.

In the last part of the survey there were some statements that students should rated on the scale of one to five, pointing whether they agree or not. Results are summarized in the table below. Author has just pointed the highest scored answers to each of given statement. None of them has been pointed at the lowest or highest level, for that reason the final result table has been shorten to the scale 2 – 4. It turns out that for majority online applications are not an only and enough source of foreign language skills. None of them agree that using even the best quality app would compensate for participation in a language course with a native speaker. On other hand research participants agree that use of technologies, including applications would increase the attractiveness of classes and should have been taken into consideration by teachers. In some the applications, i.e. *Quizlet*, there are so called „classroom" tools where course teacher is able to prepare and collect teaching materials for his students.

***Table 2.***

**Use of online language learning applications**

| | 2. Rather not | 3. Neither agree or disagree | 4. Rather yes |
|---|---|---|---|
| Online applications are most important way to improve language skills. | X | | |
| Online language applications may only be an additional value to the live language course. | | X | |
| Using good language app you don't need to attend any live course. | X | | |
| Online app could be an opportunity for teachers to prepare individual sets of materials for students. | | | X |
| Use of apps by teachers would increase the attractiveness of regular classes. | | | X |

According to the results presented above almost 70% of respondents shared their preferences of use sets and lessons prepared in advance by teachers or native speakers and shared within an application both sides use. Only 10% declared they are used to prepare materials to learn themselves. Concerning the frequency of apps use over 50% of answers states for „*few times a week"* and rest of them were shared equally between „*once a week"* and „*once upon a time".* No one declared learning with application use daily.

**Conclusion**

Online applications are not enough to be an only source of language skills and knowledge collection. Meanwhile it has a great pottential to be a part of modern language courses provided by teachers in each level of education. Presented case is an analyse concerning applications, but speaking general about technologies, those are an essential part of nowadays education process. However the role of lecturer in teaching and learning proces is still being high rated. On the one hand, Internet allows quick access to a particular piece of information, whereas teachers looking for a specific section would definitely spend more time retrieving that. On the other hand, while technologies will always deliver same kind od information same way, teachers in front of the group offer various significant examples in order to provide a better understanding of a particualr topic. Lecturer will always adjust his pace and rhythm according to students individual needs and spend as much time as required to make everyone understand. Meanwhile ones need to be highly self-motivated to use online applications systematically enough to collect particular sort of skills and knowledge.

The using of technology provides learners with interesting, enjoyable, and exciting alternatives to study the language on their own. Being so common with technologies nowadays students expect teaching staff to be well on with newest solution and implement them in teaching proces.

**References:**

1. Ahmadi M.R., 2018, The use of technology in English language learning: a literaturę review, Iran, IJREE,

2. Dina A.T., 2013, The advantages and disadvantages of Computer Assisted Language Learning and teaching for foreign languages,Romania, SciVerse Science Direct 76, 248-252

3. Szewczyk A., 2012, Multimedia technologies to support teaching of foreign languages, Poland, Szczecin University, Dydaktyka informatyki 7, 133-140

*Aliyeva Gülçöhrə Babaəli qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## TƏHSİLDƏ MULTİMEDİADAN İSTİFADƏNİN OPTİMALLAŞDIRILMASI

Çağdaş dövrün xarakterik cəhətlərindən biri rəqəmsal texnologiyalar sahəsindəki son nailiyyətlərin elmin bütün sahələrinə, o cümlədən ünsiyyət baxımından müasir insanın həyati məqsədlərindən biri olan əcnəbi dil biliklərinə ciddi şəkildə nüfuz etməsidir. Bu baxımdan əcnəbi dil müəlliminin əsas vəzifəsi müasir texnologiyalardan istifadə etməklə maraqlı nitq situasiyaları yaratmaq və tələbələri tədris prosesinə cəlb etməkdir. Beləliklə, özünəməxsus fərdi iş üslubuna malik olan hər bir müəllim bu sahədəki mövcud biliklərini praktik bacarıqları ilə aktivləşdirərək tələbələrin xarici dilə olan marağını artırmış olurlar.

Müasir dünya hər dəfə informasiya məkanında yeni bir dövrə qədəm qoyduqda

mütəxəssislərin təhsili və təlimi üçün yeni problemlər yaranır. Belə ki, bu problemləri həll etmək üçün mütəxəssis yeni dövrün meyllərinə uyğun bir düşüncəyə sahib olmalı, tez və səmərəli həll yolunu tapmağı bacarmalı, müəyyən edilmiş vəzifələrin həllinə yaradıcılıqla yanaşmalı, əmək bazarında rəqabətə davamlı olmaq üçün bir sıra xarici dilləri yaxşı bilməlidir.

Bundan başqa, müasir rabitə vasitələrinin, internetin intensiv inkişafı mütəxəssislərdən təkcə informasiya texnologiyalarına bələd olmağı deyil, həm də gələcəyin innovativ texnologiyalarını mənimsənilməsi üçün bir vasitə kimi xarici dil bilməsini tələb edir.

Cəmiyyətdə mütəxəssislərin əcnəbi dil bilikləri üçün müəyyən sosial tələblər də mövcuddur. Bu sosial tələblərlə onların idrak qabiliyyəti, yəni ünsiyyəti, məntiqi düşüncə tərzi, intuisiyası, hadisələrə yaradıcı və rasional yanaşması, situasiyaların sürətli inkişafı fonunda cəld və yüksək keyfiyyətli qərar qəbul etmək bacarığının mövcudluğu şərtlənir.

Metodik baxımdan bütün xarici dillərin tədrisinin ayrılmaz bir hissəsi müəllim və tələbənin qarşılıqlı əlaqəsi ilə dəqiq müəyyənləşdirilən müvafiq tədris metodlarının seçilməsidir və bu da öz növbəsində yüksək qiymətləndirilməlidir.

Ən çox yayılmış metodlardan biri kollektiv təlim fəaliyyətidir ki, bu da hər bir komandaya və ya iştirakçıya ayrı-ayrılıqda həll olunmalı müəyyən tapşırıqlar verilir. Təlimin təşkili ilə asanlıqla uyğunlaşan bu tip tapşırıqlar tədrisin səmərəliliyini artırılmasına xidmət edir.

Ali təhsil müəssisələri yüksək ixtisaslı məzunlar hazırladıqlarını rəhbər tutduqları üçün tələbələrə təhsil müddətində qazanılan xüsusi bacarıqları praktikada tətbiq etmək imkanı verilirki, buraya mümkün proqnozlaşdırmaları və icazə verilən bütün iş məqamlarını da daxil etmək. Bu zaman optimal qərarların qəbul edilməsinə, müvafiq sosial-iqtisadi problemlərin həll edilməsinə tələbələr də dəvət olunur.

Fəal tədris metodlarına tələbələrin təhsil, məişət və təcrübə zamanı qarşılaşdıqları problemlərin ingilis dilində müzakirə etməsi də daxildir ki, bu zaman problemə əsaslanan təlim üçün tədris materialları müəllim tərəfindən əvvəlcədən hazırlanmalıdır.

İnformasiya və kommunikasiya texnologiyalarının istifadəsi ilə xarici dilin tədrisi prosesi arasındakı əlaqə göz qabağındadır. Xarici dil öyrənməyin əsas məqsədinin kommunikativ səriştəni özündə ehtiva etdiyi və nəticədə danışıq bacarığının formalaşması olduğu üçün bu hədəfə çatmaq üçün istifadə olunan yanaşmalar mədəniyyətlərarası ünsiyyəti öyrənməyi özündə cəmləşdirir. Tələbələrdə internetlə işləmək vərdişləri yaratmaqla müəllim həqiqi şifahi ünsiyyət şəraitini yaratmış olur ki, bu zaman tələbələr dil nümunələrindən istifadə etmək əvəzinə, orijinal ifadələrin yaradılmasını stimullaşdıran məlumat axınına kortəbii deyil, adekvat cavab verməyi öyrənirlər.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqində söylənən nitqin məzmununu anlamağa və çatdırılmasına xüsusi əhəmiyyət verilir, yəni tələbələrin diqqəti söz formalarının funksional istifadəsinə yönəldilir və qrammatik təlim qrammatik quruluşları vurğulamadan birbaşa deyil, dolayı yolla aparılır.

Təhsilin inkişafı, bütün digər sahələr kimi, ilk növbədə, prosesin özünün rəqəmsal texnologiyaların inkişafı və tətbiqi ilə bağlı olduğundan, informasiya məkanında ən uğurlu istiqamətləndirmə üçün tələbələrin informasiya mədəniyyətini mənimsəmələri də zəruridir. Müəllimin hazırlığı cari mövzuya uyğun olarsa, bu zaman müxtəlif multimedia resurslarını geniş tətbiq edə bilər:

- elektron poçt; telekonfranslar; video konfrans və vebinarlar; tələbələrin fərdi məlumatlarını dərc etdirilməsi və ana səhifədə yerləşdirmək bacarıqları; istinad kataloqlar; axtarış və emal əməliyyatları; onlayn söhbət; öz video bloglarının yaradılması və s.

Yuxarıda göstərilən mədəniyyətlərarası ünsiyyət səriştənin xarici dilin yardımı olmadan formalaşması mümkün olmadığından multimediadan istifadə sadəcə zərurət olur, çünki internet istifadəçilərinin hər iki tərəfi üçün aktual olan mövzularda real ünsiyyət imkanı yaradır. Ancaq yadda saxlamalıyıq ki, multimediadan istifadə dərsdə əsas deyil, onu yalnız köməkçi bir vasitə və optimal nəticələr əldə etmək üçün dərs prosesinə düzgün uyğunlaşdırmaq lazımdır.

Təhsilin rəqəmsallaşdırılmasının son tendensiyaları müasir texnologiyaların həm istehsal sənayesində, həm də təhsildə istifadəsinə imkan verir. Qlobal dünyada bu tendensiyaya təlimə yanaşma prinsiplərinin təkmilləşdirilməsi kimi baxılarsa onun təhsil sisteminə gətirdiyi innovasiyalar diqqətdən kənarda qalmamalıdır.

Beləliklə, bu gün rəqəmsal təhsilin son tendensiyaları müasir texnologiyalarda və təhsildə dünya birliyinin inkişafı üçün hamıya çatdırılmasını təmin edir. Bu mənada cəmiyyətin informasiyalaşdırılması ilə bağlı bütün məsələlər gündəmə gəldikcə xarici dilin tədrisi özünəməxsus şəkildə bu dəyişikliklərə məruz qalmaqdadır.

*Cəfərova Kəmalə Havadar qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dillər Universiteti*

## BİLİNQVİZM VƏ DÜNYANIN DİL MƏNZƏRƏSİ

Müasir dövrdə dilçilik elmində "dünyanın dil mənzərəsi" dünyanın bütöv şəkildə təsviri kimi müəyyən edilir. Bu təsvir insanın dünyaya baxışının əsasını təşkil edir və dünya təmsilçilərinin təfəkküründə onun əsas xüsusiyyətlərini təmsil edir. Hesab edilir ki, "dünyanın dil mənzərəsi" şüurda qeyri-müəyyən element, müxtəlif əşyalarda isə konkret göstərilmiş məna şəklində mövcuddur. "Dünyanın dil mənzərəsi" insanın bütün mənəvi fəaliyyətinin nəticəsi kimi təsəvvür edilir.

"Dünyanın dil mənzərəsi"nin tədqiqi çərçivəsində dünyanın konseptual dil mənzərələrini ayırd edirlər. Dil ilə ifadə vasitəsilə dünyanın konseptual mənzərəsi dünyanın dil mənzərəsinə keçir. Dünyanın dil mənzərəsi dil nöqteyi-nəzərindən bir növ dünya baxışıdır. Bu ətraf aləm haqqında məlumatdan ibarət nizamlanmış, sosial əhəmiyyətli dil işarələri sistemidir, "obyektiv gerçəkliyin konkret dil vasitələri ilə əksidir" [9, 47].

Dünyanın bəşəri mənzərəsi, "xarici aləm" haqqında bilikləri formalaşdırmaq və ötürmək xüsusiyyətinin insana xas olması səbəbindən yaranır. Nəticədə insanda çoxsəviyyəli konseptlər sistemi formalaşır. "Dünyanın dil mənzərəsi" konsepsiyası R. Redfild tərəfindən formalaşıdırılmış, sonra isə K.Kirts bunu həmin cəmiyyət və mədəniyyət üzvləri nümayəndələrinin özlərini və dünyanı ayırması kimi müəyyən etmişdir [10, 150]. "Dünyanın dil mənzərəsi" dünyanın dərk edilməsi üsulu haqqında məlumatdan ibarətdir. Bu konsepsiya çərçivəsində ilk öncə mədəniyyət daşıyıcıları tərəfindən təsvir edilən kateqoriyalar öyrənilir. Sözlər, formativlər, sözlər arasında əlaqə vasitələri,

sintaktik konstruksiyalar dünyanın dil mənzərəsinin tərkib hissələridir. Bu hissələr dünyanın konseptual mənzərəsinin izah edilməsində iştirak edirlər. Dünyanın dil mənzərəsi iki funksiyanı yerinə yetirir: 1.Dünyanın konseptual mənzərəsinin əsas elementlərinin müəyyən edilməsi; 2. Dünyanın konseptual mənzərəsinin dil vasitələri ilə izahı. Dünyanın dil mənzərəsinin formalaşmasında leksikon mühüm rol oynayır [7, 18].

Həm xarici, həm ölkə dilçiləri, antropoloqları, sosiolinqvistləri, psixolinqvistləri tərəfindən dil, təfəkkür və mədəniyyətin nisbəti probleminə dair bildirilmiş çoxsaylı fikirlər mövcuddur. Qeyd edildiyi kimi, bir çox dilçilər belə bir nəticəyə gəlirlər ki, dil bütün ali təfəkkür proseslərində iştirak edir və əgər təfəkkür müəyyən mürəkkəblik dərəcəsinə malikdirsə, onu dildən ayırmaq mümkün deyil. Dil və təfəkkürün inteqrativ əlaqəsi o qədər sıxdır ki, onları ayırmaq cəhdləri yalnız bu və digərinin məhv olması ilə bitəcək. Beləliklə, dil və təfəkkürün qarşılıqlı asılılığı səbəbindən baxışların birliyi mövcuddur. Əksinə, təfəkkür olmadan dilin və ya ən əvvəl, dil olmadan təfəkkürün olub-olmaması məsələsində mübahisələr gedir. Fikir ayrılıqları əsasən onunla bağlıdır ki, “dil” və “təfəkkür” əsas anlayışları çox müxtəlifdir, düzgün müəyyən edilməmişdir. Bəziləri daha uzağa gedərək iddia edirlər ki, dil dünyaya müəyyən baxışı məcburi şəkildə bizə qəbul etdirərək bizim təfəkkürümüzü formalaşdırır. Daha sadə nöqteyi-nəzərə uyğun olaraq dil müəyyən təfəkkür üsulunu bizə öyrədir. Beləliklə, linqvistik sistemlərin obyektiv təcrübənin göstərilməsi üsulları ilə fərqlənmələri səbəbindən müxtəlif dil daşıyıcıları bu dillərdə mövcud olan kateqoriyalara uyğun olaraq həqiqəti qiymətləndirmək və hissələrə bölməyə cəhd edirlər. Buna uyğun olaraq iki və daha çox dil daşıyıcılarında gerçəklik obyektlərindən hər birinin birdən çox linqvistik obrazının olması səbəbindən onlarda təfəkkür mürəkkəbləşmiş forma alır.

Dil və təfəkkür nisbəti üzrə bütün konsepsiyaları iki qrupa, iki nöqteyi-nəzərə bölmək olar: dili təfəkkürlə eyniləşdirən alimlər, belə ki, daha radikal baxışlar dünyanın milli-spesifik dil mənzərələrini, yəni dilin, onun strukturunun nəticədə təfəkkür tipini müəyyən etməsinə dair tezisi qəbul edir və hər bir xalq dünyanı yalnız öz dili nöqteyi-nəzərindən görür. Məlum olduğu kimi, bu baxışların tərəfdarı olan alimlərə müxtəlif vaxtlarda V.fon Humboldt, E.Kassirer, İ.Trir, E.Sepir, B.Uorf aid edilirdi. Digər nöqteyi-nəzərə əsasən dil və təfəkkür nisbəti problemlərinin araşdırılmasında əsas prinsip koqnitiv universalizmdir. K.Xomski, C.Lakoff, Q.V.Kolşanski, M.V.Nikitin kimi alimlər bu nöqteyi-nəzərə əsaslanırlar. Lakin biz öz baxışımızı əsaslandırmazdan əvvəl həm dil və təfəkkür nisbətinə, həm dünya mənzərəsinin qurulması ardıcıllığına dair əks baxışların tərəfdarları olan alimlərin bildirdikləri bəzi müddəa və fikirləri qısaca nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

Linqvistik halların və insan təfəkkürünün qarşılıqlı nisbəti probleminin bir çox tədqiqatçıları nəhayət, linqvistik nisbiliyə dair nəticəyə gəlmişlər. Bu cür ideyalar bəzən daha yüngül formada artıq Sepir və Uorfa qədər məsələn, Nikolay Kuzanski, F.Bekon, D.Lokk, D.Viko, Haman və İ.Q.Gerder tərəfindən müzakirə olunurdu. Lakin V.fon Humboldt təfəkkür yaradıcı fikirləri tam formalaşdırdı və onları dilçiliyə daxil etdi. Hələ XVIII əsrdə İ.Q.Gerder belə bir nəticəyə gəlmişdir ki, “hər bir millət düşündüyünə uyğun danışır və danışdığı kimi düşünür” [bax: 5, 129]. Fikirlər bir dildən digərinə keçə bilməz, belə ki, hər bir fikir onun formalaşdığı dildən asılıdır. Bununla əlaqədar dil fəlsəfəsində V. fon Humboldtun fəlsəfə-linqvistik proqramı istiqamətində formalaşmış Humboldt xətti daha nəzərə çarpandır. “Gerder və Humboltdan

başlayaraq dil haqqında müasir fikir tamamilə digər maraqlara malikdir. Bu fikir rasionalizm və ortodoksaldan böyük zəhmətlə geri alınmış anlayış olan insan dilinin təbiiliyinin müxtəlif quruluşa malik müxtəlif insan dillərinin təcrübə üçün mümkün müxtəlifliyində necə inkişaf etdiyini tədqiq etməyə çalışır" [3, 508]. Humboldtun izahında dil fikir yaradıcı orqandır. Təfəkkür sadəcə dildən asılı deyildir, məlum dərəcəyədək hər bir konkret dildən asılıdır. Dildə dünyanın insan tərəfindən izahı aktları həyata keçirilir, müxtəlif dillər isə müxtəlif dünya baxışlarıdır. Ona görə "hər bir dil məxsus olduğu xalq ətrafında dairəni təsvir edir ki, oradan insana yalnız digər dil dairəsinə daxil olmasınadək cıxmaq imkanı verilmişdir" [4, 80]. Bu mənada L.Vitgenşteynin aforistik ifadəsi diqqətə layiqdir: "Mənim dilimin sərhədləri mənim dünyamın sərhədlərini göstərir" [2, 80].

Nəinki filosoflar, həmçinin linqvistlər: V.Porsiq, İ.Trir, L.Vaysgerber Humboldtun ideyalarına maraq göstərməyə başlayırlar. 20-ci əsrin əvvəlində L.Vaysgerber dil haqqında fəlsəfənin əsas müddəalarını formalaşdırdı. Bu fəlsəfə sonradan neohumboldt fəlsəfəsi adını almışdır. [1, 457].

V.Z.Panfilov qeyd edir ki, ikidillilik olduqda dillərin qarşılıqlı əlaqəsi imkanı və bu qarşılıqlı əlaqə prosesində onların strukturlarının "bərabərləşdirilməsi" Sepir-Uorf fərziyyəsi mövqeyindən prinsip etibarilə izah olunmazdır. Həmin fərziyyəyə görə təfəkkür xarakterinin özü və gerçəkliyin əks etdirilməsi xarakteri dil ilə müəyyən edilir, buna görə də təfəkkür dillərin qarşılıqlı əlaqəsi prosesində vasitəçi element rolunu oynaya bilməz [6,10]. Sepir-Uorfun fərziyyəsi nöqteyi-nəzərindən xüsusilə xalis bilinqvizm tipli ikidillik faktının özü bir insanda (bilinqvdə) təfəkkürün bir-biri ilə uzlaşmayan iki tipinin olduğunu nəzərdə tutur, bu da özü-özlüyündə bu fərziyyənin və bəzi semantik nəzəriyyələrin əsassızlığını göstərir. Həmin nəzəriyyələrə görə dil (və ya hər hansı digər işarə sistemi) "dünya modelidir" və bu model insanın obyektiv gerçəkliyi dərk etməsi imkanları və nəticələrini guya qəti şəkildə müəyyən edir. Bu nöqteyinəzərə əsasən əgər son dərəcə "milli" anlayışlar altında özünün dünyanı dərk etməsi, gerçəkliyin kollektiv tərəfindən spesifik şəkildə bölünməsi kimi başa düşülərsə, bu cür anlayışlar yoxdur. M.V.Nikitin yazır: "Fikir bu cür bölünmələr və mahiyyətdən ibarətdir. Bunlar məlum tarixi  dövrdə insanların ictimai təcrübəsi və obyektiv aləmin insanların fəaliyyət göstərdiyi sahəsinin şəraiti ilə şərtləndirilir" [5, 45]. O, bizim üçün mühüm olan bir nəticəyə gəlir ki, gerçəkliyin ümumiliyi, müxtəlif insanlarda təcrübənin ümumiliyi, onların maddi və sosial təbiətinin ümumiliyi, nəhayət, kommunikativ fəaliyyətin ümumiliyi dünyanın hissələrə bölünməsinin kifayət qədər eyni mənzərəsini, anlayışların mənaca dolğunluğunun ümumiliyini və şüurun dərketmə strukturlarının prinsip etibarilə ümumiliyini təmin edir. Y.F.Tarasov və Y.A.Sorokin qeyd edirlər ki, fəaliyyətin strukturu universaldır, milli spesifika isə xalqın həyat şəraitindən bütünlüklə asılı olan əməliyyatlarla müəyyən edilir [8, 17].

Lakin əksər ölkə və xarici alimlərin təsdiqləmələrinə görə monolinqvin və bilinqvin təfəkkür üsulları prinsip etibarilə fərqlidir. Bu sonuncunun sərəncamında bir dildən çox dilin olmasıdır ki, bu da təfəkkür proseslərinin xarakterində əks olunur. Bu məsələdə M.V.Nikitin qeyd edir ki, fərqlərdən daha çoxümumi cizgiləri aşkar edən (belə ki, fərqlər dildən xaric səbəblərlə, mühit, tarix, mədəniyyət xüsusiyyətləri ilə əsaslandırılır) dərk etmə sistemlərindən fərqli olaraq semantik sistemlər hər bir dildə çox özünəməxsusdur. Xalqların anlayışlarında və dərketmə sistemlərində onların maddi və mənəvi həyat şəraiti və məzmunundakı fərqlərin əksi kimi olan fərqlər bunun səbəblərindən biri kimi çıxış edir, lakin dillərin semantik sistemlərinin özünəməxsusluğunun

əsas səbəbi kimi M.V.Nikitin dərketmə, təfəkkür fərqləri ilə bağlı olmayan dildaxili səbəbləri göstərir.

Hər bir dildə dünyanın hissələrə bölünməsi spesifikasını nəzərdən keçirərək V.P.Furmanova aşağıdakı variantları göstərir:

a) Eyni denotatın (obyektin) müəyyən işarəsinin bu və ya digər dildə olmaması;

b) Gerçəklik fraqmentlərinin koqnitiv bölünmə həcmində fərqləri, bunlar müqayisə edilən dillərin leksik vahidlərində əks olunur;

c) Verilən anlayışların uyğunsuzluğu leksik vasitələri [bax: 6, 34].

V.Q.Kolşanski qeyd edir ki, dünyanın dil mənzərəsinin milli spesifikası ayrıca insan və ayrıca xalq-bu və ya digər dil daşıyıcısı tərəfindən deyil, ümumilikdə bəşəriyyət tərəfindən yaradılan dünya konseptual mənzərəsinin spesifikası kimi deyil, maddi əlamət mahiyyətinin spesifikası kimi izah oluna bilər. O, hesab edir ki, nə qədər ayrı təqdim edilsə də dünya mənzərəsi dil vasitəsilə ifadə həddində təqdim olunmur və nəticədə maddi əşya və təzahürlərin mövcud olduğu vahid dünyaya çevrilə bilər. O qeyd edir ki, konkret sosiumun həyatının bütün sosial-mədəni xüsusiyyətləri məcmusu sözlərin semantikasında əksini tapır.

Ümumiyyətlə, dünya mənzərəsi və onunla çox əlaqədar olan dünyanın dil mənzərəsi anlayışları xüsusilə mümkün dünyalar nəzəriyyəsi və ya mümkün dünyalar semantikası ilə sıx şəkildə əlaqədardır. Məntiqi əsaslara malik bu nəzəriyyəyə əsasən bu və ya digər müddəanın "reallığı" Eynşteynin nisbilik nəzəriyyəsində olduğu kimi müşahidə nöqtəsindən və ya hesablama nöqtəsindən asılıdır. Bununla əlaqədar müxtəlif insanların-bir dil daşıyıcılarının dünya linqvistik mənzərələrindəki fərqləri, müxtəlif dil sistemlərinin daşıyıcılarında dünya linqvistik mənzərələrindəki çox böyük fərqlər, həmçinin bilinqva və poliqlotların dünya dil mənzərələrinin özünəməxsusluğu haqqında fikir hüquqi əhəmiyyət daşıyır.

## Ədəbiyyat siyahısı:


1. Баранов Л.II., Добровольский Д.О. Jlco Вайсбергср в когнитивной перспективе // Известия ЛИ СССР. Серия лит. и яз. — 1990. —т. 49. — №5. — с. 451-458

2. Витгенштейн Л. Логико-философский трактат. — М., 1958

3. Гадамер Х.-Г. Истина и метод. Основы современной герменевтики. — М.: Прогресс, 1988. — 704 с.

4. Гумбольдт В. фон. Избранные труды по языкознанию. — М.: Прогресс, 1984. — 397 с.

5. Никитин М.В. Основы лингвистической теории значения. — М.:ВШ, 1988. — 167 с.

6. Панфилов В.З. Взаимоотношения категорий языка и мышления при двуязычии // Проблемы двуязычия и многоязычия. — М., 1972

7. Селиверстова В.А. Язык и картина мира // Роль человеческого фактора в языке. Язык и картина мира / под ред. Б.А. Серебренникова. — М.: Наука, 1988.

8. Сорокин П.А. Человек. Цивилизация. Общество. М.: Политиздат, 1992. -543 с.

9. Яковлев А. А. «Языковое сознание» и «языковая картина мира»: совместимость понятий // Вестн. Новосиб. гос. ун-та. Серия: Лингвистика и межкультурная коммуникация. 2018. Т. 16, № 2. с. 57-69.

10. Redfield, R., Linton, R., Herskovits, M. Memorandum on the study of acculturation in American Antropologist. 1963, p. 149 - 152.

*Bayramova Lalə Məzahir qızı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*aparıcı elmi işçi,*
*AMEA akad. Z.M. Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*

# QEYRİ-ƏRƏBLƏRƏ ƏRƏB DİLİNİN TƏDRİSİNDƏ MÜASİR TEXNOLOJİ VASİTƏLƏRDƏN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

Yeni texnologiyalar vasitəsi ilə qeyri-ərəblərə ərəb dilini öyrənmək istəyənlərə dil bacarıqlarının inkişaf etdirilməsində pedaqoqların köməyi ən vacib amillərdəndir.

Xarici dilin öyrədilməsində müasir texnologiyanın səmərəliliyi bu sahədə çalışan hər bir mütəxəssisə məlumdur. Burada diqqəti çəkən ayrı bir məqam var. Demək müasir texnologiya vasitəsilə qeyri-ərəblərə ərəb dilini qeyri ərəbdilli müəllimin ərəb dilini tədris etməsi, iyirmi iki ərəb dövlətlərinin ərəbdilli əhalisinə ərəb ədəbi dilini öyrətməkdən daha asandır. Burda sual meydana çıxır? Niyə?

Birinci səbəb olaraq, Küveyt, Dubay, Qətər, Bəhreyn, Oman, İordaniya, Mərakeş kimi inkişaf etmiş ərəb dövlətlərində müasir texnologiyaların inkişaf etməsi, lakin, Somali, Sudan, Fələstin kimi ərəb dövlətlərində müasir texnoloji vasitələrin zəif inkişaf etməsini dəlil olaraq göstərmək olar.

İkinci səbəb hər bir müstəqil ərəb dövlətinin danışıq dili, dünyagörüşünün bir-birindən köklü surətdə fərqlənməsindən ibarətdir. Bu baxımdan müasir texnoloji vasitələrin istər qeyri-ərəblərə, istərsə də ərəblərə ərəb ədəbi dilinin öyrədilməsində səmərəliliyi əvəzsizdir.

Qeyri-ərəblərə ərəb dilinin öyrədilməsinə müasir texnoloi vasitələrin ən böyük səmərəliliyi dilin lüğət tərkibinin inkişaf etdirilməsidir. Ərəb dilini öyrənmək istəyən qeyri-ərəblər kompyuterdən-internetdən istifadə edərək həm lüğət öyrənə bilər, həm də mühitdə lüğətə ehtiyacı olduğunda səmərəli istifadə edə bilər.

Sonra texnologiya vasitəsi ilə oxu zamanı ərəb dilində göz yaddaşı, luğət tərkibi, anlama və dərketmə anlayışları inkişaf edir. İlk ərəb dilini öyrənməyə başlayan qeyri-ərəblərə fotoşəkillərdən istifadə edərək canlı və cansız əşyaların adlarının ərəb dilində öyrədilməsi, şəkillər haqqında mətn yazılması, dialoqların qurulması, tədrisin inkişafını sürətləndirir.

Qeyri-ərəblərə ərəb dilinin tədrisi necə təşkil olunmalıdır? Misir Ərəb Respublikasının Qahirə şəhərində Misir Xarici İşlər Nazirliyinin nəzdindəki Misir İnkişaf Tərəfdaşlığı Agentliyinin Qahirə Universitetinin Ərəb Dili İnkişafı və Tədrisi Mərkəzinin əməkdaşlığı ilə "Qeyri-ərəbdilli universitet müəllimlərinə ərəb dilinin tədrisi" sahəsində keçirilmiş təkmilləşdirmə təcrübəmizə əsaslanaraq, qeyd etmək istərdik ki, nəzərdə tutulan dərs vaxtının dörd hissəyə bölünməsi məqsədəuyğundur. Birinci hissəni mühazirəyə, ikinci hissəni tədris alanların keçirilmiş mühazirənin qavranılmasını yoxlamaq məqsədi ilə sual-cavaba, üçüncü hissəni müasir texnologiya vasitələrindən istifadə etməyə, müəllimin keçirilmiş dərsin məzmununa uyğun hazırladığı slaydlara, internet resurslarına, dioaloqlara həsr olunması məqsədəuyğundur. Dördüncü hissəni isə, dərs iştirakçılarının qruplara bölünərək, hər bir qrupun özünə qrup rəhbəri seçib, qrupa status qoyması və keçirilən dərsi əhatə edən müasir texnoloji

vasitə ilə təqdim olunmuş material haqqında eşitmə, görmə vasitəsilə qrup şəklində müzakirə edilməsi, qruplar tərəfindən seçilmiş qrup rəhbərləri tərəfindən dərsin mənimsənilməsinin yoxlanılması məqsədi ilə, auditoriya qarşısında dərsin təqdim olunmasına həsr olunması məqsədəuyğundur. Dərsin daha səmərəli mənimsənilməsi üçün, müasir texnoloji vasitələrdən yararlanaraq, ara fasiləsindən dərhal sonra ərəb dilində cizgi filmə, bədii filmə, sənədli filmə həsr olunması və dərsin son yarım saatını qrupun dinləmə və görmə sayəsində nitqinin sürətləndirilməsi sahəsinə yaxşı nəaliyyətlər əldə edilməsi üçün qrup şəklində yenidən müzakirə olunub, təqdim olunması məqsədəuyğundur.

Dərs dərs daxilində öyrədilməli, öyrənilməli və tətbiq olunmalıdır. Növbəti dərs üçün, yalnız keçirilmiş dərsin mövzusu haqqında lüğət vasitəsilə inşa yazılması söz ehtiyatının zənginləşdirməsinə xidmət edər. Müasir texnoloji vasitələrdən-kompyuterin yaddaşında olan informasiyanın köçürüldüyü disk vasitəsilə keçirilmiş dərsin elektron materialı dərsin sonunda auiditoriyaya təqdim olunur.

Beləliklə, biz bir dərs nümünəsi üzərində qeyri-ərəblərə ərəb dilinin tədrisində müasir texnoloji vasitələrdən istifadənin səmərəliliyini qiyabi şəkildə nəzərinizə çatdırmağa çalışdıq. Əyani şəkildə qeyri-ərəblərə ərəb dilinin tədrisində müasir texnoloji vasitələrdən istifadə etməklə, bu əvəzsiz səmərəliliyin özünüz şahidi olacaqsınız.

*Həsənova Gülşən Oqtay qızı,*
*pedaqoqika üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti*

## XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNİN SƏMƏRƏLİ YOLLARI

Bu gün demək olar ki, hər kəs xarici dil öyrənməyə can atır. Bəziləri karyerada inkişaf, bəziləri səyahətlər, bəziləri daha çox mədəniyyətlərlə tanış olmaq, turistlərlə ünsiyyət yaratmaq, kimiləri də dünya ədəbiyyatını orijinal dildən oxumaq üçün və s. xarici dilləri öyrənirlər. Bəs xarici dili öyrənməyə harada və necə başlamaq lazımdır?

"Əslində dil öyrənməkdə heç bir çətinlik yoxdur. Yanaşma düzgün olarsa, xarici dil öyrənmək asandır. "Xarici dil öyrənərkən mütləq kiminləsə ünsiyyət saxlamaq lazımdır" fikri yanlışdır. Mən xarici dili öyrənəndə uzun müddət heç kimlə danışmamışam, amma bu dili ana dilim kimi bilirəm. İnsanlar nəyinsə xatirinə dil öyrənmək istəyirsə, bunu yüksək şəkildə bacarmayacaq. İnsan gördüyü işi sevərək görməli, aludəsi olmalıdır. Dil öyrənmək üçün də onu sevmək vacibdir".

Çox çətin, mürəkkəb və gərgin dövr hesab edilən indiki şəraitdə tədris olunan xarici dilin, bütün incəliklərinə qədər öyrənilməsi zərurəti meydana çıxmışdır.

1. Praktik məqsəd tələbələrə şifahi nitq bacarığı və vərdişləri aşılamaq, oxu və yazı vərdişləri öyrətməkdən ibarətdir.

2. Ümumtəhsil məqsədi təfəkkür və ümumdünyagörüşün inkişafı məsələlərini yaratmağı nəzərdə tutur, onlara elmlərin əsasını öyrətməyi tələb edir.

3. Əsas məqsəd onların dünyagörüşünü və tərbiyəsini daha da yaxşılaşdırmağı nəzərdə tutur.

Xarici dilin öyrədilməsində əsas məqsəd xalqların bir-birinə dostluq əlaqələrini

möhkəmlətmək, dili öyrənilən xalqın tarixini, inqilabi keçmişini, elm və texnikasını, incəsənətini, yaşayış tərzini, adət və ənənələrini öyrətməkdir. Xarici dillərin kommunikativ məqsədlə tədrisi və bu məqsəddən irəli gələn vəzifələrin həyata keçirilməsi tələbələrə öyrəndikləri xarici dildə ünsiyyət yaratmaq vərdişi və bacarığının aşılanması ilə səciyyələnir, eyni zamanda öyrənilən dil ünsiyyət vasitəsi olmalı və ondan kommunikativ məqsəd üçün istifadə edilməlidir. Bu da xarici dillərin tədrisini şərtləndirən əsas amildir. Bütün bunlara nail olmaq üçün isə müxtəlif üsul və metodlarından istifadə etmək lazımdır.

Bunlardan biri də tərcümədir. Tərcümə dil öyrənənin yaddaşını inkişaf etdirir, dil sahəsindəki bütün fikirləri səfərbər edir, söz ehtiyatını artırır, müxtəlif sözlərlə tanış edir. Tərcümə vaxtı özgə dildə söylənilmiş fikir qrammatik, linqvistik və stilistik baxımdan təhlil olunur. Belə ki, bir sözün məna və xüsusiyyətləri müəyyənləşdirilir, ana dilinin normaları ilə tutuşdurulur və nəticədə xarici dildə söylənilmiş fikrin ana dilindəki ifadə vasitələri müəyyənləşdirilir. Tərcümə prosesi əsasən tutuşdurma və müqayisə əsasında gedir ki, bu da xarici dilin şüurluluq prinsipinə əsasən öyrənilməsinə kömək edir. Görkəmli dilçi H.H.Tolstoy "Как переводить с английского языка" əsərində göstərir: "Təxminən eyni mədəni səviyyədə duran xalqlar haqqında danışarkən iddia etmək olar ki, bir xalqa məlum olan hadisələr, duyğu və fikirlər o birilərinə də məlumdur və deməli onların dilində də ifadə oluna bilər". Məlumdur ki, hər hansı bir fikri tərcümə etmək üçün hər bir dilin kifayət qədər imkan və vasitələri var. Elə bir fikir, atalar sözləri, məsələlər, idiomatik ifadələr tapmaq çətindir ki, onu adekvat şəkildə Azərbaycan dilinə tərcümə etmək mümkün olmasın. Bəzən isə ifadələrə təsadüf olunur ki, onların tərcüməsi üçün tələbələr çətinlik çəkirlər, hətta elə ifadələr olur ki, sözlərin tərcüməsi ifadə zamanı gülməli alınır. Belə halda onlara başa salmaq lazımdır ki, yaxşı olar ki, belə söz və ifadələr əzbərləməklə yadda saxlanılsın. Bu üsul öyrədilən dilin yeni faktları, söz və onun quruluşunu dəqiq qavramağa, kitab, dərslik və qəzet-jurnal materiallarından sərbəst surətdə istifadə etməklə həm sinifdə, həm də evdə çalışmağa kömək edir. Tərcümə özü də düzgün istiqamətdə aparılmalıdır. İlk günlərdə tələbələrdə tərcüməetmə bacarıq və vərdişləri aşılamağa çalışıram. Lazım gəldikcə, hər iki dildə olan oxşar və fərqli cəhətləri tələbələrə başa salıram. Onlara çatdırıram ki, elə ifadələr var ki, hərfi tərcümə etmək olmaz, onların qarşılığını tapmaq məqsədə uyğundur.

Tərcümə vaxtı tələbələrin səviyyələrini də nəzərə almaq lazımdır. Bəzən orta məktəblərdə xarici dil keçməyən və ya zəif oxuyan tələbələrlə də rastlaşırıq. Belə vaxtlarda onlara fərdi yanaşmaq, nisbətən asan mətnlər, tapşırıqlar vermək lazımdır. Tərcümə vaxtı istər Azərbaycan, istərsə də ingilis dilində çoxmənalı sözlərə tez-tez rast gəlmək olur. Buna görə də, yeni sözləri izah edərkən onların müxtəlif mənalarını açmağa çalışır, sinonim və antonimlərlə əlaqədar məlumat verməyə çalışıram. Bəzi sözlərin tələffüzü ilə yazılışı arasında fərq alman dilində daha çox nəzərə çarpır. Belə olduqda həmin sözləri lüğətdə orfoqrafiyaya görə axtarmaq lazım gəlir. Tələbələrə izah edirəm ki, belə sözlərin mənasını açarkən cümlənin mənasına fikir vermək lazımdır. Xarici dilin öyrədilməsində ana dili ilə alman dili arasında əlaqə baxımından mətnin növü ilə tərcümənin məqsədindən asılı olaraq təxminən aşağıdakı növlərdən istifadə olunur: a) xarici dildən ana dilinə tərcümə; b) ana dilindən xarici dilə tərcümə;

c) yenidən tərcümə - yəni əvvəl tələbə xarici dildən ana dilinə, sonra isə əksinə xarici dilə tərcümə edir. Belə əlaqə formaları baxımından tərcümənin aşağıdakı üsullarından istifadə olunur.

1. Sözbəsöz  tərcümə - Bu üsulun əsas məqsədi göstərilən xarici dilin mexanizmini anlamaq, ya da çətin mətni tərcümə etməzdən əvvəl onu aydınlaşdırmaqdır. Bu üsul tələbəyə imkan verir ki, o, hər iki dildəki fərqli cəhətləri müqayisə edə bilsin. Buna sətiraltı və ya sətirarası tərcümə də deyilir. Bu tərcümə üsulunda əvvəl leksik formalar üzərində iş aparılır, sonra isə qrammatik quruluşa diqqət yetirilir.

3. Adaptasiya  - tərcümənin ən sərbəst formasıdır. Bu tərcümə üsulundan daha çox pyes, komediya və poyeziyanın tərcüməsində istifadə olunur.

4. Sərbəst tərcümə - üsulundan istifadə etdikdə müəllifin ifadə tərzi dəyişir, orijinalın məzmunu transformasiya olunur. Bu cür tərcüməyə dil daxili tərcümə də deyilir. Bu tərcümə əksər hallarda çoxsözlü, iddialıdır.

5. İdiomatik  tərcümə üsulu – ilə olan tərcümə də orijinaldakı mesaj transformasiya olunur, mətndə olmayan idiomlar işlədilməklə orijinalın mənası təhrif olunur.

6. Servis tərcümə - üsulundan adi danışıq dilindən müəyyən məqsədlə digər dilə tərcümə üçün istifadə edilir. Bu üsul geniş yayılmamışdır, lakin əksər ölkələrdə ondan istifadə olunur. Bu üsulla tərcümə etdikdə bəndlər abzasa çevrilir, nəsrə məxsus durğu işarələrindən istifadə edilir, terminlər olduğu kimi qalır, səs effekti tərcümədə öz əksini tapmır. Bu cür tərcümələr əksər hallarda orijinal ilə yan-yana çap edilir. Məsələn: Nizami, Xəqani, M.Ə.Sabir, S.Vurğun və s. klassiklərin əsərləri ilə əlaqədar tərcümələrdə bu üsuldan geniş istifadə edilmişdir. Bunlardan başqa, orijinala sadiq, semantik, koqnitiv və başqa üsullardan da geniş istifadə olunur.

Tarixi nöqteyi-nəzərdən məlumdur ki, tərcüməyə yanaşma müxtəlif dövrlərdə böyük dəyişikliklərə məruz qalmışdır. Belə ki, XVIII əsrin II yarısı və XIX əsrin I yarısında tərcümə öyrətmə metodu hesab edilirdi. Xarici dil tərcümə vasitəsilə öyrədilirdi. Qrammatik tərcümə üsulunda ana dilindən xarici dilə, leksik tərcümə metodunda isə xarici dildən ana dilinə tərcümə nəzərdə tutulurdu. XIX əsrin sonu və XX əsrin əvvəllərində isə birbaşa (vasitəsiz) metod bütün dünyada yayılmağa başladı. Daha sonralar tərcüməyə şüurluluq cəhətdən yanaşılması tövsiyə olunurdu və akademik L.V.Şerba bunun həm nəzəri, həm də praktik cəhətdən böyük rolunu qeyd edirdi. Praktik cəhətdən tərcümə dil materiallarının izahı, eləcə də şagirdlərin təlimin bütün mərhələlərində oxuduqları və eşitdikləri leksik və qrammatik materialların möhkəmlənməsi və yadda saxlanması üçün əsas vasitələrdən biri hesab olunur. Tərcümə tələbələrdən hər iki dil üçün fikirləşmək bacarığı tələb edir. Demək olar ki, tərcümə xarici dilin mükəmməl öyrədilməsində əsas vasitələrdən biridir və onun aparılması dərsin məqsədindən, dil materiallarından, tələbələrin yaşından, onların xarici dildəki nailiyyətlərindən, eləcə də müəllimin imkanında olan vaxtdan asılıdır.

Beləliklə, tərcümə üsulu düzgün aparılmadıqda dərs sönük keçir. Tələbələrin fənnə marağı azalır. Bu üsuldan istifadə edərkən çalışmaq lazımdır ki, vaxta qənaət edilsin, dərs ana dili dərsinə çevrilməsin, tələbələr dilin yeni faktlarını, söz və onun quruluşunu qaşılıqlı və müqayisəli şəkildə öyrənsinlər.

*Şahbazlı Çinarə Zahid qızı,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti*

# İNGİLİS DİLİ DOMİNANT ÜNSİYYƏT DİL VASİTƏSİ KİMİ

Dil - ancaq insanlara aid olan, özündə məzmun və eyni tip səslənmə qaydaları daşıyan şərti sistemdir. Dil yalnız ünsiyyət vasitəsi deyil, dünya fəlsəfəsidir.

Dilə onun funksiyaları, cəmiyyətdəki rolu və insan həyatındakı əhəmiyyəti baxımından yanaşdıqda isə ona belə bir tərif vermək olar: dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsi, insan fikrinin, təfəkkürünün formalaşması vasitəsi, insanların estetik-emosional hisslərinin ifadə vasitəsi, insanın mənəvi aləminin, əxlaqının, davranışının, xalqın mənəvi ruhunun formalaşması vasitəsidir. Biz bu tərifin son və ən kamil tərif olması fikrindən uzaq olsaq da, bizcə, o, dilə indiyədək verilmiş təriflərin ən əhatəlisi, mükəmməlidir. Dilsiz cəmiyyət, deməli, insanın özü mövcud ola bilməz." Dil insanın insan kimi varlıq formasıdır. Bütün bunlar dilin fəlsəfi tərifidir. Dilçilik elmi isə dili sırf dilçilik baxımından öyrənir. Dil hər şeydən əvvəl dil haqqında elmin, dilçiliyin tədqiqat obyektidir, predmetidir. Dilin nəzəri problemlərini - dil və şüur, dil və təfəkkür, dil və cəmiyyət, dilin təbiəti və mahiyyəti, dilin inkişaf qanunauyğunluqları, dilin qnoseoloji və ontoloji problemləri dilçiliyin bəzən obrazlı surətdə dilin fəlsəfəsi adlandırılan ümumi dilçilik adlanan sahəsində öyrənilir. Nəzəri dilçilik hər şeydən əvvəl dilin mahiyyəti problemini aydınlaşdırmaqla məşğul olur, çünki ən mühüm ünsiyyət vasitəsi olan dil bu və ya digər dərəcədə cəmiyyət, tarix, şüur, təfəkkür, psixika, fərdin nitq qabiliyyəti və s. ilə əlaqədardır.

Dünya haqqında təsəvvür yaradan təbii intellektual sistemdir. Hər bir dil, ayrılıqda dünya haqqında bilik, dünyanı görmək və anlamaq üçün vasitədir. Yer üzündə 7000-dən çox dil var. Müxtəlif xalqlar 7000 dil vasitəsilə bir-birləri ilə ünsiyyət qururlar. Bu dilləri təşkil edən minlərlə söz və bu sözləri cümlələrə çevirən dilşünaslıq qanunları bir-birindən çox fərqlənir. Uilyam Neyci və Riçard Anderson adlı iki psixoloqun ingilis dilində danışan ölkələrdəki tədqiqatlarına əsasən, təxmin edilir ki, təqribən bir insan məktəbə getməyə başlayarkən 13000, orta məktəbi bitirdikdə isə 60000 söz bilir. Mədəni, yetkin insanın söz ehtiyatı isə 120000-dir. Zehnimizdəki bu nəhəng lüğətin formalaşması üçün 1 yaşından 17 yaşına qədər hər gün 10 söz və ya oyaq keçirdiyimiz hər 90 dəqiqədə yeni bir söz öyrənməli, üstəlik, öyrəndiyimiz hər sözü bir daha heç unutmamalıyıq. Halbuki, biz şüurlu şəkildə buna heç səy göstərmirik. Sözlər biz fərqinə belə varmadan zehnimizdə mənaları ilə birlikdə qalırlar.

Ümumiyyətlə, dil öyrənmək yaxşı bir əlamətdir. Dünyanın bir neçə əsas dilləri var ki, onları öyrənmək bizlər üçün əsasdır. Onlardan biri və ən əsası ingilis dilidir. Bu dilə olan ehtiyac artıq onu dünyanın ən əsas dilinə çevirdi. İndi hal-hazırda bir neçə ölkənin dövlət dili, hətta ingilis dilidir. Bu, ingilis dilinin dünyada özünə möhkəm bir yer tutduğuna nümunədir. Bütün dünyada sürətlə bu dil yayılmaqdadır. Demək olar ki, bütün ölkələrdə (dövlət dili ingilis dili olan ölkələr istisna olmaqla) ingilis dilinin tədrisi ilə məşğuldurlar. Tədrislə bərabər İngiltərə, ABŞ kimi ölkələrə dil kurslarına gedən tələbələrin sayı hesabı yoxdur.

İngilis dili həyatımızın əsas obrazına çevrilib. Çünki hər kəs bu dili öyrənməyə

can atır. İngilis dili həyatımızda bir açar rolunu oynayır, çünki bu dili bildikdən sonra dünyaya hərtərəfli baxmaq imkanı əldə edəcəyik. Dünyanın hər bir mədəniyyətini, fəaliyyət sahəsini və s. əks etdirən bu və ya digər məlumatları əldə etmək imkanımız olacaq.

Sadəcə internetdə ingilis dilində çoxlu məlumat əldə etmək mümkündür. Dünyanın önəmli olan təşkilatları və digər lazımı yerlərin internet saytları var və həmin internet saytların ingilis dili versiyası da vardır. Bu səbəbdən də bu dili öyrənməklə nələri əldə edəcəyimizi aydın şəkildə başa düşə bilərik. Bundan başqa dünyada ən önəmli kitabları var ki, tərcümə edilməyib. Onları oxumaq üçün ingilis dilini bilmək lazımdı. İngilis dilini bilməklə müxtəlif sahələrə uyğun bilikləri zənginləşdirmək və daha geniş imkanlar yaratmaq imkanı yaranacaq. Bəzi sahələr var ki, orada ingilis dilini bilmək məcburidir. Amma bəzi sahələr də vardır ki, orada vacib deyil, lakin bilmək əhəmiyyətli ola bilər.

İngilis dilini öyrənməyin digər tərəfdən də üstünlüyü odur ki, bu dili öyrənərək dünyanın istənilən universitetində təhsil almaq imkanımız olur. Belə ki, dünyanın ən məşhur universitetləri bu dildə proqramlar təşkil edirlər. Məsələn, Oxford, Cambridge, Harvard, Oslo, Berlin və s. universitetlər vardır ki, burada oxumaq üçün ingilis dilini bilmək kifayət edir. Xarici universitetlərdə təhsil almaq üçün ingilis dilini öyrənib TOEFL və yaxud da IELTS imtahanı vermək kifayət edir. İndi fikir versək görərik ki, ingilis dilinin bizim həyatımızdakı rolunu yüksək dəyərləndirmək lazımdır. Əgər bu dili öyrənsək bir çox uğurlara nail ola bilərik. Deməli bir dil öyrənmək bizim həyatımızda çox məqamları dəyişə bilər.

Müasir dövrümüzdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilib. Əsas elmi və tibbi araşdırmarlar da ingilis dilində aparılır. Beynəlxalq razılaşmalara əsasən, təyyarələrdə işləyən bələdçilər ingilis dilini bilməlidir. Cənubi Amerika və Avropa məktəblərində ən çox tədris olunan dil ingilis dili hesab edilir. Filippində və Yaponiyada uşaqlar ingilis dilini ən kiçik yaşlarından öyrənməyə başlayırlar. İngilis dili Britaniya, Kanada, Birləşmiş Ştatlar, Avstraliya və Cənubi Afrika daxil olmaqla, yetmiş beşdən çox ölkənin rəsmi dilidir.

Müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir-biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət dili kimi çıxış edir. Hindistan buna yaxşı misaldır. İngilis dili 24 müxtəlif dilin hər birində bir milyondan artıq insanın danışdığı bu ölkədə hamı üçün ümumi dildir.

Hal-hazırda ən çox danışılan, dominant və geniş yayılan dillərdən biri 98 milyon nəfər istifadəçisi (35 milyon nəfər ana dili olaraq, 43 milyon nəfər isə ikinci dil olaraq) olan və 53 ölkənin rəsmi dili olan ingilis dilidir.

Aşağıda sadaladığım faktorlar ingilis dilini qlobal edən səbəblərdir:

1. Tez-tez insanlar ingilis dilini biznesin beynəlxalq dili adlandırır və bu müəyyən dərəcədə doğrudur. Bir çox MBA proqramları ingilis dilində öyrədilir, beləliklə, siz ingilis dilini yaxşı öyrənməklə ən yaxşı təlimlərdən istifadə edə bilərsiz. Əksər çoxmillətli kompaniyalar və şirkətlər (təqribən 84%) işçilərindən müəyyən ingilis dili dərəcəsi tələb edirlər.

2. İngilis dili həmçinin internetin dilidir. Hal-hazırda internetdə milyonlarla ingiliscə veb-saytlar mövcuddur. Beləliklə, ingilis dilini bilmək sizə inanılmaz dərəcədə çox məlumat əldə etməyə, forumlarda və müzakirələrdə iştirak etməyə imkan yaradacaq.

3. Əgər texniki elmlər və ya tibb sahəsinə yönəlmək istəyirsinizsə, siz ingilis dilini öyrənməyə bilməzsiniz. Əksər texniki və tibbi terminlər ingilis sözlərinə əsaslanır. İngilis dilinin digər bir üstünlüyü isə odur ki, əgər dünyadakı ən son kəşflər haqqında məlumat əldə etmək istəyirsinizsə, onlar haqqında yazarın ingilis olub olmamasından asılı olmayaraq ingiliscə nəşr olunmuş jurnallardan məlumat əldə edə bilərsiniz. Təbii ki, ingilis dilini bilməklə bir çox seminar və konfranslarda çətinlik çəkmədən çıxış edə biləcəksiniz. Amma ingilis dili sadəcə tibbin və texnikanın dili yox, eyni zamanda ümumiyyətlə təhsilin dilidir. Bir çox elmi kitablar da bu dildə yazılır. Düzdür, bu kitablar tərcümə də oluna bilər amma çox zaman itkisinə səbəb olacaq. İngilis dilinin təhsilə digər faydası budur ki, öz ölkəmizdə olmadığı halda dünyanın ən məşhur universitetlərində təhsil ala bilərik.

4. Digər bir səbəb isə ingilis dilinin medianın dili olmasıdır. Əgər ingiliscə danışa bilirsinizsə, sevimli kitabınızdan, musiqinizdən və ya filmlərdən həzz almaq üçün tərcüməçiyə və yaxud altyazıya ehtiyacınız olmayacaq.

5. Turizm sahəsində də ingilis dilinin çox önəm daşıyır. Aviasiyanın, pilotların beynəlxalq dili ingilis dilidir. Hətta əgər pilot olmasanız belə, aviasiya sahəsində hər hansı bir vəzifədə çalışmaq üçün ingilis dili bilməyiniz mütləqdir.

6. İngilis dili sizə digər dilləri öyrənmənizə kömək edəcək, çünki İngiltərənin uzun və son dərəcə valehedici bir tarixi var. İngiltərənin işğal etdiyi digər ölkələrin onun mədəniyyətinin formalaşmasında təsiri olmuşdur. Beləliklə, ingilis dili Latın, Alman və Roman elementlərindən təşkil olunmuşdur.

7. İngilis dilinin elastikliyi sizə bir ifadəni müxtəlif yollarla deyə bilmək imkanı yaradır. Zəngin lüğət tərkibinə görə siz bir şeyi izah etməyə müxtəlif yollar tapa bilərsiniz. Hal-hazırda bu dilin lüğət tərkibində 750000 söz var və Oksford Lüğətinə hər il təqribən 1000 yeni söz əlavə olunur. Bu nəhəng inkişaf texnologiyanın və Sosial Medianın inkişafının sayəsindədir.

8. İngilis dilinin digər bir üstünlüyü isə onu öyrənmənin rahat olmasıdır. Sadəcə insanları çağıranda hansı əvəzlikdən istifadə etdiyimizə nəzər salsaq görərik ki, ingillis dilində hamıya “you” dediyimiz halda ərəb, alman və digər dillərdə insanları çağırarkən onların cinsinə və əvəzliyin halına diqqət yetirmək lazımdır. Əks halda qarşı tərəf sizi yanlış anlaya bilər.

9. İngilis dili bizə az söz işlətməklə fikrimizi dəqiq çatdırmağımıza kömək edir. Məsələn, ingiliscə “I am a morning person” deyərkən hərkəs bizim nə demək istədiyimizi dəqiq anlayır və biz az söz işlətmiş oluruq, lakin bu ifadəni azərbaycanca deməyə çalışsaq, bəlkə də, fikrimizi çatdırmaq üçün bir neçə cümlədən istifadə edəcəyik.

10. Son olaraq, ingilis dilini sadəcə əyləncə üçün öyrənə bilərik. Dil öyrənməklə həmçinin həmin ölkənin mədəniyyəti və dünyagörüşü haqqında da müəyyən biliklərə yiyələnmiş oluruq. İnsan öz dəyərlərindən və vərdişlərindən fərqli bir mədəniyyəti öyrəndikdə onun yetkin bir insan kimi formalaşması və inkişafı daha da sürətli olur.

Amma bu o demək deyil ki, biz öz ana dilimizi unutmalı və sadəcə ingilis dilini öyrənməliyik. İngilis dili sadəcə biznesdə, təhsildə və digər sahələrdə uğur qazanmağımız üçün lazımdır, lakin harda olursaq olaq ana dilimiz bizim şəxsiyyətimizin bir hissəsidir. Ancaq biz xarici dili öyrənməklə doğma Vətənimizi istədiyimiz ölkədə təmsil edə bilərik. Öz doğma dilini mənimsəməyən və ona dəyər verməyən şəxs başqa heç bir dili öyrənə bilməz.

**Ədəbiyyat siyahısı:**

1. Nəriman Seyidəliyev Afad Qurbanov və ümumi dilçilik. Bakı-2019. 424s
2. Ağamusa Axundov. Ümumi dilçilik. Şərq-Qərb. Bakı-2006. 142s
3. Adil Babayev. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı-2015. 575s
4. Süleyman Hüseynov, Elmira Qaracayeva. Dil və nitq mədəniyyəti. ”Elm və təhsil” Bakı-2016. 408s.

*Iosefina Blazsani-Batto, Ph.D.,*
*Azerbaijan University of Languages,*
*Romanian Institute of Languages,*
*Bucharest, Romania,*

## ON-LINE PLATFORMS - TOOLS TO TEACH FOREIGN LANGUAGES

***Introduction***

The coming together of several ethnicities, cultures, religions, minorities, especially in the European space, has generated attacks, discrimination, extreme politics and an unprecedented hate discourse. Under these conditions, the educational system is urgently obligated to build or to develop abilities and competences “which help citizens to live together in culturally diverse societies” (Byram et *alii*, 2014: 9)

The use of the storybird platform within the courses of Romanian as a foreign language has stated the intention of improving linguistic competences in receiving and, then, producing a written text.

The option for this manner of working can be explained through the need to involve two types of adaptation: that of the teacher, who has to think the teaching and assessment process in a different paradigm than before, and that of the student, who needs to give a form to his/her own discourse in a foreign language according to external conditionings, just as in reality, and not according to their own baggage of words or cliché-syntagms.

***Outcomes and teaching process***

At Azerbaijan University of Languages students learn Romanian in the first three years, as a second language, in order to communicate be prepared for diplomacy or multinational economic envinronment. According to specialization, they have 4 or 6 hours of Romanian per week. They start from level 0 and, at the end of their 3$^{rd}$ year, students reach about a B1 level, with individual variation from A2+ to B2, according to the *CEFRL*. At the end of the 2$^{nd}$ year and throughout the 3$^{rd}$ year, beside general Romanian, they also work on translations from and into Romanian.

The Storybird educational platform is intuitive. The digital books are created starting from the first image which, once selected, imposes on the writer a series of images, hypothetically linked, from the same graphic artist. The order belongs to the user. Next to each image there is a special space where little text fits, which creates the story. The author can receive feedback, can post the digital book online and can even download and print it for a modest amount of money. Of course, anyone can have access to their own book or others that are in the website’s library, which already

contains thousands of creations.

Our option for this platform has several causes, some being general, while others are specific. First of all, as we have mentioned in the introduction, it is impossible to imagine a future world without technology, and it is thus important for the institutionalized education to lead its efforts towards improving some very useful competences, by exploiting intelligent technology. Foreign language teaching can profit from this. There are multiple website and online educational platforms, but when we initiated the project, we realized that Storybird offers the best balance between the cultural opening through discourse in the target language and the development of linguistic competences. As we already know from our professional experience, it is easy to fall into the trap of a superfluous and inefficient use of digital instrument in the educational medium, "due to symbolic values attached to technology infusion" (Daniel & Shin, 2010: 4). Along similar lines, the teacher-student partnership is consolidated, and the image of the teaching authority of the type *deus ex machina* is undermined for the benefit of a collaboration in which knowledge is shared, since often the digital literacy of students is vastly superior to that of the teacher. Second of all, we were drawn by the idea that through Storybird one can equally stimulate the receiving language competences through the books that have already been posted and the producing competences, especially the written one. The specificity of the platform comes from the freedom vs. constraint dynamic in creating a discourse, meaning that the series of images imposes the production of the message, and it is not the pre-thought message that searched for means of visual expression. This is the formula that is the closest to the real and non-didactic context of language use, where the situations enforce a linguistic reaction on the speakers. Third of all, the social network value of the platform brings extra motivation to students. What is profitable here is not only the collaboration within a university group, but also the feeling of belonging to a storytelling community that is international and heterogeneous, but with common educational preoccupations.

The initiation, implementation and dissemination of the project follow the scheme below (Figure 1).

***Figure 1.***

**The stages of the implementation of the project**



***Conclusions***

The present study points out three concepts that are profitably implicated in the present studying of foreign languages: storytelling, linguistic competences and cultural competences. The results, materialized in the acquisition of important digital, cultural and language abilities, as well as the enthusiasm of the participating students encourage us not only to continue the known formula, but also to propose new work techniques (group activities, the inter-evaluation of students) and to more complexly build new digital instruments that would add a voice and movement to the stories that were built.

*Qəribova Mehbarə Niftulla qızı,*
*pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim,*
*Azərbaycan Dillər Universiteti*

## ALMAN DİLİNİN ORİJİNAL MATERİALLAR İLƏ MƏDƏNİYYƏTLƏRARASI KONTEKSTDƏ ÖYRƏNİLMƏSİ TEXNOLOGİYASI

Xarici dillərin tədrisi metodikası bu gün öyrənilən dilin ölkəsi haqqında biliyin olması ilə yanaşı həmin xarici dildə kommunikativ vərdişlərin yaradılmasının ehtiyacının zəruri olduğunu vurğulayır. Sosial cəmiyyətdə yaranan ünsiyyət əlaqələrini müasir texnologiyaların köməyi ilə auditoriya mühitində real vəziyyəti xarici dildə yaratmaq bu günün mütləq bir zərurətidir. Biz bu problemin həllini orijinal video materialların, qəzet və jurnalların, digər media vasitələrinin istifadəsində görür, dilin mənimsənməsində nəzərdə tutulan bu materiallar tələbələrin yüksək motivasiyasına səbəb oduğunu, onların dərsə xüsusi diqqət yetirdiyinin şahidi oluruq.

Tədqiqatçıların materialın orijinallığı problemi ilə bağlı fikirlərinin təhlilinə əsaslanaraq materialın həqiqiliyinə, ünsiyyətin baş verdiyi mühitə yönəldilməsi fikrini qeyd etmək düzgün olar. Xarici dil dərslərində orijinal dil materiallarının köməyi ilə təlim metodlarını müəyyənləşdirməklə araşdırdığımız problemin həlli yollarını göstərmiş olarıq. Aparılan araşdırmalar tələb olaraq, alman dili dərslərində orijinal video materiallardan istifadə üçün bir tədris proqramının hazırlanaraq təqdim olunmasını vacib hesab edir. Elmi-nəzəri ədəbiyyatlara əsasən və eyni zamanda aparılan təcrübəmizin təhlili göstərir ki, orijinal video materiallar təlim və tərbiyə problemlərinin həlli üçün böyük təsirə malikdir. Belə materialların bu gün alman dilinin öyrənilməsi üçün müasir təlim nümunələri olduqları və ölkənin gündəlik həyatında iştirak illüziyasını yaratdıqları üçün onların istifadəsi son dərəcə vacib görünür.

Praktik dərslərdə alman dilində orijinal materiallardan istifadə peşəkar ünsiyyət vərdişlərini formalaşdırmaq üçün əsas tələblərdən biri hesab olunur, çünki onların köməyi ilə dil öyrənmə prosesini real ünsiyyət prosesinə mümkün qədər yaxınlaşdırmaq mümkündür. Orijinal mətnlər milli mədəniyyətin faktlarını və xüsusiyyətlərini əks etdirdiyinə görə, tədris olunan mətnlərdən bir sıra üstünlüklərə malikdir. Orijinal materiallar vasitəsilə tələbələr yeni biliklər əldə edirlər.

Canlı, gerçək həyatın mətnlərini təkrarlamaqla tələbələrin marağının yaranması-

na, materialı müzakirə etməyə, ünsiyyətə girməyə hazır olduğunu və uğurlu anlaşmadan sonrakı mərhələdə dil öyrənmə motivasiyasının artmasına səbəb olur. Son tədqiqatlarda alman dili dərslərində orijinal videolardan istifadə problemi müasir dövrün aktual mövzusuna çevrilmişdir və dərslərdə tətbiq olunan materiallar üçün video seçimi ilə bağlı məsələlər üzərində geniş işlənilir. Materiallarda məlumatverici tərəf, materialın əlçatanlığı və yeniliyi kimi meyarlar nəzərə alınır. Tədris prosesində təqdim olunan videoya baxmağa hazırlaşmaq üçün bir sıra təlimlər və gördüklərini başa düşmək üçün bir çox tapşırıqlar təklif olunur.

Xarici dillərin tədrisi metodikasında kommunikativ bir yanaşmanın öyrədilməsi, xüsusən də mədəniyyətlərarası ünsiyyətin yaradılması yeni metodların axtarışı ilə əlaqəli olmuşdur. Xarici dillərin tədrisi praktikasında video material kimi audiovizual metodika vizuallaşmanın istifadəsinin səmərəliliyini nəzərdən keçirir, dil biliklərinin müxtəlif səviyyələrində olan tələbələrə auditoriyada orijinal videolardan istifadənin faydalarını izah edir, müəllimlərə təlim məqsədlərinə çatmaq üçün material seçməkdə müxtəlif meyarları təqdim edir. Metodik ədəbiyyatın və müxtəlif videofilmlərin istifadəsində praktiki təcrübənin təhlilinə əsasən orijinal video materialların müxtəlif təhsil problemlərinin həlli üçün geniş imkanlar yaratdığı və kommunikativ səriştənin formalaşması və inkişafı üçün dəyərli material olması qənaətinə gəlinir.

Həmçinin, tədris prosesinin təşkilində praktiki hissə olaraq filmlərlə iş aparmaq məqbul hesab edilir. Belə ki, dərsin mərhələlərində video ilə işləməyin müxtəlif növ səriştələrin inkişaf etdirilməsinin məzmununun təhlili verilir. Dərsdə tanıtım video materialları ilə iş ardıcıllığı, habelə müəyyən orijinal materialların növlərini məşq etdirməklə alman dilinin yeni texnologiyalarla öyrənilməsi metodikası təklif edilir və qarşıya çıxan çətinliklər müəyyənləşdirilir.

Tədqiqat zamanı alman dilinin öyrənilməsində orijinal məlumat mənbəyi kimi təqdimat videolarının üstünlükləri və çatışmazlıqları göstərilir, müəyyən tapşırıqlar verilir. Həmçinin, alman dilini öyrənən tələbələrin tədris prosesində video materiallarla işləməsi və onların bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsində müasir yanaşmalardan istifadə etmək məsələləri təklif olunur. Burada, gələcək mütəxəssislərə alman dilini öyrətmə prosesində orijinal məlumat mənbəyi kimi video materialların interaktiv üsulla təqdim olunması təsvir edilmişdir. Belə ki, müasir dövrümüzdə peşə ehtiyacları baxımından, həm də ali təhsil məzunlarının işləyəcəyi təşkilatın əməkdaşlıq mədəniyyətinin yüksəldilməsi baxımından alman dilinin yüksək keyfiyyətli biliyə yiyələnmə prosesinə və nüfuzuna xüsusi diqqət yetirilir.

Müasir tədris metodlarında geniş tətbiq olunan interaktiv təlim alman dilində dərslərin keçirilməsi üçün təklif olunan fəal metod kimi ətraflı təqdim edilmişdir. İnteraktiv öyrənmə ənənəvi metodlarla birlikdə effektiv nəticə verən, lakin müəllimlər tərəfindən obyektiv və subyektiv səbəblərə görə çox asanlıqla istifadə olunmayan geniş texnologiyalar təklif edir. Gələcək mütəxəssislərin peşə ehtiyaclarını nəzərə alaraq, onların kommunikativ səriştələrinin formalaşması üçün tədris prosesinin təşkilində yaradıcı bir yanaşma ehtiyacının olduğunu bir zərurət hesab edirik. Burada nəzərdən keçirdiyimiz müasir texnologiya fikrimizcə, müntəzəm prosesi yaradıcı fəaliyyətə çevirərək təlim keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər və gələcəkdə peşə fəaliyyətlərində onlardan fəal şəkildə istifadə edəcək keyfiyyətli mütəxəssis hazırlana bilər. Qeyd olunan prosesin uğurlu nəticələnməsi üçün məhz tələ-

bələrin media vasitələrindən olan videolarla işləməsi işini yaxşılaşdırmaq və inkişaf etdirilməsini zəruri hesab etmək lazımdır. Bu baxımdan xarici dillərin tədrisində interaktiv təlim və müasir metodların rolu son zamanlar daha çox müzakirə olunur, təlimdə tələbələrin gələcək peşə fəaliyyətlərini mümkün qədər yaxınlaşdırmaq üçün cəhdlər edilir.

İnteraktiv təlim formaları da buna töhfə verir: rol oyunları, qrup və lahiyə işləri, müzakirə, dialoq və s. Rollu oyunlar xarici dilin mənimsənməsində çox təsirli və cəlbedici bir tədris metodudur[1]. Tədris prosesində orijinal materialların köməyi ilə rollu oyunlar tələbələrin alman dilinin inkişaf etməsini sürətləndirir və həmçinin bu prosesdə bir çox çətinliklər də qarşıya çıxır.Yeni təlim texnologiyaları ilə materialların tədris prosesində istifadəsinin məqsədini aşağıdakı kimi izah etmək olar [4]:

- Yeni təlim texnologiyaları tədris prosesində mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşması üçün peşəkar mütəxəssislərin hazırlanmasına zəmin yaradır.
- Yeni təlim texnologiyaları ilə mədəniyyətlərarası yanaşmanın formalaşması xarici dil öyrənən tələbələrdə kommunikativ vərdişlərin yaranmasına səbəb olur.
- Tələbələrin mədəniyyətlərarası kommunikativ səriştələrinin formalaşması üçün orijinal dil materiallarının məzmun və quruluşca seçimi düzgün olmalıdır.
- Orijinal materiallardan istifadə texnologiyası mədəniyyətlərarası kommunikativ səriştənin yaradılması və formalaşdırılması vasitəsidir.
- Mədəniyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirmək məqsədi ilə işləmə texnologiyasını təkmilləşdirmək zəruridir.

Mədəniyyətlərarası ünsiyyət bacarıqlarını formalaşdırmaq üçün orijinal materiallar ilə işləmə texnologiyası və kommunikativ səriştələrin formalaşdırılması metodologiyasının səmərəliliyinin nəticələri bu məqalədə öz aktuallığı, müxtəlif fəaliyyət sahələrində, o cümlədən mütəxəssislərin peşə təhsili keyfiyyətinin yüksəldilməsi tələbləri ilə əlaqədardır. Bu cür mütəxəssislərin Azərbaycanda uzun müddət lazımi hazırlığının olmaması, müəyyənləşməməsi xarici mütəxəssislərin müxtəlif sahələrdə yerləşməsinə, yerli mütəxəssislərin isə keyfiyyətli hazırlığının genişlənməməsinə səbəb olub. Dil fakültəsi olan universitetlərdə tələbələrin orijinal materiallar ilə dilə yiyələnməsi yalnız peşə fəaliyyətini nəzərə alaraq gələcək işin planlaşması və təşkili deyil, həm də qlobal şəraitdə perspektiv istiqamətlərin və problemlərin təhlili, Azərbaycan və xarici tərəfdaşların ünsiyyət qurmaq və xaricdə peşəkar təcrübə keçmək imkanları daxildir. Bu vəzifələr tələbələr üçün xarici dil təliminin rolunu müəyyənləşdirir, xarici dilin peşəkar yönümlü ünsiyyət tədrisinin mədəniyyətlərarası aspektinin əhəmiyyətini vurğulayır.

N.İ. Almazova, M.G. Evdokimova, I.L. Plujnik kimi tədqiqatçıların elmi ədəbiyyatlarda apardığı təhlilləri dil universitetlərinin tələbələri arasında mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşması probleminin kifayət qədər intensiv inkişaf etdiyini göstərir və bu səriştənin, onun komponentlərinin elmi anlayışının formalaşmasına səbəb olur [6]. Bu komponentlərin formalaşması texnologiyaları peşə hazırlığının müəyyən sahələrinə tətbiq olunduğu kimi təqdim olunub: beynəlxalq münasibətlər, ictimaiyyətlə əlaqələr, mədəniyyət, jurnalistika, hüquqşünaslıq, iqtisadiyyat və s.

Müxtəlif ixtisaslardan olan məzunların mədəniyyətlərarası təlim səriştəsinə əsaslanıb bir çox yanaşmalara keyfiyyətli yiyələnmələrinə baxmayaraq, belə öyrənmədə linqodidaktik problemləri tələb edən bəzi məsələlər həll edilməmişdir. Xüsusilə,

ixtisas sahələrində çalışan insanların mədəniyyətlərarası peşəkar kommunikativ səriştələrinin xüsusiyyətləri göstərilmir, orijinal materialların potensialı öyrənilmir. Lakin, orijinal materiallar üzərində bu səriştənin formalaşması prosesini qurmaq məqsədəuyğundur. Orijinal materialları linqvistik və didaktik mövqedən öyrənən bəzi elmi nəzəri işlər tələbələr arasında mədəniyyətlərarası peşəkar kommunikativ səriştənin yaradılması probleminin həllinə kömək etmir: bu işlər digər təhsil şərtlərinə yönəldilmişdir (dil universiteti, orta məktəb, dil kursları). Mütəxəssislərin xarici dildə kommunikativ səriştələrinin yaradılması nəzəriyyəsi və praktikasında mövcud vəziyyətin nəticəsi ünsiyyət sahəsində bu mütəxəssislər arasında mədəniyyətlərarası qarşılıqlı əlaqənin effektivliyini təmin edən tədris planının hazırlanmamasıdır. Tələbələr xarici dildə orijinal mətnləri fərqli mədəniyyətin nümunəsi kimi qəbul etməkdə çətinlik çəkirlər, xarici dildə mətnlərin xarakterik xüsusiyyətlərini ana dilindəki mətnlər ilə müstəqil şəkildə müqayisə edə bilmirlər, öz ana və xarici dildə ifadə olunan anlayışlarla iki mədəniyyət arasında dialoq qura bilmirlər. Yuxarıdakı faktlar dilin mənimsənməsində bir sıra ziddiyyətlərin yaranmasına səbəb olur. Xarici dillər tədris olunan universitetlərdə təhsil alan tələbələrinin mədəniyyətlərarası ünsiyyətə hazırlanması mövzusunda daim artan tələblər aşağıdakılardan ibarətdir:

1. Dilin linqvodidaktik problemləri mədəniyyətlərarası yanaşma zəmnində tələbələr arasında mədəniyyətlərarası ünsiyyət qabiliyyətinin formalaşması üçün tədris qaydalarının dəyişdirilməsini əhatə edir.

2. Tələbələrin gələcək peşə hazırlığında mədəniyyətlərarası kommunikativ səriştəni, təhlil məqsədi ilə yerli və xarici anlayışları müəyyənləşdirmək, aşkar edilmiş mədəniyyətlərarası fərqləri müsbət qəbul etmək və onların peşə fəaliyyəti kontekstində alman dilində orijinal mətnlərin hazırlanmasını özündə cəmləşdirmək bacarığı və istəyidir. Mədəniyyətlərarası kommunikativ səriştəyə mədəniyyətlərarası ünsiyyətin səmərəliliyini təmin edən mədəni və qeyri-mədəni komponentlər daxildir.

3. Mədəniyyətlərarası kommunikativ səriştənin formalaşdırılması vasitəsi olan alman dilində orijinal mətnlər maarifləndirici, kommunikativ, uyğunlaşma funksiyaları, eləcə də mədəniyyətlərarası müqayisə funksiyasını yerinə yetirən mətnlərdir.

4. Gələcək mütəxəssislər arasında mədəniyyətlərarası kommunikativ səriştənin formalaşdırılması metodologiyasının texnoloji tərəfi ana və xarici dillərdə prosesin mərhələli şəkildə təşkili: mətnlərin iki dildə milli və sosial cəhətdən müəyyən edilmiş xüsusiyyətləri ilə tanışlıq, yaradıcılığa yönəlmiş bir sıra tapşırıqların icrasıdır [6] .

Xarici dil bilən mütəxəssislərə cəmiyyətin obyektiv ehtiyacı ilə əlaqəli olaraq təhsildə keyfiyyətcə fərqli bir təlim fəaliyyətinin yaranmasına səbəb olur və bu xarici dillərin tədrisi metodikasında müxtəlif mədəniyyətlərin və xalqların qarşılıqlı ünsiyyət vasitəsi kimi öyrənilməsini zəruri edir. Bəzi tədqiqatçıların fikirləri ilə desək, "dünya dilləri və bu dillərdə danışan xalqların mədəniyyəti birlikdə öyrənilməlidir" [7].

## Ədəbiyyat siyahısı:

1. Qəribova. M. İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə, Bakı. Mütərcim. 2012, 178 s

2. Jugendahl W. Sprachliche Bildung im kulturellen Kontext. Opladen: Westdeutscher Verlag GmbH, 1991, 207 s.

3. Loenhoff J. Interkulturelle Verständigung. Opladen: Lesket Budrich, 1992, 223 s.

4. Moosmüller A. İnterkulturelle Kommunikation. Münster: Waxmann Gmbh, 2007, 181 s.

5. Гусейнзаде Г. Обучение речевой коммуникация на иностранном языке, Баку, Мутарджим, 2001, 314 с.

6. Алмазова Н.И. Диссертация на тему/Когнитивные аспекты формирования межкультурной компетентности при обучении иностранному языку в неязыковом вузе, 2003, 446 с.

7. Ter-Minasova, S.G. Language and Intercultural Communication. SLOVO, Moscow, 2000, 624 p.

*Hüseynova Vüsalə Məzahir qizi,*
*baş müəllim,*
*Azərbaycan Kooperasiya Universiteti*

## İNGİLİS DİLİNİN TƏDRİS EDİLMƏSİNDƏ MÜASİR TEXNOLOJİ VASİTƏLƏRİN VACİBLİYİ

Bütün dünyada olduğu kimi ingilis dilini öyrənən tələbələr dilin müxtəlif aspektlərindən istifadə edirlər. Onlara dili eşitdirmək, yazdırmaq, danışdırmaq və oxutdurmaq lazımdır. XXI əsr müasir texnologiyanın sürətli inkişaf əsri olduğu üçün texnoloji vasitələr hər hansı xarici dilin öyrənilməsində, xüsusilə, dünyada ən çox ünsiyyət dili hesab edilən ingilis dilinin tədrisində, tələbələrin dil təcrübələrininin inkişafında mühüm rol oynayır. Müasir texnoloji vasitələr ingilis dili öyrənən tələbələr üçün əlavə təlim alətidir. Müasir texnologiyanın  tələbələrə şifahi qarşılıqlı ünsiyyətində, dilin lüğət tərkibinin zənginləşdirilməsində, yazı və oxu vərdişlərinin  inkişaf etdirilməsində rolu əvəzsizdir.

Müəllimlər ingilis dili öyrənən tələbələrə zəngin bir mühit, dilin daima fəaliyyətdə olduğu bir mühit təqdim etməlidirlər. Öyrənənlər həmişə kommunikasiya yolu ilə bir biri ilə qarşılıqlı ünsiyyət qurmağa ehtiyac duyur. Müasir texnoloji vasitələr bu mühiti asanlaşdırmağa nail ola bilir. Şifahi mübadiləni artırmaq üçün bir sıra internet portalları alət kimi istifadə edilir.

Dil öyrənmənin ən böyük aspektlərindən biri də lüğətdir. Dil öyrənmək istəyən tələbələr internetdən istifadə edərək, müasir texnoloji vasitələrlə (kompüter, telefon, planşet) söz bazalarını artıra bilirlər. Ünsiyyət zamanı fikrin düşünüldüyü dildə çatdırılmasında lüğətin mühüm rolu vardır. Elə bu baxımdan da müasir texnologiya  tələbələr üçün zəngin mühiti təmin edir.

Müasir texnologiya vasitələri ilə tələbələrin ingilis dilində oxuma bacarığı sürətlə inkişaf etdirilir və səslərin düzgün deyilişi və fonetik qayda-qanunlara düzgün şəkildə riayət olunur.

Yuxarıda qeyd edildiyi kimi, kompüterlər və proqram təminatları, ingilis dilini öyrənən tələbələrin lüğət bacarıqlarının və biliyinin inkişafina kömək edir .

Müasir texnoloji vasitələr həmçinin, tələbərin yazı bacarıqlarını da inkişaf etdirir. Kompüterdə yazı öyrətməyin ən faydalı yolu-e-mail yazmaqdır. Çünki e-maili lazım

olduğundan daha uzun yazmaq lazım deyil. Tələbələrə gündəlik həyatlarının bir hissəsini e-mail vasitəsi ilə biri–birilərinə yazmaq tapşırığı vermək olar. Müəllim mütləq tələbələri yönləntməlidir. Kompüterdən istifadə edərək yazmaq tələbələr üçün qələm ilə yazmaqdan çox maraqlıdır.

Daha sonra bir sıra sosial şəbəkələr vasitəsi ilə də tələbələrin dinləmə, anlama, dərk etmə, ünsiyyət, yazı vərdişlərinin inkişaf etdirilməsində mühüm rolu vardır.

Nəticə olaraq onu qeyd etmək istərdim ki, müasir texnoloji vasitələrlə tələbələr lüğətdən istifadə edə, oxu və yazı texnikasını inkişaf etdirə və ünsiyyətini genişləndirə bilər. Qloballaşan dünyada ingilis dilinin inkişaf etdirilməsində müasir texnologiyanın rolu danılmazdır.

*Gulhayat Matlab Abdullayeva,*
*Senior teacher,*
*Azerbaijan State Pedagogical University*

## THE IMPORTANCE OF LEARNING A FOREIGN LANGUAGE

In today's increasingly interconnected and interdependent world, proficiency in other languages is a vital skill that gives you the opportunity to engage with the world in a more immediate and meaningful way—whether in your neighborhood or thousands of miles away—while better preparing you to compete and succeed in the global economy.

One of the most rewarding aspects of the human experience is our ability to connect with others. Being able to communicate with someone in his or her language is an incredible gift. Bilinguals have the unique opportunity to communicate with a wider range of people in their personal and professional lives. Knowing the language makes you a local no matter where you are, opening up your world literally and figuratively. You will be shaped by communities. You will be humbled by the kindness of strangers. You will build lifelong friendships. And for these reasons alone, you will see the reward of learning languages for many years to come.

The many cognitive benefits of learning languages are undeniable. People who speak more than one language have improved memory, problem-solving and critical-thinking skills, enhanced concentration, ability to multitask, and better listening skills. They switch between competing tasks and monitor changes in their environment more easily than monolinguals, as well as display signs of greater creativity and flexibility. If that weren't enough, as we age, being bilingual or multilingual also helps to stave off mental aging and cognitive decline.

Language is the most direct connection to other cultures. Being able to communicate in another language exposes us to and fosters an appreciation for the traditions, religions, arts, and history of the people associated with that language. Greater understanding, in turn, promotes greater tolerance, empathy, and acceptance of others - with studies showing that children who have studied another language are more open toward and express more positive attitudes toward the culture

associated with that language.

In a world of more than 6,000 spoken languages, we sometimes require translation, but speaking at least one additional language empowers us to access information that would otherwise be off-limits. For example, individuals proficient in other languages are able to navigate the Internet as genuine global citizens—consuming and assessing foreign media and entertainment.

The advantages of learning foreign languages are growing as the world becomes increasingly globalized and bilingualism is now perhaps the most useful real world skill to ever exist.

Speaking a foreign language is incredibly important and it can make you more attractive, interesting, and gives you an air of intelligence.

It's no secret that learning a foreign language can improve your employment prospects. More companies than ever are doing business in several—often dozens of—countries around the world, but they can't do it without hiring people who have a grasp on at least one foreign language. Even in small, local companies, chances are that the ability to speak a second language will set you apart from other applicants. And in an increasingly competitive job market, why not give yourself every possible edge?

Studies have demonstrated the cognitive benefits of learning another language, no matter how old you are. These studies have shown that bilinguals tend to have bigger brains, better memories, are more creative, better problem solvers, etc. Not only do these advantages make it easier to learn yet more languages, they also make it easier to learn, well, anything. The ability to quickly switch between tasks is especially important in today's busy multitasking world. Bilinguals can switch between tasks much faster than their monolingual counterparts and can handle many more tasks at once.

Meeting new and interesting people and developing lifelong friendships are certainly objectives well worth aspiring for, and learning another language is a sure way to expedite that process. Language helps express our feelings, desires, and connect with other humans around us and forms meaningful relationships. Speaking a foreign language not only opens up a massive pool of potential friends, but it also acts as an instant common denominator when you meet native speakers. Plus, speaking in a foreign language can be like speaking in secret code with your new besties.

Foreign language study is simply part of a very basic liberal education. To educate is to lead out—to lead out of confinement and narrowness and darkness. Learning a foreign language and getting soaked into an entirely new culture and worldview is the surest way to become an open-minded, understanding, tolerant individual, and that is absolutely priceless. Once you are aware of the fact that we are all cultural beings, products of our own environments, and that you recognize the cultural base for your own attitudes and behavior, you are ready to consider others in a more favorable light. Seeing the world from a different perspective, and understanding where you and others come from, is a fantastic, eye-opening experience.

Learning any foreign language can actually pull a sort of reverse psychology

on you and provide you with a better understanding of your own native tongue and culture. This is one of the most unexpected advantages of learning a foreign language. You will become much more conscious of not only cultural customs, but of the grammar, vocabulary, and pronunciation patterns of your first language. This likely explains the improvements in listening, reading, and writing skills that foreign language impact to former monolinguals.

Learning a foreign language is of the utmost importance and the reasons to study a foreign language are innumerable. Studying a foreign language helps break barriers and connects human beings on a deeper level of mutual understanding. Plus, reaching this mutual understanding will inevitably open a series of doors leading to a more interesting and satisfying personal and professional life!

*İsmayılova Nüşabə İsmayıl qızı,*
*baş müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## TƏDRİSİN İNKİŞAFINDA XARİCI DİLİN ROLU

Malikanə təbiətlə və kəndlə birbaşa bağlıdır. Kənd evi - *Countary House* bu cəhətdən malikanəni ifadə etmək üçün daha məqbul birləşmə olur. Bu birləşmə öz növbəsində müxtəlif semantik komponentləri aktuallaşdırır. Bura aşağıdakılar aid edilir: 1) yaşayış binası: house, mansion, residence, *dwellingvə s.;* 2) kənd ərazisi*: country, countryside, outside of the city, second home;* 3) böyüklük, genişlik*: large, big və s.;* 4) mülkiyyət*: belonged, belonging, owned;* 5) ənənəvilik*: traditional, aristocratic, historical, owned for many years və s.;* 6) ailə*: family, douter, wife, son və s.;* 7) zənginlik: *wealthy;* 8) xaricigörünüş: *impressive və s.*

"Yaşayış binası" və "kənd ərazisi" daha çox aktuallaşdığına görə onları baza əlamətləri adlandırmaq olar.Məlumdur ki, "baza konseptual əlamət ikonseptin formalaşmasında məzmun əsasını təşkil edir".

Əslinə qalsa, malikanə tam olaraq "kən evi" deyildir. Oxşar cəhət təbiət qoynunda olmaq ilə bağlıdır. Fərqlilik isə həcm, sahə ölçülərində, tikiliş formasında, otaqların, mərtəbələrin sayında və s. özünün göstərir.

Malikanə konseptinin ətrafına müxtəlif tematik-semantik qruplara daxil olan sözlər toplanır. Malikanənin xarici görünüşü tematik qrupuna*gardens, park(s), parkland, furniture, sofa, pictures, antiquities, library; magnificent, luxurious, expensive, beautiful, great, stately, spacious, big; set, situated, designed, demonstrated, abounded, surrounded, worn, destroyed*kimi sözlər girir. Bununla belə bu leksik vahidlərin bir qismi xarici görünüşlə uzlaşmır. Məsələn, *sofa, pictures, antiquities, library; magnificent, luxurious, expensive, beautiful, great, stately, spacious, big; set, situated, designed, demonstrated, abounded* və s. Bu leksik vahidlərdən bəziləri interyerdə yetərliləşən predmetləri, başqa bir qismi isə keyfiyyəti, qiymətləndirməni ifadə edir.

Mədəniyyət və tarixlə bağlı qrupda *poems, atmosphere, style, clichés, settings, gallery, exhibition, collection, architect; English, Irish, Scottish, old, traditional, Georgian, Edwardian, Victorian; built, established, dating, evoked* kimi sözlər ola bilər.

Malikanədə yaşayan və ora gələnlərə aid olan sözlər də müəyyən tematik qrup əmələ gətirir.Məsələn, *weekend, party, drama, murder, mystery; comfortable, beloved, welcoming; loved, forsaken, belonged* və s.

Təbii ki, malikanə konseptinin konkret əsərdə əhatə etdiyi tematik-semantik leksik qrupların da fərqli vahidlərdən istifadə oluna bilər. Fikrimizcə, bu baxımdan C.Ostinin malikanə romanlarının leksik üslubu məsələləri xüsusi maraq doğurur. Onun yaradıcılığında ingilis linqvokulturologiyasında əsaslı yer tutan vahidlər "həyat", "ailə", "sevgi", ailə və ictimai münasibətlər, irs, tarix, ənənə, mədəniyyət denotative sahələr ilə əlaqəlidir.

Yazıçı müxtəlif əsərlərində malikanə konseptinin əhatə dairəsini tədricən geniş-

ləndirir. Bədii konseptin motivi, obrazı, “qəhrəmanı” kimi malikanə sözünün xüsusi mənası, hər şeydən əvvəl, əsərin adında ifadəsini tapır. Məlumdur ki, bədii əsərin başlığı onun güclü mövqeyi olub yaradıcılıq nümunəsinin mahiyyətinə varmaq, onun məzmununu dərk etmək üçün ilkin əsas rolunu oynayır.V.A.Kuxarenko da başlığın güclü mövqeyini qəbul etmiş, bununla yanaşı, onu müəllif informasiyalaşdırmaq istədiyi konseptin əsası saymışdır. C.Ostinin altı romanının hər birinin adı qeyd olunan cəhətlərə cavab verir. Bu başlıqlar - a) tematik - «Sense and Sensibility», «Pride andPrejudice», «Persuasion»; b) personaj – “Emma”; c) oykonim - «Mansfield Park», «Northanger Abbey» tiplidir. Bütün bu başlıqlar mətn təşkiledici funksiyanı yerinə yetirir, əsərin məzmun rolunu oynayır. Əsəri səbut emanı aydınlaşdıran rema olur.

C.Ostinin “Qürur və qərəz” romanının adı tematik problem ifadə edir və ilk baxışdan onun malikanə ilə heç bir bağlılığı yoxdur. «Pride and Prejudice» adının tərkibindəki “pride” sözü şəxsi keyfiyyət bildirir, insana xasdır. Söz genderoloji baxımdan ümumi səciyyəlidir, həm kişiyə, həm də qadına aid ola bilər. *Prejudice* sözünü də eyni istiqamətdən izah etmək mümkündür. Bu iki sözün “and” bağlayıcısı ilə əmələ gəlmiş birləşməsi əsərin adının sevgi məcarası, eşq hekayəti olması assosiasiyasını yaradır və bu assosiasiyanın əmələ gəlməsində “pride” dominant mövqedə durur. Romanın elə birinci cümləsində müəllif başlığın yaratdığı assosiativ duyumu təsdiq edir. Bu cümlənin davamı olan abzas və sonrakı dialoqun birinci replikası həm hadisələri inkişaf etdirir, həmdə malikanə konseptinin əsaslı şəkildə əsərə daxil edir.

“It is a truth universally acknowledged, that a single man in possession of a good **fortune**, must be in want of a **wife**.

However little known the feelings or views of such a man may be on his first entering a neighbourhood, this truth is so well fixed in the minds of the **surrounding families**, that he is considered the rightful property of some one or other of their **daughters**.

“My dear Mr. Bennet," said his lady to him one day, "have you heard that **Netherfield Park** is let at last?". – “Hamı bilir ki*, maddi imkanı olan gənc* özünə ***arvad*** axtarmalıdır.

*Məmmədova Minayə Əflatun qızı, müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## AMERİKANİZMİN YARANMASI VƏ AZƏRBAYCAN DİLİNDƏ İFADƏ VASİTƏLƏRİ

Amerikan söz və ifadələrinin dildə fərqləri artıq hiss olunmaq dərəcəsinə çatdığı vaxtdan amerikanizm haqqında mübahisələr başlandı. İngilislər amerikalıları əvvəlcə ingilis dilini təkrar etməkdə, XVII yüzillikdə İngiltərədə işlənmiş, sonra isə arxaikləşmiş sözlərin yeni amerikanizmlər adı altında nitqdə işlənmələri üstündə tənqid etməyə başlamışlar. Sonralar ingilis tənqidçiləri bir qədər sakitləşən kimi, amerikalılar özlərini müdafiə etməyə, həm də bütün amerikalıları dillərinin təmizliyi uğrunda mübarizə aparmağa çağırdılar. İngilislərlə amerikalıların bu mübahisəsi on doqquzuncu yüzillikdən indiyə qədər davam etməkdədir.

"Amerikanizm" sözünü ilk dəfə crossing termin kimi Prinston Universitetinin Prezidenti Con Vinderspun işlətmişdir. O, bu sözü ən yuxarı təbəqədə, təhsil sistemində, alimlər arasında ingilis dilindən fərqli bir ifadə kimi işlətmiş və həmin sözün lüğət tərkibində özünə yer tutması üçün yazmışdır: "Amerikanizm" sözü mənim dediyim, tələffüz etdiyim şəkildə yaranışına ifadə funksiyasına görə skotizmin "Şotlandiya" dili yaranması ilə eynidir. Əgər bir şotlanda özünün ingilis olmadığını bilirsə və öz dilinin şotland dili olduğunu başa düşürsə, ingilis dilinin qayda qanunlarını şotland dilininki hesab etmirsə, mən də deyirəm, amerikanizm də onun kimidir, ingilis dili deyildir".

Amerika Birləşmiş Ştatlarının o dövrdəki Prezidenti Cefferson həmin mübahisə ilə əlaqədar demişdir: "hər sözdən ötrü hay-küy qaldırmaq lazım deyildir. Biz yeni sözlərin yaranmasına, nitqdə işlənməsinə etiraz etmirik. Lakin ingilis dilini, London dilini, onların ayrıca dövlətləri olduğu kimi, bizim dilimiz ingilis dilindən tamamilə fərqlənincəyədək işlədəcəyik. Bəli, etiraz etmirəm, lakin arzum budur ki, bizim dilimizin elə imkanı olsun ki, köhnə arxivləşmiş lakin bizim başa düşdüyümüz sözlərlə birlikdə yeni ifadələr yaratmağa imkanı olsun".

Amerika Birləşmiş Ştatlarında ilk amerikanizm lüğəti 1816-cı ildə Con Fikkerin rəhbərliyi altında "Amerika Birləşmiş Ştatlarında çox işlənən söz və ifadələrin lüğəti" adı ilə çap olunmuşdur.

C.Fikker lüğətin girişində göstərir ki, o ölkəsinin dilini saflaşdırmaq arzusu ilə həmvətənlərinə bu lüğəti hazırlayıb.

Onun bu təşəbbüsünü bəyənən bütün dünyada "Vebster lüğəti" ilə məşhur olan Noah Vebster deyirdi ki, "Yeni sözlər ingilislərin icazəsi olmadan da yaranacaqdır, çünki artıq mübarizə başlanmışdır".

Daha mükəmməl amerikanizm lüğəti 1848-ci ildə Con Bartlet tərəfindən çap edildi. Müəllif üç il Meksika ərazisi ilə sərhəddə işləmiş və bu müddət ərzində sərhəd həyatından topladığı yeni sözləri lüğətə daxil etmişdir.

Vilyam Dmen Havelə yazırdı: "Bizim romançılar çalışırlar ki, bütün epizodlar amerikanca yazılsın. Eybi yoxdur yazsınlar, çünki onlar da Amerikada doğulublar, indi onların növbəsidir. Amma mən istərdim ki, onların qəhrəmanları düzgün amerikan variantlarında danışsınlar, yəni tendensiyalı, bostonlu, filadelfiyalı kimi öz dialektlərində danışsınlar, Nyu-York aksentində danışsınlar".

Bütün bunlara baxmayaraq, yeni şəraitdə heç bir kənar təzyiqdən asılı olmayaraq, yeni sözlər yaranmaqda davam edirdi, bunların ətrafında da mübahisələr getdikcə qızışırdı.

XIX əsrdə amerikanizm üstündə mübahisələr heç də amerikalıların təmizlik siyasəti deyil, sadəcə olaraq ingilis dilində təmiz danışanlarla amerikan variantında danışanlar arasında olan mübahisəli linqvistik mövzusuna çevrilmişdir. Mübahisə, əsasən düzgün təmiz danışmaq üstündə gedirdi. Dilin təmizliyi tərəfdarları amerikanizmlərdən istifadə edərək düzgün danışmağı təbliğ edir, Britaniya ingiliscəsi ilə amerikanizmlər arasındakı fərqləri aydınlaşdırmağa çalışırdılar. İrəlidə qeyd etdiyimiz kimi, amerikanizmlərin hətta ayrıca amerika dilinin olması üçün həddindən artıq fəaliyyət göstərən hazırda bütün dünya ölkələrində məşhur olan "Vebster lüğətləri"nin yaradıcı-

sı və müəllifi olmuş Noah Vebsterin bu sahədə böyük zəhməti olmuşdur.

Noah Vebster Birləşmiş Ştatların Hortfort əyalətində anadan olmuş, universitet təhsilini isə Uel şəhərində almışdır. İxtisasca hüquqşünas idi. Lakin hüquqşünaslıq sahəsindəki uğursuzluğu onu müəllimlik etməyə vadar etdi. Belə bir dəyişiklik onun bütün karyerasında dönüş yaradır. Məktəbdə dərs demək üçün, o dövrdə mövcud olan dərsliklərin qənaətbəxş olmaması Vebsteri dərslik yazmağa "sövq edir. O, üç kitab - imla, qrammatika və oxu kitabları yazır. Bu kitabları o "İngilis dilinin qrammatikası institutu" adı altında çap etdirir. Ölkədə dilə aid çap olunmuş ilk nümunələr kimi bu kitab o qədər müvəffəqiyyət qazandı ki, tezliklə "Amerika imla kitabı" adı ilə yenidən çap olundu. Kitab səksən milyon tirajla yüz illər boyu satıldı, lakin müəllif öz həyatı ehtiyacı üçün bir senti belə xərcləmədi.

Belə bir uğur Vebsterin linqvistikaya olan marağını artırdı. 1789-cu ildə o, "İngilis dilinin tarixi və ədəbiyyatı haqqında qeydlər" adlı dissertasiya müdafiə etdi. 1828-ci ildə bütün dünyada Vebster adı ilə tanınmış İngilis dilinin "Amerikan lüğəti" kitabını çap etdirir.

N.Vebster irili xırdalı bütün yazılarında inadkarcasına sübut etməyə çalışır ki, bu ölkədə danışılan ingilis dili bütün xüsusiyyətlərilə birlikdə müstəqil Amerikanın öz məhsuludur. Kitabın ön sözündə isə müəllif əldə etdiyi bütün nailiyyətləri konfederativ respublika olan Amerikanın çiçəklənməsinə, inkişafına həsr etdiyini bildirir.

N.Vebster yazırdı: "Yaxın gələcəkdə bu ölkə öz gücü, ədəbi inkişafı ilə bütün başqa ölkələrdən – tiran Avropadan fərqlənəcəkdir. Hazırda körpə Amerikaya əski Avropanın ən müsbət cəhətlərini maksimum dərəcədə mənimsətməklə onların arasında gənclik, yenilik toxumunu cücərtməliyik".

N.Vebster Pikkerinqə məktubunda həmişə beynində dolaşan bir fikri belə açıqlayırdı: "Mən öz həmyerlilərimə çox təəccüb edirəm: necə olur ki, onlar ingilis yazıçılarının əfsanə ilə dolu yazılarını ağıllarına sığışdırırlar. Amma mən inanıram ki, bizim həmvətənlərimizin intellektual səviyyəsi bir gün elə yüksəkliyə qalxacaq ki, ingilislərin bu əfsanələrinə fikir verməyəcəklər".

Vebster bu fikri söyləyərkən artıq yeni dünyada amerikanizmlər yaranmağa başlamışdır. O, ümid edirdi ki, yeni dünyada, yeni ölkədə yaradılacaq yeni cəmiyyət, yeni elm, incəsənət yaradacaq və bunların qarşılıqlı əlaqəsi nəticəsində kökü alman dili olan müasir holland, danimarka və isveç dilləri kimi yeni vahid bir dil meydana gələcək. Bütün bunları söyləyəndə Vebster müasir amerika dilini nəzərdə tutur və deyirdi ki, bu ölkə ilə başqa ölkənin adamları arasındakı fərq həmişə ölkələrdəki dövlət quruluşu, qanun müxtəlifliyi, müəssisələr, təşkilatlar, adət və ənənələri səviyyəsində olmuşdur. Belə fikirlər də öz növbəsində yeni-yeni terminlərin yaranmasına gətirib çıxarmışdır. Fikrini sübut etmək üçün Vebster öz lüğətindən misallar gətirirdi. Həmin lüğətdən bir neçə terminə diqqət yetirək: Senate (senat), congress (konqres), court (məhkəmə), assambley (assambley) və s. Bu sözlər həm Amerika Birləşmiş Ştatlarında, həm də İngiltərədə işlənir. Lakin Amerika vətəndaşı bu termini İngiltərə vətəndaşından başqa cür təsəvvür edir. Belə sözlərin tələffüzlərindəki fərqləri isə amerikan və ingilis müəlliflərinin əsərlərindən gətirdiyi nümunələrin müqayisəsi yolu ilə nümayiş etdirməyə çalışırdı. O, nikbinliklə yazırdı ki, onlar bir neçə yüz ildən sonra desələr ki,

amerikan dili ingilis dilindən fərqli olaraq ayrıca qrammatik, fonetik qaydalara malikdir və ingilis dilindən fərqli olaraq öz lüğəti olan müasir bir dildir onda linqvistika ilə məşğul olan tədqiqatçılar heç də təəccüblənməyəcəklər, əksinə onlar məşhur Vebster lüğətinin banisi Noah Vebsteri xoş bir təbəssümlə yad edəcəklər.

Qeyd etdiyimiz kimi amerikanizmlərin yaranma tarixi XIX əsrin əvvəllərinə təsadüf etsə də, sonrakı illərdə ayrı-ayrı alimlər Amerikan ingiliscəsi haqqında Britaniya ingiliscəsinin bir qolu kimi tədqiqat aparmağa başladılar.

Amerikan ingiliscəsinə elmi maraq Amerika dialekti cəmiyyətinin yaranmasına səbəb oldu.

İngilislər bəzən amerikan danışıq dilinin sərbəstliyinə, tez-tez danışıqda slenqlərdən istifadə etdiklərinə və bəzi sözlərin tələffüzündəki fərqlərə etiraz edirlər. Lakin onlar amerikalıların ehtiyaclarından irəli gələn yeni yaradılan legitim sözləri, işlətmələrinə qarşı etiraz edə bilmirlər. İngilislər eyni zamanda söyləyirdilər ki, ingilis dili öz eksponsionist mövqeyi ilə bütün Amerika qitəsini əhatə etməlidir. Onlar həm də öz dillərini tərifləyərək deyirlər ki, ingilis dili həm də qədim, keçmiş eyni zamanda gələcəyi əks etdirən hər hansı bir orqanizm kimi canlıdır. Onun gələcək inkişafı isə Amerika respublikası və İngiltərə imperiyasından asılıdır.

Amerikalılar isə amerikan variantının az tanınmasında özlərini günahkar sayır və bu məsələni üç cəhətdən aydınlaşdırırlar.

Birincisi, amerikan ədəbiyyatçıları ilk növbədə poetik janrdan istifadə edərək, yazılarında çoxlu siqnallar işlətmişlər.

İkincisi, yazılan əsərlərin əksəriyyəti fantastik əsərlər olmaqla reallıqdan götürülmüş, təhrif olunmuş dildə vulqarizmlə danışan qəhrəmanlardan ibarətdir.

Nəhayət, üçüncüsü, bir qism yazılar ingilis ədəbi dilində yazılmışdır.

Bütün yuxarıda dediklərimiz Amerika, onun dili, mədəniyyəti haqqında müxtəlif məlumatlar verir. Lakin amerikalı alimlər, tədqiqatçılar yəqin ki, bir vaxt amerikan ədəbi dilinin İngiltərədə qəbul ediləcəyinə inanırlar. Onlar həm də ingilislərin əksinə olaraq, inanırlar ki, Amerikada ingilis dilini hazır şəkildə qəbul etməyəcək, amerikan ədəbi dili çərçivəsində standart Britaniya ingiliscəsi olmayacaqdır.

*Güləliyeva Zərif Qurban qızı, müəllim,*
*Bakı Slavyan Universiteti*

## ALMAN DİLİNİN TƏDRİSİNDƏ MÜASİR TEXNOLOJİ VASİTƏLƏRDƏN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

Müasir dövrün tələbi olaraq alman dilinin mənimsənməsində tələbələrə öyrəndikləri xarici dildə ünsiyyət yaratmaq vərdişi və bacarığının aşılanması tədris prosesində müxtəlif fəaliyyət növlərindən istifadə etməklə həyata keçirilir. Belə mühüm vərdişlərin dərs prosesində inkişafı üçün lazımi şəraitin yaradılması xarici dillərin tədrisini şərtləndirən əsas amillərdən biridir. Qeyd olunanlara nail olmaq məqsədi ilə dünya təhsil sistemində tətbiq olunan müxtəlif üsul və metodlardan tədris prosesində istifadə etmək vacibdir.

Bu gün xarici dilin tədrisində müasir texnoloji vasitələrdən istifadənin səmərəliliyi dilin keyfiyyətli mənimsənməsi nəticəsinə səbəb olur. Belə ki, müasir texnologiyalardan dərs prosesində istifadənin metodik-didaktik əsasları inkişaf prosesində müxtəlif elmi-nəzəri mənbələrdən araşdırılmışdır. Alman dilinin keyfiyyətli mənimsənməsində məhz müasir texnologiyalar vasitəsilə dilin öyrənilməsi, onun mahiyyəti və təşkili formaları, belə fərqli yanaşmanın həyata keçirilməsinin səmərəli yolları məqalənin əsasını təşkil edir.

Alman dilinə yiyələnməni şərtləndirən əsas amillərdən biri tədris prosesində müasir texnoloji vasitələrlə dil materiallarının inkişaf etdirilməsi və qarşıya çıxan çətinliklər, onların didaktik tapşırıqlarla təkmilləşdirilməsi problemləri son dərəcə əhəmiyyətlidir. Təqdim olunan təlim ünsiyyətin alman dilində yaradılmasına və sosial əlaqələrin möhkəmlənməsinə imkan verən bir fəaliyyət növüdür.

Qeyd etməliyik ki, dilin mənimsəməsini keyfiyyətli edən əsas amillərdən biri alman dilinin tədrisi sahəsində müasir texnoloji vasitələrdən istifadənin səmərəli yollarının öyrənilməsində müsbət nəticələrin əldə edilməsidir. Belə ki, müxtəlif sosial şəbəkələr vasitəsilə, radio, televiziya proqramları ilə yalnız xəbər məlumatlarını deyil, həmçinin reklamları, maraqlı söhbətləri və müxtəlif sevilən mahnıları dinləyirik. Alman dilində dinlənilən musiqi, söhbət, xəbərlər və digər məlumatları aydın və düzgün anlamaq üçün autentik tapşırıqların dərsin hər hansı bir mərhələsində tətbiq olunması tələb edilir. Məhz alman dilinin keyfiyyətli mənimsənməsində və öyrənilən dildə ünsiyyət qurma qabiliyyətinin yaradılmasında əsas məqsəd, ilk növbədə, müasir texnologiyalar vasitəsi ilə təlim materiallarının alman dilinin tədrisində səmərəli istifadə yollarının inkişaf etdirilməsidir.

Alman dilinin tədrisində yeni texnologiyaları tətbiq etməklə biz hansı bilik və bacarıqların yaradılmasına və hansı üstünküklərə nail ola bildiyimizi aşağıdakı kimi sistemləşdirmək olar:

- alman dilinin ünsiyyət bacarıqlı mənimsənməsi prosesi, ilk növbədə, müasir kommunikasiya texnologiyalarının tədrisdə tətbiqi ilə mümkündür;
- ilk mərhələdən başlayaraq alman dilinin öyrədilməsində müasir texnologiya motivasiyanın inkişaf etdirilməsini təmin edir;
- yeni texnologiyaların köməyi ilə kommunikativ vərdişlərin inkişaf etdirilməsi dil bacarıqlarını keyfiyyətli edir;
- ünsiyyət bacarıqlarının inkişafı üçün yeni təlim materiallarının müasir texnologiyalarla istifadəsi əsasdır.

Bu gün ixtisaslı bir mütəxəssis hazırlamaq üçün məntiqi düşüncə sahibi olan gənclərin inkişaf etdirilməsi vacibdir. Belə ki, bir çox gənclərin həyat tərzi artıq öz smartfonları və ya digər mobil cihazları ilə sıx əlaqəlidir. Dövrün tələbi və problemi olaraq əlbəttə ki, onlardan bu gün istifadəni zəruri hesab etmək olar. Buna görə, yeni texnologiyalardan istifadə edən müəllimlər auditoriyada özünə inamla tələbələr üçün məlumatları genişləndirir, mobil qurğular vasitəsi ilə dərslərə adi mühazirələrdən daha çox məzmun verirlər. Qeyd edək ki, ABŞ-ın əksər ştatları tədris planlarında interaktiv təlim və imtahan üçün zəruri olan ilk tablet təqdim edib. Hər il bu cihazla tələbələr 18 yaşından əvvəl əldə edə biləcəkləri bütün vacib məlumatları diqqətlə öyrənməyə çalışırlar [6]. Mediada bəzi texniki yeniliklər var ki, onlar öyrənmə dövrünü gözləyə bilmirlər. Bir çox tədqiqatçıların qeydlərində deyilir: “İnsan biliklərinin hər sahəsi hərəkətli görüntülər vasitəsilə öyrədilə bilər. Tədrisdə belə bir yeniliyin tətbiq olunması,

yəni, müasir dövrdə başlayan film texnologiyası bir neçə ildən sonra dərslikləri əvəz edəcək və təhsildə inqilab edəcəkdir". Eyni fikir radio və televiziyalar üçün də düzgün deyilib: "müəllimlər bu mediadan istənilən sayda tələbəni uzaqdan öyrətmək üçün istifadə edəcək və öyrənmə prosesi tamamilə dəyişəcək"[4]. Müasir texnologiyalardan istifadə: CD-ROM, kompüter, DVD və qısa müddət sonra interaktiv media - bütün bunlar öyrənənlərə belə bir ümid verdi ki, perspektivdən asılı olaraq qorxunu, kompleksi və digər mənfi təsirləri uzaqlaşdıra biləcək və dilin mənimsənməsində çətinlikləri aradan qaldıracaqlar. Nəticədə, tədris prosesinin özündə bir çox vəzifələr dəyişir: yaddaşda biliyin şüurlu qavranılması, bir tələbənin yeni texnologiya ilə müstəqil işləmək bacarığı və s.

Alman dilinin tədrisində ilk dəfə yenilik 1960-cı illərdə məktəb sistemində ən inkişaf etmiş texnologiyalardan biri, dil laboratoriyalarından tez-tez istifadə olunması ilə qeyd olunub. Tələbələr tədris prosesində alman, fransız və ingilis dillərində danışmalı olduqları mətnləri dinləmə otağında oturmaqla, səs texnologiyası və qulaqcıqlardan istifadə etməklə dilin mənimsəməsinə nail olublar. Müəllimə tələb olunduğu kimi bu zaman hər bir tələbəyə fərdi olaraq yanaşmaq, onlara aid olan qulaqçıqları yandırmaq, dil materialları ilə təmin etmək və qiymətləndirmək imkanı verildi. Lakin, eyni zamanda, təcrübədə belə bir fikrin də səslənməsi vacib oldu: xarici dillərin texnologiyalarla öyrənilməsində tələbələr çətinlik çəkirlər. Çox təəssüf ki, onların texnologiyalardan istifadə etməsini dəstəkləmək əvəzinə, əksər dil laboratoriyaları bu məktəblərdən çıxarıldı [6]. Bu gün məktəb həyatında qrafik, video və təqdimatların sinifdəki kompüterlərdən, noutbuklardan proektorlarla interaktiv lövhələrə yönləndirilməsi, həmçinin smart lövhələr adlandırılan çoxsaylı texniki yardım vasitələri mövcuddur. Lakin müasir texnologiyalardan istifadə etməklə dilin öyrənilməsində baş verən çətinliklərdən hələ də danışmaq olar. Tədrisdə müəllimə dəstək verən texnologiya bir vasitə olaraq daim öz yerini tutur və tez-tez dərsdə istifadə olunur. Müasir texnologiyanın müəllim və tələbə arasında birbaşa mübadiləsinə müdaxilə etməsi və ya maneə, məhdudiyyət qoyması həmçinin, dil materiallarının keyfiyyətli mənimsənməsinə mənfi təsir etməsinə səbəb ola bilər.

Müasir texnologiyalarla təmin olunmuş onlayn seminarların video, dərs vəsaitləri, forumlar və interaktiv elementlərin köməyi ilə akademik alman dil biliklərinin mənimsədilməsi prosesi çox sayda maraqlı tələbələrin hazırlanmasına səbəb olur. Xarici dil dərslərində qısa videolar hazırlamaq və sonradan onları YouTube-da yayımlamaqla belə təlim tez bir zamanda izləyicilərinin sayını artırır, müəllim-tələbə əməkdaşlığı layihəsini müəyyənləşdirir. Bu vaxt xarici dildə digər elmi mövzuları izah etməklə yanaşı, həm də həll oluna biləcək problemlərin köməyi ilə təcrübi tapşırıqlar etməyə kömək edən minlərlə onlayn dərslər toplusu yaranır [5]. Bəzi universitetlər, o cümlədən, Bakı Slavyan Universiteti dil materiallarının daha çox müasir texnologiyalarla təqdim olunmasını təkmilləşdirilməklə bu dərs prosesini müsbət bir şəkildə dəyişdirmişdir: tələbələr əvvəlcə materialı evdə planşetlə, şəxsi kompüterlə müstəqil öyrənməklə mühazirələri oyunlar və slaydlar ilə zənginləşdirirlər. Dərsdə müəllim daha sonra təlim materiallarını didaktik prinsiplərə əsaslanaraq dərinləşdirir, bilik səviyyəsini yoxlayır və ev tapşırığının fəal təlim vasitələri ilə yoxlanılmasını tətbiq edir. Kompüter texnologiyası sayəsində müəllim problemlərin olduğunu görə bilir və sonra dərhal anlaşma olana qədər fərdi kömək etməyə davam edir: frontal tədris fərdi yanaşma ilə əvəz olunur.

Müasir texnologiyalardan səmərəli istifadə vərdişlərinə yiyələnmək hər bir dil müəlliminin vəzifəsidir və texnoloji vasitələrin köməyi ilə çoxlu sayda onlayn resurslardan (məsələn, internet, audio və video roliklər, Power Point proqramı və s.) və metodlardan istifadə etməyi bacarmalıdır. Xarici dillərin öyrənilməsində fərqli tələffüz və qrammatik qaydaların öyrənilməsi çətindir. Bu çətinliyin aradan qaldırılmasında müasir texnologiyaların rolu əvəzsizdir. Çünki müasir texnologiyalardan istifadə dərs prosesini daha sürətli, maraqlı və tez qavranılan edir. Bir sözlə, müasir texnologiyalar müəllimlərə istənilən fənnin daha yaxşı tədris olunmasında zəngin məlumat xidməti təklif edir. Belə ki, bu texnologiya əsrində texnoloji vasitələrdən istifadə etməklə daha səmərəli, daha müasir dərslərin təşkilinə nail ola bilərik.

Tədris prosesində tələbələrin mədəniyyətlərarası kommunikasiya prosesinə qoşulmasını gücləndirmək məqsədilə bununla bağlı olan səhvlər aradan qaldırılmalı və materialın müasir texnologiyalarla öyrənilməsi mexanizmini müəllim dərsdə tətbiq etməlidir. Müasir təhsil tələbələrimizin bilik, bacarıq və vərdişlərinin formalaşmasını və bu vərdişlərin inkişaf etdirilməsini nəzərə alaraq yeni metodların tətbiq edilməsini tələb edir. Bundan əlavə multimedia texnologiyaları vasitəsi ilə dilin mənimsənilməsi tədrisin ilkin mərhələsindən həyata keçirilən fəaliyyət növü olub sonrakı mərhələlərə qədər bu vərdişlərin aşılanması tövsiyə edilir. Belə ki, xarici dildə danışıq bacarıqlarının yaradılması məqsədyönlü şəkildə müasir texnoloji resurslar ilə əlaqələndirilməli və kommunikativ fəaliyyətin əsasını təşkil etməlidir.

**Ədəbiyyat siyahısı:**


1. Neuner G., Hans H. Methoden des fremdsprachlichen Deutschunterrichts. Berlin: Langenscheidt, 2002, 200 s.
2. Bimmel P., B.Kast., G.Neuner. Deutschunterrichtplanen. Arbeit mit Lehrwerkslektionen. München: Langenscheidt, 176 s.
3. Schatz H. Fertigkeit Sprechen. Kassel: Langenscheidt, 2001, 228 s.
4. Erlinger H.D. Neue Medien Edutainment Medienkompetenz. / Deutschunterricht im Wandel. München: Ko Päd, 1997, 133 s.
5. Roche J. Fremdsprachenerwerb/Fremdsprachendidaktik.Tübingen: A. Francke Verlag, 2008, 286 s.
6. İnternet resursları.



*Firuzə Fuad qızı, müəllim,*
*Bakı Biznes Universiteti*


## DİL - ÜNSİYYƏT VASİTƏSİ KİMİ

Dil - yalnız insanlara aid olan, özündə müəyyən məzmun və səslənmə qaydaları daşıyan şərti sistemdir. Dil yalnız ünsiyyət vasitəsi deyil, dünya fəlsəfəsidir. Dil hələ qədim zamanlarda toplu halında yaşayan insanların bir-birinə sözləri çatdırmaq, fikirlərini ifadə etmək, ünsiyyət saxlamaq ehtiyacından ortaya çıxmışdır. O müəyyən bir şəraitdə - insan cəmiyyətində yaranır, inkişaf edir və fəaliyyət göstərir. Belə ki, yeni doğulan körpə insanlarla ünsiyyət saxlamasa, yəni, insan yaşamayan bir mühitdə bö-

yüsə, (və ya lal adamlar arasında tərbiyə olunsa) o danışa bilməz. Məhz buna görə də dil ictimai hadisə sayılır. Dilin varlığı üçün cəmiyyətin olması mühüm şərtdir. Bəşər cəmiyyəti olmayan bir yerdə dil də mövcud ola bilməz. Eyni zamanda, dilin də inkişafına cəmiyyət təsir göstərir. A.Qurbanov vurğulayır ki, cəmiyyətin dilə təsiri iki yolla özünü göstərir:

1. Dilin inkişafına cəmiyyətin stixi yolla təsiri. Bu yolla inkişaf dilin qeyri-ədəbi danışıq formasında - dialekt və şivələrində müşahidə olunur.

2. Dilin inkişafına cəmiyyətin şüurlu və daimi yolla təsiri. Dilə şüurlu təsir prosesində sosial tələblər mühüm rol oynayır. Bu yolla ümumxalq dilinin ədəbi formasına təsir göstərilir.

Cəmiyyətin inkişafında dilin rolundan danışarkən qeyd edilmişdir ki, dil əmək fəaliyyətinin bütün növlərində iştirak edərkən cəmiyyətə təsir göstərir və onun mədəni inkişafına zəmin yaradır. Dil cəmiyyətin formalaşmasında əvəzsiz bir vasitədir. O insanın ətraf mühiti qavramasında mühüm rol oynayır.

Dil ancaq insanlara məxsus olan ünsiyyət vasitəsidir, heyvanlar yalnız münasibətləri duya bilirlər. Dil irqi və irsi cəhətlərlə bağlı deyil. Buna sübut olaraq, belə bir nümunə göstərmək olar: bir zənci balası körpəlik çağından valideynlərindən ayrı düşərək Azərbaycan ailəsində böyüyərsə, o, Azərbaycan dilində danışmağa başlayacaq. Dil mənsub olduğu xalqın həyatı ilə sıx şəkildə bağlıdır. Xalqın milli şüuru, mədəni səviyyəsi inkişaf etdikcə onun dili də inkişaf edir, daha da təkmilləşir. Dil haqqında bəzi dini, hikmətli kəlamlar vardır: "İnsan öz dilinin altında gizlənmişdir, danışmağa başlayandan sonra ağıllı və ya ağılsız olduğu bilinir. (Hz. Əli əleyhissəlam). "Dil fikri açmaq üçün yox, gizlətmək üçündür. (Taleyran).

Dilin yaranması üçün insan orqanizminin fizioloji cəhətdən müəyyən şəkildə formalaşması da əsas şərtlərdəndir. İnsanin fizioloji cəhətdən inkişaf etməsi, danışıq orqanlarının formalaşması, bədənin şaquli vəziyyətə düşməsi, əməklə məşğul olması, eyni zamanda dilin və şüurun yaranaraq ictimai prosesə çevrilməsi dilin formalaşması və inkişafında mühüm amillərdir.

Dilin yaranmasında eşitmə və danışıq orqanlarının da əhəmiyyəti böyükdür. A.Qurbanov qısa şəkildə danışıq üzvlərinin inkişaf etməsi, bəzi ümumi cəhətləri haqqında məlumat vermişdir. (beyin-əsəb sistemi, ağciyərlər, bronxlar, nəfəs borusu, qırtlaq, səs telləri, udlaq boşluğu, burun boşluğu, ağız boşluğu, dil, dişlər, yuvaqlar, damaq, dilçək, dodaqlar, çənələr və s.) Hava axını danışıq üzvlərinin birgə fəaliyyəti nəticəsində ictimai səslərə çevrilib ünsiyyətə xidmət edir. Ünsiyyət vasitəsi kimi meydana çıxmış dil isə tarix boyu insanın özü ilə bir prosesdə, onunla müvazi yaranmışdır.

Dil insanı ətraf mühitə hakim edən, bütün canlıların fövqündə saxlayan bir amildir. İnsan dildən hər an istifadə edir. Dilin müasir vəzifəsi yalnız təfəkkürlə deyil, həm də şüurla əlaqədardır. Buna əsasən deyə bilərik ki, dil fikrin ifadə vasitəsi rolunda çıxış edərək insanların idrakı ilə sıx şəkildə bağlıdır. Hər iki vəzifə başqa vəzifələrin də inkişafına təsir edir. Məsələn, idraki vəzifənin tərkib hissəsi kimi meydana çıxan nominativ vəzifəyə görə əşya və hadisələr adlandırılır, emotiv vəzifəyə görə isə insanın hiss və həyəcanları ifadə olunur. Çox vaxt insan həyatında idrakın, şüurun, təfəkkürün vacibliyini ön plana çəkir və bunlar olmadan insanın insan kimi mövcud ola bilməyəcəyini söyləyirlər. Amma bu halda unudurlar ki, idrakın, şüurun, təfəkkürün yaranması və inkişafında dilin əhəmiyyəti böyükdür. Əgər bu gün dil olmasa idrak, şüur, təfəkkür

haqqında, müasir insanın özü haqqında söhbət belə gedə bilməzdi. İnsan həyatında oynadığı nəhəng rola görə, dilin yaranması, reallıqla, şüurla, təfəkkürlə əlaqəsi, ümumiyyətlə dil problemi bütün dövrlərdə filosofları maraqlandırmış, dilçilik elmi yaranandan bəri onun mərkəzi mövzusuna çevrilmişdir. «Dil nədir?» sualı görkəmli alim-dilçiləri bütün tarix boyu maraqlandırmışdır. Bu suala çoxlu və müxtəlif cavablar verilmişdir. Bu cavablar müəlliflərin dünyagörüşünü əks etdirmiş, dilin tədqiqat metodlarının, dilin inkişafının, formalarının və qanunauyğunluqlarının müəyyənləşdirilməsinə təsir göstərmişdir.

Dilçilik elmi dilin mahiyyəti və təbiəti haqqındakı müddəalarında dialektik materializm fəlsəfəsinin prinsiplərinə əsaslanır. Bu müddəalara görə, dilin əsas funksiyaları kommunikativ (ünsiyyət), fikir (təfəkkür), estetik-emosional və inikas funksiyalarıdır. Dil məhz kommunikativ və fikri formalaşdırma funksiyaları sayəsində ictimai hadisə olur.

Dil milli nailiyyətdir. Həyat kimi canlıdır, keçmişin şahididir. Dil millətin ən mühüm nailiyyəti göstəricisi kimi onu daşıyan hər bir şəxsdən ona qarşı qayğılı və diqqətli olmağı tələb edir. O insanı hər yerdə və həmişə müşahidə edir, onun işində, düşüncəsində, həyəcanlananda, sevinən də və s. Dil olmasaydı şifahi və yazılı ədəb xəzinəsi olmazdı. Dil olmasaydı Homer Esxil, Nizami, Şekspir, Puşkin olmazdı, onların sehrli söz sərvəti olmazdı.

*Gulshan Jalal Musayeva, instructor,*
*Baku Business University*

## MODERN TECHNOLOGIES IN DEVELOPING SPEAKING SKILLS

Speaking is one of the skills that have to be mastered by students in learning English. Speaking is an essential tool for communicating. In the classroom, improving the speaking abilities of students has always been a concern. In the fast developing 21st century various innovative technologies are being introduced to teach speaking skills in the classrooms. Technology is the vehicle to get access with this modernized world.

Technology gives learners a chance to engage in self-directed actions, opportunities for self-paced interactions, privacy, and a safe environment in which errors get corrected and specific feedback is given. Feedback by a machine offers additional value by its ability to track mistakes and link the student immediately to exercises that focus on specific errors. Modern technologies available in education are: Communication lab, Speech recognition software, Internet, TELL (Technology Enhanced Language Learning), Pod casting, Quicktionary.

**Communication labs** Software's are available to develop speaking skills. By incorporating suitable software through computers the students will play it again and again with their own interest and try to improve their speaking skills, which are most essential in this modernized world. The usage of headphones in the lab makes the students to have interest over the subject and induces them to repeat again and again instead of feeling boredom.

**Speech recognition software** also helps improving the students speaking, this

can convert spoken words to machine-readable input. The device recognizes the accuracy of what was read and then provides a positive reinforcement like “You sound great!” or gives the user an opportunity to try again, in this way the learner can figure if he is reading well or not. As the user’s skill improves, the technology reads less material so that the learner reads more. This software also evaluates and provides scores of grammar, pronunciation, comprehension and provided with the correct forms, for examples if a student mispronounces a word, the learning tool can immediately spot it and help correct it.

**Internet** is a commonly acknowledged term and widely used by people throughout the world. Students now use Internet in the class to learn English. Online teaching inside the classroom seems to be interesting and makes the students to find out the suitable materials for them. Students are instructed to do the grammar exercises which are available online. Through Internet we can collect data from various sources for any instruction. To improve speaking, students can use Skype, MSM Messenger, Google talk and other applications where students can connect with friends, other students, teacher and even native speakers, these ways of learning have been observed to improve oral proficiency in students and make up for the lack of native speakers in the areas where students live. Over the internet, students can find a lot of learning materials, for instance, audio, video, radio and TV shows, games, voice recordings, quizzes, podcasts and so on, in this way, students get exposed to a great amount of target language and this help them develop their speaking skills.

**TELL** is the use of computer technology including hardware, software and the internet to enhance teaching and learning of languages. It allows the students to get access with all the technologies available for the enhancement of English learning. Students are allowed to use online dictionaries, chat, and to view the various happenings around the world.

**Podcasting** can be uploaded or downloaded, this audio help the learner familiarize with the target language and teachers can use them as useful audio material that can be used in class for activities like discussions, besides, in the web, there are even particular podcasts that are for ESL learners and these can include pronunciation for particular needs of students. Podcast undoubtedly help learners in speaking. Pod casting is the integration of audio files where we can feed our own materials and play it inside and outside of the classroom. Students use i-pods to hear their favorite music files. Podcasts enables students and teachers to share information with anyone at anytime. An absent student can download the podcast of recorded lesson and is able to access the missed lectures.

**Quiktionary** is a pen-like device. It allows the reader to easily scan the word and get its definition and translation on its own LCD screen. Technology such as Enounce and Sound-Editor enable learners to adjust the speech rate of listening materials to assist their comprehension, and present spectrum of speech waves and visual depictions of mouth and tongue movement to ease the learning and refine pronunciation.

Using technology in learning a second language has become a real necessity nowadays. This paper has reviewed briefly how technology can be utilized in

developing the speaking skill of the learners. Different methods for using technology in improving speaking skill were discussed thoroughly. As technology has developed the incorporation of this medium into the instruction process become necessary. Theory and practice in second language learning can be matched together by the use of modern technology. Modern technical ways should be followed for effective learning and teaching of the speaking skill. English language teachers should encourage their students to use technology in developing their speaking skill. Educational institutions should modernize their technical instruction capabilities by using new equipment and laboratories for supporting the teaching process. Modern technological tools are much more interesting and provide fun and enjoyable learning, motivating the students, and help them to enhance their language learning in a fruitful way.

*Gulnar Farman Huseynova, instructor,*
*Baku Business University*

## TASK-BASED LANGUAGE TEACHING

Task-Based Language Teaching (TBLT) refers to an approach based on the use of tasks as the core unit of planning and instruction in language teaching. Some of its proponents (e.g., Willis 1996) present it as a logical development of Communicative Language Teaching since it draws on several principles that formed part of the communicative language teaching movement since the 1980s. For example:

– Activities that involve real communication are essential for language learning.

– Activities in which language is used for carrying out meaningful tasks promote learning.

– Language that is meaningful to the learner supports the learning process.

Tasks are proposed as useful vehicles for applying these principles. Two early applications of a task-based approach within a communicative framework for language teaching were the Malaysian Communicational Syllabus (1975) and the Bangalore Project both of which were relatively short-lived.

The role of tasks has received further support from some researchers in second language acquisition, who are interested in developing pedagogical applications of second language acquisition theory (e.g., Long and Crookes 1993). An interest in tasks as potential building blocks of second language instruction emerged when researchers turned to tasks as SLA research tools in the mid-1980s. SLA research has focused on the strategies and cognitive processes employed by second language learners. This research has suggested a reassessment of the role of formal grammar instruction in language teaching. There is no evidence, it is argued, that the type of grammar-focused teaching activities used in many language classrooms reflects the cognitive learning processes employed in naturalistic language learning situations outside the classroom.

Task-based language teaching provides many benefits to aid foreign language learning. Rod Ellis (2009) lists these benefits as follows:

- TBLT provides the opportunity for 'natural' learning within the classroom context.
- It stresses meaning over form; however, it can also emphasize learning form.
- It offers learners a fertile input of target language.
- It is intrinsically motivating.
- It is consistent with a learner-focused educational philosophy but also gives permission for teacher input and guidance.
- It contributes to the improvement of communicative fluency while not disregarding accuracy.
- It can be deployed together with a more traditional approach.

Although task-based approach presents many benefits to aid foreign language learning, it is not without some obstacles and challenges. Some challenges of task-based approach are as follows:

- The drawbacks of task-based learning rely not so much on the potential powerfulness of this type of instructional content but on problems of conducting the instruction.
- Task-based learning involves a high level of creativity and dynamism on the part of the teacher. If the teachers are restricted to more traditional roles or do not possess time and resources to provide task-based teaching; this type of teaching may be impracticable.
- Task-based learning necessitates resources beyond the textbooks and related materials generally available in foreign language classrooms.
- Students may, at first, refuse or object to task-based language learning in that this type of instruction is not what many students expect and want from a language class.
- Some learners employ the mother tongue when they face with a difficulty or if the group feels intolerant.
- Some individuals enhance superior communication strategies, e.g. miming and employing gestures, but get by employing just uncommon words and phrases and let others provide the more challenging language they need. This may give rise to the fossilization of those individuals prior to improving very far in the syntax of the target language.
- Some learners are inclined to get caught up in making an effort to find the appropriate word, and do not worry about how it is placed into the discourse.
- There is a danger for learners to attain fluency at the expense of accuracy.

The language teacher aiming at implementing task-based language teaching in the foreign language classroom should perform three main roles: (1) *selector and sequencer of tasks; (2) preparing learners for tasks;* and *(3) consciousness-raising*. Relevant to the first teacher role, it can be stressed that the language teacher has an active role in choosing, adapting and designing tasks and then building these tasks in keeping with learner needs, expectations, interests and language skill levels. Related to the second teacher role, it can be stated that some training for pre-task is prominent for language learners. These training activities may include topic introduction, specifying task instructions, assisting students in learning or recalling beneficial words and phrases to make the task accomplishment easy, and offering partial display of task

process. As for the third teacher role, it can be emphasized that the teacher deploys an amalgamation of form-focusing techniques, covering attention-focusing pre-task activities, examining the given text, guided exposure to similar tasks, and employment of highlighted material (Richards and Rogers, 2001).

The language learner who is exposed to the implementation of task-based language teaching in the foreign language classroom should carry out three major roles: *(1) group participant; (2) monitor;* and *(3) risk-taker and innovator*. Regarding the first learner role, it can be indicated that the learners perform a number of tasks either in pairs or small groups. Pair or group work may involve some adaptation for those learners who are more used to whole-class activities and/or individual work. Related to the second learner role, it can be stressed that tasks are employed as a tool for facilitating the learning process in task-based learning. Classroom activities should be organized so that learners can have the opportunity to observe how language is utilized in communication. Learners themselves should "attend" both to the message in task work and to the form where such messages typically come packed. Relevant to the third learner role, it can be stated that many tasks will push learners to generate and expound messages for which they do not have full linguistic resources and prior experience. In reality, this is said to be the point of such tasks. The skills of making guesses from linguistic and contextual clues, asking for explanation, and consulting with other learners may need to be enhanced (Richards and Rogers, 2001).

Few would question the pedagogical value of employing tasks as vehicle for promoting communication and authentic language use in second language classrooms, and depending on one's definition of a task, tasks have long been part of the mainstream repertoire of language teaching techniques for teachers of many different methodological persuasions. Task-Based Language Teaching, however, offers a different rationale for the use of tasks as well as different criteria for the design and use of tasks. Many aspects of TBLT have yet to be justified, such as proposed schemes for task types, task sequencing, and evaluation of task performance. And the basic assumption of Task-Based Language Teaching- that it provides for a more effective basis for teaching than other language teaching approaches- remains in the domain of ideology rather than fact.

*Əsgərova  Bənövşə Allahverdi qızı,müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## MƏTNİN İNFORMASİYA STRUKTURU

Informasıya  mətni oxucuya spesifik bir mövzu  barədə məlumat vermək niyyəti ilə yazılır. İnformasiya mətnlərində müxtəlif strukturlardan istifadə olunur, əsasən müəllif mesajını  və ya mübahisəsini oxucularına ən yaxşı şəkildə çatdırdığına inandığı strukturu qəbul edir. Mətnlərin əksəriyyəti bu və ya digər  üç məqsəd ücün yazılır; bir hekayə söyləmək üçün,  məlumat vermək üçün, bir arqument hazırlamaq üçün. Bu məqsədlərə çatmaq üçün müəlliflər beş mətn quruluşundan bir və ya daha çoxunu istifadə edirlər: (M.Hallidey, R.Hasan ''Cohesion in English''p.19)

- Təsvir;
- Ardıcıllıq, təlimat, proses;
- Səbəb və təsir;
- Müqayisə və ziddiyyət;
-Problem və həlli.

Tələbələr bu mətn quruluşlarını açmağı bacarmalı, məlumat mətnlərini, dərsliklərini, yeni məqalələrini və ya ədəbi olmayan əsərləri oxuyub anlamaq üçün bu komponentləri öyrənməlidirlər. Təsvir quruluşundan istifadə edən bir mətn niyə bir şeyin təsvir olunduğunu, təsvir olunan mövzunun niyə vacib olduğunu söyləyə bilər , təsvir olunan mövzuların nümunələrini təqdim edə bilər. Təsviri mətnlər hər yerdə - romanlarda, ədəbi əsərlərdə,elmi dərsliklərdə mövcuddur, çünki təsvirin hamısı məlumat vermək üçündür. Ardıcıllıq mətn strukturu bir neçə məqsədi əhatə edir: ardıcıl göstərişlər, xronoloji hadisələr, bir iddianı dəstəkləmək üçün dəlillər. Tələbələr bir quruluşa malik bir mətn oxuyanda və ya yazdıqda ardıcıllıq əsas götürülməlidir. İnformasiya mətnlərində səbəb və təsir quruluşları nisbətən daha yayğındır, müəllif bir hadisə, fikir və ya hərəkət və onun nəticəsi arasında birbaşa əlaqə yaratmaq üçün səbəb və təsir quruluşundan istifadə edir. Səbəb və təsir quruluşu ilk növbədə təsirin sadalandığı yerdə mətnin mənasına az dəyişiklik edilərək dəyişdirilə bilər. Səbəb və təsir quruluşu müəllifin proqnozlaşdırıla bilən nəticəyə gətirib çıxarmaq üçün əsas məlumatları və kontekstdən istifadə etməsini qeyd etməklə asanlıqla müəyyən edilə bilər. Müəllif iki oxşar fikir, insanlar, yerlər və ya əşyalar arasındakı fərqləri müəyyən etmək üçün mətnin informasiya quruluşunun növbəti növündən - müqayisə və ziddiyyətdən istifadə edir. Müqayisə mətn quruluşu bir- birlərinə bənzədiklərini və necə fərqli olduqlarını ortaya qoyaraq, bir çox şeyi əhatə edən bir müqayisə aparır. Problem və həlli digər strukturların istifadəsini zəruri etdiyi üçün çox mürəkkəb bir mətn quruluşu ola bilər. Müəllifin problemi açıq şəkildə izah etməsi vacibdir, müəllif onların həllinin lehinə mübahisə etmək üçün problemin səbəb və təsirlərini izah etməlidir. Tələbələr problem və həlli quruluşundan istifadə edən bir mətn araşdırdıqda ən azı iki şeyi araşdırmalıdırlar: arqumenti butöv və bunun ayri -ayrılıqda olan komponentlərini. ( Lorch R.F.,Jr, Lorch E.P(1995)''Effects of signaling topic structure on text recall'' p .28) Mətnin informasiya quruluşu informasiyanın yazılı mətndə necə təşkil olunmasına istinad edir. Bu strategiya tələbələrə mətnin əsas fikir və detaylarını, səbəb və təsirlərini başa düşməyə kömək edir. Tələbələrə ümumi mətn quruluşlarını tanımağı və anlamağı öyrətmək, oxuyub anlamanı dərk etməyə kömək edə bilər. Tələbələr qeyri-bədii və bədii mətn daxilində təqdim olunan müxtəlif quruluşları müəyyənləşdirməyi və analiz etməyi öyrənirlər. Mətn quruluşu strategiyasını yaratmaq üçün müəllim təyin olunmuş oxu seçməli və mətni tələbələrə tanıtmalıdır. Müəllim mətnin təsvir , uzlaşma, problem və həlli, səbəb və təsir, müqayisə və ziddiyyət quruluşlarını təqdim edir ki tələbə mətnin əsas ideyasını anlasın. Mətn quruluşu strategiyasından istifadə etmək üçün müəllimlər hər mətn quruluşuna uyğun paraqraf nümunələri göstərməli , oxucunu müəyyən bir quruluşa bağlayan topik cümlələrini araşdırmalıdır (Arfe, B.Oakhill, Pianta E.(2016)''Text simplification and its effects on young poor readers''p . 25). Müəllimlər həm də xüsusi bir quruluş tələb edən paraqrafın yazılışını modelləşdirməli və tələbələrin müəyyən bir mətn quruluşunu izləyən abzasları yazmaqlarına kömək etməlidirlər.

**Ədəbiyyat siyahısı:**

1. M. Hallidey and R.Hasan ‘‘Cohesion in English”.
2. Lorch R.F.„Jr,Lorch E.P(1995)’’Effects of signaling topic structure on text recall”.
3.Arfe, B.Oakhill, Pianta E.(2016)’’Text simplification and its effects on young poor readers”.

*İbrahimli Ülviyyə Bəxtiyar qızı, müəllim,*
*Bakı Biznes Universiteti*

## XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNİN VACİBLİYİ

Bu günə kimi dilçilər tərəfindən dil anlayışına müxtəlif təriflər verilmişdir. Hər biri dilə müəyyən qədər uyğun olsa da, ən dolğun tərif belə qəbul oluna bilər ki, dil ən başlıca ünsiyyət vasitəsidir. Başlıca olmasının səbəbi isə ondadır ki, jest, mimika və s. kimi ünsiyyət vasitələriylə müqayisədə dilin sərhədləri daha genişdir. Ən sürətli ünsiyyət vasitəsi isə dilin şifahi forması hesab olunur.

Dünyanın hansı hissəsində yaşamasından, hansı milliyyətə mənsubluğundan, irqindən asılı olmayaraq dil bütün insanların gündəlik həyat fəaliyyətinə təsir edir. Dil bizə öz hisslərimizi, düşüncələrimizi, maraqlarımızı ifadə etmək imkanı verir. Bütün bu deyilənlər dilin insan həyatında, xüsusən də müasir dövrdəki həyatında oynadığı rolun əhəmiyyətini açıq şəkildə ifadə edir. Dilin vacibliyi bu dərəcədə vurğulanırsa bəs xarici dil öyrənməyin vacibliyi barədə nə kimi fikirlər mövcuddur?

Xarici dilin öyrənilməsinin vacibliyi əslində yalnız dilçilərin və bu sahəylə əlaqəli olan digər peşə nümayəndələrinin deyil, həm də bütün bəşəriyyətin diqqətindədir. Baxmayaraq ki, xarici dilin öyrənilməsinin məqsədi müasir metodikaya əsasən hələ də müzakirəli bir mövzudur. Çünki, burada müxtəlif məqsədlər öz əksini tapa bilər. Cim Skrivener öz kitabında qeyd edir ki, müasir dövrdə daha çox “mənanın kommunikasiyası” üzərində dayanılır. Xarici dillər arasında yalnız müəyyən bir azsaylı kütlənin danışdığı dillərlə bərabər, İngilis, İspan, Alman, Fransız, Çin dilləri kimi geniş yayılmış dillər də mövcuddur. İnsanların öz ana dilləriylə bərabər əcnəbi bir dil bilməsi onlara çox geniş imkanlar verir. İqtisadi, sosial və digər aspektlərdən baxıldıqda xarici dil bilmək bizə əsl ünsiyyət yaratmaq bacarığı təqdim edir.

Hal-hazırda da insanların xarici dil öyrənmə prosesi gedir və bunun üçün kifayər qədər səbəb mövcuddur. Ən başlıca səbəb isə qeyd etmək lazımdır ki, ünsiyyətdir. Xaricə səfərlərin həddindən artıq çox olduğu bir dövrdə insanlar ünsiyyət vasitəsi kimi xarici dildən istifadə etməli olurlar. Burada onlar həmin mədəniyyətlə daha yaxından tanış olmaqla bərabər, insanlarla əlaqə yarada bilər, hər hansı istiqamətlə bağlı öz suallarını verə bilərlər.

Somerset Momun sözləriylə desək, xarici dil bilmək sizə həm də o dilin ədəbiy-

yatıyla tanış olmaq imkanı verir. Bu isə o deməkdir ki, xarici dil bilmək ədəbiyyatşünaslıq sahəsinə də öz təsirini göstərir.

Xarici dil biliklərinin işə qəbul prosesindəki üstünlükləri isə hər kəsə məlumdur. İşə qəbul məsələləri ilə bağlı dünya təcrübəsinə nəzər salsaq görərik ki, ən azı bir xarici dil bilmək tələblər arasında ön sıralarda dayanır.

Araşdırmalar göstərir ki, xarici dil öyrənmək koqnitiv bacarıqların inkişafına da gətirib çıxarır. Burada yaş faktoru nəzərə alınmır. Keysi və Culia Meyers "Teaching English" adlı əsərdə də vurğulayırlar ki, tələbələrin dil öyrənmək bacarığı daha çox onların yaddaşıyla əlaqələndirilməli bir prosesdir və bu sahədə uğur qazanan tələbələrin daha böyük beyinləri, daha yaradıcı ideyaları, daha güclü yaddaşları və daha tez problem həll etmək qabiliyyətləri var. Yalnız ana dilini bilən tələbələrlə müqayisədə onlar dil öyrənməklə həm də digər elm sahələrində uğur qazanmağa daha çox müvəffəq olurlar. Çünki, həmin tələbələr yuxarıda qeyd olunan bacarıqlarını artıq inkişaf etdirmiş olurlar. Pensilvaniya Dövlət Universitetinin araşdırmalarına əsasən , xarici dil öyrənən tələbələrin xarici dil öyrənməyən tələbələrə nisbətən çoxsaylı tapşırığı eyni anda yerinə yetirmək bacarığı daha təkmilləşmiş olur. Bu isə beyin fəaliyyətiylə bağlı olduğu üçün bir daha sübut olunur ki, xarici dil öyrənmək beynin işinə öz müsbət təsirini göstərir. Digər tədqiqatlara istinadən isə birdən çox xarici dil öyrənənlərin Alzaymer kimi xəstəliklərə tutulma ehtimalının az olduğu bildirilir. Digər bir maraqlı tərəf isə İspaniyanın Pompeu Fabra Universiteti tərəfindən təhlil olunub. Həmin bu araşdırmanın nəticəsinə əsasən, çox dil bilən insanların ətrafı daha diqqətlə izlədiyi söylənilir. Onların hər kiçik detala fikir verdiyi deyilir. Çikaqo Universitetinin araşdırması da yenə xarici dil öyrənmək və koqnitiv bacarıqlar arasındakı əlaqə üzərində aparılıb. Bu universitetdən olan alimlər isə düşünür ki, bir neçə dil bilən insanlar üçün qərar qəbuletmə daha asan olur və onlar özünəinamlılıqla verdikləri bu qərarlarda qəti olurlar. Çox dil bilmək insanları daha tolerant edir. Onlar yeniliklərə hər zaman açıq olurlar.

Yeni bir dil öyrənmək həmçinin öyrənənin öz ana dilini inkişaf etdirməsinə də gətirib çıxarır. Çünki, qrammatikada, leksikologiyada olan bəzi məsələlər, idiomlar, atalar sözləri və s. daha çox ana diliylə müqayisə olunur. Burada həmçinin xarici dil öyrənərkən ana dilinin söz bazasının artırılması məqamını da unutmamaq lazımdır. Başqa bir dili öyrənmək həmçinin sizi daha yaxşı bir dinləyici halına gətirir. Müşahidələr göstərir ki, bir xarici dili öyrəndikdən sonra daha çox dil öyrənmək nisbətən asan olur.

Hal-hazırda inteqrasiya dövründə yaşamağımızı nəzərə alsaq, təhsil sahəsində xarici dil biliklərinin əhəmiyyətini vurğulamamaq qeyri-mümkündür. Mübadilə proqramları və s. kimi anlayışların geniş vüsət aldığı bir dövrdə xarici bir dil bilən tələbələrin digər ölkələrdə təhsil almaq imkanları daha çoxdur. Həmçinin, başqa bir dil bilmək araşdırma aparmaq üçün daha geniş imkanlar təqdim edir. Müxtəlif ölkələrin təhsil proqramları ilə tanışlıq buna misal ola bilər.

Sosial həyatın bir hissəsi olan internet vasitəsiylə dünyada baş verən bütün yeniliklərin detallı öyrənilib araşdırılmasında da xarici dil biliklərinin rolu böyükdür.

*Safiyya Yasin Abdullayeva, teacher,*
*Baku Business Universitety*

## THE USE OF TECHNOLOGY IN LEARNING FOREIGN LANGUAGES

The use of technology has become an important part of the learning process in and out of the classroom. Some forms of technology are used in every language lesson. Technology has been used to both help and improve to learn any foreign language. Technology offers the flexibility to use a combination of tools and methods to help students absorb new information and efficiently learn.

In today's digital age, technology offers many powerful learning tools for teachers to use in classrooms and also for students to study with on their own. This study focuses on the role of using new technologies in learning English as a second/foreign language. It discussed different attitudes which support English language learners to increase their learning skills through using technologies. In this article, we defined the term technology and its integration, explained the use of technology in language classroom, reviewed previous studies on using technologies in improving language learning skills, and benefits of technology in this proccess which assist learners in improving their learning skills.

Language is one of the significant elements that affects international communication activities. Students utilize different parts of English language skills such as listening, speaking, reading, and writing for their proficiency and communication. In addition, one of the important elements for learning is the method that instructors use in their classes to facilitate language learning process. Also, computers are regarded as an important instructional instrument in language classes in which teachers have convenient access, are sufficiently prepared, and have some freedom in the curriculum. Computer technology is regarded by a lot of teachers to be a significant part of providing a high-quality education.

Information and communication technologies (ICTs) have some benefits for teaching and learning. First, learners play an active role, which can help them retain more information. Next, follow-up discussions involve more information where learners can become more independent. Finally, learners can process new learner-based educational materials and their language learning skills can increase. This study proposes the essential components of an investigation framework for conducting a language-learning-centered study of technology enhanced foreign language learning to highlight the importance of the essence of language learning in a technology enhanced language learning environment. The components are obtained from the result of research survey on foreign language learning, which includes second language acquisition, learning strategies, learner variables, and other import issues related foreign/second language learning. Additionally, a corresponding operational step flowchart is also depicted to serve as a step-by-step checklist for an effective planning on foreign language research.

There are many benefits of technology in language learning: remote access to language learning-technology offers audiences all over the world with language learning resources that they can access where and when they can. Students are no longer required to follow face-to-face learning paths as they can instead access what they need to online, and then further utilize their skills by practicing in-person. It offers a lot more flexibility and in turn, more people are learning languages as they can do it on their own schedule. Online resources also included those provided by native language speakers, which provides proper language immersion for language learners.

Interactive learning in a classroom means that inevitably, some students will tune out at one point or another. Using technology creates an interactive learning environment where students can 'do' rather than just listen and learn. Everyone learns at their own pace, so using technological tools and resources can also offer some relief to students that may be shy or feel embarrassed, as well as a space for students to dive deeper into courses and topics that they want to focus in. With interactive learning, the learning process is more fluid and you can incorporate different methods of learning into your lesson plans and learning paths where it seems fit. Students may be more inclined to practice using technology. Many people are simply in the habit of using technology on a day-to-day basis. So using technology to learn a language can often be easily integrated into a student's daily routine. 10-15 minutes of practicing a language can be easily done between social media usage and surfing the Internet.

Here are 5 technological tools that aid foreign language acquisition:

1. Language learning apps

Since consistency is key in learning a foreign language, language-learning apps are incredibly valuable tools to enhance the language learning process. For example, Babbel is very useful for learning a foreign language, as it encourages convenient daily practice and provides users with exercises that simulate real-life conversation. The app has a very intuitive interface and is compatible with most mobile devices.

2. Collaborative tools

Having a buddy and supportive group to learn a foreign language with can help students significantly advance their skills. Students can interact with one another on Google Docs, for example, share helpful resources with one another, or even follow a blog in a foreign language that helps them interact with content that is of interest to them.

3. Music

Music is a fun way for students to be surrounded by a foreign language and keep their ears tuned to it. Teachers can have it on in the background during class breaks or encourage students to listen to music in their free time and try to tune into the meaning and gain new vocabulary words.

4. Educational websites

Students can download practice exercises and access learning tools such as digital flash cards on educational websites. If a specific verb conjugation is proving

to be difficult for a student, for example, he or she can search for ‘X exercises’ online and get a variety of ways on how to use the grammar concept.

5. Videos

Online videos, such as structured language learning videos available for free on YouTube or simply something of interest to them, are extremely helpful for students to improve their comprehension skills. Be sure to look for videos that are produced by a native language speaker!

Languages are not fixed but constantly changing, so is the media; television, radio and newspaper which are an extraordinarily rich source of language in use. In order to expose foreign language learners to the target language the use of technology need to be exploited in the classroom as much as possible. For that reason a great tendency towards the use of technology and its integration into the curriculum developed by the foreign language teachers has gained a great importance. Particularly the use of video has received increasing attention in recent studies on technology integration into teacher education curricula. It is an undeniable fact that video is one of the best materials that enables students to practice what they have learned through various techniques. Video, at the most basic level of instruction, is a form of communication and it can be achieved without the help of language, since we often interact by gesture, eye contact and facial expression to convey meaning. The students contextualize the language they have learnt. In other words, they can see and hear the speakers in dialogues; their ages, their relationship one to another, their way of dressing, social status, what they are doing and perhaps their feelings. Moreover, as previously slightly mentioned, paralinguistic features such as facial expressions or hand gestures provide aural clues of intonation.

Methodologically speaking, watching video films should be different from passive television viewing. So, the teacher should encourage the learners to watch the films actively, by using the supplementary materials, such as worksheets prepared by him or supplied with the films. The learners should participate in the activities, if possible, they themselves set up some projects in the target language, by recording their own activities such as speaking, interviewing, reporting etc. Shortly, the role of the learner is not to be a passive viewer but an active member in the triangle of the video, the teacher and the learner. To reach successful and effective results with teaching language through video, the learners and the teachers should perform their tasks perfectly. Moreover they should be informed of the new methods and techniques in FLT. To do this, seminars can be organised. A group of teachers and experts should prepare video cassettes, which will enable the schools to obtain them easily. These cassettes should be modern, interesting and in parallel with the syllabus. In a word, it can be concluded that the use of technology is nowadays inevitable in the classroom. When used appropriately, video is quite beneficial for learners and teachers as long as they are considered only as mere entertainment, but carefully chosen films can be a useful and extremely motivational teaching tool for both practicing listening skills and stimulating speaking and writing.

*Abdullayeva Günay Allahverdi qızı, müəllim,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# MÜASİR DƏRS

Qloballaşan dünyada sivilizasiyanın ən mütərəqqi sahəsi sayilan təhsil prosesinin durmadan inkişafı, müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, yenidən qurulması tələb olunur. Birləşmiş Millətlər Təşkilatının XXI əsri "Təhsil əsri"-"İntellekt əsri" adlandırması heç də təsadüfi deyil. Son illərdə dünyanın inkişaf etmiş ölkələrində daha parlaq şəkildə nəzərə çarpan elmi-texniki nailiyyətlərin nəticəsindən, tətbiqindən irəli gələn zərurətdir. Deməli, hazırki dövrdə diqqəti cəlb edən qlobal problemlərdən biri "təhsil əsrinin" ilk illərindən başlayaraq yeni pedaqoji texnologiyalara, fəal təlim metodlarına istinad etmək və milli təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya olunmasına zəmin yaratmaqdir.

Həyat məktəb, müəllim və şagirdlər qarşısında yeni tələblər qoyduğuna görə bu məsələlərin üzərinə təkrar-təkrar qayıtmaq lazım gəlir. Müasir dərs elmi texniki tərəqqinin tələblərini təmin edən, inkişaf etməkdə olan müstəqil dövlətimizdə cəmiyyətin məqsədlərinə cavab verən və psixoloji –pedaqoji elmlərin nailiyyətlərini nəzərə alan dərsdir. Müasir dərsdə uşaqlarda yaradıcı təxəyyülü inkişaf etdirməyə və idraki müstəqilliyə xidmət göstərən problemli suallara, düşündürücü məsələlərə xüsusi yer verilməlidir. Belə dərs şagirdlərdə müəyyən bacarıq və vərdişləri formalaşdırır.

Müasir dərs müəllimin dərsə ciddi hazırlaşmasını tələb edir. Buna görə də müəllim hansı təlim metodlarından necə və nə zaman istifadə edəcəyini qabaqcadan müəyyənləşdirməli, mövzuya dair yardımçı, fakt və hadisələri əsas məsələnin həllinə yönəltməyi bacarmalı, elmi – texniki yeniliklərdən, dövrün mühüm ictimai-siyasi hadisələrindən baş açmalı, biliyini müntəzəm olaraq artırmalıdır. Müasir dərs uşaqların dünyagörüşünü inkişaf etdirməli, onların əqidəcə mətinləşməsinə şərait yaratmalı, dərsdə əyanilikdən və müxtəlif mənbələrdən alınmış əlavə məlumatlarla onların dərketmə qabiliyyətini artırmalıdır.

Təlimlə tərbiyənin vəhdəti də müasir dərs prosesinin qarşısında qoyulmuş mühüm məsələdir. Dərs şagırdlərin mənəvi inkişafına, əxlaqca təkmilləşməsinə, vətənpərvərlik, insanpərvərlik, əməksevərlik ruhunda yetişməsinə xidmət göstərməlidir. Müasir dərs milli təhsilin yaradılmasına yönəlməlidir. Bunun əsasını diferensiallaşdırma, demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, fərdiləşdirmə və sair prinsiplər təşkil etməlidir.

Müasir dərsdən danışarkən bu dərslərə qoyulan tələbləri də nəzərdən keçirmək lazımdır. Dərsə verilən müasir tələbləri iki qrupa bölmək olar: ümumi və xüsusi tələblər. Ümumi tələblər - (həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəalliq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir. Xüsusi tələblər isə bilavasitə dərslə bağlı tələblərdir. Onları aşağıdakı əsas qruplara bölmək olar:

Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi əldə edilməlidir. Hər bir fəaliyyət nəticə ilə ölçülür. Proqram materialı mənimsənilibsə, şagirdlər müəyyən ideyaya, mənəvi keyfiyyətlərə və zehni qabiliyyətə yiyələnibsə, belə dərsi məqbul hesab etmək olar.

Dərsdə təlim materialının optimal məzmunu müəyyən edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrdən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış

edərək öyrənilən materialın həcmini, çətinlik dərəcəsini, başlıca məsələlərini müəyyənləşdirməli, dərs zamanı məzmunun mənimsənilməsinə nail olmalıdır.

Dərsdə səmərəli metodik variant seçilib tətbiq edilməlidir. Dərs o zaman səmərəli olur ki, müəllim biliyi hazır şəkildə şərh etməsin, şagirdləri fəal axtarışlara cəlb etsin, onlarda müstəqil fikir formalaşdırsın. Bu məqsədlə dərsdə problemli vəziyyət yaratmaq, evristik müsahibə və diskusiyyalar aparmaq, kitab üzərində yaradıcı iş təşkil etmək, təfəkkürü inkişaf etdirən məntiqi metodlara (müqayisə, təhlil-tərkib, ümumiləşdirmə və s.) istinad etmək yaxşı nəticə verir.

Dərs təşkilati cəhətdən mütəşəkkil və çevik olmalıdır:

- Vaxtinda başlanmalı;
- Yüksək intizama əsaslanmalı;
- Optimal tempdə olmalı;
- Intensiv qurulmalıdır (yəni az vaxtda yüksək nəticə əldə edilməlidir);
- Dərs çevik qurulmalı, şablon və sxematizmdən uzaq olmalıdır.

Dərs zamanı vəziyyətdən asılı olaraq, müəllim dərsin məzmununda, quruluşunda, vaxt bölgüsündə çevik dəyişikliklər aparmalıdır. Dərsdə əks əlaqə yaradılmalıdır, müəllim şagirdlərin hissi aləmi, təlimə münasibəti, marağı, mənimsəmə səviyyəsi haqqında vaxtında informasiya əldə etməlidir.

Dərsdə əlverişli psixoloji iqlim, müsbət emosional vəziyyət yaradılmalıdır. Dərsin səmərəsi onun emosional mühiti ilə sıx bağlıdır: mənfi emosiyalar (qorxu, inamsızlıq, kədər və s.) şəraitində keçən dərs cansıxıcı, yorucu və səmərəsiz olur. Dərsdə müəllim və tələbələr arasında qarşılıqlı hörmət, inam, pedaqoji əməkdaşlıq, xoş əhval ruhiyyə, yaradılmalıdır.

Göstərilən tələblərə cavab verən dərs məqbul dərs hesab olunur. Belə dərsdə yüksək səmərə, müsbət təlim-tərbiyə nəticələri əldə edilir.

*Əsədova Aysu Mərdan qızı, müəllim,*
*Bakı Biznes Universiteti*

## ALİ MƏKTƏBLƏRDƏ XARİCİ DİLİN TƏDRİSİNDƏ İNTERNET RESURSLARINDAN İSTİFADƏNİN ROLU

XXI əsrdə baş verən yeniliklər, təlimin təşkilinə innovativ yanaşmalar, tədrisin məzmun və üsullarının təkmilləşdirilməsi, istifadə olunan informasiya və kommunikasiya texnologiyaları (internet, elektron poçt və s.) xarici dil müəllimlərinin fəallığını artırmış, yaradıcı axtarışlarını gücləndirmişdir. Cəmiyyətin inkişafının hal-hazırkı mərhələsi bütün dünyada təhsil sisteminin inkişafını tələb edən və siyasi, sosial-iqtisadi və digər faktorların səbəb olduğu saysız-hesabsız problemlərə səbəb olur. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) yalnız ali təhsil sistemində deyil, təhsilin bütün pillələrində bu problemlər üçün açar rolunu oynayır. Məlumdur ki, ənənəvi təhsil sistemi "müəllim – təhsilalan-dərslik" tədris modeli və daha çox müəllimin dərsdə fəal iştirakı üzərində qurulmuşdur. Ənənəvi təhsilə kompüterin də əlavə edilməsi tədris prosesini fərdi proqram üzrə təşkil etməyə, təhsilalanların məşğələlərə marağını və istəyini stimullaşdırmağa imkan verir. Bu da tələbəyönümlü dərsin təşkilini daha da asanlaşdırır. Son illər yeni nəslin müəllimlərindən tədris etdikləri fənnin məzmununa

və məqsədinə müvafiq, təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan, onun harmonik inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur.

İnternetin tədris imkanlarının tətbiqi və istifadəsində istifadə olunan web texnologiyaları (web xidmətləri, şəbəkə), proqram təminatı (Microsoft word, Microsoft internet explorer, Microsoft power point) və s. ali məktəblərdə və digər tədris ocaqlarında informasiya və təhsil sahələrini inkişaf etdirmək üçün əsas vasitələrdir. Bunlardan istifadə həm müəllimi yeni və kreativ metodlar axtarıb tapmağa, həm də tələbənin dərsə marağını artıraraq mövzunu daha çox araşdırmağa, əlavə məlumatlar tapmağa ruhlandırır.

İnternet resursları tələbələrin təhsili, onların şəxsi və professional maraq və ehtiyaclarını ödəmək üçün əvəzsiz vasitədir. Tələbələr internet resurslarından səmərəli istifadə edərək gələcək uğurlu karyera üçün bir çox faydalı bacarıq və vərdiş formalaşdırıb inkişaf etdirə bilərlər. Məsələn:

- Öyrəndikləri dildə olan informasiyanı təqdim etmək, öz fikrini ifadə edə bilmək, cəmiyyətdəki məsələlərə öz münasibətini bildirmək və s. üçün kommunikativ səriştə bacarığı (linqvistik, sosio-linqvistik, strateji, diskurs, koqnitiv);
- Aldığı informasiyanı araşdırmaq, ümumiləşdirmək, təsnifləşdirmək, analiz və sintez etmək üçün kommunikativ və koqnitiv bacarıqlar.

Tələbələr tərəfindən internet vasitəsi ilə əldə edilən məlumatlar informasiyanın mövzuya uyğun olub-olmamağı, hansı mənbədən götürüldüyü, materialın linqvistik cəhətdən mürəkkəbliyi müəllim tərəfindən təqdim edilməmişdən əvvəl yoxlanılmalıdır. Ali məktəblərdə dərs prosesində istifadə edilən internet resursları müəllim və tələbə üçün xüsusi ilə əhəmiyyət kəsb edir. Həm müəllim, həm də tələbə üçün əsas üstünlüklər kimi bunları göstərmək olar:

- Müəllim mövzuya uyğun materialı əvvəlcədən seçib istədiyi formatda hazırlaya bilər;
- İstənilən dildə audio-informasiyanı qeyd etməyin mümkünlüyü;
- Elektron kitablardan, lüğətlərdən, distant təhsil üçün lazım olan kurs materiallarından istifadənin mümkünlüyü;
- Dünyanın hər yerində dil bacarıqlarını inkişaf etdirmək üçün əcnəbi məruzəçilər ilə e- mail, skype və digər proqramlar vasitəsi ilə əlaqə saxlamağın mümkünlüyü;
- Əcnəbi məruzəçilərin, siyasətçilərin, natiqlərin və s. şifahi və yazılı nitqinin linqvistik analizini aparmaq, onların istifadə etdikləri idiomları, atalar sözlərini, deyimləri, neologizmləri öz dilimizdə olanlar ilə müqayisə etməyin mümkünlüyü.

Didaktik olaraq internetə 2 əsas komponent daxildir: telekommunikasiyanın formaları və informasiya resursları. Telekommunikasiyanın formaları olan e- mail, web konfranslar, skype və s. proqramlar xarici dildə həm yazı, həm də danışıq bacarıqlarının inkişaf etdirilməsi üçün istifadə olunan metodlardan birinə çevrilib. Xüsusən, gənc nəsil bu proqamlar vasitəsi ilə əcnəbi dostlar taparaq dil bacarıqlarını inkişaf etdirməyə can atırlar. Maarifləndirici internet resursları tələbələrin müstəqil işləməsi üçün şərait yaradır, həmçinin təlim materiallarının davamlı inkişafının mümkünlüyünü təmin edir. Xarici dildə kütləvi informasiya vasitələrindən məlumat almaq, məqalələr oxumaq, praktik çalışmalar həll etmək, maarifləndirici videolar izləmək və s. tələbələrin müəllim nəzarəti olmadan dil bacarıqlarını inkişaf etdirmək üçün edə biləcəkləri fəaliyyətlərdir.

Ali məktəblərdə xarici dilin öyrənilməsində daha çox istifadə olunan müasir texnologiyalar bunlardır: proyektor vasitəsi ilə slaydların göstərilməsi (ppt), müxtəlif CD-dən istifadə, onlayn dərslər, müxtəlif tapşırıqlar və testlər, maarifləndirici internet saytları və s. Müasir təhsil sistemində xarici dilin öyrədilməsinin metodları araşdırılan zaman məlum oldu ki, ali məktəblərdə dilin tədrisində daha çox prezentasiyaların təqtimatından istifadə edilir. Power point proqramı vasitəsi ilə hazırlanan təqdimatın ənənəvi təqdimatdan fərqlənən bir çox xüsusiyyəti vardır. Bunlara mətn, səs, qrafik, animasiya, video və digər informasiyaların təqdimi üçün mürəkkəb effektlərdən istifadə və s. daxildir. Presentasiyalar müəllimlərin dərs prosesi üçün yüksək keyfiyyətli materialların hazırlanmasına və təqdiminə şərait yaradır.

Ali məktəblərdə son dövrlərdə ən çox istifadə olunan internet xidmətlərindən biri də elektron poçtdur. Bunun əsas səbəbləri olaraq e- maildən istifadənin məktubdan fərqli olaraq daha sürətli, asan və ucuz olmasını göstərmək olar. Ali məktəblərdə adətən tələbələrin fənn müəllimi tərəfindən yaradılan ümumi email adresi olur və müəllim bütün lazımlı materialları, videoları, şəkilləri və s. həmin adresə göndərir. Bu həm vaxtın daha səmərəli istifadəsini təmin edir, həm də daha sürətlidir.

Hal-hazırda müəllimlərin istifadə edə bilmələri üçün bir çox kompüter təlim proqramları mövcuddur. Bu proqramların hər birinin qrammatika, lüğət, oxu, yazı dinləmə və danışıq bacarıqlarına uyğun təlim məqsədləri var, həmçinin tələbə və müəllimdən müəyyən qədər kompüter bacarıqları tələb edir. Tələbələrin bu proqramlar vasitəsilə ingilis dilinin başlanğıc səviyyədən başlayıb çalışmalar, mətnlər, şəkillər, mahnılar, oyunlar, filmlər və s. ilə dili ən yüksək səviyyəyə qədər və müəllim nəzarəti olmadan öyrənməsi mümkündür. Bu proqramlara nümunə olaraq *"bbc learning English"," Living English", "Bridge to English"* və s. göstərmək olar. Onlara əsasən nitq, tələffüz, qrammatika çalışmaları, danışıq və yazı bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif fəaliyyət və oyunlar daxildir.

Ali təhsil müəssisələrində və digər təlim-tərbiyə ocaqlarında müasir texnologiyalardan istifadənin əsas məqsədi tələbələrin ingilis dil və bacarıqlarını praktiki cəhətdən daha da inkişaf etdirməklə onları dili daha dərindən öyrənməyə motivasiya etməkdir. Texnologiyadan düzgün istifadə tələbələrin qarşısına saysız-hesabsız yeni imkanlar çıxararaq, onları yeni, daha maraqlı, yaradıcı, əyləncəli metodlarla tanış edir.

*Hacıyeva Arzu Rasim qızı, müəllim,*
*Bakı Biznes Universiteti*

## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TEXNOLOJİ VASİTƏLƏRDƏN İSTİFADƏ

XXI əsr texnologiyalar dövrüdür. Artıq kompüterin tətbiq olunmadığı bir sahə tapmaq qeyri mümkündür. Yaşadığımız dövrdə demək olar ki, texnologiya artıq bütün sahələrə tətbiq edilir. Daim inkişaf edən texnologiyanın təhsil sahəsinə tətbiqi də ən önəmli məsələlərdən biridir və ingilis dilinin tədrisində də informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə olunması çox aktual bir mövzudur.

Təhsildə dilin ünsiyyət vasitəsi kimi tədris edilməsi ön plana çəkilir. Müasir

ünsiyyətin ən yaxşı vasitəsi isə İKT-dən istifadədir. Demək olar ki, təlim prosesində artıq əksər müəllimlər İKT-dən məharətlə istifadə edirlər. Bu cür vasitələrdən istifadə edilməzsə, yeni nəsli dərslərə cəlb etmək çox çətin olar. Bu məsələlərin ən önəmli həlli yolu isə dil dərslərini müasir texnologiyalarla zənginləşdirməkdir.

İKT-nin təhsil sahəsinə inteqrasiyası bir çox üstünlükləri də özü ilə gətirmişdir və bu sahəyə çox töhvələr vermişdir. İKT informasiyanın müxtəlif yollarla təqdim olunmasına böyük şərait yaradır. Bu cür müxtəlifliklər dərsi daha maraqlı edir. Bu yolla tələbələr yalnız tapşırığı texnologiya vasitəsi ilə öyrənmir, həm də texnologiyanı tapşırığa tətbiq edir. Müasir texnologiyalar tələbələrin daha aktiv olmasına, mövzunu daha maraqlı tətbiq etməsinə imkanlar yaradır.

Müasir dövrdə İKT-nin təhsil sahəsinə tətbiqinin əsas məqsədi intellektual səviyyəli, məntiqi cəhətdən yüksək inkişaf etmiş, tənqidi və yaradıcı düşüncəli, informasiya ilə işləməyi bacaran tələbələr yetişdirməkdir. Indi insanlar bəzi peşə sahələrində ömür boyu öyrənmə ilə üzləşirlər. İnsanların həyatında internetin mövcud olması belə onlara tam effektivliyi qaranti etmir. Onun birinci yüksək və ikinci təhsildə effektivliyi bəzi faktorlardan asılıdır.

Metodist Penny Urun fikrinə əsasən, kompüter və internet önəmli öyrətmə materialıdır. Bu günlərdə öyrənənlərin “computer literate” olmasına ehtiyac vardır və dil öyrənmədə ondan istifadə məntiqi cəhətdən çox vacibdir. Onlardan istifadə daha çox individual işə əsaslanır. Beləliklə, öyrənənlər öz sahələrində daha da inkişaf edə bilir. İnternetdə bir çox proqramlara özünü yoxlama testləri daxildir. Gənc və yaşlı öyrənənlər üçün kompüterdən istifadə maraqlı və cəlbedici olur. Onlar daha motivasiyalı olurlar.

Bütün bunlarla yanaşı, kompüterlərlə işləmək həm müəllim, həm də tələbələr üçün vaxt aparır. Dərsin çox hissəsi proqramların qurulmasına, öyrənənlərin qoşulmasına, bir proqramdan digərinə keçərək məsələnin həll edilməsinə ayrılır. Kompüterdən istifadə edən müəllimlər üçün vərəqdə test hazırlamaq önəm daşımır. Ceremy Harmer qeyd edir ki, təhsil sahəsində və əsasən dil laboratoriyalarında internetin istifadəsi qeyri-adi güclü bir sürətlə inkişaf etmişdir. O, referensləri, dil öyrətmə və test etmə proqramlarını, e-mail ilə məlumat bölüşmə və söz prosessorunu kompüterlə dil öyrətmədə əsas hesab edir.

Azat Xanannov vurğulayır ki, “ən önəmli məsələ informasiya ilə işləməyi bacaran istifadəçilərin olmasıdır”. Bu heç də asan məsələ deyil, çünki bu tələbələrdən müxtəlif intellektual bacarıqların olmasını tələb edir. Bu, o mənaya gəlir ki, tələbələr əldə etdikləri informasiyanı analiz etməli, faktları dəyərləndirib seçməli və öz görüşlərini sübut etmək üçün arqumentlər tapmalıdırlar. Sadə bir dillə desək, biz internetdə informasiya axtararkən çox sayda informasiyalarla üzləşirik və bunların hamısı bizim üçün eyni dərəcədə önəm daşımır, təbii ki, heç də hamısı elmi cəhətdən yüksək səviyyəli olmur.

İnternet çox demokratik bir zonadır. Hər kəs öz informasiyasını orada yerləşdirə bilər. Bu da bir çox çətinliklər yaradır. Hətta müəllimlər də dərs materiallarını seçməkdə çətinlik çəkirlər. Bu cür problemləri həll etmək üçün professional sahələrdən istifadə etmək lazımdır. Materialları analiz etdikdən sonra seçmək lazımdır. İnternetdən informasiya götürmək heç də effektiv təhsil demək deyil.

Hal-hazırda ingilis dilinin öyrədilməsində əsas məqsəd öyrənənlərin ünsiyyət qurmaq bacarığını inkişaf etdirməkdən ibarətdir. Lakin Azərbaycanda tələbələr real ingilis dili mühiti ilə əhatə olunmurlar, çünki ətrafda milli dildən, azərbaycan dilindən istifadə olunur. Buna baxmayaraq tələbələr radio yayımlarından, televiziya verilişlərindən, internetdən istifadə edərək dili öyrənə bilirlər. Azərbaycanda həm məktəb, həm də universitet mühitində öyrənənlər əsasən sözləri əzbərləməklə dil öyrənirlər, eyni zamanda sözləri auditoriyalarda müxtəlif situasiyalarda istifadə edir. Müəllim yönümlü dərslər, əsasən qrammatikanın öyrədilməsi, imtahana əsaslanan mühazirələrin təşkili əsas dərs tipləridir.

İnternet tələbələrə real situasiyalarda iştirak etmə imkanı verməklə yanaşı, həm də beynəlmiləl mənbələrdən istifadə edərək birbaşa ingilis dilini eşidərək, danışaraq öyrənə bilmək imkanı verdi. Bu yolla tələbələr təcrübə əldə edir, dil bacarıqlarını daha da inkişaf etdirir, beynəlxalq perspektivlərini genişləndirir, yeni bilik əldə edir, müxtəlif mədəniyyətləri qiymətləndirir və öz dünyagörüşlərini artırırlar.

*Quliyeva Səmayə Akif qızı, müəllim,*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

## İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ MÜASİR TEXNOLOJİ VASİTƏLƏRDƏN İSTİFADƏ

Müasir dövrdə texnoloji vasitələrdən istifadə sinifdə və sinifdənkənar dil öyrənmə prosesinin önəmli hissəsi olub. Hər bir ingilis dilində tədris edilən sinif və ya auditoriyada texnoloji vasitələrin müəyyən forması istifadə edilir. Texnologiya dilin öyrənilməsinə həm kömək edir, həm də inkişaf etdirir. Texnologiya müəllim üçün dil öyrənmə prosesinin öyrəncilərə asanlaşdırılmasında bir vasitəyə çevrilmişdir. Bu məqalə İngilis dilinin xarici dil kimi öyrənilməsində müasir texnologiyalardan istifadə edilməsinin roluna istiqamətlənmişdir. Məqalədə texnoloji vasitələrdən istifadə ilə əlaqəli müxtəlif metodiki yanaşmalar verilmişdir.

İlk baxışdan müasir texnoloji vasitələrdən istifadə çətin və mürəkkəb görünsə də o, dərs prosesini sadələşdirir, dərsi daha maraqlı, interaktiv, dinamik edir. M.Becker qeyd edir ki, kompüter dil siniflərinin ayrılmaz hissədir və yüksək keyfiyyətli təhsilin təşkil edilməsində önəmlidir. [5, 23]

Bull və Ma (2001) qeyd edirlər ki, texnologiya dil öyrənənlər üçün limitsiz mənbələr təklif edir. Müəllimlər isə dilin öyrənilməsində uğurlu olmaq üçün kompüter texnologiyalarından istifadə edərək müxtəlif dil tapşırıqlarının yerinə yetirilməsi üçün öyrənciləri ruhlandırmalıdırlar. J.Harmerə görə, kompüter əsaslı dil tapşırıqları öyrəncilərdə əməkdaşlıq bacarıqlarını formalaşdırır. [1, 198] Əməkdaşlıq isə dilin tədrisində ən önəmli faktorlardan hesab edilir. Öyrəncilər əməkdaşlıq edərək birlikdə müxtəlif dil tapşırıqları üzərində işləyirlər, fikir mübadiləsi yürüdür, qarşılıqlı öyrənirlər. Eyni zamanda ənənəvi metodlarla tədris ingilis dilinin effektli öyrənilməsinə kifayət etmir. Texnologiyaya əsaslanan öyrənmə mühiti mühazirə və müəllim yönümlü mühitdən daha effektlidir. Bu metod texnologiyanın inkişafı ilə əlaqəli tamamilə dəyişdirilməlidir. Multimedianın tətbiqinə eyni zamanda filmlər, internetdən əldə edil-

miş materiallar daxildir. İnformasiya və kommunikasiya texnologiyaları öyrəncilərə dil prosesində aktiv olmağa, motivasiyalı olmağa imkan verir. Öyrəncilər özləri də qeyd edirlər ki, bu vasitələrdən istifadə onları daha aktiv edir və interaktiv öyrənmə prosesini sürətləndirir. Eyni zamanda oxu və yazı bacarıqları inkişaf edir, dərslər daha yaddaqalan, aydın, anlaşıqlı olur.

Aşağıdakı vasitələrin köməyi ilə ingilis dili dərslərində istifadə etməklə yüksək öyrənmə nəticələrinə nail olmaq olar.

İnteraktiv lövhə və proyektor. Mətnlər, şəkillər, dərslikdən olan müxtəlif səhifələr, təqdimatlar, videoları göstərmək üçün istifadə edilir.

İnternet saytları. İnternet saytları müəllimləri müxtəlif dil materialları və ideyalarla təmin edir. Bura autentik materiallar, İngilis dilinin tədrisi üçün müxtəlif vebsaytlar, Youtube videoları və ya podkastlar daxildir və dinləmə, oxu bacarıqlarının inkişafına kömək edir. Dil öyrənənlər dərsdənkənar öz dil bacarıqlarını yoxlamaq üçün müxtəlif saytlardan istifadə edə bilərlər. [2, 212- 213] Müəllimlər onlayn inkişaf kurslarına qoşularaq müasir xarici metodikada tətbiq edilən yenilikləri öz dərslərində istifadə edərək qlobal təhsilin inkişafına addım atmış olarlar.

"İnternet for English teaching" kitabının müəllifləri olan Ahetzer, Varschauer, Meloni ingilis dilinin tədrisində internetdən istifadə etməyin beş mühüm səbəbini qeyd etmişlər:

1. Savadlılıq. İnternetdə yazmaq, oxumaq, ünsiyyət qurmaq, tədqiqat aparmaq 21-ci əsrdə tələb olunan savadlılığın yeni vacib formalarındandır. Siz İngilis dili və texnikanı vəhdətdə tətbiq etməklə tələbələrinizin akademik və iş sahəsində bir çox bacarıqlara yiyələnməsinə kömək etmiş olacaqsız.

2. Orijinallıq. Real dil daşıyıcılarının istifadə edə biləcəyi materialları internetdən tapmaq daha əlçatandır.

3. Qarşılıqlı əlaqə. Bu dil öyrənmə və mənimsəmədə əsas şərtlərdən biridir.

4. Canlılıq. Əksər dil öyrənənlər İngilis dili dərslərində qrammatik qaydaları və lüğəti öyrənirlər. Belə tədris maraqsız olur və öyrənənlərin məqsədləri ilə uzlaşmır. Müasir texnoloji vasitələr dərsin ənənəvi istiqamətini dəyişir.

5. Müstəqillik. İnternet müəllim və öyrənənləri müstəqil tədqiqatçıya çevirir. Onlar zəruri materialları istədikləri zaman və asanlıqla tapa bilirlər. [5, 49]

Məlumdur ki, müəllim və öyrəncilər arasında dərsdənkənar ünsiyyət vasitəsi emailddir. Mobil telefonlar bir çox mütəxəssislər tərəfindən müsbət qəbul olunmasa da, dilin tədrisində bir sıra üstünlükləri vardır. Tələbələr mobil telefonlardan istifadə edərək səslərini yaza, elektron lüğətlərdən istifadə edə bilərlər.

Mobil telefonlar texnoloji resursları olmayan siniflərdə də asanlıqla istifadə edilə bilər. Lüğətin öyrənilməsi və təkrar edilməsi, mütəmadi dinləmə tapşırıqlarının yerinə yetirilməsində daha münasibdir. Tədqiqatçılar müəyyən etmişdirlər ki, mobil vasitələrlə qısa xatırlatmalarla sözləri öyrənənlər daha uğurlu və motivasiyalı olurlar. İnternetə çıxışı olan telefonlar demək olar kompüterlə eyni funksiyaya malik olurlar. Mobil telefonlar digər texniki vasitələrdən daha ucuzdur və asanlıqla daşınıla və istifadə edilə bilir. Bu vasitələr əlbəttə bütün dərs müddətində istifadə edilə bilmir. Lakin müəllim video, şəkil və digər əlavə materiallar kimi onların məqsədyönlü istifadəsinə şərait yaratmalıdır. [3, 12]

Texnoloji vasitələr məhz öyrənciləri autentik materiallarla təmin edir ki, bu da

onları dilin əsl mahiyyətini anlamağa kömək edir. Müasir dövrdə Qrammatik Tərcümə metodunun kommunikativ səriştənin inkişaf etdirilməsində yaratdığı maneələr məlumdur. Həmçinin öyrəncilərimizin bilik səviyyəsindən asılı olaraq dil materiallarında müəyyən dəyişiklik edirik, onları sadələşdiririk. Bu da dilin sinif mühiti ilə məhdudlaşmasına və dildən ünsiyyət vasitəsi kimi istifadə edilməsinə mane olur. Bu problemin həlli kimi isə autentik materiallardan istifadə edilməsi tövsiyyə edilir. Məhz texnoloji vasitələr bu materialların asanlıqla əldə edilməsinə, sinifdə və sinifdənkənar istifadəsinə imkan verir. Öyrəncilər autentik material kimi müxtəlif saytlardan hekayələr, şeirlər, romanlar, poemalar, qəzet və ya jurnal nümunələrini oxuya, teatr tamaşaları, komediya şouları, müxtəlif filmlər izləyə, müxtəlif janrda musiqilər dinləyə bilərlər. Bu tələbələri sosial həyata hazırlayır, real İngilis dilinin istifadəsinə verilən tələbləri müəyyən etməyə, dil daşıyıcıları tərəfindən istifadə edilən dil nümunələri ilə tanış olmasına imkan verir. Autentik materiallar həmçinin dil öyrənməklə bağlı qorxuları olan, utancaq öyrənciləri də motivasiya edir. Dil öyrənmə metodu texnologiyanın inkişafı ilə əlaqəli olaraq dəyişmişdir. Texnoloji vasitələr öyrəncilərə öyrənmə prosesinin dəyişdirilməsinə istiqamət verir və onlar müəllimlərin belə onları təmin etmədiyi informasiyaları əldə etmək və müstəqil öyrənmək bacarığına sahib olurlar.

Bir məsələni qeyd edək. Baxmayaraq öyrəncilər texnologiyanın inkişaf etdiyi bir dövrdə yaşayırlar, onlar bu vasitələrdən uğurlu istifadə etmək bacarığına malik deyil. Texnoloji vasitələrin uğurlu inteqrasiyası üçün aşağıdakı tövsiyyələri qeyd edirik:

1. Texnoloji vasitələrin tətbiqində kurrikulum standartları nəzərə alınmalıdır.
2. Müəllimlər şagirdləri texnoloji vasitələrdən istifadə edərək dil biliklərini inkişaf etdirilməsində onları istiqamətləndirməlidir.

Əlbəttə texnologiya heç zaman ənənəvi interaktiv fəaliyyəti əvəz etməyəcək. Lakin məqsədyönlü istifadə edildikdə dilin tədrisində müsbət nəticələrə səbəb olacaq.

Haeley qeyd etmişdir ki, texnologiyadan məqsədyönlü istifadə etməmək tələbəni böyük bir kitabxananın ortasına atmaqdan başqa bir şey deyildir. [4, 136]

Ümumiləşdirərək qeyd edə bilərik ki, müasir texnologiyalardan istifadə edərək internetlə öyrənmə, distant təhsil, dinləmə, oxuma, yazma, danışma bacarıqları, interaktiv öyrənmə inkişaf etdirilə bilər. Bu vasitələrdən istifadə dərsə canlılıq gətirir, öyrəncilərin motivasiyasına təsir edir, tədrisin keyfiyyətini yüksəldir, əməkdaşlığı ön plana çəkir.

## Ədəbiyyat siyahısı:

1. Harmer J., The practice of English Language Teaching, England, Pearson, 2007.

2. Penny Ur, A Course in English Language Teaching, Cambridge University Press, 1996.

3. English Teaching Forum, V.55, №2, 2017.

4. Reinders H., Twenty ideas for using mobile phones in the language classroom, English Teaching Forum 48(3), 20-25, 33, 2010.

5. Warschauer M., Shetzer H., Meloni C., Internet for English Teaching, Washington, United States Department of State, 2003.

# III BÖLMƏ

## *GƏNC TƏDQİQATÇILARIN ELMİ ARAŞDIRMALARI*

# SECTION III

## *SCIENTIFIC INVESTIGATIONS OF YOUNG RESEARCHERS*

# РАЗДЕЛ III

## *НАУЧНАЯ ДЕЯТЕЛЬНОСТЬ МОЛОДЫХ ИССЛЕДОВАТЕЛЕЙ*

*Heydarov Cavidan Rəsul oğlu, doktorant*
*Bakı Biznes Universiteti*

# RƏQƏMSAL MALİYYƏ MALİYYƏ ƏLÇATANLIĞININ TƏMİNATÇISIDIR

Qloballaşmanın yeni mərhələsində rəqəmsallaşma iqtisadi sahələrdə struktur dəyişikliyə səbəb olmaqla, öz təsirlərini dörd əsas istiqamətdə biruzə verməkdədir: fiziki məhsullar və xidmətlərin rəqəmsal xidmətlərə çevrilməsi; onlayn platformaların daha da sadələşdirilməsi və optimallaşdırılması; yerli xidmətlərin qlobal müstəviyə keçidinin sürətlənməsi; ənənəvi istehsalın modernləşdirilməsi və asanlaşdırılması. Breman və Fellanderin fikrincə son illər ərzində rəqəmsallaşmanın belə sürətlənməsi və baş verən dəyişikliklər iqtisadi sahələrə kəskin şəkildə təsir edəcəkdir və bu da öz növbəsində rəqabətə davamlı olmaq və texnoloji dəyişikliklərin geridə qalmamaq üçün hökümətlər və şirkətlər qarşısında yeni strategiyaların müəyyənləşdirilməsi, yeni iş modellərinin yaradılması kimi tələbləri meydana çıxaracaqdır. Heç şübhəsiz ki, maliyyə sahəsinin rəqəmsallaşması bu prosesin ayrılmaz tərkib hissəsi kimi çıxış etməklə strateji əhəmiyyətə malikdir. Belə ki, 2010-cu ildən bu yana G-20 (Böyük iyirmilər) ölkələri və Dünya Bankı inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlarda yoxsulluq səviyyəsinin azaldılmasına kömək etmək üçün maliyyə stabilliyi və yüksək maliyyə əlçatanlığının təmin olunması təşəbbüsü ilə çıxış edirlər. Bu gün yoxsulluğun azaldılması və iqtisadi artım ilə rəqəmsal maliyyə və maliyyə stabilliyi arasındakı əlaqə bir çox siyasətçilərin və alimlərin diqqətini çəkməkdədir. Maliyyə stabilliyi və maliyyə əlçatanlığının rəqəmsallaşması maliyyə xidmətləri istifadəçiləri, hökumətlər və ümumilikdə iqtisadiyyat üçün bir sıra üstünlüklərə malikdir. Misal olaraq, banklar və maliyyə texnologiyaları təchizatçıları üçün maliyyə vasitəçiliyi xərclərinin azalması, aşağı gəlirli fərdlər üçün maliyyə resurslarına əlçatanlığın səviyyəsinin artması, dövlətin məcmuu xərclərinin yüksəlməsi və sair göstərə bilərik.

Rəqəmsal maliyyə, etibarlı bir rəqəmsal ödəmə sisteminə əsaslanan mobil telefonlar, fərdi kompüterlər, internet və ya kartlar vasitəsi ilə təqdim olunan maliyyə xidmətləridir. McKinsey şirkətinin hesabatında, rəqəmsal maliyyə "mobil telefonlar, internet və ya kartlar vasitəsi ilə təqdim olunan maliyyə xidmətləri" kimi təsvir edilir. Gomber, Koch və Siering-ə görə isə, rəqəmsal maliyyə, yeni maliyyə məhsullarını, maliyyə müəssisələrini, maliyyə yönümlü proqram təminatını, "FinTech" şirkətləri və innovativ maliyyə xidmətləri təminatçıları tərəfindən təqdim olunan müştərilərlə əlaqələrin və qarşılıqlı fəaliyyətin yeni formalarını əhatə edir. Rəqəmsal maliyyənin standart tərifi olmasa da, fikrimizcə rəqəmsal maliyyə, fərdlərin və şirkətlərin hər hansı bank filialına və ya maliyyə xidmətləri təklif edən təşkilatlara getmədən, internet vasitəsilə ödənişlərə, yığımlara və kredit imkanlarına sahib olmasını təmin edən bütün məhsulları, xidmətləri, texnologiyanı və ya infrastrukturu əhatə edən geniş fəaliyyət sahəsidir. Rəqəmsal platformalar vasitəsilə təqdim olunan maliyyə xidmətlərinin məqsədi yoxsulluğun azaldılmasına və inkişaf etməkdə olan ölkələrin maliyyə stabilliyi məqsədlərinə töhfə verməkdir. Ümumilikdə hər hansı bir rəqəmsal maliyyə xidmətinin üç əsas komponenti var: rəqəmsal bir əməliyyat platforması, pərakəndə satış agentləri, müştərilər və agentlər tərəfindən rəqəmsal platforma vasitəsilə əməliyyat aparmaq üçün istifadə edilən hər hansı bir cihaz. Aparılan sorğular və tədqiqatlardan məlum

olur ki, hazırda isə ən çox istifadə edilən cihaz mobil telefonlardır. Rəqəmsal maliyyə xidmətlərindən istifadə etmək üçün istifadəçinin mobil cihazlar, fərdi kompüterlər və ya internet daxil olmaqla rəqəmsal platformalar üzərindən ödənişlər etmək və ya daxilolmaları təmin etmək üçün mövcud bir bank hesabının olması isə mütləq şərt hesab edilir.

Rəqəmsal maliyyənin bır sıra üstünlüklərini sadalamaq mümkündür. Məsələn, rəqəmsal maliyyə, maliyyə əlçatanlığının daha da artmasına, qeyri-maliyyə sektorlarına və eyni zamanda fərdlərə göstərilən zəruri maliyyə xidmətlərin genişlənməsinə səbəb ola bilər. İkinci, rəqəmsal maliyyə inkişaf etməkdə olan ölkələrdə xüsusilə, yoxsul şəxslərə əlverişli, rahat və etibarlı bank xidməti göstərmək imkanları yaradır. Dünyadakı rəqəmsal maliyyə xidmətlərinin əlçatanlığı və əlverişliyinin son dövrdə yaxşılaşdırılması milyonlarla aşağı gəlirli müştərinin nağd pul əməliyyatlarından təhlükəsiz rəqəmsal platformalarda rəsmi olaraq maliyyə əməliyyatlarına keçməsinə ciddi təkan vermişdir. Üçüncüsü, rəqəmsal maliyyə, fərdlər və eyni zamanda kiçik, orta və iri sahibkarlıq subyektləri üçün müxtəlif maliyyə məhsulları və xidmətlərindən, ən əsası kredit imkanlarından rahat istifadə təmin edərək rəqəmsallaşan iqtisadiyyatlarda ümumi daxili məhsulun həcminin artmasına xidmət edir. Rəqəmsal maliyyə həm müştərilər üçün, həm də iqtisadiyyat üçün daha çox iqtisadi sabitliyə səbəb ola bilər. Dördüncü, rəqəmsal maliyyədəki innovasiya bank fəaliyyətində uzunmüddətli müsbət təsirlər göstərə bilər. Rəqəmsal maliyyə həmçinin, maliyyə əməliyyatlarının həcmindəki artımdan irəli gələn daha yüksək vergi gəliri yaradan məcmu xərclərin artmasına kömək edəcək bir platforma təmin edərək hökumətlərə fayda gətirir. Altıncı, rəqəmsal maliyyənin maliyyə və pul sistemi tənzimləyicilərinə faydaları var, çünki tam miqyaslı rəqəmsal maliyyələşdirmə çirkli pul dövriyyəsini əhəmiyyətli dərəcədə azalda bilər və sair. Müştərilər üçün rəqəmsal maliyyənin digər üstünlüklərinə isə müştərilərin şəxsi maliyyəsinə daha çox nəzarət edə bilməsi, sürətli maliyyə qərarlarının verilməsi və cəmi bir neçə saniyə ərzində ödəmə etmək və vəsaitlər qəbul etmək imkanlarını əhatə edir. Nəticə olaraq, rəqəmsal maliyyə, rəsmi bank hesabları olan və çox sayda maliyyə əməliyyatı etmək üçün bank hesablarında vəsait olan fərdlərin və müəssisələrin rifahını yaxşılaşdırmaqdadır.

CGAP konsultasiya təşkilatı tərəfindən, rəqəmsal maliyyə əlçatanlığına "məlumatsız və kifayət qədər xidmət əldə etməyən əhali tərəfindən zəruri maliyyə xidmətlərinə rəqəmsal giriş və ondan istifadə" kimi tərif verilmişdir. Hal-hazırda 80-dən çox ölkədə milyonlarla aşağı gəlirli müştərini nağd pul əməliyyatlarından daha çox rəqəmsal maliyyə xidmətlərindən istifadə etməyə təşviq etmək üçün mobil telefonlar və bənzər cihazlar vasitəsilə yenilikçi rəqəmsal maliyyə xidmətləri istifadəyə verilmişdir. Rəqəmsal maliyyə əlçatanlığının təmin olunması prosesi isə xidmətlərlə az təmin olunmuş əhalinin bir növ rəsmi bank hesabına sahib olmaları və əsas maliyyə əməliyyatlarını uzaqdan həyata keçirmələrini təmin etmək üçün rəqəmsal girişə ehtiyac duymaları ehtimalı ilə başlayır. Rəqəmsal maliyyə əlçatanlığının bir neçə faydaları var. Belə ki, rəqəmsal maliyyə əlçatanlığı, banklarda növbə sıralarının, kağız istifadəsinin və ənənəvi sənədləşmə prosesinin azaldılması və daha az bank filiallarının saxlanması ilə xərclərin azaldılmasına xidmət edir. Rəqəmsal maliyyə əlçatanlığı ilə çox sayda əmanətçi bir neçə dəqiqə ərzində bankları asanlıqla dəyişə bilər, eyni zamanda bu öz müştərilərini rəqib banklara itirməmək üçün bankları keyfiyyətli xidmətlər göstərməyə

məcbur etməkdədir. Bunlarla yanaşı, maliyyə və pul sistemi tənzimləyiciləri üçün rəqəmsal maliyyə əlçatanlığı dövriyyədəki nağd pulun azaldılmasına kömək edir və inkişaf etməkdə olan və yoxsul ölkələrdə yüksək inflyasiya səviyyəsinin azaldılmasında mühüm rol oynayır. Rəqəmsal maliyyə əlçatanlığı, maliyyə əməliyyatlarını həyata keçirmək üçün öz bank hesablarındakı vəsaitlərdən istifadəyə imkan verən etibarlı bir online platformaya sahib olan fiziki şəxslərin və hüquqi şəxslərin rifahını yaxşılaşdırılmasına xidmət edir.

Maliyyənin rəqəmsallaşması və bununla da maliyyə stabilliyinin yüksəldilməsi eləcə də, maliyyə əlçatanlığının təmin olunması bilavasitə "Fintech" (Maliyyə texnologiyası) ilə sıx əlaqəlidir. "Fintech" kompüter proqramları və alqoritmlərə əsaslanan müasir texnoloji innovasiyalar vasitəsilə maliyyə və bank xidmətlərinin həyata keçirilməsi kimi başa düşülür. "Fintech" təchizatçısı isə onlayn və ya offlyan rejimdə texnoloji platformalardan istifadə edən, mövcud maliyyə xidmətlərinin təkmilləşdirilməsini və yeni maliyyə xidmətlərini təmin edən fiziki və ya hüquqi şəxslərdir. "Fintech" şirkətləri rəqəmsal iqtisadiyyatda mühüm rol oynayır. "Fintech" təminatçıları maliyyə xidmətləri sektorunda ya banklarla rəqabət etmək, ya da bankların öz funksiyalarını müştəriləri qarşısında yerinə yetirməsini təmin etmək üçün meydana çıxırlar. Hazırda, bəzi "Fintech" şirkətləri tərəfindən həyata keçirilən maliyyə xidmətlərinin banklara nisbətən baha olmasına baxmayaraq, banklarda prosedurların uzun olması və vaxtın uzanması müştərilərin onlara yönəlməsinə gətirib çıxarmışdır. "Fintech" şirkətləri ilə işləməyin bir sıra üstün cəhətləri rəqəmsal iqtisadiyyatda onların rolunu daha da gücləndirir. Məsələn, "Fintech" şirkətləri problemsiz bir prosesle daha sürətli maliyyə xidmətləri göstərə bilir və bu da aşağı gəlirli şəxslərin maliyyə öhdəliklərini gündəlik idarə etmələrini asanlaşdırır. "Fintech" təminatçıları banklar kimi depozit əməliyyatları həyata keçirmirlər, bu da "Fintech" təminatçılarının daha az tənzimləmələrlə üzləşməsinə səbəb olmaqla, onlar üçün maliyyə texnologiyalarının təkmilləşdirilməsinə daha əlverişli şərait yaradır. Eyni zamanda, "Fintech" təminatçıları, əməliyyat xərclərini azaltmaq və vasitəçilik fəaliyyətlərinin keyfiyyətini yüksəltmək üçün ənənəvi kredit təşkilatları ilə ortaq ola bilirlər. Nəhayət, müştərilər üçün ən əsas üstünlüklərdən biri də xidmətlərin istənilən yerdən, istənilən zaman, innovativ və yüksək texnologiyalar vasitəsilə əldə edilməsi rahatlığıdır.

Ümumi olaraq, maliyyə əlçatanlığı və stabilliyinin təmin olunması ilə rəqəmsal maliyyə arasındakı qarşılıqlı əlaqəni aşağıdakı kimi təsvir etmək mümkündür:



Göründüyü kimi dayanıqlı inkişafa nail olmaq üçün dövlətlərin ən vacib məqsədlərindən biri kimi yoxsulluğun minimuma endirilməsi cəmiyyətin bütün təbəqələrində rəqəmsal cihazlardan istifadənin stimullaşdırılması ilə maliyyə əlçatan-lığının yüksək səviyyəsinin təmin olunması, bununla da iqtisadi artımın sürətlənməsi və maliyyə stabilliyinin qorunması rəqəmsal maliyyənin mövcudluğu və daha da inkişaf etdirilməsi ilə həyata keçirilə bilər.

*Şərifli İsmayıl Elman oğlu, doktorant*
*Odlar Yurdu Universiteti*

## MAŞINQAYIRMA MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN AKTİVLƏŞDİRİLMƏSİ YOLLARI

Maşınqayırma sənaye müəssisələrinin innovativ fəaliyyətinin aktivləşdirilməsi məsələlərinin araşdırılmasına diqqətin artırılması ilk növbədə bazar iqtisadiyyatı şəraitində uzunmüddətli stabil inkişafın təmin edilməsində innovasiya fəaliyyətinin yaradıcı və müəyyənedici olması ilə izah olunur.

İqtisadi ədəbiyyatlarda innovasiya fəliyyətinin aktivləşdirilməsi elmi kateqoriya kimi müxtəlif aspektlərdə öyrənilir və araşdırılır. Aparılan tədqiqat nəticəsində əldə edilən qənaətə görə innovativ fəaliyyətin aktivləşdirilməsi müəyyən prinsip, metod və stimullar sisteminin tətbiqi yolu ilə innovasiyanın yaradılması və yeniliyin tətbiqi, innovasiyanın istifadəsi ilə işçilərin fəaliyyətinin sürətləndirilməsindən ibarətdir.

Sənaye müəssisələrinin, o cümlədən maşınqayırma sahəsi üzrə müəssisələrin innovasiya passivliyinin, metodoloji çatışmazlığının əhəmiyyətli səbəblərindən biri innovasiya fəaliyyətinin idarə olunması prosesində mövcud yanaşmaların, prinsip və metodlarının praktiki istifadəsində müəyyən çatışmazlıqların olmasıdır.

İnnovasiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün onun aktivləşdirilməsinin idarə edilməsini elmi cəhətdən əsaslandırılmış prinsip və metodların məcmusu bazasında həyata keçirmək zəruridir.

İnnovasiya fəaliyyətinin aktivləşdirilməsinin maksimum səmərəliliyini əldə etmək üçün metodoloji bazanı daima inkişaf etdirmək və təkmilləşdirmək lazımdır. İnnovasiya fəaliyyətinin aktivləşdirilməsinin metodoloji müddəalarının vacib komponentlərindən biri prinsiplərdir. Təcrübədə bu prinsiplər aşağıdakı kimi müəyyən edilmişdir:

- rəqabətqabliyyətliliyin və bütövlükdə müəssisənin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün innovasiya amillərinin prioritetliyinin təsbit edilməsi. Aydın olur ki, ölkə iqtisadiyyatında, onun ayrı-ayrı sahələrində, o cümlədən maşınqayırmada ən zəif həlqə maliyyə olmaqla bərabər innovasiya menecmentinin daha zəif olmasıdır. Qeyd etmək lazımdır ki, innovasiya menecmenti məhz müəssisənin rəqabətqabliyyətliyinin təmin edilməsində mühüm rol oynayır. İnnovasiya prosesinin iştirakçıları arasında əlaqələrdə uyğunsuzluq, informasiya qeyr-şəffaflığı bir problem kimi qalmaqda davam edirsə, bu zaman innovasiyanın işlənilməsində və həmçinin maliyyələşdirməsində motivasiyanın səviyyəsi çox aşağı olur. Elm ilə istehsalın inteqrasiyasının, sənayeyə tətbiqi proseslərinin sürətləndirilməsi ilə əlaqədar problemlərin təhlili göstərir ki, sənaye müəssisələri, elmi və maliyyə institutları arasında üfüqi əlaqələrin yaxşı forma-

laşmış infrastruktur dəstəyinin olmaması səbəbindən bu proseslərdən çoxu ya baş tutmur və ya gözlənilən nəticəni vermir;

- innovasiya ideyalarının hüquqi mühafizəsi. Məlumdur ki, hər bir sənaye müəssisəsinin işçilərinin innovasiya fəaliyyətinin nəticələri onun rəqabət üstünlüyüdür, hər bir müəssisənin vəzifələrindən biri və əsası isə onları qoruyub saxlamaqdır. İnnovasiya fəaliyyətinin nəticələrinin ehtibarlı hüquqi mühafizəsi olmaması onların (innovasiya fəliyyətinin nəticələrinin) səmərəli istifadəsi imkanlarını təhlükə altında qoyur;

- informasiya əlaqələri. İnnovasiya fəaliyyətində müəssisənin ayrı-ayrı idarəetmə strukturunun tələbatını ödəyən intensiv məlumat axını yaradılır. Müəssisənin idarə edilməsi sisteminə inteqrasiya edilmiş informasiya sisteminin istifadəsinə əsaslanan, həmin müəssisənin bütün bölmələri üçün vahid bazanı təmin edən yanaşma olmalıdır;

- innovasiya fəaliyyətinin səmərəliliyinin və məhsulun rəqabətqabliyyətliyinin yüksəldilməsində müəssisənin hər bir əməkdaşının fəal və yenilikçi kimi iştirakı. Bu prinsipə riayət olunması maddi və mənəvi stimullaşdırmanın müxtəlif metodlarından istifadəni, o cümlədən əvvəlcədən yüksək əmək haqqı təyin etməklə nəticədə adekvat yüksək keyfiyyətə nail olma, innovativ aktivliyin yüksəldilməsi sahəsində yüksək nəticəyə görə mükafatlandırma, məhsulun tələb olunan keyfiyyət göstəricilərinin yüksəldilməsinə fərdi potensial və real əməyin sərf edilməsi, müəssisənin ayrı-ayrı işçiləri, bölmələri arasında səmərəliliyin yüksəldilməsi üzrə yarışmanın təşkili kimi mühüm məsələləri nəzərdə tutur;

- innovasiya fəaliyyəti subyektlərinin öz əməklərinin, işlərinin nəticəliliyində maraqlı olmaları. İnnovasiya fəaliyyətini stimullaşdıran daxili motivlər daha çox maraq yaradır. Bunlara aid edilir: öz işinin nəticələrini real hiss etmək, yaradıcılıq axtarışı üçün imkana malik olmaq, inisiativ göstərmək, yenilikçi layihələrilə həvəsləndirən maddi-maliyyə müəssisə tərəfindən işçinin yenilikçi fəaliyyətinə dəstəyin verilməsini hiss etmək: həm maddi-maliyyə təminatı formasında yenilikçi layihələrlə həvəsləndirmə, həmçinin onların müəssisədə xüsusi sosial rolunun təsdiqi formasında;

- innovasiya fəaliyyətinə dövlət dəstəyi. O dövlətdə, cəmiyyətdə, iqtisadiyyatda elmi və elmi-texniki fəaliyyətinin yerini, elmi işçinin hüquqi statusunu, müəssisənin maliyyələşdirmə mənbəyinin çoxsaylı olmasını, elmi fəaliyyətin idarə edilməsinin prinsiplərini, elm sahəsində dövlətin müxtəlif səviyyəli orqanlarının əsas təsir formalarını müəyyən etməyə, beynəlxalq elmi-texniki əməkdaşlığın hüquqi əsaslarını əks etdirməyə imkan verər.

İnnovasiya fəaliyyətinin aktivləşdirilməsində bütün ümumisistem prinsipləri arasında innovasiya fəaliyyətinin aktivləşdirilmə məsələlərində idarəetmə funksiyalarının yerinə yetirilməsi daha vacib hesab edilir.

Maşınqayırma sənaye müəssisələrinin innovasiya fəaliyyətinin aktivləşdirmə metodlarının inkişafında "innovasiya fəaliyyətinin aktivləşdirilməsi" üzrə qrupun formalaşdırılması üsulu mühüm rol oynayır. İnnovasiya fəaliyyətinin aktivləşdirilməsi üzrə qrup – bu müntəzəm toplanılan, müəyyən vaxt ərzində innovasiya fəaliyyətinin aktivləşdirilməsi ilə əlaqədar məsələləri müzakirə edən müxtəlif bölmə əməkdaş-larından ibarət formalaşdırılmış qrupdur.

Belə qrupların təşkilinin bütün nəzəri və praktiki fəaliyyətin əsas məqsədi rəqabət mübarizəsində qələbəni təmin etmək və sahə müəssisələrinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsindən ibarətdir.

*Məmmədova Nigar Akim, doktorant,*
*Bakı Biznes Universiteti*

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ YARANMASI VƏ ONUN İQTİSADİ İNKİŞAFDA ROLU

Bazar iqtisadiyyatı ölkələrində iqtisadiyyat qarşısında duran əsas vəzifələrdən biri qarşılıqlı borc problemlərinin həll olunmasıdır. Belə ki, borc probleminin mövcudluğu özü ilə birlikdə digər məsələlərdə də problemlər yaradır. İstehlakçıların aldıqları mala görə borclar yarandıqda istehsalçı tərəf vergiləri və üzərinə düşən digər öhdəlikləri ödəyə bilmir. Öz növbəsində vergi daxilolmalarının azalması səbəbindən dövlət büdcə planını yerinə yetirə bilmir, ona görə də, iqtisadiyyatın bir sıra sahələrinə dövlət maliyyə dəstəyi gecikdirilir və yaxud da ixtisar edilir. Bütün bunlar, ümumilikdə ölkə iqtisadiyyatına öz mənfi təsirini göstərir və dövlət istər iqtisadi, istər siyasi, istərsə də digər sahələr üzrə gücünü itirir. Hazırki dövrdə bu problemlərin həll edilməsi yolunda dövlət dairələrində və müəssisə miqyasında müvafiq tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri kimi dövlət qiymətli kağızlar bazarının inkişafını məqsədəuyğun hesab etmək olar.

Bildiyimiz kimi qiymətli kağızlar bazarı bazar iqtisadiyyatının əsasını təşkil edir. Qiymətli kağızlar bazarı formalaşmayan istənilən ölkədə yüksək səviyyədə inkişaf etmiş bazar iqtisadiyyatının mövcudluğundan danışmaq mümkün deyil. Eyni zamanda maliyyə ehtiyatlarının cəlb edilməsində əsas vasitəçi kimi qiymətli kağızlar bazarı qəbul olunur. Qiymətli kağızlar əmlak hüququ və borc öhdəliyini təsdiq etməklə yanaşı, sahibinə divident və ya faiz şəklində gəlir gətirir.

Azərbaycanda qiymətli kağızlar bazarı XIX əsrin 80-ci illərindən formalaşmışdır. İlk dəfə olaraq 1886-cı ildə "Bakı Əmtəə Birjası"nın yaradılması ilə istiqraz və veksellərin kütləvi ticarətinə başlanıldı. XX əsrin əvvəllərində Bakıda neft hasilatının artması ilə maliyyə bazarlarının inkişafı vüsət aldı. 1913-cü ildə "Bakı Tacir Bankının" təsis edilməsi nəticəsində səhmlərin buraxılışı və tədavülü də aktivləşməyə başladı. O dövrdə bu sahəyə olan maraq həm qiymətli kağızlar buraxan şirkətlərin sayının, həm də bazardan cəlb olunan kapitalın artmasına şərait yaratmışdı. Artıq XX əsrin əvvəllərində bəzi iri neft şirkətlərinin səhm, veksel və istiqrazları ölkənin kapital bazarlarında istifadə olunurdu. Ölkədə neft sənayesinin sürətli inkişafı bu sahənin qiymətli kağızlarına xarici bazarlarda da maraq yaradırdı. Belə ki, "Yeni-Bakı neft emalı zavodu"nun, "Bakı neft cəmiyyəti"nin, "Nobel qardaşları neft istehsalı cəmiyyəti"nin, "Xəzər neft istehsalı və ticarət cəmiyyətləri şirkəti"nin, "Bakı Tacir Bankı"nın və başqa iri şirkətlərin səhmləri Rusiyanın Moskva, Sankt-Peterburq və digər şəhərlərinin fond birjalarında ticarət olunurdu.

XX əsrin sonlarında dövlət suverenliyinin bərpası və özəl mülkiyyətin aliliyi prinsiplərinə əsaslanan yeni iqtisadi sistemin qurulmasına başlanması ölkədə mütəşəkkil fond bazarının yenidən təşkili üçün də imkanlar açmış oldu. Bu əsasda mülkiyyət və azad sahibkarlıq prinsiplərinə əsaslanan əsaslı iqtisadi islahatlara başlanıldı. Həyata keçirilmiş çoxsahəli islahatlar nəticəsində iqtisadi artımın və istehsal potensialının bərpası iqtisadiyyatın müxtəlif sektorlarında kapitallaşma səviyyəsinin artmasına səbəb olmaqla, eyni zamanda onların müasir istehsal bacarıqlarını və vərdişlərini yenidən

təşkil etdi. Azərbaycanın qiymətli kağızlar bazarı da bu iqtisadi transformasiya proseslərinin əsas iştirakçılarından biri kimi çıxış edirdi. 1995-ci ildə özəlləşdirmənin birinci mərhələsinə başlanılması ilə Auksion Mərkəzi və "Mülk" Milli Depozit Mərkəzi kimi institutlar formalaşdı. Həmin dövrdə 1000-dən çox səhmdar cəmiyyəti, təxminən 70 min səhmdardan ibarət investor təbəqəsi yarandı.

1998-ci il dekabrın 30-da Ümümmilli Lider Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanın imzalanması ilə qiymətli kağızlar bazarının inkişafının növbəti mərhələsi başlandı. 1999-cu ilin sentyabrında Azərbaycanın qiymətli kağızlar bazarı infrastrukturunun əsas institutlarından biri hesab olunan Milli Depozit Mərkəzi yenidən təşkil edilərək qiymətli kağızların saxlancı və depozitar xidmətlərini göstərməyə başladı. 2000-ci ildə Bakı Fond Birjasının yaradılması ilə müasir fond bazarı vasitəçiləri - broker və diler institutları formalaşmağa başladı. Qısa müddət ərzində öz potensialını gücləndirən və yetərli kapitallaşma səviyyəsini təmin edən Bakı Fond Birjası qiymətli kağızlar bazarında ticarət təşkilatçısı funksiyasını aktiv həyata keçirməyə başladı.

Qiymətli kağızlar hər bir təsərrüfat subyektində istehsal prosesinin fasiləsizliyinin təmin edilməsində mühüm rola malikdir. Bu baxımdan müəssisələrdə təkrar istehsal prosesinin fasiləsiz baş verməsi üçün material və maliyyə axınları qarşılıqlı istiqamətdə hərəkət etməlidir. Amma məhsul istehsalı ilə onun reallaşdırılmasının zaman etibarilə üst-üstə düşməməsi, istehsal prosesinin mövsümiliyi, məhsulun satıcıya göndərilməsi ilə onun ödənilməsindəki zaman fərqləri nəticəsində təsərrüfat fəaliyyəti prosesində material və maliyyə axınlarının ahəngdarlığı pozula bilir. Belə uyğunsuzluqlar nəticəsində istehsal prosesinin davam etdirilməsi üçün zəruri olan vəsaitlərin müvəqqəti çatışmazlığı olur. Eyni zamanda müəssisənin öz öhdəliklərini yerinə yetirməsi prosesi hər vaxt meydana çıxır. Həmin problemin həll edilməsində qiymətli kağızların rolu xüsusi qeyd olunmalıdır, çünki müəssisə qiymətli kağızlardan istifadə edərək tələb edilən qədər dövriyə vəsaitlərini əldə edə bilər.

Kommersiya kreditinin aləti olan veksel qiymətli kağızların birinci forması olmuşdur. Veksel kredit pulları formasına çevrilmişdir. Başqa borc öhdəlikləri ilə müqayisədə veksel bir sıra əlamətlərilə fərqlənir. Veksel mücərrəd xarakter daşıyır. Çünki borc öhdəliyinin yaranmasının konkret səbəbləri vekseldə qeyd olunmur. Veksel mübahisəsizliyə malikdir. Yəni borcun yaranma səbəbindən asılı olmayaraq veksel üzrə ödənişi borclu yerinə yetirməlidir. Veksel tədavül olunmaq xarakterinə malikdir. Yəni nağd pul əvəzində tədavül vasitəsi kimi vekseldən istifadə edilməsi mümkündür. Məhz bu xüsusiyyətlərindən irəli gəlməklə veksel ticarət pulları adını almışdır. Göstərilən cəhətlər kapitalist sənaye istehsalının inkişafında, kapitalist münasibətlərinin möhkəmləndirilməsində və bazarın qurulmasında vekselər şəklində olan qiymətli kağızların böyük əhəmiyyətini səciyyələndirir. İstehsal prosesinin davam etdirilməsi üçün əmtəə və xidmətlərin veksel öhdəliyi əsasında kommersiya əsasları ilə alınması, qiymətli kağızların satılması, kredit almaq üçün qiymətli kağızların bankda girov qoyulması, REPO əməliyyatlarından istifadə edilməsi bunun əsas yollarıdır. Müəssisə ona lazım olan əmtəə və xidmətləri satıcı təşkilatdan dəyərini müəyyən müddət sonra ödəmək şərti ilə alır. Həmin öhdəlik veksel şəklində rəsmiləşdirilir. Bu zaman satıcı müəssisə alıcı müəssisəyə kommersiya krediti vermiş olur. O, müvafiq gəlir əldə etməlidir. Hə-

min gəlir əmtəənin bazar qiyməti ilə kommersiya krediti vermiş müəssisəyə mövcud qiymət fərqi ilə çatmalıdır. Təcrübədə maliyyə və materialların ödənilməsi üçün müəssisənin şəxsi veksellərindən, köçürmə veksellərindən və bank veksellərindən istifadə edilə bilir. Bir qayda olaraq veksel təminatı altında alınmış dövriyyə vəsaitləri müəssisənin tədiyyə qabiliyyətli tələbinin səmərəsiz şəkildə məhdudlaşmasının qarşısını alır, təkrar istehsal sürətlənib artır. Bankların fəaliyyəti prosesində qiymətli kağızların daha bir forması yaradılıb ki, o çek adlandırılmışdır. Çeklər kredit pulları rolunu oynamaqla ödəniş vasitəsi kimi əmtəələrin tədavülünə xidmət edir. Çekdən başqa əmtəələrin hərəkətini təsdiqləyən başqa alətlər də meydana gəlmişdir. Lakin qiymətli kağızlar bazarının yaradılmasında həqiqi böyük irəliləyiş səhmdar cəmiyyətləri sayəsində alınmışdır.

Dövlət qiymətli kağızlarının (DQK) rolunu bilmədən iqtisadiyyatda qiymətli kağızların əhəmiyyətini yetərincə bilmək olmaz. İqtisadi inkişafın gedişində DQK dövlət kreditinin aləti olmaqla müharibələr və təbii fəlakət baş verdiyi zamanlarda dövlətin fövqəladə xərclərini (dövlət büdcəsinin kəsirini) ödəmək üçün istifadə olunurdu. Zaman keçdikcə DQK getdikcə daha artıq dərəcədə iqtisadiyyata təsir göstərməyə başlayır, pul tədavülünün dövlət tənzimlənməsi sferasında əvəzsiz rol oynayır. Müasir şəraitdə makroiqtisadi tənzimləmə məqsədilə pul-kredit siyasətinin həyata keçirilməsi üçün DQK-dan istifadə olunur. Mərkəzi bankların tədavüldəki pul kütləsinin tənzimlənməsi üçün qiymətli kağızlar bazarında qiymətli kağızlar alması və satması praktikası vardır. DQK - iqtisadiyyatda aşağıdakı funksiyaları yerinə yetirir:

- qiymətli kağızlar dövlət borclarının formalaşdırılmasının daha sivil formasıdır;
- dövlət büdcəsinə vergi gəlirlərinin daxil olması ilə büdcədən xərclərin aparılma məbləğləri arasında qısamüddətli fərqin ödənilməsi yolu ilə dövlət büdcəsinin kassa icrasının təmin olunma vasitələrindən biridir;
- dövlətin pul-kredit siyasətinin həyata keçirilməsində pul tədavülün nizamlaşdırılma vasitəsi rolunu oynamaqla yanaşı iqtisadiyyatın ümumi inkişafı vasitəsi olaraq çıxış edir;
- pul-kredit siyasətinin mahiyyəti istehsalın ümum səviyyəsinin yüksəldilməsi, məşğulluğu yüksəltmək və inflyasiyanın qarşısını almaq məqsədi ilə pul kütləsinin həcminin dəyişilməsindən ibarətdir;
- dövlət qiymətli kağızları məqsədli dövlət proqramlarının mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edən yerli proqramların həyata keçirilməsi üçün vəsaitlərin səfərbərliyə alınmasına xidmət edir;
- dövlət qiymətli kağızları mərkəzi banklar tərəfindən hökumətə verilən kreditlərin, kommersiya banklarına verilən kreditlərin, habelə kommersiya bankları tərəfindən müəssisə və təşkilatlara verilən kreditlərin təminatı olaraq girov məqsədilə istifadə olunur: qiymətli kağızları satıb pul əldə edə bilər. Bu üsulun tətbiqi onunla bağlıdır ki, hər bir təsərrüfat subyekti çalışır ki, daxil olan maliyyə axınları çıxan maliyyə axınlarından çox olsun. Ona görə də müəssisə və təşkilatlar həmişə az gəlirli aktivlərini (sərbəst pul vəsaitlərini) gəlirli aktivlərlə əvəz etməyə çalışırlar. Həmin problemin həllində qiymətli kağızların rolu böyükdür. Çünki müəssisələr öz pul vəsaitlərini əlavə gəlir əldə etmək məqsədi ilə qiymətli kağızlara qoyurlar. Adətən müəssisələrin aktivlərinin bir hissəsi qiymətli kağızlar formasında olur. Ona görə də müəssisə dövriyyə vəsaitlərinin müvəqqəti çatışmamazlığını aradan qaldırmaq üçün qiymətli kağızlar şəklində olan

aktivlərinin bir hissəsini satmalı olur. Təcrübədə qiymətli kağızların girovu altında kredit alınması qiymətli kağızlar üzərində mülkiyyət hüququnu saxlamaqla maliyyə vəsaitləri əldə etməyə imkan yaradır. Bu zaman material axınlarının pul vəsaitləri ilə təmini faktiki olaraq kredit alınması hesabına həyata keçirilə bilir. Bu əməliyyatın, yəni qiymətli kağızların girovunun təminatı ilə kreditləşdirmə əməliyyatlarının həyata keçirilməsi, veksel təminatı ilə, dövlət qiymətli kağızlarının girovu və korporativ qiymətli kağızları ilə təmin olunur. Bunlar ondan irəli gəlir ki, qiymətli kağızların girovu altında kreditləşmə əməliyyatı bank üçün borcun təmin edilməsi etibarlılığını və ona görə faiz ödənilməsi təminatını artırır. Bu zaman dövlət qiymətli kağızları daha etibarlı və likvid qiymətli kağızlar sayılır və onlara görə alman gəlirlər kredit faizinin ödənilməsinə yönəldilə bilər, yaxud başqa məqsədlərə xərclənə bilər.

Ümumilikdə qiymətli kağızların bazar metodlarının təşəkkülü və inkişafında da rolu böyükdür. Çünki, qiymətli kağızlar dövlət mülkiyyətinin özəlləşdirilməsində istifadə olunur. Qiymətli kağızlar vasitəsilə dövlət mülkiyyətində olan obyektlər səhmdar mülkiyyətinə keçirilir, yaxud fərdi sahibkarlara verilir. Məlum olduğu kimi, DQK-nın emissiyası yolu ilə cəlb olunmuş vəsaitlə dövlətin investisiya layihələrinin maliyyələşdirilməsində istifadə olunur. Həmin layihələr ya müxtəlif istehsal xarakterli müəssisələrin yaradılması, ya da ayrı-ayrı sahələrin fəaliyyət göstərməsinə, inkişafına xidmət edən sahələrin yaradılması, inkişaf etdirilməsi ilə əlaqədar olur. İnvestisiya layihələrinin maliyyələşdirilməsinin bütövlükdə iqtisadiyyatın inkişafına, məşğulluğun səviyyəsinin yüksəlməsinə, istehsalın həcminin artmasına gətirib çıxarması mümkündür.

*Hüseynov Novruz Həsən oğlu, doktorant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## BÜDCƏDƏNKƏNAR DÖVLƏT FONDLARININ İDARƏETMƏ ORQANLARINDA UÇOT VƏ HESABATIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İctimai sektorun beynəlxalq maliyyə hesabatı standartları dövlət sektoru təşkilatlarının maliyyə hesabatlarının keyfiyyətini artırır ki, bu da ictimai resursların bölgüsü sferasında daha əsaslandırılmış qərarların qəbul edilməsinə, dövlət hakimiyyəti orqanlarının hesabatlılığının və şəffaflığının yüksəldilməsinə gətirib çıxarır.

İctimai sektorda maliyyə hesabatının beynəlxalq standartı dünya təcrübəsində xeyli müddətdir ki, tətbiq edilir. Müasir dövrdə ictimai sektor üçün əlavəetmə metodu əsasında 31, kassa metodu əsasında 1 standart işlənib hazırlanmışdır. Müstəqil olaraq işlənib hazırlanmış bu yüksək keyfiyyətli standartlar əksər beynəlxalq təşkilatlar, peşəkar mühasibat orqanları və s. tərəfindən qəbul edilir.

Vətəndaş cəmiyyəti qarşısında hakimiyyət orqanlarının hesabatlılığının və səmərəli fəaliyyətinin təmin edilməsi üçün etibarlı uçot informasiya sisteminin formalaşdırılmasının mühüm əhəmiyyəti vardır.

İctimai sektorun subyektləri büdcə məhdudiyyətləri çərçivəsində fəaliyyət göstərir. İctimai sektorun təşkilatlarına dövlət idarələri və orqanları, yerli özünüidarəetmə orqanları, büdcədənkənar dövlət fondlarının idarəetmə orqanları kimi dövlət sektoru təşkilatları aid edilir. İctimai sektorda maliyyə hesabatının beynəlxalq standartlarında

ilk növbədə iqtisadiyyatın dövlət sektorunun fəaliyyəti sferasında uçot və hesabatların təşkili məsələlərinə baxılır.

Ənənəvi olaraq dövlət idarə və təşkilatların mühasibat uçotu və maliyyə hesabatı kommersiya təşkilatlarının uçotunun ümumi istiqamətindən kənarlaşaraq ayrıca inkişaf etmişdir ki, bu da praktiki olaraq bütün ölkələr üçün xarakterikdir. Lakin son dövrlərdə büdcə idarələrində uçotun kommersiya sektorlarında uçotun prinsiplərinə yaxınlaşması meyli özünü açıq şəkildə göstərir. Bu kommersiya sektorunda uçot və hesabatın təşkili prinsip və metodlarında əhəmiyyətli şəkildə irəliləyişlərin müşahidə olunması ilə bağlıdır.

Müasir dövrdə dövlət sektoru təşkilatlarının hesabat sistemində baş verən dəyişikliklərin başlıca məqsədi dövlət sektorunda maliyyə hesabatlarının milli sisteminin beynəlxalq standartlara uzlaşdırılmasını nəzərdə tutan büdcə islahatlarının həyata keçirilməsidir. İctimai sektorda büdcə təşkilatlarının beynəlxalq standartlara uyğun hesabatların təqdim etməsi Azərbaycanın beynəlxalq maliyyə təşkilatlarında fəal iştirakı ilə də sıx bağlıdır. Beynəlxalq standartlara uyğun hesabatların formalaşdırılması keyfiyyət etibarilə yeni əsasda dövlət idarəetmə sektoru haqqında hərtərəfli və tam informasiya əldə etməyə imkan verir. Daxili istifadəçilər üçün belə informasiya büdcə-vergi siyasətinin işlənib hazırlanması və planlaşdırılması, həmçinin dövlət idarəetmə sektorunun fəaliyyətinin təsirinin qiymətləndirilməsi kimi ciddi təhlilin predmeti ola bilər.

Büdcə sferasının təkmilləşdirilməsinin yeni mərhələsi büdcə sferası idarələrinin fəaliyyətinin aşkarlığının yüksəldilməsinə, dövlət xidmətinə təqdim edilən xərclərin miqyasının və səmərəliliyinin qiymətləndirilməsinə, həmçinin dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyətinin hesabatlılığının və informasiyalılığının artırılmasına istiqamətlənməlidir.

Bu gün maliyyə hesabatının istifadəçiləri dövlət idarələrinin təqdim etdiyi informasiyanın şəffaflığına, etibarlılığına və məzmununa yeni tələblər ortaya qoyur. Mühasibat uçotunun aparılması və hesabatların hazırlanması metodlarının müxtəlifliyini nəzərə alsaq açıq, etibarlı və müqayisəli informasiyanın əldə edilməsi məsələsi heç də asan deyildir. İctimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarını tətbiq etməklə maliyyə informasiyasının hazırlanması istifadəçilərə dövlət idarəetmə sektoru təşkilatlarının pul axınları, maliyyə fəaliyyəti və nəticələri haqqında daha tam təsəvvür əldə etməyə kömək edir. Bu standartın tətbiqinin ən mühüm tərəflərinə aid etmək olar:

- ictimai sektorda korporativ idarəetmənin yeni paradiqmasını formalaşdırmaq,
- dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyət nəticələrinin şəffaflığını artırmaq,
- ictimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarına müvafiq olaraq maliyyə hesabatının auditini formalaşdırmaq və s.

Daha keyfiyyətli maliyyə informasiyası istifadəçilərə düzgün qərarlar qəbul etməyə imkan verir.

Maliyyə resursları və onlara əlçatanlığın məhdudluğu, xarici mühit amillərinin fəaliyyət miqyasının artması və s. ilə xarakterizə olunan dünya iqtisadiyyatının inkişafının müasir mərhələsi dövlət maliyyə resurslarının idarəedilməsi səmərəliliyinin yüksəldilməsini və yüksək keyfiyyətli informasiyanın əldə edilməsini tələb edir. Deməli, dövlət idarəetmə sektoru təşkilatlarının maliyyə vəziyyəti və fəaliyyət nəticələri haqqında informasiyanın şəffaflığının və keyfiyyətinin yüksəldilməsi məqsədilə dövlət idarəetmə sektorunun mühasibat uçotu və hesabat sisteminin təkmilləşdirilməsi vacibdir.

Mövcud mühasibat uçotu sistemi üçün qanunvericiliyə riayət edilməsi üzərində ciddi nəzarət xarakterikdir ki, bu da maliyyə intizamının yüksək səviyyədə saxlanma-

sına imkan verir. Lakin milli qanunvericiliyə lazımi səviyyədə ardıcıl və məcburi riayət edilməsinə baxmayaraq dövlət orqanları tərəfindən bütün zəruri informasiyanın əldə edilməsi təmin edilmir. Belə ki dövlət idarəetmə sektorunun fəaliyyətinin maliyyə nəticələri, aktiv və öhdəlikləri, dövlət vəsaitlərindən istifadənin səmərəliliyi haqqında informasiya məhduddur. Bunun əsas səbəbi dövlət idarəetmə sektorunun təşkilatları üçün vahid hesabat formalarının və mühasibat uçotunun aparılması standartlarının tam formalaşmamasıdır.

Dövlət idarəetmə sektorunun hesabatlılığı və mühasibat uçotu sisteminin mühüm problemlərindən biri də büdcə təşkilatlarında, yerli maliyyə və dövlət xəzinədarlıq orqanlarında mühasibat uçotunun aparılmasında müxtəlif metodoloji qayda və prinsiplərin tətbiq edilməsidir. Bundan başqa müasir dövrdə büdcə təşkilatlarının mühasibat uçotunun mövcud metodologiyası beynəlxalq təcrübəyə uyğun səviyyədə hesablama metodunun tətbiqini təmin etmir. Nəticədə müvafiq büdcə və bütövlükdə dövlət səviyyəsində bütün mənbələr hesabına əlavə edilmiş gəlirlərin və xərclərin ümumi həcmini, maliyyə və qeyri-maliyyə aktiv və öhdəliklərin məbləğini əks etdirən vahid konsalidə edilmiş hesabatların formalaşdırılmasına imkan olmur.

Dövlət idarəetmə sektorunda informasiyanın idarəedilməsi vasitəsi kimi proqram paketlərdən və innovativ yanaşmalardan müəyyən qədər istifadə edilir. Belə yanaşmanın etibarlı, büdcə və büdcədənkənar vəsaitlərlə əməliyyatların vaxtında və tam uçotunu təmin etməsinə baxmayaraq büdcə təşkilatlarının mühasibat məlumatlarına mərkəzləşdirilmiş əlçatmanı təmin etməyə imkan verən vahid standartlaşdırılmış proqram təminatı yoxdur. Fikrimizcə, dövlət idarəetmə sektorunda mühasibat uçotu və hesabatlılığın milli sisteminin təkmilləşdirilməsini aşağıdakı istiqamətlərdə həyata keçirilməsini nəzərdə tutur:

- büdcə təsnifatı ilə inteqrasiya edilmiş vahid hesablar planının işlənib hazırlanması və tətbiq edilməsi,
- mühasibat uçotu və hesabatın milli sisteminin ictimai sektorda maliyyə hesabatının beynəlxalq standartları ilə uzlaşdırılması.

Dövlət idarəetmə sektorunda mühasibat uçotu və hesabat sisteminin təkmilləşdirilməsi dövlət maliyyəsinin idarə edilməsi sisteminin islahatının mühüm ünsürlərindən biridir. Mühasibat uçotu və hesabat sisteminin islahatının başlıca məqsədi dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyət nəticələri və maliyyə vəziyyəti haqqında informasiyanın şəffaflığını və keyfiyyətini yüksəltməkdir. Eyni zamanda büdcənin planlaşdırılmasının və icrasının mövcud yanaşmalarının saxlanıldığı şəraitdə mühasibat uçotu və hesabat sisteminin dəyişikliyi gözlənilən nəticələrin əldə edilməsini təmin etmir. Maliyyə informasiyasının keyfiyyətinin yüksəldilməsi yalnız dövlət maliyyəsinin idarəedilməsi sisteminin kompleks islahatı nəticəsində daha təsirlidir. Mühasibat uçotu keyfiyyətcə yeni səviyyədə zəruri analitik-informasiya bazasının formalaşdırılmasına, dövlət maliyyəsinin bütün idarəetmə sisteminin təkmilləşdirilməsinə imkan verməklə, dəyişən şəraitdə büdcə prosesi iştirakçılarının fəaliyyətini təmin edir.

Mühasibat uçotu və hesabat sisteminin ictimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarına yaxınlaşması beynəlxalq yanaşmalara uyğun olaraq dövlət idarəetmə sektorunun əsas vəsaitlər, maliyyə qoyuluşları, kreditlər, borclar, şərti öhdəliklərdə daxil olmaqla bütün maliyyə və qeyri-maliyyə aktiv və öhdəliklərinin tanınmasını təmin edir. Bu dövlət maliyyəsinin vəziyyəti haqqında daha dəqiq və etibarlı məlumat əldə etməyə imkan verir və dövlət idarəetməsinin səmərəliliyinin yüksəldilməsinin etibarlı informasiya bazasını yaradır. Mövcud problemlər haqqında daha tam təsəvvürün olması onların həll edilməsi üzrə səmərəli tədbirlərin işlənib hazırlanması-

na kömək edir və gələcəkdə onların yaranması ehtimalını azaldır.

Mühasibat uçotu ilə büdcə planlaşdırılmasının qarşılıqlı əlaqəsində büdcə siyasətinin inkişaf meylləri kontekstində baxılır və o, dövlət maliyyəsinin idarəedilməsinin əsasını təşkil edir. Odur ki, dövlət maliyyəsinin idarəedilməsi sisteminin islahatı strategiyasında büdcə planlaşdırılması prosesinin təkmilləşdirilməsi istiqamətləri kimi nəticəyə yönəlik orta müddətli büdcə planlaşdırılması sisteminin tətbiqi məqsəduyğundur.

İctimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarının tələblərindən biri təşkilatların mühasibat hesabatlarının audit yoxlamalarının aparılmasıdır. Bununla əlaqədar olaraq mühasibat uçotu və hesabatlılığın təkmilləşdirilməsi çərçivəsində dövlət idarəetmə sektorunda daxili audit institutlarının inkişafının təmin edilməsi zəruridir. Son dövrlərdə büdcədənkənar dövlət fondu olan Dövlət Sosial Müdafiə Fondunun fiskal funksiyasının kəskin azaldılması kontekstində sosial funksiyasının gücləndirilməsi büdcə xərclərinin səmərəliliyinin yüksəldilməsinin zəruri şərtlərindən biri kimi büdcə xərclərinin hesabatlılığı (nəzarətliliyi) məsələsini ortaya qoyur. Fikrimizcə, büdcə xərclərinin səmərəliliyinin artırılması dövlət maliyyəsi statistikası üzrə informasiyanın formalaşdırılması metodologiyasının inkişafını, büdcədənkənar dövlət fondlarının idarəetmə orqanlarında mühasibat uçotu və maliyyə hesabatlılığının qayda və prosedurlarının təkmilləşdirilməsini, daxili maliyyə nəzarəti və auditi sisteminin inkişafını, büdcə proseslərinin şəffaflığının təmin edilməsi və ona vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsini və s. nəzərdə tutur. Qeyd edilənlərdən göründüyü kimi, müasir dövrdə dövlət maliyyəsinin idarəedilməsi keyfiyyətinin yüksəldilməsi, büdcə riskləri, risk əsaslı nəzarət və audit sisteminin formalaşdırılması problemlərinin aktuallığı əhəmiyyətli şəkildə artmışdır. Bunu "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramının", Azərbaycan Respublikasının Vahid Büdcə Təsnifatına uyğun olaraq büdcə xərclərinin iqtisadi təsnifatı üzrə ayrılmış vəsaitlərin istifadəsinin İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən maliyyə hesabatlarını tərtib edən dövlət büdcəsindən maliyyələşən təşkilatlar üçün Hesablar Planının müvafiq hesablarında və subhesablarında əks etdirilməsi qaydası qəbul edilməsi bir daha sübut edir.

Beləliklə, ölkə daxilində dövlət maliyyəsinin idarə edilməsi keyfiyyətinin yüksəldilməsi üçün şəraitin yaradılması ilə yanaşı beynəlxalq qaydalara və tələblərə yaxınlaşma konsolidə edilmiş mühasibat hesabatının digər dövlətlərin hesabatları ilə müqayisəliliyini, beynəlxalq təşkilatlar üçün onun şəffaflığını təmin edir ki, bu da nəticə etibarilə Azərbaycanın beynəlxalq arenada investisiya cəlbediciliyinin artmasına və onun dünya iqtisadiyyatına daha sıx və dərin inteqrasiyasına gətirib çıxarır.

## Ədəbiyyat siyahısı:

1."2018-2020-ci illərdə Azərbaycan Respublikasinda rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqrami, 26 sentyabr 2018-ci il, 83 s.

2.Azərbaycan Respublikasının Vahid Büdcə Təsnifatına uyğun olaraq büdcə xərclərinin iqtisadi təsnifatı üzrə ayrılmış vəsaitlərin istifadəsinin İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən maliyyə hesabatlarını tərtib edən dövlət büdcəsindən maliyyələşən təşkilatlar üçün Hesablar Planının müvafiq hesablarında və subhesablarında əks etdirilməsi qaydası, 10 mart, 2020.

3. Рожнова О. В. Гармонизация учета, аудита и анализа в условиях цифровой экономики, Учет. Анализ, Аудит, № 3, 2018, стр. 16-23.

4.Будович Ю.И. Цифровизация корпоративного учета // Человеческий капитал в формате цифровой экономики. Москва, 2018. стр. 117-125.

*İsmayılov Elşən Ellaz oğlu, doktorant,*
*Bakı Biznes Universiteti*

## AQROPARKLARIN FORMALAŞDIRILMASININ REGİONLARIN MÜASİRLƏŞMƏSİNƏ TƏSİRİ

Respublikamızın Prezidenti İlham Əliyevin aqrar sahədə müasir texnologiyaların tətbiq olunması ilə bağlı tapşırığına uyğun olaraq respublikamızda aqroparkların yaradılması geniş vüsət almışdır. Hal-hazırda dövlət dəstəyi ilə respublikamızın 30 rayonu üzrə 191,8 min hektar ərazidə ümumi dəyəri 1,4 milyard manat olan 45 aqroparkın təşkili nəzərdə tutulub ki, artıq onlardan 4-ündə (Xaçmaz (“Yalama Aqropark”), Şəmkir (“Şəmkir Aqropark”), Cəlilabad (“Günəşli -Aqro” MMC) və Goranboy (“Region Agropark”) rayonlarında birinci mərhələ üzrə işlər başa çatdırılıb. İndiyə qədər dövlət dəstəyi hesabına aqroparkların yaradılması üçün ümumilikdə 311,8 milyon manat, o cümlədən su, qaz, elektrik və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 204,2 milyon manat dövlət əsaslı investisiya qoyulub.

Qeyd etmək lazımdır ki, cənab İlham Əliyev həmin aqroparkların hər birinin açılışında iştirak edib, iştirakçılarla görüşüb və öz tövsiyələrini verib. Bu isə ölkə rəhbərinin müasir standartlara cavab verən belə aqrar müəssisələrə çox böyük əhəmiyyət verməsini sübut edir.

Sözsüz ki, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edəcək bu aqroparkların yaradılması nəticəsində kənd təsərrüfatı məhsullarımızın istehsalı böyük həcmdə artacaq. Bununla da ölkə qarşısında duran əsas vəzifələrdən biri ərzaq təhlükəsizliyi məsələsi öz həllini tapacaqdır. Prezident İlham Əliyevin Goranboy rayonunda “Region Agropark”ın açılışında dediyi kimi, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışını bütünlükdə bir zəncir kimi özündə birləşdirən və kənd təsərrüfatı məhsullarının torpaqdan istehlakçının süfrəsinədək bütün mərhələləri əhatə edən, həmçinin uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş torpaqları yenidən dövriyyəyə qaytaran bu aqroparklar həm də regionlarda yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq.

Qeyd etmək lazımdır ki, həmin aqroparkların bir üstünlüyü də ondan ibarətdir ki, onlarda ən son müasir texnologiyalar tətbiq olunur, həmçinin müasir suvarma texnologiyaları və sistemləri quraşdırılır. Cənab İlham Əliyev kənd təsərrüfatı məhsullarının müasir innovasiya və elmi əsaslarla istehsalını yüksək dəyərləndirərək demişdir: “Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq. Bir daha deyirəm ki, dünyanın bir nömrəli şirkətinin texnikası bu gün Goranboydadır, ölkəmizin hər bir yerindədir. Biz son illər ərzində kənd təsərrüfatı üçün minlərlə texnika almışıq və yenə də alacağıq”.

Gördüyümüz kimi, aqroparkların texnika ilə təchizatına xüsusi diqqət yetirilməkdədir. Belə ki, “Aqrolizinq” ASC-dən uzunmüddətli lizinq əsasında Amerika istehsalı olan 20 adda 41 “John Deere” və Türkiyə istehsalı olan müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınaraq istehsal prosesinə cəlb edilib. 2 min hektar sahədə 24 ədəd müasir pivot suvarma sistemi quraşdırılıb. İkinci mərhələdə isə 2700 hektar sahədə 31 pivot suvarma sisteminin quraşdırılması üçün layihə hazırlanıb.

Bütün bunlar isə o deməkdir ki, kifayət qədər maliyyə resurslarına malik olan ölkəmiz bu gün bütövlükdə aqrar sahəni müasirləşdirir. Təbii ki, bu modernləşdirmə inkişafın əsas istiqaməti kimi aqrar sahənin təkcə tərkib elementlərinin deyil, həmçinin onun daxili harmoniyasının müasirləşməsinə də xidmət edir. Görülən bu işlər aqrar sahənin dinamik inkişafında mühüm rol oynayır və Azərbaycan iqtisadiyyatına yeni nəfəs gətirir. Əlbəttə, aqroparkların fəaliyyətinin bu şəkildə qurulması cənab Prezidentin ölkəmizin aqrar sektorunda apardığı uğurlu siyasətinin təzahürüdür, onun göstəricisidir.

Aqroparklar həm də hər bir bölgənin infrastukturuna yeni töhfələr əlavə edir. Məsələn, elə Goranboy rayonunda "Region Agropark"ın açılışı günündə 15 məntəqəni birləşdirən Dəliməmmədli-Muzdurlar-Qırıqlı və 5 məntəqəni birləşdirən Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolları, həmçinin Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin, eləcə də hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə "Dəliməmmədli" yarımstansiyası istifadəyə verilib. Bu kimi işlər aqropark yaradılan digər rayonlarda da həyata keçirilib. Bütün bunlar isə həmin rayonların iqtisadi potensiallarının möhkəmlənməsində bu aqroparkların daha önəmli rolundan xəbər verir. Bir sözlə, bu cür aqroparkların yaradılması bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aqrar sahənin inkişafı istiqamətində görülən işlər, dövlətimizin başçısının bu sahənin təkmilləşdirilməsi və müasirləşdirilməsi üçün qəbul etdiyi qərarlar ölkəmizin hərtərəfli inkişafına yeni stimul verir.

*Бабаев Эльчин Ровшан оглу, докторант,*
*Азербайджанский Государственный*
*Экономический Университет*

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ УЧЕТА И АНАЛИЗА ЛИЗИНГА В АЗЕРБАЙДЖАНЕ

До начала 60-х годов XX-го века лизинг в зарубежных странах в основном затрагивал розничные компании, которые часто арендовали свои помещения. В течение последних трех десятилетий популярность лизинга резко возросла; вместо того чтобы занимать деньги для покупки компьютера, автомобиля, судна или спутника, компания может взять его в лизинг. Рыночные преобразования в экономике Азербайджана, необходимость ускорения научно-технического прогресса, подъема различных отраслей экономики, в том числе, оборонно-промышленного комплекса в условиях резкого ограничения финансовых средств, все это требует поиска и внедрения новых методов обновления основных фондов. Одним из таких нетрадиционных и достаточно эффективных финансовых инструментов служит лизинг, представляющий собой альтернативу традиционным формам инвестирования. Широкое распространение лизинговых операций, во многих странах мира, в том числе в сфере международного сотрудничества, различия в правовом регулировании договора лизинга обусловили необходимость унификации правил о международном лизинге, что привело к разработке пред-

ставителями разных государств в рамках международного института по унификации частного права. Началом правового регулирования лизинга в Азербайджане можно считать 1994 год, когда был принят Указ Президента от 17 сентября 1994 года №1929 «О развитии финансового лизинга в инвестиционной деятельности».

Для привлечения финансового капитала к лизинговым операциям, помимо создания законодательной и нормативной базы, необходимо обеспечить благоприятные условия в налоговой системе.

Одними из главных экономических рычагов, позволивших лизингу получить широкое распространение за рубежом и стать привлекательным видом бизнеса, являются налоговые и амортизационные льготы. Зарубежная практика показывает, чем больше налоговых льгот, тем быстрее развивается лизинг.

Стремительное развитие лизинга в Азербайджане началось в 2003 году с началом реализации проекта по развитию лизинга Международной финансовой корпорацией (IFC). В результате плодотворного сотрудничества представителей проекта и правительственных органов, была усовершенствована законодательная база, регулирующая лизинговую деятельность в Азербайджане, создан более благоприятный налоговый режим, улучшилась осведомлённость общественности о лизинговых услугах.

Уже более 15 лет международные финансовые институты, такие, к примеру, как Европейский банк реконструкции и развития (ЕБРР), Всемирный Банк (ВБ) и т.д., реализуют различные программы, нацеленные на становление и развитие финансовых рынков стран бывшего постсоветского пространства. Одной из главных ветвей этого сектора является лизинг, для развития которого наибольшую активность проявляет Международная финансовая корпорация (МФК, структура ВБ). Дело в том, что основной задачей института является привлечение иностранных инвестиций в частный сектор стран на этапе перехода на рыночные отношения во имя снижения уровня бедности и улучшения условий жизни людей.

Три года назад для Азербайджана и стран Центральной Азии МФК начала реализацию проекта технической помощи развитию лизинговой деятельности. Первая фаза проекта, начатого в мае 2003 года, завершилась. Дальнейшие этапы будут реализовываться за счет сэкономленных средств, выделенных Госсекретариатом по экономическим связям Швейцарии (Seco) для первой фазы в размере $1,3 млн.

Кроме того, в течение года предполагается проанализировать действующее состояние налогового законодательства и дать предложения по дальнейшему его усовершенствованию. Первые его обсуждения прошли в комиссии по экономической политике парламента при участии представителей Министерства Экономического Развития, Министерства Финансов, Министерства Налогов. Парламентская комиссия по экономической политике поддержала предложения Ассоциации лизинговых компаний Азербайджана в области налогообложения лизинговой деятельности. «Действительно, если мы хотим развивать предпринимательство, регионы, обеспечить приток инвестиций, укрепить материально-техническую базу нашей экономики, должны использовать еще один инструмент – ли-

зинг. Мы анализировали состояние лизинговой деятельности во многих странах бывшего Советского Союза, законотворчество в этой сфере и пришли к выводу, что у нас есть возможности для улучшения показателей в этом секторе. Сегодня в Азербайджане доля лизинга в ВВП составляет не более 0,2%, что является очень низким показателем. В стране есть реальные возможности путем совершенствования законотворчества, определения конкретных видов оборудования, которые в перспективе могут быть освобождены от НДС, создать хороший налоговый климат для развития лизинга. Предполагаем, что мы найдем консенсус по этим вопросам. Конкретные виды оборудования, которые способствуют развитию новых рабочих мест, создают возможности эффективно использовать сырьевые ресурсы, повышают интеллектуальный уровень промышленного производства, могут быть освобождены от НДС», - отметил Председатель Комитета по экономической политике Милли Меджлиса Азербайджана Зияд Самедзаде.

Надо отметить, что с момента начала реализации проекта в 2003 году в Гражданский Кодекс Азербайджана уже внесены 18 изменений. До тех пор правовые основы, регулирующие лизинговую деятельность в Азербайджане, были определены законом «О лизинговой службе», действующим с 1994 года. На пространстве СНГ Азербайджан был единственной страной, где был принят такой Закон, в котором содержались преференции для лизинговой деятельности. Но с вступлением в силу Налогового Кодекса Азербайджанской Республики, они были ликвидированы, в результате чего увеличилась потребность лизинговых компаний в банковских кредитах.

Среди основных проблем, с которыми сегодня сталкиваются азербайджанские лизинговые компании, остаются несовершенство бухгалтерского учета, налоговой системы, ликвидация ускоренной амортизации, ограничения в деятельности.

За время реализации лизинговой программы оборот компаний в Азербайджане увеличился - с $500 тыс. до $39,4 млн. Международные эксперты прогнозируют рост лизингового рынка в регионе в течение 5-6 лет до $500 млн.

Ежегодный прирост на рынке лизинговых услуг Азербайджана в среднем составляет 25-30% и уже достиг объема в $39,4 млн. при общем количестве проектов в 471. При этом портфель диверсифицирован следующим образом: 34% - транспорт, 21% - строительство, 12% - сельское хозяйство, 6% - гражданское строительство, 5% - финансовый сектор, страхование, 4% - производство продуктов питания, 3% - медицина, по 2% - оптовая торговля, туризм и сфера услуг, по 1% - производство и горнорудная промышленность и т.д.

Сегодня основную лизинговую деятельность осуществляют компании, которые являются членами Ассоциации лизинговых компании Азербайджана «AGLeasing», «AtaLizinq», «Unileasing», «Joint Leasing», «Qafqaz Leasing», «CredAqro», «Bank of Baku», «DemirBank» .

С увеличением оборотов на этом финансовом рынке стали появляться такие новые сегменты, как производственное оборудование. Ранее потребность в лизинге была только в секторе строительства и транспорта. Между тем одной из главных проблем у лизинговых компаний продолжает оставаться нехватка финансовых ресурсов. В этой связи компании вынуждены обращаться в международные финансовые институты, в частности в МФК, за кредитами.

Отметим, что проект развития лизинга МФК является частью большого проекта стоимостью 7 млн. швейцарских франков ($30 млн.), которые будут переданы участвующим в программе финансовым организациям для финансирования лизинговых услуг малых и средних предприятий. Проект направлен на улучшение делового климата посредством устранения сложных нормативно-правовых препятствий, которые мешают развитию лизинга. На организационном уровне он преследует цель создания материально-технической базы и укрепления системы внутри отдельных финансовых организаций.

Основными критериями подбора объектов финансирования являются для МФК прозрачность и корпоративное финансовое управление, налоговая прочность компании или банка, осуществляющего и лизинговые операции, более эффективное применение основ лизинга и наличие человеческих ресурсов, обеспечивающих прибыль, приверженность финансированию малого и среднего предпринимательства и наличие потенциальных объектов для формирования лизингового портфеля.

По словам представителя Финансовой корпорации в Азербайджане Алии Азимовой, за счет средств специального фонда МФК пока выделены два кредита на $15 млн. - азербайджанскому и казахстанскому банкам. Кстати, в Азербайджане первополучателем кредита МФК на лизинг в объеме $5 млн. стал Uni-Bank. В настоящее время ведутся переговоры еще с 3-4 компаниями.

В настоящее время средняя стоимость лизинговых операций составляет $50 тыс., срок предоставления в лизинг - 36 месяцев, процентные ставки - 20% годовых и авансовые платежи - на уровне 15-20%. Если 1,5-2 года назад сделки на срок более трех лет были довольно редки (в основном давались сроком на год), то теперь договоры на 5 лет стали обычным явлением. Прежде всего это обусловлено ростом доверия к лизинговым компаниям со стороны инвесторов.

На сегодня в целом по стране ставки лизингового кредитования для юридических лиц колеблются от 16 до 18% годовых, а для физических лиц порой доходят до 30% годовых. Минимальная сумма первоначального платежа по лизингу должна быть не менее 15%, а у некоторых компаний эти рамки определены на уровне 30-50%.

Кроме того, с целью привлечения средств для финансирования азербайджанские лизинговые компании по опыту других стран начали проявлять интерес к эмиссии облигаций. Первым их уже выпустил «AtaLizinq». Наиболее распространенной практикой является эмиссия векселей. Она позволяет выстраивать среднесрочные ресурсы для финансирования сделок из серии коротких заимствований (векселя используются для расчетов с аффилированными компаниями). На Западе финансовые и лизинговые компании выпускают больше векселей, чем любая другая отрасль.

Повышение ставок по лизингу еще объясняется тем, что лизинговые компании либо уже использовали или практически использовали собственные средства. В этой связи им потребуется привлечение средств от кредитных организаций, что увеличит ставки на процент, под который получаются привлеченные средства.

Однако лизинговый сектор Азербайджана представлен не только коммерческими компаниями. В Азербайджане приступила к деятельности первая лизин-

говая компания со 100-процентным участием государственного капитала ОАО «Агролизинг». ОАО «Агролизинг» создано 23 октября 2004 года. В настоящее время оно находится на балансе Министерства Сельского Хозяйства. Деятельность предприятия нацелена на улучшение аграрной сферы и поддержку предпринимательства в Азербайджане путем приобретения и выдачи в лизинг местным землевладельцам различной сельскохозяйственной техники.

ОАО «Агролизинг» будет предоставлять 40-процентную скидку при приобретении в лизинг оросительных систем и оборудования. Это предусматривают изменения, внесенные в соответствующее решение Кабинета Министров Азербайджана. Согласно изменениям, физические и юридические лица смогут получить 40-процентную скидку при внесении 20-процентного аванса при покупке у ОАО «Агролизинг» оросительных систем и оборудования в лизинг, 40-процентная скидка предоставляется за счет средств государственного бюджета страны.

Для стимулирования же инвестиций в производственную сферу, и повышения конкурентоспособности отечественных производителей лизинговые отношения необходимо развивать. Однако для этого нужно создать соответствующие условия в Налоговом Кодексе. Но уже сегодня есть все основания для того, чтобы с уверенностью сказать, что лизинг в нашей стране постепенно будет наращивать свои обороты и играть все более весомую роль в экономике Азербайджана.

*Nigar Rahman Huseynova, Ph.D. Student,*
*Baku Business University*

## THE DIRECTIONS OF INCREASING THE PRODUCTS OF THE FOOD INDUSTRY IN THE PERIOD OF TECHNOLOGICAL DEVELOPMENT

The economic situation of each state depends on its scientific and technical development. The main goal of scientific and technological progress is  is acceleration the production of high quality products with using minimum material, labor and financial resources. The economic and scientific-technical goals of the entrepreneur and the state overlap, so here the main goal is to fully and comprehensively meeting the needs of all members of society. The constant need of members of society is primarily due to the constant changes in their lifestyle. Science, technology and technology of production of material goods play an important role here. The quality of the products is the basis for the stable and harmonious operation of production facilities, increasing the competitiveness of products.

At the same time, ensuring the quality of products is possible only with a high level of organization of production, high quality of raw materials and high professionalism of industrial and production staff.

Provision of each production with raw materials and supplies depends on the organization of the raw material base and infrastructure. Shortcomings in the operation of each infrastructure have an immediate negative impact on the relevant area, its normal operation and development. Research shows that the creation of infrastructure elements in various industries is of particular importance for the logistics of enterprises, the development of intended products and their delivery to consumers. Of

course, it is impossible to create normal production without infrastructure elements.

Without the necessary infrastructure elements, it is impossible to achieve the required quality and quantity of products, the efficient operation of light industry as a whole.

Expansion of infrastructure development, including scientific and technological progress in a market economy, is characterized by new qualitative changes in the location of productive forces in the country.

Research shows that the development of ancillary processing industries in the production infrastructure plays an important role in the socio-economic development of the country. The role of information support and consulting services in the development of industrial infrastructure in modern times is very large.

In order to expand the raw material base of the food industry, it is important to take measures in certain areas in order to improve the production structure of agricultural sectors and increase production:

- Expanding the application of intensive methods in the production of agricultural units;
- Development and implementation of relevant measures with the private sector for the implementation of the rotation system in the production of crop products in accordance with local conditions;
- Determining the optimal sowing structure and production volume of agricultural crops by regions;
- Creation of large grain farms;
- Expansion of sowing areas of table and technical grape varieties, planting of new vineyards;
- Stimulation of development of animal feed base on the basis of intensive technologies;
- Implementation of other necessary measures to increase the sown area, productivity of fodder crops and expand the production of mixed fodder;
- Expansion of fodder crops;
- Sown areas of soybeans, which form the basis of poultry feed expansion.
- Exploring the possibility of organizing local production of mineral fertilizers.
- Expansion of the activities of private seed and seedling farms, stimulation of the application of advanced technologies in this field;
- Private seed production for the production of original, super elite and elite seeds support implementation on farms;
- Establishment of a certification system in the field of private seed production;
- Training of specialists to control the quality of seeds and sowing, modernization of seed laboratories.
- Support to increase the production of competitive products of agricultural processing enterprises;
- Continue to support the establishment of small-scale processing enterprises in rural areas, especially the perishable fruit and vegetable processing network;
- Supporting the establishment of associations, societies, unions for the supply, sale and processing of agricultural products;
- Development of livestock and its fodder base in the country by intensive methods;

- Creation of intensive private meat farms;

- Creation of conditions for import of sex goods to the country, their cultivation on specialized farms;

- Supporting the import of pedigree animals from foreign countries and their transfer to private and state breeding agricultural enterprises;

- Supporting the establishment of breeding bee farms;

- Strengthening the material and technical base of state breeding farms;

- Creation of meat and dairy processing enterprises that meet modern requirements to increase the production of meat and dairy products;

- Breeding poultry to further develop poultry farming in the country farms and breeding materials should be stimulated.

In order to accelerate the development of light industry, increase productivity and expand the raw material base:

-Increase of productive seed varieties, irrigation systems improvement;

- Economic and technological improvement of the processing industry;

- Light on the basis of local raw materials (cotton, wool, silk, leather) in the country

-Taking into account the demand for industrial products and supporting the activities of existing industrial enterprises producing export-oriented products;

- Establishment of product supply, storage, packaging, transportation, marketing, agro-service systems, veterinary, breeding service network in accordance with the new economic conditions.

- Stimulating the implementation of investment projects based on modern technology to expand the production of clothing and other consumer goods in the light and textile industries and improve their quality;

- Expanding the production of hand-woven carpets, supporting the activities of enterprises operating in this field.

As a result, it can be concluded that not all products (raw materials) produced in the agricultural sector of Azerbaijan are delivered to primary and secondary processing enterprises - processed or sold as semi-finished products. So the expansion of the raw material base of the food and light industry in Azerbaijan depends on the integration of the sector with agriculture.

*Əliyev İlkin Rafael oğlu, doktorant,*
*Bakı Biznes Universiteti*

## RƏQƏMSAL İQTİSADİYYAT VƏ AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATA KEÇİD

XX əsrin sonları XXI əsrin əvvəllərindən etibarən informasiya kommunikasiya texnologiyalarından, şəbəkə texnologiyalarından istifadənin daha da genişlənməsi rəqəmsal vasitələrdən daha da çox istifadə olunmasına səbəb olmuşdur. Böyük həcmli informasiya materiallarının ötürülməsi üçün qısa bir müddətdə yeni nəsil multimediya vasitələri yarandı. Onlar geniş şəkildə tətbiq olunmağa başladı. Və zaman keçdikcə bütün bu dəyişikliklər öz təsirini iqtisadiyyata da aid etməyə başladı. Şəbəkə texnolo-

giyalarından istifadə nəticəsində iqtisadi əlaqələrin qurulması, lokal və qlobal şəbəkələrdən istifadə, iri müəssisələrdə korporativ şəbəkə və sistemlərin yaranması baş verdi bu kimi məsələlər iqtisadiyyatın bir sahəsi olan rəqəmsal iqtisadiyyatın yaranmasına səbəb oldu. Rəqəmsal iqtisadiyyat rəqəmli hesablama texnologiyalarına əsaslanan iqtisadiyyat sahəsi hesab olunur və bəzən onu internet iqtisadiyyat və ya yeni iqtisadiyyat adlandırırlar. Rəqəmsal iqtisadiyyat termini 1997-ci ildə Don Tapscottun ”Rəqəmsal iqtisadiyyat: şəbəkə intellektinin mənfi cəhətləri və üstünlükləri”(“The Digital Economy: Promise and Peril in the Age of Networked Intelligence”) kitabında işlədilmişdir. Rəqəmsal iqtisadiyyat adlanan bu kitabda internet vasitəsilə kommersiyanı dəyişdirməyin yolu göstərilmişdir.

Thomas Mesenbourgubun fikirlərinə əsaslanaraq deyə bilərik ki, “Rəqəmsal iqtisadiyyat” konsepsiyasını aşağıdakı 3 komponentlə eyniləşdirmək olar:

- İnfrastrukturun dəstəklənməsi (kompüter avadanlığı, proqram təminatı, telekommunikasiya, şəbəkə və s.);
- E-biznes (təşkilat hər bir prosesi kompüter şəbəkələri üzərindən aparır);
- E-kommersiya (malların transferi, məsələn onlayn kitab satışı və s.).

Lakin Bill İmlahın şərhində bu sərhədlər daha da genişləndirilir. O buraya başqa komponentləri məsələn, sosial media və internetdə axtarışı da əlavə edərək mürəkkəbliyi artırır. Bu yeni iqtisadiyyatda rəqəmsal şəbəkə və rabitə infrastrukturu qlobal platforma üzərində insanlar və təşkilatlar üçün strategiyalar hazırlamağa, əməkdaşlıq etməyə, ünsiyyət yaratmağa, informasiya axtarışına və s. imkan verir.

Rəqəmsal iqtisadiyyatın yaranması əvvəldə də vurğuladığımız kimi ənənəvi iqtisadiyyatda dəyişikliklərin baş verməsinə səbəb oldu. Klassik yəni, ənənəvi iqtisadiyyatda kapital maddi formada qəbul edilirdisə zaman keçdikcə artıq iqtisadiyyatda pulun rolu daha da möhkəmləndi və kapitalı pul formasında qəbul etməyə başladılar. Nəticədə məhz pul kütləsi vasitəsilə əmək alətləri və vasitələrini əldə etmək mümkün olurdu. Rəqəmsal iqtisadiyyatın meydana gəlməsi nəticəsində isə əsas təyinedici rol, funksiya informasiyaya verildi. Beləliklə informasiya kapitalı meydana gəldi.

Dünya iqtisadiyyatına nəzər yetirdiyimiz zaman iqtisadiyyatın hər il daha da rəqəmsallaşdığını, nağdsız ödənişlərin daha da artdığını görə bilərik. Lakin ölkəmizdə ödənişləri və ya iqtisadiyyatın rəqəmsallaşdırılma sürətinə baxarsaq inkişaf etmiş ölkələrin rəqəmsallaşma sürətindən bir qədər geri qaldığını görə bilərik. Belə ki, nağd pul kütləsinin həcminin ümumi dövriyyədə olan pay nisbəti inkişaf etmiş ölkələrdə 7-8% təşkil etdiyini görsək də, bu göstərici ölkəmizdə 90%-dən çoxdur. Elektron ödənişlərin tətbiqi, nağdsız ödənişlərin illər ərzində stimullaşdırıldığı ABŞ və Avrozona iqtisadiyyatı bu göstəriciyə illər ərzində nail olmuşdur.

Ölkəmizdə nağdsız əməliyyatların stimullaşdırılması, daha da genişləndirilməsi məqsədi ilə bir sıra inkişaf etmiş ölkələrin təcrübələrində istifadə olunur. Belə ki, nağdsız əməliyyatlar zamanı bir sıra vergi güzəştlərinin olması nağdsız əməliyyatların əvvəlki illərə nisbəti müəyyən səviyyəyə yüksəlməsinə səbəb olmuşdur.

Müəssisə və təşkilatlarda nağdsız əməliyyatların genişləndirilməsi müəssisənin nağd pul vəsaitlərinin yoxlanılması, daşınması və saxlanılması kimi xərclərdən azad olmasına səbəb olur.

Ölkəmizdə də informasiya-kommunikasiya texnologiyalarının inkişaf potensialının artırılması, iqtisadiyyatın daha da rəqəmsallaşdırılması, dövlət sektorunun İKT-nin

tətbiqinin genişləndirlməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 saylı Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya və telekomunikasiya texnologiyalarının" inkişafına dair "Strateji yol xəritəsi" hazırlanmışdır.

İnformasiya kommunikasiya texnologiyalarının daha da təkmilləşdirilməsi məqsədi ilə Strateji yol xəritəsində 2020-ci islədək olan taktiki baxış və tədbirlər planı, 2020-2025-ci illər əhatə edən uzunmüddətli baxış, 2025-ci ildən sonrakı dövrləri əhatə edən baxışlardan ibarətdir.

Ölkədə nağdsız ödənişlərin stimullaşdırılması üçün atılmalı olan digər bir addım da banklarda müştərilərə təklif olunan plastik kartların qiymətlərində bir sıra güzəştlərin olmasıdır. Bununla yanaşı əhali arasında nağdsız əməliyyatların rahatlığı və təhlükəsizliyinin artırılması istiqamətində maarifləndirilmə işləri həyata keçirilməlidir. Belə ki, əhalinin ticarət zamanı nağdsız ödənişlər əvəzinə nağd ödəniş üsulunu seçməsinin bir neçə səbəbi vardır ki, bunlarda biri də nağd ödənişin istehlakçılara daha rahat gəlməsidir. Həmçinin nağdsız ödənişlər zamanı hər hansı bir əlavə güzəştin təklif olunmaması, vergi azadolmalarının olmaması nağdsız ödənişlərin rəqabətdə geri qalmasına səbəb olur.

Rəqəmsal iqtisadiyyatın bütün ölkə ərazisində vahid qaydada tərtib olunması kölgə iqtisadiyyatının da qarşısının alınmasına, iqtisadiyyatın şəffaflığın tam formada təmin edilməsinə səbəb olacaqdır.

İqtisadiyyatın rəqəmsallaşdırılmasının bir qismini də məhz elektron ticarət təşkil edir. Son bir neçə ildə ölkədə elektron ticarətin daha da genişləndirilməsi üçün bir sıra addımlar atılmışdır ki, bu addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 21 sentyabr 2016-cı il tarixli 2349 nömrəli sərəncamı ilə yaradılmış www.azeexport.az istifadəçilərin xarici və daxili bazarlara çıxışının təşkil edən portalın yaradılması olmuşdur. Belə ki, bu portalın yaradılması zamanı dünya şöhrətli Alibaba, Amazon kimi ticarət saytları, TNT, DHL kimi lojistik şirkətlər ilə təfərdaşlıq edilmişdir. Həmçinin elektron ticarət zamanı ticarətin təhlükəsizliyi yüksək səviyyədə təmin edilmişir.

Dünya ölkərində pərakəndə ticarətdə electron ticarətin xüsusi payına baxdığımız zaman 2016-cı ildə bu rəqəmin 0.2%, 2020-ci ildə isə 5% olduğunu görə bilərik. Halbuki bu faiz dərəcəsi üçün potensial faiz 7-nin üzərində ola bilərdi. Həmçinin onu da qeyd edə bilərik ki, ölkəmizdə aparılan elektron ticarətin yalnızca 5%-ə qədəri ölkə daxili, 95%-i isə ABŞ, Avropa və Türkiyə başda olmaqda digər ölkələrin payına düşür.

Rəqəmsal iqtisadiyyatın ənənəvi iqtisadiyyatdan bir sıra fərqli və üstün cəhətləri vardır. Bunlardan ən əsası ondan ibarətdir ki, burada məhsul, daha doğrusu informasiya məhsulu, yəni kapitalı hərəkətdə və dövriyyədə ənənəvi iqtisadiyyata nisbətən daha aktivdir. Yüksək texnologiyanın tətbiq edilməsi və qlobal əlaqələrin mövcud olması qısa zamanda məhsulun istehsalının həyata keçirilməsini təmin edir. Başqa sözlə, məhsulun satışı üçün bazarın axtarılması və seçilməsi, satışa görə ödəmələrin gecikdirilmədən həyata keçirilməsi, o cümlədən yeni növ və çeşidlərin müəyyənləşdirilməsi və alıcıya təklif olunması, rəqabətin gedişatının daimi olaraq nəzarətdə saxlanılması mümkündür. Rəqəmsal iqtisadiyyat texnologiyaların təminatı baxımından böyük xərclərin və genişmiqyaslı əlaqələrin qurulmasını tələb etməsinə baxmayaraq əhatə dairəsi və fəaliyyət zonasına görə çox geniş ərazini tutur. Ənənəvi iqtisadiyyatda isə indiki dövrdə mövcud olan ən əsas problemlərə bunlar daxildir: məhsulun saxlanması, qablaşdırılması, düzgün marketinq, reklamın təşkili, sifarişçiyə məhsulun vaxtında çatdırılması

və s. Ənənəvi iqtisadiyyatla müqayisədə rəqəmsal iqtisadiyyatda bu problemlərin əksəriyyəti çox aşağı səviyyədədir. Beləliklə, rəqəmsal iqtisadiyyatda inkişaf prosesi, yeni layihələrin hazırlanması, istehlakçı ilə birbaşa əlaqələrin yaradılması, məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin sifarişçinin istəklərinə uyğun olması daha effektiv şəkildə həyata keçirmək mümkündür.

Bütün bu üstünlüklərə baxmayaraq rəqəmsal iqtisadiyyat dünya səviyyəsində elə də geniş yayılmamışdır. Bunun isə başlıca səbəbi rəqəmsal iqtisadiyyatın yaranmasında başlıca rol oynayan İKT-nin müxtəlif ölkələrdəki inkişaf səviyyəsində mövcud olan fərqlərlə əlaqədardır. Digər tərəfdən rəqəmsal iqtisadiyyatın bir sıra çatışmamazlıqları da onun dünya miqyasında geniş yayılmasına mane olur.

Rəqəmsal iqtisadiyyat müxtəlif iqtisadi sahələrin qarşılıqlı əlaqəli inkişafı əsasında yaranmış informasiya iqtisadiyyatının inkişafında da mühüm rol oynayır. Beləliklə məhz bu cür qarşılıqlı inkişaf müasir informasiya cəmiyyətinin formalaşmasının əsasını təşkil edir.

Rəqəmsal iqtisadiyyat inkişaf etmiş dünya ölkələrində həmçinin adi məişət proseslərinin və müxtəlif xidmətlərin həyata keçirilməsində də mühüm rol oynayır. Buraya məhsulların satışı və xidmətlərin göstərməsinin pərakəndə şəkildə həyata keçirilməsini və s. daxildir. Bundan başqa iri market və ticarət mərkəzlərindən malların alınması, onların sifarişçiyə çatdırılması, ödənişlərin həyata keçirilməsi, müxtəlif kommunal xidmətlərin, tibbi, səhiyyə xidmətlərinin göstərilməsi, təhsil və tədrisdə, iş axtarışında, müxtəlif məlumatların əldə olunmasını və s. qeyd etmək olar. Rəqəmsal iqtisadiyyatı ənənəvi iqtisadiyyatdan fərqləndirən cəhətlərdən biri də istehsalda proqnozların verilməsi, gələcək planlaşdırma, tələb və təklif arasındakı asılılıq və münasibətlərin araşdırılması prosesində təkcə müəssisənin özü iştirak etmir. Burada müxtəlif şirkətlərin, institutların, fərdlərin birbaşa iştirakı mümkündür. Belə ki, bütün bunlar bir sıra problemlərin yaranmasına əsas verir. Bu problemlər məsələlərin həllinə aidiyyatı olmayanların yersiz müdaxiləsi, ümumi şəbəkədə əmələ gələn xaos və s. nəticəsində yaranır.

Rəqəmsal iqtisadiyyatın malik olduğu bu üstünlükləri müasir dövrdə idarəetmədə, biznesin təşkilində, baş müəssisə ilə onun tabeçiliyində olan müəssisələr arasındakı münasibətlərin qurulmasında, yeni istehsal sahələrinin açılmasında effektivliyi təmin edir.

Əgər rəqəmsal texnologiyaların mövcud olan üstünlükləri və imkanları məqsədəuyğun, düzgün şəkildə istifadə edilərsə, bu cəmiyyətdə hərtərəfli tarazlığın yaranmasına şərait yaradar. Rəqəmsal iqtisadiyyatın əhatə dairəsinin genişlənməsi, onun daha çox dünya ölkələrini əhatə etməsi rəqəmsal fəzanın istifadəsi səviyyəsindən asılıdır.

Rəqəmsal imkanlar müasir dövrdəki sənayesində, müxtəlif festivalların, toplantıların keçirilməsində, böyük idman yarışlarının təşkilində, konfransların, beynəlxalq görüşlərin keçirilməsində, dünyəvi problemlərin həllində, ümumdünya məlumatlarının çatdırılmasında böyük rola malikdir. Beləliklə bu texnologiyaların tətbiqi idman, incəsənət, turizm və s. sahələrdə yeni gəlir gətirən sahələrin açılmasına, böyük həcmdə investisiya qoyuluşlarına, dünya miqyasında reklamların təşkilinə o cümlədən, bu işdən külli miqdarda gəlir əldə olunmasına şərait yaratmaqdadır.

Elektron ticarətin daha da genişləndirilməsi təkcə sahibkarların üzərinə düşmür. Bu işdə dövlət də bir başa olaraq sahibkarlara müəyyən yardımlar etməlidir. Elektron

ticarətin ənənəvi ticarətdən bir sıra üstün cəhətləri vardır ki, bunlara elektron ticarətdə sahibkarlar müəssisə üçün aylıq kirayə ödənişindən, kommunal ödənişlərdən və işçi qüvvəsinin əmək haqqı ödənişlərindən azad olurlar. Elektron ticarətin həcminin genişləndirilməsi həmçinin müəssisə-bank münasibətlərinin də genişlənməsinə, "kölgə iqtisadiyyatı"-nın qarşısının müəyən qədər alınmasına səbəb olacaqdır. Müasir bazar iqtisadiyyatı şəraitində rəqəmsallaşmanın təsir etdiyi sahələrdən biri də məhz mühasibat uçotudur. Belə ki, müasir dövrün bir sıra özünəməxsus tələbləri vardır ki, bunlara qərarların qəbul edilməsi, risk faktorunun müxtəlif xarakter daşıması, operativlik və s. aid edilə bilər. Cari gündə əsaslandırılmış operativ informasiyanın olmaması, idarəetmənin səmərəliliyinin aşağı salına bilər və bu müəssisə və təşkilat üçün bir sıra itkilər ilə rastlaşa bilər. Bütün bu səbəblər də mühasibat uçotunun avtomatlaşdırılmasını zəruri edən səbəblərdəndir.

Belə ki, artıq mühasibat uçotu məlumatlarının yarıdan çoxu məhz müasir texnologiyaları vasitəsi ilə həyata keçirilir. Əldə olunmuş məlumatlar yazılı olaraq kağız sənədlər üzərində deyil, məhz informasiya olaraq "bulud texnologiya"-larında saxlanılır. Bütün bu yeniliklərin ölkəmizdə tətbiqi 2005-ci ildən etibarən həyata keçirilir və daimi olaraq təkmilləşdirilir. Bu təkmilləşdirmə zamanı bir sıra inkişaf etmiş avropa ölkələrinin təcrübəsindən istifadə edirlər.

**Ədəbiyyat siyahısı:**


1. Abbasov Ə.M., Əlizadə M.N. İnformatika və kompüterləşmənin əsasları. Bakı, 2006
2. Kərimov S.Q. İnformasiya sistemləri. Bakı, 2008
3. Elektron ticarət haqqında Azərbaycan Respublikasının qanunu 2005-ci il http://www.e-qanun.az/alpidata/framework/data/10/f_10406.htm
4. Əkbərov.M Elektron kommersiya,dərs vəsaiti 2011



*Həsənov Səbuhi Mais oğlu, doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti*


## AZƏRBAYCANDA TURİZM XİDMƏTLƏRİNİN ELEKTRON TİCARƏT VASİTƏSİ İLƏ REALLAŞDIRILMASI PERSPEKTİVLƏRİ

Turizmin iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri olmasını inkişaf etmiş ölkələrin təcrübəsindən müşahidə etmək olar. Turizmin inkişafı təkcə dövlət büdcəsinin formalaşması və ticarət balansının sabitləşməsi ilə deyil, həmçinin, onun inkişafının ölkədəki işsizliyin aradan qaldırılmasına və bütün iqtisadi fəaliyyət sahələrinə təsir göstərir. Xidmətlər sektorunun əsas tərkib hissələrindən biri olan turizm xidmətləri bir çox ölkələrin iqtisadiyyatında əhəmiyyətli rola malikdir.

Hazırki dövrdə informasiya kommunikasiya texnologiyalarının (İKT) inkişafı turizm xidmətlərinin reallaşdırılması prosesinə də təsirsiz ötüşmür. Elektron ticarətdən istifadənin əhatə dairəsinin genişlənməsi bütün sektorlarda olduğu kimi turizm sektorunda də getdikcə yayılmaqdadır və olduqca təsirlidir. Elektron ticarətin reallaşdırılması, həmçinin, ənənəvi marketinq və satış metodlarını dəyişdirməklə yanaşı satıcı və müştərilərin müxtəlif istifadə imkanlarını təmin edilməsi imkanlarını yaradır. Lakin

hər texnoloji inkişafın həyata keçirilməsində olduğu kimi elektron ticarətdən istifadənin üstünlükləri ilə bərabər çatımamazlıqıları da vardır ki, bu da yetərli uyğunlaşma təmin edə bilməyən müəssisələrin sektorda varlıqlarını davam etdirə bilməmələrinə səbəb olur.

Yeni rabitə və informasiya texnologiyaları turizm sektorunun məhsuldarlığını çox yaxından maraqlandırır. Texnoloji yeniliklər turizm müəssisələrinin keyfiyyətcə yüksək, istifadə olunması baxımından yeni və elastik xidmətlər təqdim etmələrinə kömək etməkdədirlər. Bu da Turizm xidmətlərini göstərən müəssisələr arasında rəqabət qabiliyyətinin artmasına stimul yaradır. Buna misal olaraq, biletlərin elektron formada alınması, otellərin təqdimatı və satışlar üçün internet və Web səhifələrin istifadəsi, səyahət agentliklərinin və tur operatorlarının öz internet və Web səhifələri ilə satış və reklamların həyata keçirilmələri və bənzəri fəaliyyətlər turizm marketinqi və turizm fəaliyyəti sahəsində əhəmiyyətli inkişafa nail olmalarına səbəb olmaqdadır. Elektron ticarət internetdən istifadə kimi yeni texnologiyalardan istifadənin faydaları qədər zərərlərini də özü ilə gətirir. Belə ki, innovativ dəyişiklikləri həyata keçirə bilməyən və ya lazımlı elastikliyi təmin edərək tənzimləmələri reallaşdırmanı bacarmayan turizm müəssisələri çətin vəziyyətə məruz qalmaqla bərabər və hətta fəaliyyətlərinə xitam vermə məcburiyyətində qala bilərlər.

Respublikada informasiya cəmiyyətinin formalaşmasına və inkişaf etdirilməsi dövlətin həyata keçirdiyi əsas tədbir planlarından biridir. Ölkəmizdə informasiya cəmiyyəti quruculuğunun həyata keçirilməsində ‘‘Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya’’ (2003-2012) mühüm rol oynamışdır. İnformasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etmək Milli Strategiyanın əsas məqsədini xarakterizə edir.

Milli Strategiyanın həyata keçirilməsini təmin etmək məqsədi ilə iki mərhələli dövlət proqramı həyata keçirilmişdir. Bunlar "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı” (“Elektron Azərbaycan”) və "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı”dır (“Elektron Azərbaycan”).

Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyanın müddəti bitməsi ilə ölkəmizdə informasiya cəmiyyəti quruculuğunun birinci mərhələsi başa çatmışdır. 2013-cü ildən etibarən ölkəmizdə informasiya cəmiyyəti quruculuğunun ikinci mərhələsi başlanmışdır. Bu mərhələ “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasında öz əksini tapmışdır. 2013-2020-ci illəri əhatə edən bu Konsepsiyada Azərbaycanda informasiya cəmiyyəti quruculuğu prosesinin növbəti 8 il üçün məqsədləri, istiqamətləri, vəzifələri müəyyən edilir.

Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasının təmin olunması ilə əlaqədar informasiya cəmiyyətinin hüquqi əsaslarını təşkil edən bir sıra qanunlar qəbul olunmuşdur. “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında elektron ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını, onun iştirakçılarının hüquq və vəzifələrini, habelə elektron ticarət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyəti müəyyən edir.

Elektron ticarət (e-ticarət) xidmətlərin və məhsulların elektron mühit və telekommunikasiya şəbəkələri vasitəsi ilə bazara çıxarılması, reklamının, satışının və mübadiləsinin reallaşdırılmasıdır. Elektron ticarəti müxtəlif bucaqlardan da təyin etmək müm-

kündür. Ümumi yanaşmaya görə dörd dəyişik bucaq sayıla bilər. (12) Bu yanaşmalar aşağıdakılardan ibarətdirlər:

- Əlaqə baxımından: E-ticarət məhsul, xidmət, informasiya və ödənişlərin kompüter şəbəkələrində və ya hər hansı bir elektron mühitdə reallaşdırılmasıdır.
- Fəaliyyət baxımından: E-ticarət müəssisələrin istehsal proseslərinin hərəkətinin avtomatlaşdırılması yolu ilə texnologiyanın tətbiq olunmasıdır.
- Xidmət baxımından: E-ticarət firmaların xərcləri aşağı salarkən müştərilərə təklif olunan xidmətlərin keyfiyyətini yüksəltmək və müştərilərin xidmət sürətini artırmaq istəklərini reallaşdırmağa kömək olan bir vasitədir.
- Online baxımından: E-ticarət məhsul və məlumatların internet və digər online xidmətlərin köməyi ilə alış və satışını həyata keçirir.

İnformasiya texnologiyalarının turizm sektorunda istifadəsinin son mərhələsi e-ticarətdir. E-ticarət ilə reallaşdırılacaq əməliyyatlar isə birbaşa olaraq rezervasiyadan son istehlakçıya asan ödəmə şərtləri təqdim edilməsinə və səyahət agentləri ilə tur operatorları və digər turizm məhsul və xidmət serverləri arasında müəssisədən müəssisəyə ticarətə qədər müxtəlif sahələrdə reallaşdırılmaqdadır.(12) Turizm xidmətləri üzrə ixtisaslaşmış ölkələrdə səyahət və turizm elektron ticarətdə ən sürətli inkişaf edən sektorlardan biri olaraq diqqət çəkir. Turizm sektorunda elektron ticarət nəqliyyat biletləri satışları, otel rezervasiyası və satışları, avtomobil icarəsi və səyahət ilə bağlı WEB səhifələrində reklamlar ilə reallaşdırılır. Bilet, tətil paketi və otel satışları da tur operatorlarının və səyahət agentliklərinin e-ticarət əməliyyatlarına daxildirlər. İnternet hazırda turistlərin tətil məhsulunu satın alma və ona sahib olma şəklini dəyişdirməkdədir. Qiymət, otel və ya səyahət yerinin xüsusiyyətləri haqqında məlumatların əldə edilməsi və müqayisələrin aparılması üçün internetdən istifadə xidmətlərdən istifadə edənlərin sayının sürətlə artımına şərait yarada bilər.

Azərbaycanda turizm xidmətlərinin reallaşdırılması zamanı elektron ticarətin üstünlüklərindən istifadə səviyyəsi zəifdir. Nəzərə alsaq ki, elektron ticarətin professional olaraq 1995-ci ildən həyata keçirilmişdir, onda belə bir nəticəyə gəlmək olar ki, bu sahənin Azərbaycanda inkişaf perspektivləri yüksəkdir.

Hazırki dövrdə kiçik şirkətlər belə on-line ticarət etmə bacarığına sahibdirlər. Artıq hər ölçüdəki müəssisələr e-ticarətdən istifadə həcmini artırmaqla xərclərini aşağı salmağa çalışmaqdadırlar. Bunu isə mövcud şəbəkənin yerinə interneti qoyaraq, onu başqa bir ünsiyyət vasitəsi olaraq istifadə edərək, kommersiya məlumatlarını ədədi şəklə çevirərək ya da çalışma vasitələrində internet funksiyalarını istifadə edərək həyata keçirirlər.

Dünya təcrübəsində turizm sektorunda kommersiya məqsədli internetdən istifadə və elektron ticarət tətbiqi proqramları son dərəcə məşhurdur və bu sektorda elektron ticarət dinamik inkişaf mərhələsindədir. Turizmdə istifadə edilən səyahət xidmətinin istehsalının, reklamının, satın alınmasının, ödəmə əməliyyatlarının və istehlakının yalnız internet vasitəsi ilə təmin edilməsi mümkündür. İnterneti turizm sektoru baxımından digər vasitələrdən daha effektiv vəziyyətə gətirən digər xüsusiyyətlər isə onun səs, görüntü və yazılı bir mətni ötürmə əməliyyatlarını eyni vaxtda və daha sürətli həyata keçirə bilmə qabiliyyətidir.

Turizm xidmətlərini təklif edən müəssisələrin marketinq və satış xərclərində xərclərinin minimum səviyyədə təmin etmələri elektron ticarət və internet vasitəsi ilə mümkündür. Həmçinin, insan qaynaqlarının səmərəli istifadəsi elektron ticarətin üstünlükləri arasındadır. Elektron ticarətin həyata keçirilməsi zamanı satıcılar müştərilərinin ehtiyaclarını ətraflı və sürətli şəkildə öyrənə bilər, onlara optimal qiymətlərlə xüsusi turizm xidmətlərini təklif edə bilərlər.

Azərbaycanda turizm sektoru üzrə xidmət göstərən müəssisələrdə fəaliyyət dairələrinin müəyyən qismini elektron ticarət vasitəsilə həyata keçirmələri aşağıdakı faydaları verə bilər:

- xidmətlərin göstərilməsi zamanı sürətliliyin təmin olunması;
- turizm xidmətlərinin təklifi zamanı fərdilik amilinə önəmin artırılması;
- aparılan əməliyyatların həyata keçirilməsi zamanı rahatlığın təmin olunması;
- elektron ticarətdən istifadə xərclərinin az olması;
- asan formada bazar-marketinq təhlili və informasiyanın proseslərinin həyata keçirilməsi;
- elektron ticarətin reallaşdırılması zamanı birbaşa ünsiyyətin təmin olunası;
- Turizm müəssisələrinin göstərdikləri xidmətlərin keyfiyyətinin artması.

Müştəri tələblərinin davamlı dəyişməsi və artımı, müştərilərin xidmətlərdə uyğunluq, dəyər və keyfiyyətə verdikləri əhəmiyyətin artması, məlumat səviyyəsi yüksək və şüurlu müştərilərin eyni səviyyədə xidmət gözləməsi və avtomatlaşdırma texnologiyasına duyulan ehtiyac turizm sənayesində e-ticarət fəaliyyətlərinin istifadə edilərək sürətlə yayılmasına gətirib çıxarmaqdadır.

Texnoloji proseslərdən olan e-ticarətin turizm müəssisələrinin marketinqində gedərək daha məşhur şəkildə istifadə edildiyi və sürətlə dəyişən və inkişaf edən bu texnologiyanın səyahət sektorunu yaxından maraqlandırdığı qaçınılmaz bir gerçəklikdir. Hava yolu şirkətləri, otellər, səyahət agentlikləri və tur operatorları rəqabətə qarşı müqavimət göstərmək və fəaliyyətlərini davam etdirə bilmək üçün bu yeni marketinq üsulunu istifadə etmək məcburiyyətindədirlər. Azərbaycanda da turizm fəaliyyəti ilə məşğul olan müəssisələr də yeni texnologiyaları istifadə edərək də Avropa Birliyi ölkələri ilə bazar əlaqələrində əhəmiyyətli addımlar atlamaqla turizm ticarətində yeniliklərə uyğunlaşmanı təmin edə bilərlər.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. 27.02.2014.
2. Azərbaycan statistik göstəriciləri. 2015. Azərbaycan Respublikasının Statistika Komitəsi. Bakı.2015. 811 səh.
3. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət proqramı. Azərbaycan. 2002, 27 avqust.
4. Azərbaycanda turizm 2017.
5. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi.2016.
6. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.2016.
7. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı. 2011. 493 səh.
8. Əlirzayev Ə.Q., Aslanova S. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı. 2006. 163 səh.
9. İbrahimov İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı 2010.
10. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Dərs vəsaiti. Bakı. 2012. 504 səh.
11. The World Travel and Tourism Council (WTTC). 2017.
12. Turban Efraim & David King. Introduction to E-Commerce. 2003.

*Bayramov Süleyman Tahir oğlu, doktorant,*
*Bakı Biznes Universiteti*

## TEXNOPARKLARIN İQTİSADİ İNKİŞAFA TƏSİRİ MƏSƏLƏLƏRİ

"Yeni iqtisadi münasibətlər" şəraitində həm də hər bir ölkənin rəqabət qabiliyyəti innovasiyalı sənaye fəaliyyətdən asılıdır. Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 15 may tarixli fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında nümunəvi Əsasnamə"yə görə "texnologiyalar parkı – innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazi"dir. Dünya praktikasında qəbul olunur ki, yeni məhsul və texnologiyaların istehsalına investisiya qoyarkən, xarici şirkətlər, milli iqtisadiyyatın ayrı-ayrı subyektlərinin maliyyə və iqtisadi vəziyyəti ilə yanaşı, müəyyən bir ölkədə uğurlu innovasiyalı müəssisə və ya sahibkar subyektlərinə də baxılır.

Texnoparklar iqtisadi inkişafa təsir etməklə yeniliklər yaratmağa imkan verən bir platformadır. Onun çərçivəsində müəssisələri və insanları yeniliklər yaratmağa, onları uğurlu məhsullara və gələcəkdə uğurlu şirkətlərə çevirmək üçün şərait yaradılır. Formalaşmanın ilk mərhələsində texnoparkların yaradılması sahəsindəki hökumətin bu qədər fəal mövqeyinin səbəbləri yenilikçiliyin inkişafı, dövlətdən və özəl investorlardan əlavə mənbələr cəlb etmək imkanlarının açılması, texnopark müəssisələri üçün torpaq kirayəsinin azaldılması, idxaldan asılılığın azaldılması, dünya bazarına rəqabətə dayanıqlı məhsulun çıxarılması, yeni iş yerlərinin yaradılması və sair ilə əlaqədardır.

Texnoparkların yaradılması əsasən müəssisələrin maliyyə və iqtisadi vəziyyətinin bir qədər yaxşılaşmasına, ümumilikdə kiçik və orta sahibkarlıq fəaliyyətinin səmərəli fəaliyyətinə kömək etmişdir. İndiki mərhələdə texnoparkların yaradılması hədəfləri bir qədər dəyişmişdir. Beləliklə, yaradılan texnoparkların əksəriyyəti iki hədəfin həyata keçirilməsinə yönəldilmişdir: mövcud resurslardan istifadə və yeni texnologiyalar cəlb etməklə istehsal fəaliyyətinin intensivləşdirilməsini təmin edir. Əvvəlki kimi texnoparkların yaradılması yeni texnologiyaların yaradılması zəncirinin icrası üçün şərait yaratmaq məqsədini güdmür. Texnoparkların formalaşması baxımından növbəti fəaliyyət dalğası ilk növbədə iqtisadiyyatdakı maliyyə, iqtisadi sabitlik və dövlətin yeni təşəbbüskarlıq formalarının, xüsusən texnoparkların təşkili ilə maraqlarının artması ilə əlaqədardır. Bu səlahiyyət və idarəetmə strukturlarına maraq texnoparkların strateji vəzifəni - yerli mənbələrdən maksimum istifadə edərək bölgədə "böyümə mərkəzləri" formalaşdırmağı tez bir zamanda həyata keçirə bilməsi ilə müəyyən edilir. Bununla birlikdə, ölkədə texnoparkların yaradılması və işləmə mexanizmləri, səmərəliliyini qiymətləndirmə metodları tam mükəmməl deyil.

Yeni təşəbbüskar iş formalarının yaradılması yolu ilə innovasiya aktivliyinin artmasına nail olmaq mümkündür. Bu işin təşkili formalarının ortaya çıxması üçün tipik şərt ixtisaslaşma və əməkdaşlıq metodlarının inkişafıdır. Modern istehsalın ixtisaslaşması və kooperativlərin yaradılması istehsalın təşkilinin mahiyyəti və məzmununun dəyişdirilməsini, həyata keçirilmə mexanizmini, cəmiyyətin təkamülü zamanı qiy-

mətləndirmə metodlarının araşdırılmasını tələb edir. İnkişafın indiki mərhələsində şəbəkələşmə kimi sadə və daha mürəkkəb ixtisaslaşma və əməkdaşlıq formalarına üstünlük verilir.

Müasir şəraitdə əldə edilmiş tədqiqat nəticələri nəzərə alınaraq, əməkdaşlıq və ixtisaslaşma bir çox müstəqil tərəfdaşdan ibarət olan çevik, yüksək gəlirli strukturlarda biliklərin ötürülməsi üçün yeni imkanlar açan bir-biri ilə əlaqəli iki proses kimi izah olunur. Texnoparklar xaricdə və Azərbaycanda geniş yayılmış bu cür yenilikçi növləri kimi təsnifləşdirilə bilər. İqtisadi ədəbiyyatda mövcud olan tədqiqatlarda texnoparkın daxili mahiyyətinin olduqca dar şəkildə əks olunduğu göstərilir. Hazırda belə texnoparkın üç tərifi mövcuddur:

1) kiçik innovativ sahibkarlığın inkişafını təşviq edən xüsusi bir funksiyanı yerinə yetirən ərazi və infrastruktur təşkilatı olaraq;

2) yüksək texnologiyalı məhsulların yaradılması və bazara təqdim edilməsində iştirakçıların təşkilati qarşılıqlı əlaqəsinin bir forması kimi;

3) texnoloji inkişafların kommersiyalaşdırılmasına dair yüksək texnoloji istehsal iştirakçılarının qarşılıqlı fəaliyyətinin təşkili forması kimi.

Texnoparkın dünya və yerli elm və texnologiyanın nailiyyətlərinin istehsalını və ticarət inkişafını universitet, sənaye, araşdırma mərkəzləri, sahibkarlar və bazarlar arasındakı əməkdaşlığı artırmaq, bilik və texnologiya transferini asanlaşdırmaq məqsədilə yüksək əlavə dəyərli tədqiqat və inkişafa söykənən qabaqcıl texnologiyalı məhsul və xidmətlərin istehsalına uyğun infrastruktur, üstqurum və xidmətlər ilə təsir edən elmi-istehsal kompleksi kimi başa düşülməsi təklif olunur. Bu tərif, mövcud olanlardan fərqli olaraq, texnoparkın fərqli cəhətləri - innovasiya, ərazi inteqrasiyası və təşkilati qarşılıqlı təsir və marketinq aspektini əks etdirir. Sənaye texnoparkının sənayesi inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında daha geniş istifadə edildiyini qeyd etmək olar. Bu texnoparkın müəyyənedici xüsusiyyətləri texnoparkların, klasterlərin və texnoloji sahələrin, texnopolislərin əsas xüsusiyyətləri müqayisə olunur. Sənayedə texnoloji parkların formalaşması üçün bu xüsusiyyətlər, sahə, ərazi və bazar şərtləri ilə xarakterizə edilir.

Texnoparklarının əmələ gəlməsi kooperasiya və ixtisasın inkişafı üçün inteqrasiya qarşılıqlı təsirlərinə əsaslanır. Bunlar gizli və assosiasiya formasında gorunür, çoxtərəfli və ikitərəfli razılaşmalara əsaslanır. Bu proseslərin səmərəliliyin qiymətləndirilməsindəki çətinliklər aşağıdakılarla əlaqəli ola bilər: inteqrasiya prosesinə xas olan təsirlərin müxtəlif təzahürləri; subyektiv olaraq - obyektiv hallarla; bir texnopark yaratmaq "səmərəliliyi" konsepsiyasının çox səviyyəli təbiəti ilə ifadə olunur.

Texnopark çox funksiyalı yenilikçi bir sahibkarlıq formasıdır və bir çox sosial-iqtisadi qurumdan hədəf gözləntilərinin obyektidir. Bu gözləntilərin səmərəliliyini üç mərhələdə - texnopark sakinləri, baza müəssisəsi və ərazi icması səviyyəsində qiymətləndirmək təklif olunur. Birinci və ikinci mərhələlərdə sinerji effektləri müəyyənləşdirilməli, layihə yanaşması əsasında hesablanmalı, üçüncü mərhələdə sosial səmərəliliyin qiymətləndirilməsi üçün keyfiyyət və kəmiyyət metodları tətbiq olunmalıdır. Texnopark yarandıqda maliyyə qiymətləndirmələrinin kommersiya səmərəliliyi (qiymətləndirmənin birinci və ikinci mərhələləri) nağd pul axınının endiriminin modelinə deyil, layihə üçün istifadə olunan kapitalın dəyərindən artıq qazanılan əlavə gəlirin (iqtisadi mənfəət, iqtisadi əlavə dəyər) qiymətləndirilməsinə əsaslanmaq təklif olunur. Bir

texnoparkda maliyyə həllərinin kommersiya səmərəliliyinin qiymətləndirilməsinə təklif olunan yanaşma aşağıdakılara imkan verir:

1)hədəfə çatma dərəcəsini (hədəf effektləri) xarakterizə etmək;

2) resurs xərclərini qiymətləndirmək;

3) biznesin yeni təşkilati formalarının yaradılmasına sərf olunan vaxtı optimallaşdırmaq.

Texnoparkın yaradılmasının ictimai faydası bütövlükdə cəmiyyət üçün sosial-iqtisadi nəticələrdə ifadə olunur. Belə görünür ki, texnoparkın yaradılmasının sosial səmərəliliyinin məzmununu xarakterizə edən göstəricilər sistemi texnoparkın gözlənilən fəaliyyət sahələrinə görə hesablanmalı və texnopark layihələrinin gəlirliliyini xarakterizə edən göstəricilərə daxil etməlidir: iş yerlərinin yaradılması, büdcə gəlirlərinin çoxalması, yeni malların, işlərin, xidmətlərin istehsalı (texnopark layihələri üçün malların, məhsulların, işlərin, xidmətlərin satışından toplanan gəlirlər (ümumi gəlir); texnopark layihələri üçün birləşdirilmiş əlavə dəyər; gəlirin bir manatı üçün əlavə dəyər), kadr hazırlığı, infrastrukturun inkişafı göstəriciləri texnoparkın yaradılmasının sosial səmərəliliyini qiymətləndirmək üçün belə bir göstərici sistemi, fəaliyyətinin ictimai rezonans doğuran əlavə nəticələrini vurğulamağa və ərazi icmasının bu cür yenilikçi formalarını inkişaf etdirməsinin zəruriliyini dərk etməyə imkan verir.

*Kərimova Günay Rasim qızı, doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti*

## MÜASİR AZƏRBAYCANIN MALİYYƏ BAZARLARININ TƏNZİMLƏNMƏ VƏ İNKİŞAF MEYLLƏRİ

Sovet dövrü ölkə iqtisadi ədəbiyyatlarına uzun müddət pul bazarı və kapital bazarlarını birləşdirən «ssuda kapitalı bazarı» anlayışından istifadə edilmişdir. Lakın bu anlayış çoxdandır ki, köhnəlmiş və təcrübədə ümümyayılmış «maliyyə bazarı» anlayışı ilə sıxışdırılıb aradan çıxarılmışdır.

«Maliyyə bazarı» anlayışına iki aspektdə baxmaq olar: birincisi, maliyyə institutların və ikincisi, iqtisadi münasibətlərin məcmusu kimi.

Birinci halda maliyyə bazarı tələb və təklifin bazar prinsiplərinə əsaslanan kapitalın yenidən bölüşdürülməsi üçün müəyyən edilmiş bütün təşkilat və idarələri özündə ehtiva edir.

Belə ki, birinci yanaşmada maliyyə bazarı-institutlar sistemi kimi çıxış edir ki, burada bazarın iştirakçıları kimi - investorlar, qiymətli kağızların emitetləri; vasitəçilər – ticarətin birja və birjadankənar təşkilatçıları; bazarın infrastrukturu - depozitləri, qeydiyyatçılar, hesab - kliring təşkilatları və s. ibarətdir.

İkinci halda maliyyə bazarı kapitalın formalaşması, bölgüsü və yenidən bölgüsünə yönəldilmiş iqtisadi münasibətlər sistemi kimi nəzərdən keçirilir. Əmtəə bazarından başqa kapitalın satışı baş verən bütün bazarlar maliyyə bazarı hesab edilir.

Azərbaycan Respublikasının maliyyə bazarlarının formalaşması əsasən Rusiya təcrübəsinə əsaslanmışdır. Bu isə gələcəkdə bu bazarların tənzimlənməsi biznesinin Azərbaycan Respublikası və Rusiya ilə oxşarlığını müəyyən etmişdir. Belə ki, misal

üçün Fransada maliyyə bazarlarının əksəriyyət seqmentlərində əsas tənzimləyici rol dövlətə mənsubdur. Azərbaycanda və Rusiyada tənzimləmə ixtisaslaşdırılmış orqanların şəxsində dövlət ilə özünü tənzimləyən təşkilatlar arasında bölüşdürülmüşdür. Bu halda Rusiyada özünütənzimləyici təşkilatların rolunu fond birjası və institusional subyektləri birləşdirən müxtəlif assosiasiyalar yerinə yetirir.

Şəkil 1-dən göründüyü kimi Azərbaycanda maliyyə bazarlarının dövlət tənzimləməsinin ənənəvi sxemi tətbiq edilirdi. Ölkədə üç əsas tənzimləyici orqan fəaliyyət göstərirdi.

| **Azərbaycanda maliyyə bazarlarının seqmentləri (sektorları)** | **Azərbaycanda maliyyə bazarlarını tənzimləyən orqanlar** |
|---|---|
| Pul<br>Kredit<br>Valyuta | Mərkəzi Bank |
| Fond investisiyası | QKDK |
| Pensiya yığımlarının investisiyalaşdırılması | Maliyyə Nazirliyi, QKDK |
| Sığorta | Maliyyə Nazirliyi, QKDK |

***Şəkil1. Azərbaycan Maliyyə bazarlarının tənzimlənməsi sxemi.***

Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılana qədər (03.02.2016-cı il) Azərbaycan maliyyə bazarlarının dövlət tənzimləyici funksiyasını bir sıra ixtisaslaşdırılmış strukturları (Azərbaycan Respublikası Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi, Mərkəzi Bank, Maliyyə Nazirliyi) həyata keçirirdi.

Kommersiya bankları və digər kredit təşkilatlarına kredit bazarlarında fəaliyyət göstərən dövlət tənzimlənməsini Azərbaycan Respublikası Mərkəzi Bankı həyata keçirirdi.

Mərkəzi Bank nəzarət orqanı kimi:

- Azərbaycanda hesablaşmaların həyata keçirilməsi və bank əməliyyatlarının aparılması qaydasını müəyyən edirdi;
- Kredit iştirakçılarının lisenziyalaşdırılmasını aparır və həmin lisenziyanı ləğv edirdi;
- Kredit tənzimləyicisinin fəaliyyətini tənzimləyir və nəzarət edirdi;
- Valyuta tənzimləməsi və valyuta nəzarətini həyata keçirirdi.

Son vaxtlar dünyada baş verən iqtisadi proseslər ölkədə qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, ödəniş sistemlərinin fəaliyyətinin çevikliyinin və şəffaflığının təmin olunmasını, həmçinin bu sahədə tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsini, eləcə də ictimai nəzarət sisteminin yaradılmasını zəruri edir.

Bütün bunlara baxmayaraq Azərbaycan Respublikasında yuxarıda göstərilən qurumları birləşdirən və əlaqələndirən struktur, eləcədə vahid bir bütöv kimi maliyyə bazarlarını tənzimləyən normativ – hüquqi sənəd yox idi.

Ölkənin maliyyə sisteminin daha da sabit, dayanıqlı və rəqabət qabiliyyətliyinin isə daha yüksək olması üçün maliyyə bazarının fəaliyyətini səmərəli şəkildə təmin olunması, eləcə də kreditorların, investorların və sığorta olunanların hüquqlarının qorunması tələb olunurdu.

Azərbaycan Respublikasının maliyyə sektorunun dayanıqlığını təmin etmək və bu sahədə nəzarət mexanizmini təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 03.02.2016-cı il tarixli Fərmanı ilə «Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası» yaradılmışdır. Fərmana əsasən qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatlar və poçt vasitələrinin operatoru) və ödəniş sistemləri sahəsində fəaliyyətin lisenziyalaşdırılması, tənzimlənməsi və ona nəzarət, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsi, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığı və çevikliyi təmin ediləcəkdir.

Beləliklə, Nəzarət Palatasının əsas məqsədi Azərbaycan Respublikasında maliyyə bazarlarının səmərəli fəaliyyətini və maliyyə bazarının digər iştirakçılarının hüquqlarının qorunmasıdır. Palata müəyyən edilmiş fəaliyyəti həyata keçirərkən Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarını, maliyyə bazarlarının tənzimlənməsi sahəsində qabaqcıl beynəlxalq prinsip və standartları əsas götürür.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi qüvvəyə mindiyi andan Azərbaycan Respublikasının Qiymətli kağızlar üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Mərkəzi Bankın yanında Maliyyə Monitorinqi xidməti ləğv edilmiş və onların istifadəsində olan dövlət əmlakı Palatanın sərəncamına verilmişdir.

Hazırda (03.02.2016-cı ildən sonra) Azərbaycan Respublikasında maliyyə bazarlarının dövlət tənzimlənməsini aşağıdakı strukturlar həyata keçirir:

1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı

Respublikamızda maliyyə bazarının inkişafına təkan verən əsas işlərdən ən önəmlisi isə Azərbaycan Respublikası Prezidentinin 16 May 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş «2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı» Dövlət Proqramı olmuşdur. Bu proqramın icrasına dair tapşırıqlar aşağıdakılardan ibarətdir:

- Fond birjasının hüquqi və təşkilati cəhətdən qabaqcıl beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, yeni ticarət sisteminin tətbiqi ilə baza və törəmə maliyyə alətlərinin ticarəti imkanlarının genişləndirilməsi;
- Qiymətli kağızların və onlar üzərində hüquqların qeydiyyatı və uçotu mexanizmlərinin sadələşdirilməsi;
- Dövlət və korporativ qiymətli kağızların vahid mərkəzi depozitar sisteminin yaradılması;
- Qiymətli kağızların girovla yüklənməsi prosedurlarının optimallaşdırılması və avtomatlaşdırılması;
- Maliyyə vasitəçiliyi xidmətlərinin regional əhatəsinin və bu növ xidmətlərə çıxış imkanlarının genişləndirilməsi;
- İnvestisiya şirkətlərinin fəaliyyətini tənzimləyən zəruri normativ hüquqi bazanın formalaşdırılması və onların fəaliyyətinin təşviqi;
- Aktivlərin idarəedilməsi şirkətlərinin fəaliyyətini tənzimləyən zəruri normativ hüquqi bazanın formalaşdırılması və onların fəaliyyətinin təşviqi;
- İnvestisiya fondları və digər kollektiv investisiya sxemlərinin (daşınmaz əmlak

investisiya fondları və s.) fəaliyyətini tənzimləyən zəruri normativ hüquqi bazanın formalaşdırılması və onların fəaliyyətinin təşviqi;

- Kiçik və orta sahibkarlar üçün alternativ birja ticarəti platformasının yaradılması, onların fond bazarından maliyyələşmə imkanlarının artırılması və təşviqi;

- Qiymətli kağızlar bazarında məlumatların dəqiq, dolğun və vaxtında açıqlanması sisteminin yaradılması və avtomatlaşdırılması;

- Qiymətli kağızlar bazarı haqqında mütərəqqi beynəlxalq təcrübəyə uyğun yeni qanun layihəsinin hazırlanması və təqdim edilməsi;

- Qiymətli kağızların optimal buraxılış və qeydiyyat sisteminin yaradılması, qiymətli kağızların beynəlxalq nömrələnməsi (İSİN kodlar) sisteminin tətbiqi;

- İnvestorların hüquqlarının səmərəli müdafiəsi sisteminin yaradılması;

- Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin lisenziyalaşdırılması prosedurlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

- MBNP-nın təşkilati-funksional cəhətdən gücləndirilməsi və kadr potensialının inkişaf etdirilməsi;

- Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət üzrə kadrların ixtisasartırma kurslarının potensialının gücləndirilməsi, təlim proqramlarının təkmilləşdirilməsi və səmərəliliyinin təmin edilməsi;

- Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları üçün ixtisaslaşmış təlim proqramlarının həyata keçirilməsi;

- Azərbaycan kapital bazarlarının imkanlarına dair yerli və beynəlxalq konfransların, seminarların və müşavirələrin təşkili və s.

Respublikamızda maliyyə bazarlarının yaradılması və inkişafının müasir vəziyyətinə nəzər salsaq onun mürəkkəb yol keçdiyi aydın olur.

Maliyyə bazarının inkişafı belə mürəkkəb quruluşlu sistemin bütün tərkib hissələrini əhatə edən çox saylı qərarların qəbul edilməsini tələb edirdi.

Son on ildə Azərbaycan Respublikasının maliyyə bazarları sahəsində bir sıra ciddi tədbirlər görülmüşdür. Onlardan: «2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı haqqında Dövlət Proqramını» (16 may 2011-ci il); «Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikasinin Prezidentinin fərmanını» (3 fevral 2016-cı il); «Azərbaycan Respublikasında Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanını» göstərmək olar. Söz yoxdur ki, bunlar öz nəticəsini verməkdədir. Lakin, Azərbaycan maliyyə bazarlarını dünya maliyyə bazarları səviyyəsinə çatdırılması üçün hələ görüləsi işlərdə az deyildir.

Beləliklə, Azərbaycanda maliyyə bazarının gələcək inkişafı bir çox dövlət qurucularının fəaliyyətindən, qanunvericilik bazasında hüquqi və fiziki şəxslərin fəaliyyətindən və bir çox digər amillərdən bilavasitə asılıdır.

Əgər «Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində» 2020-ci ilədək qoyulan bütün vəzifələr həll edilərsə, onda beş ildən sonra Azərbaycan maliyyə bazarının uzun müddətli inkişafı üçün etibarlı baza yaratmaq mümkündür. Onda onun əsasında müstəqil, rəqabətqabiliyyətli inkişaf göstəricilərinin indiki anda mövcud olan göstəriciləri bir neçə dəfə ötüb keçəcək maliyyə bazarlarının formalaşması haqqında söhbət gedə bilər.

*Камилова Амина Малик кызы, докторант,*
*Бакинский Университет Бизнеса,*

# СОВРЕМЕННЫЙ УРОВЕНЬ ИСПОЛЬЗОВАНИЯ ТРУДОВОГО ПОТЕНЦИАЛА

Одним из показателей, обеспечивающих конкурентоспособность как государства, так и организации в условиях кризиса, является качество трудового потенциала: его квалификация, производительность, удовлетворенность условиями труда и социальное обеспечение. Анализ современного состояния рыночной экономики показал, что основными причинами кризисного состояния многих отечественных предприятий являются не только неспособность обеспечить конкурентоспособность, но и несоблюдение принципов и методов управления в современных условиях под влиянием как внешни так и внутренних факторов рыночной экономики. Таким образом, исследование с целью совершенствования системы управления трудового потенциала является одним из способов стратегии социального развития. При исследовании очень важно выявить и анализировать теоретические аспекты функционирования системы управления и использования трудового потенциала, а также ее эффективность в современных условиях.

Несмотря на разнообразные исследования, некоторые вопросы, касающиеся функционирования системы управления персоналом, необходимо решать путем совершенствования как методологии управления персоналом, так и стратегии развития системы управления персоналом. Современное состояние экономики и, следовательно, трудовых ресурсов находится под влиянием депрессивных мировых тенденций, что соответственно требует новых подходов к реализации стратегии экономических и социальных реформ. В связи с уменьшением эффективности ресурсного потенциала и повышением социальной стоимости реализации реформирующих мер очень важно добиться реальной антикризисной устойчивости внутренней экономики, что невозможно без последовательного реформирования ключевых сфер экономической и социальной жизни населения. Население же, главный ресурс экономики и с ее помощью возможно создать условия для максимального раскрытия национального экономического и социального потенциала. Новый подход к формированию конкурентоспособности страны, социально-экономической стабильности заключается в изучении основных факторов оптимизации и обеспечении трудового потенциала. Поэтому в условиях современной экономики главным образом нужно ставить на её основу человеческий фактор и укреплять его потенциал. В качестве поддержки этому утверждению можно привести конвенцию Международной организации труда (ILO) № 117 «Основные цели и стандарты социальной политики» которая гласит, что любая политика должна быть в первую очередь направлена на благосостояние и развитие населения. Повышение уровня жизни рассматривается в качестве основной цели планирования экономического развития, основным элементом которого является обеспечение полной и производительной занятости.

Среди факторов, способствующих низкой экономической конкурентоспособности страны, значительную роль играет социальный компонент, который включает развитие трудового потенциала страны. Кроме того, экономическая эффективность определяется, прежде всего, качеством имеющегося трудового

потенциала и способами его включения в общественное производство. Соответственно, экономическая эффективность является наиболее важным показателем оценки эффективности. Качественное воспроизводство трудового потенциала, способы его сочетания со средствами производства, эффективность трудовой деятельности - все это зависит от качества созданной системы управления трудовым потенциалом. Управление трудовым потенциалом как явление очень разнообразно и в настоящее время характеризует потенциал как один из основных ресурсов государства и любой организации, управление и развитие которой во многом зависят от конкурентоспособности государства, платежеспособности и развития организации. Трудовой потенциал как экономическая категория характеризует рабочую силу определенного места сочетание различных свойств, которые определяют работоспособность человека. Этими качествами являются: способность и склонность работника к работе, состояние его здоровья, выносливость, тип нервной системы, объем общих и специфических знаний, трудовые навыки, уровень ответственности, социальная зрелость, моральные ценности, интересы и потребности. Трудовой потенциал не является постоянной величиной - он увеличивается с развитием и совершенствованием знаний и навыков, улучшением условий труда и жизни и уменьшается из-за ухудшения условий труда и здоровья работника. Трудовой потенциал общества и трудовой потенциал компании различаются. Под трудовым потенциалом общества понимается специфическая форма материализации человеческого фактора, где синтезируются и накапливаются совокупные способности трудоспособного населения к общественно-полезной деятельности. Таким образом, трудовой потенциал рассматривается на национальном и региональном уровнях, так как представляет собой комплексную совокупность возможностей населения к экономической активности и является субъектами трудовой деятельности. Трудовой потенциал компании является высшей ценностью возможного участия работников в производстве с учетом их физиологических характеристик, уровня профессиональных знаний и накопленного опыта при наличии необходимых организационно-технических условий. Это всегда больше, чем сумма индивидуальных потенциалов отдельных сотрудников. Человеческий потенциал - это способность людей реализовывать множество своих потенциальных возможностей для получения своей индивидуальной и социальной выгоды. Он включает в себя природные способности и таланты, образование, опыт, квалификацию и навыки. Здоровье людей является важной характеристикой человеческого потенциала. Следует отметить, что термины «человеческий капитал» и «человеческие ресурсы» не идентичны. Человеческий ресурс может стать потенциальным капиталом, если они дают реальный доход и создают богатство, то есть, если человек имеет возможность участвовать в общественном производстве, которое организовано его собственной деятельностью или в продаже своего труда работодателю. Преобразование человеческих ресурсов в операционный капитал требует определенных условий, которые обеспечили бы реализацию человеческого потенциала в производительности (которые особенно выражены в форме товаров).

Таким образом, человеческий капитал является специфическим типом капитала. В отличие от физического капитала, который имеет материальное и объективное выражение, человеческий капитал находится в форме знаний, навыков, трудовых и жизненных навыков, определенного уровня здоровья. Учитывая

тот факт, что управление трудовым потенциалом находится на пересечении общественных интересов, требований профсоюзов, решений на государственном уровне, желаний отдельных лиц и других организационных требований, тогда управление должно рассматриваться в свете социально-экономических аспектов, как системы взаимосвязей между организационными и экономическими, социальными мерами по реализации прав человека путем создания условий для нормальной работы, развития и эффективного использования потенциала рабочей силы, обеспечения ее прав и свобод, а также его социальное обеспечение. Права человека действуют во всех сферах жизни, включая трудовые отношения на рабочем месте. В соответствии с Декларацией прав человека: основные права работников включают: право на труд, на свободный выбор работы, на справедливые и благоприятные условия труда; отсутствие дискриминации и равная плата за равный труд; справедливое и благоприятное вознаграждение, обеспечивающее ему и его семье существование, достойное человеческого достоинства; уровень жизни, достаточный для здоровья и благополучия его самого и его семьи, включая питание, одежду, жилье и медицинское обслуживание и необходимое социальное обеспечение; социальное обеспечение на случай безработицы, старости, инвалидности, болезни и других случаев; имеет право создавать профсоюзы и вступать в их структуры для защиты своих интересов; на отдых и досуг, включая разумное ограничение рабочего времени и периодические оплачиваемые отпуска.

Процесс управления трудовым потенциалом регулируется на трех уровнях: национальном, региональном и уровне предприятий. Чтобы этот процесс был эффективным, необходима максимальная координация действий на всех уровнях. На последнем уровне происходит непосредственное использование потенциала каждого сотрудника. Таким образом, трудовой потенциал организации и предприятия составляет основу трудового потенциала общества.

*Musayev Ceyhun İskəndər, doktorant,*
*Bakı Biznes Universiteti*

## AQROTURİZMƏ ELMİ-NƏZƏRİ YANAŞMALAR VƏ ONUN İNKİŞAF AMİLLƏRİ

Aqroturizm yeni bir sahə olsada onun mahiyyəti, məzmunu və yaranma səbəbi barəsində istər ölkəmizdə, istərsə də xarici ölkəmizdə tədqiqatçılarının məsələyə müxtəlif münasibətləri mövcuddur:

“Aqroturizm – iqtisadiyyatı kənd təsərrüfatı yönümlü inkişafda olan ölkələrin gəlirini yaxşılaşdırmaq üçün bir vasitə olaraq görülməkdədir”.

“Alternativ turizm növləri kütləvi turizmin mövcud problemləri içərisində sadəcə ənənəvi turizm növləri ilə deyil, eyni zamanda keyfiyyətli turizm məhsulları tələb edən turistlərə kənd həyatı tərzini və təbiətdə yaşamaq təcrübəsini təklif etmək məqsədindədir. Bu istiqamətdə alternativ turizm turistlər və xidmət göstərənlər arasında birbaşa ünsiyyəti və fərqli təcrübəni təmin edərək yerli mədəniyyətə diqqət cəlb etməkdə və keyfiyyətli xidmət və turizm məhsullarını təklif etməkdədir. Alternativ turizm növü olaraq əsasən aqroturizm belə bir turizm xidmətini olaraq istifadə edilə bilər. Məhz

aqroturizm turistlərin bütün tələblərini optimal şəkildə qarşılama qabiliyyətinə malikdir".

Aqroturizmin inkişafının təmin edilməsi üçün lazımi amillərin gözlənilməsi və tətbiqi önəmli bir amildir. Müasir dövrdə turistlər demək olar ki, bu amillərə qarşı daha həssas davranırlar. Aqroturizmin inkişafına səbəb ola biləcək amillər aşağıdakılardır:

- aqrolandşaftın cəlbediciliyi;
- zəruri infrastruktur;
- nisbətən böyük olmayan investisiyalarla turistləri cəlb edən kiçik və orta təsərrüfatlar;
- əlverişli təbii iqlim şəraiti və ehtiyatlar;
- əlverişli ekoloji vəziyyət;
- sosial amillər və xalqın qonaqpərvərlik ənənələri.
- əlverişli siyasi mühit və s.




***Sxem 1. Aqroturizmin inkişafını şərtləndirən amillər***

ÜTT-nin göstəricilərinə nəzər yetirsək görərik ki, beynəlxalq turizmdə digər amillərlə yanaşı, siyasi amillər də həmçinin ölkəyə gəlmə turizminə xeyli təsir göstərir. Ona görə ki, turizm siyasi hadisələrə qarşı da çox həssasdır. Misal üçün, 2001-ci ildə sentyabrın 11-i olduğu zaman ABŞ da baş tutan terror aktı buraya turist axınlarının xeyli azalmasına səbəb olmaqla birgə, turizmdən əldə edilən gəlirlərin miqdarının da azalmasına səbəb olmuşdur.

Belə ki, gəlirsiz iqtisadiyyatda kütləvi turizmin olması mümkün deyildir. İşsizlərin sayı xeyli çox olan, əmək haqqı isə az olan ölkə üçün kütləvi istirahətdən söhbət gedə bilməz. Fikrimizcə mühüm iqtisadi amillərə aşağıdakıları aid etmək olar:

- Milli gəlir;
- Adambaşına düşən gəlirin səviyyəsi;
- Milli gəlirin paylanma üsulu;
- Ölkə daxilində əhalinin gəlir səviyyəsinə görə daxil olduqları qrupları;

- Aqroturizm mal və xidmətlərinin qiyməti.

Aqroturizm inkişafına güclü təsir göstərən əsas amillərdən biri də məhz sosial amildir.

Regionlarda turizmin inkişaf etməsi işsizlərin böyük şəhərlərə axınının qabağını alır və işsizliyə təsir göstərir.

Araşdırmalar göstərir ki, turistlər daha çox qonşu ölkələr arasında səfər edirlər. Bunun da əsas səbəbi qonşu ölkələrlə olan oxşar adət və ənənələr, dil yaxınlığı, yaşayış tərzidir. Məlumatlara görə, ölkəmizə gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə yüksəlib. Bu artım isə təxminən 7-10 faiz olub. Amma araşdırmalar göstərir ki, əvvəlki il müddətində xaricə gedən yerli turistlərin də sayı heç də az olmayıb və bu turistlər xaricdə 600 milyon dollardan çox pul xərcləyiblər. İnsanların gəlir səviyyəsinin yüksəlməsi onların turist qismində digər ölkələrə gedərək daha da çox vəsait xərcləmələrinə şərait yaradır. Buna baxmayaraq, Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, vətəndaşların ümumilikdə gəlirlərinin təxminən 65 faizə qədəri istehlak məhsullarının alınmasına istiqamətlənir.

Azərbaycan Respublikasında aqroturizmin inkişafında təsirli olan əsas amillərdən biri də respublikamızdakı qədim tarixi-arxeoloji abidələrdir.

Apardığımız elmi-metodoloji araşdırmalardan göründüyü kimi yerli və beynəlxalq iqtisadi-turizm tədqiqatçılarının aqroturizm üçün bildirdikləri fikirlər və tariflər əsasən iqtisadi inkişafın təmin edilməsi və mənəvi tələbatın ödənilməsi istiqamətindədir. Lakin tədqiqat zamanı əldə etdiyimiz məlumatlara əsasən aqroturizmin alternativ bir mahiyyətinin olduğunu düşünürük. Belə ki, ötən əsrin 20-ci illərində (1915-ci il) Osmanlı İmperyasına qarşı cəbhə alan çox saylı dövlətlərin buraları müəyyən müddətli işğalı zamanı Türk xalqına mənsub olan bir çox mədəni sərvətini qəsb edərək oğurlamışdırlar. Bir çox yerli mətbəx nümunələrini, milli musiqi alət və mahnılarını və hətda bəzi adət-ənənələrini belə qəsb edərək daha sonraları bütün bunları sanki özlərinə məxsusmuş kimi dünyaya tanıtmağa başlamışdırlar.

Daha sonra Cumhuriyyətin bərqərar olması ilə (1923-cü il) daxili siyasi və iqtisadi müstəqilliyini əldə edən Türkiyə Respublikası sürətlə özünü dünyaya tanıtmaq və onlardan oğurlanaraq qəsb edilən və yanlış formada dünyaya təqdim edilən öz milli və mədəni sərvətlərini geri qaytarmaq üçün güclü strategiya hazırlıqlarına başladılar. Bunun üçün Türkiyənin xarici vətəndaşlara qapılarını açmaq üçün turizm sektoruna önəm verdilər. Lakin xarici turistlərə yad elli dövlətlərin qəsb etdikləri mədəni sərvətlərinin əslində özlərinə məxsus olduğunu isbat etmək üçün yerli iqtisadçı tədqiqatçılar Ege, Aralıq, Mərmərə və Qara dəniz hövzələrində yerləşən bölgələrində alternativ turizm növü olan “Aqroturizm”in sürətli tətbiqi üçün tədbirlər planı və bu bölgədə yaşayan əhalinin maarifləndirilməsi istiqamətində elmi araşdırmalara başlayaraq çox saylı tədqiqat işləri və məqalələr hazırlayaraq Respublikanın məhşur Universitetlərində çıxışlar etmiş və tanınmış iqtisadiyyat və təsərrüfat yönümlü qazet və jurnallarında çap etdirmişlərdir. Hazırda Türkiyə Respublikası aqroturizmin tətbiqi və inkişafı üzrə aparıcı ölkələr siyahısındadır.

Qeyd edilən tarixi nümunəyə və apardığımız tədqiqatlar nəticəsində aqroturizm anlayışını belə ifadə etmək olar:

“Aqroturizm – sadəcə ölkə daxilində regionlarda təsərrüfatçılığı yüksəltmək və ölkənin iqtisadi inkişafını təmin etmək üçün deyil, həm də ölkənin milli-mədəni sərvətlərinin qorunması və dünyaya tanıdılması üçün siyasi metoddur.”

*Əfəndiyeva Nərmin İlham qızı, doktorant,*
*Bakı Biznes Universiteti*

# MÜASİR DÖVRDƏ TİKİNTİ TƏŞKİLATLARININ İNKİŞAF ETDİRİLMƏSİ MEYLLƏRİ

Tikinti sənayesi uzun illərdir iqtisadi inkişafın vacib bir hissəsi kimi qəbul edilir. Bunun səbəbi tikinti sənayesinin iqtisadiyyatın digər sahələri ilə güclü əlaqələrə malik olmasıdır. Yaratdığı tələb baxımından, tikinti sənayesi, digər sənayelərdən çox miqdarda xammal və məhsul alaraq bu sektorlarda canlanma yaratdığı və bununla da iqtisadi inkişafa təkan verdiyi görülür. Bu səbəblə, çox miqdarda məhsul və xidmətlər alan inşaat kimi sektorların, iqtisadiyyatda çarpan effektlər yaradaraq böyüməyə səbəb olduğunu söyləmək olar. Təchizat baxımından tikinti sektoruna baxarkən isə digər sektorlarda istehsal üçün lazım olan hər şey bina və infrastruktur xidmətləri təqdim edərək iqtisadiyyatın inkişafında çox əhəmiyyətli bir rol oynayır. Bənzər bir nəticə sənayenin məşğulluğa verdiyi töhvədə görülə bilər. Tikinti sektorunun əsasən əmək tələb edən bir sektor olduğu məlumdur.

Sənayenin bütün bu xüsusiyyətləri tikintinin iqtisadi planlaşdırma qərarlarında mühüm yer tutmasını təmin etmişdir. İqtisadi planlaşdırmada hansı sənayeyə nə qədər investisiya qoyulması zərurəti müəyyən edilərkən bir sahədə yaradılan canlanmanın digər sahələrə də təsiri investisiyanın səmərəliliyi üçün son dərəcə vacibdir. Buna görə tikinti kimi 'lider' olaraq qəbul edilən və digər sahələrdə tələbi və istehsalı artıran sahələrə investisiya qoyulmasına üstünlük verilməsi əsas prinsiplərdən biridir.

Tikinti podratçısı şirkətlərin müvəffəqiyyətli bir rəhbərliyə sahib olub, daha çox və daha keyfiyyətli layihələr həyata keçirməsi, əvvəlcə tikinti sənayesini, daha sonra da ardıcıl olaraq iqtisadiyyata müsbət təsir göstərə biləcək əsas amillərdən biridir. Sənayedə və iqtisadiyyatda genişlənməyə təkan verən bu uğur, hər şeydən əvvəl həyata keçiriləcək layihələr üçün kifayət qədər və uyğun şərtlərdə "pul" tapmaqla əldə edilə bilər. Iqtisadi ədəbiyyatlarda zəif maliyyə idarəetməsi və kapital çatışmazlığı kimi maliyyə faktorları şirkətlərin uğursuzluğunda ən önəmli amil kimi göstərilir.

Sənayedə ən çox istifadə olunan iki maliyyə vasitəsi kapital və kreditdir. Kapital, bir şirkətin edəcəyi investisiyalar üçün öz mənbələrindən və ya başqa sözlə öz seyfindən, cibindən xərclədiyi puldur. Kredit isə maliyyə qurumlarından alınan borcdur. Götürülən kreditin qaytarılması, əsas borc öhdəliyi və əlaqədar faizlərin birlikdə ödənməsi məcburiyətini yaradır. Belə ki, kreditin bir maliyyə dəyəri var və bu səbəbdən şirkətlər kredit götürməyə ehtiyatla yanaşa bilərlər. Bir şirkətin kapital quruluşu, maliyyə qurumlarından götürülən borc və investorlar tərəfindən ortaya qoyulan kapital arasındakı tarazlıqdan ibarətdir.

Tikinti sənayesindəki şirkətlərin maliyyələşdirilmə seçimləri; faiz dərəcələri, valyuta dalğalanmaları kimi xarici risklərə çox həssasdır. Bu səbəbdən makroiqtisadi göstəricilərlə şirkətlərin layihələrinin maliyyələşdirilməsi arasında bir əlaqə var. Xarici amillərdən başqa şirkətin resursları və idarəetmə strukturu kimi bir çox fərqli amillər də maliyyələşdirmə qərarlarına təsir edə bilər. Bu nöqtədə, şirkətlərin müvəffəqiyyətində ən vacib meyarlardan biri olan maliyyə quruluşunun hansı kredit / kapital balansında daha uğurlu nəticələr verəcəyini görmək vacibdir.

Beləliklə, kapital quruluşunun müəyyənləşdirilməsində əsas məsələ kredit və kapital arasında ən yaxşı kombinasiyanı yaratmaqdır. Göstərilən kredit və kapital arasındakı balans, səhmdarlara ən yüksək gəliri gətirməlidir. Myers (1984) firmaların kapital strukturlarını izah etmək üçün "iyerarxik nəzəriyyəsi"ni yaratmışdır. Bu nəzəriyyəyə görə şirkətlər ilk növbədə öz mənbələrinə üstünlük verirlər. Nəzəriyyə şirkətlərin xarici maliyyələşdirilmədən istifadə etsələr, ilk növbədə kreditə yönələcəklərini və ən sonda isə paylarını satışa çıxaracaqlarını söyləmişdir. Balans nəzəriyyəsi isə əksinə, şirkətlərin bir kredit dərəcəsi təyin etdiyini və zamanla bu dərəcəyə doğru irəlilədiyini iddia edir. Lev (1969) görə, maliyyə nisbətləri bəzən sənaye ortalamalarına yaxınlaşdırılmaq məqsədi ilə təyin edilmişdir.

Sözügedən kapital quruluşunu izah edən nəzəriyyələr çox müzakirə edilmiş və bu nəzəriyyələrin doğruluğuna dair dəlillər tapmağa çalışılmışdır. Bu mövzuda 2001-ci ildə Graham Harvey tərəfindən edilən bir araşdırmada "İyerarxiya" və "Tarazlaşdırma" nəzəriyyələrinin qismən sübutu tapılmışdır. Şirkətlərin kapital strukturlarını təyin edən amillər iki əsas qrupa bölünür: xarici amillər, yəni firma və menecerlərinin nəzarətindən kənar amillər və firmanın korporativ quruluşundan asılı olaraq daxili amillər.

Xarici amillər daha çox ölkənin makroiqtisadi məlumatları ilə müəyyən edilir. Ümumi Daxili məhsuldakı (ÜDM) dəyişikliklər, inflyasiya və faiz dərəcələri bir ölkənin kredit imkanlarına böyük təsir göstərir. Misal üçün; faiz dərəcələrinin qalxması şirkətlərin kreditdən daha az istifadə etmələrinə səbəb olarkən, ÜDM-də artım kredit dərəcəsinin artmasına, inflyasiyanın artması isə bu dərəcənin azalmasına səbəb olur.

Daxili amillər də üç əsas qrupda qruplaşdırıla bilər. Bunlardan birincisi şirkət sahibinin təcrübəsi, təhsili və məqsədi kimi alt hissələrdən ibarət olan iş sahibinin və rəhbərliyinin ümumi yanaşması ilə əlaqədardır. İkinci qrup şirkətin yaşı və ölçüsü kimi şirkətə xas olan xüsusiyyətləri əhatə edir. Şirkət yaşı və ölçüsü artdıqca risklər azalacaq, rəhbərlik, krediti geri ödəmək imkanı olduğunu biləcək, maliyyə qurumları tərəfindən güvən artacaq və maliyyəçilər şirkətə daha çox etibar edəcəklər. Buna görə istifadə olunan kredit miqdarı artacaq. Üçüncü qrupda şirkətlərin gəlirliliyi, aktiv strukturları və biznes planları daxil olan idarəedici amillər birləşmişdir. Məsələn, bir şirkətin istehsal imkanları varsa, onun aktiv quruluşu dəyişəcək; şirkət bu aktivləri götürdüyü kreditlərə qarşı ipoteka etdirə biləcəkdir və nəticədə maliyyəçilər baxımından etibarlılığı və nəticədə kredit istifadəsi artacaqdır.

Tikinti sənayesindəki şirkətlərin kapital quruluşlarına dair az iş mövcuddur. Fediakis və Ravolis (2007) Avropa Birliyinə daxil olan 13 ölkədə fəaliyyət göstərən böyük tikinti şirkətlərinin balanslarını və gəlir hesabatlarını tədqiq edərək kapital quruluşlarını araşdırmışlar. Tədqiqat nəticəsində müəlliflər tikinti şirkətlərinin ölçüsü artdıqca kreditin məbləğinin artdığını, gəlirlilik və kredit məbləğinin tərs mütənasib olduğunu, bir şirkətin maddi aktivləri artdıqca uzunmüddətli kreditlərin artdığını və həmçinin qısamüddətli borcların azaldığını, ÜDM-dəki artımın uzunmüddətli kreditlərdə artım mənasına gələrkən qısamüddətli kreditlərdə azalmaya səbəb olduğunu təyin etdilər. Yeh (2011), tikinti sənayesindəki kapital quruluşuna makroiqtisadi şərtlər nə dərəcədə təsir göstərdiyini təyin etmək məqsədilə bir araşdırma aparmışdır. Tədqiqatçı, Tayvan birjasında siyahıya alınan tikinti şirkətlərinin maliyyə məlumatlarını araşdırdı və maliyyə böhranı zamanı kredit alımının necə dəyişdiyini təhlil etmişdir.

Son illər xüsusən bu sahədə investisiya qoyuluşlarının kəskin həcmdə artması

dövlətin investisiya qoyuluşlarını tənzimləməsi problemini aktuallaşdırmışdır. Xüsusən bu sahədə dövlətin investisiya qoyuluşlarının tənzimləməsi probleminin konseptual əsaslarının tədqiq olunması böyük əhəmiyyət kəsb edir.

Əsaslı tikintidə investisiya fəaliyyətinin dövlət tənzimlənməsi dedikdə, respublikada bu sahədə vahid elmi-texniki, iqtisadi, sosial siyasətin həyata keçirilməsi üçün kompleks tədbirlər sistemi başa düşülür. Belə layihələrin maliyyələşdirilməsi dövlət, yerli büdcələr və şəxsi vəsaitlərin hesabına aparılır. Bu sahədə investisiya qoyuluşları əsasən ictimai tələbatın ödənilməsinə, xalq təsərrüfatının strateji sahələrinin inkişafına yönləndirilir. İnvestisiya qoyuluşları təsərrüfat və mülkiyyət formalarından asılı olmayaraq ölkə qanunvericilik aktları ilə tənzimlənir. Dövlət bu mənada ölkənin sosial-iqtisadi inkişafını tənzimləmək, habelə xalq təsərrüfatının lazımi nisbətlərinin formalaşdırılması, istehsal və sosial infrastrukturun yaradılmasına ciddi nəzarət edir.

İnkişaf etmiş ölkələrin çoxunda investisiyanın təsnifatı onların maddi-texniki məzmununa uyğun təsnifləşdirilir. İnvestisiyanın reallaşdırılması prosesində tikinti, sanitar-texniki və texnoloji-quraşdırma işləri ilə yanaşı hazırlıq, qurğuların tikintisi, buraxılma tsikli ilə bağlı digər işlər də görülür.Tikinti investisiyası anlayışı təkcə yerüstü və yeraltı tikinti ilə məhdudlaşdırılmır, özünə digərlərindən əlavə, həmçinin hazırlıq, sanitar-texniki, şəbəkələrin çəkilməsi xərclərini də daxil edir.

Tikinti sferasının investisiya təminatının əsas subyektləri inverstorlardır. İnvestorlar- investisiya formasında xüsusi borc və cəlb edilən vəsaitlərin qoyulmasını həyata keçirən fiziki və ya hüquqi şəxslərdir. İnvestor kimi çıxış edə bilərlər: ölkənin hökuməti və subyektləri, özünüidarəetmənin subyektləri, sahibkarlıq birlikləri, təşkilatlar və digər hüquqi şəxslər, birgə respublika və xarici təşkilatlar, xarici dövlətlərin idarəetmə orqanları, onların hökumətləri tərəfində səlahiyyətli şəxsləri, beynəlxalq təşkilatlar.

*Nəbizadə Kamran Rauf oğlu, doktorant,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCANIN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını reallaşdırmağa və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. 1994-cü ildə 5 aprel tarixli 125 nömrəli "Azərbaycan Respublikasında xarici ticarətin liberallaşdırılması haqqında" fərman və eyni zamanda həmin ilin 20 sentyabrında bağlanılmış "Əsrin müqaviləsi" ölkədə bütün hüquqi şəxslərə strateji malların ixracına imkan vermiş, bir çox iqtisadi əməkdaşlıq baş tutmuşdur. Həmin ildən etibarən Xarici İqtisadi Əlaqələr üzrə Dövlət Komissiyası yaradılıb və strateji mallar üzrə barter əməliyyatları aparmaq üçün komissiyaya icazə verilmişdir. Daha sonra Nazirlər Kabineti 1995-ci il noyabrın 15-də "Azərbaycan Respublikasında xarici ticarətin təkmilləşməsi haqqında" qərar qəbul etmişdir. Bu qərara əsasən, ixrac əməliyyatlarının lisenziyalaşdırılması və kvotası aradan qaldırılmış, xarici ticarətin

təşkili üçün yeni müddəalar təsdiq edilmişdir.

Qloballaşma şəraitində beynəlxalq iqtisadiyyat mühüm bir sistem və ölkənin iqtisadiyyatının inkişafı və şaxələndirilməsi strukturunu təşkil edən amil kimi nəzərdən keçirilməlidir. Bu baxımdan, ölkələrimiz arasında xarici iqtisadi əlaqələrin təhlili və qiymətləndirilməsi bizə əhəmiyyətli ehtiyatları ayırmağa imkan verir. Bunun üçün, son illərdə respublikamızın xarici iqtisadi əlaqələrinin vəziyyətini dünya ictimaiyyəti ilə nəzərdən keçirək. Respublikanın İKT-nin rəsmi məlumatlarının təhlili göstərir ki, 2000-2018-ci illərdə Azərbaycanda xarici ticarət dövriyyəsinin ümumi həcmi 7,4 dəfə, idxal 7,3 dəfə, ixrac 7,5 dəfə artıb.

Dünya təcrübəsi ilə sübuta yetirilmişdir ki, uzun müddət idxal tələbinə cavab verən ölkələr milli istehsalın zəiflənməsi üçün süni şərait yaradırlar. Eyni zamanda, ölkənin ixrac potensialı yüksək keyfiyyətli istehsal məhsullarının tətbiqinə əsaslanır. Bunun üçün xarici iqtisadi fəaliyyətin stimullaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilməlidir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2000-ci ildə Azərbaycan 122 ölkə ilə xarici ticarət dövriyyəsini həyata keçirirdisə və idxalçı sayı 118, ixracatçılar isə 84 olduğu halda, 2018-ci ildə isə bu ölkələrin sayı 194 oldu.

Ancaq bütün bunlara baxmayaraq, hazırda ölkəmiz xarici ticarətində hələ də problemlər var. Birincisi, ticarət əlaqələrinin şöbə və coğrafi strukturu bəzi çatışmazlıqlara malikdir. Nəzərə alsaq ki, Azərbaycanın idxal-ixrac əməliyyatlarının böyük hissəsi Rusiyaya və Türkiyənin payına düşür bu müəyyən hallarda belə inhisarçılıq siyasi və iqtisadi təzyiq vasitəsinə çevrilə bilər. İkincisi, ticarət əlaqələrinin strukturunda xammal, ara məhsullar və yarı hazır məhsullar üstünlük təşkil edir. Dünya təcrübəsi göstərir ki, xarici ticarət strukturunda bir və ya iki məhsul üstünlük təşkil edirsə, bu ölkənin xarici ticarəti bu məhsulların dünya bazarında konyunkturadan asılıdır. Yəni, əgər ixracatın əsasları neft ixrac edən ölkələrdə neft məhsulları, iqtisadi və siyasi dəyişikliklər, dünya bazarında neft məhsullarının tədarükü və tələbatının dəyişməsi respublikanın xarici ticarətinə ciddi təsir göstərə bilər. Bu proseslər nəticəsində, 2014-cü ilin ortalarından etibarən dünya bazarlarında neft qiymətlərinin azalması Azərbaycanın iqtisadiyyatına, əsasən, xarici ticarət və büdcə gəlirlərinə təsir göstərmişdir. Çox güman ki, yaxın gələcəkdə Azərbaycan ixracatda hazır məhsulların xüsusi çəkisini tələb olunan səviyyəyə çatdıra bilməz. Çünki biz dünya bazarlarında satılan hazır məhsulların istehsalı üçün zəruri texnologiyaya malik deyilik. Bununla belə, ölkədə xarici ticarətin strateji inkişaf proqramının əsas məqsədi qeyri-neft məhsullarının istehsalının və idxalı əvəz edən məhsulların istehsalının artması olmalıdır. Azərbaycanın xarici ticarət əməliyyatları sisteminin təhlili göstərir ki, uzun illər Rusiya Federasiyası idxalçı, İtaliya isə ixracatçılar arasında birinci yeri tutur.

Ümumiyyətlə, Azərbaycan beynəlxalq müstəvidə özünü etibarlı tərəfdaş ölkə kimi tanıdıb. Eyni zamanda, ölkəmizdə həyata keçirilən uğurlu siyasi addımlar dövlətimizin əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirib. Təbii ki, Azərbaycanın sürətli inkişafı, iqtisadi gücünün artması, əhalinin rifahının yüksəlməsi bir sıra digər məsələlərdə təsiredici rol oynayır. Sözsüz ki, əldə edilən uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Son bir neçə ildə Azərbaycanın əldə etdiyi uğurlar, hərtərəfli iqtisadi nailiyyətlər bizim ölkəmizi regionda güc mərkəzlərindən birinə çevirir. İqtisadi coğrafi baxımdan çox strateji məkanda yerləşdiyimizə görə birmənalı olaraq böyük maraq oyadırıq, bütün beynəlxalq təşki-

latlar, böyük dövlətlər bizə maraq göstərir, tərəfdaşlıq etmək istəyir.

Bu gün Azərbaycanda dövlətimizin güclənməsinə xidmət edən və xalqımızın siyasi iradəsinə əsaslanan siyasət həyata keçirilməkdədir. Azərbaycanın 2012-ci ildə BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi də bu siyasətin məntiqi nəticəsidir. Təşkilat yaranan zamandan ona bu qədər böyük səs çoxluğu ilə seçilmiş nadir ölkələr var. 200-ə yaxın dövlətin içərisində 155 dövlətin dəstəyini almaq həqiqətən də, Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna dəlalət edir. 29 ildir ki, müstəqil ölkəmiz beynəlxalq müstəvidə böyük nailiyyətlər qazanıb. Nəticə etibarilə qeyd etmək olar ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdə və həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizi dünya siyasətinin təmsilçisi qismində çıxış etməyə imkan verir.

*Məmmədzadə Nigar Ramiz qızı, doktorant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## ÜMUMİ BƏYANNAMƏ SİSTEMİNƏ KEÇİD RƏQƏMSAL VERGİ İNZİBATÇILIĞININ ƏSASI KİMİ

Ümumi bəyannamə sistemi vergi yığımının yüksəldilməsi, vergitutma bazasının genişləndirilməsi, əhalinin real gəlirlərinə vergi nəzarəti və kölgə iqtisadiyyatına qarşı mübarizədə əsas vasitələrdən biridir. Ümumi bəyannamə sisteminin məqsədi qanunsuz gəlirin müəyyən olunması və ya müəyyən olunmuş gəlirlərə görə vergi ödənişlərinin həyata keçirilməsidir.

Ümumi bəyannamə sistemi fiziki şəxslərin gəlir vergisinə tətbiq edilir. Dünyanın bir çox ölkələri bu sistemi fiziki şəxslərin gəlir vergisinin tətbiqi ilə paralel başlamışlar.

Ümumi bəyannamə sisteminin tətbiqində əsas məqsəd:

- kölgə iqtisadiyyatına qarşı mübarizə, vergi bazasının genişləndirilməsi, korrupsiyanın azaldılmasından;
- bəyannamədə göstərilən məlumatların yalnız vergi məqsədləri üçün istifadə edilməməsindən;
- qeydiyyat və uçot məlumatlarının təkmilləşdirilməsindən;
- nağdsız ödənişlərin stimullaşdırılmasından;
- büdcə daxilolmalarının artırılmasından;
- vergidən yayınmanın qarşısının alınmasından;
- cinayət istintaqlarının effektivliyinin artırılmasından;
- vergi ödəyicilərinin vergi mədəniyyətlərinin inkişaf etdirilməsindən ibarətdir.

Hazırda ümumi bəyannamə sistemini tətbiq edən Şərqi Avropa, Mərkəzi Avropa və Baltikayanı ölkələr, o cümlədən yeni tətbiq etməyə başlayan Qazaxıstan və s. kimi ölkələr bu sistemin səmərəli tətbiqi üçün müəyyən Konsepsiyalar hazırlamışdır. Həmin Konsepsiyalarda yalnız bu sistemin tətbiqi qaydaları deyil, həmçinin, gələcəkdə mümkün ola biləcək inkişaf perspektivləri və ümumi bəyannamə sisteminə keçidin təmin edilməsi istiqamətində qarşıda duran əsas məsələlər əks etdirilmişdir:

- ümumi bəyannamə sisteminin tətbiqi üçün metodoloji əsasın hazırlanması və hüquqi dəstək;
- dövlət orqanlarının fiziki şəxslərin bəyannamələrinin qəbulu və işlənilməsinə hazırlığı məqsədilə tədbirlərin görülməsi;

- əhali üçün maksimal rahat bəyannamə prosedurunun təşkil edilməsi;

- ümumi bəyannamə sisteminə keçid məsələləri üzrə əhalinin geniş məlumatlandırılması;

- bəyannamələrə effektiv kameral nəzarət sisteminin yaradılması.

Rusiya Federasiyasında fiziki şəxslər tərəfindən məlumatların könüllü şəkildə təqdim olunmasının ilk mərhələsi 8 iyul 2015-ci il tarixli 140 -F3 nömrəli "Fiziki şəxslərin aktivləri və banklardakı hesabları (depozitləri) haqqında məlumatların könüllü bəyan edilməsi və Rusiya Federasiyasının müəyyən qanunvericilik aktlarına düzəlişləri edilməsi haqqında" Federal qanunun müddəaları ilə tənzimlənir. Bu mərhələdə fiziki şəxslər könüllü əsasda aşağıdakılara dair məlumatları təqdim edirdilər:

- Əmlaklar haqqında;

- Nəzarət olunan xarici şirkətlər haqqında;

- Bank hesabları (depozitləri) haqqında (hesaba münasibətdə deklarantın bəyannamənin təqdim olunduğu tarixə 7 avqust 2001-ci il tarixli 115 F3 Nömrəli "Cinayət yolu ilə əldə olunmuş vəsaitlərin leqallaşdırılmasının və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması" Federal Qanuna əsasən benefisiar sahib kimi tanınmasına əsaslar olduqda).

İkinci mərhələ 1 mart 2018-ci il tarixdən 28 fevral 2019-cu il tarixədək olan dövrü əhatə edir. Fiziki şəxslər yenə də könüllü əsasda Rusiya Federasiyasının hüdudlarından kənarda yerləşən banklardakı hesabları (depozitləri) barədə məlumatları təqdim edirlər.

Rusiya Federasiyasının qanunvericiliyində bəyannamələrin birgə şəkildə təqdim olunması nəzərdə tutulmur. Hər bir vergi ödəyicisi ayrıca bəyannamə təqdim edir. Yalnız dövlət qulluqçusu həm özü haqqında, həm həyat yoldaşı, həm də yetkinlik yaşına çatmayan uşaqlarına görə, hər biri üçün ayrılıqda arayış təqdim edir.

Qazaxıstanda ümumi bəyannamə sisteminə tam keçid hələ 2010-cu ildən başlamışdır. Hazırda "Fiziki şəxslərin gəlir və əmlak vergisi bəyannaməsi" yalnız aşağıdakı şəxslər tərəfindən təqdim olunur:

- Qazaxıstan Respublikası Parlamentinin deputatları;

- Hakimlər;

- Qazaxıstan Respublikasının qanunvericiliyinə əsasən bəyannamə təqdim etmək öhdəliyi olan fiziki şəxslər.

Fiziki şəxslərin gəlir və əmlaklarını bəyan etməsi vergilərin və digər məcburi ödənişlərin büdcəyə alınmasının təmin edilməsində, Qazaxıstan Respublikasının vergi ödəyicilərinin vergi mədəniyyətinin artırılmasında, korrupsiya və kölgə iqtisadiyyatına qarşı mübarizə sahəsində dövlətin rolunu gücləndirməyə kömək edir.

Belə ki, 2020-ci ildən Vergi Məcəlləsində "Fiziki şəxslərin gəlirlərinin və əmlaklarının bəyan edilməsi" adlı 71-ci fəsil qüvvəyə minmişdir. Bu fəsildə bəyannamənin təqdim olunma qaydası əks olunur. Ümumi bəyannamə sisteminin tətbiqi ilə aşağıdakıların bəyannamə təqdim etmək öhdəliyi yaranır:

- Qazaxıstanın yetkinlik yaşına çatmış vətəndaşları, oralmanlar (etnik azlıqlar - qonşu ölkələrdən köçmüşlər), Qazaxıstanda yaşayış hüququ olanlar;

- Yetkinlik yaşına çatmayanlar - onların adına əmlak qeydiyyatdan keçirdikdə və yaxud gəlir əldə olunduqda;

- Əcnəbilər - Qazaxıstan ərazisində əmlakı olduqda və ya Qazaxıstan mənbəyindən müstəqil şəkildə vergiyə cəlb edilməli olan gəlir əldə etdikdə.

2020-ci ildən Qazaxıstanda və ölkədən kənarda aktivləri və öhdəlikləri olan bütün rezident fiziki şəxslər bəyannamə təqdim etməlidirlər. İl ərzində fiziki şəxsin yalnız əmək

haqqından, təqaüdlərdən gəliri varsa "Qısa bəyannamə” təqdim edir.

Fiziki şəxslərin əmlak və gəlir bəyannaməsində 31 dekabr 2019-cu il tarixə fiziki şəxslərin öhdəlikləri də daxil olmaqla mənzil, bank depozitləri, nağd vəsaitlər, digər əmlaklar və üzərində xüsusi mülkiyyət hüquqi olan aktivlərə dair məlumatlar göstərilməlidir. Fiziki şəxs mənzili ipoteka ilə alırsa və mənzilin dəyəri tam ödənilməyibsə bu aktivə dair məlumat bəyannamədə göstərilmir. 49 il müddətinə kimi torpaq sahəsi istifadə üçün icarəyə götürüldükdə bu məlumatlar da bəyannamədə göstərilmir.

Bəyannamədə göstərilən nağd məbləğin həddi minimum əmək haqqının 500 mislindən çox olmamalıdır. Əgər nağd vəsait bu həddən yuxarı olarsa, müəyyən edilmiş həddən artıq məbləğ mütləq qaydada bank hesabına yerləşdirilməlidir. Əgər nağd vəsait fərqli valyutadadırsa, bəyannamədə hər bir məbləğ ayrıca sətirdə göstərilir.

Yunanıstanda fiziki şəxslər tərəfindən illik gəlirlərlə bağlı bəyannamələr hesabat ilindən sonrakı ilin 1 fevral 30 iyun tarixləri arasında təqdim edilir. Fərdi sahibkarlar və mühasib vasitəsilə bəyannamə təqdim edən şəxslər bəyannamələrini elektron formatda təqdim etməlidirlər. Ər- arvadlar birgə bəyannamə təqdim edirlər və onlardan hər biri məcmu gəlirdəki paylarına müvafiq olaraq vergiyə cəlb edilirlər. 18 yaşınadək olan şəxslər bəyannamə təqdim etmək öhdəliyindən azaddırlar. Onların gəlirləri gəliri daha çox olan valideynin gəlirlərinə daxil edilir və müvafiq qaydada vergiyə cəlb edilir. Ər-arvadın gəlirləri bərabər olarsa, 18 yaşınadək olan uşağın gəliri atanın gəlirlərinə daxil edilir. 18 yaşınadək olan şəxslərin gəlirləri aşağıdakı hallarda ayrıca vergiyə cəlb edilir:

- gəlir şəxsən həmin şəxs tərəfindən əldə edilmişsə;
- valideynlərdən başqa hər hansı şəxs tərəfindən hədiyyə edilən və miras edilən əmlakdan gəlir əldə edilmişsə;
- valideynlərdən birinin ölümünə görə uşağa verilən müavinətə görə.

İrlandiyada illik gəlirlə bağlı bəyannamələr hər il oktyabrın 31-dək vergi orqanlarına təqdim edilməlidir. Gəlirlər İdarəsinin internet saytında bəyannamələrin onlayn təqdim edilməsi də mümkündür. Bəyannamələrin gec təqdim edilməsinə görə cərimə tədbirləri də mövcuddur. Belə ki, bəyannaməni müəyyən edilmiş müddətdən 2 ay gec tərtib etməyə görə ümumi vergi öhdəliyinin 5%-i, 2 aydan çox gec təqdim etməyə görə ümumi vergi öhdəliyinin 10%-i həcmində maliyyə sanksiyası tətbiq edilir. Lakin, tətbiq edilən sanksiyanın maksimum məbləği birinci halda 12695 Avro, ikinci halda isə 63485 Avro ola bilər. Həmçinin, bəyannamənin təqdim edilmədiyi halda vergi müfəttişi tərəfindən vergi öhdəliklərinin yenidən hesablanması aparıla bilər. Yenidən hesablama, həmçinin, bəyannamə təqdim edən şəxsin gəlirləri ilə bağlı tam məlumat təqdim etməməsi halında da aparıla bilər. Ər-arvadın vergiyə cəlb edilməsi həm birgə, həm də ayrı bəyannamələrin təqdim edilməsi yolu ilə həyata keçirilir.

Avstraliyada 1992-ci ildən vergi ödəyicisi tərəfindən iki il ərzində deklarasiyaya düzəlişlər eləmək hüququnun olması ilə vergilərin müstəqil hesablanması rejimi qüvvədədir. Vergilər ödənildikdən sonra şəxs vergi xidmətindən hesabat alır. Bəyannamədə-əmək haqqı məlumatı, pensiya hesabına ayırmalar, sığorta ödənişləri, investisiya gəliri, bank depozitləri üzrə faiz, daşınmaz əmlak əməliyyatlarından yaranan gəlir, qiymətli kağızlarla əməliyyatlardan gəlir qeyd edilməlidir. Həmçinin şəxslər vergi orqanlarına xarici şirkətlərlə əməkdaşlıqları haqqında məlumat verməlidirlər. Avstraliyada bəyannamələrin əvvəlcədən doldurma xidməti üçün e-tax servisi fəaliyyət göstərir. Xidmətdən istifadə edərək bu xidmət vergi ödəyicisinin yerinə bəyannaməni qismən

doldura bilər. Bu məqsədlə o aşağıdakı məlumatlardan istifadə edir:

- işəgötürənlər, banklar və digər dövlət orqanlarının (üçüncü tərəflər) cari il məlumatlarını istifadə etməklə;

- şəxsin hesab fəaliyyətindən və əvvəlki vergi bəyannamələrindən istifadə etməklə əldə edilən məlumatlar.

Bu xidmətin əsas məqsədi bəyannamələrin daha dəqiqliklə doldurulmasına kömək etməkdir.

Danimarkada fiziki şəxslər illik gəlirləri ilə bağlı hesabat ilindən sonrakı ilin 1 may tarixindən gec olmayaraq təqdim edirlər. Danimarkada əvvəlcədən doldurulmuş (pre-filled) vergi bəyannamələri sistemi tətbiq edilməkdədir. Bu sistemə əsasən, fiziki şəxslərin gəlirləri barədə vergi orqanlarında olan məlumatlar əsasında onların bəyannamələri əvvəlcədən vergi orqanları tərəfindən doldurulur və təsdiq üçün fiziki şəxslərə təqdim edilir. Fiziki şəxs 1 may tarixinədək bəyannaməyə müvafiq düzəlişlərini edib yenidən vergi orqanına təqdim etməlidir. Bu sistemdən istifadə etməmə hüququnu seçən şəxslər bəyannamələrini 2 iyul tarixinədək vergi orqanına təqdim etməlidirlər.

Fransada rezident fiziki şəxslər illik gəlirləri ilə bağlı bəyannaməni hər il 1 mart tarixinədək vergi orqanına təqdim etməlidirlər. Bəyannamədə qeyd edilən məlumatlar fiziki şəxsin yaşayış standartları ilə uyğun olmazsa, onun gəlirləri bir sıra xərc faktorlarına, o cümlədən xidmətçilər, şəxsi hava gəmiləri, yaxtalar, maşınlar, atlar və 8 qolf klublarına üzvlük və ovçuluq hüquqlarına əsasən hesablanır və vergi hesablanmış belə məbləğindən hesablanır.

Ümumiyyətlə, ümumi bəyannamə sisteminə keçid asan proses deyil və bir neçə mərhələdə həyata keçirilməlidir.

Birinci mərhələdə vergi siyasəti müəyyən olunmalıdır. Bu mərhələdə ümumi konsepsiyanın işlənib hazırlanmalı, bunun əsasında vergi qanunvericiliyinə dəyişikliklərin edilməsi nəzərdə tutulmalıdır. Vergi siyasətinin müəyyən olunması ilə yanaşı vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri də müəyyən olunmalıdır.

İkinci mərhələdə bəyannamələrin qəbulu üçün hazırlıq işlərinin görülməsi məsələsi həll olunmalıdır. Bunun üçün:

- bəyannamə üzrə normativ hüquqi aktların təsdiq olunması və vahid formanın müəyyən olunmalı;

- bəyannamələrin tərtib olunması üzrə metodiki vəsaitlərin hazırlanması, vergi ödəyicilərinə pulsuz bukletlərin və broşürlərin paylanmalı;

- təbliğat və maarifləndirmə tədbirlərinin keçirilməsi;

- mövcud informasiya texnologiyaları modullarının bəyannamələrin qəbuluna uyğunlaşdırılmalı;

- Fərdi Eyniləşdirmə Nömrələmə (FEN) sisteminə keçidə hazırlığın görülməli.

Üçüncü mərhələdə dövlət qurumları və dövlət təşkilatlarının əməkdaşları aktiv və öhdəliklərindən ibarət bəyannamə təqdim etməlidir. Bu mərhələdə əmlakın müəyyən olunması üzrə bəyannamələrin qəbul edilməsi, kameral nəzarət üzrə informasiya sistemlərinin uyğunlaşdırılması, vergi orqanlarının digər dövlət qurumları ilə əlaqələrin qurulması işləri nəzərdə tutulur.

Dördüncü mərhələdə üçüncü mərhələdə əhatə olunmayan vətəndaşlar bəyannamə təqdim edəcək. Yəni bu mərhələdə bəyannamə bütün vətəndaşlara şamil ediləcəkdir.

Hazırda Azərbaycanda ümumi bəyannamə sisteminin tətbiqinə keçid aktuallaş-

mış və onun tənzimlənməsi məqsədilə aşağıdakı məlumatlar araşdırılır:

- fiziki şəxslərin gəlir və əmlakları üzrə ümumi bəyannaməni təqdim etmək öhdəliyi olan şəxslərin əhatə dairəsi müəyyən edilir;
- ümumi bəyannaməni qəbul etməli olan səlahiyyətli subyektlər müəyyən edilir;
- ümumi bəyannamə sisteminə mərhələlərlə keçidin forma və mərhələləri müəyyən edilir;
- ümumi bəyannamənin ildə neçə dəfə və hansı müddətədək təqdim olunması araşdırılır;
- ümumi bəyannamə vaxtında təqdim edilmədikdə və ya təhrif olunmuş formada təqdim edildikdə, məlumatlarda uyğunsuzluq aşkar edildikdə tətbiq ediləcək məsuliyyət tədbirləri müəyyənləşdirilir;
- ümumi bəyannaməni təqdim edən şəxslərdə vergi nəzarəti tədbirlərinin keçirilməsi mexanizmi araşdırılır;
- ümumi bəyannamənin təqdim edilməsinin stimullaşdırılması məqsədilə görüləcək tədbirlər müəyyənləşdirilir;
- ümumi bəyannaməni təqdim etmək öhdəliyi olan şəxslərin yaş həddi (yuxarı və aşağı) müəyyənləşdirilir;
- konsolidə edilmiş bəyannamələrin (ər-arvadın, övladların adından vahid bəyannamənin verilməsi) təqdim edilməsi forması müəyyənləşdirilir.

Bunun üçün ümumi bəyannamə sisteminin tətbiqi üçün xüsusi Konsepsiya hazırlanmalı və bu Konsepsiyada təkcə bu sistemin tətbiqi qaydaları deyil, həmçinin onun inkişaf perspektivləri və ümumi bəyannamə sisteminə keçidin təmin edilməsi üçün qarşıda duran məsələlər əks etdirilməlidir. Bunun üçün:

- ümumi bəyannamə sisteminin tətbiqi üçün metodoloji və hüquqi baza hazırlanmalıdır;
- dövlət orqanlarının fiziki şəxslərin bəyannamələrinin qəbulu və işlənilməsinə hazırlığı məqsədilə tədbirlər görülməlidir;
- ümumi bəyannamə sisteminə keçidlə bağlı əhali məlumatlandırılmalı və maarifləndirilməlidir;
- bəyannamələrə səmərəli kameral nəzarət sistemi yaradılmalıdır.

Hazırda gəlir vergisi və sosial müdafiə ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi həm ümumilikdə iqtisadi-sosial səmərəliliyin artmasına, həm vergi sahəsinin inkişafı baxımından beynəlxalq standartlara yaxınlaşmasına səbəb olmuşdur:

1) ümumi vergi bəyannamə sisteminin tətbiqi fiziki şəxslərin gəlirlərinin şəffaflığının artması təmin edəcək;

2) yüksək və şəffaf olan gəlirlər (əmək haqqı və dividendlər) əldə etmək üçün müəssisələrdə çalışan işçilərə iqtisadi-sosial stimullar yaradılacaq, bu isə öz növbəsində ölkədə müəssisələrin rəqabət qabiliyyətinin və gəlirlərin artmasına müsbət təsir edəcək;

3) özlərini risk qarşısında qoymamaq üçün müəssisələr "ikili" mühasibatlığın aparılmasına son qoyacaqlar.

Vacib məsələlərdən biri də vergi orqanının ictimaiyyət qarşısında geniş təbliğat və maarifləndirmə işinin təşkil etməsidir. Buna kütləvi informasiya vasitələri ilə əməkdaşlıqla yanaşı, buklet və broşürlərin paylanması, o cümlədən bəyannamələrin doldurulması qaydalarına dair video çarxların yayımlanması da daxildir.

Eyni zamanda, vergi orqanının qarşısında peşəkar vergi məsləhətçiləri institutunun yaradılması üzrə təşviqat işi də durur. Əlavə insan, maliyyə və texniki resurslarla vergi orqanının təminatı da mühüm məsələlərdəndir.

**Ədəbiyyat siyahısı:**

1. Məhərrəmov R.B. Gəlir vergisinə yeni yanaşma və “ikili” mühasibat uçotu. UNEC Ekspert, № 1 (07) iyul 2019
2. http://www.taxes.gov.az
3. http://www.consultant.ru/document/cons doc LAW 87845/
4. http://www.consultant.ru/document/cons doc LAW 28165/ecfd690acbabfd 266e9d5c4ac0275726d4d0a7c1/
5. https://spmag.ru/sites/spmag.ru/files/docs/novaya spravka 2-ndfl-2019 dlya ifns blank.pdf
6. https://www.zakon.kz/4923524-s-1-vanvarva-2020-goda-budet-vedeno.html
7. https://primeminister.kz/ru/news/all/1-vanvarva-2020-goda-v-kazahstane-budet-vnedreno-vseobshchee-deklarirovanie-komitet-gosdohodov-16874 https://www.irs.gov/irm/part1/irm 01-001-028#idm140351816708960



*Balayev Orxan Arif oğlu, doktorant,*
*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi*


## RƏQƏMSAL TEXNOLOGİYANIN MÜASİR MARKETİNQDƏ ROLU


Elmin bütün sahələrində olduğu kimi marketinq elmi, onun metod və funksiyaları eləcə də iş prinsipləri mütəmadi dəyişikliklərə və təkmilləşmələrə məruz qalır. İstehsalın, ticarətin, tələbin, təklifin və s. yeni metodları formalaşdıqca, bütün bu proseslərin başında duran marketinqə də yeni yanaşmalar, yeni baxışlar yaranır. Məqalədə bu vaxta qədər marketinqə verilmiş təriflərin bir neçəsi sadalanmış və müasir marketinq anlayışına tamamilə yeni yanaşma sərgilənmişdir. Həmçinin, mötəbər beynəlxalq mənbələrə istinadən rəqəmsal texnologiyanın tətbiqinə əsaslanan 10-a yaxın yeni trendin qısa izahı verilmişdir.


Ənənəvi marketinq ilə müasir marketinq anlayışları arasında çox böyük fərq var. Müasir dövrümüzdə digər elm sahələrində olduğu kimi iqtisadiyyatın da istənilən sahəsi mövcud deformasiyalara adekvat reaksiya vermirsə qısa müddətdən sonra aktuallığını itirmiş lazımsız informasiya toplusuna çevrilir. Yarım əsr bundan öncə mövcud olan elmi tendensiyalar hazırkı dövrümüzdən çox fərqlənir. Belə ki, bir neçə onillik bundan öncə dərs vəsaitlərində və digər ədəbiyyatlarda olan bütün materialları mənimsəyən bir kimya mühəndisi yüksək ixtisaslı mütəxəssis hesab olunurdusa, bu gün bu durum tamamilə fərqlidir. Hal-hazırda 6 ay ərzində kimya sahəsində dünyada baş verən yenilikləri izləməyən kimyagər artıq yüksək səviyyəli mütəxəssis hesab oluna bilməz. Çünki dünyada demək olar ki hər gün yeni maddələr yeni elementlər kəşf olunur. Marketinq sahəsində də bu durum çox da fərqli deyil, hətta daha ciddidir. Belə ki, universitetlərdə tədris olunan ənənəvi marketinq nəzəriyyələrində, marketinq bazarı araşdıran fəaliyyət kimi öyrənmişik, onun ən önəmli aləti kimi isə reklam və onun funksiyalarını mənimsəmişik. O zaman ki yanaşmalara görə “Marketinq-mübadilə fəaliyyətini həyata keçirmək üçün bazarda aparılan məqsədyönlü fəaliyyətdir” ifadəsi bu

anlayışı təsvir etmək üçün kifayət edirdi. Həmin dövrlərə aid marketinq kitablarında: "Əslində marketinqin fəlsəfəsi çox sadədir: "elə məhsul istehsal et ki onun satışı təmin edilmiş olsun, yalnız belə olduğu təqdirdə müəssisə özünə bazarda möhkəm yer tuta bilər və onun gəliri də yüksək olar"" yanaşma tərzi çox rast gəlinirdi. Əslində isə marketinq o qədər primitiv və məhdud fəaliyyət sahəsi deyildi. O zaman ki marketoloqların səsləndirdiyi bir neçə fikrə diqqət yetirək: "Marketinq müəssisələrdə əmtəələrin təkrar istehsalı prosesində fəaliyyətin təşkili sistemidir", "Uyğun məhsulun, uyğun yerdə, uyğun miqdarda və uyğun qiymətə alıcıya çatdırılması üçün aparılan insan fəaliyyətidir", "Cəmiyyətin təlabatlarını ödəmək vasitəsi ilə mənfəət qazanmaq üçün istehsal və satış (mübadilə) prosesinin kompleks təşkilidir", "Müştərini elə dərk etmək və başa düşməkdir ki, əmtəə və ya xidmət sonuncuya tamamilə münasib olsun, yəni məhsul özü-özünü satsın" və s. Özlüyündə bu fikirlərin hamısı doğrudur. Marketinq bunları əhatə edən lakin bunlarla məhdudlaşmayan elmdir. Daha doğrusu bir zamanlar doğru idi. Amma kapitalizmin müasir tələbləri, eləcə də rəqəmsal texnologiyaların sürətli inkişafından irəli gələn yeni imkanlar göstərdi ki, bu təsvirlərin hamısında nəisə çatmır, nəisə çox önəmli bir faktor: "Yaradıcı təfəkkür mövqeyi". Deməli müasir marketinq tamam fərqli yöndə inkişaf edir.

"Yeni tələbatın yaradılması sənəti".

Kotler haqlı olaraq deyir: "Marketinq ilə istehsal olunmuş məhsuldan qurtulmağın hiyləgər üsullarının axtarışı arasında ümumi heç nə yoxdur". Bu həqiqətən də belədir. Biz çox vaxt marketinqlə satışı qarışdırır və ya eyniləşdiririk. Əslində isə satışlar marketinq fəaliyyətinin bir hissəsidir. Müasir marketinqin əsas fəaliyyət istiqaməti yeni məhsul və xidmətin yaradılmasıdır. Bazarın geniş tədqiqatı, mövcud əmtəə və xidmətlərin araşdırılması, onların düzgün qiymətləndirilməsi, yayım kanallarının açılması, məhsul yaxud xidmət haqqında bazarın məlumatlandırılması və s. əslində ümumi fəaliyyətin təşkili üçün aparılan tədbirlərdir. Beləliklə, bilməyik ki, marketinq özlüyündə adi satışdan qat-qat mürəkkəb prosesdir.

Satış - məhsul artıq əlimizdə olanda başlayır. Marketinq isə məhsul meydana çıxmazdan əvvəl başlayır. Marketinq adamların nəyə ehtiyacı olduğunu və nə istehsal etməyin lazım gəldiyini aydınlaşdırmaq üçün şirkətin yerinə yetirməli olduğu ev tapşırığıdır. Əmtəəni necə istehsal etməyi, qiymətini qoymağı, əmtəəni bazarda necə yaymağı və reklam etməyi məhz marketinq müəyyən edir. Marketinq həmçinin əmtəənin təklifini nə zaman dəyişmək, yaxud ondan tamam imtina etmək lazım gəldiyini müəyyən edir. Və ən önəmlisi insanlar üçün yeni tələblər formalaşdırır. İnsanlar heç zaman ehtiyac duymadığı məhsul və xidmətlərə zəruri tələbat kimi yanaşırlar. İnsanlara pul xərcləmək üçün yeni səbəblər və vasitələr verilir. Nəticələr isə əsasən müsbətdir. Cəmiyyət inkişaf edir, iqtisadiyyatlar böyüyür, dövriyyədə əmtəə-pul kütləsi artır və bunlardan doğan bir sıra müsbət hadisələr.

Yeni trendlər.

Müasir marketinqin yeni trendləri formalaşdıqca onun fəaliyyət formalarında və təsir metodlarında da bir sıra təkmilləşmələr və yeniliklər yaranır. Müasir keyfiyyətli reklamlar əvvəlki kimi açıq-aşkar, sadəlövcəsinə məhsulun adı və xarakteriktikasını auditoriyanın diqqətinə çatdırmaqla həyata keçirilirmir. Burda metod artıq tamam fərqlidir və metodlar ən yeni texnoloji imkanların sayəsində mümkün olur. Köhnə metodlar müasir metodların yanında qəzet elanı səviyyəsindədi və demək olar ki effekt-

sizdi. Artıq məhsul və xidmətlər böyük büdcəyə malik filmlərin içində gizli şəkildə auditoriyaya təbliğ olunur. Yeni tələbatın formalaşması da əsasən belə metodlarla həyata keçirilir. Əgər sevdiyimiz filmin baş qəhrəmanı smart evdə yaşayır və filmə baxarkən biz smart evin funksiyalarını müşahidə ediriksə, fərqinə varmadan onun markasını da əşyaların üzərində görürük və tədricən həyatımıza tətbiq etməyə qərar veririk. Hətta bir müddət sonra onsuz ev belə təsəvvür edə bilmirik. Sanki doğulandan smart evdə yaşamışıq kimi zəruri tələbata çevrilir. Bəzən əşyanın üzərində markanın adını belə göstərməyə ehtiyac olmur. İstifadə olunan mebel və ya kreslo modeli özünü reklam eləmiş olur. Artıq reklam çarxları və filmlərdə fon musiqilərinin tezliyini nizamlamaqla insanların aclıq hiss etməsi, özünü xoşbəxt hiss etməsi və s. Kimi yeni elmi-texnoloji metodlardan istifadə olunur. Artıq rəqəmsal marketinq sayəsində sosial şəbəkələr üzərindən istənilən məhsulun dəqiq hədəf auditoriyasını müəyyənləşdirmək mümkündür. Brendlər öz hədəf kütlələrinə çatmaq üçün marketinq trendlərində baş verən dəyişiklikləri öz işlərində tətbiq etməlidirlər. Çünki, müasir istehlakçı daha çox məlumatlıdır və reklamlara şübhə ilə yanaşır.

Beynəlxalq təcrübədə geniş istifadə olunan aşağıdaki yeni marketinq trendləri mövcuddur:

**Virtual reallıq.** Bu metod tanınmış brendlər tərəfindən marketinq aləti kimi çoxdan istifadə olunur. Virtual reallıq brendin mesaj çatdıra bilməsi, informasiyanın hədəfə çatdırılması və şüuraltı təsir baxımından çox əhəmiyyətlidir. Müasir dövrümüzdə geniş gündəmdə olan və getdikcə təsir gücünün artacağı gözlənilən ən effektiv metodlardan biridir.

**İnteraktiv kontent**. B2B (Business-to-business) metodu ilə işləyən brendlərin əksəriyyəti özlərinin kontent marketinq strategiyası kimi bloq kontentinə etibar edirlər. Onlar bunu digər marketinq trendlərində olduğu kimi, potensial müştəri axtarışı üçün edirlər. Dolayısilə bu metod məhsullara potensial alıcıları cəlb etmək üçün maraqlı və cəlbedici məzmun yaratmağa yönəlmiş bir plandır. Marketoloqların fikrincə belə interaktiv veb üsullar, yəni düşüncə liderliyi, məzmunun daha cəlbedici, hərəkətli, vizual yollarla diqqətcil istehlakçıya çatdırılması marketinq trendləri arasında ən öndə gələnlərdəndir.

**Süni intellekt.** Bu metodu mənimsəyənlər artıq onun istifadəçi sayını artırmaq üçün bir vasitə olduğunu başa düşürlər. Bununla belə, brendin daha çox anlaşıla bilən olması üçün süni intellekt, səhifənin söhbət bölməsi və ya "Facebook Messenger" ilə inteqrasiyanı həyata keçirir. Süni intellekt hələ də müştərinin ehtiyaclarını və problemlərini bir insan agenti kimi ələ almaq məcburiyyətindədir. Süni intellekt təcrübəsi, həmçinin müştərilərin məmnun olub-olmadığını da aşkara çıxarır.

**İstifadəçi tərəfindən yaradılmış məzmun.** Müştərilər etibarlı brendlərə həmişə üstünlük veriblər. Araşdırmalar göstərir ki, müştərilərin 86%-i bildirir ki, brend barədə qərar verərkən etibarlılıq önəmlidir. Digər bir auditoriyanın 60%-i isə bu fikirdədir ki, brend tərəfindən yaradılmış təsəvvür əksər məzmunlardan daha etibarlıdır. Çoxkanallı marketinq cəhdləri vasitəsi ilə etibarlı və cəlbedici təəssürat yaratmaq, eləcə də təklifi müştərinin tələbatına inteqrasiya etməklə onların qəlbini və "cüzdanını" qazanmağa nail olmaq olar.

**Səsli axtarış.** Səsli axtarış son dövrdə ən tez mənimsənilmiş texnologiyalardan biridir və bu müştərilərin dünya ilə əlaqəsinə təsir edir. Müştəri sual verərkən, 10 dənə

link yox, birbaşa cavabı ala bilirsə bu artıq onun seçim şansının konkretləşməsi deməkdir. Marketoloqlar əsas səs provayderlərinə öz biznesləri haqqında məlumatları düzgün daxil etmələrini tövsiyə edir ki, bu da müştərilərin axtardıqlarını axtarışın ilk dəqiqələrində tapmağa kömək edir. Və bu məhsul seçimində çox önəmlidir.

**Dürüstlük.** Aşkar dürüstlük hal-hazırda xüsusi önəm daşıyan trendlərdən biridir. Marketoloqlar öz məhsullarının və xidmətlərinin üstün tərəflərini aydın ifadə edərək üstünlük əldə edə bilərlər. Bu ifadələr obyektiv müştəri baxışları ilə dəstəklənə bilər. Bu dürüstlük marka bütövlüyünə, güvənə və satışa çevrilir.

**Hesab əsaslı marketinq məzmunu.** Hesab əsaslı marketinq məzmunu B2B şirkətlərinə fərdləri bir şirkət olaraq hədəfləməsinə kömək olacaqdır. Artıq marketoloqlar, mikro hədəflərlə, açılış səhifələri ilə, rəsmlərlə və ya hərəkətə keçirən mesajlarla, fərdiləşdirilmiş məzmundan yararlanaraq, son dərəcə hədəflənmiş, bənzərsiz bir istifadəçi təcrübəsinə tək ölçülü bir yanaşmadan uzaqlaşma fürsətinə sahibdirlər.

**Müştəriləri məlumatlandırmaq.** Qərar verəcək şəxslər informasiya ilə doldurulub və biz marketoloq olaraq, bir məlumatın digərindən fərqli olduğunu bilirik. Buna görə də, öyrətməyə çalışmalıyıq. Alıcılar nəyisə almaq üçün öz üsullarını formalaşdırırlar və bizim açar kəlimələri göstərmək və önə çıxarmaq fürsətimiz var. Lazım olan sözü və ya fikri yaradaraq istədiyimizi əldə edə bilərik.

**İnflunser marketinq.** Son illərin ən təsirli trendlərindəndir. Sosial media vasitəsi ilə tanınmış şəxslərin rəyləri vasitəsi ilə hədəf auditoriyasına effektiv nüfuz metodudur.

Nəzərə alsaq ki elm və texnikanın inkişafı həyatımıza daim yeni nələrsə daxil edir, hesab etmək olar ki, bu metodlar daim yenilənəcək təkmilləşəcək və yaxud aktuallığını itirərək artıq istifadə olunmayacaq.

Marketinq düşünüldüyündən daha mürəkkəb anlayışdır. Təəsüflər olsun ki, uzun illər inzibati amirlik iqtisadi sistemində mövcud olan iqtisadiyyatlar hələ də real biznes mühitini tam tətbiq edə bilmirlər. O cümlədən marketinq də həmin iqtisadiyyatlar üçün sadəcə satış və bazarın araşdırılması ilə məhdudlaşır. Məqalədən çıxan nəticələrdən biri ondan ibarətdir ki, marketinqi kompleks şəkildə tətbiq etmək, bu sahədə dünyada mövcud olan bütün texnoloji imkanlardan maksimum şəkildə yararlanmaq lazımdır. Marketinq prosesi istehsaldan öncə fəaliyyətə başlamalıdır. Dolayısıyla deyə bilərik ki marketinq araşdırmaları ideya ilə eyni vaxtda yaranmalı və prosesin bütün mərhələlərini əhatə etməlidir. Müasir dünyada bazarında brend olaraq tanınmaq üçün ən yeni marketinq trendlərini izləmək, tətbiq etmək hətta onları qabaqlamaq lazımdır.

## Ədəbiyyat siyahısı:


1. Philip Kotler, According to Kotler The World's Foremost Authority on Marketing Answers Your Questions. Bakı, "Qanun" 2016 s34, 38, 41
2. https://www.forbes.com/sites/forbescommunicationscouncil/2018/02/14/12-marketing-trends-to-take-advantage-of-this-year/2/#8c1c5f060029
3. https://az.unitinal.com/m%C9%99zmun-marketinqi-n%C9%99dir/
4. https://seven.services/blog/marketinq-anlayisi-ve-marketinqde-5p-prinsipi/

*Vəlizadə Kamran, doktorant,*
*Naxçıvan Dövlət Universiteti*

# FƏLSƏFƏ TARİXİNDƏ DƏYƏR PROBLEMİNƏ BAXIŞ

Dəyər sözü müasir mədəni, fəlsəfi leksikada ən çox işlənən anlayışlardan biridir. Bu gün sosial-humanitar elmlərdə milli-mənəvi, geosiyasi, liberal, ənənəvi, etik, estetik, mədəni, dini dəyərlər ifadələrinə tez-tez təsadüf edilir. Dəyər fəlsəfi kateqoriya kimi dünyagörüşü əhəmiyyəti kəsb edir.

Dəyər anlayışı XX əsrdə fəlsəfi məna kəsb etmişdir, 1902-ci ildə İ.Kreybirq dəyəri, qiymətləndirməni, dəyərlərin reallaşma səviyyəsini səciyyələndirən timologiya terminini irəli sürmüşdür. Anlayışın mənası yunanca "tim", "qiymət", "lokiya" elm, təlim sözlərindən olub, qiymət, dəyər haqqında təlim deməkdir. Eyni zamanda fransız filosofu P.Lapi daha uğurlu anlayış olan aksiologiya (dəyər haqqında təlim) terminini 1902-ci ildə elmi dövriyyəyə daxil etmişdir.

Qədim yunan filosofu Sokrat qiymətli, dəyərli olanı faydalılıqla eyniləşdirirdi (1,351). Dəyərlər haqqında məsələni ilk dəfə fəlsəfə tarixində tədqiq edən Sokrat onu rifahla əlaqələndirərək öz fəlsəfəsinin mərkəzi müddəası kimi şərh etmişdir.

Platon "Qanunlar" əsərində yaxşı təşkil olunmuş dövlətin "dəyərlər bölgüsündən" bəhs edir, onların ierarxiyasını müəyyənləşdirərək ictimai xoşbəxtlik və rifahla əlaqələndirir: "Hüquqa görə ən dəyərli olan cana, ruha aid rifahdır, əgər onda mühakiməlilik varsa sonra bədənin ən gözəl keyfiyyətinə çevrilir, üçüncüsü rifah əmlaka və ya firavanlığa aid olur"(2,168-169). Platon əslində dəyərlər anlayışını rifah səviyyəsinə yüksəldir, onu ruh, bədən və zahiri növlərə bölür, dəyəri ən mühüm yeni dəyərliliklə-mühakiməliliklə şərtləndirir.

Aristotel də özünün "Ritorika" əsərində dəyəri rifahla əlaqələndirmişdir. O, müqayisəli rifah dəyərinin məqsəd kateqoriyası ilə qarşılıqlı münasibətindən bəhs edərək göstərir ki, dəyərli olan məqsədə yaxın rifahdır (3,39-41).

Yeni dövrdə dəyər problemini ilk dəfə fransız filosofu R.Dekart işləmişdir. Alman şahzadəsi Yelizavetaya göndərdiyi 1645-ci il 1 sentyabr tarixli məktubunda o qeyd edir ki, "zəkanın həqiqi təyinatı bütün rifahların əsil dəyərlərinin (valeur) nəzərdən keçirilməsindən ibarətdir. Bu dəyərlər müəyyən şəkildə bizim davranışlarımızdan asılı olaraq əldə edilir"(4,284). Burada "dəyər" anlayışı subyektin , konkret olaraq mənəvi fəaliyyətlə qarşılıqlı əlaqəsində göstərilir.

Kantın "Adətlərin metafizikasının əsasları" əsərində sırf xoş iradənin mütləq dəyər ideyası adi şüura yaddır. Buna görə də xüsusi nəzərdən keçirilməyə ehtiyac duyur. "Mütləq dəyər" ondadır ki, həqiqi mənəvi dəyər yalnız "borca görə" yerinə yetirilən əxlaqi əmələ xas deyildir. İnsan öz yaxınlarına hətta təmənnasız xeyirxahlıq edə bilər və mənəvi dəyərə malik davranışı yerinə yetirərkən, öz rifahına cəhd edərkən borc hissinə əsaslana bilər (5,39-40). Kantın fikrincə, ağıllı varlıqların dəyərlərinin mümkün qiymətləndirilməsi onların təmənnasız davranışlarına əsaslanır. "Yalnız belə davranışlar həmin varlıqlara mütləq dəyər verə bilər. Biz mənəvi qanunlara uyğun olan öz dəyərlərimizi özümüz hiss edə bilərik"(6,166-167) .

Aksiologiyanın klassik mərhələsi dəyərlər nəzəriyyəsinin normativ problemlərini formalaşdıran üç filosofla başlayır. Q.Lotse fəlsəfəyə dəyər kateqoriyasının geniş tət-

biq etməsilə məşhurdur. Lotse dünya qavramının "əsas üzvünü" dəyərlərin və onların qarşılıqlı münasibətlərinin duyumunu müəyyən edən "kəşf" olduğunu iddia edir. Bu "kəşf" dəyərlər aləminin dərki üçün kifayət qədər mötəbər, dürüst deyildir. O, daha çox cisimlərin dərk olunması ilə əlaqədardır. Subyektin cisimləri olmadan dəyərlər mövcud ola bilməz. Lakin bu dəyərlərin yalnız subyektiv olduğuna dəlalət etmir. Lotse dəyərlərin ierarxiyasını belə qurur: birinci səviyyə ruhun təsadüfi vəziyyətinə uyğun gəlir, ikinci səviyyə subyektin mənəvi təşkilinin ümumi xüsusiyyətlərinə, üçüncü səviyyə ruhun daimi tarazlığı vəziyyətinə uyğun gəlir. Bu ali dəyər rifaha bərabərdir. Lotse "aksioloji qnoseologiyasında anlayışlarla və fikri fərqləndirir(7,9). Bununla da Lotse göstərir ki, anlayışlar ancaq müəyyən obyektiv fikir haqqında məlumat verir, fikir isə onun əhəmiyyətini və dəyərini bildirir. Filosof belə düşünür ki, Allah haqqında fikir Allah anlayışından fərqlənir. Məhz Lotsedən başlayaraq estetik, əxlaqi və dini dəyərlər fəlsəfi leksikanın mühüm vahidlərinə çevrilir.

Dəyər təliminə Lotse ilə birlikdə filosof və teoloq A.Ritçel də böyük töhfə vermişdir. Onun dəyər mühakiməsinə dair etiqad, elmi və metafizik baxışları öz nəzəri təsdiqi ilə fərqlənir. A.Ritçalin fikrincə, biliklə əlaqədar olan hisslər yalnız müşayət olunmur, həm də o, istiqamətlənir, idrakın məqsədinin reallaşması üçün iradə idraki məqsədin daşıyıcısına çevrilir. İradənin motivi kimi isə yalnız hisslər çıxış edir. Ritşel dəyərlə bağlı yazır: "Beləliklə, dəyər mühakiməsinin mahiyyəti ondan ibarətdir ki, o, hətta obyektiv olaraq həyata keçsə də, dünya haqqında biliyi də müəyyən edir"(8,194) . Bununla da A.Ritşel daha xüsusi mənada dəyər mühakiməsini mənəvi məqsədlərin dərk olunması ilə əlaqələndirir.

Alman filosofu M.Şeler də bir aksioloq kimi dəyərlər nəzəriyyəsini inkişaf etdirmişdir. O, dəyər və olmalı olan arasında münasibətlərdən bəhs edərək göstərmişdir ki, yalnız dəyərlər mövcud olmalı və olmamalıdır, yalnız müsbət dəyərlər mövcud olmalı, mənfi dəyərlər mövcud olmamalıdır. O, qeyd edirdi ki, eyni bir dəyər müsbət və mənfi ola bilər. Filosof qiymətləndirmə prinsipinə uyğun olaraq eyni bir dəyərin pozitiv və neqativ olduğunu iddia edirdi (9,300).

M.Şeler özünün "Etikada formalizm və maddi dəyər etikası" əsərində göstərir ki, dəyərlər bir-birilərinə münasibətdə "daha yüksək", "daha aşağı" olan "iyerarxiya" yaradırlar. "Bu iyerarxiya "müsbət" və "mənfi" dəyərlərin ayrılması kimi dəyərlərin öz mahiyyətindən çıxır və "bizə məlum olan dəyərlərə aid olmur"(10,305) .

Beləliklə belə nəticəyə gəlirik ki, dəyərlər haqqında təlim olan aksiologiya XIX-XX əsrlərdə formalaşmışdır. Aksiologiya antik, orta əsrlər, yeni və müasir dövr mərhələlərindən keçərək klassik və müasir aksiologiya səviyyəsinə çatmışdır. Müasir aksiologiyanın obyektiv (neokantçı, intuitivizm) və subyektiv idealizm (məntiqi, pozitivizm, linqivistik təhlil, dəyərlərin affekt-iradi nəzəriyyələri), naturalist, utilitarizm və marksizm nəzəriyyələri mövcuddur. Dəyər problemi haqqında Qərbdə və Şərqdə müxtəlif fəlsəfi, dini-fəlsəfi təlimlər geniş yayılmışdır.

## Ədəbiyyat siyahısı:


1. Платон. Диалоги. Москва:Наука, 1988.
2. Платон. Сочинения. Т.3. Москва: Наука, 1972.
3. Античные риторики/Собранные текстов, статьи, комментарий. Общая

ред. А.А.Тохо-Годи. Москва: МГУ, 1978.
4. Декарт. Р. Человек , Москва: Праксис, 2012.
5. Кант И. Сочинения. Т.III/ Подготовил к изд. Э.Соловевым и А.Судаковым. Москва: Мысль, 1996.
6. Кант И.Критика способности суждения .Москва: Наука.1994.
7. Юлия Ш. В. Философская антропология Г. Лотце в контексте новоевропейской метафизики, СПб, 2005.
8. Ритшель Э. Воспоминания из моей жизни, Москва: Мысль, 1982.
9. Щелер М. Избранные произведения. Москва: Мысль, 1994.
10. Рудольф Э. Всеобщая история культуры. Москва: Мысль, 1906.

*Hacıyev Tacəddin Fazil oğlu, doktorant,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## MÜASİR ŞƏRAİTDƏ KOMPÜTER MÜHASİBATININ FORMALAŞMASI VƏ TƏKMİLLƏŞMƏSİ İSTİQAMƏTLƏRİ

Müstəqillik əldə etdikdən sonra ölkədə mühasibat uçotunun inkişafının iki istiqaməti formalaşmışdır. Bunlardan birincisi, mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, ikincisi isə, kompüter mühasibatının formalaşması və tətbiq edilməsindən ibarətdir. Hazırki iqtisadi inkişaf ölkədə mühasibat uçotunun göstərilən hər iki istiqamətini birləşdirərək, həyata keçirilməsini tələb edir. Çünki, Azərbaycan iqtisadiyyatı o inkişaf mərhələsindədir ki, onun ilkin həlqələrini təşkil edən təşkilat və təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətini və onlarda baş verən iqtisadi prosesləri əks etdirən uçot informasiyalarının istifadəçilərin coğrafi məkanını ölkənin hüdudlarını aşaraq, dünyanın bir çox ölkələrini əhatə edir. Ümumiyyətlə, mühasibat uçotu informasiyalarının bu kimi digər istifadəçiləri, o cümlədən beynəlxalq aləmdə fəaliyyət göstərən iqtisadi təşkilatlar və beynəlxalq maliyyə orqanları Azərbaycana məxsus olan makroiqtisadi və mikroiqtisadi göstəricilərlə sistematik şəkildə işləməli olurlar ki, bütün bunlar da ölkədə mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşməsinə zərurətini meydana gətirmişdir.

Hazırda mühasibat uçotunun inkişafı qarşısında duran məsələlərdən biri də kompüter mühasibatının təkmilləşdirilməsi, onun yeni mühasibat uçotu standartlarının tələblərinə uyğunlaşdırılması və tətbiqi məsələlərin tənzimlənməsidir. Fikrimcə, ölkənin iqtisadi inkişafının hazırkı mərhələsində və informasiya texnologiyalarının daha da inkişaf etdiyi şəraitdə təşkilatın mühasibat uçotu informasiyalarının işlənməsi məsələlərinə də kifayət qədər diqqət yetirilməsi məqsədəuyğun olar. Ölkənin iqtisadi inkişaf proseslərinin yuxarı səviyyələrdə idarə edilməsinin səmərəli idarəetmənin aşağı səviyyələrində formalaşan informasiyanın keyfiyyətindən çox asılıdır. Ümumiyyətlə, informasiyanın keyfiyyəti dedikdə, əsasən iki göstərici nəzərdə tutulur:

- Düzgünlük;
- Çeviklik.

İdarəetmənin yuxarı səviyyələrində təqdim olunan informasiyaların düzgünlüyü onların iqtisadi prosesi və hadisələrin olduğu kimi əks etdirməsi ilə onların yuxarıya

doğru təhrif edilmədən ötürməklə bağlıdır.

Müasir informasiya texnologiyası iqtisadiyyatın aşağı səviyyələrində formalaşan və yuxarıya doğru ötürülən informasiyanın keyfiyyətinin bu amillərini tam təmin etməyə qadirdir. Ölkə iqtisadiyyatının ən aşağı həlqəsi olan təşkilatların hamısında kompüter mühasibatının tətbiq edilməsi, orada kompüterləşdirilmiş uçot sisteminin yaradılması, eləcə də onun müvafiq lokal və qlobal şəbəkələrdə birləşdirilməsi iqtisadi proses və hadisələr haqqında informasiyanın düzgün formalaşmasına, eləcə də onun iqtisadiyyatın aşağı həlqələrindən yuxarıya doğru düzgün, tez və çevik çatdırılmasına səbəb olur.

İnformasiyaların işlənməsi və yuxarı istiqamətə təqdim olunması proseslərinin tezləşdirilməsi, onların əsasında operativ idarəetmə qərarlarının qəbul edilməsini şərtləndirir. Bu proseslərdələngitmək, təşkilatlarda və ümumilikdə iqtisadiyyatda itkilərin baş verməməsinə, müəyyən imkanların əldən buraxılmasına səbəb ola bilər.

Ümumiyyətlə, bütün təşkilatlarda kompüter mühasibatı tətbiq edilərsə, bunun nəticəsində ölkə iqtisadiyyatında vahid kompüter şəbəkəsinin yaradılması ideyası gerçəkləşə bilər ki, bu da iqtisadiyyatın idarə edilməsi, elektron hökümətin formalaşması, virtual resursların təşkilatlar tərəfindən istifadəsi, mühasibat-maliyyə hesabatlarının, vergi bəyannamələrinin və digər uçot-hesabat informasiyalarının təqdim edilməsində əvəzsiz rol oynaya bilər.

Bu məqsədlə ölkədə mühasibat uçotunun kompüterləşməsi konsepsiyasının hazırlanması və bu konsepsiyanın hökümət orqanlarında baxılaraq, qəbul edilməsi məqsədəuyğun hesab edilməlidir. Mühasibat uçotunun kompüterləşməsi konsepsiyasında bütün təşkilatlarda mühasibat uçotunun kompüter vasitəsilə aparılması zərurəti kompüter mühasibatında yalnız müvafiq icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilmiş proqramdan istifadə edilməsi, təşkilatın ölkədaxili şəbəkəyə qoşulması məsələləri öz əksini tapmalıdır.

Ümumiyyətlə, kompüter mühasibat proqramlarına lisenziya verilərkən onların aşağıda göstərilən tələblərə cavab verməsi çox vacibdir:

- Proqram Azərbaycan dilində işləməli, bütün uçot registrlərinin, mühasibat-maliyyə hesabatlarının, eləcə də idarəetmə uçotuna dair hesabat və cədvəllərin Azərbaycan dilində tərtib edilməsini təmin etməlidir;
- Proqramın təqdim olunduğu təşkilatlarda mühasibat-maliyyə və idarəetmə uçotu prosedurasını tam əhatə etməlidir;
- Proqramın ölkənin daxili kompüter şəbəkələrinə qoşulmaq imkanına malik olmalıdır.

Təşkilat və təsərürfat subyektlərində mühasibat uçotunun kompüterləşdirilməsi zamanı yuxarıda göstərilən tələblərə cavab verən lisenziyalı kompüter mühasibatı proqramının istifadə edilməsi ölkədə mühasibat uçotunun daha da inkişaf etməsinə gətirib çıxarda bilər.

Göründüyü kimi, informasiya-kommunikasiya texnologiyasının tətbiqinin səviyyəsi hər hansı bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığının, demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Ümumiyyətlə, Azərbaycan informasiya-kommunikasiya texnologiyalarının əsas infrastruktur göstəricilərinə görə dünya üzrə orta səviyyəni keçmişdir. Ölkədə ən müasir standartlara uyğun kompüter texnologiyasının tətbiqinin sürətlə genişləndiyi şəraitdə gələcək mühasiblərin bu texnologiyalara yiyələnmələri də onların peşə hazırlıqlarının ayrılmaz hissəsidir.

Mühasibat uçotu üzrə müxtəlif tətbiqi proqram paketlərinin ( 1C-Mühasibat, Sun Accounting və s.) yaranması bu məsələnin əhəmiyyətini daha da artırır. Avtomatlaşdırılmış mühasibat uçotunun və müasir kompüter texnologiyalarının öyrənilməsi şəraitində mütəxəssislər sintetik hesablara analitik hesablar açmağı, ilkin mühasibat sənədlərində və onlara uyğun hesabların müxabirləşməsini tərtib etmək, ödənən sənədləri hazırlamaq, hesablaşma hesabından bank çıxarışlarını qeydə almaq və oradakı məbləğləri müvafiq hesablarda əks etdirməklə təsərrüfat əməliyyatlarının vahid kitabına yazmaq, hesablar üzrə dövriyyə cədvəllərini, sintetik analitik hesabları, kassa kitabını, balansı, maliyyə nəticələri haqqında hesabatı və digər hesabat formalarını hazırlamağı bacarmalıdırlar.

Ümumiyyətlə, ölkədə iqtisadiyyatın yüksələn templə inkişaf etməkdə olduğu bir şəraitdə mühasibat uçotunun kompüter mühasibatının formalaşması və onun təkmilləşdirilməsi hər bir an təşkilat və təsərrüfat subyektlərinin diqqətində olmalıdır.

### Ədəbiyyat siyahısı:


1. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanunu, 2018.
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bunlardan irəli gələn məsələlər haqqında" sərəncamı. Bakı, 16 mart 2016.
3. Abbasov Q., Səbzəliyev S. Mühasibat(maliyyə) uçotu, Bakı 2003.
4. Cəfərov A.M. Mühasibat uçotu, Bakı 2011.
5. Səbzəliyev S.M. "Maliyyə hesabatlarının hazırlanması və tərtib olunmasının məqsədləri, qaydaları və prinsipləri"tədris-metodiki vəsait. Bakı 2018.
6. Abbasov İ.M. "Audit"dərslik, Bakı 2007.
7. Hacıyev F.Ş. "Auditdə iqtisadi təhlil"dərs vəsaiti, Bakı 2018.



*Allahverdiyeva Samirə Mübariz qızı, doktorant,*
*Qərbi-Kaspi Universiteti*


## AZƏRBAYCANIN YENİ İQTİSADİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ RƏQƏMSAL İQTİSADİYYATIN ROLU

Qısa olaraq "Rəqəmsal iqtisadiyyat" termininin yaranması tarixinə nəzər salsaq bilərik ki, ilk dəfə rəqəmsal iqtisadiyyat 1997-ci ildə Don Tapscottun "Rəqəmsal iqtisadiyyat: şəbəkə intellektinin mənfi cəhətləri və Üstünlükləri ("The Digital Economy: Promise and Peril in the Age of Networked Intelligence")" kitabında işlədilmişdir. Bu kitabda internet vasitəsilə kommersiyanı dəyişdirməyin yolu göstərilmişdir. Thomas Mesenbourg-un fikrincə "Rəqəmsal iqtisadiyyat" konsepsiyasını aşağıdakı Komponentlərlə eyniləşdirmək olar:

1. İnfrastrukturun dəstəklənməsi (kompüter avadanlığı, proqram təminatı, telekommunikasiya, şəbəkə və s.).
2. E-biznes (təşkilat hər bir prosesi kompüter şəbəkələri üzərindən aparır).
3. E-kommersiya (malların transferi, məsələn onlayn kitab satışı və s.).

Lakin Bill İmlah öz şərhində bu şərhlərə əlavələr edərək daha da genişləndirmişdir. O buraya başqa Komponentləri məsələn, sosial media və internetdə axtarışı da əlavə edərək mürəkkəbliyi artırır. Bu yeni iqtisadiyyatda rəqəmsal şəbəkə və rabitə infrastrukturu qlobal platforma üzərində insanlar və təşkilatlar üçün strategiyalar hazırlamağa, əməkdaşlıq etməyə, ünsiyyət yaratmağa, informasiya axtarışına və s. imkan verir. Rəqəmsal iqtisadiyyatın daha aydın xarakteristikasının müəyyənləşdirilməsi ənənəvi iqtisadiyyatla bağlıdır. Belə ki, rəqəmsal iqtisadiyyat "yeni iqtisadiyyat"ın, "informasiya iqtisadiyyatı"nın və informasiya cəmiyyətinin əsasında duran başlıca vəsaitdir. Rəqəmsal iqtisadiyyatın təşəkkülü və sürətli inkişafı ənənəvi iqtisadiyyatda bir çox dəyişikliklərin, yeniliklərin də yaranmasına gətirib çıxardı. Rəqəmsal iqtisadiyyatın üstünlükləri rəqəmsal texnologiyanın malik olduğu üstünlüklərə əsaslanır. Belə ki, rəqəmsal texnologiya – xüsusi kodlaşdırma, mübadilə və istifadə qaydalarına əsaslanaraq informasiya proseslərinin yerinə yetirilməsi zamanı yəni, informasiyanın saxlanması, daşınması və ötürülməsində yüksək sürətin, operativliyin və yaddaşa qənaət etməklə daha çox məlumatın əldə olunmasını təmin edir. Rəqəmsal texnologiya informasiya emalı prosesində dəqiq riyazi üsulların tətbiqinə və o cümlədən informasiya ilə müxtəlif manipulyasiyaların həyata keçirilməsinə imkan yaradır.

Bu gün dünyada qloballaşma prosesi gedən zamanda texnologiyanın inkişaf etdirilərək iş prosesində insan əməyinin minimuma endirilməsi sürətləndirilir. İnformasiya axının operativləşdirilməsi, texniki işlərin sürətləndirilməsi, elektron sistemlərin bütün sahələrdə tətbiq edilməsi iqtisadiyyatın yeni inkişaf mərhələsinə başlamasına səbəb olub və bununla da informasiya texnologiyaları iqtisadiyyata hissə-hissə nüfuz edib. Artıq iqtisadiyyat özü də bir elm olaraq dəyişikliyə uğrayır və yeni forma almağa başlayır. Texnologiya və informasiya inqilabı nəticəsində son zamanlar yüksək sürətlə inkişaf etmiş yeni iqtisadi model kiberbiznesin yaradılmasını şərtləndirib. Kiberbiznes informasiya texnologiyasının tətbiqindən yaranaraq idarə olunan bütün sahələri əhatə edir. "Rəqəmsal iqtisadiyyat" isə onun bir elementi olmaqla, iqtisadiyyatın informasiya texnologiyalarının köməyi ilə elektronlaşan hissəsidir. Rəqəmsal iqtisadiyyat dedikdə Elektron ticarəti, elektron informasiya mübadiləsini, elektron idman-mərc oyunlarını, kapitalın elektron hərəkətini, elektron pulları, e-bankinqi, e-sığortanı və s. özündə birləşdirən böyük bir ticarət qarşımızda dayanır ki, bunun da ən geniş yayılmış növlərindən biri də elektron ticarətdir. Araşdırmaların qısa xülasəsi olaraq qeyd etmək istərdim ki, artıq dünya üzrə istifadəçilərinin sayı 1,5 milyarda çatan elektron ticarət iki yerə - offline və online biznesə bölünür. Bunlardan offline biznesi dünya üzrə daha geniş yayılıb ki, bunlardan da təkcə offline pərakəndə satılmış malların ümumi pərakəndə satışdakı təxmini payı 5,9 faiz müəyyən edilib. Rəqəmsallaşma həm də iqtisadiyyat elminin əsas paradiqması ətrafında ciddi müzakirələri qaçılmaz edir. Belə ki, iqtisadiyyat elminin əsas qayəsi artan tələbi məhdud resurslarla ödəmək üçün səmərəli istifadə yollarının araşdırılmasıdırsa, rəqəmsal iqtisadiyyatda resursların məhdudluğu haqqında danışmaq qeyri ciddi qəbul edilir. Çünki rəqəmsal iqtisadiyyatda resurslar məhdud deyil. Bundan əlavə olaraq rahat şəkildə deyə bilərik ki, rəqəmsal iqtisadiyyat miqyas effektinin də aktuallığını itirir.

Rəqəmsal iqtisadiyyatın ənənəvi iqtisadiyyatdan fərqli və üstün cəhətləri mövcuddur. Bunlardan ən əsası ondan ibarətdir ki, burada məhsul, daha doğrusu informasiya məhsulu, yəni kapitalı hərəkətdə və dövriyyədə daha aktivdir. Yüksək texnologiyanın tətbiq edilməsi

və qlobal əlaqələrin mövcud olması qısa zamanda məhsulun istehsalının həyata keçirilməsini təmin edir. Başqa sözlə desək, məhsulun satışı üçün bazarın axtarılması və seçilməsi, satışa görə ödəmələrin gecikdirilmədən həyata keçirilməsi, o cümlədən yeni növ və çeşidlərin müəyyənləşdirilməsi və alıcıya təklif olunması, rəqabətin gedişatının daimi olaraq nəzarətdə saxlanılması mümkündür. Rəqəmsal iqtisadiyyat texnologiyaların təminatı baxımından böyük xərclərin və genişmiqyaslı əlaqələrin qurulmasını tələb etməsinə baxmayaraq əhatə dairəsi və fəaliyyət zonasına görə çox geniş ərazini tutur. Ənənəvi iqtisadiyyatda isə müəyyən çatışmazlıqlar mövcuddur ki, bunlara misal olaraq: məhsulun saxlanması, qablaşdırılması, düzgün marketinq, reklamın təşkili, sifarişçiyə məhsulun vaxtında çatdırılması və s.-ni misal göstərə bilərik. Ənənəvi iqtisadiyyatla rəqəmsal iqtisadiyyatı müqayisə etsək deyə bilərik ki, rəqəmsal iqtisadiyyatda ənənəvi iqtisadiyyatdan fərqli olaraq bu problemlərin əksəriyyəti çox aşağı səviyyədədir. Beləliklə, rəqəmsal iqtisadiyyatda inkişaf prosesi, yeni layihələrin hazırlanması, istehlakçı ilə birbaşa əlaqələrin yaradılması, məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin sifarişçinin istəklərinə uyğun olmasını daha effektiv şəkildə həyata keçirmək mümkündür.

Qeyd etmək istərdim ki, rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsi iqtisadi dövriyyələri şəffaflaşdırmaqla, nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində, vergi bazasının, habelə əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının gücləndirilməsinə və son nəticədə iqtisadi artıma təkan verəcəkdir.

Rəqəmsallaşmanın inkişafı hər bir sahədə öz effektini açıq formada göstərir. Bu gün dünyada baş verən texnoloji innovasiyaların iqtisadiyyatın müxtəlif sektorlarına nüfuz etdiyi zamanda Azərbaycanda da rəqəmsal iqtisadiyyatın tətbiqinə başlanmışdır. Baş verən yeniliklərə nəzər yetirərək deyə bilərik ki, bu sahədə sürətli inkişaf yolu keçmişik və davamlı olaraq inkişafayönəlik proseslərin icrasının iştirakçısına çevrilmişik. Avtomatlaşdırılmış iş prosesi əlbətdəki, zamanın az sərf edilərək çox iş görülməsinə və beləliklə də qarşıya qoyulmuş məqsədlərin vaxtından öncə nail olunmasına zəmin yaradır. Yeni inkişaf edən texnoloji zamanda əlbətdəki nanotexnologiyaların istifadəsini, inkişafını idarə edə biləcək beyinlərin kəşf edilməsi əsas amildir. Bundan əlavə rəqəmsallaşma prosesinin əsas amilləri yüksəkixtisaslı mütəxəssislərlə yanaşı, müvafiq iş yerlərinin mövcud olmasıdır. Bu, təhsil və rəqəmsal iqtisadiyyatın birgə fəaliyyətini tələb edir və bunu qaçılmaz edir. Beləki, əgər yüksəkixtisaslı kadr çatışmazlığı yaranarsa yeni kəşflərin heç bir əhəmiyyəti qalmaz. Çünki, əgər o kəşflərin tətbiqini həyata keçirmək, inkişaf edərək yeni metodlara keçid vermək güclü beyinin məhsulu ola bilər ancaq.

Araşdırmalardan belə qənaətə gələ bilərik ki, rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artımına mühüm təsiri vardır. Müxtəlif dövlətlərin iqtisadi inkişaf göstəricilərinə nəzər salsaq görərik ki, rəqəmsal sektorun Cənubi Koreya iqtisadiyyatında payı 12%, İsveçdə 8.6%, Finlandiyada 8,3%, ABŞ-da 7,4%, Böyük Britaniyada isə 7,1 %-dir. Dünya İqtisadi Forumunun məlumatına əsasən, növbəti onillikdə iqtisadiyyatda yaranan yeni dəyərin 70%-i məhz rəqəmsal platformalara əsaslanacaq. "Google"in proqnozlarına əsasən, təkcə Cənub Şərqi Asiyada rəqəmsal iqtisadiyyatın həcmi 2025-ci ilə qədər üçqat artacaq və 240 milyard ABŞ dolları təşkil edəcək.

Hazırda deyə bilərik ki, bir çox dünya dövlətləri rəqəmsal iqtisadiyyat quruculuğuna xüsusi diqqət yetirir ki, bunlardan ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Qətər, Çin, Rusiya kimi dövlətləri özəlliklə vurğulaya bilərik. Adı çəkilən dövlətlər özəlliklə bu istiqamətdə hətta xüsusiləşmiş orqanlar yaradaraq, milli proqramlar qəbul edirlər. Bu da rəqəmsal transformasiya proseslərinin daha çevik formada aparılmasını təmin edir.

Rəqəmsal iqtisadiyyatın təşəkkülü və sürətli inkişafı ənənəvi iqtisadiyyatda bir çox dəyişikliklərin, yeniliklərin də yaranmasına gətirib çıxardı. Son dövrlərdə Azərbaycanda aparılan uğurlu islahatlar, yenidənqurma işləri, iqtisadiyyatda əldə edilən uğurlar, qeyri-neft sektorunun inkişafı və s. işlər müsbət nəticələrə gətirib çıxarmış və regionların sosial-iqtisadi inkişafı, vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində lazımi tədbirlər həyata keçirilməkdədir. Dövlət siyasətinin əsas istiqamətlərindən biri də elm, təhsil və mədəniyyət sferasına göstərilən qayğının ardıcıl formada davam etdirilməsi hesab olunur. Bura eyni zamanda elmi-texniki potensialın qorunması, elm və təhsil istiqamətində yüksəkixtisaslı kadrların hazırlanması və onlara qayğı göstərilməsi, ölkədə elmi isçilərin nüfuzunun artırılması istiqamətində bir sıra mühüm qərarların qəbul edilməsi daxildir. Bütün bunlar hazırda dünya iqtisadiyyatında baş verən yeniliklər, yeni informasiya cəmiyyətinin təşəkkülü və inkişafı ilə əlaqədar rəqəmsal iqtisadiyyatın yaranması və bu iqtisadiyyatın xarakterik cəhətlərinin dünya əhalisinin inkişafına olan özəl təsiri ilə bağlıdır.

Deyə bilərik ki, "Azerbaijan Digital HUB" proqramı rəqəmsal iqtisadiyyat üçün əlverişli platformadır və bu platformadan düzgün formada istifadə etmək lazımdır. "Digital HUB" proqramı Azərbaycanın gələcək inkişafı üçün təkcə infrastruktur baxımından yeni imkanlar yaratmır, həmçinin, xüsusi qeyd etmək istərdim ki, bu proqram son nəticədə rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur. Bu ekosistemin yaradılmasının tərkibində proqramın əsasını təşkil edən komponentlər arasında dayanıqlı infrastrukturun quruculuğu, bağlantı xidmətlərinin təkmilləşməsi ilə yanaşı həm də ölkəmizdə iri kontent operatorlarının (Facebook, Google, Netflix, Amazon, Alibaba, Tencent və s.) təmsil olunması, Regional Data Mərkəzin tikintisi, yeni iş yerlərinin formalaşması, kiçik və orta biznes subyektlərinin rəqəmsal biznes yönümündə inkişafı və gələcəkdə rəqəmsal xidmətlərin "Made in Azerbaijan" brendi altında ətraf regionlara ixracı da vardır. Bütün bunlar isə əlbəttə ki, Azərbaycanda rəqəmsal ekosistemin formalaşmasına, rəqəmsal iqtisadiyyatın inkişafına, ölkəmizin beynəlxalq reytinqlərdə daha öncül pillələrə qalxmasına, innovasiya reytinqində irəliləməsinə və müvafiq olaraq ümumi daxili məhsulun artımına da şərait yaradacaq.

Bu gün ölkəmizdə də aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza formalaşdırır. Regionun Enerji və Nəqliyyat Mərkəzi statuslarına sahib olan Azərbaycanın artıq yeni dövrdə mövcud resurslardan, qabaqcıl dünya təcrübəsindən istifadə etməklə qısa zamanda rəqəmsal iqtisadiyyat qurmaq və Regionun Rəqəmsal Mərkəzinə çevrilmək imkanı vardır.

Sonda qeyd etmək istərdim ki, baş verən yeniliklərə nəzər yetirdikdə deyə bilərik ki, **"Ənənəvi iqtisadiyyat" tarixə qovuşur və yerini "Rəqəmli iqtisadiyyat"a verir.** Baş verən bu proseslərə tam şəkildə hazır olmalıyıq və daimi olaraq yeniliklərin, inkişafayönəlik proseslərin yaxından iştirakçısına çevrilməliyik.

*Anar Dostali Abdullayev, Ph.D. student,*
*Institute of Economy of ANAS*

# SIGNIFICANT FEATURES OF THE COMPETITIVENESS OF HEALTH TOURISM IN AZERBAIJAN

Health tourism is an important part of tourism sector in the world. If the health and resort tourism sector needs to be restructured and created in accordance with the needs of the market economy, the implementation of purposeful measures for its development and integration into the international tourism should play an important role in enhancing the economic potential of the country. Tourism is a key sector in the overall services sector and has a 30% share in the export of services worldwide. Enterprises in the tourism industry are mainly engaged in transportation, travel arrangements, tourism information, and accommodation and so on. In comparison with other tourism segments of the world, health tourism is now entering a new phase of development. Because of this development, more than 50 countries around the world claim the development of medical tourism at the level of government policy.

Analysis of competitive factors of health tourism in Azerbaijan modern healthcare although health tourism is a new concept of it has developed rapidly. Besides, a patient who has not been able to recover his or her health in the area where he has lived or worked lately has to go to a country or region that can provide better treatment and rehabilitation. Thus, this patient not only restores his health, but also contributes to the health tourism sector of the residence country and, as well as economic development.

According to World Economic Forum, the Travel and Tourism Competition Index, our country's rating rose by 13 points in 2017 compared to 2015 [1]. Our country has achieved the highest growth rate in this area in the world due to increasing competitiveness in the tourism sector. Health promotion activities have been the top priority in this field.

Moreover, the share of health and hygiene in the development of tourism was 6.1 percent, which allowed our country to rise to the 37th place in the rating among 136 countries. It is substantial to mention that Germany ranked first in the world in this indicator. The countries of the former Soviet Union, Lithuania, Russia and Kazakhstan are in the top, 5th and 6th place respectively. In 2016, the Republican Center for Treatment and Diagnostics of Azerbaijan's hospitals and Ganja International Hospital received JCI certification, the most widely used medical tourism accreditation structure in the world, and confirmed that it is an internationally renowned health center for the expansion of medical tourism services [2]. All these conditions are ultimately contributing to the strengthening of our country in the ranking.

The following are the features that have an effect in the development of tourism in Azerbaijan:

- poorly developed tourism agencies in the regions;
- tourism infrastructure is inadequate;
- training courses are poorly organized;
- tourism development in the country is good, but at the prices are very

expensive.

The degree of mechanization of labor in the tourism industry is extremely low compared to other industries. Recently, human resources management is the most important component of the management that each tourist organization uses it along with the management of material (organizational equipment, fund, etc.) and natural resources (resorts, natural monuments, etc.).

The State Program on Education of Azerbaijani Youth Abroad for 2007-2015 has been implemented to provide the necessary training in private and public sectors for our country. However, it lags behind in staff training and ability to find skilled workers [3].

Regarding the pricing factor, which is one of the most important factors in boosting the level of tourist attraction in the country, the depreciation of the manat in recent years has facilitated international competition in this area. Thus, based on the results of the World Economic Forum's International Competitiveness Index, we can note that the rating of our country rose by 46 points in 2017 compared to 2013 in terms of tourism pricing. According to the results of the year, our country was ranked 31st [1].

The development of world tourism, especially health tourism, is changing from developed countries to emerging countries, and emerging countries face problems with the development of alternative tourism. In the case, medical tourism as an alternative type of tourism is an opportunity to get rid of mass tourism in terms of developing countries. By analyzing at the current situation in Azerbaijan, the strategies of the Tourism Agency and the Ministry of Health are successful for the sustainable development of medical tourism. Apart from these, the private sector partners of the tourism industry are eager to develop this type of tourism. Azerbaijan is rich with different types of tourism and in a more favorable position than other countries that have alternative types of medical tourism but unable to adequately assess its potential.

Other areas that affect the competitiveness of the tourism sector include public investment pricing, human resources, ICT access, environmental balance and etc. They are key indicators that determine the competitiveness index in tourism and travel are also government-supported indicators.

In the following years, medical tourism in CIS countries will be actively developed. The economic realities of today and the new mentality of the residents of the CIS allow us to take advantage of all that they can offer medical tourism while looking at countries with traditionally highly advanced and advanced medicine for patients poorer countries with poor medical development are the only hope for objective diagnosis and the chance of recovery [4]. In this regard, oncology, orthopedics and neurosurgery are required in Germany, Israel, Switzerland, Austria, and France. Success in health tourism is not easy in the face of great competition. This area is very complex, but systematic measures should be taken in this direction. The experience of countries that have achieved success in this area shows that, for the development of medical tourism, they must first pass Joint Commission International (JCI) Accreditation. The Joint Commission International (JCI) Accreditation is the most widely accepted assessment model in the international arena.

At the same time, the development of medical tourism, one of the main pillars of health tourism, is one of the most important issues. There are 569 hospitals in the country, but only two hospitals have JSI certificate.

It is significant to highlight that in order to improve health or medical tourism in the country it is essential to increase the number of hospitals that have JCI certificate.

Consequently, the development of health and resort tourism during 2015-2030 years will effectively influence the development of the agriculture, transportation, communication, trade etc. in different regions of the country.

**References:**


1. World Economic Forum Travel and tourism Competition Index [online]. Available at:www.neforum.opg(Accessed: 11.08.2019)
2. Joint Comission International Accreditation (2018). Available at:www.jount commissionininternational.org(Accessed): 18.08.2019)
3. Study abroad (2015). The study Programm. Available at: www.xaricdə təhsil.edu.gov.az (Accessed: 22.12.2019)
4. Culture Newspaper (2010). Domeshic tourism potensial of Azerbaijan. Baku [online]. Available at: www.anl.az/down/meqale/medeniyyet/20p/aprel/1 16654.atm (Accessed:21.10.2019)



*Səfərzadə Əminə Ənvər qızı, doktorant*
*Azərbaycan Dillər Universiteti*


## ALİ MƏKTƏBDƏ İNGİLİS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Son illərdə kompüter və informasiya texnologiyalarının inqilabi inkişafı müşahidə edilir və bu inkişaf böyük sürətlə davam edir. İnformasiya texnologiyalarının üstünlükləri nəzərə alınaraq təlim və tədris prosesində tətbiq edilir. İnformasiya texnologiyaları bütün dünyada tələbələr, müəllimlər və tədqiqatçılar tərəfindən araşdırma, tədqiq etmə, öyrənmə və işləmə vasitəsi kimi istifadə olunur. Dünyanın bir çox qabaqcıl ölkələrində ali təhsil müəssisələrində kompüter, proyektor, interaktiv lövhələrdən istifadə olunur. Belə texniki vasitələrdən xarici dillərin tədrisində də geniş istifadə edilir.

İngilis dili dünyada ən geniş yayılmış dildir. İnsanlar ingilis dilini müxtəlif səbəblərdən öyrənirlər. Bəziləri işləri üçün, bəziləri səyahət üçün, bəziləri dünya elmlərini, sənətləri, sənətkarları, əsərləri daha yaxşı bilmək, tanımaq üçün, bəziləri də şəxsi səbəblərə görə bu dili öyrənməyə başlayırlar. Azərbaycanda ibtidai təhsildən başlayaraq ali təhsil müəssisələrində də xarici dillər və ən əsası da ingilis dili tədris edilir. Lakin dil öyrənmək çox da asan bir iş deyildir. Dil öyrənməyin bir çox yolları vardır. Müasir texnoloji vasitələrdən istifadə edərək hər hansı bir xarici dilin öyrənilməsi insanlar üçün daha səmərəli bir vasitəyə çevrilmişdir.

Ənənəvi tədris zamanı tələbə ilə müəllimin üzbəüz əlaqə yaratmasına imkan verir. Əksər ənənəvi siniflərdə dil öyrənərkən müəllim tələbə üçün təlimatçı funksiyasını daşıyır. Tələbə isə öz təlimatçısını dinləyərək lazımı qeydləri aparır.

Texnologiya sahəsində baş vermiş böyük inqilab ənənəvi sinifləri daha inkişaf etmiş səviyyəyə çatdırmışdır. Bu inkişaf dərs prosesinin daha yüksək səviyyədə keçiril-

məsinə yardım edir.

İnformasiya texnologiyalarının tədrisdə nə dərəcədə effekt verməsi müəllimin və tələbənin onu necə istifadə etməsindən asılıdır. Kompüterlərin təhsil sahəsində uğurlu tətbiqi yalnız onların əldə edilməsindən deyil, eyni zamanda istifadəçilərin onlarla nə dərəcədə tanış olmalarından asılıdır.

Müasir dövrdə ingilis dilinin öyrənilməsi prosesində həm ənənəvi tədris, həmdə eyni zamanda müasir texnoloji vasitələrdən istifadə edərək tədris paralel şəkildə həyata keçirilir. Belə ki, xarici dilin öyrənilməsində kompyuter texnologiyasının nailiyyətindən istifadənin bir çox üstün cəhəti və rolu vardır. Hər şeydən əvvəl belə vasitələr dilin yaxşı mənimsənilməsini asanlaşdırır. Kompüterlərdən və digər texniki vasitələrdən istifadə etməklə tələbələr qısa vaxt ərzində xarici dili daha yaxşı mənimsəyir, onlarda müstəqil işləmə bacarığı və digər keyfiyyətlər formalaşır. Müəllim yeni sözləri, xarici dilin qrammatikasını slaydlar vasitəsilə izah edirsə və ya interaktiv lövhələrdən istifadə edirsə dil öyrənənlər materialı daha yaxşı və tez qavrayır. Bu həm də öyrənilmiş materialın daha yaxşı yadda saxlanılmasına da kömək edir. Sinif otaqlarında öyrədilən dildə filmlərə, kiçik video çarxlara baxılmasının, həmin dildə musiqiyə qulaq asılmasının əhəmiyyəti böyükdür. Bu xarici dili öyrənənlərin həmin dildə dinləmə bacarığını inkişaf etdirir. Digər tərəfdən bu vasitələr keçirilən dərsləri daha maraqlı edir, tələbələrdə dili daha yaxşı mənimsəməyə həvəs yaradır. Belə texnoloji vasitələrdən istifadə xarici dil müəllimləri üçün də əlverişlidir. Belə ki, onlar qısa vaxt ərzində geniş materialı qarşı tərəfə çatdırır və keyfiyyətli tədris apara bilir. Eyni zamanda kompüterlərdən, interaktiv lövhələrədən, proyektorlardan istifadə sinifdə olan hər bir tələbənin işləməsinə şərait yaradır.

İngilis dilinə olan təlabatın günü gündən artdığı zamanda informasiya kommunikasiya texnologiyalarının istifadəsi böyük səmərə verir. İngilis dili tədrisində kompüterlərin rolu son illərdə əsaslı şəkildə dəyişib, kompüterlərdən istifadə geniş yayılmışdır. Əvvəllər ingilis dili tədrisində kompüterlərin istifadəsi mətnlərlə, sadə çalışmalarla məhdudlaşırdı. Boşluq doldurma və çox-seçimli tapşırıqlar daha sonralar geniş istifadə olunmağa başladı. Hal-hazırda texnoloji və pedaqoji inkişaf bizə kompüter texnologiyasından dil öyrənmə prosesində tam istifadə etməyə imkan verir. Tələbələr kompüterə əvvəlcədən yüklənilmiş dərs vəsaitlərindən, o cümlədən, xarici dildə olan səsyazmalardan istifadə edərək öz öyrənmə bacarıqlarını və imkanlarını genişləndirə bilərlər. Dil öyrənənlər multimedia proqramları vasitəsi ilə dili məşq etmək üçün zəngin mühitlə əhatə olunurlar. Kompüter texnologiyaları artıq dil öyrənmə və öyrətmə zamanı vacib ünsür kimi öz yerini tapır.

İngilis dilin öyrənilməsində istifadə olunan texniki vasitə kimi, artıq çoxdandır ki, maqnitofon özünə geniş yer etmişdir. Müasir çox funksiyalı maqnitofonlar düzgün tələffüz vərdişini yaradan çalışmalar üçün istifadə edilir. Maqnitofon vasitəsilə bu və ya digər ifadələr istənilən qədər təkrar edilir ki, bunun sayəsində də tələbələr düzgün tələffüzü dəfələrlə dinləmək imkanı əldə edir. Bu zaman onlar özlərinin və qrup yoldaşlarının tələffüzündəki qüsurları asanlıqla anlayıb öz tələffüzlərindəki səhvləri düzəldə bilirlər.

İKT-nin tətbiq dinləmə, oxu, danışıq və yazı kimi ingilis dili bacarıqlarının inkişafına təkan verir. Dinləmə - danışanın nitqini-aksentini, qrammatika və lüğət ehtiyatını anlama və qavrama prosesidir. Dinləmə bacarığının formalaşması üçün kompüter-

dən istifadə ingilis dilini öyrənən tələbələrə vizual səsli yazılardan yararlanma imkanı verir. Radio və televiziya vasitəsilə intellektual verlişlərin izlənməsi, həmçinin CD-playerlərin istifadəsi dinləmə bacarıqını inkişaf etdirmək üçün müasir yollardır.

Oxu — yazılmış mətnin başa düşülməsi prosesidir. Oxuəsaslı kompüter proqramları tələbələrin lüğət fondunun səlisliyin artırılmasında rol oynayır. Kompüterlər həmçinin dil öyrənənlər üçün müxtəlif çalışma və testlərin düzgün cavablarını təmin edir. Dünyanı əhatə edən geniş internet şəbəkəsi məsafələri qısaldır və saysız informasiyanı barmaq uclarımızda edir. Çoxsaylı vebsaytlar ingilis dili öyrənənlərin oxu bacarıqlarının inkişafına şərait yaradan material verir. İnternetdə bir çox xarici dil kitabların elektron variantlarının olması, məlumatların daha geniş verilməsi, elektron lüğətlərin olması xarici dilin öyrənilməsində texniki vasitələrin rolunu daha da artırır. Elektron lüğətlər bu gün nəinki dil öyrənənlərin, demək olar ki, hər kəsin istifadə etdiyi vasitədir.

Kommunikasiya qarşılıqlı anlama əsasında danışan və dinləyən arasında informasiya mübadiləsi prosesidir. Müasir texnologiyalardan istifadə yolu ilə və internet üzərindən onlayn olaraq görüntülü və səs siqnalları ilə insanlar arasında ünsiyyət təmin olunur. Bu da əyani şəkildə təcrübi olaraq dil öyrənənin bacarıqlarının artmasına yol açır.

Kompüterə əsaslanan ünsiyyət və internet vasitəsi ilə dil öyrənmə kompüterlərin istifadə formasını daha da genişləndirdi. İngilis dilini öyrənən tələbələr internetin köməyi ilə artıq dünyanın müxtəlif yerlərində olan təbii dil daşıyıcıları ilə sinxron ünsiyyət qura bilirlər. İnternet, ünsiyyət qurmağın və fikir mübadiləsi aparmağın müxtəlif üsullarını əhatə edir. Bu üsulların içərisindən sinxron kompüterə əsaslanan ünsiyyət və qeyri-sinxron kompüterə əsaslanan ünsiyyət üsulunu qeyd etmək olar. Kompüterə əsaslanan ünsiyyət şəbəkəyə qoşulmuş kompüterlər arasında baş verən ünsiyyətdir.

Qeyri-sinxron ünsiyyət kompüterə əsaslanan ünsiyyətin gecikdirilmiş formasıdır. Başqa sözlə, ünsiyyət quran insanlar eyni vaxtda kompüter arxasında olmur. Göndərilmiş mesajlar daha sonra oxunmaq üçün sanki kənara qoyulur. Qeyri-sinxron ünsiyyətin ən sadə üsulu elektron poçtdur. Elektron poçt sadə mətn mesajlarından tutmuş yazılı sənədlərin, səs sənədlərin, şəkil və videoların paylaşılması üçün istifadə edilir. Qeyri-sinxron ünsiyyətdə tələbələr iki nəfər olmaqla və ya maraq dairəsi üzrə qruplar yaradaraq qrup şəklində ünsiyyət qura bilərlər.

Sinxron kompüterə əsaslanan ünsiyyətdə bütün iştirakçılar ünsiyyət vaxtı kompüter arxasında olmalıdırlar. Mesajlar dərhal göndərilir və ünsiyyət telefonda olduğu kimi canlı olaraq baş verir. Qeyri-sinxron ünsiyyətdə olduğu kimi burada da ünsiyyət iki nəfər və ya qrup arasında baş verə bilər. Sinxron ünsiyyətin ən sadə üsulu internetə əsaslanan çatdır (danışıqdır). Burada dil öyrənənlər tək-tək və ya qrup şəklində müzakirə apara bilərlər. Sinxron ünsiyyət təkcə mətn şəklində deyil, həmdə səs və ya video şəklində - Skype, WhatsApp və digər proqramlardan istifadə etməklə baş verə bilər. Videokonfrans vasitəsi ilə dil öyrənənlər eyni vaxtda video və mətndən istifadə edərək ünsiyyət qura bilirlər.

Öyrənilən dildə yazı bacarığı - fikir və ideyaların qrammatika qaydalarına uyğun şəkildə və dilin lüğət fondundan səmərəli istifadə yolu ilə ifadə olunması prosesidir. Bu işdə elektron vasitələrdən, müxtəlif sxem, şəkil, qrafik və videolardan istifadə olunması ingilis dili öyrənən çoxsaylı kütlənin işini asanlaşdırır. Elektron poçt (e-mail) və "Chat" sayəsində tələbələr başqa ölkələrdə, əsasən də ingilis dilli ölkələrdə yaşayan yaşıdları ilə yazışır, informasiya mübadiləsi edir, beləliklə də öz lüğət ehtiyatlarını, ilk

növbədə məişət leksikasına aid söz bazalarını artırırlar və bunun nəticəsində də ingilis dilində yazı bacarıqlarını daha da inkişaf etdirirlər.

İngilis dilinin xarici dil kimi tədrisi zamanı videodan istifadə geniş yayılmışdır. Video reallıq və dilin modelləşdirilməsini kitabın heç vaxt bacara bilmədiyi kimi təqdim edən yeni vasitədir. Audiovizual materiallar xarici dilin öyrənilməsi və öyrədilməsi zamanı zəngin bir mühit təmin edir.

Video yeni məlumatı şagirdlərə effektiv şəkildə təqdim edə bilir. Dərslə bağlı videolar təqdim edən çoxlu internet saytları var. Amma təhsillə bağlı videoları ödənişsiz olaraq təqdim edən saytların çoxu uyğun video seçmək işini çətinləşdirir. Bununla bağlı müəllimlər müvafiq video seçmək üçün çox vaxt sərf etməli olurlar.

İngilis dilinin xarici bir dil kimi öyrədilməsi zamanı videodan istifadənin çoxlu üsulları vardır. Video təlimatlandırıcı alət kimi istifadə oluna bilər; həmçinin hekayə söyləmək üçün vasitə, söz ehtiyatını zənginləşdirən mənbə, tədqiqat və müsahibəni inkişaf etdirən üsullardan biridir.

İngilis dili dərsində videodan istifadə üçün səbəblər aşağıdakılardır:

1. Videodan istifadə dərsə canlılıq verir;
2. Video tələbələri dərsə həvəsləndirir;
3. Video tələbələrin öyrənmə səviyyələrini inkişaf etdirir;
4. Tələbələrin başqa bir müəllimdən öyrənmək şansları yaranır;
5. Əksər videolar tələbələri autentik dillə təmin edir, tələbələrə dil daşıyıcısından ingilis dili öyrənmək şansı verir.

Dərsdə istifadə oluna bilən videolar müxtəlifdir: off-air proqramlar, real-dünyavi videolar, filmlər, dil öyrədən videolar və s.

Off-air proqramları televiziya kanalları proqramlarından yazılmış videolardır. Bütün televiziya proqramlarının müəlliflik hüququ məhdudiyyətləri vardır. Bu məhdudiyyətlər ölkədən ölkəyə fərqlidir. İngilis dilini öyrənənlər xüsusilə BBC, CNN, və s. televiziya kanallarının proqramlarının yazılmış videolarından yararlanırlar.

Real-dünyavi videolar canlı təbiət haqqında sənədli filmləri təqdim edən və s. Video materiallarıdır. Tələbələr National Geographic və s. televiziya kanallarının videolarından istifadə edirlər.

Xarici dilin tədrisində, əvvəla, dili tədris edilən ölkənin televiziya xəbərləri, həmin xalqın həyatını bütün sferalarda olduğu kimi əks etdirir və sözsüz ki, bu da tələbələrdə dilin öyrənilməsinə qarşı böyük maraq yaradır. Nəticədə, tələbələrin dilə olan marağı, motivasiyası artır ki, bu da, yaxşı hal kimi müsbət qarşılanır.

Dil tədrisində filmlərdən istifadə geniş yayılmışdır. İngilis dilində filmləri onlayn izləmək və ya yükləyib daha sonra oflayn şəkildə izləmək üçün müxtəlif proqramlar və veb saytlar vardır. Bu proqramlar içərisindən geniş istifadə edilən proqram kimi Netflix proqramını, veb sayt kimi ororo.tv/ru veb saytını qeyd etmək olar.

Müasir dövrdə nəşriyyatlar kitabları dili öyrədən video disklərlə birgə istehsal edirlər. Bu video disklərin həmçinin iş dəftəri olur. Video ilə öyrətmə texnikaları çoxdur. Bunlar izləmə və dinləmə ilə bağlı olan texnikalardır. İngilis dilini öyrənənlər Cutting Edge, English File, Speak Out, Q-skills for Success və s. kitabları diskləri ilə birgə əldə edib istifadə edirlər. Bu video diskli kitablar ingilis dilini tədris edən ali təhsil müəssisələrində geniş istifadə edilir.

Bundan başqa, ingilis dilini öyrənən tələbələr YouTube proqramından istifadə

edərək ABA English, AcademicEnglishHelp, Anglo-Link, BBC Learning English, Best English Speeches, Crown Academy of English, English Like a Native, English Speeches, English with Lucy, EnglishAnyone, EnglishTonight, ETJ English, Free English, IELTS Liz, IELTS ve TOEFL, ieltssimon, Improve Your Accent, Learn English with Emma [engVid], TED və s. YouTube kanallarına daxil olaraq faydalana bilərlər.

İzləmə ilə bağlı olan texnikalar tələbələrin marağını oyatmaq üçün layihələşdirilir. Bunlar özü də bəzi qruplara ayrılır: sürətli irəliləmə, sakit izləmə, donmuş ekran, hissə-hissə izləmə və başqaları.

Dinləmə ilə bağlı olan texnikalar tələbələrin gözləntilərini oyatmaq üçün layihələşdirilir. Bunlar özü şəkilsiz dinləmə və şəkil və ya nitq olmaqla 2 qrupa ayrılırlar. İngilis dilinin xarici dil kimi öyrədilməsi zamanı videodan istifadə edərkən müəllimlər bəzi problemlərlə qarşılaşa bilərlər. Bunlar aşağıdakılardır:

- zəif keyfiyyətli materiallar tələbələrdə maraq oyada bilmir, beləki video göstərməyi qərara alarkən materialı diqqətlə seçmək lazımdır;
- monitoru və ya televizoru işə salarkən bütün tələbələrin videonu eşidə və görə bildiyindən əmin olmaq lazımdır. Monitor arxada əyləşən tələbələrin aydın görə biləcəyi qədər geniş olmalıdır;
- müəllimlər videonun bəzi hissələrini göstərmək üçün müntəzəm olaraq onu dayandırır və yenidən başladırlar, belə hallar bəzi tələbələrin diqqətini yayındıra bilər;
- bəzi metodistlər düşünürlər ki, 4-5 dəqiqədən çox davam edən video tələbələri yuxuladır. Lakin bəzi müəllimlər tələbələrə bütün videonu göstərməyi lazım bilirlər.

Müəllimlər belə problemlərdən xəbərdar olmalıdırlar.

İnformasiya-kommunikasiya texnologiyalarının köməyi ilə ingilis dilinin tədrisinə kompleks yanaşma mümkün olur, bütün nitq vərdişlərinin əlaqələndirilməsi asanlaşır. Müasir texnoloji vasitələrdən istifadənin üstünlükləri olduğu kimi mənfi cəhətləri də vardır. Belə ki, onlardan çox istifadə sağlamlığa ziyan vura bilər. Buna görə də dərsi tədris edən müəllim daim tələbələrə nəzarət etməli, yalnız vacib olduqda bu vasitələrdən istifadə etməlidir. Məhz müəllim nəzarəti altında sinif otaqlarında, eyni zamanda müstəqil şəkildə müasir texnologiya vasitələrindən istifadə etməklə hər hansı bir dili öyrənmək və inkişaf etdirmək daha asan və keyfiyyətlidir.

*Сурманидзе Ия Зиевна, докторант,*
*Батумский Государственный Университет*
*им. Шота Руставели, Грузия*

## ЦИФРОВАЯ ЭКОНОМИКА ГРУЗИИ: ВЫЗОВЫ И ПЕРСПЕКТИВЫ

В наше столетие мир быстро переходит в цифровую эпоху и развивает экономику с более высокой добавленной стоимостью. Цифровизация меняет нашу экономику и общество. Влияние, которое цифровизация оказывает на экономику, на эффективность компании в нашей повседневной жизни, является значительным, так как внедрение технологий имеет решающее значение для дальнейшего развития экономики страны.

Экономика, основанная на цифровых технологиях, является цифровой экономикой. Быстрым темпом роста развивается электронная коммерция, организационные процессы, компьютеризированное управление и цифровые инфраструктуры во всем в мире и становятся одним из основных стимуляторов экономического развития.

Благодаря интернету и коммуникационным технологиям растут масштабы международного и местного бизнеса. С использованием современных технологий постоянно осваиваются новые рынки, поиск деловых партнеров и инвестирование. Развитие малых и средних предприятий, основанное на принципе цифровой экономики, увеличивает количество занятых в сфере бизнеса. Цифровая экономика, как стимулятор может ускорить экономический рост и создать новые рабочие места в кратчайшие сроки.

В последние годы правительство Грузии провело успешные реформы в развитии экономики, основанной на знаниях и технологиях.

Целью правительства Грузии является создание основы для долгосрочного инклюзивного экономического роста и повышения благосостояния населения, одной из приоритетных областей которого является развитие инноваций и технологий. Именно поэтому в 2014 году при Министерстве экономики и устойчивого развития Грузии было создано агентство по инновациям и технологиям (GITA), целью которого является поддержка этого сектора в стране и создание инновационной экосистемы, упрощение и стимулирование инновационной и технологической деятельности в стране. Агентство фокусируется на создании и разработке инструментов, которые будут поддерживать развитие стартовой экосистемы. С этой целью организация предлагает заинтересованным сторонам и потенциальным бенефициарам набор продуктов и услуг, направленных на то, чтобы помочь новаторам и стартапам вывести стартапы из идеи в действующие модели доходов.

В настоящее время программы малых грантов, Startup Friendly, Startup Beats, Startup Boot Camp, Common Workspace, Business Incubator, Innovative Camp, IT Trainings, IT Specialists - это набор продуктов и услуг, которые являются ключевыми инструментами для построения развитой стартовой экосистемы.

В 2016 году были созданы два технопарка. Технологические парки работают по принципу «одного окна», поддерживающие инновационные, креативные и технологичные стартапы и проекты, которые превращаются из идеи в глобально масштабируемые проекты. TechParks предоставляют доступ к высокотехнологичному оборудованию, бесплатное рабочее пространство и техническую помощь в рамках программ бизнес-инкубации и ускорения. 22 FabLab, оснащенные высокотехнологичными, 3D-принтерами, лазерными резцами и т. д., создаются на базе университетов и TechParks. Проект расширяется в регионах Грузии путем создания общинных инновационных центров (CIC) на базе библиотек. Инновационные лаборатории (ILabs) с основным направлением разработки игр, компьютерной графики и мобильных приложений были созданы на базе университетов, где разрабатываются проекты, ориентированные на спрос.

Всемирный банк (World Bank) поддерживает инвестиции в будущее развитие экономики Грузии, основанной на инновациях и знаниях.

В 2016 году правительство Грузии и Международный банк реконструкции и развития (IBRD) подписали пятилетнее (2016–2021 гг.) соглашение о предоставлении Грузии 40 миллионов долларов США для реализации проекта инновационной экосистемы (GENIE).

Этот проект поможет реализовать стратегию правительства по созданию ориентированной на будущее, конкурентоспособной и инновационной экономики. Цели проекта с точки зрения развития включают расширение инновационной деятельности фирм и частных лиц и их участие в цифровой экономике. Это может быть достигнуто путем инвестирования в региональные инновационные центры, путем расширения использования интернета домашними хозяйствами и малыми предприятиями, путем развития навыков и способностей в цифровой экономике предприятий и путем расширения доступа к финансированию для новаторов.

GENIE углубляет постоянное сотрудничество Группы Всемирного банка, дополняя и участвуя в инвестициях в инфраструктуру и реформировании отраслевой политики в Грузии. Проект дает способность улучшить региональную инфраструктуру, поскольку он стремится соединить фирмы за пределами крупных городов с глобальными сетями торговли и знаний. Цель проекта - рост рабочих мест за счет повышения конкурентоспособности в частном секторе. Проект также способствует общему благосостоянию путем мобилизации и привлечения сельских жителей к участию в бизнес-инновациях, предоставления им улучшенных услуг, развития навыков и доступа к инфраструктуре. Ответственность за реализацию проекта GENIE берет Грузинское агентство инноваций и технологий (GITA).

Для разработки всеобъемлющей повестки дня в области цифровой экономики в 2016 году был создан центр доступа к информации (IAC) с особыми возможностями для людей с особыми потребностями.

Чтобы перейти к современным цифровым технологиям и высококонкурентной экономике, основанной на знаниях, необходимо расширить участие молодого поколения и максимально использовать человеческий капитал и местные ресурсы в этой области.

В 2016 году правительство Грузии представило программу стартового венчурного финансирования - StartUp Georgia. В рамках этой программы правительство финансирует технологические стартапы в области EduTech, HealthTech, FinTech и др.

Географическое положение и потенциал Грузии с точки зрения современных цифровых технологий позволяют добиться значительных успехов в цифровой трансформации страны. Имея стратегическое расположение ворот, соединяющих Европу с Азией, правительство Грузии развивает концептуальное цифровое партнерство цифровым шелковым путем. Digital Silk Road - единая цифровая платформа, которая обеспечивает свободное движение цифровых товаров, услуг и капитала, повышает экономическую активность.

Грузия является одной из первых стран не только в регионе, но и в Восточной Европе, которая внедрила идею цифровой таможни. Новый таможенный код вместе с модернизированной таможенной инфраструктурой будет отвечать тре-

бованиям ЕС и будет способствовать развитию международной торговли.

Европейский Союз запускает новый проект поддержки цифровой экономики - EU4Digital. Инициатива EU4Digital реализуется в шести странах Восточного партнерства - в Азербайджане, Беларуси, Республике Молдова, Грузии, Армении и Украине.

Основная цель проекта распространить преимущества единого цифрового рынка ЕС на Грузию и другие страны восточного партнерства. Направить поддержку ЕС на развитие потенциала цифровой экономики и общества, чтобы создать больше рабочих мест, улучшить жизнь людей и помочь бизнесу, в целом обеспечить экономический рост страны.

В результате гармонизации цифровых рынков европейские цифровые услуги доступны для грузинских потребителей и предприятий без препятствий, это большое достижение для малого и среднего бизнеса, поскольку у них будет неограниченный доступ к различным услугам на европейских цифровых рынках. Эта инициатива включает в себя улучшение цифровых структур в таких областях, как логистика, здравоохранение, кибербезопасность, цифровые навыки.

Европейский Союз поддерживает реформы в области ИКТ, стартапов и инновационных экосистем в регионе Восточного Партнерства, опираясь на опыт и практики ЕС.

Согласно Отчету ЕС о реализации ассоциации за 2019 год, Грузия предприняла значительные усилия для поддержки экономических и деловых возможностей в цифровой экономике и обществе, повышения компетенций в области цифровых технологий и развития электронной коммерции.

Ключевым приоритетом для правительства Грузии является цифровая стратегия. Стратегия социально-экономического развития «Грузия 2020» намечает несколько целевых областей для улучшения цифровой экосистемы, электронную грамотность и наращивание потенциала, инновации и высокие технологии, а также электронное правительство.

Правительство поставило задачу обеспечить высокоскоростной широкополосный доступ к интернету во всех населенных пунктах и обеспечить подключение всех школ, библиотек, муниципалитетов, почтовых и полицейских отделений и больниц к высокоскоростной инфраструктуре к 2020 году.

Грузия также поставила цель, чтобы к 2020 году в стране было 40 000 квалифицированных специалистов в области информационных технологий и инноваций, ориентированных на экспорт.

Правительство Грузии при активной поддержке Всемирного Банка разработало учебную программу электронной коммерции для региональных домохозяйств и МСП, а также нормативно-правовой базы для электронной коммерции.

Одной из основных задач правительства Грузии является развитие и продвижение малого и среднего предпринимательства, повышение конкурентоспособности частного сектора, на основе развития человеческого капитала; развитие предпринимательской культуры, улучшение доступа к финансовым ресурсам, развитие инноваций и исследований и т. д.

В экономике Грузии МСП (малое и среднее предпринимательство) играет немалую роль, более 40% работников занято в этом секторе, но они все еще пы-

таются расширяться. EU4Business поддерживает амбициозный план правительства по реформам и улучшению деловой среды. Его программы стимулируют рост МСП за счет улучшения доступа к финансам и новым рынкам, а также проектов в области женского предпринимательства и зеленой энергии. Малые и средние предприятия, стремящиеся максимально использовать свое соглашение о свободной торговле с ЕС, могут также получать финансовую и техническую поддержку для адаптации к стандартам ЕС и выхода на зарубежные рынки.

С момента предоставления ассоциированного статуса Грузия имеет доступ к нескольким программам и финансовым инструментам ЕС с 2016 года, включая Enterprise Europe Network (EEN). Европейская сеть предпринимателей - Enterprise Europe Network (EEN)-это платформа для обмена конкретными деловыми предложениями и установления связей между МСП в ЕС и странах-партнерах. EEN создает для грузинских компаний новые возможности для расширения своих деловых предложений на рынке ЕС и привлечения соответствующих партнеров.

С целью того, чтобы страна не отставала от глобальных процессов цифровой экономики, так как иначе можно столкнуться с серьезным финансовым кризисом, в 2018 году была основана Грузинская ассоциация цифровой экономики (DEAG). Она способствует развитию цифровой бизнес-культуры, стимулированию и поддержке бизнес-среды; она также направлена на подготовку инвестиционных платформ, содействие развитию рынка капитала, интеграцию различных систем с технологиями блокчейна и сотрудничество с государственными и частными учреждениями для внедрения цифровых активов и цифровых электронных валют в качестве средства оплаты, подготовки конкретных законодательных инициатив и многих инновационных проектов.

В январе 2020 года правительство Грузии утвердило национальную стратегию развития широкополосных сетей Грузии на 2020–2025 годы и план действий по ее реализации. Главными стратегическими целями являются: повышение конкурентоспособности, привлечение инвестиций и развитие цифровых навыков и потребностей.

Целевые показатели национальной стратегии по развитию широкополосной связи Грузии на 2025 год: охват территории 99% с подключением 4G; для всех институциональных предметов доступ к соединению 1GB; высокоскоростной широкополосный доступ для всех домашних хозяйств.

Следует отметить, что Грузия обладает значительными цифровыми экономическими ресурсами, передовыми электронными услугами и телекоммуникационной инфраструктурой. Несмотря на инвестирование в цифровые технологии, не удалось создать соответствующую среду для достижения развития на основе технологии, не хватает цифровой экономической политики и эффективной стратегии. Именно отсутствие стратегии в области ИКТ является одной из основных проблем для достижения технологического развития в Грузии. Как показывают исследования IDFI (Институт Развития Свободы Информации), отсутствие среднесрочных и долгосрочных стратегий в области ИКТ делает грузинский рынок непредсказуемым и рискованным для инвесторов, препятствуя устойчивому развитию и широкомасштабное распространение преимуществ циф-

ровых технологий.

В докладе всемирного банка за 2016 год, Грузия упомянута как страна с переходной экономикой с низким и средним уровнем дохода. В отчете Всемирного банка определены три приоритетных области, которые требуют комплексной реформы: регулирование конкуренции, развитие навыков извлечь выгоду из цифровых технологий и эффективная система электронного правительства.

При определении экономической политики страны важно помнить, что «цифровизация» означает не только появление высокотехнологичных стартапов на рынке. Ключ заключается во внедрении цифровых технологий во всех возможных секторах. В противном случае экономический рост невозможен. Ключевой проблемой в цифровой экономической политике остаются барьеры, которые существуют в этом отношении, включают реформу образования, отсутствие цифровой предпринимательской культуры и ряд нормативных актов, которые могут быть устранены путем активного участия государства.

**Список использованной литературы:**


1. Bernhard K., Digital Georgia: e-Georgia strategy and action plan 2014-2018 https://dea.gov.ge/uploads/eGeorgia%20Strategy.pdf
2. Digital Economy Report 2019. Value Creation and Capture: Implications for Developing Countries https://unctad.org/en/PublicationsLibrary/der2019_en.pdf
3. Economic Profile of Georgia: Doing Business 2020. World Bank Group. https://www.doingbusiness.org/content/dam/doingBusiness/country/g/georgia/GEO.pdf
4. Investing in SMEs in the Eastern Partnership. EU4Business. https://www.euneighbours.eu/sites/default/files/publications/2019-07/country_report_2019_georgia.pdf
5. World Development Report 2016: Digital Dividends https://www.worldbank.org/en/publication/wdr2016
6. https://eufordigital.eu/countries/georgia/
7. http://www.eu4business.eu/ka/georgia
8. https://gita.gov.ge/eng/startups
9. https://idfi.ge/en/world-bank-development-report-2016-georgia
10. https://www.agenda.ge/en/news/2019/2739
11. http://startup.gov.ge/



*Əliyev Vüsal Oruc oğlu, doktorant,*
*Azərbaycan Kooperasiya Universiteti*


## AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAFI

Son illərdə milli iqtisadiyyatımızda sürətlə inkişaf edən sahələrdən biri turizmdir. Bunun əsas səbəblərindən biri dövlətimiz tərəfindən onun inkişafına göstərilən dəstəyin güclənməsi və turizmin milli iqtisadiyyatımızın prioritet sahələrindən birinə çevrilməsi zərurətidir. Qeyd etmək lazımdır ki, bir çox iqtisadi ədəbiyyatlarda (İ.Balabanov, A.Balabanov, Ə.Əlirzayev) bəzi hallarda kənd turizmini ekoturizmlə, digər hallarda

isə aqroturizmlə eyniləşdirərək tədqiq edirlər. Lakin bu turizm formalarının hər birinin öz təyinatı, spesifik xüsusiyyətləri, sosial-iqtisadi inkişafda rolu, beynəlxalq turizm bazarlarında öz yeri vardır. Məhz buna görə də onları məzmunca eyniləşdirmək metodoloji cəhətdən məqsədəuyğun deyildir. Hazırki məqalədə isə biz ancaq kənd turizminin inkişafı ilə bağlı məsələləri, kəndin simasının dəyişdirilməsində, məşğulluğun artmasında, gəlirlərin çoxalmasında, yerli rekreasiya ehtiyatlarından səmərəli istifadə edilməsində 2004-2018-ci illərdə həyata keçirilən üç dövlət proqramlarının turizmin bu formasının perspektiv inkişafında aparıcı rolu ilə əlaqədar elmi-praktiki məsələlərin öyrənilməsini qarşımıza məqsəd qoymuşuq.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti turizmin inkişafı üçün bir sıra vasitələrdən istifadə edir. Bütövlükdə turizmin, o cümlədən kənd turizminin inkişafında dövlətin rolunu aydın təsəvvür edə bilmək üçün keçmiş totalitar rejimə aid olan sərt inzibatı nəzarətlə müasir bazar iqtisadiyyatı dövrünə aid olan tənzimləmə tədbirlərini müqayisə etmək yerinə düşər. İnzibatçılıq rejiminin qaydalarına görə beynəlxalq səviyyədə turizm mübadiləsi dövlətin xüsusi maraqları ilə üst-üstə düşürdü. Əksər hallarda bir çox ölkələr üçün qapalı olan turizm marşrutları bir çoxları üçün də məhdud xarakter daşıyırdı (1, s.170).

Turizm özünün üstün və çatışmayan cəhətləri ilə bütün formaları üzrə maneəsiz olaraq inkişaf edə bilər. Belə kəskin iki meyl arasında dövlət özünün sosial yönümlü bazar iqtisadiyyatında hər bir fərdin fəaliyyət azadlığı dövlətin dəstəyi ilə cəmiyyətin bütün üzvlərinin ümumi rifahı xeyrinə genişləndirilir. Beləliklə, dövlət ümumilikdə turizm siyasətini, həmçinin kənd turizminin inkişaf siyasətini yeritməklə onun aşağıdakı istiqamətlərdə inkişafını təmin edir:

- Turizmin məqsədəuyğun inkişafını təmin etmək üçün iqtisadi, sosial-siyasi şəraitin seçilməsi;
- Turizm, həmçinin kənd turizminin iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi;
- Əhalinin daha çox hissəsinin turizmin inkişafında iştirakına yer verilməsi;
- Azərbaycan kəndinin füsünkar təbiətinin və əvəzedilməz milli mətbəxinin üstünlüklərini iqtisadi dövriyyəyə cəlb etməklə əhalinin rifahının yaxşılaşdırılması;
- Beynəlxalq turizmlə əməkdaşlığın genişləndirilməsi şəraitində kənd turizminin iqtisadi artımında payının çoxaldılması.

Qeyd etdiyimiz bu istiqamətlərdə dövlət tənzimləmə fəaliyyətini həyata keçirib, turizm sahəsinin kortəbii inkişafını dövlətin və onun vətəndaşlarının mənafeyi istiqamətinə yönəltmək üçün iki qrup tədbirlər sistemini həyata keçirə bilər. Bunlar ilk növbədə, sahənin inkişafını müəyyənləşdirən hüquqi, maliyyə, iqtisadi bazanın müəyyənləşdirilməsi, ikincisi isə özəl sektorun, ailənin maliyyələşdirməkdə çətinlik çəkdiyi prioritet sahələr, zəruri infrastruktura, investisiya qoyuluşunun mexanizminin işlənib hazırlanmasıdır.

Qeyd etdiyimiz tədbirlərin əhatə etdiyi sahəni isə fikrimizcə aşağıdakı şəkildə göstərmək mümkündür:

- Formasından asılı olmayaraq bütövlükdə turizm sahəsi üçün kadrların hazırlanması;
- Turizm sahəsində kiçik və orta sahibkarların, həmçinin kənd yerlərində fərdi evlərdə inkişaf edən kənd turizminin dəstəklənməsi;
- Kənd turizminin vergi güzəştlərindən istifadə mexanizminin yaradılması;

- Ölkə daxilində turizm sferasının, o cümlədən kənd turizminin vəziyyəti barədə bütün regionlar üzrə informasiya bazasını yaratmaq və onun yayılmasını təşkil etmək;

- Ölkədə turizmin bütün formalarının, o cümlədən, kənd turizminin imkanlarının dövlət tərəfindən beynəlxalq səviyyədə reklamının həyata keçirilməsi;

- Yeni milli turizm məhsulunun dünya bazarına ixracını təşkil etmək.

Qeyd etmək lazımdır ki, turizm xidmətlərinin istehsalçısı kimi regionun və kənd turizminin keyfiyyəti onun öz istehlakçılarının sifarişçilərini nə dərəcədə yerinə yetirə bilməsi ilə müəyyənləşir (2, s.423). Əgər hər hansı bir turizm kəndi (məsələn Goranboyda Gülüstan kəndi) öz məhsulu, yaxud xidmətləri üzərində kifayət qədər yüksək qiymət formalaşdıra bilirsə, onda istehsal prosesinin iştirakçılarına yüksək əmək haqqı ödənilməklə bərabər, sahənin fəaliyyətini də xarici təsirlərdən qoruya bilmək imkanı əldə olunur.

Belə bir faktı qeyd etmək yerinə düşər ki, Azərbaycanda turizmin formalarının inkişafı, onun qanunvericilik bazasının yaradılması ümummilli liderimiz Heydər Əliyevin təsdiq etdiyi fərmanlarla başlanmışdır. XX əsrin fenomeni adını almış olan turizmdən Azərbaycan öz layiq olduğu payı ala bilməsi üçün Tarixi İpək Yolunun bərpasından tutmuş, Turizm haqqında Azərbaycan Respublikası Qanunu (27 iyul 1999), Turizm nazirliyinin yaradılması (18.IV.2001), respublikamızın DTT-yə tam hüquqlu üzv qəbul edilməsi (25.VII.2001), 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı (27.VIII.2002), 2004-2008-ci illərdə Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (11.II.2004), 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafa dair Dövlət proqramı turizmin və onun formalarının inkişafına yönəldilmiş olan tədbirlərdəndir. Azərbaycanda 2013-cü ilin turizm ili elan edilməsi, turizmin respublikamızda prioritet sahəyə çevrilməsi bu sahənin gələcək inkişafından xəbər verir. Ümumi halda Azərbaycanda 2004-2018-ci illər ərzində həyata keçirilmiş üç sosial-iqtisadi inkişafa dair Dövlət Proqramları Azərbaycanı digər sahələrlə yanaşı turizmdə xarici vətəndaşlar üçün cəlbedici etmiş, təbiətimizin rəngarəngliyi, qızıl qumu, dənizi, müalicəvi suları, milli mətbəxi turistlərin ölkəmizə marağını artırmışdır. Bunlarla bərabər belə bir faktı da qeyd etmək lazımdır ki, hazırda ölkəmizdə yaşayan əhalinin müəyyən hissəsinin maddi durumu imkan vermir ki, onlar, turist göndərişləri alsınlar və respublikamızın xaricində getmə turist keyfiyyətində istirahət etsinlər, yaxud müalicə olunsunlar (3, s.258). Statistik araşdırmalar göstərir ki, respublika əhalisinin 56%-i orta səviyyədən aşağıda yaşayan sosial təbəqəyə daxildir. Bu əhali kütləsinin böyük əksəriyyəti yay aylarında istirahət etmək üçün Bakının kəndlərində, bağ evlərində, yaxud yaxşı təbiəti, suyu, havası və s. olan kəndlərimizdə fərdi evləri kirayə etməklə istirahətlərini təşkil edirlər. Buradan da kənd turizmi anlayışı əmələ gəlmiş və bu turizm forması respublikamızda çox sürətlə inkişaf edir.

Çox illik müşahidələr imkan verir qeyd edək ki hazırda Azərbaycanda yüzlərlə kənddə kənd turizminin inkişafı üçün əlverişli şərait vardır. Hətta, bəzən elə kəndlər, qəsəbələr vardır ki, müxtəlif yerlərdən gələrək ev kirayə edib istirahət etmək istəyənlər böyük növbələrlə üzləşirlər. 2015-2018-ci illərdə Goranboy rayonunun Gülüstan ərazisində istirahət etməyə gələnlərin çoxluğu səbəbindən kirayə ediləcək evlərin məhdudluğu üzündən insanlar digər kəndlərə üz tutublar.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kənd turizminin inkişafı üçün yerlərdə böyük imkanlar vardır. Bu imkanlar Göygöl rayonunun Topalhəsənli, Mirzik, Aşığlı,

Tuğana, Hacıkənd və s. ərazilərdə; Qaxda Ayı dərəsi; Lerikdə Relaks, Mistan, Təngəbin; Astarada Turadi, Hamuşam, Miki; Lənkəranda Haftuni, İbadi; Quba-Xaçmaz regionun bütün kəndlərində; Naxçıvanda Şahbuzda, Batabat gölü ətrafında, Duz dağında, Ordubadın Göygöl ərazisində; Masallının dağ kəndlərində; Zaqatala, Qəbələ, İsmayıllı rayonlarının kəndlərində və göstərmədiyimiz yüzlərlə digər ərazilərdə mövcuddur.

Lakin Azərbaycanda kənd turizminin inkişafının çox vacib məsələləri vardır ki, onlar hazırda həllini gözləyir. Beləki, ayrı-ayrı rayonlarda kənd turizminin inkişafına kömək edən mərkəzləşdirilmiş informasiya bazası, internet xidməti yoxdur (5, s.211). Belə olduqda kəndlərə turist kimi istirahətə getmək istəyənlər onlayn qaydasında hansı kənddə, kimin fərdi evində qalmağı lazım bilirsə qabaqcadan pulunu ödəməklə istədiyi qədər dincəlməyi barədə təminatlı olur.

Fikrimizcə kənd yerlərində hansı evdə turist qalacaqsa həmin fərdi evlərin ünvanı, mənzilin sahəsi, şəraiti və s. parametrlər haqqında internetə informasiyanın daxil edilməsi vaxt itkisinin azalmasına kömək edər və turist zövqünə uyğun evdə öz istirahətini təşkil etmək imkanı qazanacaqdır. Bundan ötrü kəndlərdə mənzilini turistə kirayə vermək istəyən adamların dövlət orqanları tərəfindən qeydiyyatdan keçməsi məqsədəuyğundur. Bununla bərabər evini turistə kirayə vermiş ev sahibinin müqavilə məbləğindən asılı olaraq sivil dövlətlərdə olduğu kimi 4% həcmində vergiyə cəlb edilməsi bu fəaliyyətin hüquqi cəhətdən müdafiəsinə təminat verəcəkdir.

Hesab edirik ki, bu yanaşma dövlət büdcəsinə əlavə pul vəsaitinin daxil olmasına kömək etməklə kənddə bir çox sosial məsələlərin həllinə imkan verəcəkdir. Lakin onu da nəzərə almaq lazımdır ki, kənd turizminə qeyd etdiyimiz yanaşma yay aylarında Şəhərdə yaşayan vətəndaşın ata-anasının, bacı və qardaşının, həmçinin digər qohumların evində dincəlməsinə şamil edilməməlidir.

Azərbaycanda turizmin, xüsusilə kənd turizminin inkişafı üçün internetin və informasiya texnologiyalarının inkişafı və standartlaşması vacibdir. Ümumdünya turizm Təşkilatı (UNWTO) komissiyasının Avropa üçün 49-cu iclası çərçivəsində Bakıda keçirilən "İqtisadi böhranın Avropa turizminə təsiri: çağırışlar və cavab tədbirləri" mövzusunda texniki seminarında çıxış edən "THR-İnternational" Turizm Təşkilatının Turist istiqamətlərin strategiyası və marketinqi üzrə direktoru Yorn Qişen Çinin müsbət təcrübəsini nəzərə alaraq, ölkələrin internet xidmətlərini inkişaf etdirməsinin vacibliyini qeyd edib. Onun sözlərinə görə, turizm şirkətləri xüsusiləşdirilmiş maraqlar üzərində xidmətlər göstərməlidirlər: Belə ki, xidmətlər üç seqment üzrə bölünür: beynəlxalq bazarlara istiqamətlənən xidmətlər; səyahətçilərin imkanları; maraqlarına arxalanan xidmət təklifləri və səyahətçilərin yeni yadda qalan təcrübə əldə etməsi üzrə xidmətlər". Bununla yanaşı, Y.Qişen xüsusiləşdirilmiş xidmətlər göstərən yeni, daha kiçik şirkətlərlə işləməyi tövsiyə edir.

Azərbaycanda turizm sahəsini müasir tələblər səviyyəsində inkişafını təmin etmək üçün bu vaxta qədər görülən işləri qeyd etməklə yanaşı, göstərmək vacibdir ki, bunlar yalnız başlanğıcdır. Onları uğurla davam etdirmək, qarşıya çıxan maneələri dəf etmək, dünya turizm bazarında ölkənin rəqabətqabiliyyətini və sahibkarlığın inkişafını təmin etmək üçün məsələyə sistemli şəkildə yanaşmaqla, mükəmməl strateji planın hazırlanmasına və ardıcıl olaraq həyata keçirilməsinə ehtiyac var. Nəzərə almaq lazımdır ki, Azərbaycan böyük turizm imkanlarına malikdir. Lakin bu gün onun çox cuzi hissəsindən istifadə olunur. Buna görə də Azərbaycanın hakimiyyət orqanları, turizm

şirkətləri, habelə turizm problemlərini tədqiq edən elmi kollektivlər qarşısında böyük vəzifələr durur. Ölkə turizminin inkişafının vacib şərtlərindən biri onun hazırki vəziyyətinin dərindən araşdırmaq, problemləri aşkarlayaraq aradan qaldırılması yollarının müəyyənləşdirilməsidir. Qanunvericilik bazasının sistemləşdirilməsi və onda olan boşluqların aradan qaldırılması turizmin inkişafının həyatı məsələsidir. Hüquqi baza bütün turizmin ümumi inkişaf strategiyasından çıxış etməlidir. Bu zaman ən xırda detallar belə nəzərə alınmalı, dünya turizm bazarındakı rəqabət səviyyəsi dərk edilməlidir. Dövlət orqanları ilə turizm sahəsində fəaliyyət göstərən iş adamları arasında konstruktiv dialoqun qurulmasına, turizm, kurort-rekreasiya və otel fəaliyyəti sahəsində sahibkarlıq fəaliyyətinin inkişafı üçün münasib şəraitin yaradılmasına, həmçinin, yerli və xarici təcrübənin yayılmasına, qanunvericiliyin təkmilləşdirilməsi və turizm-rekreasiya ərazilərinin yaradılmasına, yerli istehlakçının müdafiəsinə, yeni iqtisadi strukturların dəstəklənməsinə yönəldilmiş effektiv hüquqi-normativ aktın qəbul edilməsinə ehtiyac duyulur.

Onu da qeyd etmək yerinə düşər ki, hazırda ölkədə turizm sahəsində səmərəli bazar münasibətləri sistemi tam qurulmayıb və istehsal texnologiyaları baxımından turizm sahəsinin dünya standartlarından nə qədər uzaq olduğu göz önündədir. İcra hakimiyyəti orqanı vaxtlı-vaxtında turistlərin təhlükəsizliyi haqqında məlumat almır, bu səbəbdən də o, turoperatorları, turizm agentliklərini turistlərin getdiyi ölkələrin təhlükəsizliyi haqqında məlumatlandıra bilmir. Özfəaliyyət turistlərin təhlükəsizliyi haqqında da məlumat yoxdur. Ölkə səviyyəsində, həmçinin kənd turizmi haqqında dolğun statistik hesabat sistemi hələ də yaradılmayıb. Bu səbəbdən turizm bazarı subyektlərinin fəaliyyətinin tənzimləməsini təmin edən və qeyri-ciddi turizm təşkilatlarının əməllərindən turistləri müdafiə edən hüquqi normalara ehtiyac var. Gəlmə və sosial turizmin inkişafını əngəlləyən amillər də mövcuddur. Bunlara milli turizm məhsulunun bəsit çeşidi, yüksək qiymət və nəqliyyat xidmətlərinin vəziyyəti, dövlət tərəfindən nəzarət olunmayan qiymətlər və tariflər, turizm fəaliyyətinin prioritet istiqamətinin (uşaq və tələbə-gənclər turizmi, gəlmə turizm) dövlət tərəfindən tənzimlənməsinin zəifləməsi, daxili və sosial turizmlə məşğul olan firmalar üçün güzəştli kreditlərin və vergi güzəştlərin yoxluğu, işçilərin istirahətinin stimullaşdırılması üçün sahibkarların, həmçinin ictimai qurumların, fondların vəsaitinin cəlb edilməsi mexanizminin olmaması daxildir.

Fikrimizcə, qeyd edilənlərin həyata keçirilməsi üçün əlaqədar orqanlar aşağıdakı məsələlərin həllinə diqqəti gücləndirməlidirlər. İlk növbədə, turizm sahəsinin qanunvericilik bazası təkmilləşdirilməli, bu zaman qabaqcıl turizm ölkələrinin, o cümlədən qardaş Türkiyənin təcrübəsindən faydalanmaq lazımdır. “Turizm haqqında” Azərbaycan respublikası Qanununa “çətin vəziyyətə düşmüş turistə hüquqi və təşkilatı yardım almaq imkanının yaradılması” maddələri əlavə edilməli, “turizm agentlikləri birliyi” haqqında qanun qəbul edilməli, kənd turizmin fəaliyyətini tənzimləyən normativ sənədlər, dağ-xizək turizminin otel biznesinin dəstəyinə yönəldilmiş qanunvericilik bazası və hüquqi aktlar təkmilləşdirilməlidir. Turistlərin ölkə ərazisində maneəsiz hərəkəti təmin edilməlidir. Turizm şirkətlərinin maliyyə və inzibati məsuliyyəti mexanizmləri və turoperatorların maliyyə zaminliyinin tətbiqi vasitəsi ilə xaricə gedən ölkə turistlərinin hüquqlarının və qanuni maraqlarının qorunması təmin edilməlidir. Kənd turizmi sahəsində maliyyə hesablamaları haqqında hüquqi-normativ aktlar hazırlanmalı-

dır. Turizm-rekreasiya zonalarının ərazisində işgüzar fəaliyyətin həyata keçirilməsi təmin edilməli, kənd turizm fəaliyyətindən əldə olunan gəlirin bir hissəsinin sosial məqsədlər üçün ayrılması mexanizminin hazırlanması məqsədəuyğun olardı.

Araşdırmalar əsasında belə bir nəticəyə gəlirik ki, Azərbaycanda kənd turizminin inkişafı üçün böyük potensialın olmasına baxmayaraq onlardan hazırda səmərəli istifadə olunmur. Yaranmış vəziyyətin bir çox təşkilatı-iqtisadi səbəbləri vardır. Ən başlıcası odur ki, kənd turizminin sürətli inkişafı üçün hazırda hüquqi-normativ baza gücləndirilməli, kənd turizmindən istifadə sahəsində reklam işləri gücləndirilməli, informasiya bazası gücləndirilməli, internet, onlayn xidmətindən geniş istifadə olunmalı, vergi güzəştləri tətbiq edilməli və turist xidmətlərinin qiymətlərinin aşağı salınması hesabına səmərəli nəticələrə nail olmaq olar.

**Ədəbiyyat siyahısı:**


1. İ.Balabanov, A.Balabanov. Учебное пособие. – М.: Финансы и статистика, 2003, c.170.
2. Ə.Əlirzayev, E.Əlirzayev. "Azərbaycanın sosial-iqtisadi problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələrarası proqnozlaşdırma mexanizmləri". Bakı, 2012, s.423.
3. G.Gənciyev Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı, "Elm", 2005, s.258.
4. A.Əzizov Azərbaycanda turizmdə sahibkarlıq. (rus dilində). Bakı, 2012, s.307.
5. L.Allahverdiyeva Turizm 2016. Büllüten, Bakı 2017, s.23.



*Əhmədova Nübar Nizami qızı, dissertant,*
*Azərbaycan Dillər Universiteti,*


## FƏALİYYƏTİN STRUKTUR TƏHLİLİ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ MÜHÜM AMİL KİMİ

Psixologiyada insan fəaliyyətinin quruluşunun öyrənilməsinə çoxsaylı tədqiqatlar həsr edilmişdir. Bu tədqiqatlar fəaliyyətin təşkilində insanın daxili və xarici imkanlarının rolunu geniş şəkildə izah etməyə imkan verir. Fəaliyyət növlərinə görə 3 qrupa bölünür: oyun, təlim, əmək. Bizi burada yeni təşkil edilən təhsil müəssisələrində pedaqoji kadrların əmək fəaliyyəti maraqlandırır.

Növündən asılı olmayaraq, fəaliyyətin quruluşu eynidir. Məsələn, dərketmə fəaliyyəti - insan fəallığının mövcud olduğu ətraf aləmi yaradıcı şəkildə yenidən qurmaya yönəlmiş xüsusi bir növüdür. Fəaliyyət insanın subyekt kimi çıxış edərək xarici aləmin gerçəklikləri ilə fəal qarşılıqlı əlaqədə olması, obyektlərə mühitin münasibətinə uyğun şəkildə, məqsədyönlü təsir göstərməsi, bu yolla öz tələbatlarını ödəməsidir (3)

Fəaliyyət psixologiyası fəaliyyətin quruluşu, funksiyaları, mexanizm və qanunauyğunluqları, vasitələri və bu əsasda nəticələrin əldə edilməsini öyrənir. Psixologiyanın bu kateqoriyası üzrə aparılan araşdırmalarda, (kimlərin və hansı) həmçinin aşağıdakılar önə çəkilir:

- şəxsiyyətin məqsədyönlü fəallığı şəraitində obyektiv aləmin yenidən qurulması;

- fəaliyyətin nizamlanması;
- fəaliyyət prosesində insanın özünü necə dəyişməsi;
- fəaliyyətdə insanın öz yaradıcı potensialını reallaşdırması və s.

Fəaliyyət psixologiyasını ən görkəmli nümayəndələrindən, eləcə də yaradıcılarından biri olan P.Q.Qalperin (2) və A.N.Leontyevdir (3). Fəaliyyətə psixologiyanın predmeti kimi baxan A.N.Leontyev qeyd edir ki, fəaliyyətdə predmet anlayışından iki mənada istifadə olunur: geniş mənada - əşya kimi, dar mənada - fəaliyyətin istiqamətləndiyi mövzu, subyektin münasibət göstərdiyi cisim kimi. A.N. Leontyevə görə, predmetlilik - fəaliyyətin kontekstual xarakteridir. Predmetsiz fəaliyyət yoxdur. A.N.Leontyev predmetə ikinci mənada, yəni vasitə kimi baxır. Vasitənin özü də ikili xarakter daşıyır:

- birincisi - subyektin fəaliyyəti vasitəli olur;
- ikincisi - fəaliyyətin istiqamətləndiyi predmetin obrazı olur.

V.E.Milman "fəaliyyətin predmetliliyi" anlayışını belə aydınlaşdırır: "İnsan fəaliyyətinin əsas xüsusiyyəti onun subyektivliyi, məzmunluluğu, əşyaviliyi, prosessuallığı və məhsuldarlığıdır (5). P.Y.Qalperinin fəaliyyətlə bağlı yanaşmalarında diqqət çəkən fikirlər bundan ibarətdir ki, bələdləşməyə yönəlmiş fəaliyyətin quruluşu, onun formalaşması, subyektin həyatının hər bir mərhələsində funksiyalaşması psixologiyanın predmetini təşkil edir (2).

A.Q.Asmolov bu qənaətdədir ki, fəaliyyəti onun struktur komponentlərindən yaranan əminlik hissi və ustanovka stimullaşdırır. Ona görə də fəaliyyətdə bu iki anlayışa ayrılıqda baxmaq lazım gəlir. Əminlik - daha dərin və davamlı koqnitiv fenomendir. Uşaqlıqdan başlayaraq insanlar ətraf aləmi dərk etməyə çalışırlar. Öz təcrübəsini müəyyən sistemə adaptasiya və təşkil etmək üçün insan ona uyğun məntiqi əlaqə axtarır. Mühit və başqa insanlarla qarşılıqlı əlaqə müəyyən nəticələr əldə etməyə imkan verir. Beləliklə, insanda özü, əhatəsində olduğu insanlar, bütövlükdə dünya ilə bağlı müəyyən əminlik yaranır (1).

Göründüyü kimi, əmək fəaliyyətində də ustanovkanın roluna da xüsusi diqqət yetirilir. Dərin əminlikdən yaranan ustanovka insanın sosial təcrübəsində daxili düşüncələrinə əsaslanaraq formalaşır. Bu halda ustanovka o dərəcədə əsaslandırıcı olur ki, insanlar çox zaman onu aydın ifadə edə, hətta dərk edə bilmirlər. Belə dərin fikirlər, görüşlər və meyillər fəallaşdıqda insan ətrafında cərəyan edən hadisələri əminliklə şərh edir. Hətta onun mülahizələri tamamilə yanlış ola bilər. Bu halda insan, şübhəsiz ki, özünün daxili əminliyi ilə təsdiq edilmiş informasiyaları qəbul etməyə meyil göstərir, şübhəli, əmin olmadığı informasiyalardan isə imtina edir. Bir sözlə, insanda əminlik şübhəli olsa belə, özünün daxili əminliyini daha etibarlı hesab edərək onu başqa informasiyalardan üstün tutur. Ustanovka fəaliyyətdə aşağıdakı funksiyaları yerinə yetirir (6):

- obyektiv faktları ayırd edir;
- müxtəlif ustanovkalar oyadan faktorlar haqqındakı suallara cavab verir;
- fəaliyyətdə ifadə olunan bu ustanovkaların təzahür etdiyi məqamları, onların məzmununu araşdırmağa imkan verir.

Burada "obyektiv faktor" anlayışına: motiv, məqsəd və hərəkətin yerinə yetirildiyi şərait daxil edilir. Hərəkət və əməliyyatlar bir-birilə iyerarxik qaydada bağlı olduğundan həmin komponentlərə malik olmayan fəaliyyəti məqsədyönlü adlandırmaq olmaz.

Beləliklə, fəaliyyətin predmeti, strukturu və funksiyalarını təhlil edərək bu qənaətə gəlirik ki, əgər söhbət kadrların əmək fəaliyyətindən gedirsə, o halda fəaliyyətə

sistem halında yanaşmalıyıq. Bu həm də ona görə vacibdir ki, əmək fəaliyyəti başlanğıcından sonuna qədər şüur tərəfindən idarə olunan, nəzarət edilən konkret quruluşa malikdir. Bu quruluşun hər bir komponenti özündə bir neçə altquruluşları birləşdirir. Əmək fəaliyyətin təşkilati-texniki quruluşuna daxil olan əsas komponentlər kadrların öz daxili resurslarından maksimum yararlanma tələb edir.

Əmək fəaliyyəti motivləşmə baxımından öyrənilərkən onu hərəkətə gətirən səbəbləri yalnız kadrların daxili imkanlarında deyil, həm də rəhbərliyin idarəetmə üslubunda, bilik və bacarıqlarında da axtarmalıyıq. Əks halda kadrları yaradıcı və səmərəli əmək fəaliyyətə sövq edən, onlardan maksimum səy göstərməyi, iradə nümayiş etdirməyi şərtləndirən amillərdən yan keçmiş oluruq. Ona görə də kadrların əmək fəaliyyətini əməliyyat-texniki baxımdan öyrəndikdə onları fəallaşdırmağın konkret yolları, yerinə yetirilməsi vasitələrini də əhatə etmiş oluruq.

**Ədəbiyyat siyahısı:**


1. Асмолов А. Г. Деятельность и установка. М.: МГУ, 1979, 150 с.
2. Гальперин П.Я. Введение в психологию: Учебное пособие для вузов. М. Университет, 1999, 332 с.
3. http://www. intelligence.su/ Леонтьев А.Н. Деятельность. Сознание. Личность
4. http:// www. wikipedia.org
5. http:// www. voppsy.ru
6. http:// www. translate.google.az/



*Сафарзаде Айсель Энвер кызы, диссертант,*
*Азербайджанский Университет Языков*


## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ИСПОЛЬЗОВАНИЕ УЧИТЕЛЯМИ ИКТ В ОБРАЗОВАНИИ

Во многих странах образование было выбрано политическими силами в качестве средства преодоления разрыва между технологиями и обществом и для внедрения новых технологий в общество. Образование часто рассматривается как способ продвижения наций в информационную эпоху. Также часто утверждается, что существует необходимость трансформировать образование для решения новых задач, стоящих перед обществом.

Цифровые технологии часто представляют собой движущую силу трансформации образования и несут позитивный подтекст, что информационные и коммуникационные технологии (ИКТ) будут способствовать этой трансформации «к лучшему» [6]. Наряду с быстрым развитием ИКТ это привело к тому, что компьютеры стали частью повседневной жизни, и в последние три десятилетия ИКТ и компьютеры стали использоваться в классах на всех уровнях образования.

В течение последних лет продолжается стремительное движение с намерением интегрировать компьютеры и ИКТ в образовании во главе с Министерством Образования. Тем не менее, несмотря на положительные результаты, полученные в небольших, часто экспериментальных исследованиях, а также значи-

тельные усилия и ресурсы, вложенные в образовательные вычисления многими правительствами, по-прежнему отсутствуют доказательства того, что ИКТ фактически повысили образовательные стандарты [8], и процесс интеграции часто описывается как медленный. Сообщалось о многих причинах этой летаргии, начиная от технических факторов, таких как нехватка технологий и программного обеспечения в образовательных учреждениях и ограниченный опыт учителей в использовании ИКТ, до других факторов, таких как убеждения и знания учителей о том, как интегрировать ИКТ в обучение [7]. Некоторые авторы описывают эти результаты в терминах волн, когда различные технологии с интервалами в три-четыре года обещали революцию в преподавании, обучении и образовании, но это, к сожалению, через некоторое время привело к разочарованию и незначительным изменениям в образовании [3]. Можно утверждать, что история цифровых технологий в формальном образовании имела тенденцию много обещать, но приносила гораздо меньше. Разрыв между оптимистической риторикой, касающейся использования ИКТ в образовании, и нынешним уровнем интеграции ИКТ в образовательные учреждения побудил исследователей сосредоточиться на учителях и трудностях, с которыми они сталкиваются при интеграции инструментов ИКТ в свою учебную практику. Выявление факторов, объясняющих использование ИКТ, рассматривается как способ ответить на вопрос, почему некоторые учителя учитывают использование технологий студентами в классах, а другие - нет. Эти факторы часто являются характеристиками учителя, связанными с технологиями, где, например, внимание и самооценка учителей находятся в центре внимания. Настоящее исследование сосредоточено на этих характеристиках, но пытается дистанцироваться от того, чтобы рассматривать учителей как основное препятствие для внедрения ИКТ в образовании. Даже если риторика, внедрение и использование ИКТ в образовательных учреждениях остаются проблематичными, есть учителя, которые используют ИКТ в качестве средства преподавания и обучения в своей повседневной работе со сту-дентами в классе. Настоящее исследование заинтересовано в факторах, которые могут помочь объяснить, почему некоторые учителя решили использовать ИКТ в образовании, а большинство - нет. Анализ основан на следующем вопросе: Какие факторы влияют на использование учителями ИКТ в образовании?

**Теоретическая основа.** Исследования в области использования учителями технологий на уроках выявляют сложную структуру взаимосвязанных факторов, которые, как предполагается, являются определяющими факторами успешного внедрения ИКТ в образовании. В целом, исследования классифицируют факторы, которые способствуют (или действуют как барьеры) использованию ИКТ в образовании учителями как вытекающие из внешней среды или личностных характеристик учителей, включая убеждения, ценности и установки, которые кажутся вероятными влиять на них. В исследованиях, на которых сосредоточены личные характеристики отдельных учителей, две теории социально-психологического исследования считаются особенно актуальными. Одна из них - теория Бандуры [1] о самоэффективности, а другая - теория связи отношение-поведение [4]. Эти две теории будут представлены далее в связи с предыдущими исследованиями, посвященными изучению влияния отношения и самоэффективности на использование ИКТ учителями в образовании.

**Самоэффективность.** Согласно Бандуре [1], люди регулируют свое пове-

дение на основе систем убеждений, в частности убеждений в личной эффективности (способность достигать желаемых результатов и предотвращать нежелательные), и в собственной эффективности (вера в свои способности успешно выполнить определенный курс поведения). Обе эти формы эффективности считаются ключевыми факторами, определяющими ситуацию или задачу, в том, как люди строят и живут своей жизнью. Теория самоэффективности использовалась в исследованиях, касающихся намерений людей использовать информационные технологии. В этом исследовании восприятие индивидуумом своей способности грамотно использовать компьютеры определяется как самоэффективность компьютера, которая связана с суждением о том, что можно сделать в будущем. Это относится к суждениям о способности применять навыки для более широких задач, таких как содействие образованию. Таким образом, компьютерная самоэффективность относится не к компонентным навыкам, таким как использование определенной функции программного обеспечения или загрузка компьютера, а к суждениям о способности применять свои навыки при использовании технологии для более широких задач. Было показано, что большее чувство самоэффективности компьютера влияет на выбор людей в отношении использования и принятия компьютера в целом. Что касается учителей, исследования показали, что сильное чувство компьютерной эффективности среди учителей влияет как на частоту, так и на то, как ИКТ используются в повседневной учебной практике.

**Связь отношение-поведение.** Существуют две линии понимания в отношении связей отношение-поведение и то, что заставляет отношение предсказывать поведение (Зимбардо, Эббесен и Машлах). Одна строка, доступность отношения, предполагает, что отношения влияют на поведение, когда субъекты активируют их из памяти, и что эти отношения с большей вероятностью определяют поведение, когда их легко извлечь. Другое направление исследований (так называемое исследование стабильности отношений) отходит от веры в то, что отношения влияют на поведение, когда они настолько стабильны, что субъекты могут реконструировать их почти не задумываясь. Условиями, которые усиливают связь «отношение-поведение» в обоих подходах, являются непосредственный опыт, мотивация думать об объекте или проблеме, релевантная и односторонняя информация, убеждение в том, что установки правильные, и легко запоминающиеся установки. Другими условиями, которые влияют на связи отношения-поведения, являются, если отношения являются общими или специфическими в отношении конкретного поведения. Специфическое отношение к определенному поведению улучшает связи отношения-поведения, потому что отношение близко реагирует на предсказанное поведение. С другой стороны, когда отношение является общим и специфичным для поведения, между отношением и поведением нет тесной связи [4]. Исследования в области использования учителями ИКТ в образовании рассматривают отношение как оказывающее прямое или косвенное влияние на использование учителями технологий в классах. Прямое влияние установок можно разделить на две группы: отношение к технологиям и отношение к использованию ИКТ в образовании. Один пример, в котором отношение оказывает косвенное влияние на использование ИКТ в образовании, приводится в исследовании Кокса, Престона и Кокса [2], где, как представляется, отношение влияет на мотивацию учителей использовать ИКТ. Мотивация учителей, согласно Кокс и соавторам, фактор с прямым влиянием. Другой пример - отношение

как фактор, который будет способствовать инновационному использованию ИКТ. Позитивное отношение к ИКТ и / или их использование в образовании часто предлагается в качестве стимулирующих факторов, а негативное отношение - в качестве сдерживающих факторов [5]. Однако позитивное отношение к использованию ИКТ может быть более или менее специфичным для ИКТ в школе, начиная от общего позитивного отношения к ИКТ в образовании и заканчивая более конкретным отношением к использованию ИКТ в повседневной работе со студентами в классах. Это различие, кажется, отсутствует в исследованиях, связывающих отношение к использованию компьютера в обучении. Кроме того, согласно некоторым исследованиям, опыт использования ИКТ, по-видимому, является связующим звеном между двумя теориями, представленными выше, в том смысле, что как самоэффективность, так и отношение к использованию ИКТ напрямую связаны с опытом. В этом смысле утверждается, что знакомство с использованием технологий заставляет людей более позитивно относиться к использованию ИКТ, что также приводит к повышению чувства самоэффективности.

**Технологическая интеграция.** Отношение также сильно влияет на то, как люди взаимодействуют как члены организаций и групп. Теория диффузии инноваций Роджерса соответствует этому понятию. Он считает, что люди, которые внедряют и выбирают для использования новые инновации, такие как технологии, являются теми, кто имеет к ним позитивное отношение, и он применяется в различных дисциплинах, включая образование, чтобы объяснить, распространяется ли инновация среди членов социальной системы. Если ИКТ рассматривается как инновация на рабочем месте, то распространение концепции инноваций представляется уместным для объяснения процесса, который заставляет учителей принимать и использовать ИКТ в своих классных комнатах для поддержки обучения в классе.

Настоящее исследование отличается от многих других исследований в двух отношениях. Во-первых, многомерные методы, использованные здесь, привлекли внимание учителей, которые уже используют технологии в своих занятиях в классе и имеют непосредственный опыт использования технологий для обучения. Во-вторых, модель, появившаяся в ходе анализа, предполагает, что связь с педагогической работой в школьной практике важна, подчеркивая различие между общим и конкретным отношением к использованию ИКТ в образовании. Показано, что специфическое позитивное отношение к ИКТ в педагогической работе со студентами и коллегами - это те взгляды, которые, по-видимому, способствуют использованию учителями ИКТ в образовании, в то время как общее позитивное отношение к ИКТ в образовании, по-видимому, не очень влияет. Этот вывод отличается от сообщений о том, что повышение компетенции в области ИКТ в целом также приводит к более позитивному отношению к использованию ИКТ в классных комнатах. Соответствующий вопрос касается того, как результаты настоящего исследования могут быть использованы. До сих пор изучение образования и использования технологий было охарактеризовано как «непостоянная и ненормальная» область исследований, где эмпирические исследования зафиксировали несколько значительных изменений в образовательной практике. Если учителя участвуют в исследованиях, они часто создаются как люди, испытывающие различные трудности с внедрением технологий и устой-

чивые к изменениям в образовании. С другой стороны, учителя также считаются важными агентами, которые существенно влияют на процесс внедрения ИКТ и изменения в образовании. Настоящее исследование пытается дистанцироваться от этой противоречивой картины, возникающей в результате исследований, начиная с учителей, которые фактически используют ИКТ в своем образовании, и мы надеемся, что расследование, таким образом, будет рассматриваться как строительный блок в развитии знаний о том, как учителя могут начать грамотно и уверенно использовать ИКТ в своей педагогической работе на уроках. В научной литературе были выделены различные переменные, связанные с ИКТ, как важные для поощрения использования учителями компьютеров и информационных технологий в образовании. Основная цель настоящего исследования состояла в том, чтобы изучить некоторые из этих переменных, чтобы выяснить, какие факторы, по-видимому, способствуют объяснению использования ИКТ учителями в образовании. Результаты указывают в том же направлении, что и многие другие исследования. Они предполагают, что необходимо соответствующее обучение (особенно в педагогических аспектах ИКТ) и что необходим непосредственный опыт работы с технологиями в классах.

Важно знать о результатах исследований, показывающих, что на использование ИКТ учителями влияют многие взаимосвязанные факторы. Факторы были классифицированы в научной литературе по-разному. В некоторых исследованиях они находятся на разных контекстуальных уровнях, в то время как в других предлагается, чтобы классификация, отличающая факторы, возникающие как от внешней среды, так и от личных характеристик учителей, была важной. Более того, согласно исследовательской литературе, кажется очевидным, что динамичный процесс, включающий сложную структуру взаимосвязанных факторов, обусловленных различными категориями, определяет успешное внедрение ИКТ. Чтобы полностью понять эти факторы на более глубоком и широком уровне, необходимо провести исследования, которые изучают, как профессиональная реальность учителей социально конструируется с учетом как социальных, так и структурных условий. Настоящее исследование может служить строительным блоком, который делает шаблоны переменных видимыми на общем уровне. Однако в настоящем исследовании для модификации модели использовался только один набор данных. Это влияет на уровень значимости общей «пригодности для соответствия» модели, поэтому рекомендуется тиражирование модели на новом образце. Дальнейшие исследования в этой области важны для того, чтобы сделать преподавателей компетентными в планировании и управлении использованием ИКТ в классе.

**Список использованной литературы:**


1. Bandura, A. (2002) Growing primacy of human agency in adaption and change in the electronic era. *European Psychologist* 7(1), 2–16.
2. Cox, M., Preston, C. & Cox, K. (1999) *What Factors Support or Prevent Teachers from Using ICT in their Classrooms?* Retrieved 2 December 2008 from the University of Leeds: http://www.leeds.ac.uk/educol/documents/00001304.htm.
3. Cuban, L. (2002) *Oversold and Underused: Computers in the Classroom.* Cambridge, Mass.: Harvard University Press.

4. Doll, J. & Ajzen, I. (1992). Accessibility and stability of predictors in the theory of planned behaviour. *Journal of Personality and Social Psychology* 63(5), 754–765.

5. Drent, M. & Meelissen, M. (2008) Which factors obstruct or stimulate teacher educators to use ICT innovatively? *Computer & Education* 51,187–199.

6. Fisher, T. (2006) Educational transformation: Is it, like "beauty", in the eye of the beholder, or will we know it when we see it? *Education and Information Technologies* 11(3), 293–303.

7. Hsu, P. & Sharma, P. (2008) A case study of enabling factors in the technology integration process. *Educational Technology & Society* 11(4), 213–228.

8. Nivala, M. (2009) Simple answers for complex problems: Education and ICT in Finnish information society strategies. *Media, Culture & Society* 31(3), 433–448.

*Ağakişiyeva Nuranə Ağamoğlan qızı, dissertant,*
*AMEA-nın İqtisadiyyat İnsitutu*

## DEMOQRAFİK PROSESLƏRƏ TƏSİR EDƏN AMİLLƏRİN TƏSNİFATI

Hazırda demoqrafik proseslər və əhalinin müxtəlif səpkidə öyrənilməsinə dair yeni tələblər, konsepsiyalar irəli sürülür, bu da, öz növbəsində daha çox iqtisadi, sosial həyatla, şəraitlə, əmək potensialı, səhiyyə, təhsil problemi ilə əlaqələndirilir. Müasir dövrdə obyektiv qanunlar həmçinin iqtisadi, sosial qanunlarla – məşğulluq qanunu, kapital yığımı qanunu, tələbatın artması qanunu, işçi qüvvəsinə tələb və təklif qanunu və s. ilə məhdudlaşmır. Fikrimizcə indiki zamanda əhali haqqında elmin qarşısında duran ən başlıca məqsədlərdən biri demoqrafik və sosial – iqtisadi proseslər arasındakı dialektik əlaqəni, ziddiyyətləri, qanunauyğunluqları üzə çıxarmaq və onlar arasındakı vəhdətliyi təmin etməkdən və cəmiyyətin inkişafına uyğun tənzimləməkdən ibarətdir.

Əhalinin optimal demoqrafik təkrar istehsalının təmin edilməsi və onun proqnozlaşdırılması bazar münasibətləri şəraitində çətin problemlərdən biri kimi qalır. Demoqrafik strukturun formalaşması və onların bir-biri ilə əlaqələndirilməsi və struktura təsir edən amillərin, bütövlükdə demoqrafik vəziyyətin nəzərə alınması da çətin problemlərdən biridir. Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, əhalinin təkrar istehsalının optimallaşması meyarları və parametrlərinin müəyyən edilməsi və onların reallaşması həm nəzəri – metodoloji və həm də praktiki cəhətdən çətin və mürəkkəb problemdir.

Biz yuxarıda göstərilən demoqrafik proseslərə təsir edən mühüm amilləri nəzərə alaraq digər amilləri də təsnifata daxil edilməsini məqsədəuyğun hesab edirik. Sosial – iqtisadi inkişaf siyasətinin məqsədlərinə boşanmanın azaldılması, əhalinin yaş və cins tərkibinin tənzimlənməsi, əmək ehtiyatlarının səmərəli yerləşdirilməsi və istifadəsi əsas vəzifələrdən biri hesab edilir. "Regionların 2014-2018-ci illərdə sosial – iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərmişdir ki, "Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılmışdır. Əhalinin sayı isə 1,6 milyon artmışdır. Bu da çox gözəl

göstəricidir. Əhalin nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətlə getsin, artan əhali işlə təmin olunsun”. Ölkə Prezidenti yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təmin edilməsini regionların sosial – iqtisadi inkişaf proqramlarının tərkib hissəsi hesab edir, bu məsələni daimi diqqət mərkəzində saxlayır. Respublika Prezidenti daha sonra qeyd edir ki, “Bəzi ölkələrdə əhali artmır, bəzi ölkələrdə əhali azalır, Azərbaycanda isə əhali artır. Bu əlbəttə ki, bizdən çox ciddi iş tələb edir.”

Göstərilənlərlə əlaqədar demoqrafik proseslərə təsir edən amilləri fikrimizcə aşağıdakı kimi təsnifatlaşdırmaq olar:




***Sxem 1. Demoqrafik proseslər və ona təsir edən amillər***

Demoqrafik proseslərə təsir edən müxtəlif amillərdən iqtisadi amillərin əlaqəsini aşağıdakı kimi göstərmək olar:




***Sxem 2. Demoqrafik proseslərə təsir edən amillərin əlaqəsi***

Göstərilən tənzimləmə mexanizmləri əmək bazarında əhalinin məşğulluğu səviyyəsinə təsir edir.

Demoqrafik proseslərə təsir edən amillərin və o cümlədən iqtisadi amillərin təsnifatına müəyyən əlavələr edilməsini mümkün hesab edirik. Göstərilən iqtisadi amillərin demoqrafik proseslərin tənzimlənməsinə əhəmiyyətli dərəcədə təsir edir. Bu tənzimləmə istiqamətləri birbaşa və dolayı formada olmaqla sosial – iqtisadi inkişafla bilavasitə əlaqədardır. İqtisadi tənzimləmə mexanizmi əmək bazarında əhalinin səmərəli məşğulluğuna, doğumun optimallaşdırılmasına, ölümün azaldılmasına, yaşayış

dövrünün uzadılmasına, miqrasiyanın tənzimlənməsinə təsir edir. Deməli demoqrafik proseslərin idarə edilməsi və tənzimlənməsi ölkənin sosial – iqtisadi rayonları üzrə tələbata uyğun əhalinin inkişafı və düzgün yerləşdirilməsi üçün vacib şərtlərdəndir. Bu həm də istehsalın region miqyasında tənzim və idarə edilməsində nəzərə alınmalıdır. İstehsalın region miqyasında tənzim və idarə edilməsi də göstərilən bir çox amillərlə əlaqədardır. Biz i.e.d., prof., AMEA-nın müxbir üzvü Ə.X.Nuriyevin istehsalın region miqyasında tənzim və idarə edilməsi barədə fikirlərini demoqrafik proseslərin tənzim və idarə edilməsi prosesinə də şamil etmək olar. Ə.X.Nuriyev göstərir ki, "İstehsalın region miqyasında tənzim və idarə olunması imkanları isə bir çox amillərdən, xüsusilə ölkədə məhsuldar qüvvələrin inkişaf səviyyəsindən, hər bir konkret inkişaf mərhələsində regional qanunçuluğun vəziyyətindən, sosial, iqtisadi, milli, siyasi problemlərin həlli vəziyyətindən və dövlətin cəmiyyətin həyatında oynadığı roldan asılı olur". Hesab edirik ki, deyilən amillər demoqrafik proseslərə təsir edir və hər bir amilin nəzərə alınması metodoloji baxımdan son nəticənin düzgün qiymətləndirilməsinə imkan verir. Onu da nəzərə almaq lazımdır ki, təsnifatlaşdırılan hər bir amil bir-biri ilə qarşılıqlı əlaqədə olub, digərinin formalaşmasına təsir edir. Məsələn, təbii amil əhalinin məşğulluğuna, məşğulluğun inkişafı təhsilə, təhsilin inkişafı əhalinin həyat səviyyəsinə və s. təsir göstərir. Bu fikirləri demoqrafik proseslərə təsir edən iqtisadi amillərin qarşılıqlı əlaqələrinə də şamil etmək olar.

Araşdırmalardan aydın olur ki, hazırda regionlarda demoqrafik proseslərin dövlət tənzimlənməsi sahəsində aktiv siyasət həyata keçirilir. Bu siyasətin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1) İş yerlərinin yaradılması tədbirləri;
2) İşsizlərin hazırlığı və təkrar hazırlığı;
3) Əhalinin sosial – iqtisadi inkişaf səviyyəsinin təmin edilməsi;
4) Əmək haqqının dövlət maliyyələşməsi, büdcədən yardımlar;
5) Məşğulluq xidmətinin yaradılması və təkmilləşdirilməsi və s.

Öz potensialına, təbii sərvətlərinin miqyasına, məşğulluq səviyyəsinə, coğrafi və tarixi – iqtisadi xüsusiyyətlərinə görə rayon bölgələri bir- birindən xeyli fərqlənir. Ona görə də ölkənin sosial – iqtisadi inkişaf siyasətinin əsas məqsədləri qəbul edilmiş regionların sosial – iqtisadi inkişafı üzrə Dövlət Proqramları ilə müəyyənləşdirilmişdir. 2004-2023-cü illərdə dörd belə Dövlət Proqramı qəbul edilmiş və bölgələrin inkişafına yönəldilmiş bu proqramlar müvəffəqiyyətlə yerinə yetirilir. Azərbaycan Respublikasının Prezidenti ölkənin inkişafını bölgələrin hərtərəfli inkişafında görür və ona görə də göstərir ki, "Azərbaycanın hərtərəfli inkişafı bölgələrin inkişafından asılıdır. Məhz buna görə biz bölgələrə yeni infrastruktur gətirməyə çalışırıq. Bu gözəl xəstəxana, sonra burada yaradılacaq müəssisələr – fabriklər, zavodlar bu bölgənin inkişafına xidmət edəcəkdir. Əgər bütün bölgələr inkişaf edərsə, ölkəmiz də güclənəcəkdir". Bölgələrdəki mövcud potensiallardan daha səmərəli istifadə edilməsi son nəticədə əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilir. Prezident İlham Əliyev daha sonra qeyd edir ki, "Mənim məqsədim ondan ibarətdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin və bölgələrdə, rayonlarda dünya standartlarına cavab verən infrastuktur obyektlər, idman qurğuları, tibb ocaqları, məktəblər, zavodlar, fabriklər istifadəyə verilsin... Bizim gücümüz məhz bundadır ki, Azərbaycanın hər bir bölgəsi, hər bir rayonu, kəndi inkişaf etsin, orada yaşayış səviyyəsi yüksək olsun, ən qabaqcıl texnologiyalar tətbiq

edilsin və insanlarımız daha yaxşı yaşasınlar. Bu məqsədlə indi geniş məktəb tikintisi proqramı həyata keçirilir və məktəblərin kompüterləşdirilməsi proqramı icra olunur. Bölgələrdə yeni tibb ocaqları, aeroportlar istifadəyə verilir. Yəni qeyri – neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı bizim üçün prioritet istiqamət olmalıdır... Nəzərə alsaq ki, Azərbaycan əhalisinin yarısı kəndlərdə yaşayır, aqrar sektorda fəaliyyət göstərir, bunun həm iqtisadi, həm sosial baxımdan nə qədər böyük əhəmiyyət daşıdığını görürük.

Ümumilikdə götürsək, əhalinin demoqrafik xarakteristikası nəinki geyim və qida məhsulları, həm də yaşayış, ictimai və kommunal – tikinti fondlarının həcmi, habelə həyat tərzi ilə əlaqədar olub, az dəyişilən milli və adət və ənənələr, həyat şəraitinin yaxşılaşması ilə əlaqədar olaraq əhali istehlakının mütəhərrikliyi, istehlak mallarının çeşidlər üzrə istehsala olan tələbatların optimal normalarla müəyyənləşdirilməsi də ölkə əhalisinin ümumi sayı, cins – yaş strukturu və təhsil səviyyəsi ilə əlaqədardır. Bundan belə nəticəyə gəlirik ki, istehsalın inkişaf modelini hazırlayarkən əvvəlcə onun artım həddini tapmağın ölçü vahidi kimi əhalinin demoqrafik hərəkətinə aid məlumatlar lazımdır.

Regionların davamlı sosial – iqtisadi inkişafının təmin edilməsi, qəbul edilən proqramların daha uğurla həyata keçirilməsi və bu istiqamətdə yeni proqramların hazırlanması əhalinin demoqrafik göstəricilərinin daha dərindən öyrənilməsini tələb edir.

*Qənbərov Vüqar Əhliman oğlu, dissertant,*
*Bakı Biznes Universiteti*

## SIĞORTA ŞİRKƏTLƏRİNDƏ MALİYYƏ TƏHLİLİNİN NƏZƏRİ METODOLOJI ƏSASLARI

Müasir dövrdə iqtisadiyyatın yenidən formalaşması, sığorta şirkətlərinin yeni iqtisadi idarəetmə üsuluna keçməsi, sığorta şirkətlərinin maliyyə vəziyyətinin qiymətləndirilməsi üçün yeni metodlardan istifadə edilməsini tələb edir. Qarşıya qoyulmuş məqsədə uyğun olaraq təhlil retrospektiv və perspektiv ola bilər, həmçinin sığorta şirkətlərinin mövcud maliyyə vəziyyəti və onun fəaliyyətinin nəticələri qiymətləndirilə bilər. Təhlildən sığorta şirkətləri tərəfindən həyata keçirilən təsərrüfat fəaliyyətinin daxili ehtiyatlarının müəyyən edilməsi, şirkətin investisiya qoyuluşlarının seçilməsi, ödəmə qabiliyyətinin qiymətləndirilməsi və ümumilikdə sığorta şirkətinin maliyyə fəaliyyətinin proqnozlaşdırılması üçün istifadə edilə bilər. Bütün bunlar maliyyə təhlilinin şirkətin hazırki və gələcək fəaliyyət istiqamətlərini müəyyən etmək üçün metodoloji əsaslarının öyrənilməsi və ondan istifadənin əhəmiyyətini əks etdirir. Maliyyə təhlili mühasibat uçotu məlumatlarından istifadə edərək xərc məlumatları ilə istehsal arasındakı əlaqəni araşdırır və müəssisənin gələcək qərarları haqqında menecerlər üçün məlumat yaradır. Maliyyə təhlili – şirkətin onun maliyyə mexanizminin, operativ və intensiv fəaliyyəti üçün maliyyə ehtiyatlarının yaradılması və istifadəsi prosesinin dərk edilməsi metodu kimi şirkətin biznes-proseslərin ümumi tədqiqinin bir hissəsidir. Ma-

liyyə təhlili bu gün mühüm əhəmiyyət kəsb edir. Belə ki, müəssisələrin real pul dövriyyəsinin idarə edilməsinə və böhran vəziyyətinin yaranması ehtimalını qabaqcadan müəyyənləşdirilməsinə qarşı tədbirlər hazırlanmasına imkan verir. Maliyyə təhlilinin nəzəri metodoloji əsaslarının öyrənilməsinin məqsədi – valyuta-maliyyə, texniki-iqtisadi və tədqiqat xarakterli kompleks hesabatların hazırlanması bacarığının əldə olunması üçün nəzəri və metodiki üsullara, eləcə də metodlara yiyələnməkdir. Maliyyə təhlilinin məqsədi şirkətin maliyyə vəziyyətini gəlirlər və itkilər, aktivlər və passivlərin strukturunda, debitor və kreditorlarla hesablaşmalarda dəyişiklikləri xarakterizə edən lazımi həcmdə məlumat parametrlərinin əldə edilməsidir. Təhlil retrospektiv, perspektiv ola bilər, bugünkü günün vəziyyətini əks etdirə bilər. Təhlil məqsədlərinə müəssisənin təşkilati, informasiya texniki və metodiki imkanları əsasında mümkün olan müəyyən qarşılıqlı əlaqəli icrası, həlli nəticəsində nail olunur. Maliyyə təhlilinin təcrübəsi ümumi şəkildə qəbul edilmiş 4 metoda bölünür. 1. Üfiqi (zaman) təhlil – hesabatın maliyyə göstəricilərinin planı və ya ötən dövrün (bazis) göstəriciləri ilə müqayisə edilməsini əks etdirir. 2. Şaquli (struktur) təhlil – hesabatın hər bir maddəsinin bütövlükdə nəticəyə təsirini müəyyən etməklə yekun maliyyə göstəricilərinin strukturunun təyin edilməsidir. Məsələn, şirkətin əmlakında dövriyyədən kənar aktivlərin xüsusi çəkisinin təyin edilməsi. Bu, həmin müəssisənin fond tutumunun qiymətləndirilməsinə imkan verir. 3. Trend təhlil – bir neçə dövrə hesabatın hər bir göstəricisinin müqayisəsi və trendin müəyyən edilməsidir. 4. Müqayisəli (məkan) təhlil – hesabat göstəricilərinin müqayisəsi, planla müqayisə; rəqibin göstəriciləri ilə müqayisə; ayrı-ayrı bölmələrin iqtisadi göstəricilərlə müqayisəsi və s. Xərc və mənfəətinin təhlili daha çox mühasibatlıqda istifadə edilən təhlil metodudur. Xərc və mənfəətinin təhlili, satış həcmindəki dəyişikliklərin, xərc və mənfəətə təsirini təhlil etmək üçün istifadə edilən üsuldur. Metod, sığorta şirkətlərinin fəaliyyətinin planlaşdırılması baxımından çox əhəmiyyətli bir idarəetmə vasitəsi olaraq ortaya çıxır və məhsulun dəyəri, miqdarı və qiyməti ilə əlaqədar ətraflı məlumat əldə etməyə imkan yaradır.

Effektivliyin təhlili (MEA). Sadə şəkildə desək planlaşdırılan hədəflərə çatmaqda mümkün yollar arasında ən yaxşı, ən təsirli seçimi edib, xərci azaldıb, xidmətin nəticəsini yüksəltmək üçün bir büdcə formalaşdırmaq yoludur. Ancaq xərclərin təhlilində məqsədin nə olduğunun və buna bağlı olaraq yarana biləcək problemin həlli yolunda alternativlərin açıq şəkildə təyin olunması lazımdır. Xərclərin səmərəliliyinin təhlili tez-tez həyat sığortasında səhiyyə proqramlarının müqayisəsinə imkan verir. Xərclərin səmərəliliyinin təhlili sığorta sahəsində layihələrin xərclərini ölçmək üçün bir yanaşmadır. Sığorta məhsullarının istifadəsi təhlili, iki və ya daha çox alternativ strategiyanın həm xərclər, həm də nəticələr baxımından müqayisə edildiyi iqtisadi analiz üsuludur. Sığorta məhsullarının istifadəsi təhlili alternativ tibbi sığorta müdaxilələrinin nəticələri və sağlamlıq vəziyyəti nəticələrinə görə düzəldilir.

Maliyyə hesabatlarının təhlili. Analitiklərin məqsədlərinə uyğun olaraq bir və ya bir neçə maliyyə hesabatına aid olan maliyyə hesabatlarının bir və ya daha çoxunun qiymətləndirilməsi prosesidir, iki şirkət arasındakı əlaqələri təhlil edir və müxtəlif təhlil üsullarından istifadə edir və operatorun mövcud olduğu şərtləri nəzərə alır. Sığorta şirkətlərində maliyyə təhlilinin dörd əsas növündən istifadə olunur. Qiymətləndirmə təhlili. Göstəriciləri maliyyə hesabatlarına uyğun olaraq hesablayır.

Faiz dərəcəsi metodu ilə təhlil maliyyə hesabatlarında hər strukturun payını ifadə edir. Bu analitik üsulu "şaquli faiz təhlili"də adlanır. Bu təhlil hər bir maliyyə hesabatına və bir ildən artıq məlumatlara tətbiq oluna bilər. Müqayisəli cədvəl təhlili. Bu, maliyyə hesabatlarının maddələri arasındakı illik fərqlərdən sonra hesab fərqləri əsasında faiz fərqlərinin təhlilinə əsaslanan bir metoddur və fərqlərin fərqi hesablanır. Bu metod dinamik təhlil hesab edilir, çünki bir neçə müddətdən artıq məlumatlar tələb olunur. Büdcə təhlili. Büdcə sistemi olan sığorta şirkətlərində, dövrün əvvəlində təşkil edilən şirkət büdcələrini dövrün sonuna olan büdcə maddələri ilə müqayisə edilməsidir. Büdcə təhlili əsasən xərclər və xərc maddələrinə yönəlir. Xərc maddələrinə əsaslanan büdcə təhlili 4 əsas ölçüdə həyata keçirilir.

Satışın təhlili. Satış proqnozlarının müvəffəqiyyət səviyyəsinin nə qədər yüksək olduğu, prosesin sonrakı dövründə baş verəcək büdcə gəlirlərinin nə qədər yaxşı olması təhlil edilir.

Əmək xərclərinin təhlili. Bu təhlil, standart meyarlara görə hazırlanan elastik büdcələrdə xərclər arasındakı fərqlərin müəyyən edilməsinə uyğun olaraq aparılır. Təhlil əmək haqqı xərclərinin müddətlərində və ödəniş məbləğlərindəki fərqliliyə uyğun olaraq həyata keçirilir.

İstehsal xərclərinin təhlili. Bu təhlil standart meyarlara uyğun hazırlanmış faktiki büdcələr üzrə ümumi istehsal xərcləri arasındakı fərqlərin müəyyənləşdirilməsi üçün aparılır. Istehsal xərcləri arasındakı fərqlərin büdcədən, kadrların ixtisas dərəcəsindən və ya keyfiyyət dəyişikliklərindən qaynaqlandığını müəyyən etmək üçün təhlil aparılır.

Nisbət təhlili. Əsasən, hər hansı iki ədədin müqayisə edilməsidir. Maliyyə hesabatlarının təhlilində isə, maliyyə cədvəllərdən alınan iki ədədin müqayisəsi əməliyyatıdır. Məsələn, cari aktivlər ilə qısa müddətli borcların bir-birinə nisbəti zamanı (böldüyümüz) 2 rəqəmini əldə ediriksə; bunun mənası mövcud 1 AZN borcumuza qarşılıq 2 AZN cari aktivimiz var deməkdir. Nisbətlər, əlaqəsiz kimi görünən iki ədədin əlaqələndirilməsini və alınan nəticədən fikir formalaşmasını təmin edir. Əldə edilən nəticələr informasiya mənbəyi rolunu oynayır. İstifadəçilər bu informasiya mənbələrindən istifadə edərək sığorta şirkətlərini müqayisə edə bilirlər. Nisbət təhlili, banklar və borc verən təşkilatlar üçün borc altında olub olmadığımızı müəyyən etmək üçün informasiya mənbəyi rolunu oynayır. Ayrıca idarəçilərə müəssisənin güclü və zəif cəhətlərini göstərir. Nisbət metodu statistik xüsusiyyətli bir təhlildir. Bu səbəbdən əsasən müəssisələrin yalnız bir rüblük maliyyə hesabatlarına tətbiq edilir. Nisbət təhlilində istifadə edilən göstəricilər aşağıdakılardır:

1. Ümumi qəbul edilmiş göstəricilər;
2. Ölkə üzrə orta göstərici;
3. Sektor üzrə orta göstərici;
4. Sığorta sahəsi üzrə orta göstərici;
5. Şirkətin keçmiş dövrlərinə bağlı maliyyə göstəriciləri və s.

Nisbət təhlili, sığorta şirkətinin maliyyə baxımdan vəziyyətini qiymətləndirmək üçün tez-tez istifadə edilir. Bu cür işlər ABŞ-da 1940-cı illərdə başlamış və hal-hazırda demək olar ki, bütün şirkətlərdə istifadə edilmişdir.

*Əzizov Əziz Abduli oğlu, dissertant,*
*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında*
*Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi*

# MALİYYƏ SİSTEMİNDƏ RƏQƏMSAL EKOSİSTEMİN İNKİŞAFI

Maliyyə sistemində sabitliyin qorunması siyasəti üzrə 2019-cu ildə maliyyə kapitalı və pul bazarları, qeyri-bank kredit təşkilatları, banklar, sığorta sistemi əhatə olunmuşdur. Maliyyə sistemində sektor daxili risklər balansında bəzi uyğunsuzluqlar mövcud olsa da, maliyyə stabilliyi təmin edilmiş və kredit aktivliyinin bərpası prosesi davam etdirilmişdir.

Nağdsız ödənişlərin təşkili prosesi, elektron ödəniş xidmətləri və müasir ödəniş texnologiyalarının tətbiq dairəsinin genişləndirilməsi, ödəniş ekosistemində sabit, fasiləsiz, təhlükəsiz fəaliyyət rejiminin olması və onun inkişafı Mərkəzi Bankın fəaliyyətindəki prioritet istiqamətlərdən sayılır. Milli Ödəniş Sistemi (MÖS) vasitəsilə 2019-cu ilin 11 ayında həyata keçirilən ödənişlərin sayı 41% artmış, ödənişlərin həcmi ÜDM-in 3.3 mislini təşkil etmişdir (http://www.azerbaijan-news.az).

Büdcə ödənişlərinin və kütləvi xidmətlər sistemindəki ödənişlərin mərkəzləşdirilmiş şəkildə toplanması üçün yaradılmış “Hökumət Ödəniş Portalı”nın (HÖP) imkanlarının təkmilləşdirilməsi və genişləndirilməsi davam etdirilmişdir ki, hazırda bu infrastruktura 12 mərkəzi icra hakimiyyəti orqanı, 4 kommunal xidməti müəssisəsi, 5 stasionar və mobil rabitə operatoru, 106 məhkəmə orqanı, 18 sığorta şirkəti, 1438 bələdiyyə orqanı və digər sosial əhəmiyyətli orqan və qurumlar inteqrasiya olunmuşdur. Bu gün HÖP-ə inteqrasiya olunmuş orqan və qurumlar üzrə 550-dən çox xidməti ödənişlərin toplanması təmin olunur. Bu xidmətlər üzrə ödənişlər 30 bank və “Azərpoçt” MMC-nin 2500-dən çox filial və şöbələri vasitəsilə və 1300-ə yaxın ödəniş terminalında nağd və ya nağdsız ödəniş ilə aparıla bilər.

2019-cu ildə banklar tərəfindən məsafədən asılı olmayaraq bank hesablarının açılması, təmassız texnologiyalara əsaslanan mobil ödənişlər üzərində qanunvericiliyə müasir innovativ ödəniş həllərinin təşkilində hüquqi zəmin yaratmaq məqsədilə dəyişikliklər işlənib hazırlanmış və təsdiq edilmişdir. Ötən illə müqayisədə bankomatların sayı 2.2%, təmassız POS-terminallar 35% artmış, ödəniş kartları ilə bütün vasitələrlə aparılan nağdsız ödənişlərin həcmi 57%, o cümlədən elektron ticarət əməliyyatlarının həcmi 93% artmışdır (http://www.azerbaijan-news.az). Ödəniş ekosistemində tətbiq edilən məhsul və xidmətlərin təhlili aparılmışdır ki, rəqəmsal bankçılıq xidmətlərinin inkişafı və baş verə biləcək risklərin qarşısının alınması istiqamətində, eləcə də, “Baza bank xidmətləri paketi” layihəsi çərçivəsində bank sektoru ilə aktiv dialoqlar təşkil olunmuşdur.

2020-ci il və eynilə, ortamüddətli dövr respublikanın yeni iqtisadi inkişaf modelinə keçid etməsi baxımından mühüm strateji horizont hesab olunur. Qiymət stabilliyi və maliyyə sektorunun sabitliyinin təmin olunması, eləcə də, maliyyə sisteminin inkişafı bu dövrdə də makroiqtisadi və makroprudensial siyasətlərin əsas prioritetlərindən hesab edilir. Burada, Mərkəzi Bankın makroiqtisadi və maliyyə stabilliyi vasitəsilə iqtisadi artım və sosial rifahın yaxşılaşması üçün əlverişli şəraitin yaradılmasını dəs-

təkləməsi və bununla bağlı olaraq maliyyə sektorunun dayanıqlığının möhkəmləndirilməsi, maliyyə vasitəçiliyinin və maliyyə sisteminin inkişafı istiqamətində atılan addımların və inflyasiyaya təsiretmə imkanlarının genişləndirilməsi üçün pul siyasəti rejiminin təkmilləşdirilməsi tədbirləri yer alır. İqtisadi yöndən aktivliyi dəstəkləmək üçün növbəti ildə də aparıcı ölkələrdə olan pul siyasətinin stimullaşdırıcı imkanlarından istifadə ediləcəyi gözlənilir.

Qiymət stabilliyi istehlakçılar və biznes mühiti üçün əlverişli iqtisadi şəraitin vacib amili sayılır. Aşağı inflyasiya şəraiti milli valyutanın stabil alıcılıq qabiliyyətini yaradır. Qiymət sabitliyi vasitəsilə sahibkarlara və ev təsərrüfatlarına şəxsi yatırım və istehlak planlarını ortamüddətli dövr üçün az riskli tərtib etmə şansı verən siyasət, sabit və aşağı inflyasiya ilə gəlirlərin və yığımların dəyərsizləşməsinin qarşısını alaraq milli valyutada uzunmüddətli yığımlara təkan verir, dollarlaşmanı və faiz dərəcələrini azaldır. Bu hal da, ölkədaxili investisiya potensialını artırmaqla, iqtisadi inkişafı stimullaşdırır. Aşağı inflyasiya sosial sabitliyin önəmli amili olmaqla birlikdə, aşağı gəlirli əhalinin istehlak səviyyəsini qoruyur və gəlir bərabərsizliyinin dərinləşməsinin qarşısını alır. 2020-ci ildə də pul siyasətinin son hədəfi inflyasiyanın 4±2% səviyyəsində saxlanılmasını təşkil etməkdir. Bu məqsədə nail olmaq üçün Mərkəzi Bank öz sferasında olan bütün alət və mexanizmlərdən müvafiq şəkildə istifadə edərək pul siyasətini həyata keçirərkən, nəticə əsaslı tədbirləri təmin edəcəkdir.

Pul siyasəti çərçivəsində Mərkəzi Bank öz fəaliyyətində faiz dərəcələrindən aktiv istifadə edəcəkdir. Əvvəlki illərdə olduğu kimi növbəti ildə də faiz parametrləri haqqında qərar makroiqtisadi durum və risklər balansında baş verən dəyişikliklər, model qiymətləndirmələri əsasında işlənmiş proqnozlar nəzərə alınmaqla qəbul ediləcəkdir. 2020-ci ildə də pul siyasətinə ayrılmış məsələlər 8 dəfə olmaqla davamlı şəkildə müzakirə ediləcək, öncədən açıqlanmış qrafiklə pul siyasəti qərarları müvafiq izahlarla birlikdə, ictimaiyyətin müzakirəsinə təqdim ediləcək, müntəzəm olaraq (ildə 4 dəfə) mətbuat konfransları keçiriləcəkdir. *Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki*: 31 yanvar, 19 mart, 1 may, 19 iyun, 30 iyul, 18 sentyabr, 30 oktyabr, 18 dekabr (http://www.azerbaijan-news.az). Qeyd olunan tarixlərdən 31 yanvar, 1 may, 30 iyul və 30 oktyabr tarixlərində qərarın açıqlanması prosesi mətbuat konfransı ilə təşkil olunacaqdır.

Pul bazarının aktivləşməsi istiqamətindəki tədbirlər perspektivində banklararası bazarda qısamüddətli faizlərin pul siyasətinin alternativə çevrilməsinə imkan verməlidir. Fiskal sistemin dayanıqlığı və sabitliyinin təmin edilməsi, maliyyə-bank sektorunun sağlamlığı və möhkəmliyinin artırılması, nağdsız ödənişlərin genişləndirilməsi, dollarlaşmanın azaldılması, habelə makroiqtisadi koordinasiyanın effektivliyinin yüksəldilməsi də inflyasiyanın hədəflənməsi rejiminə keçidi sürətləndirəcəkdir.

Bank sektoruna olan etimadın artırılması üçün əmanətlərin sığortalanması tədbirlərinin təkmilləşdirilməsi diqqətdə saxlanılacaqdır. Maliyyə xidmətləri sistemində istifadəçi hüquqlarının müdafiəsi addımlarının gücləndirilməsi və istifadəçilərin maliyyə savadlılığının yüksəldilməsi istiqamətində fəaliyyətlər də bank sisteminə etimadın yüksəldilməsinə xidmət göstərəcəkdir. 2020-ci ildə fərqli qruplardan ibarət olan əhali arasında regional səviyyədə geniş maarifləndirmə addımları davam etdiriləcək. Əhalinin maliyyə savadlılığının artırılması onların risk idarəetməsinin yaxşılaşmasında, borc

intizamının artırılmasında və məsuliyyətli borclanma davranışının formalaşmasında özünü göstərəcəkdir. Qeyri-maliyyə sahəsində korporativ idarəetmənin geniş şəkildə tətbiqi, kreditor hüquqlarının qorunmasının möhkəmləndirilməsi növbəti ildə də biznes kreditləşməsinin yayılmasının mühüm şərtlərindən biri olacaqdır. Bununla yanaşı, faiz dərəcələrinin azaldılması tədbirləri ilə bağlı 2020-ci ildə Mərkəzi Bankla bank sferası arasında fəal dialoqlar davam etdiriləcəkdir.

Müasir maliyyə mexanizmlərinin tətbiqinin artırılması, mobil texnologiyaların bank sistemində daha geniş yayılması kredit sahəsində əməliyyat xərclərinin, digər tərəfdən də borcalanların vaxt itkisinin və inzibati xərclərinin azalmasına imkan verəcəkdir. Bu da öz növbəsində, bazar subyektlərinin maliyyə xidmətlərinə sürətli çıxışının təmin olunması və borc qiymətinin ucuzlaşması üçün əhəmiyyətli bir tədbirdir.

Nağdsız ödəniş sistemlərinin inkişafı, elektron ödəniş xidmətlərinin və innovativ ödəniş texnologiyalarının təşkilinin genişləndirilməsi Mərkəzi Bank əməliyyatlarının mühüm istiqamətlərindən sayılır. Dövlət başçısının müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq ölkədə vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında olan nağdsız ödəniş mühitinin genişləndirilməsi ilə nağd formalı dövriyyənin həcminin minimumlaşdırılması və ölkədə nağdsız cəmiyyətin yaradılması istiqamətində fəaliyyət davam etdiriləcəkdir.




***Şəkil 1. Məqsədlər, təməl şərtlər və hədəflər***

***Mənbə: 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı.***

Bu sektorda həyata keçiriləcək ən əhəmiyyətli layihələrdən biri sayılan ölkədə rəqəmsal ödənişlərdən istifadənin əhatə dairəsi baxımından genişləndirilməsi məqsədilə "Ani ödəniş sistemi"nin yaradılması tədbiri olacaqdır. Bu layihənin icra edilməsi ilə biznes institutları, fiziki şəxslər və dövlət qurumları arasında olan hesablaşmaların məkandan və zamandan asılı olmayaraq 24/7/365 rejimində 5-10 saniyə müddətində tam olaraq başa çatdırılması mümkünləşəcəkdir. Bundan başqa, ISO20022 standartlarının tətbiq edilməsi, rəqəmsal identifikasiya sisteminin Blokçeyn platformasında qurulması layihələri çərçivəsində olan işlər də davam etdiriləcəkdir.

Müasir ödəniş sistemlərinin yaradılması ilə bərabər, innovativ texnoloji inkişaf məsələləri də diqqətdə saxlanılır. Mərkəzi Bank ölkədə pilot olaraq ilk dəfə Blokçeyn texnologiyasına əsaslanan və bank sektorunun inkişafı üçün əsaslı sayılan Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması layihəsini həyata keçirməkdədir. Layihə nəticəsində müştəri-bank münasibətlərinin rəqəmsallaşdırılması üçün fiziki və hüquqi şəxslər tərəfindən məsafədən bank hesablarının açılması üçün biznes prosesləri avtomatlaşdırılacaqdır. Həmçinin, 2020-ci ildə müasir maliyyə texnologiyalarının tətbiqinin əhatə dairəsinin artırılması məqsədi ilə açıq bankçılıq prinsipi və standartlarının yaradılması prioritet olaraq seçilmişdir.

Ödəniş xidmətləri sferasında tənzimləyici amillərin təkmilləşdirilməsi və bu sahədə nəzarətin gücləndirilməsi işləri 2020-ci ildə də davam etdirilərək "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun və bununla bağlı hüquqi aktların qəbulu işləri görüləcəkdir. Rəqəmsal ödənişlər sistemində tənzimləyici test rejiminin tətbiq imkanları dəyərləndiriləcək və "Baza bank xidmətləri paketi" layihəsi çərçivəsində təşviq olunacaqdır. Ödəniş ekosisteminin inkişafında yerli və beynəlxalq maliyyə təşkilatlarının fəaliyyətlərinin təhlili, tətbiq edilən mexanizmlərin qiymətləndirilməsi aparılacaqdır. Maliyyə inklüzivliyinin inkişafı üzrə yeni metodların tətbiq edilməsi, o cümlədən agent bankçılıq və ödəniş agenti şəbəkəsinin formalaşdırılması, bank olmayan ödəniş xidməti təchizatçılarının assosiasiyasının təşkili nəzərdə tutulur.

2025-ci ildən sonrakı dövrlərdə də Azərbaycanda qabaqcıl rəqəmsal tətbiqetmə proqramları gündəlik həyata inteqrasiya olunaraq genişləndiriləcəkdir. Artıq dövlət sənədlərinin əksəriyyətinin və proseslərinin rəqəmsallaşdırılması, uzunmüddətli perspektiv üçün ölkədə kağızsız sənədləşməyə keçidi təşviq edəcəkdir. Bu hədəf baxış əməliyyatlarının kağızsız həyata keçdiyi və elektron xidmətlərin geniş əhatə olunduğu rəqəmsal bankçılıq sistemini əks etdirir. Azərbaycanda banklar, rəqəmsal ödəniş sistemləri, mobil pul kisəsi, onlayn alış-veriş platformaları və hətta sosial şəbəkələr də daxil olmaqla, müxtəlif maraqlı tərəflərin qarşılıqlı əlaqədə olduğu tam rəqəmsal bankçılıq təcrübəsinin yaradılması planlaşdırılır (Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi).

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi

2. 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı

3. "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın 2018-ci ilin 4-cü rübündə icrasına dair monitorinq və qiymətləndirmə HESABATI

4. http://www.azerbaijan-news.az

*Cəbiyeva Aynurə Cəbi qızı, dissertant,*
*Azərbaycan Dillər Universiteti*

# FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ MÜASİR İNNOVATİV VASİTƏLƏR

Biliklərə əsaslanan iqtisadiyyatın təşəkkül tapdığı müasir dövrdə informasiya - kommunikasiya texnologiyalarının (İKT) inkişafı və onlardan məqsədyönlü şəkildə istifadə olunması hər bir dövlətin elmi potensialının vacib göstəricilərindəndir. Azərbaycanın vahid Avropa təhsil məkanının yaradılmasına yönəlmiş Boloniya prosesinə qoşulması, ölkədə ali təhsil islahatlarının aparılmasına gətirib çıxartdı. Peşəkar standartların tətbiqi gələcək mütəxəssislərə, o cümlədən xarici dilin mənimsənilməsinə yüksək tələblər qoydu. Mütəxəssisin peşə fəaliyyətində xarici dildən fəal şəkildə istifadə etməsi məqsəd olaraq qarşıya qoyuldu: tələbənin xarici dildə həm yazılı, həm də şifahi ünsiyyətin peşəkarcasına, səmərəli apara bilməsi, xarici dilli mənbələrdən lazımi peşə məlumatlarını əldə etməsi, həm şəxsiyyətlərarası, həm də işgüzar münasibətlərdə xarici dildə fikir və mülahizələri ifadə etmək kimi bacarıqların formalaşması və s.

Bu sahədə informasiya və müasir təhsil texnologiyalarının istifadəsi böyük əhəmiyyət kəsb edir, təlimi maraqlı, rəngarəng və effektiv etməyə imkan verir. Orijinal video və audio materialların müntəzəm istifadəsi təlim prosesini canlandırır, mürəkkəb ifadələrin, xüsusi isimlərin tələffüzündə səhvlərdən qaçmağa kömək edir, mürəkkəb terminologiyanı əzbərləmək prosesini yüngülləşdirməyə imkan verir.

Fransız dilinin öyrənilməsi və mənimsənilməsinə müasir informasiya və kommunikasiya texnologiyaları müsbət təsir edir. İKT-in inkişafı sahəsində fransız dilinin tədrisi və yayılması üçün fəal işlər aparılır. Xarici dillərin öyrənilməsi təcrübəsində tədris metodlarının inkişafı və yaxşılaşdırılması üçün yeni vasitələrin tətbiqi, zəngin multimedia və interaktiv resursların istifadəsinin müsbət yeri vardır.

Tələbələrin bacarıqlarını və tədris metodlarını inkişaf etdirmək üçün pedaqoji resursların rolu danılmazdır. Pedaqoji resurslara dil sahəsində institut əməkdaşlığı və mədəni təhsil müəssisələri üçün nəzərdə tutulmuş onlayn və distant təhsil və ya multimedia vasitələri aiddir.

Təhsildə informasiya və kommunikasiya texnologiyaları aşağıdakı kriteriyalara cavab verməlidir:

- əməkdaşlıq potensiallı regional və ya beynəlxalq önəmli olmalıdır;
- yerli (lokal) səviyyədə əməkdaşlıq nəzərə alınmalıdır;
- texnoloji və pedaqoji sahədə innovativ xarakter daşımalıdır.

Tezisdə universitetlərdə tələbələrin tədrisində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi prosesi müzakirə olunur. Xarici dil öyrətməyin əsas məqsədi məhsuldar nitq fəaliyyəti və reseptiv nitq fəaliyyəti də daxil olmaqla, diskursiv komponentin ayrılmaz olduğu xarici dildə ünsiyyət qabiliyyətinin formalaşdırılmasıdır. Eyni zamanda informasiya-kommunikasiya texnologiyalarının hansı didaktik imkanlarından istifadə olunduğu araşdırılır.

XXI əsrdə ali tədris prosesini müşayiət edən zəruri kommunikativ, idrak və sosial prosesləri dəstəkləyən təhsildə distant təhsil texnologiyalarının tətbiqi universal şəkildə həyata keçirilir. Elmi və metodik ədəbiyyatın təhlili xarici dilin tədrisi prosesində

informasiya kommunikasiya texnologiyalarının (İKT) istifadəsinə dair bir neçə yanaşmanı müəyyənləşdirməyə imkan verir: nəzarət testlərinin tətbiqi, fərdi dil hadisələrinin formalaşması üçün təlim proqramları, veb 1.0-in inkişafı və istifadəsi, veb 2.0-in inkişafı və istifadəsi.

Tələbələr axtarış, tədqiqat və yaradıcılıq fəaliyyətləri zamanı istifadə etdikləri telekommunikasiya layihələrindən həm fərdi, həm cüt şəklində, həm də qrup halında istifadə edə bilərlər. Bunun nəticəsində onlar yeni biliklər əldə etmiş və hədəflərinə çatmaq üçün bacarıqlarını formalaşdırmış olurlar. Telekommunikasiya texnologiyaları əsasında həyata keçirilən distant təhsil, informasiya və kommunikasiya mühitinin fəaliyyət göstərməsi şəraitində İKT-dən istifadə edərkən müvafiq məqsədləri, məzmunu, metodları, təlim forma və vasitələrini, müəllim və tələbənin birgə fəaliyyətini (aktiv informasiya qarşılıqlı fəaliyyət proseslərinin yaranması və inkişafına şərait yaradan şərtlər toplusudur) informasiya texnologiyaları vasitəsilə həyata keçirilir. Belə ki, fransız dilinin tədrisi üçün İKT-dən istifadə tələbələrdə xarici dili mənimsəmələri zamanı keyfiyyəti artırmağa kömək edir; təhsil üçün motivasiyanı təmin edir; məlumatların qəbulu, işlənməsi və yayılması üçün obyektlərarası əlaqələri dərinləşdirir. Eyni zamanda, informasiya və kommunikasiya texnologiyalarının belə didaktik imkanları istifadəçilər arasında qısa bir zamanda əlaqənin qurulmasına şərait yaradır. Buraya təhsil məlumatlarının kompüterdə vizuallaşdırılması, tədris məlumatlarının əldə edilməsi, ötürülməsi və yadda saxlanılması, məlumat axtarış fəaliyyətlərinin avtomatlaşdırılması daxildir.

Fransız dilinin öyrənilməsində müasir texnologiyalar arasında "TV5 MONDE"un təsiri böyükdür. Fransanın və frankodilli ölkələrin media operatoru olan "TV5 MONDE" fransız dilinin öyrənilməsinə xidmət edir. "TV5 MONDE" 207 milyon abonentdən ibarət auditoriyaya malik yeganə beynəlxalq frankodilli televiziya şirkətidir. Ona hər həftə 55 milyon izləyici baxır və hər ay 5 milyon izləyici sayta daxil olur. "TV5 MONDE" frankodilli mədəniyyətin inkişafında və fransız dilinin yayılmasında möhtəşəm vasitədir. Bu sayt pulsuz və interaktiv bir saytdır. Fransız dilini öyrənmək üçün çoxlu sayda videolar, verilişlər, xəbərlər yerləşdirilmiş və verilmiş materiallar əsasında dərs modelləri işlənib paylaşılmışdır. Tələbələr 2000-dən çox onlayn tapşırıq və mətnlərdən birini seçməklə fransız dilinin hər bir səviyyəsi üçün: başlanğıc, orta və yüksək səviyyələrdə şifahi nitq anlayışını, eyni zamanda fikirlərini sərbəst ifadə etmə bacarığını inkişaf etdirmiş olurlar.

2005-ci ildə Avropa və Xarici İşlər Nazirliyi, Beynəlxalq Frankofoniya Təşkilatı (IOF) və Frankofoniya Universitetlərarası agentlik ilə birlikdə "TV5 MONDE", Fransız dilində alt yazıları ilə həftəlik jurnal "7 jour sur la planète" ("Planetdə 7 gün") yaratdı. Bu jurnalda təqdim edilmiş məqalələr vasitəsilə mütəmadi dil məşqləri etməklə şifahi nitqi yaxşılaşdırmaq mümkündür. Hər həftə saytın səhifəsində 2 yeni hesabat, məqalə, alt yazısı ilə birgə yerləşdirilir. Alt yazısı ilə birgə təqdim olunan materiallar dinləyib anlama bacarığı ilə yanaşı, oxuyub anlama bacarığını da inkişaf etdirir.

"7 jour sur la planète"-in həmçinin ayrıca onlayn versiyası da var. "Label européen des langues" ("Avropa Dili Markası") keyfiyyət etiketi ilə işarələnən proqram çətin bir məsələni həll etmək üçün təcili ehtiyaca cavab verir, yəni fransız dilində tədris və öyrənməni müvafiq beynəlxalq məlumatlarla əlaqələndirir. Bunu etmək üçün proqram həftəlik interaktiv məşqlər, müəllimlər və onların dərsləri üçün saytda pulsuz

yüklənə bilən iş kartları təklif edir. Eksklüziv pedaqoji resurs "Apprendre et enseigner avec TV5 MONDE" ("TV5 MONDE ilə öyrənmək və öyrətmək") fransız müəllimlərinə xarici dil olaraq CECRL sisteminin səviyyələrinə ("Xarici dildə ümumi Avropa səriştəsi") uyğun gələn tədris vasitələri dəsti ilə təmin edir (onlayn-kontent).

2001-ci ildə Avropa Şurası tərəfindən təsis edilmiş CECRL proqramı kurikulumun tələblərinə cavab verən, 36 dilin tədrisinə xidmət edən bir proqramdır. Saytda verilmiş materialları mənimsədikdən sonra tələbənin qazandığı bilik və bacarıq qiymətləndirilir, onun hansı səviyyəni (A1, B1, B2 və s.) əldə etdiyi müəyyən olunur. Bu proqramda həmçinin materialların DVD forması da öz əksini tapır. Əsas məqsəd tələbələrdə beş bacarığın inkişaf etdirilməsidir: yazılı ifadə, oxu anlayışı, şifahi anlama, şifahi fikrini ifadə etmə, qarşılıqlı ünsiyyət (dialoq) vasitəsilə dili inkişaf etdirmə kimi bacarıqların inkişaf etdirilməsidir.

Yazı bacarıqlarını inkişaf etdirmək üçün "wiki texnologiyaları"nı qeyd etmək olar: qeyri-xətti (hər bir layihə iştirakçısı əvvəlcədən qeyd edilmiş versiyaya dəyişiklik və əlavələr edə bilər); sənədin yaradılması tarixinə giriş (hər bir layihə iştirakçısı layihəyə kimin və nə vaxt dəyişiklik etdiyini görə bilər); hipertekst quruluşu (layihə daxilində hiperlinklərin yaradılması).

Dinləmə və danışma qabiliyyətini inkişaf etdirmək üçün aşağıdakı didaktik xüsusiyyətlərə malik audio proqram xidmətində bir sıra vəzifələr hazırlamışlar: internetdə şəxsi podkastları yerləşdirmə imkanı; internetdə müzakirələrin təşkili üçün fərdi istifadəçi zonası yaratmaq imkanı; mikrobloqdakı istifadəçinin şəxsi zonasında şəbəkə müzakirəsi imkanı; istifadəçinin şəxsi zonasının moderasiyası yalnız podkast müəllifi tərəfindən həyata keçirilir; müzakirə zamanı rəyləri xronoloji qaydada yerləşdirmək; bütün qeydiyyatdan keçmiş istifadəçilər tərəfindən podkasta baxılması.

Yazı bacarıqlarını inkişaf etdirmək üçün Twitter xidmətindən istifadə etmək də təklif olunur. Müəllimlər belə "didaktik, aşkarlıq, xətti, hipertekst quruluşu, multimedia, mesajların tematik təsnifatı, müxtəlif funksional tətbiqetmələrin mövcudluğu" kimi didaktik xüsusiyyətlərini ortaya qoymuşlar.

İnternetə çıxış və xarici dildə məlumat saytlarından geniş istifadə, informasiya-kommunikasiya texnologiyalarına marağın artması tələbələrin xarici dil öyrətməsində istifadəsi üçün 21-ci əsrdə əvəz olunan veb 1.0 texnologiyaları (e-poçt, veb forum, söhbət) görünməyə başladı, web 2.0 texnologiyaları gəldi.

Təhlillərə əsasən, müəyyən İnternet texnologiyaları üzərində işləyən bütün nitq fəaliyyətlərinin müxtəlif tədris metodlarının hazırlanması və təhsil prosesində İKT-nin effektivliyinin müəyyənləşdirilməsini iddia etmək olar: İnteraktiv xarici dilli informasiya qarşılıqlı fəaliyyətinin təşkili üçün internet resurslarından istifadə (təhsil telekommunikasiya layihələrinin aparılması);

- təhsilin fərdiləşdirilməsi və intensivləşdirilməsi, fonetik, leksik və qrammatik materialın öyrənilməsi üçün elektron tədris vasitələrindən istifadə;
- mədəniyyətlərarası ünsiyyətin formalaşması, yazılı nitqin sinxron və asinxron ünsiyyətini yaxşılaşdırmaq üçün "elektron poçt" layihələrindən istifadə;
- yazı bacarıqlarının inkişafı üçün "bloq texnologiyalarının" və "veb forumun" tətbiqi;
- danışıq və dinləmə bacarıqlarının inkişafı üçün "podkastlardan" istifadə;
- oxu və yazı bacarıqlarını inkişaf etdirmək, qrup daxilində kollektiv layihələr

yaratmaq üçün “viki texnologiyasından” istifadə;

- dilçilik korpusunun nitqin dil bacarıqlarının formalaşmasında istifadəsi.

Yuxarıda göstərilənlər, məlumat və rabitə texnologiyalarına əsaslanan bir informasiya sistemindən istifadə edərək fransız dilinin tədrisi üçün metodologiyanın hazırlanması lazım olduğunu, bunun çərçivəsində nitq fəaliyyətinin bütün bacarıqlarını (dinləmək, danışmaq, oxumaq və yazmaq) hərtərəfli formalaşdırmaq və inkişaf etdirmək mümkün olacağı qənaətinə gəlməyə imkan verir. İnformasiya sistemi müəllimə hər bir tələbə üçün biliklərin məntiqi ardıcıllıqla və qavrayış səviyyəsində tədris məlumatlarını inteqrasiya olunmuş formada təqdim etməyə imkan verəcəkdir.

*Mehdiyev Elvin Ramiz oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCANDA KƏHRİZ SİSTEMLƏRİNİN BƏRPASINA İNVESTİSİYA QOYULUŞLARININ TƏNZİMLƏNMƏSİ

Azərbaycan Respublikasında son dövrlər su ehtiyatlarından səmərəli istifadə olunması, su təminatına yönəldilmiş dövlət xərclərinin ödənilməsi, suyun dəqiq uçotunun aparılması məqsədi ilə sudan istifadənin təhlil edilməsinə diqqət yetirilir. Su mənbələrində suyun bolluğu səviyyəsinə mütənasib olaraq veriləcək suyun həcminin yuxarı və aşağı hədləri müəyyən olunur. Əkinlərin növündən və sahəsindən asılı olaraq tələb olunan suyun həcmləri və suyun verilməsi qrafiki bu hədlər daxilində illik müqavilələrlə müəyyən edilir. Sazişlərin və illik müqavilələrin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Xüsusi ilə bu sahəyə yönəldilən investisiya qoyuluşlarının tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. “Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı” layihəsi investisiya qoyuluşu və əhalinin məşğulluğu baxımından təhlil edilir. Bu layihə kənd yerlərinin kompleks inkişafını dəstəkləyir və Azərbaycana qoyulan uzunmüddətli investisiyalara önəmli bir nümunədir.

Bəs kəhriz nədir və kənd yerlərində kəhrizlərin əhəmiyyəti nə olacaq?

Müasir dövrdə müvafiq ədəbiyyatlarda qeyd olunur ki, Kəhriz, topoqrafik xüsusiyyətlər (yamaclar) üzərində qurulmuş və yeraltı suyundan qidalanan, baxım üçün heç bir fosil yanacaq və ya elektrik enerjisi tələb etməyən ənənəvi, davamlı bir su təchizatı sistemidir. Bəzi miqdarda səth suyu və yağıntılar daha az suya davamlı torpaq strukturları vasitəsilə boşaldılır və daha çox suya davamlı təbəqələrə yığılır. Bu dövr vasitəsilə yeraltı suyu yığır və bir sulu təbəqə yaradır.




Kəhriz, su gətirən formasiyanın ardınca, dağlıq bir ərazinin uçuruma, qəlpəyə və ya dibinə tunel açaraq yumşaq yamaclı bir yeraltı kanal kimi inşa edilir. Digər süni yeraltı su təchizatı və suvarma sistemlərindən fərqli olaraq, kəhrizlər yalnız əkinçilik ərazilərindən daha yüksək bir sularda bir zonaya vurmalıdırlar. İstifadəçilərin iqlim şəraitindəki mövsümi dəyişikliklər nəticəsində yaranan su səviyyəsinin dalğalanmalarına asanlıqla uyğunlaşa bilməsi üçün davamlı olaraq səth suyunu boşaldır.

İran, Türkmənistan, Şərqi Türkiyə və Mərakeş kimi müxtəlif bölgələrdə də oxşar su təchizatı sistemlərinə rast gəlindiyi üçün kəhriz, qədim zamanlardan bəri dünyada yeraltı su təmin edərək insan həyatında mühüm rol oynamışdır. Su qıtlığı olan bir çox bölgədə həm içməli, həm də suvarma suyu təmin edir və suyun verilməsi üçün heç bir elektrik enerjisi və ya qalıq yanacaq tələb etmədiyi üçün ən səmərəli, ekoloji cəhətdən təmiz su sistemlərindən biri kimi sübut edildi. Həm də yeraltı suyu həddindən artıq çıxarmamaqla su sulu qatının və torpaq yatağının qorunmasına kömək edir.

Bu proyektin əsas investisiya sahələrini qeyd edərkən bildirmək lazımdır ki, BMqT Azərbaycan 2018-ci ilin iyun ayından etibarən, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) maliyyə dəstəyi ilə "Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı" layihəsini həyata keçirmişdir.

Dörd illik layihə aşağıdakı altı əsas nəticəni əldə etməyi hədəfləyən Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Gəncə, Qazax, Goranboy və Göygöl rayonlarını hədəfə alır:

1) Kəhrizin canlandırılması üçün milli bir master planın qurulması;

2) 40 kəhrizin bərpası və su paylama infrastrukturunun quraşdırılması yolu ilə səkkiz rayon üzrə 8000-dən çox ailənin təhlükəsiz və ardıcıl su təchizatı ilə təmin edilməsi;

3) Kəhriz mühəndisləri üçün akademiya ilə iş birliyində institusional potensialın yaradılması;

4) Su damcı suvarma sisteminin quraşdırılması və suvarma arxlarının bərpası yolu ilə kənd yerlərində suvarmanın yaxşılaşdırılması;

5) Bazar qiymətləndirmələri, iş təlimi və pul qrantları da daxil olmaqla mikro və kiçik sahibkarlığın qurulmasına dəstək verməklə 20 məcburi köçkün ailəsi üçün özünüməşğulluq imkanlarının təmin edilməsi;

6) Kəhrizlərin icma başçılığı ilə bərpası və saxlanılması üçün ictimaiyyətin səfərbərliyi və potensialının artırılması, həmçinin kəhriz su təchizatı sistemi barədə ictimaiyyətin məlumatlandırılması.

BMqT-nin müdaxilə strategiyası qadınları əsas faydalananlar və beləliklə su təchizatı menecerləri kimi layihənin mərkəzinə daxil edir. Bu layihə, həmçinin Azərbaycanın Qlobal Miqrasiya Sazişi (GCM) prinsiplərinə riayət etmək və BMT Davamlı İnkişaf Məqsədlərinə (SDG) nail olmaq səylərinə kömək edəcəkdir:

- Yoxsulluğun azaldılmasına və ərzaq təhlükəsizliyinə birbaşa təsir göstərən daxili və kənd təsərrüfatı ehtiyacları üçün su ilə təminat - DİM 1.

- Qadınların prosesə gücləndirilməsi və cəlb edilməsi, icma liderliyindəki rollarının artırılması - DİM 5.

- Ekoloji cəhətdən təmiz və davamlı su təchizatı sistemlərinin, kəhrizlərin bərpası və təhlükəsiz içməli suya geniş giriş - DİM 6.

Bütün zəruri tədqiqat və sorğu məlumatları təhlil edildikdən sonra BMqT-nin təyin olunacaq iki regionda təşkil edəcəyi biznes təlimlərinə qatılmaq üçün sorğuda iştirak edən 50 namizəd seçiləcək. Təlimləri uğurla başa vuran və biznes planları bəyənilən 20 nəfər sahibkarlıq fəaliyyətinə başlamaq üçün BMqT tərəfindən investisiya ilə təmin olunacaq.

Göründüyü kimi müəyyən edilən hədəflər və bu istiqamətdə reallaşdırılan tədbirlər Azərbaycanda suvarma sistemləri sahəsində son dövrlər qoyulan investisiyaları və bu investisiyalar vasitəsilə əhalinin güzaranının yaxşılaşdırılmasını nəzərdə tutur.

*Məcidli Fəxrəndə Valeh qızı, magistrant,*
*Bakı Biznes Universitetinin*

## TİKİNTİ SEKTORUNUN İNKİŞAFINDA İPOTEKA KREDİTLƏRİNİN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikasında, xüsusilə də Bakı şəhərində son zamanlar tikinti sənayesinin inkişafı yeni iş yerlərinin açılmasına gətirib çıxarmışdır. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının bölgələrində yaşayan əhali işləmək üçün paytaxta axın edir. Dünya təcrübəsinə nəzər yetirsək belə halların ölkə iqtisadiyyatına gələcəkdə çox mənfi təsir göstərəcəyini görə bilərik. Bölgələrdən işçi axınının paytaxta axması nümunəsinə dünyada iqtisadi tənəzzülün göstəricisi hesab olunan Holland sindromunu göstərmək olar. Məhz bu baxımdan Azərbaycan Respublikasının apardığı uğurlu sosial-iqtisadi islahatlar bu cür iqtisadi böhranların ölkəmizdə təkrarlanmamasına xidmət edir. Sənayenin neftdən asılılığı Bakıda yalnız tikinti bumunun artmasına səbəb olub və bu bum da işçi qüvvəsini ticarət sənayesindən (kənd təsərrüfatı) qeyri-ticarət sənayesinə (tikinti sektoruna) yönəldib. İş üçün həmçinin xarici ölkələrdən də gələnlər olur ki, bütün bunlar isə Bakıdakı ümumi əhalinin sayının artdığını göstərir. Onların şəhərdə yaşaması üçün isə kirayə evlərə olan tələbatı artır. Digər tərəfdən,

qeyd etdiyimiz kimi, mənzil bazarında qiymətlərin yüksəlməsi insanları, xüsusilə gəncləri kirayə qalmağa məcbur edir ki, bu da kirayə bazarında son illərdə yaşanan qiymət tempini bir az da artırır.

Hər bir tikinti şirkətinin və müxtəlif inşaat tikinti firmalarının inkişafı əhalinin sosial rifah halından asılıdır. Alıcılıq qabiliyyəti yüksək olduqca tikinti sektorunun inkişaf tempi də sürətlə artır. Dövlət tərəfindən aparılan iqtisadi islahatların əsas məqsədi tikintinin son məhsulu olan binaların maya dəyərinin aşağı qiymətlərə başa gəlməsi ilə səciyyələnir. Evlərin qiymətinin qalxmasına təsir edən digər səbəb isə dövriyyədəki nəğd pul kütləsinin çox olması ilə əlaqədardır. Belə ki, pul kütləsinin çoxluğu inflyasiyaya gətirib çıxarır.

Hal-hazırda respublikamızda aparılan sosial-iqtisadi islahatların əsas məqsədi ölkə daxilində fəaliyyət göstərən bankların iriləşməsi və birləşməsi istiqamətində zəruri addımların atılmasından ibarətdir. Xüsusən də son illərdə kapital tələblərinə cavab verməyən bankların fəaliyyətini məhdudlaşdırmaq, bank olmayan kredit təşkilatlarına çevrilmiş və ya ümumiyyətlə maliyyə sistemindən kənarlaşdırılmışdır.

İpoteka krediti - yaşayış sahəsinin (fərdi mənzil və ya evin) alınması məqsədilə bank tərəfindən daşınmaz əmlakın girovu ilə təmin olunması şərtilə verilən uzunmüddətli kreditdir. İpoteka krediti müəyyən məbləğdə ilkin ödəniş həyata keçirilməklə istənilən yaşayış sahəsinin alınmasını mümkün edir. İpoteka kreditinin əsas səmərəliliyi - lazımi pul vəsaitini yığmadan daşınmaz əmlak almaq imkanıdır.

Müasir bazar iqtisadiyyatı şəraitində ipoteka kreditinin həyata keçirilməsinin aşağıdakı üstünlükləri vardır:

- ev almaq üçün pul yığmağa ciddi ehtiyac qalmır, öz mənzilinizi və ya evinizi artıq dərhal ala bilərsiniz;
- dərhal ipoteka krediti ilə aldığınız daşınmaz əmlakın mülkiyyətçisi olursunuz;
- ipoteka krediti ilə aldığınız daşınmaz əmlakın dəyəri həmişə artmağa meyilidir;
- hər bir mənzil alıcısı öz zövqünə uyğun mənzil əldə etmiş olur. Eyni zamanda vaxtına qənaət etmiş olur;
- inflyasiyanın səviyyəsi heç bir alıcını narahat etmir, ipoteka krediti uzun müddətə verilir, lakin aylıq ödənişlər dəyişməz olaraq qalır;
- istehlakçı təminatından əmin olur, ipoteka krediti zamanı istehlakçı pulunu kirayə üçün digər şəxslərə deyil, öz şəxsi mənzilinin əldə olunması üçün xərcləyir;
- istehlakçı mənfəət əldə edir, daşınmaz əmlak hər zaman öz artan dəyərində qalır.

Azərbaycan Respublikasının Prezidentinin fərmanına əsasən Mərkəzi Bankın nəznində İpoteka fondu yaradılmışdır. İpoteka fondunun vəzifəsi ölkə daxilində müvafiq banklarlın vasitəsi ilə ipoteka kreditlərini həyata keçirməkdən ibarətdir. 2019-cu ilin iyun ayından etibarən ölkədə ipoteka kreditinin bərpa olunmasından 01 dekabr 2019-cu il tarixinədək 1600 nəfərə yaxın vətəndaşa ümumi həcmi 67 mln manat təşkil edən ipoteka krediti verilmişdir.

Məlumat üçün qeyd edək ki, MDB ölkələri arasında ipoteka kreditləşməsi ilə bağlı ən güzəştli şərtlər məhz Azərbaycandadır. Hazırda ipoteka kreditləri ən yaxşı halda Rusiyada illik 12 faiz dərəcəsi ilə, Qazaxıstanda 13-14, Ukraynada isə 15-16 faiz dərəcəsi ilə (Azərbaycanda maksimum 8 faiz) verilir. Qeyd etmək lazımdır ki, bu ölkələrdə güzəştli ipoteka kreditləri illik 10 faiz civarında (Azərbaycanda isə maksimum 4 faiz) təklif olunur.

*Mahmudov Fuad Fazil oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

# KREDİT TƏŞKİLATLARINDA VERGİ ÖDƏNİŞLƏRİNİN DİNAMİKASI VƏ STRUKTURUNUN MÖVCUD VƏZİYYƏTİ

Kredit təşkilatlarında vergi ödənişlərinin mövcud vəziyyətini qiymətləndirməzdən qabaq bank sektorunun özünün inkişafını xarakterizə edən bəzi göstəricilərlə tanış olmaq məqsədəuyğundur. Bu məqsədlə bank sektorunun inkişaf dinamikasını nəzərdən keçirək. Cədvəl 1–də 2016-2020-ci illərdə bank sektorunun inkişaf dinamikası verilmişdir.

***Cədvəl 1.***

**2016-2020 - ci illərdə kommersiya banklarının fəaliyyəti göstəriciləri**

| | 31.12.2016 | 31.12.2017 | 31.12.2018 | 31.12.2019 | 31.08.2020 |
|---|---|---|---|---|---|
| **Fəaliyyətdə olan banklar** | 46 | 46 | 30 | 30 | 28 |
| **Cəlb olunan depozitlər, mln. manat** | 5163.1 | 4943.7 | 7023.8 | 8726.5 | 8249.6 |
| **Kredit qoyuluşları, mln. manat** | 8663.1 | 6953.6 | 8073.6 | 10000.8 | 10044.6 |

***(Mənbə: AR-sının Mərkəzi Bankı. Statistik bülleten 2020; Azərbaycan Bank Assosiasiyası)***

Cədvəl məlumatlarından aşkar görünür ki, ölkə bank sektorunda kifayət qədər müsbət istiqamətdə keyfiyyət dəyişiklikləri baş vermişdir. 2016-2020-cı illərdə bankların sayının azalması, sonrakı mərhələdə bankların sayının sabit qalması fonunda cəlb edilən əmanətlərin və verilən kreditlərin həcmində nəzərə çarpacaq dərəcədə yüksəliş qeydə alınıb. Bu baxımdan Mərkəzi Bank tərəfindən gerçəkləşdirilən siyasəti yeni bankların irilşədirilməsinə yönələn siyasəti düzgün hesab etmək olar. Bu və başqa tədbirlər nəticəsində bank sektorundakı keyfiyyətli inkişaf digər göstəricilərdədə təsdiqlənir. 2016-ci ildə kredit təşkilatlarının mənfəətinin 32,9 mln. manat və 2017-ci ildə 71,9 mln. manatdan 2018-ci ildə 279.4 mln.manata yüksəlməsi keyfiyyətin yüksəldilməsindən xəbər verir. (Mənbə:AR Mərkəzi Bankı.) Əlbəttə ki, kredit təşkilatlarının fəaliyyətinin səmərəliliyinə təsir edən bütün amillərin başqa sözlə- ölkədəki makroiqtisadi stabilliyin, investisiya mühitinin və s. yaxşılaşmasının keyfiyyət dəyişikliklərinə təsirinin səviyyəsini araşdırmağı nəzərdə tutmamışıq. Lakin vergitutma ilə kredit təşkilatlarının fəaliyyət səmərəliliyi arasındakı əlaqələrin araşdırılması əsas problemlərdən biri hesab olunmalıdır. Bu baxımdan ilk növbədə qeyd etmək lazımdır ki, ölkədə kredit təşkilatları əsasən mənfəət, ƏDV, əmlak və torpaq vergisinə cəlb olunurlar. Banklar və digər kredit təşkilatları hüquqi şəxs kimi təsis olunurlar və buna görə də mənfəət vergisi ödəyiciləridir.

*Cədvəl 2.*

**Bankların vergi ödənişlərinin strukturu və dinamikası (2015-2017)**

| | | | |
|---|---|---|---|
| Əmlak vergisi | 1244.3 | 1685.8 | 2244.5 |
| Yol vergisi | 20.3 | 49.8 | 105.6 |
| Torpaq vergisi | 34 | 5.2 | 12.6 |
| Sair vergi daxilolmaları | 8.3 | 16.1 | 19.6 |
| | | | |

***(Mənbə: AR-sı Mərkəzi Bankı.Statistik Bülleten)***

Cədvəl 2-nin göstəricilərindən göründüyü kimi 2015-2017-ci illər ərzində bank sektorundan vergi daxilolmalarının həcmi sıçrayışla artır. Beləliklə, bu mərhələdə də istər bank sektorunun dinamik inkişafı, istərsə də vergidən yayınma imkanlarının məhdudluğu bu sferanın vergi yükünü azaltmayıb. Cədvəl göstəriciləri olduqca maraqlı bir vəziyyəti aşkara çıxarır və həmin göstəricilər üzrə qiymətləndirmələr aparsaq, biz bank əməliyyatları sferasında vergi yükünün mütləq aşağı olduğunu iddia etməliyik. Bir tərəfdən, bu iddiaları yanlış hesab etmək olmaz və maliyyə xidmətlərinin ƏDV-dən azad olması, əmlak və torpaq vergisinin inventar dəyəri üzrə ödənilməsi və hətta depozitlər, dividendlərdən vergi tutulmaması, mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsinin mənfəət vergisindən azad edilməsi kredit təşkilatları üçün olduqca əlverişli vergitutma mühiti yaradıb. Məlumdur ki, vergi sisteminin elastikliyinin göstəricisi vergitutma sisteminin səmərəliliyinin təhlilində istifadə edilir. Region üzrə vergi daxilolmaları artımı regionda yaradılan əlavə dəyər artımına bölünməklə vergi elastikliyi müəyyənləşir və eyni bir yanaşma sahələrə, ayrı-ayrı vergilərə də tətbiq edilir. Kredit təşkilatlarından vergi daxilolmalarının struktur və dinamikasının qiymətləndirmələrini yekunlaşdırmaq olar və bu qiymətləndirmələrin nəticələri də prinsipcə aşkarlanıb. Qiymətləndirmələrdən bəlli olur ki, kredit sektoru bir çox məqamlara görə faiz ödənişlərinə, ƏDV və dividend ödənişlərinə, vergi güzəştlərinə, mənfəət vergisi dərəcəsinin asası, yəni - 20%-ə bərabərliyinə görə əlverişli vergi mühitinə malikdir. Bu sektorun vergi yükü ağır deyil. Eyni zamanda aşkar olunmuşdur ki, kredit təşkilatları sektorunun fəaliyyət spesifikliyi vergidən yayınmanı nisbətən çətinləşdirir və bu baxımdan kredit təşkilatları sektoru real vergitutma cəhətdən başqa sahələrdən ticarət, xidmət, tikinti və s. sahələrdən nisbətən əlverişsiz şəraitdədir. Qiymətləndirmələrin əsas nəticəsi belədir. Hüquqi cəhətdən yaradılan əlverişli mühit faktiki olaraq, vergi cəlbediciliyinin qismən itirilməsi ilə müşayiət olunur və buna görə də, kapitalların hərəkətinin effektiv axımının təminatına görə kredit təşkilatları sektorunun nisbətən aşağı dərəcələrlə mənfəət vergisinə cəlb məqsədəuyğundur. Bunu cədvəl 3-dən də görmək olar.

*Cədvəl 3.*

**Azərbaycanda və xarici ölkələrdə kredit təşkilatlarında tətbiq edilən vergi dərəcələri**

| | Azərbaycan | ABŞ | Böyük Britaniya | Almaniya | Fransa |
|---|---|---|---|---|---|
| Mənfət vergisi | 20 | 30 | 33 | 45 | 33 |
| ƏDV | 0 | 0 | 0 | 0 | 0 |
| Faiz gəlirləri və dividendlərə vergi | 0 | 0 | 20 | 31.65 | 15 |
| O cümlədən Qeyri-rezidentlər üçün | 0 | 0 | 0 | 0 | 0-15 |
| Məcburi ehtiyat normaları | 0.5 | 3-10 | 0 | 2 | 2 |

*Mənbə. AR Mərkəzi Bankı. Statistik bülleten*

Cədvəl 3-ün məlumatlarına bəzi məsələləri - Azərbaycanda depozit və kredit faizlərinin nisbətən yüksək olmasını əlavə etsək Azərbaycanın kredit sektorunu kifayət qədər cəlbedici saymaq olar. Bəllidir ki, beynəlxalq vergitutma modellərinə görə kapital bazarındakı tarazlıq aşağıdakı bərabərliklə müəyyən olunur.

$$r^d(1-t^d)=r^d(1-\imath^{rf}-r^{ry})$$

Burada $r^d$ - daxili investisiyaların mənfəət norması, $t^d$ -daxili vergi dərəcəsi, $r^f$xarici investisiyaların mənfəət norması, $i^{rf}$ - rezidentin xaricdəki gəlirlərinin vergi dərəcəsi, $i^{ry}$ qeyri-rezidentin faiz gəlirləridir. Bu düsturu şərti olaraq Avropa ölkələrinin investoruna tətbiq etsək, Azərbaycan bank əməliyyatları bazarının cəlbediciliyi aşkarlanar. Deməli, Avropa ölkələri üçün $r^d$ - 20% və ya yüksək ola bilər. Azərbaycan nümunəsində $i^{rf}$= 0- dır. Azərbaycanlı investor üçünsə, $i^{yf}$ = 20% olur. Aydındır ki, $r^d$ (1-0,2 = $r^v$) (1-0,2) alınır. Yaxud 0,8* $r^d$ = 0,2 $r^v$ bərabərliyini alırıq. Deməli, Avropa investoru da, Azərbaycan investoru da $r^d$ = $r^v$ şərti daxilində fəaliyyət göstərməlidir və aydındır ki, kapital gəlir norması yüksək olan ölkənin bank əməliyyatı bazarına yönəlməlidir. Azərbaycanda isə yüksək gəlir vəd olunur.

## Ədəbiyyat siyahısı:


1. F.Ə. Məmmədov, A. F. Musayev, M.M. Sadıqov, Z.H. Rzayev, Y. A. Kəlbiyev. Vergilər və vergiqoyma. Ali məktəblər üçün dərs vəsaiti. B.: 2006.- 432 s
2. Kəlbiyev Y.A. Məhərrəmov R.B. Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi.Dərslik.Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 2011, 554 səh.
3. Kəlbiyev Y.A. "Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri. Bakı: "Elm", 2012.-488 səh.
4. Azərbaycan Bank Asossasiyası (aba.az)
5. Mərkəzi Bank Statistik bülleten (cbar.az)
6. Taxes.gov.az

*Əliyev Turqut Tarverdi oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

# MÜƏSSİSƏNİN MALİYYƏ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

Maliyyə mexanizminin əsas elementlərinə maliyyə münasibətləri, maliyyə alətləri, maliyyə metodları daxil edilir. Maliyyə münasibətləri dedikdə investisiya, kredit, bank, sığorta və s. istiqamətində münasibətlər başa düşülür. Maliyyə alətləri toplanmış məlumatlar əsasında idarə edən müəssisənin təsərrüfat və kommersiya fəaliyyətinə təsir göstərə bilir. Maliyyə alətləri göstəricilərinə maliyyə hesabatları, pulun hərəkəti haqqında hesabat, kapitalda dəyişiklik haqqında hesabat, əmək haqqı, vergilər və s. daxildir. Maliyyə metodları dedikdə isə, maliyyə tənzimlənməsi, maliyyə proqnozlaşdırılması, maliyyə nəzarət mexanizmi nəzərdə tutulur.

Müəssisənin maliyyə vəziyyətinin düzgün və obyektiv qiymətləndirilməsi rəhbərlər, idarəedicilər, müəssisə ilə qarşılıqlı biznes əlaqələrində olan təşkilatlar üçün olduqca vacibdir, çünki müəssisənin maliyyə vəziyyəti bilavasitə müəssisənin kommersiya fəaliyyətinə təsir göstərən əsas amillərdən biridir. Müəssisənin maliyyə vəziyyəti çox qənaətbəxş deyilsə, işin daxili və xarici əlaqələri vaxtında həll olunmayacaq və nəticədə müəssisənin iflasına səbəb olacaqdır. Müəssisələrin maliyyə vəziyyəti 3 hissəyə ayrılır:

1. Sabit maliyyə vəziyyəti – bazar rəqabəti şəraitində müəssisə və təşkilatın ödəmə qabiliyyətini saxlamaq imkanıdır;
2. Sabit olmayan maliyyə vəziyyəti – müəssisənin öz öhdəliklərini vaxtı-vaxtında yerinə yetirməməsi və gecikdirməsidir;
3. Böhranlı maliyyə vəziyyəti – müəssisə və təşkilatın öhdəliklərini yerinə yetirə bilməməsidir. Bu cür hallarda müəssisə iflasa uğramış hesab olunur.

Müasir bazar iqtisadiyyatı şəraitində, dövlət zəmanətlərinin mövcudluğundan asılı olmayaraq, ən inkişaf etmiş müəssisələrdə belə maliyyə mənbələrinin inkişafına ehtiyac yaranır. Bazar vəziyyətini araşdıraraq və bu araşdırma nəticəsində əldə edilmiş məlumatları obyektiv təhlil edərək müəssisə yeni maliyyələşdirmə mənbələri əldə edə bilər. Aydındır ki, maliyyə vəziyyəti yalnız müəssisənin daxili rəhbərliyi ilə deyil, xarici investorlarla da əlaqəlidir. Çünki investor yatırdığı pulun gələcəkdə ona iqtisadi fayda qazanc verəcəyinə əmin olmalıdır.

Yuxarıda qeyd edildiyi kimi, müəssisənin maliyyə vəziyyəti və təhlili yalnız müəssisənin daxili rəhbərliyi tərəfindən deyil, digər təsisçilər, investorlar, təchizatçılar, banklar, dövlət qurumları və xüsusilə vergi idarəsi və s. məşğul olurlar. Beləliklə, müəssisənin maliyyə vəziyyətinin təhlilini daxili və xarici olaraq 2 yerə bölə bilərik. Daxili təhlil müəssisədə idarəetmə qərarı verən insanlar tərəfindən həqiqi məlumatların mühasibat qeydlərindəki məlumatlarla tutuşdurulması zamanı əldə edilən məlumatlar əsasında aparılır. Xarici təhlil investorlar, digər təsisçilər, tədarükçülər, banklar, iş fəaliyyəti ilə məşğul olan vergi orqanları tərəfindən mətbuatda açıq şəkildə açıqlanan məlumatlar vasitəsilə aparılır. Maliyyə vəziyyəti təhlil edilərkən aşağıdakı üsullardan istifadə olunur:

a) modelləşdirmə;

b) müqayisə;
c) qruplaşdırma;
d) analitik göstəricilər;
e) ümumiləşdirmə.

Ümumiyyətlə, investisiya fəaliyyətinin aktivliyi müəssisənin maliyyə vəziyyətindən asılıdır. Müəssisənin maliyyə vəziyyəti isə həmçinin istehsal və satış fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Beləliklə, pul vəsaitinin həcmi daxilində istehsal və satış əsas rol oynayır və planlar düzgün qurulmasa, vəsait axını və nəticədə müəssisənin maliyyə sabitliyi aşağı düşür və iflas başlayır.

Müasir dövrdə iflas təkcə müəssisə və təşkilatların deyil, dövlət qurumlarının da fəaliyyətindən kənar keçmir. Artıq hər kəsə aydındır ki, müasir dövrdə rəqabət qabiliyyətini qoruyan çox sayda müəssisə meydana çıxdı və bu imkanda məhrum olanlar fəaliyyətini dayandırdı. Müəssisə və təşkilatlar yarandığı gündən bir-biri ilə qarşılıqlı əlaqədədir. Bu münasibətlərin ayrılmaz hissəsi müqavilə öhdəliklərinin könüllü yerinə yetirilməsidir. Bu öhdəliklər isə birbaşa olaraq onların yerinə yetirilməməsi riski ilə əlaqəlidir.

Bir müəssisənin iflası, borclarının aktivləri aşması və ya qarşı tərəfin satın alınan mallara (işlərə, xidmətlərə) dair tələblərini ödəyə bilməməsi deməkdir.

Müəssisə arbitraj məhkəməsinin qərarı ilə və yaxud könüllü qaydada müflis elan oluna bilər. Məhkəmə tərəfindən ödəmə qabiliyyəti olmayan hüquqi şəxslərin elan edilməsi qaydaları Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilir. Buna görə bir müəssisə və ya təşkilat bunu təsdiqlədikdə və ya məhkəmədə sübut etdikdə iflas etmiş sayılır. Statistika göstərir ki, Azərbaycan Respublikasında xeyli sayda zərərlə işləyən müəssisə və təşkilatlar var. Bu məlumatları daha aydın şəkildə cədvəl l-də görmək olar.

***Cədvəl 1.***

**Zərərlə işləyən müəssisələrin statistikası**

| **Göstəricilər** | **2017** | **2018** |
|---|---|---|
| Cəmi (*mln.manat*) | 2079 | 1895 |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı (mln.manat) | 39 | 59 |
| Sənaye (mln.manat) | 1171 | 635 |
| Emal sənayesi (*mln.manat)* | 248 | 403 |
| Mədənçıxarma sənayesi (mln.manat) | 559 | 119 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı (mln.manat) | 136 | 213 |
| Nəqliyyat və anbar təsərrüfatı (mln.manat) | 124 | 224 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə (mln.manat) | 36 | 38 |
| İmformasiya və rabitə (mln.manat) | 38 | 42 |
| Maliyyə və sığorta fəaliyyəti | 179 | 455 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar icarə və istehlakçılara xidmət göstərilməsi (mln.manat) | 38 | 15 |
| Peşə elmi və texniki fəaliyyət (*mln.manat*) | 18 | 62 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi (mln.manat) | 12 | 17 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat(mln.manat) | 2 | 2 |
| Təhsil (mln.manat) | 17 | 14 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (mln.manat) | 7 | 4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət (mln.manat) | 46 | 94 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi (mln.manat) | 7 | 4 |

Qarşıda duran əsas vəzifə zərərlə işləyən müəssisələrdə maliyyə sabitliyini təmin etmək məqsədilə müəyyən tədbirlərin görülməsidir. Bu baxımdan müəssisələrdə maliyyə işinin təkmilləşdirilməsinin əsas istiqamətlərinə aşağıdakıları qeyd etmək olar:

- müəssisənin maliyyə siyasətinin hazırlanması və həyata keçirilməsi;
- maliyyə fəaliyyətinin daima fasiləsiz təhlili;
- xərclərin optimallaşdırılması istiqamətlərinin müəyyən edilməsi;
- mənfəətin optimal bölüşdürülməsinin təşkili;
- divident siyasətinin müəssisənin maliyyə vəziyyətinə uyğun qurulması;
- elmi-texniki tərəqqinin istehsalata tətbiqi.

Yuxarıda qeyd edilənlərdən, belə nəticəyə gəlmək olar ki, müəssisənin maliyyə vəziyyətini qiymətləndirmək və balans quruluşunu təyin etmək üçün müəssisənin maliyyə vəziyyətinin ətraflı təhlili tələb olunur. Təhlilin nəticələri idarəetmə qərarlarında, müəssisənin fəaliyyətində, vəsaitlərin səmərəli ayrılmasında mühüm rol oynayır.

**Ədəbiyyat siyahısı**

1. Ataşov B., Novruzov N., İbrahimov E., "Müəssisələrin maliyyəsi" dərslik, Bakı, 2009.
2. Ələkbərov Ə. "Müasir mərhələdə maliyyə ehtiyyatları və onların istifadəsinin bəzi məsələləri" Məqalə. AMEA-nın Xəbərləri,humanitar və ictimai elmlər seriyası (İqtisadiyyat) № 1, Bakı 2006.
3. Hüseynov T. "Firmanın iqtisadiyyatı" dərslik, Bakı 2008.
4. İsmaylov N., Zeynalov T., Mahmudov İ., "İqtisadi təhlil" dərslik, Bakı 2010.
5. Kazımov R. "Maliyyə təhlili müzahirə toplusu" Bakı 2011.
6. azstat.org

*Məmmədkərimova Xəyalə Rəfail qızı, magistrant,*
*Bakı Biznes Universiteti*

## TEXNOPARKLARIN SAHİBKARLIĞIN İNKİŞAFINDA ROLU

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatın digər sahələrində olduğu kimi, sahibkarlıq və sənayenin inkişafında da böyük uğurlar qazanılmışdır. Bu illər ərzində rəqabətqabiliyyətli sənaye sahələrinin yaradılması, sənayedə infrastrukturun yaxşılaşdırılmasında çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, sənaye yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu istiqamətdə texnoparkların yaradılması sahibkarlığın inkişaf etdirilməsində çox böyük rol oynamışdır.

Texnoparklar bir və ya bir neçə elmi-tədqiqat mərkəzləri və ya universitetlərlə birbaşa əlaqədar olub, tərkibində yüksək texnologiyalara və elmi nəticələrə əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulmuş kompleksdir.

Texnoparklar növlərinə görə aşağıdakılara bölünür:

- Sənaye texnoparkları
- Universitet texnoparkları
- Şəbəkə texnoparkları
- Regional sahə texnoparkları

- Texnoloji inkubatorlar və ya innovasiya biznesi inkubatorları.

Texnoparkların yaradılmasında əsas məqsəd yeni ixtiraların və biliklərin texnologiyaya, bu texnologiyaların isə kommersiya məhsullarına çevrilməsi, tədqiqata yönəldilmiş xərclərin səmərəliliyinin artırılması, sənayenin struktur yenidənqurulması, məşğulluq probleminin qismən həll edilməsi, yüksək texnologiyalar sahəsində elmi-texniki naliyyətlərin sürətli tətbiq edilməsidir. Texnoparklar kiçik və orta elmtutumlu innovasiya şirkətlərin inkişafını, fəaliyyətlərin nəticələrinin məhsula çevrilməsini və bazara çıxarılmasının təşkili ilə məşğul olan müəssisələrdir.

İlk dəfə olaraq texnoparklar ABŞ-da Stenford Universitetinin təşəbbüsü ilə XX əsrin 50-ci illərində yaradılmışdır. ABŞ-dan sonra dünyanın digər inkişaf etmiş ölkələrində də texnoparklar yaradılmış və inkişaf etdirilmişdir. Sovet dövründə də texnoparklar fəaliyyət göstərmişdir. Belə ki, 1990-cı ildə Rusiyada, 1991-ci ildə Özbəkistanda texnoparklar təsis olunmuşdur. Hal-hazırda dünyada 4000-ə yaxın texnoparklar fəaliyyət göstərir. Onu da qeyd edək ki, dünyanın müxtəlif ölkələrində texnoparklar müxtəlif cür adlandırılır.. Məsələn, Şərq ölkələrində, eləcə də Azərbaycanda "elmi-texnoloji parklar" və ya "texnoloji parklar" (texnoparklar), ABŞ-da "tədqiqat parkları", Böyük Britaniyada "elmi parklar", Fransa və Yaponiyada "texnopolislər", Türkiyədə "texnokent" və s. adlandırılır. Texnopark anlayışı ədəbiyyatlarda və innovasiya menecerləri arasında da müxtəlif cür izah edilir. Məsələn, Finlandiyanın Otaniem texnoparkının banisi olan Mervi Kekiyə görə "texnoparklar məkan deyil, proses kimi nəzərdən keçirilməlidir və onların əsas məqsədi şirkətlərə kömək etməkdir". Texnopolis şirkətinin direktorlar şurasının sədri Peritti Xuuskonenin sözlərinə görə isə, "gözəl binanın olması hələ texnopark demək deyildir. Texnopark – onun gözəl içliyi və fantastik məhsulunun olmasıdır və bu məhsul və xidmətlər müştərilər tərəfindən tələb edilir".

Sənaye parklarının yaradılması ölkədə sənaye sahələrinin inkişafının artırılması, istehsal sahələrinin və onun innovasiya istiqamətlərinin genişləndirilməsini nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Həmçinin qeyri-neft sektorunun davamlı inkişafı, idxalı əvəz edən məhsul istehsalının artırılması, investisiyaların və müasir texnologiyaların ölkəyə cəlb edilməsi kimi əsas vəzifələri yerinə yetirmək üçün xüsusilə əhəmiyyətlidir. Bu istiqamətdə müəyyən işlər görülmüş, beynəlxalq təcrübə öyrənilmiş və müvafiq normativ-hüquqi sənədlər hazırlanmışdır.

Hal-hazırda Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir:

- Sumqayıt Kimya Sənaye Parkı;
- Balaxanı Sənaye Parkı;
- Mingəçevir Sənaye Parkı;
- Qaradağ Sənaye Parkı;
- Pirallahı Sənaye Parkı.

Texnoparkların strukturunun yaradılmasında dövlətin rolunu xüsusilə qeyd etmək olar. Bunun üçün qanunvericilik bazasının formalaşdırılması, vergi və gömrük güzəştləri, dövlət dəstəyi kimi bir çox vacib məsələlər yerinə yetirilməlidir. Bu günki gündə sənaye parklarının vəziyyəti tamamilə fərqlidir və sahibkarlar üçün xeyli imkanlar və güzəştlər təklif edilir. Məsələn, Azərbaycanda qurulmuş və fəaliyyət göstərən sənaye parklarında sahibkarlar üçün təklif olunan güzəştlərə aşağıdakıları göstərmək olar:

1. 7 il müddətinə mənfəət vergisindən azad edilmə;
2. Əlavə Dəyər Vergisindən azan edilmə;
3. Əmlak və Torpaq vergisindən azad edilmə;
4. Elmi dairələrə çıxış;
5. Biznes xidmətləri.

Qeyd edək ki, sadalanan 7 illik güzəştlər yalnız Azərbaycana aiddir. Bəzi Avropa ölkələrində bu kimi güzəştlər 3-5 il arası, bəzilərində isə 5-10 il arası dəyişir.

Yaradılan bütün imkanlar onu deməyə əsas verir ki, gələcəkdə ölkə iqtisadiyyatında sahibkarlığın inkişafı daha da sürətlənəcək və daxili bazar ehtiyyatlarını ödəməklə yanaşı xarici bazarlara da daha çox məhsul ixrac ediləcək. Bunu statistik göstəricilərdə də görmək olar. Son illərdə sahibkarlığın inkişafında nəzərə çarpacaq irəliləyişlər olmuşdur. Həyata keçirilən islahatlar nəticəsində sahibkarlığın inkişafında pozitiv meyillər özünü göstərməkdə davam edir. Onu da qeyd etmək lazımdır ki, rəqabətədavamlı məhsul istehsalı və xidmət göstərilməsi müasir dövrdə sənaye parkları və ya texnoparklarda daha əlverişli hesab olunur. Belə iqtisadi qurumlar yeni və say baxımından az olsalar da sahibkarlar ali təhsil müəssisələri ilə birləşərək müəyyən innovativ və elmtutumlu iqtisadiyyatın inkişafı prosesində iştirak edə bilərlər. Belə olan halda hər bir sahibkar öz məhsulunu münasib qiymətə daha da təkmilləşdirərək bazara yeni ticarət markası ilə təklif edə bilər.

Hal-hazırda ölkəmizdə Sumqayıt Kimya Sənaye Parkından əlavə Mingəçevir, Qaradağ, Pirallahı və Balaxanı sənaye parkları yaradılıb.

Sənaye məhəlləsi dedikdə, kiçik və orta sahibkarlar tərəfindən xidmət göstərilməsi və məhsul istehsalı üçün istifadə edilən, sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün zəruri infrastruktura malik olan ərazi başa düşülür.

Sənaye məhəlləsinin yaradılması məqsədi ilə Azərbaycan Respublikası Prezidenti “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2014-cü il 8 oktyabr tarixində Fərman imzalamışdır. Hal-hazırda Azərbaycanda 5 sənaye məhəlləsi yaradılmışdır. Bunlar Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur Sənaye Məhəllələridir. Ölkə Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, ölkənin bütün rayonlarında sənaye məhəllələrinin yaradılmasına nail olacağıq. Sənaye məhəllələrində qeyri-neft sektoru üzrə müəssisələr və xidmət sahələri fəaliyyət göstərir.

İnnovasiya və informasiya iqtisadiyyatının, həmçinin innovasiya klasterlərinin formalaşmasında texnoparklar vacib strukturlardan biridir.

XX əsrin 70-ci illərindən etibarən Ümumilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bugünki uğurlu iqtisadiyyatımızın inkişafının bünövrəsi qoyulmuşdur. Bu siyasətin uğurlu davamçısı Prezident İlham Əliyevin gördüyü işlərin nəticəsində bir çox iqtisadi islahatlar həyata keçirilmişdir. Buna uyğun olaraq fərdi sahibkarlıq üçün bir çox imkanlar yaradılmışdır. Sahibkarlığın inkişafı məqsədi ilə 2009-cu il dekabr ayının 12-də dövlət başçısı tərəfindən Sumqayıt Texnologiyalar Parkı (STP) istismara verilmişdir. Daha sonra Bakı, Mingəçevir, Gəncə kimi şəhərlərdə belə texnoparklar yaradıldı. Texnoparkların yaradılması xarici ölkələrdən məhsul idxalının qarşısını almaq üçün qeyri-neft sektorunun inkişafına təkan verən hərəkətverici qüvvə rolunu oynayır. Sumqayıt Texnologiyalar Parkı bu gün Azərbaycanın qeyri-neft sektorunda layiqincə yer tutan müəssisələrdən biridir.

Azərbaycan Respublikasının Prezidenti yanında keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı keçən il iqtisadi sahədə böyük nailiyyətlərin əldə edildiyini və 2019-cu ildə qarşıda duran bütün vəzifələrin uğurla icra edildiyini qeyd etmişdir. Bunu statistik rəqəmlərə baxmaqla görmək olar.

Son illərdə sənaye sahəsində görülmüş işlərin bəhrəsi olaraq sənaye sahəsində 1,5 faiz, qeyri-neft sektorunda 14 faiz artım müşahidə olunmuşdur. Sənaye istehsalı həm dövlət hesabına, həm də özəl sektorun fəaliyyəti hesabına artmışdır. 2014-cü ilin "Sənaye ili" elan edilməsi də bu sahəyə xüsusi diqqət yetirildiyinin nümunəsidir. Həmin ilin dekabrında "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" təsdiqlənmişdir. Bu proqramda sənayenin modernləşməsi və strukturunun təkmilləşməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye məhsulları istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. öz əksini tapıb.

Son illərdə sənaye sahəsində yeni modellərdən istifadə və onların inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Ölkədə beynəlxalq standartlara cavab verən sənaye parkları və məhəllələri, texnoparklar, aqroparklar kimi mütərəqqi mexanizmlərlə innovativ müəssisələrin yaradılması qeyri-neft amilindən asıllığın azaldılmasına yeni imkanlar açır.

Azərbaycanda texnoparkların səmərəli fəaliyyətinin təmin edilməsində ABŞ, Çin, Cənubu Koreya, Hindistan kimi ölkələrin təcrübəsindən məharətlə istifadə edilir. Bütün aparılan təhlillər göstərir ki, texnoparkların yaradılması Azərbaycanda ölkənin ixrac potensialının artırılmasında, yeni iş yerlərinin açılmasında, xaricə "beyin axınının" qarşısının alınmasında, sənayedə elmin son nailiyyətlərindən istifadənin artırılmasında mühüm imkanlar yaratmışdır.

Azərbaycanda yaradılan texnoparkların problemlərinə gəldikdə isə onlar ənənəvi texnoparkların təcrübəsini həyata keçirməyə çalışırlar, yeni mühiti və tələbatı öyrənmirlər, ənənəvi səhvləri edirlər. Onlar innovasiya mərkəzlərinin ilkin inkişaf mərhələsini keçmədən son mərhələyə keçməyə can atırlar. Bu da onların inkişafında durğunluğa səbəb olur və səmərəliliyi azaldır. Dövlət tərəfindən innovasiya fəaliyyətinə edilən dəstək infrastrukturun və innovasiya xidmətlərinin lazım olan səviyyədə inkişaf etdirilmədiyinə görə çox vaxt öz səmərəsini vermir.

Nəticə etibarilə demək olar ki, gələcəkdə texnoparkların rəqabətqabiliyyətliliyi və səmərəliliyi yeni texnologiyalar bazarında olan mövqeyini, peşəkar cəmiyyət formalaşdırmaq imkanını texnoparkların qlobal tədqiqat cəmiyyətləri ilə olan əlaqələrinin sıxlığı müəyyən edəcək.

## Ədəbiyyat siyahısı:

1. "Azərbaycan – 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası Bakı 29.12.2012

2. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə milli Strategiya" Bakı 10.04.2008

3. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı". Bakı 27.12.2014

4. "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və prob-

lemləri" Elmi Əsərlər Toplusu Bülleteni Bakı 2018
5. Abbasov S.H. "Texnologiyalar və yenilikləri idarə edilməsi" 2013
6. Əliyev Ə.Q., Şahverdiyev R.O. "Texnoparkların fəaliyyətinin müqayisəli qiymətləndirilməsi üzrə kompozit indikatorlar sisteminin işlənilməsinin elmi-metodoji əsasları" Bakı 2017
7. Hüseynov T.Ə. "Sənaye iqtisadiyyatı" Bakı 2012
8. Hüseynova A. "Texnoparkların yaradılması üzrə beynəlxalq təcrübə". Bakı 2017, 68 səh.
9. İbrahimov İ.H., Kərimova K.S. "Sənayedə investisiya və innovasiya fəaliyyəti" Bakı 2017, 270 səh.
10. Nəcimov A. "Texnoparklar: kiçik sahibkarlar üçün bələdçi" Bakı 2015.

*Rəhimov Aslan İlham oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCANDA YÜKSƏK TEXNOLOGİYALAR PARKLARININ ƏSAS İNKİŞAF PERSPEKTİVLƏRİ

Dünyada ən dinamik inkişaf edən ölkələrdən biri olan Azərbaycan iqtisadiyyatında alternativ inkişaf mənbələrinin yaradılması, yerli bazarların xarici investisiyalar üçün cəlbediciliyinin artırılması, habelə ölkədə qeyri-neft sektorunun davamlı inkişafı məqsədilə İKT sektorunun dayanıqlı inkişafının təmin edilməsi İKT və elektron məhsullar və xidmətlər istehsalı üzrə innovasiya strukturu olan texnoparkların yaradılmasını qaçılmaz etmişdir. Həmin vəzifələrin yerinə yetirilməsi də, bütövlükdə, innovativ strukturlar şəbəkəsinin, o cümlədən İKT profilli texnoparkların yaradılması və gələcək fəaliyyətinin idarə edilməsini daha da aktuallaşdırmışdır.

Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Hazırkı dövrdə ölkəmizin inkişaf modeli qabaqcıl ölkələrin inkişaf tendensiyalarına uyğunlaşmaqdadır. Eyni zamanda elm və texnologiyanın inkişafının, qabaqcıl innovasiya sisteminin nəzəri, metodoloji və tətbiqi elmi əsaslar üzərində formalaşdırılması, dövlət siyasətinin strateji məqsədləri sırasına daxil edilmişdir. Yüksək texnologiyalara əsaslanan regional və iqtisadi inkişaf sürətləndirilməkdədir.

Texnoparkların qurulmasının əsas məqsədi aşağıdakılardır [5., s.154]:

- Yüksək texnologiyalara əsaslanaraq inkişaf etdirilən sənaye sahələrinin gücləndirilməsi;
- Yeni bölgələrdə sənayenin inkişafının dəstəklənməsi;
- İnnovativ fəaliyyətlərin həyata keçirilməsi;
- Təhsil və daha təsirli elmi-texniki nəticələrə malik fəaliyyət sahələri ilə səmərə-

liliyin artırılması;

- Beynəlxalq arenada rəqabət gücünün yüksəldilməsi.

Qabaqcıl dünya təcrübəsindən istifadə etməklə Azərbaycanda informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq yeni bilik və texnologiyaların istifadəsini, mənimsənilməsini və yayılmasını təmin edən milli innovasiya sisteminin formalaşdırılması prosesi qarşıdakı illərdə tamamlanacaqdır.

Azərbaycanın iqtisadi inkişafında prioritet məsələlərdən biri texnoparkların yaradılmasıdır. Müasir dövrdə ölkədə həyata keçirilən iqtisadi siyasətin əsas tərkib hissəsi kimi bazar münasibətlərinin formalaşması, iqtisadi əlaqələrin genişlənməsi, xarici investisiya qoyuluşu imkanlarının artırılması, texnoparkların yaradılması aktual məsələlərdən biri hesab olunur. Texnoparklar innovasiya iqtisadiyyatının formalaşmasının əsas alətlərindən biridir. İlk texnoparklar 1930-cu illərdə yaradılsa da, onların aktivləşməsi prosesi 60- 80-ci illərə aid edilir. Həmin dövrdə dünyada yüksək texnoloji sahələrin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri idi. Texnopark şirkətlərin yerləşdirilməsi üçün yüksək səviyyəli elmi-tədqiqat institutları və laboratoriyalara malik ərazidir.

Sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının inkişafına və modernləşməsinə, sahibkarlığın dəstəklənməsinə, ölkənin ixrac qabiliyyətinin genişlənməsinə, məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərir.

Qlobal trendlərə effektiv uyğunlaşdırılan çevik iqtisadi siyasətin prioritet sahələrindən biri də sənaye sektoru olduğundan, ölkəmizdə də bu sahənin inkişafı diqqət mərkəzində saxlanılır. "İnkişaf etmiş ölkəyə çevrilmək" məramını tərəqqinin yeni hədəfi kimi müəyyənləşdirən Azərbaycanda iqtisadi inkişaf strategiyası artıq modernləşmə xəttinə əsaslanmaqla tam innovativ yönümdə həyata keçirilir. "Azərbaycan 2020 gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas istiqamətlərindən olan sənayenin davamlı inkişafının təmin edilməsi məqsədilə dövlət tərəfindən çoxsaylı layihələr hazırlanır, ən müasir infrastruktur yaradılır, islahatlar aparılır. Ölkə rəhbərliyinin müəyyənləşdirdiyi sosial - iqtisadi inkişaf siyasətinin prioritet istiqaməti iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyinin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir. Qeyd edək ki, bu sahədə artıq müvafiq qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm baza sənədidir. Bu siyahıya həm də, "Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında və "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması" haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarını əlavə etmək olar. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanda kosmik sənayenin yaradılması ölkədə iqtisadiyyatın yeni sahəsinin inkişafına təkan verməklə ölkə iqtisadiyyatının müasir dünyaya inteqrasiyasını sürətləndirir [2].

Ölkəmizdə qeyri-neft sektorunun əsas sahələrindən olan qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu sahənin inkişafının intensivləşdirilməsi məqsədilə

sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, onların modernləşdirilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müasir sənaye komplekslərinin yaradılması, rəqabətədavamlı sənaye istehsalının genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bu prosesdə dövlət sektoru ilə yanaşı, özəl sektor da fəal iştirak edir. Qeyd edək ki, Bakı, Sumqayıt və Gəncə şəhərlərində texnoparkların yaradılması prosesinə artıq başlanılmışdır, həmçinin Mingəçevirdə də müasir sənaye kompleksinin yaradılması istiqamətində işlər görülür.

Sənaye parklarının yaradılması, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafına, iqtisadiyyatın modernləşməsinə, innovativ və elmtutumlu iqtisadiyyatın formalaşmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsinə, investisiya mühitinin cəlbediciliyinin artmasına, sahibkarlığın dəstəklənməsinə, ölkənin ixrac qabiliyyətinin genişlənməsinə, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərəcəkdir.

Sənaye və texnologiya parklarının iqtisadi inkişafdakı müsbət rolu barədə beynəlxalq təcrübə nəzərə alınmaqla, Azərbaycanda da bu sahənin inkişaf etdirilməsi dövlətimizin həyata keçirdiyi uğurlu iqtisadi siyasətin tərkib hissələrindən birinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının istiqamətlərindən biri də innovativ sahibkarlığın inkişaf etdirilməsini, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparkların və innovasiya zonalarının yaradılmasını nəzərdə tutur. Ölkə başçısının fərman və sərəncamları ilə artıq Bakı şəhərində Balaxanı Sənaye Parkı, Sumqayıt şəhərində Kimya Sənaye Parkı və Yüksək Texnologiyalar Parkı yaradılmışdır [7].

Sənaye parkının fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən dövlətə məxsus hüquqi şəxs onun idarəedici təşkilatı, səlahiyyətli orqan tərəfindən (Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi) müsabiqə əsasında seçilən və idarəedici təşkilatla bağlanan idarəetmə sazişi çərçivəsində sənaye parkının idarə olunmasını təmin edən hüquqi şəxs isə sənaye parkının operatoru adlanır.

Sənaye parkının rezidenti dedikdə isə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınmış, sənaye parkının ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün əsasnamə ilə müəyyən edilmiş qaydada sənaye parkının qeydiyyat şəhadətnaməsini almış və operatorla sənaye parkında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə bağlamış hüquqi və fiziki şəxslər başa düşülür.

Sənaye parkının yaradılmasının məqsədləri aşağıdakılardır [4., s.67]:

1. İnnovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi;

2. İqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi;

3. Ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması;

4. Əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması.

İqtisadiyyatın davamlı inkişafını və rəqabət qabiliyyətinin artırılmasını, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan İKT sahələrinin genişləndirilməsini, elmi tədqiqatlar aparılmasını və yeni informasiya texnologiyalarının işlənilməsi üzrə müasir komplekslər yaradılmasını təmin etmək məqsədi ilə yüksək texnologiyalar parkı (YTP) yaradılmışdır. "YT Park" informasiya və kommunikasiya texnologiyaları, telekommunikasiya və kosmos, enerji səmərəliliyi sahələrində tədqiqatlar aparılmasını, yeni və yüksək texnologiyaların hazırlanmasını təmin edəcəkdir.

YTP-nin yaradılması ölkə iqtisadiyyatının, xüsusilə, qeyri-neft sektorunun inkişafına, ölkənin ixrac qabiliyyətinin artırılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, iqtisadiyyatın modernləşməsinə, innovativ və elmtutumlu iqtisadiyyatın formalaşmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsinə, investisiya mühitinin cəlbediciliyinin artmasına, sahibkarlığın dəstəklənməsinə, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərəcəkdir. YTP İKT sahəsində ilk xüsusi rejimli zona olmaqla elmi araşdırmaların, elmtutumlu texnoloji məhsulların istehsalının əhəmiyyətli dərəcədə artmasına təkan verəcəkdir.

Beləliklə, İKT-texnoparklarda Milli İnnovasiya Sisteminin tərkib hissəsi olan, əsas parametrlərinə görə inkişaf etmiş ölkələrin innovasiya sisteminə uyğun gələn elmi-tədqiqat sektoru fəaliyyət göstərir. Onlar həm sahibkarlıq sektoru ilə qarşılıqlı fəaliyyəti, həm də innovasiya sisteminin digər subyekləri ilə sırf üzvi əlaqəni təmin etməlidirlər. Bu istiqamətdə ölkədə vençur-innovasiya müəssisələrinin davamlı artımı təmin olunmalı, innovasiya-texnoloji mərkəzlər, texnologiyaları transfer mərkəzləri kimi innovasiya strukturunun baza elementlərinin yaradılmasına diqqət artırılmalıdır.

İKT-texnoparkın idarəetmə missiyası bazarın tələbinə uyğun yüksək keyfiyyətli innovasiya məhsulunun və xidmətlərin istehsalında elmi-texniki və texnoloji nailiyyətlərin hazırlanmasını və tətbiqini sürətləndirmək məqsədilə, "elm–təhsil– biznes" inteqrallaşdırılmış üçlüyünün formalaşması üçün şərait yaratmaqdır.

İKT-texnoparkın yaradılma məqsədinə, funksiya və fəaliyyət istiqamətlərinə müvafiq olaraq onun səmərəli idarəetmə sisteminin əsasları işlənilməlidir. Yekunda qeyd etmək olar ki, müasir iqtisadiyyatın formalaşmasında mühüm əhəmiyyəti olan innovasiya infrastrukturunun əsas elementi olan texnoparkların yaradılması, fəaliyyətinin təşkili və idarə olunması üzrə beynəlxalq təcrübənin öyrənilməsi ölkədə texnoparkların formalaşması yolunda vacib bir mərhələdir.

Bu problemin tədqiqi innovativ texnoparkların qabaqcıl ölkələrdəki təcrübəsini müqayisələr əsasında fərqləndirməyə imkan verir. Araşdırmanın nəticəsi kimi müasir dünya iqtisadiyyatında xüsusi iqtisadi zonaların, sənaye klasterlərinin, elm və texnoloji parklarının müxtəlif mənbələr üzrə say tərkibinin, strukturunun aşkara çıxarılması oxşar sahələrdə qərarların qəbuluna dəstək olur. İnkişaf etmiş ölkələrdə fəaliyyət göstərən innovativ texnoparkların uğurlu fəaliyyətinin nəticələrini və müvafiq texnopark modellərini Azərbaycanda fəaliyyət göstərəcək texnoparklara tətbiq etməklə ölkəmizdə də innovativ texnoparkların səmərəli və uğurlu nəticələrinə nail olmaq olar.

**Ədəbiyyat siyahısı:**

1. "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasinin Qanunu, 14 aprel 2009-cu il
2. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya", 10 aprel 2008-ci il
3. A.H.Tağıyev. İnnovasiya. Bakı , 2011. 45 s.
4. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri, Bakı, 2012. 360 s.
5. Туан Ф.А. Опыт функционирования свободных экономических зон (теоретический аспект) // Вестник Института экономики РАН, 2009, №3, с. 162-169.
6. http://jpis.az/storage/files/article/76281c70f99544594710e1e0a17f48d4.pdf
7. http://jpis.az/storage/files/article/a840ad5df4c5e7192b2ddef15ed86745.pdf



*Əhmədova Günay Namiq qızı, magistrant*
*Bakı Biznes Universiteti*


## BİZNES FƏALİYYƏTİNİN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ VƏ MALİYYƏ TƏMİNATININ TƏŞKİLİ PROBLEMLƏRİ

Biznes fəaliyyətinin təşkili müəyyən maliyyə resursu – ilkin kapital tələb edir ki, bu da sərmayəçiləri pay hesabına yaradılır və nizamnamə kapitalını formalaşdırır. Nizamnamə kapitalı biznes fəaliyyətinin normal inkişafı üçün zəruri əsas fondların formalaşdırılmasına və dövriyyə vəsaitlərinin əldə olunmasına istiqamətləndirilir. Bu da öz növbəsində gəliryaradıcı mühüm amil hesab olunur. Realizə olunmuş məhsul pul şəklində yəni əmtəənin realizasiya olunmasından əldə edilmiş gəlir formasında biznes fəaliyyətinin hesablaşma hesabına istiqamətləndirilir.

Siyasi, iqtisadi, sosial və ya texnoloji dəyişikliklərinin daha sıx və sürətli yaşandığı müasir dövrdə sahibkarlar fəaliyyətini davam etdirmək üçün müxtəlif yollarla məqsədlərinə nail olmağa çalışırlar. Müasir bazar iqtisadiyyatı mühitinin qurulması təsərrüfat subyektlərinin maliyyələri də idarəetmə mexanizminin daim təkmilləşdirilməsini və yeni, müasir metodların işlənib hazırlanmasını tələb edir.

Dünyanın qabaqcıl ölkələrindəki biznes subyektlərinin iş praktikası sübut edir ki, biznes fəaliyyətindəki təkmilləşmiş maliyyələşmə sisteminin mövcudluğu onların daha səmərəli işləməsinə böyük zəmin hazırlayır.

Bazar iqtisadiyyatına malik olan ölkələrdə biznes fəaliyyəti müxtəlif maliyyələşmə üsulları ilə idarə olunur. Bunu da qeyd edək ki, hər bir ölkənin biznes fəaliyyətindəki mövcud metodlardan yararlanması həmin ölkənin bu sahədə formalaşmış siyasətindən asılıdır.

Hazırkı vəziyyətdə respublikamızın investisiya siyasəti büdcədən ödəmələrə qənaət edilməsi ilə biznes sahiblərinin şəxsi vəsaitlərindən, habelə kənardan cəlb olunan vəsaitlərdən daha geniş miqyasda istifadə edilməsini daha aktual edir. Bununla yanaşı biznes fəaliyyətinin maliyyələşdirilməsi prosesi dövlət vəsaiti hesabına davam etdirilir. Bu məqsədlə müvafiq dövlət qurumları müvafiq investisiya layihələrinin həyata keçirilməsi ilə ayrı-ayrı sahələrin iqtisadi inkişafına zəmin yaratmış olur.

Biznes fəaliyyətinin maliyyələşdirilməsində istifadə edilən metodlardan lizinq və icarə mülkiyyəti xüsusi əhəmiyyətə malikdir. Biznes fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, bir çox hallarda isə hüquqi şəxslər bu metodlardan istifadə etməli olurlar. Mahiyyət etibarı ilə icarə mülkiyyəti kirayəyə götürməkdən ibarətdir. Haqqını ödəməklə müqavilə əsasında mülkiyyətdən yararlanmaq deməkdir. Amortizasiya ayırması və mənfəətin bir hissəsi də icarə haqqında daxildir. Ölkəmizdə biznes sahibləri şəxsi vəsait qıtlığı ilə rastlaşdığı hallarda bu metoddan geniş istifadə edirlər.

Azərbaycanda biznes fəaliyyətinin lazımi səviyyədə maliyyələşdirilməsi, bu sahənin fəaliyyətinin genişləndirilməsi və ölkə iqtisadiyyatında sahibkarlığın rolunun gücləndirilməsi üçün müvafiq maliyyələşdirmə metodlarından istifadə olunması məqsədə uyğundur.

Beləliklə, maliyyə təminatının təkmilləşdirilməsi üzrə görüləcək tədbirlər maliyyə dayanıqlığı və aktivliyi həmçinin milli iqtisadiyyatın davamlı inkişafı üçün səmərəli biznes şəraitinin formalaşmasına dəstəkverici əsas ünsürlərdəndir.

*Qubadzadə Xədicə Xaqani qızı, magistrant,*
*Bakı Biznes Universiteti*

## METAL TRADE MMC –DƏ İNNOVASİYA LAYİHƏLƏRİNİN İDARƏEDİLMƏSİ VƏ İDARƏETMƏ PRİNSİPLƏRİ

İnnovasiya layihəsinin idarə olunması elə bir prosesdir ki, onun məqsədləri, təşkilati quruluşu, planlaşdırma tədbirləri və bu proseslərə ümumi nəzarət etməklə əlaqəli, həmçinin innovasiya ideyasının həyata keçirilməsinə yönəldilmiş idarəetmə qərarlarının həyata keçirilməsi və qəbul edilməsidir.

İnnovasiya layihəsinin ən davamlı variantının seçilməsi layihənin inkişaf etdirilməsinin vacib prosedurlarından biridir. Onun səmərəliliyi müxtəlif inkişaf üsullarından, prinsiplərindən asılıdır. Buna misal olaraq, səmərəliliyinin qiymətləndirilməsinin uçota alınmamış metodlarından istifadə etməklə innovasiya layihələrinə qoyulan investiyaların səmərəliliyinin qiymətləndirilməsi geri ödəmə müddətini təyin etməyi və gəlirin hesab dərəcəsini hesablamağı nəzərdə tutur. Bu investiyaların səmərəliliyinin qiymətləndirilməsinin uçota alınmamış metodlarına xalis cari dəyərin, gəlirlilik indeksinin və daxili gəlirin nisbətinin hesablanması üsulları daxildir.

İnnovasiyanın tapılması, innovasiya layihələrinin işlənməsi, cəmiyyətin maddi mühitində istehsalı və reallaşdırılması ilə bağlı olan innovasiyadan istifadə etmək qaydası ümumi innovasiya prosesini yaradır. İnnovasiya prosesləri elmin bütün sahələrində olur və nəticə olaraq istehsalda tamamlanaraq, daimi olaraq yenilənərək dəyişir. İnnovasiyalar həm texnika və texniki avadanlıqlarda, həm də istehsal və idarəetmədə özünü göstərir. Burda gedən innovasiyalarının hər biri arasında sıx əlaqə vardır və onlar istehsalın effektivliyinin artırılmasının keyfiyyət pillələridir.

Eyni zamanda innovasiya layihəsi texniki, təşkilati və layihəni həyata keçirmək üçün tələb olunan planlaşdırma və hesablama prosesinə cavab verməlidir. Tətbiq olunan innovasiya layihələri mənbələrə, müddətlərə və icraçılara görə bir-biriylə əlaqəli, bir-birinə qarışan və elm-texnikanın ən prioritet sahələrində konkret məqsəd və vəzi-

fələrə nail olmağa yönəlmiş hərtərəfli hadisələr sistemidir. İnnovasiya layihələri uzunmüddətli dövrdə onları idarə etmək üçün vasitələrə uyğun tələblər qoyur. Bununla yanaşı innovasiya layihəsində bəzi aspektlər nəzərə alınmalıdır - xüsusəndə idarəetmə qərarlarının qəbul edilməsi prosesi və yenilikdə funksional yanaşma baxımından təşkilati sistem kimi funksiyaları əsas götürülür. Texnologiya və yeni məhsullardan istifadə müəssisələrdə rəqabət üstünlükləri və rəqabətə davamlılıq yaradır.

İnnovasiya layihələrini nəzəri-praktiki cəhətdən təhlil edərkən onlara xas xüsusiyyətləri görmək olur. Təhlilçilər haqlı olaraq bildirir ki, qoyulan kapitalın orta çəkili dəyərinin seçilməsindən daha çox, pul axının hesablanması onların səmərəliliyini təyin edərkən, innovasiya layihələrinin idarə olunması konsepsiyasının ən vacib elementidir. Bununla yanaşı, innovasiya layihəsinin xalis pul axınının proqnozlaşdırılması bazar mühitinin marketinq tədqiqatlarından çox asılıdır.

İnnovasiya layihələrinin idarəetmə baxımından ən optimal metodu funksional metodudur. İdarəetmə prosesinin ən vacib elementləri isə görülən işlərə və aparılan əməliyyatlara görə daha dolğun təsvir olunma qabiliyyətidir. İnnovasiya layihələrinin menecmenti yaxşı nəticəylə sınaqdan keçmiş və elmi, praktiki olaraq göstərilən prinsiplərin məcmusuna əsaslanmalıdır. Həmin prinsiplər aşağıdakılardır:

**-Seçmə idarəetmə prinsipi.** Bu prinsipin mahiyyəti elm və texnologiyanın inkişafının ən prioritet sahələri üzrə innovasiya layihələrinin dəstəklənməsidir, o cümlədən hərtərəfli layihələrin müəllifi kimi innovatorların ünvanlı dəstəyidir. Bura həmçinin birçox layihərin müəllifi kimi innovatorların ünvanlı dəstəyi aiddir.

**-Layihələrin hədəfə alınma prinsipi.** Bu prinsipin əsas məzmunu son məqsədə çatmaq üçün layihələrin hədəfə alınma prinsipidir. Layihənin ehtiyacları ilə həyata keçirilmə ehtimalı arasında əlaqə yaratmaqdır.

**-İnnovasiya layihəsinin iyerarxik təşkili prinsipi.** Bu prinsip layihə məqsədlərinin şaquli şəkildə uyğunlaşdırılması kimi qəbul edilməlidir. Burada innovasiya prosesinin və innovasiya layihəsinin idarə olunması prosesində iyerarxiyanın müəyyən bir səviyyəsinə uyğun müxtəlif səviyyəli detallarla təmsil etmək niyyətidir. Bütün səviyyələrdə fəaliyyət bir-biriylə uyğunlaşır.

**-Dəyişkənlik prinsipi.** Layihə yaratmaq üçün idarəetmə qərarlarını seçərkən bu prinsipdən istifadə edilir. Bu prinsip layihə üçün bütün mümkün alternativləri nəzərdən keçirmək və ən optimal variantı seçməkdən ibarətdir.

**-Ardıcıllıq prinsipi.** Bu prinsip layihənin təşkili və həyata keçirilməsi üçün bütün tədbirlərin hazırlanmasına əsaslanır. Bu vəziyyətdə təşkilatı, inzibati, sosial, texniki, iqtisadi amillər nəzərə alınmalı və bu amillər xarici mühitə münasibətdə nəzərə alınmalıdır.

**-Layihənin idarəetmə dövrünün tamlığı prinsipi.** Belə prinsip layihə elementlərinin bir sistemi kimi yaxınlını əks etdirir. İdarəetmə prosesinin tam dövrü bütün qərarların məcmusunu gözləyir. Nəyisə aşkarlananda əldə edilmiş nəticələrin ötürülməsini idarə etmək lazımdır.

**-İnnovasiya layihəsinin idarəedilməsinə mərhələli yanaşma prinsipi.** Bu prinsip layihənin formalaşması və həyata keçirilməsinin hər mərhələsinin tam dövrünün təsvirini ehtiva edir.

**-Çoxsaylılıq prinsipi.** Bura hər hansı bir qərarı seçərkən qarşılaşacağımız bir çox variantın olduğunu göstərir.

**-Sistematiklik prinsipi.** Bu prinsipə layihənin həyata keçirilməsi üçün tələb olunan təşkilati, iqtisadi, inzibati, qanunvericilik kimi tədbirlərin məcmusu daxildir. Bütövlükdə ölkənin inkişafı ilə əlaqəli konsepsiyanın qarşılıqlı əlaqəsi mənasını verir.

**-Mürəkkəblilik prinsipi.** Bu o deməkdir ki, alt məqsədlərə nail olmağı təmin edən layihə quruluşunun ayrıca bir-biri ilə əlaqəli elementləri bir layihənin ümumi məqsədinə uyğun olaraq hazırlanmasıdır.

*Qaffarova Gözəl Əziz qızı, magistrant*
*Bakı Biznes Universiteti*

## OĞUZ RAYONUNUN SAHİBKARLIQ STRUKTURLARINDA MƏHSUL İSTEHSALININ RƏQABƏTQABİLİYYƏTLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Sahibkarlıq fəaliyyəti bazar təsərrüfatının mühüm aparıcı qüvvəsidir. Sahibkarlıq fəaliyyətinin əsas subyekti sahibkardır. Bu gün sahibkar dedikdə, müxtəlif cür təriflər verilir. Ümumi olaraq desək, sahibkar iqtisadi yaradıcı, təşkilatı qabiliyyətlərə, mürəkkəb bazar konyunkturası şəraitində düzgün qərar qəbul etməyə, ağıllı risk etməyə qadir olan, iqtisadi fəaliyyəti həyata keçirən insandır. Sahibkarın son məqsədi onun gəlirləri ilə ölçülür.

Sahibakarın öhdəliyinə bir neçə funksiya düşür. Bunlara aşağıdakıları aid edə bilərik.

1. Sahibkar əmək, təbii, investisiya kimi resursları bir yerə cəmləyir.
2. Sahibkar iqtisadi fəaliyyətin ən mühüm məsələləri üzrə qərarlar qəbul edir və həyata keçirir.
3. Sahibkar yeniliklərin axtarışındadır.
4. Sahibkar daim risk edir.

Ümumilikdə sahibkarlığın iki formasını müqayisə etmək olar ki, bunlardan da birincisi innovasiya sahibkarlığı, ikincisi isə xalis bazarda sahibkarlıqdır.

Həm ümumilikdə ölkədə həm də ayrı-ayrı regionlarda sahibkarlıq strukturlarında məhsul istehsalının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi qarşıda duran əsas məsələlərdəndir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması sahibkarlıq strukturlarının rəqabətqabiliyyətliliyinin təmin olunmasından bilavasitə asılıdır.

Sahibkarlıq strukturlarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi probleminin öyrənilməsi ölkəmizdə və xarici ölkələrdə alimlərin diqqət yetirdiyi məsələlər sırasındadır. Ölkəmizin iqtisadçı alimlərindən Z.Ə. Səmədzadə, İ.H. İbrahimov, G.Ə. Gənciyev, V.M. Niftullayev, Q.N. Manafov, A.A. Nadirov, Ş.H. Hacıyev və başqaları öz əsərlərində sahibkarlıq strukturlarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələlərini işıqlandırmışlar. Xarici ölkə iqtisadçılarından isə Y. V Serova, N. A. Popov, A. N. Syomin, K. V.Baldin, J.Y. Bıkov, Jan Jak Lamben və s. misal çəkə bilərik.

Sahibkarlıq haqqında ilk elmi fikirlərə fransız iqtisadçısı R.Kantilionun əsərlərində rast gəlinir, elm aləminə “sahibkarlıq” anlayışını kimi məhz R.Katilion gətirmişdir. Ona görə sahibkar, müəyyən bir məhsul istehsal etmək və satmaq üçün məlum qiymə-

tə istehsal vasitələri alan, xərclər üzrə öhdəlik götürən, lakin nəticənin hansı qiymətlə reallaşacağını bilməyən adamdır.

J.B.Sey isə belə hesab edirdi ki, nemətlərin istehsalı və bölgüsündə mərkəzi fiqur sahibkardir. O, sahibkarlığı istehsal vahidi daxilində insanları mütəşəkilləşdirən, səfərbər edən fəaliyyət kimi izah edir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektini istehsal amillərinə, yəni torpaq, kapital və əmək amillərinin qarşılıqlı əlaqələrini şərtləndirən iqtisadi məsələlərə üstünlük verirdi.

Jozef Şumpeter sahibkarlığı yeni yollar axtarışında olan, yeni kombinasiyalar həyata keçirən sahib kimi görür. J.Şumpeterə görə sahibkar maddi nemət istehlakçısına tanış olmayan, yaxud əvvəlkindən yaxşı keyfiyyətdə bir şey, yada sənayedə tətbiq olunmayan yeni istehsal üsulu yaradıcısı, yeni bazar tutan və ya əvvəlkini daha geniş şəkildə, habelə yeni xammal və ya yarımfabrikatlar istifadə edən, işin təşkilinə yeniliklər gətirən adam kimi çıxış edir.

Sahibkarlıq strukturlarında məhsul istehsalının artırılması ilə bağlı həllini gözləyən bir sıra problemlər mövcuddur. Bu problemlərə istehsalın hələ də ekstensiv əsaslar üzərində qurulmasını, məhsulun satılmasında qarşıya çıxan çətinlikləri və. s aid edə bilərik. Məhz bu problemlərin aradan qaldırılması sahibkarlıq strukturlarında məhsul istehsalının rəqabətqabiliyyətinin yüksəldilməsi yollarının təkmilləşdirilməsini tələb edir.

Ölkəmizdə qarşıya qoyulmuş iqtisadi siyasətin əsas prioritetlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Bu sahədə mütəmadi olaraq tədbirlər həyata keçirilir. Sahibkarlığa dövlət dəstəyinin artırılması, dövlət sahibkarlıq münasibətlərinin inkişafı kimi bir çox tədbirləri misal göstərmək olar. Sahibkarlıq subyektlərinin qeydiyyatında "bir pəncərə" prinsipinin tətbiqi bu sahədə mühüm irəliləyişlərə səbəb olmuşdur. Bundan başqa sahibkarlara güzəştli kreditlərin təqdim edilməsi nəticəsində sahibkarlıq subyektlərinə verilən kreditlərin ümumi həcmi artmışdır.

Sahibkarlığa göstərilən dövlət dəstəyi tədbirlərinin nəticəsində, son zamanlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında artım müşahidə edilir. Ölkə daxilində və xaricində həyata keçirilən iqtisadi tədbirlər, o cümlədən sərgilərdə və bir sıra tədbirlərdə sahibkarların iştirakı təmin olunmaqla onlara öz məhsul və xidmətlərini nümayiş etdirmək imkanları yaradılır ki, bu da öz növbəsində həmin sahibkarların istehsal etdiyi məhsul və xidmətlərin satışının dəstəklənməsinə xidmət edir.

Bu istiqamətdə həm ölkə daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, keçirilir. Bu tədbirlərin keçirilməsi nəticəsində ölkənin biznes mühitinin və iqtisadi potensialının təbliği, yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baş verir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər ölkə iqtisadiyyatı üçün çox əhəmiyyətlidir. Bu investisiya qoyuluşunun artmasında, sahibkarlar arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə öz müsbət nəticələrini göstərməkdədir. Ölkəmizdə həyata keçirilən biznes forumlar da çox əhəmiyyətlidir. Burada yerli iş adamları tanıdılir, məhsulların xarici bazarlara çıxarılması təmin edilir.

## Ədəbiyyat siyahısı:

1. Alıyev.İ.H. Aqrar islahatlar şəraitində sahibkarlıq mühitinin formalaşmasının sürətləndirilməsi yolları. Bakı, 1999.

2. Əlirzayev.Ə.Q. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli

yolları –nəzəriyyə və təcrübə. Bakı. 2000
3. Gənciyev.G.Ə., Kərimov Ç.H. Sahibkarlığın əsasları.Mühazirə toplusu.Bakı. 1999.
4. İbrahimov.İ.H. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı.2010.
5. İbrahimov.İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı. 2005.
6. İbrahimov.İ.H. Aqrar islahatları və sahibkarlığın inkişafı. Bakı. 2005.
7.Quliyev.E.A. Aqrar iqtisadiyyat. Bakı. 2015.
8. Manafov.Q.N. Sahibkarlığın nəzəri və praktiki məsələləri. Bakı. 1997.
9. Niftullayev.V.M. Sahibkarlığın əsasları.Bakı. 2002.
10. Salahov. S.V. Sahibkarlığın inkişafında dövlət strukturlarının rolu. Bakı. 2001.

*Qəmbərov Cəbrayıl Rafael oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCAN İQTİSADİYYATI İNKİŞAF YOLLARINDA

Dünyada 1980-ci illərin ortalarından başlayaraq davam edən sosial və siyasi proses, SSRİ-nin dağılması, komunist partiyasının tarix səhnəsindən çəkilməsi və ittifaq üzvü respublikaların hər birinin müstəqil bir dövlət olmaları ilə nəticələndi. Dünyanın ən qədim ticarət və mədəniyyət mərkəzlərindən biri olan, 86.6 min kvadrat kilometr ərazisi və 10 milyona yaxın əhalisi ilə Cənubi Qafqazın şərqində Xəzər dənizinin sahilində yerləşən Azərbaycan ilk müstəqilliyini qazanan ölkələr arasında idi. 18 Oktyabr 1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdi. Beləliklə, müstəqil bir dövlət olaraq Azərbaycan XX əsrin sonlarında tarix səhnəsində, beynəlxalq, iqtisadi və siyasi münasibətlərdə balanslaşdırıcı bir ölkə ünsürü olmağa başladı. Bu xüsusiyyət Azərbaycanın zəngin təbii sərvətləri və geopolitik mövqeyindən qaynaqlanmaqdadır. Şimaldan Rusiya, cənubdan İran kimi dövlətlə sərhəd olan Azərbaycan, eyni zamanda Türkiyə vasitəsi ilə Qərbə meyilli siyasi və iqtisadi inkişaf kursu həyata keçirməkdədir. Bu siyasət bəzən qonşu dövlətlərin regionla bağlı bəzi münaqişə və mübahisələrlə müşahidə olunur. Keçid dövrü yaşayan Azərbaycanın iqtisadi inkişafını həyata keçirərək, siyasi müstəqillik və stabilliklə yanaşı, iqtisadi müstəqillik və stabilliyə də tam olaraq nail olması vacib idi. Bunun üçün keçid dövrünü yaşayan digər ölkələrdə olduğu kimi, siyasi və sosial olduğu qədər, iqtisadi olaraq da qarşılaşılan problemlər aradan qaldırılmalı idi. Qarşılaşılan problemlər daha çox struktur xarakter daşıdığından, əvvəlcə ölkə iqtisadiyyatının özünü sərbəst idarə edə biləcəyi şəkildə yenidən qurulması lazım idi. Amma bütün bunlara baxmayaraq ölkəmizdə uğurlu siyasət nəticəsində müstəqilliyimizin iyirmi beş ildən artıq müddəti ərzində qurulmağa çalışan iqtisadiyyatımızın hər il uğurlu inkişafı müşahidə olunmuşdur. Bu inkişaf hər ildə də davam etməkdədir. Yeraltı ehtiyatlar baxımından zəngin bir potensiala sahib olan Azərbaycanın, iqtisadi cəhətdən əsas zənginliyi, istehsalı, digər ehtiyatlara görə birinci yerdə olan enerji qaynağı olan neft və təbii qazdır. Keçid dövründə dövlətin müdaxiləsi olmadan, sərmayə yığımına nail olmaq və sərmayənin ən məhsuldar sahələrə istiqamətləndirilməsi həyata keçirilə bilməz. Bu səbəblə stabilliyi əldə etməkdə sərbəst bazar iqtisadiyyatındakı

“görünməz əl” ilə yanaşı, ikinci bir “əl” olaraq dövlət də iqtisadiyyatda rol almaqdadır. İqtisadi qərarları qəbul etmə və həyata keçirmə baxımından əhəmiyyət kəsb edən siyasi stabillik, Azərbaycanda Ümumilli Lider Heydər Əliyevin iqtidara gəlməsiylə əldə edilmişdir. Azərbaycandakı güclü iqtidar, iqtisadi inkişafin reallaşması üçün önəmli qərarlara imza atmışdır. Bu kurs 2003-cü ildən onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam edilməkdədir. Sovet İttifaqının dağılmasından sonra Azərbaycan, imzaladığı müqavilələrlə həm siyasi müstəqillik, həm də iqtisadi inkişaf və müstəqillik baxımından tarixi bir fürsətdən istifadə imkanı əldə etmişdir. Heç təsadüfi deyildir ki, Azərbaycanın struktur islahatlarının həyata keçirilməsində ən əhəmiyyətli ünsür olan enerji ehtiyatları ilə əlaqədar önəmli müqavilələr də bu dövrdə imzalanmışdır. Neft müqavilələrində nəzərdə tutulan sərmayə qoyuluşu təxminən 60 milyard dollardır. Neft sektorundan əldə edilən gəlirlər isə, keçən dövr ərzində, bəzi sosial və iqtisadi problemlərin həllində mühüm rol oynamışdır. Respublikada yaradılan əlverişli iqtisadi mühit, o cümlədən, bu sahənin inkişafı üçün dövlət tərəfindən yaradılan optimal hüquqi-normativ bazanın formalaşdırılması nəticəsində, potensial investorların ölkəmizin neft və qeyri-neft sektorunun inkişafına yönləndirdikləri investisiyaların həcmində günbəgün artım müşahidə olunur. Bu artım təkcə özünü nəzəri cəhətdən deyil, həm də praktiki statistik göstəricilərdə də aydın şəkildə büruzə verir. Son proqnoz göstəricilərini nəzərə alsaq, görərik ki, 20 sentyabr 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi”nin bir hissəsini təşkil edən BTC boru kəmərinin istismarı nəticəsində özünün ən sürətli müddətini yaşamışdır. 1994-2017-ci illər ərzində BTC boru kəmərindən xeyli gəlir əldə olunmuşdur. Neftin 1 barrelinin 30-60 dollar olacağı təqdirdə layihənin son tarixlərinə qədər, yəni 2029-2030-cu illərə qədər bu sahədə götürülən ümumi gəlir həcminin 120-140 mlrd. ABŞ dollarında olması proqnozlaşdırılır. Bütün bunlarla yanaşı iri rəqəmlərdə istifadə olunan neft gəlirlərinin istifadə onun əldə olunmasından daha vacib və aktual məsələdir. Əgər neftin tükənən sərvət olduğunu və paralel olaraq yaxın 40-60 illərdə ölkədə yeni yataqlarının tapılmaması təqdirdə onun tamamilə tükənmə təhlükəsi ilə qarşı-qarşıya qaldığını nəzərə alsaq, onda bu gün büdcəmizə daxil olan hər neftgəlirindən düzgün və məqsədyönlü şəkildə istifadə potensialı sahələrin dirçəlməsinə sərf edilməsi ən əsas vəzifə kimi qarşımızda durmaqdadır. Azərbaycanın yerləşdiyi əlverişli coğrafi, mövqeyi və təbiət şəraiti, zəngin yeraltı və yerüstü sərvətləri burada xalq təsərrüfatının istənilən sahəsinin formalaşdırılması və inkişafına geniş zəmin yaradır. Hazırda mütəxəssislər tərəfindən Azərbaycanın inkişafına daha çox diqqət yetirilməli, prioritet sahələrinin sənaye, ticarət və xidmət, tikinti, nəqliyyat, rabitə sahələri kimi təsnifləşdirilməsi heç də təsadüfi deyildir. Ümumiyyətlə, sahəvi təhlil nəticəsində yuxarıda göstərdiyimiz başlıca sahələrin hazırki və perspektiv inkişaf xarakteri daha maraq doğurandır. Belə ki, Azərbaycanın inkişaf potensialı qeyri-neft sənaye sahələri içərisində maşınqayırma və metal emalı sənayesi, elektroenergetika, elektronika, yüngül və yeyinti, turizm sənayesi və son zamanlar inkişafına xüsusi diqqət yetirilən və bizim üçün heç də ənənəvi olmayan kosmik sənaye sahəsinin inkişafı hazırki iqtisadi inkişaf tempi üçün daha məqsədə uyğundur. Bunlardan əhəmiyyət sırasına görə kənd təsərrüfatı, turizm, energetika, maşınqayırma və metal emalı sənayesi, yeyinti və yüngül sənaye sahələridir. Başqa bir perspektiv inkişaf potensialı qeyri-neft sektoru kimi turizm xüsusən vurğulanmalıdır. Son statistik göstəricilər də bu sahədə ciddi irəliləyişin mövcud olduğunu ifadə edir. Belə ki, perspektiv vəd edən sahə kimi

insan kapitalının inkişafına yönəldilmiş müxtəlif fəaliyyətlərdir. Müasir dövrdə ölkələrin mövqeyi intellektual potensiala müəyyən olunub. ÜMM-nın artımının 40 %-ə qədərini inkişaf etmiş ölkələr effektiv təhsil sisteminin inkişafı hesabının əldə edirlər. Təhsilin inkişafına qoyulmuş investisiyaların inkişaf kapitalına qoyulan sərmayenin əsas istiqamətlərindəndir. Ümumiyyətlə, təhsilin inkişafına qoyulan investisiya iqtisadi nöqteyi nəzərdən özünü daha tez doğruldur. Amerika alimlərinin hesablamalarına görə təhsil sisteminə çəkilən 1 dollarlıq xərc, 3-6 dollara qədər gəlir əldə etməyə imkan verər. Ona görə də mahiyyət etibarı ilə iqtisad və sosial inkişafın tərkib hissəsi olmaqla cəmiyyətin məhsuldar qüvvələrinin formalaşdırılmasında iştirak edən və insanın özünün davranışına zəmin yaradan təhsil sahəsinin davamlı inkişaf etdirilməsi vacibdir. Azərbaycanda yaşlı əhalinin savadlılıq əmsalı, xüsusilə, orta və ali təhsilli işçilərin sayı, 10.000 nəfərə düşən tələbələrin sayı, müəllimlərin sayı və s. göstəricilər ölkəmizin hələ ki, savadlılıq səviyyəsi yüksək ölkələrdən biri olduğunu təsdiqləyir. Təhsil sahəsi ilə yanaşı insan kapitalının formalaşmasında elmin də böyük yolu vardır. İllər üzrə statistikaya əsasən Azərbaycanda elmə ayrılan vəsaitin həcmi hər il ortalama 2.3 mln artmaqdadır. Bu baxımdan elmə ayrılan vəsaitlərin insan kapitalının inkişafı, başqa sözlə, yüksək ixtisaslı kadrların hazırlanmasına və xarici ölkələrdə kadrların potensiallılıq səviyyəsinin artmasına müsbət təsirini göstərməkdədir. Nəticədə onu vurğulamaq yerinə düşər ki, müasir inkişaf pirinsiplərinə görə inkişaf etmiş dövlət elə bir dövlətdir ki, o, özünün bütün iqtisadi-sosial və mədəni-ictimai sferalarında maksimum tərəqiyyə nail olsun. Bu prinsipi əlində rəhbər tutan ölkələr bu yolda tez-tez ciddi siyasi və iqtisadi manelərlə qarşılaşır. Lakin bu ünsürlər iqtisadi inkişafın nişanələridir. Mühüm olan isə belə çətinliklərdə büdrəməmək üçün düzgün inkişaf strategiyası seçməkdir. Mövcud reallıqlara əsaslanaraq demək olar ki, seçilmiş inkişaf strategiyası heç bir çətinliyə baxmayaraq inkişaf etmiş və güclü Azərbaycana doğru inamla aparır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi-2016.
2. İbad Abbasov, Təbriz Əliyev – "Qeyri Neft Sənayesinin İqtisadiyyatı" Bakı 2018.267 s
3. Wikipedia.com

*Мамедова Бановша Мехрали, магистрант,*
*Бакинский Университет Бизнеса*

## МАРКЕТИНГ В РОЗНИЧНОЙ ТОРГОВЛЕ

Традиционно в розничной торговле (ритейле) доминирует классическая форма реализации товаров, торговля офлайн, ее еще называют розничной торговлей через стационарные торговые объекты, о которой пойдет речь в данной работе. Помимо товаров, офлайн могут реализовываться и услуги. Маркетинг, так или иначе, причастен ко всем этим видам деятельности, при этом трактуется это по-разному, но сложность самих маркетинговых операций налицо. В усло-

виях постоянных перемен, происходящих на рынке ритейла, нам необходимо рассмотреть более подробно, для полного понимания, вопрос о том, что собой представляет маркетинг в ритейле. Маркетинг как комплекс является основой принятия решений субъектом хозяйственной деятельности, способом их упорядочения и систематизации. Комплекс маркетинга состоит из набора маркетинговых инструментов, которые при различном совокупном использовании направляют усилия маркетинга компании на целевом рынке в векторном направлении. Комбинация инструментов маркетинга подбирается таким образом, чтобы их воздействие в рамках определенной цели было оптимальным. Комплекс маркетинга в разных сферах экономики претерпевает определенные изменения, которые связаны с их особенностями. Изменчивость маркетингового комплекса отражает его пластичность в маркетинговом подходе к решению конкретных задач и проблем компаний, разработке и достижению поставленных целей. Все это предопределяет неизбежность трансформации традиционных элементов маркетингового комплекса и приводит к возникновению его новых составляющих. Розничная торговля является старинным видом деятельности, однако, в связи с развитием общества, изменением рынка возникает необходимость в существенном развитии технологий и существующих подходов к данной сфере деятельности. В ритейл входят все виды деятельности, которые связаны с маркетингом и распределением товаров и услуг. Получается, что маркетинг имеет ключевое значение в любой операции розницы, так как для успешной деятельности ритейлера, ему необходимо правильно определить и удовлетворить запросы своих покупателей. Для успешности любые новые изменения необходимо подкреплять соответствующей маркетинговой стратегией. При разработке маркетинга в ритейле необходимо стремиться к тому, чтобы позиционирование любого предложения, в том числе его имидж, были основательно продуманы и взаимосвязаны логически. Основу позиционирования, как концепции, составляет позиция имиджа, качества и цены в определенной нише рынка. В указанной нише рынка ритейлер размещает свой бизнес, где он должен будет конкурировать с другими однотипными ему продавцами розничной торговли. Позиция, выбранная ритейлером, должна восприниматься покупателем четко и однозначно. А конкретно выбранная рыночная позиция ритейлера должна обеспечить ему определенное преимущество, либо как компании, отличающейся в восприятии покупателей от конкурентов, либо как компании, идентифицирующийся за счет предоставления конкретного набора услуг. Данный подход может повлиять на создание положительного имиджа компании у покупателей. Рынок розницы уже достиг своей зрелости, что привело к активной разработке и применению определенных схем, позволяющих выстраивать лучшие коммуникационные отношения с покупателями, направленные на взаимодействие. Общепризнанно, что данные маркетинговые схемы способствуют уменьшению расходов в долгосрочной перспективе за счет удержания имеющихся клиентов. Таким образом, получается, что в настоящее время развитие маркетинга в розничной торговле связано с формированием лояльных покупателей. Слова маркетинг и продажа, как очевидно, не явля-

ются синонимами. Продажа сосредоточена на потребностях продавца, а маркетинг — на потребностях покупателя. Причем продажа направлена на то, чтобы обменять товар продавца на деньги покупателя, а маркетинг на удовлетворение потребностей покупателя с помощью товара и целого комплекса вещей, который связан с его производством, доставкой и конечным потреблением [1]. В вопросе о том, что собой представляет торговый маркетинг, по сей день нет однозначного ответа. Так Ламбен Ж.Ж. считает, что о торговом маркетинге идет речь во время стадии взаимодействия производителя и продавцов, как оптовых, так и розничных [2]. Причем ритейлеры в данном случае рассматриваются как единственные клиенты, а не как конкуренты или партнеры в процессе сбыта. В данном случае торговый маркетинг ограничивается в своем применении между производителем и магазином. По мнению Морриса Р., торговый маркетинг является частью единой структуры маркетинга предприятия — производителя, основная цель которого обеспечение сильных позиций бренда на рынке и проталкивание своего товара к потребителям через торговые сети [3]. Здесь маркетинг используется в контакте между производителем и конечным покупателем. Профессор Данько Т. П. считает по-другому. Он полагает, что торговый маркетинг представляет собой деятельностную позицию субъектов рынка, которые осуществляют качественное продвижение товаров и услуг до конечного потребителя [4]. Как очевидно, среди недостатков данного определения - не конкретизированная характеристика субъектов и объектов в торговом маркетинге, что ведет к необоснованному расширению понимания данного понятия и его применения. Амблер Т., выражаясь о торговом маркетинге как о фазе в потребительском, приводит определенные разграничения, считая, что в некоторых случаях услуги по розничной торговле предоставляются непосредственно оптовиками или даже САмими производителями [5]. Т.е. в данном ключе торговый маркетинг является частью потребительского маркетинга.

Некоторые исследователи, например, Никишкин В. В., придерживаются другого мнения, считая, что торговый маркетинг заключается в приложении инструментария маркетинга к конечным покупателям со стороны ритейлеров, которые являются субъектами торгового маркетинга [6]. Наиболее точное определение, с которым мы согласны, дала Брижашева О. В. По ее мнению, «... торговый маркетинг — это маркетинг розничных торговых услуг, включающий закупку товаров предприятием розничной торговли и формирование товарного ассортимента в соответствии со спросом покупателей (конечных потребителей), организацию торгового процесса и обслуживания населения, предоставление информации потребителям и внутримагазинную рекламу, оказание дополнительных торговых услуг» [7]. Ритейлерам для успешного функционирования на рынке по оказанию торговых услуг, необходимо при принятии решений как стратегических, так и оперативных применять комплекс маркетинга, который помог бы сформировать «формулу магазина», а также структурировать области принятия решений. Решения руководства ритейлера, принимаемые в области маркетинга, имеют своей целью привлечение как можно большего числа

покупателей, увеличение суммы среднего чека и формирование лояльных к нему покупателей. Достигается это благодаря созданию «конечного торгового продукта», так называемой «магазинной формулы», которая отражает помимо реалиизуемого товарного ассортимента и сам торговый процесс по оказанию услуги [8].

Для привлечения внимания покупателей и интенсификации покупок розничные торговцы используют целый арсенал средств, связанный с **продвижением**. Особенность этого элемента комплекса торгового маркетинга связана с тем, что он используется прежде всего применительно к торговой услуге, а не какому-либо конкретному товару. Методы коммуникации с покупателями подразделяются на платные (реклама, визуальное представление предлагаемого товара, личные продажи, стимулирование сбыта — специальные распродажи, презентации, премии, купоны, игры, конкурсы, лотереи) и бесплатные (связи с общественностью, молва или «реклама из уст в уста»).

Стоит отметить, что бесплатная устная реклама для магазина имеет особое значение. Как известно из проводимых исследований, один недовольный обслуживанием клиент делится своими впечатлениями и передает негативную информацию далее, затрагивая, согласно исследованиям, еще 16 человек. А затем эта цепочка «информированных» о неудачном посещении торговой точки разрастается дальше. Если говорить о мероприятиях по связям с общественностью, то важное место здесь занимают такие акции, как «день открытых дверей» и семинары для клиентов. Например, немецкое торговое предприятие Globus стало регулярно проводить «дни открытых дверей». В такой день покупатели могут, надев специальные белые колпаки и ботинки, совершенно беспрепятственно с экскурсоводом бродить по магазину и смотреть, что же происходит за кулисами их любимого торгового предприятия. Желающие обсудить работу розничного торговца и внести какие-то свои предложения могут принять участие в организованных семинарах.

Компании также необходимо изучать количество посещений магазина не только по количеству пробитых за день чеков, но найти взаимосвязи изменения количества покупателей с проведением рекламной кампанией магазина. Например, выявлять взаимосвязи влияния того или иного рекламного обращения на приток посетителей. Причем такие измерения необходимо проводить периодически, не менее 1 раза в месяц, с использованием статистических методов анназиза (влияния одного показателя на другой). Это позволит компании определить наиболее эффективные каналы коммуникации с потребителями и оптимизировать рекламный бюджет, так как при накоплении опыта донесения информации до потребителя с помощью различных носителей, компания в дальнейшем отберет те из них, которые дают наибольший эффект.

Необходимо определить, как потребитель принимает решение при выборе магазина. По какой схеме он действует. По какой схеме действуют постоянные клиенты. Необходимо изучать маршрут движения внутри магазина, уровень зрительного восприятия выложенных товаров и т.д., на которых основываются принципы мерчандайзинга. А для этого можно использовать, например, скрытые

методы видеонаблюдения, которые уже применяются в крупных городах специализированными маркетинговыми фирмами при проведении экспертизы магазина. Маркетолог предприятия должен изучать глубинные факторы, которые влияют на процесс совершения покупок и выбора магазина "XXX", изучение лояльности к бренду торговой сети. А для этого нужно применять методы маркетингового исследования, заимствованные из социальной психологии: проективные методы, фокус группы, глубинные интервью.

Необходимо выявить, как и в какой степени на выбор потребителем магазина влияет широта и качество ассортимента. Таким образом, маркетолог торговой сети может дать рекомендации товароведу.

Необходимо мыслить креативно, чтобы привлечь потребителей именно к себе. Дайте своим потребителям бесплатное. Люди любят бесплатные вещи. Они не будут против бесплатно получить ручку, кружку, футболку или еще что-то, пусть даже на предмете будет ваш логотип, слоган или название.

Специальная сувенирная продукция порадует вашего клиента, и даст рекламный эффект. Так что если бюджет на рекламу позволяет прибегнуть к использованию данного средства - не упускайте этой возможности. Вас должно быть много, как Microsoft во время рекламы своих операционных систем.

Устраивайте конкурсы - они всегда собирают огромное количество потенциальных потребителей. Вы теряете гораздо меньше, чем получаете – повышается популярность вашего бренда, у потребителей складывается к вам доброжелательное отношение. Только не забывайте о том, что все должно быть честно, вранье никто не любит, в том числе и потребители. Вариантов с конкурсами так же масса, все зависит от профиля компании и от целевой аудитории. Если вы продаете детские игрушки, устройте конкурс раскрасок или еще какой-нибудь, тем самым вы привлечете внимание детей и соответственно их родителей, которые будут совершать покупки.

**Список использованной литературы:**


1. Амблер Т. Практический маркетинг. СПб., 1999. С. 176. 6.
2. Брижашева О. В. Маркетинг торговли: учебное пособие. Ульяновск, 2007. С. 11. 8.
3. Иванова С. Потребности клиента и работа с ними /С. Иванова // Управление сбытом. - 2008. - №4-С.40-43
4. Ламбен Ж.-Ж. Стратегический маркетинг. Европейская перспектива. М., 1996. С. 438. 3. Моррис Р. Маркетинг: ситуации и примеры. М., 1996. С. 80. 4. Торговое дело: экономика, маркетинг, организация: учебник / под общ. ред.
5. Левитас А. Маркетинг и продажи в трудные времена /А. Левитас // Управление сбытом. - 2009. - №6-С.70-79.
6. Моррис, Р. Маркетинг: ситуации и примеры: пер. с англ. / Р. Моррис. – М.: ЮНИТИ, 1996. – 192 с.

*Mayılov Fariz Əkrəm oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

# ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİ XARAKTERİZƏ EDƏN GÖSTƏRICİLƏR SİSTEMİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Cəmiyyətin sosial-iqtisadi inkişafının ən vacib və əsas elementlərindən biri də həyat səviyyəsi və onun yüksək səviyyəsinin təmin olunmasıdır. Həyat səviyyəsi dedikdə, əhalinin və yaxud da insanların mənəvi, sosial və maddi tələbatlarının ödənilməsi məqsədilə maddi nemətlər, eləcə də xidmətlərlə təmin olunma səviyyəsi başa düşülür. Cəmiyyətin və əhalinin həyat səviyyəsi onun tələbatlarının ödənilməsinə sərf edəcəyi gəlirlərinin səviyyəsi ilə ölçülür. Başqa sözlə desək, həyat səviyyəsinin kifayət qədər yüksək olması üçün əhali yüksək gəlirlilik səviyyəsinə malik olmalıdır və əhali özlüyündə isə əldə etmiş olduğu bu gəlirləri digər zəruri tələbatlarının ödənilməsi istiqamətində sərf edir. əhali gəlirləri arasında qeyri-bərabərliyin olması, heç şübhəsiz ki, insanlar arasındakı həyat səviyyəsinin dəyişilməsi deməkdir ki, bunun da nəticəsində cəmiyyətdə sosial təbəqələşmə, daha dəqiq desək, “varlılar” və “kasıblar” kateqoriyaları yaranmış olur.

Əhali gəlirlərinin həcmi əhalinin maddi rifah halının əsas göstəricisidir. Bu səviyyə, yəni əhalinin gəlirlərinin səviyyəsi cəmiyyətin hər bir üzvünün təhsil alma, istirahət, gündəlik zəruri tələbatlarının ödənilməsi, sağlamlığının möhkəmləndirilməsi kimi imkanlarını müəyyən edir. Eləcə də, ailənin gəlirləri üzrə məlumatın ümumiləşdirilməsi ölkə iqtisadiyyatında mövcud vəziyyəti haqqında zəruri məlumat verir, həmçinin də onun gələcəkdə sosial və iqtisadi siyasətinin formalaşdırmasında mühim rol oynayır. Bu səbəbdən də əhalinin gəlirlərinin formalaşması və istifadəsi prosesləri müntəzəm olaraq tədqiq olunur.

Həyat səviyyəsinin mahiyyəti hər şeydən öncə istehlakla xarakterizə olunur. Belə ki, əhali gəlirlərinin düzgün bölüşdürülməsi, istifadəsi, eləcə də həcmi və quruluşu onların istehlakında mühim rol oynayan amilə çevrilir. Burada optimallığın qorunub saxlanılması istehlakın ümumi həcmi ilə yanaşı, onun struktur quruluşunda da son dərəcədə əhəmiyyətli rola malikdir. İstehlakın strukturu və orta səviyyəsi isə bir sıra amillərdən asılı olaraq müəyyən olunur. Sözügedən həmin amillər qrupuna aşağıdakıları misal göstərmək olar [7, s.21]:

- əhalinin yaş-cins tərkibi;
- gəlirlərin orta səviyyəsi;
- qiymət səviyyəsi;
- xidmət sferası və s.

Deməli onda istehlakın orta səviyyəsini təmin etmək üçün əhali gəlirlərinin mövcudluğu və düzgün bölüşdürülməsi və istifadəsi son dərəcədə əhəmiyyət kəsb edən anlayışdır. Məhz bu səbəbdən də gəlirlərin formalaşma mexanizminə və onun hərəkətinə nəzarət mexanizmini formalaşdırdığımız qədər də istehlaka önəm verməli və onun formalaşma xüsusiyyətlərini müəyyən etməliyik. əhalinin istehlakının həcminin müəyyən olunması və ödənilməsini təmin etmək üçün əhali gəlirlərinin səviyyəsinin müəyyən olunması xüsusi əhəmiyyət daşıyır. Belə ki. əhali öz gəlirlərinin səviyyəsinə uyğun olaraq istehlak prosesini formalaşdırır. Başqa sözlə desək, zəruri istehlak

səviyyəsinin təmin olunması halları istisna olmaqla, digər məhsulların, işlərin və yaxud da xidmətlərin istehlakı həcmi əhali gəlirlərinin həcminə uyğun olaraq müəyyənləşdirilir.

İqtisadi ədəbiyyatlarda həyat səviyyəsi anlayışına müxtəlif səpkilərdə münasibət formalaşdırılmışdır. Lakin qeyd etməliyik ki, həyat səviyyəsi yalnız əhalinin gəlirlilik və istehlak səviyyəsi ilə ölçülən anlayış deyildir. Əhalinin həyat səviyyəsini təmin edən əsas faktorlar qrupu mövcuddur. Həmin faktorlar qrupu aşağıdakılardan təşkil olunmuşdur [2].

- məişət və əmək şəraiti;
- asudə və iş vaxtının həcmi, eləcə də quruluşu;
- əhalinin təhsil səviyyəsi başda olmaqla digər mədəni göstəriciləri;
- əhali sağlamlığı və demoqrafik vəziyyəti.

"Həyat səviyyəsi" anlayışını iqtisadi kateqoriya kimi ilk dəfə olaraq Karl Marks müəyyən etmişdir. K.Marks iş qüvvəsinin dəyərindən danışarkən, xüsusi olaraq vurğulayırdı ki, iş qüvvəsinin dəyərini hər bir ölkədə, cəmiyyətdə mövcud olan həyat səviyyəsi müəyyən edir. K.Marks öz nəzəriyyəsində dəfələrlə vurğulayırdı ki, həyat səviyyəsi yalnız insanların gəlirlilik və zəruri istehlakının ödənilməsi ilə ölçülə bilməz. Eyni zamanda da həyat səviyyəsi yuxarıda qeyd etdiyimiz bəzi faktorları, o cümlədən də əhalinin təhsil səviyyəsi və digər mədəni davranışlarını, əhali sağlamlığı və demoqrafik vəziyyətini, asudə və iş vaxtlarının həcmi və quruluşunu, həmçinin də iş və əmək şəraiti kimi faktorları da əhatə edən bir iqtisadi kateqoriyadır.

Həyat səviyyəsi özünün göstəricilər sisteminin vasitəsilə əks olunur. Birləşmiş Millətlər Təşkilatının təklifinə əsasən, həyat səviyyəsinin əsas göstəriciləri aşağıdakı ardıcıllıqla təhlil olunur [7]:

- Həyat səviyyəsinin geniş göstəricilər sistemi;
- Səhiyyənin vəziyyəti;
- Təhsilin səviyyəsi;
- Orta ömür müddəti;
- Əhalinin məşğulluq səviyyəsi;
- Əhalinin alıcılıq qabiliyyəti;
- Siyasi həyata daxil olma.

***Mənbə: Julian Barnes. "Level of life". 9th Edition. 2015***

Hal-hazırda həyat səviyyəsini xarakterizə edən vahid ümumiləşdirilmiş bir göstəricilər sistemi yoxdur. Lakin 1990-cı ildən etibarən beynəlxalq miqyasda həyat səviyyəsinin müqayisə edilmə qabiliyyətinin formalaşdırılması məqsədilə Birləşmiş Millətlər Təşkilatlarında yeni, lakin xüsusi bir göstəricidən istifadə edirlər. Sözügedən göstərici "insanın inkişaf indeksi" kimi qəbul etdiyimiz "insan potensialının inkişaf indeksi"dir.

"İnsanın İnkişaf İndeksi" əhalinin maddi və sosial rifahını ümumi daxili məhsuldan daha geniş şəkildə özündə əks etdirir. "İnsanın İnkişaf İndeksi" insanın inkişafının üç əsas xarakterik xüsusiyyətinə görə fərqləndirilir. Həmin xarakterik xüsusiyyətlər aşağıdakılardan təşkil olunmuşdur:

- orta ömür uzunluğu əsasında müəyyənləşən uzun və sağlam ömür;
- böyüklər arasında təhsillilik, eləcə də ibtidai, orta və ali məktəblərdə, habelə

orta-ixtisas məktəblərində təhsil alanların ümumi sayı əsasında müəyyən olunan təhsil səviyyəsi;

- əhalinin gəlirləri və alıcılıq qabiliyyəti əsasında formalaşan layiqli yaşayış standartları.

“İnsan inkişaf indeksi” kifayət qədər müfəssəl, hərtərəfli ölçü vahidi deyildir. Belə ki, bu indeksə bəzi göstəricilər daxil edilmir. Həmin göstəricilər aşağıda verilmişdir [6., s.44]:

- gender bərabərliyi;
- gəlir bərabərsizliyi;
- insan hüquqları və eləcə də siyasi azadlıqların təmin olunması.

2009-cu ilə kimi “İnsanın inkişaf indeksi” göstəricilərinə əsasən dünya ölkələri 3 əsas kateqoriyaya bölünürdü. Belə ki, “İnsan inkişaf indeksi” göstəricisi reytinqində ilk 64 yeri tutan ölkələrdə həyat səviyyəsi yüksək, 64-cü sıradan 149-cu pilləyə qədər olan ölkələrdə orta, 150-dən aşağı yerləri tutan ölkələrdə isə həyat səviyyəsi aşağı olaraq dəyərləndirilirdi. Lakin 2014-cü ildən başlayaraq bu kateqoriya dünya ölkələrini dörd əsas qrupa böldü və birinci kateqoriyaya həyat səviyyəsi çox yüksək olan ölkələr qrupu əlavə olundu. Qeyd edək ki, Azərbaycan Respublikası “İnsan inkişafı indeksi” göstəricisində 78-ci pillədə qərarlaşmaqla həyat səviyyəsinin orta olduğu ölkələr reytinqindədir [7., s.49]

“İnsan inkişaf indeksinin” göstəricisinə əsasən, dünya ölkələri arasında həyat səviyyəsinin çox yüksək, yüksək, orta və zəif olduğu ölkələrin xəritəsi aşağıdakı şəkil vasitəsilə əhatəli şəkildə təhlil olunmuşdur. Qeyd edək ki, aşağıda verilmiş şəkil 2014-cü ilin “İnsan İnkişaf İndeksi” göstəricisi əsasında müəyyən olunmuş siyahıya əsaslanır [8].




***Şəkil 1. “İnsanın inkişaf indeksi”nin dünya ölkələri üzrə bölgüsü***

***Mənbə: World Bank, World Development Report 2019.***

"İnsan İnkişaf İndeksi" 0-1 intervalında qiymət alır. "İnsan inkişaf indeksi"nin hesablanma metodu aşağıdakı düsturla öz əksini tapmışdır:

Düstur 1.

$$x\ (indeks) = \frac{x - \max(x)}{\max(x) - \min(x)}$$

Burada: min(x) və max(x) təhlil aparılan ölkələr üzrə x indeksinin minimum və maksimum qiymətləridir.

Hər bir ölkənin "İnsan İnkişaf İndeksi" üç əsas kateqoriya üzrə müəyyən olunur. Həmin kateqoriyalara aiddir [7., s.69]

- Gözlənilən ömür müddəti indeksi (LEİ)
- Təhsil indeksi (Eİ)
- Gəlir indeksi (İİ)

Əhalinin sosial müdafiəsi mexanizmi sosial siyasətin mühüm elementini təşkil edir. Əhalinin sosial müdafiə siyasəti vətəndaşların. əhali qruplarının və eləcə də maddi rifah halı nəzərə çarpacaq qədər aşağı olan təbəqələrinin işsizlikdən və inflyasiyadan müdafiəsini təmin edə bilən dövlət siyasətidir. Dövlət tərəfindən tətbiq olunan tədbirlər kompleksinin əsas xüsusiyyəti əhalinin əmək fəaliyyəti və bunun nəticəsində də həyat səviyyəsinin ağırlaşmasının və eləcə də yoxsulluğun və işsizliyin qarşısının alınması ilə əlaqədardır. Yuxarıda qeyd etdiklərimizə əsaslanaraq deyə bilərik ki, əhalinin sosial müdafiəsinin əsas problemlərindən biri də yoxsulluqla mübarizənin aparılmasıdır. Müasir iqtisadi şəraitdə qiymətlərin sərbəstləşdirilməsi və eləcə də bunun nəticəsində inflyasiyanın artması əhalinin sosial təbəqələrinin yaşayış səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarır. Eyni zamanda da bunun məntiqi nəticəsi olaraq, əhalinin bütün təbəqələrinin və sosial qruplarının pulsuz təhsil alması və həmçinin də pulsuz səhiyyə xidmətlərindən istifadə etməsində müəyyən problemlər yaranmış olur. Beləliklə, bazar iqtisadiyyatı şəraitində əhalinin yalnız yoxsul təbəqələri deyil, eyni zamanda da digər təbəqələrinin də zəruri ehtiyacları artmış olur.

## Ədəbiyyat siyahısı:

1. Abbasov A.F. Yoxsulluğun qarşısının alınması dövlətin sosial təhlükəsizliyinin təmin edilməsinin faktoru kimi «Çoxmülkiyyətçilik şəraitində koopeorasiyanın inkişafının sosial-iqtisadi problemləri» elmi-praktik konfransın materialları Bakı 2002, «Kooperasiya» nəşriyyatı

2. Əliyev A.Ə., Qasımov N. Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəlməsinin aktual problemləri. Bakı, 2000,

3. Əşrəfova. R.S «Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasında sosial yardım sisteminin rolu», Himayədar jurnalı. Oktyabr 2005,

4. Quliyev C.B. «Müstəqillik illərində Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin dəyişilməsi meylləri və ona təsir edən amillərin qiymətləndirilməsti» İqtisadiyyat, Humanitar və ictimai elmlər seriyası, Xəbərlər 1- 2004,

5. Məmmədov İ.M. İstehlakın strukturu və seqmentlərinin modelləşdirilməsi məqalələr toplusu AMEA Xəbərləri Humanitar və ictimai elmlər seriyası İqtisadiyyat, 2006 №1 Bakı, Elm 2006.

6. World Bank, World Development Report 2019.

*Rüstəmova Günel Mahmud qızı, magistrant,*
*Bakı Biznes Universiteti*

# İDARƏETMƏNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ VƏ BANK SEKTORUNDA İDARƏETMƏ STRUKTURU

Bankların iqtisadiyyatın vacib halqası olmaqla onların mövcud inkişafa uyğun idarə edilməsi hər bir dövlət üçün vacib əhəmiyyət daşıyır. Hazırda bank sferasının idarə edilməsi bazar münasibətlərinin inkişaf tələblərinə cavab vermir, eyni zamanda çoxlu sayda bankların mövcudluğu və onların kapitallaşmasının səviyyəsi ilə bağlı problemləri nəzərə alsaq idarəetmənin təkmilləşdirilməsinin zəruriliyini aydın görmək olar. Bank sistemində idarəetmə iqtisadiyyatın, onun ayrı-ayrı sektorlarının və bazar infrastrukturunun inkişafında mühüm rol oynayır. Bank sisteminın inkişafı daxili yığımın mexanizmini fəallaşdırmağa imkan verir. Bazar münasibətləri bank sektoru tərəfindən ölkədə investisiya prosesini fəallaşdırmağa, əhalinin əmanətlərinin real sektorlara transformasiyasına real zəmin yaratmaqdadır. Odur ki, bank və bank xidmətlərinin idarəedilməsi və onun xüsusiyyətlərinin öyrənilməsi və təhlil edilməsi aktual məsələ olmaqla qarşıya mühüm vəzifələr qoyur.

Araşdırmalar göstərir ki, idarəetmənin formalaşması bir neçə mərhələni əhatə etməklə, inkişaf xüsusiyyətlərinə malik olmuşdur: qədim və orta əsrlər dövrü, sənayeləşmə dövrü, sistemləşmə dövrü, müasir dövr.

Qədim və orta əsrlər dövründə istər tayfa olsun, istərsə də qəbilədə idarəetmə onların təyin etdikləri rəhbər tərəfindən idarə olunurdu. Idarəetmənin mövcudluğunu sübut edən amillərə nəzər salsaq, Çin səddini, Babilistanasma bağlarını, Misir ehramlarını misal göstərə bilərik. Ümumiyyətlə, qədim dövrlərdə idarəetmə daha sadə olmuşdur. Sənayeləşmə dövründə XVIII-XIX əsrlərin sonlarında sənaye müəssisələrinin yaranması, daha sonra kiçik müəssisələrin böyük müəssisələrin tərkibində cəmləşməsi ilə bağlı idarəetmə daha da təkmilləşmişdir. Bu dövrdə yaranmış idarəetmə metod və prinsipləri daha mürəkkəb idarəetmənin təkmilləş-dirilməsi ilə xarakterizə olunurdu. Sistemləşmə dövrü elmi idarəetmənin yaranması və təkmilləşməsi ilə əlaqədar olmuşdur. İdarəetmənin sistemləşməsi onun prinsiplərinin, metodlarının, funksiyalarının tətbiqi ilə nəticələnmişdir. İdarəetmədə ilk elmi yanaşma 1911-ci ildə Fredrik Teylora aiddir. Idarəetmənin bir elm kimi tanınmasında F.Teylorun yazdığı "İdarəetmənin Prinsipləri" kitabının rolu böyük olmuşdur. Nəhayət, idarəetmənin formalaşmasının əsas dövrlərdən biri müasir dövrdür. Bu dövrdə sadaladığımız dövrlərlə müqayisədə ən mütərəqqi səciyyə daşıyanı və yeni texnologiyadan istifadə edərək idarəetməyə tətbiq olunduğunu görmək olar. Rabitə və kompüter texnologiyalarının istifadə olunaraq onların vasitəsilə bir çox idarəetmə funksiyaları yerinə yetirilir. Rabitə texnologiyası sayəsində informasiya ötürülür, kompüter texnologiyası vasitəsi ilə məlumatların saxlanılması, riyazi hesabların aparılması işi reallaşdırılır. Bütün bunlar bu dövrün əsas xarakteristikası kimi qiymətləndirilə bilər. Müasir dövrdə idarəetmə vaxta qənaət edilməsinə, görülən işin keyfiyyətinə və səmərəliliyinə birbaşa təsir edir.

İdarəetmənin formalaşması təcrübəsindən aydın olur ki, İngiltərədə baş verən məşhur sənaye inqilabı idarəetmənin sürətlə inkişaf etməsinə və təkmilləşməsinə

səbəb olmuşdur. Lakin, idarəetmənin inkişafında pik nöqtəsinə ilk dəfə XIX əsrdə Amerika(ABŞ) sayəsində çatmışdır. Başlıca səbəb Amerika yeganə ölkədir ki, burada insanlar milliyyətlə bağlı problem yaşamadan öz peşələri üzrə azad şəkildə məşğul olurlar. Həmçinin burada iri istehsal müəssisələri insanların rahatlıqla fəaliyyət göstərməsinə şərait yaratmışdır.

İdarəetmənin elm kimi inkişafında və formalaşmasında məktəblərin rolu danılmazdır. Araşdırmalar göstərir ki, idarəetmə məktəblərinin hər biri idarəetmənin formalaşmasında müəyyən təsirə malik olmuşdur.

- Elmi idarəetmə məktəbi (1888-1920). Bu məktəb məhz elmi idarəetmənin yaranmasının əsasının qoyulması ilə bağlıdır. Fredrik Uinslou Teylor elmi idarəetmə məktəbin banisi hesab olunur. Bu məktəbin nümayəndələri əl əməyinin təkmilləşdirilməsində təhlil, məntiq, ölçü, müşahidənin əhəmiyyətli rolu olduğunu qeyd edirlər. F.Teylor bir çox tədqiqatlar aparmış və nəticədə bir sıra prinsiplər müəyyənləşdirmişdir. Əməyin bölgüsü və ölçülməsi, işin icrasına görə təsviri, fərdi fəaliyyət kimi əmək, həvəsləndirmə, idarəetmənin rolu və inkişafı və s.
- Klassik inzibati idarəetmə məktəbi (1920-1950). Bu məktəbin məqsədi idarəetmənin təkmilləşdirilməsi yollarını araşdırmaqdan ibarət olmuşdur. Klassik və ya inzibati idarəetmə məktəbinin nümayəndələri bunun üçün ümumi xüsusiyyətləri, daha sonra isə qanunauyğunluqları müəyyən etməyə çalışmışlar. Bu məktəbin banisi Anri Fayol hesab edilir. Onu həmçinin "menecmentin atası" adlandırırlar. Bu məktəb nümayəndələri idarəetmənin funksiyalarını, metodlarını və prinsiplərini sistemləşdirmiş, eyni zamanda nizamlamış və son olaraq bu sahədə tətbiq etməyə çalışmışlar.
- İnsani münasibətlər məktəbi (1930-1950). Bu məktəbin əsası Elton Meyo tərəfindən qoyulmuşdur. Elton Meyo idarəetmə metodlarının maddi səmərəliliklə əlaqəli olduğunu hesab edirdi. İnsani münasibətlər məktəbinin əsas məqsədi əmək məhsuldarlığının yüksək olması üçün fərdi münasibətlərin idarə edilməsi, rəhbərlərin işçilərə daha qayğı ilə yanaşma tərzi əsas amillərdən aşkar etməkdir. Bu məktəbin nümayəndələri idarəetmə elminə insanlararası münasibət, həm fərdi , həmdə qrup davranışlarını, həvəsləndirmə kimi məsələləri gətirmişdilər.

İdarəetmə dövlət idarəetməsi və yerli idarəetmə olmaqla iki formada həyata keçirilir. Dövlət idarəetməsinin mühüm halqalarından biri banklardır. Hər bir bank səhmdarların ümumi yığıncağı, onların idarə edilməsinə və eləcədə Müşahidə Şurası, Audit Komitəsi və əsas İdarə Heyəti tərəfindən idarə olunur. Bank idarəedilməsi dedikdə mənfəəti artırmaq üçün bankla əlaqəli müxtəlif fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur. Fəaliyyətlər geniş mənada likvidliyin idarə edilməsi, aktivlərin idarə edilməsi, öhdəliklərin idarə edilməsi və kapitalın idarə edilməsi daxildir. Bank idarəetmə sistemini iqtisadi dünyadakı ən vacib amil olaraq qəbul etmək olar. Bank sektoru gündəlik həyatımızın lazım olan ehtiyacıdır. Son dövrlərdə qlobal maliyyə böhranının təsiri, milli tənzimləyicilərin daha sərt olan tələbləri, eyni zamanda hər bir bank rəhbərliyinin öz işini optimallaşdırmaq, sabit, daha sürətli və rəqabətli etmək istəyi nəticəsində bank sənayesi açıq desək, daima stressə məruz qalmışdır. Eyni zamanda, "adi qaydada" biznesin həyata keçirilməsi prinsipləri yersiz qiymətləndirilə bilər, çünki qısa zamanda iş prosesinin təkrar təşkil edilməsi, bazara yeni məhsulların təqdim olunması, yeni müştəri seqmentlərinin təkrar yönəldilməsi və müştərilərin yeni satış kanallarını mənimsəmək lazım ola bilər. Belə qərarların lazım olan vaxtda və düzgün şəkildə olması bank idarəetməsinin keyfiyyətini müəyyən edir. Çoxlu sayda

əməliyyatların aparılması ilə bağlı məlumatların toplanması, idarə olunan göstəricilərin hesablanması və nəticələrin zamanında təqdim olunmasına görə lazımi avtomatlaşdırmanın səviyyəsini təmin etmək üçün idarəetmə sistemininə xüsusi diqqət yetirilir.

Bank idarəetməsi çoxsəviyyəli quruluşa malik sistemdir. Müasir kommersiya banklarının yarıdan çoxu səhmdar cəmiyyətlər şəklində yaradıldığına görə ən yüksək idarəetmə orqanı onlarda səhmdarların ümumi yığıncağı sayılır. Bankda məhdud məsuliyyətli cəmiyyət şəklində yaradılan ali idarəetmə orqanı səhmdarların ümumi yığıncağıdır. Kredit təşkilatları sahiblərinin yığıncaqları qüvvədə olan nizamnamələrə və qanunlara uyğun şəkildə ildə bir dəfə keçirilir. Səhmdarların, səhmdarların yığıncaqları arasındakı bankın operativ idarə olunması, sahibləri tərəfindən seçilmiş direktorlar şurası tərəfindən reallaşdırılır.

Araşdırmalar nəticəsində belə qənaətə gəlirik ki, formalaşmaqda olan idarəetmə sistemi daha da təkmilləşdirilməli və hansı sahəyə tətbiq olunmasından asılı olmayaraq o sahənin inkişafına, onun gələcəkdə qarşıya qoyulan vəzifələr baxımından daha da təkmilləşdirilməsinə maraqlı olmalıdır. Banklar haqqında Azərbaycan Respublikasının Qanununa əsasən bank strukturunun idarəetməsi tənzimlənir. Ona görə də, bankların qarşısında duran əsas strateji hədəflərə uyğun idarəetməni təkmilləşdirmək üçün:

- Korporativ idarəetmə sistemlərinin təkmilləşdirilməsinin davam etdirilməsi;
- Marketinq və satış işinin təkmilləşdirməsinə önəm verilməsi;
- Məlumat texnologiyaları və məlumat axınlarının işlənməsi və hazırlanmasını idarəetmə tələblərinə uyğunlaşdırılması;
- Banka xarici investor cəlb edilməsi istiqamətində fəaliyyət göstərməyi və elektron bankçılığı inkişaf etdirməyi məqsədəuyğun hesab edirik.

### Ədəbiyyat siyahısı:


1. Qeybullayev Q. "İdarəçiliyin-menecmentin əsasları". Bakı, 2000
2. İmranov A.M. "Menecment" dərslik. Bakı, 2007. 268 s.
3. Məmmədov S., Abutalıbov R., Quliyev S., İsayev O., Yusifov M. - İdarəetmənin əsasları-Bakı 2009.
4. İdarəetmə təhlili- Yüzbaşev Çingiz-Bakı 2012
5. Məmmədov S. "İdarəetmənin əsasları". Bakı, 2009.
6. Sahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. "Menecment". Bakı, 2007, 1036 s.



*Sədrəddinova Aynur Kamran qızı, magistrant,*
*Bakı Biznes Universitetinin*


## BANKIN KREDİTLƏŞMƏ PROSESİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Diqqət mərkəzində olan mühüm məsələlərdən biri də kreditləşmə prosesində səmərəliliyin qiymətləndirilməsi və kommersiya banklarında müxtəlif kredit əməliyyatları üzrə səmərəli fəaliyyətin təşkilidir. Bu zaman banklarda müxtəlif əməliyyatlarda xüsusilə qeyd etmək istərdim ki, kreditləşmə üzrə səmərəliliyin qiymətləndirilməsində ən mühüm metodlardan biri də məhz kredit skorinqi hesab edilir. Belə ki, bu metod

banklar tərəfindən müstəqil formada hazırlanır, lakin hər bir bank tərəfindən ümumilikdə bankın özünün fəaliyyət sferası və eləcə də müştərilərin xüsusiyyətləri və bu istiqamətdə qanunvericilik və normativ aktları nəzərə alınır. Bir sözlə, səmərəliliyin qiymətləndirilməsində istifadə edilən bu metod istehlak kreditlərinin verilməsi zamanı nağd kreditləşmə prosesinin səmərəliyinin qiymətləndirilməsinə və risk dərəcəsinin müəyyən edilməsinə əlverişli şərait yaratmışdır. Bu metod kreditləşmə prosesi zamanı müştərinin kredit alması zamanı bankın təklif etdiyi ərizəni təhlil etməsinə imkan verirdi. Dünya təcrübəsinə əsaslanaraq Fransanı buna misal göstərə bilərik və Fransa banklarında kreditləşmə ilə bağlı müraciət edən müştərilərə kreditləşməni yerinə yetirib yetirməməsi ilə əlaqədar bankdan nəticəni onlara təqdim edirlər.

Ümumiyyətlə kreditləşmə prosesi zamanı səmərəliliyin müəyyən edilməsi və eləcə də qiymətləndirilməsi kommersiya banklarından kreditləşmə prosesinin icra edilməsi formasından bilavasitə asılı olaraq da dəyişir. Böyük Britaniyada bu istiqamətdə qısamüddətli kreditləşmədə əsas forma kimi o overdraftlardan istifadə etməsini misal olaraq qeyd edə bilərik. Bu forma kreditləşmənin qısamüddətli və keçici olması ilə şərtlənərək xüsusilə də aqrar bölmə üzrə fəaliyyət göstərən müəssisələrdə dövriyyə kapitalının maliyyələşdirilməsində əvəzsiz rol oynayır.

Xüsusilə vurğulamaq lazımdır ki, kreditləşmə prosesi bankın keyfiyyətli və eləcə də yüksək gəlirli kredit portfelinin təşkilində bank üçün ciddi bir işdir. Bir sözlə dəqiq təşkil edilmiş kreditləşmə prosesi məhz kredit riskini minimuma endirməyə şərait yaradır. Ümumiyyətlə bank sektorunda bütün risklər bir-birilə sıx surətdə bağlıdır. Demək olar ki, kredit riski bank fəaliyyətindəki bütün risklərin yaranmasına təkan verən amildir. Buna görə də bankın sağlam fəaliyyət göstərməsi birbaşa olaraq kredit prosesinin düzgün təşkil edilməsindən asılıdır. Kreditləşmə prosesi özlüyündə iki mərhələyə bölünür. Aydındır ki, birinci mərhələdə kreditin verilib-verilməməsini müəyyən etmək üçün müştərinin təqdim etdiyi kredit ərizəsi dəqiq təhlil edilməlidir və bundan sonra tərəflər arasında kredit münasibətinin tənzimlənməsi üçün kredit müqaviləsi imzalanır. Birinci mərhələ kreditləşmə prosesinin məsuliyyətli mərhələsi hesab olunur və bank bu mərhələdə kredit riskinin yaranmasının qarşısını almaq imkanına malik olur. İkinci mərhələdə isə bank verilmiş kreditin məqsədli istifadə edilməsi üçün borc alanın cari fəaliyyətinə nəzarət edir və banklar kreditləri, hüquqi şəxslərdə olduğu kimi, fiziki şəxslər arasında da təminatlılıq, qaytarılmalı, müddətlilik, ödəncilik prinsipləri əsasında yerləşdirirlər.

Ölkə iqtisadiyyatının inkişafında fiziki şəxslərin kreditləşdirilməsi əvəzsiz rola malikdir və bu rol daim artmaqdadır. Ölkədə istehsal olunmuş məhsulların daha tez satılmasında, əmtəə dövriyyəsinin sürətlənməsində əhalinin kreditləşməsinin xüsusi yeri vardır. Belə ki, əhalinin kreditləşməsinin artırılmasının makroiqtisadi səviyyədə inflyasiyanın və işsizliyin səviyyəsinin minimuma endirilməsinə, istehsalın inkişafına, son olaraq isə milli gəlirin artmasına müsbət təsir göstərməsi də danılmazdır. Bir sözlə, müəssisə, firma istehsal və ya təklif etdiyi hər hansı məhsul və xidmətlərin reallaşdırılmasını sürətləndirir və bununla da istehsalın inkişafında fasiləsizlik prosesini yaratmış olur. Bu da öz növbəsində toplanan vergilərin və son olaraq dövlət büdcəsinin gəlirlərinin artmasına təkan vermiş olur. Həmçinin əhalinin kreditləşdirilməsi ölkədə mənzil probleminin həllində əvəzsiz təsiri danılmazdır. Bildiyimiz kimi, xarici bank təcrübəsində əhaliyə təqdim edilən kredit növlərindən biri də məhz təhsil sisteminə verilən

kreditdir. Əhalinin kreditləşdirilməsi ölkənin sosial probleminin həllinə də müsbət təsir göstərir. Əhali istehlak və ipoteka krediti vasitəsilə həm özünün istehlak xarakterli ehtiyaclarını ödəmiş olur həm də ölkənin iqtisadi və sosial inkişaf durumunu yaxşılaşdırmış olur.

İnkişaf etmiş ölkələrdə fiziki şəxslərə verilən istehlak və ipoteka kreditləri digər kredit növlərinə nisbətən üstünlük təşkil edir və bu növdə kreditlər banklara gəlirlərini artırmağa imkan verir. İstehlak krediti kreditləşmənin ən sərfəli növlərindən biri hesab olunur, çünki istər-istəməz gələcəkdə bankların və bank xidmətlərinin idarə edilməsində mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, bu növ kredit əhalinin istehlak tələblərinin təmin edilməsinə istiqamətlənib və o, əmtəə və pul formasına malikdir.

Belə ki, istehlak krediti bahalı və riskli xarakter daşıyır və iqtisadi vəziyyətdən, həmçinin istehlakçının gəlirlərindən və təhsilindəndə birbaşa asılıdır. Məlumdur ki, istehlak krediti üzrə müəyyən olunmuş faiz dərəcəsi digər bank kreditləri ilə müqayisədə yüksəkdir, bunu isə ilk növbədə istehlak kreditinin "pərakəndə" xarakter daşıması ilə izah etmək olar. Ancaq dünya və yerli bank təcrübəsinə dayanaraq qeyd etməliyəm ki, əhali tərəfindən istehlak tələbatın ödəmək üçün həmişə bank kreditinə ehtiyac yaranır. Məlumdur ki, istehlak krediti də öz növbəsində qısamüddətli və uzunmüddətli olmaqla iki yerə ayrılır. İstehlak məqsədi ilə verilən kreditlər iki hissədən ibarətdir: birbaşa və dolayı. Belə ki, birbaşa kreditləşmə prosesi zamanı müqavilə birbaşa olaraq bank və müştəri arasında bağlanılır, dolayı istehlak krediti zamanı isə bank və müştəri arasında digər bir təşkilat vasitəçilik edir. Ticarət müəssisələrini, mağazaları, firmaları və s belə təşkilatlara misal göstərə bilərik. Xüsusilə vurğulamaq lazımdır ki, bu zaman kredit müqaviləsi müştəri ilə vasitəçi təşkilat arasında bağlanılır və ssuda isə bankdan alınır. Məlumdur ki, inkişaf etmiş ölkələrin bank təcrübəsində banklar daha çox dolayı istehlak kreditindən istifadə edirlər. Ona görə ki, kreditləşmənin bu növü banklara ilk öncə risklik səviyyəsini aşağı salmağa şərait yaradır.

Qeyd etmək lazımdır ki, ABŞ və digər qərb ölkələrində istehlak kreditinin istifadəsini tənzimləyən xüsusi hüquqi norma və qaydalar mövcuddur və ABŞ-da olan belə qaydalardan birini misal göstərə bilərik. Belə ki, bu qayda bank tərəfindən müştərinin kredit qabiliyyətinin müəyyən edilməsində ən əsas meyarları müəyyən edir. Bu qaydada müştərinin kredit qabiliyyəti bank sistemi vasitəsilə qiymətləndirilərkən müştəri haqqında informasiyanın bank tərəfindən necə istifadə olunması eyni zamanda müştəri haqqında hansı informasiyanın bank tərəfindən tələb oluna bilməsi və s. öz geniş əksini tapmışdır.

Müasir dövrdə ölkəmizdə yeni maliyyə xidmətlərinə marağın artması kreditlərin həcmində yeni kredit məhsullarının tətbiqini və eyni zamanda bu istiqamətdə kreditlərlə yanaşı, insanlardan, təhsilin və turizmin digər fəaliyyət növlərinin də kreditləşməsinə geniş şərait yaratmışdır. Yeni növ kreditlərin verilməsi ilə əlaqədar həmin kreditlər üzrə faiz dərəcələrinin nisbətən azaldılması və eyni zamanda müxtəlif dövrlər ərzində kreditin verilmə müddətinin uzadılması da kreditləşmə prosesi üzrə müsbət meyllərin müşahidə olunmasına səbəb olmuşdur.

Artıq ölkəmizdə kommersiya banklarında mühasibat uçotunun qaydalarını uzlaşdırmaq və eləcə də müvafiq olaraq maliyyə informasiyasını təqdim etmək məqsədilə beynəlxalq sferada banklar və müəssisələr üçün mühasibat uçotunun vahid beynəlxalq standartları müəyyən edilmişdir hansı ki, bu zaman beynəlxalq standartlara

əsaslanan fəaliyyətinin tənzimlənməsi zəruri hesab olunur. Bir sıra ölkələrdə hesabatların tərkibi, quruluşu və həmçinin hesabatın qaydası bundan cavabdeh olan orqanlar tərəfindən müəyyən edilir. Bu zaman isə hər hansı bir problem yaranarkən müvafiq orqanlar tərəfindən bankın şübhəli və ya riskli əməliyyatlarından qabaqcadan aşkar edir.

**Ədəbiyyat siyahısı:**


1. Z.Məmmədov Pul, kredit və banklar. Bakı, 2010.
2. R.A.Bəşirov, Bank işi. Bakı, 2007.
3. M.M.Bağırov, Bank və bank əməliyyatları . Bakı, 2003.
4. R.V.Əsgərova Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul kredit sistemi. Bakı, 2001.
5. A.M.Aslanov, Maliyyə və bank statistikası, Bakı, 2002.
6. D.Vəliyev Beynəlxalq Maliyyə, Bakı, 2000.



*Məmmədova Aynur Qabil qızı, magistrant,*
*Bakı Biznes Universiteti*


## GRAND AGRO MMC MÜƏSSƏSİ TİMSALINDA ZEYTUN MƏHSULLARI BAZARININ ARAŞDIRILMASI

Aparılmış araşdırmalara əsasən müəyyən olunmuşdur ki, zeytun bitkisindən alınan məhsullar insanların qida rasiyonun əsasını təmin edir və eyni zamanda zeytun bitkisinin tərkibində olan vitaminlər insanların sağlam qidalanması üçün çox vacib amil sayılır. Məhz buna görə də bir çox ölkələr zeytun bitkisinin geniş miqyasda əkilməsinə və ondan alınan məhsulların istehsalına, ixracına və idxalına xüsusi önəm verirlər. Zeytun bitkisi subtropik iqlim şəraitində yetişdirildiyinə görə onun ilk olaraq yetişdirildiyi ərazi Kiçik Asiya və Yunanıstan hesab olunur. İlk vaxtlar bu ərazilərdə becərilən bitkilər sonrakı dövrlərdə insanların diqqətini daha çox çəkərək digər ərazilərə Aralıq dənizi sahili ölkələrinə yayılmış və sonrakı mərhələlərdə isə Afrika, Amerika, Avstraliya gitələrinə aparılmışdır. Zeytun bitkisinin tarixi çox qədimdir. Keçmiş dövrlərdən bu günümüzə kimi gəlib çıxan mədəni bitkilərdən biri kimi zeytunun hazırki yayıldığı areal da çox genişdir.

Zeytun bitkisindən alınan məhsullar məişətdə geniş istifadə olunur. Hansı ki, bu məhsullardan kosmetoloji, dərman preparatları, qida maddəsi kimi istifadə olunur. Hal-hazırki dövrdə ən çox zeytun məhsulları istehsal edən ölkələrin siyahısı qeydə alınmışdır. İlk onluqda yer alan ölkələr aşağdakılardır;

1. İspaniya;
2. İtaliya;
3. Yunanıstan;
4. Tunis;

5. BƏƏ;
6. Türkiyə;
7. Mərakes;
8. Portuqaliya;
9. Əlcəzair;
10. İordaniya.

Zeytun məhsulları istehsal olunan bazarlara diqqət yetirsək görərik ki, sadalanan ölkələr bazarlara zeytun məhsulları çıxaran digər ölkələrlə rəqabətdə aparıcı yeri tuturlar. Hansı ki, bu ölkələrin aqroiqlim şəraiti əlverir ki zeytun bitkisindən daha çox məhsul istehsal olunsun.

1. İspaniya - Aparılan araşdırmalara əsasən müəyyən olunmuşdur ki, İspaniyada 1994 -2013-cü illərin statistik göstəricilərinə əsasən orta hesabla 1.169.194 ton zeytun yağı istehsal olunduğu qeydə alınmışdır. İstehsal olunan zeytun yağının yarıdan çox hissəsi təxminən 75%-i ölkənin Andalusiya bölgəsində istehsal olunur. Ölkənin digər əyalətləri ilə müqayisədə daha çox zeytun məhsulları istehsal edən hissəsi Kordoba və Xaen əyalətləridir. İstehsal olunan zeytun yağlarının müxtəlif növləri mövcuddur. Bura daxildir - Picsfuedo, Hujiobldfanca, Lmçsin Vmherdial, Pikyuual və.s aid etmək olar. Castilla- La Manch əyaləti isə ölkə daxilində istehsalının 14% - ni təşkil edir. Bu əyalət istehsal etdiyi məhsulların faizinə görə sadəcə Kordoba və Xaen əyalətlərindən geridə qalır.

2. İtaliya ölkəsi 1993 - 2014–cü illərdə istehsal olunan məhsulun göstəricilərinə görə ikinci yerdədir. Hansı ki həmin illərdə ortalama göstəriciləri əsasən 545.675 ton zeytun istehsal olunduğu qeydə alınmışdır. İtaliyada zeytun yağlarının istehsalı gətirilmə xammala əsaslanmır. Hansı ki, ölkə daxilində yağların istehsalı yerli xammala əsaslanaraq istehsal olunur və bir sıra ölkələrə ixrac olunaraq dünya bazarlarına çıxarılır. İtaliya yağlarını daha çox Çin, Avstriya, Kanada və ABŞ kimi ölkələrə ixrac edir.

3. Yunanıstan –Yunanıstan 2013-cü ilin göstəricilərinə əsasən dünya bazarlarına çıxarılan zeytun məhsullarının 12%-ni təskil edirdi. FAOSTATIN apardığı araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, Yunanıstan ölkəsi 1993-2014-cü ilin statistik göstəricilərinə əsasən təxminən 334,515 ton zeytun yağı istehsal edərək zeytun istehsal edən ölkələr sırasında üçüncü yerdə qərarlaşmışdır.Yunanıstanda kənd təsərrüfatı üçün yararlı hesab olunan torpaqların yarıdan çoxu təqribən 60%-i zeytun bitkisinin becərilməsi üçün istifadə olunur. Ölkə daxilində bir sıra bölgələrində zeytun məhsulları istehsal olunur. Bunların içərisində Pelepsonne bölgəsi xüsusi ilə seçilir. Bu bölgə ölkə daxilində istehsal olunan məhsullara görə birinci yerdədir. Ölkədə zeytun məhsulları yerli xammala əsaslanaraq müxtəlif növ mürəbbələr, turşular, yağlar, konservlər şəklində bazarlara çıxarılır. İdxalçı qismində çıxış edən ölkələrə misal olaraq ABŞ, Cin, Yaponiya və. s göstərmək olar. Bu kimi ölkələrdə məhsullara tələbat olduqca yüksəkdir. Yunanıstanda istehsal olunan zeytun yağının demək olar ki, böyük bir qismi ixrac olunmaq üçün bazarlara çıxarılır, qalan hissəsi isə ölkə daxilində əhalinin qida rasionunu təşkil edir.

Sadaladığımız ölkələr hansi ki, ilk onluqda qeydə alınan və daha çox zeytun məhsulları istehsal edərək dünya bazarlarına çıxarıllar. Bazar alıcı və satıcının qarşı-

laşdığı məkandır. Alıcı və satıcılar isə onun subyektləridir. Bazarlarda hər kəs çalşır ki, öz mənafeyinə uyğun hərəkət etsin. Satıcı qismində çıxış edən ixracatçı ölkələr alıcı qismində çıxış edən idxalçı ölkələrə öz məhsullarını təqdim edirlər. Bazarlara çıxarılan zeytun bitkisindən alınan məhsulların tərkibi olduqca vitaminlərlə, zülallarla zəngindir. Məhz buna görədə bazarlarda daima alıcıların diqqət mərkəzində olur. Bir sıra xəstəliklərin şəfası hesab olunan zeytun bitkisindən alınan məhsullar insanlarda ürək xəstəliklərinin, metabolik sindirom, diabet, xərçəng və s. xəstəliklərə qarşı mübarizədə insanların həyatına təhlükə törədəcək xəstəliklərin müalicəsində əvəz edilməz rola malikdir. İnsanların sağlam qidalanması üçün bazarlarda zeytun məhsullarına olan tələbat günü gündən artır. Bu isə öz növbəsində ixracatçı ölkələr qarşısında zeytun bitkisinin əkin sahələrini daha da genişləndirməyi tələb edir. Zeytun bitkisindən istehsal olunan məhsullara dərman preparatları, mürəbbələr, yağlar, kosmetik vasitələr turşular daxildir. Xəstəliklərin baş alıb getdiyi bir dövrdə müalicə üçün daha çox bitki tərkibli dərman prepartlarına üstünlük verilir. Hansı ki, bitkilərdən hazırlanan dərmanlar daha effektiv hesab olunur. Zeytun bitkisinin kosmetoloji əhəmiyyəti çox böyükdür. Zeytunun kosmetoloji bir vasitə kimi istifadə olunması qədimdən insanlara məlum idi. Qədim zamanlardan başlayaraq dövrümüzə qədər gəlib çıxmış Minoan mədəniyyətinə malik olan buranın yerli sakinləri zeytundan hazırlanmış məhlulların dərilərinə nə qədər yaxşı təsir etdiyini görürdülər. Artıq zaman keçdikcə zeytun bitkisindən hazırlanan məhlulların yayılma arealı genişləndi. İnsanlar artıq zeytundan müxtəlif növ balzamlar, şampunlar, bədən gelləri, əl və üz kremləri hazırlanması üçün istifadə etməyə başladılar. Zeytundan alınan əl üçün nəmləndirici kremlərə Olive, Lalolin, Çistaya liniya, Amalfi kremlərini misal göstərmək olar. Hansı ki, bu kremlər dəridə olan məsamələri azaldır dərindəki quruluğu aradan qaldırır və bir sıra keyfiyyətləri alıcıların diqqətini daima cəlb etmişdir. Eyni zamanda zeytundan istehsal olunan şampunlarada bazarlarda tələbat çox böyükdür. Bu məhsullara Fitoton Olive, Argan Velise və s. aid etmək olar. Bu şampunlarında alıcılıq qabiliyyəti çox yüksəkdir. Hansi ki, bazarlara çıxarılan bu şampunlara bitki tərkibli olduğuna görə digər kimyəvi tərkibli şampunlardan fərqli olaraq daha çox tələbat olur. Çünki həmin şampunlar saçların tökülməsinin, saçda olan yağlanmanın və quruluğun aradan qaldırılmasına səbəb olur. Bu isə öz növbəsində hər bir alıcını qane edir. Zeytun bitkisindən alınan yağlara gəldikdə isə bu yağlar gündəlik olaraq insanların qida rasiyonun əsasını təşkil edir. Bu yağlardan müntəzəm olaraq yeməklərdə, salatlarda və eyni zamanda şirniyyat bişirən zaman istifadə olunur. Zeytun yağları müxtəlif qablaşdırılma formasında və fərqli adlarda bazarlara çıxarılır. Zeytun yağlarına misal olaraq Virgin, Extra virigin, Refinado, Rivera və s. misal göstərmək olar. Zeytun yağının 95.8% triklesride adlanan yağlardan təşkil olunmuşdur. Bunların təqribən 15%-i doymuş yağ turşularının olduğu qeydə alınmışdır.12%-i isə doymamış yağ turşuları təşkil edir. Yerdə qalanlar isə tək doymuş yağ turşularıdır. Eyni zamanda zeytun yağının tərkibini təşkil edən maddələr bununla bitmir. Bu yağın tərkibində 310 milliqram fenloeller və 160 milliqram fekforellerler vardır. Digər bazarlara çıxarılan yağlardan fərqli olaraq zeytun yağının tərkibində olan olelim turşusunun miqdarı daha çoxdur.

Bilirik ki, insanlar bazarlara müraciət edərkən daha çox məhsulun keyfiyyətinə

önəm verirlər. Hər bir alıcı çalışır ki, öz mənafeyinə uyğun daha az pul xərcləyərək daha keyfiyyətli məhsul əldə etsin. Zeytun məhsulları istehsal edən müəssisələr isə müntəzəm olaraq bazarlarda araşdırma apararaq alıcıların istəklərinə uyğun məhsullar istehsal etməyə çalışırlar. Məhsullar istehsal edən müəssisələr araşdırma apararkən nəyə diqqət təməlidirlər.

1. Onlar alıcıların zövqlərinə uyğun məhsullar istehsal etməlidirlər. Hansı ki, bəzən alıcılar məhsul alarkən onun necə dizayn olunmasına, hansı formada qablaşdırılmasına bir sözlə görüntüsünə önəm verirlər.

2. İstehsal olunan məhsullar alıcıların gəlirlərinə uyğun olaraq istehsal olunmalıdır. Belə ki, bazarlara çıxarılan zeytun məhsullarının qiyməti əgər alıcıların gəlirlərindən daha yüksək olarsa, bu heç də yaxşı bir nəticə verməyəcəkdir. Nəticə olaraq bazarlara çıxarılan zeytun məhsullarının satış göstəriciləri daha aşağı olacaqdır. Bu isə öz növbəsində zeytun məhsulları istehsal edən müəssisələr üçün məhsulun satışından gəlir gətirməyəcəkdir. Buna görə də məhsulu istehsal edərkən ilk öncə əhalinin maddi rifahı və alıcılıq qabiliyyəti nəzərə alınmalıdır.

**Grand AGRO MMC müəssisəsi timsalında ölkəmizdə zeytun məhsulları bazarının araşdırılması.**

Hal-hazırda Azərbaycanda bir sıra müəssisələr mövcuddur ki, zeytun məhsulları istehsal edərək bazarlara çıxarırlar. Bu müəssisələr daim araşdırmacı qismində çıxış edərək, yuxarıda qeyd etdiyimiz amilləri nəzərə alaraq bazarlara məhsullarını çıxarmalıdırlar. Əks hallarda qeyd olunan amillər nəzərə alınmasa həmin müəssisələr istehsal etdiyi məhsul üçün çəkdiyi xərcləri ödəyə bilməyəcəkdir. Əksinə olaraq, bu müəssisələr istehsal etdiyi məhsullardan gözlədikləri gəlirləri əldə edə bilməyəcəklər. Bu isə öz növbəsində get–gedə həmin müəssisələrin iflasına gətirib çıxaracaqdır. Nəticə olaraq, bazarlarda zeytun məhsullarının istehsalı azalacaqdır. Məhz buna görə də, zeytun məhsulları istehsal edən müəssisələr bu nəticələrlə qarşılaşmamaq üçün qeyd olunmuş amilləri nəzərə almalıdırlar. Zeytundan alınan məhsullar keyfiyyət baxımından çox yüksək qiymətləndirilsə də bazarlarda vəziyyət heç də ürək açan deyildir. Bu məhsullara tələbat nə qədər yüksək olsa da bazarlara çıxarılan məhsullar azdır. Ölkəmizdə bu məhsulları istehsal edən müəssisələr “Azərsun Holdinq”, “3MS”MMC (Bağ sahəsi 831 hektar), “Kənan-S” MMC (bağ sahəsi 374 hektar), “Abşeron-Zeytun” MMC (təsisçi “Gilan” Holdinq, sahəsi 95 hektar), “Gilan” Zeytun emalı müəssisəsi (təsisçi “Gilan” Holdinq) və Grand Agro MMC şirkətləridir.

Bu müəssisələr içərisində daha çox məhsul istehsal edən müəssisə “Azərsun Holdinq”-dir. Hətta bu müəssisənin özünün daxilində fəaliyyət göstərən zeytun yağı zavodu mövcuddur. Müəssisə daxilində hazırlanmış zeytun yağları iri qablara doldurularaq Bakı Yağ və Qida sənayesi zavoduna göndərilir. Bu zavodlarda həmin yağlar qablaşdırılaraq bazarlara çıxarılır. Ölkə daxiləndə fəaliyyət göstərən müəssisələr hər il zeytun yığımı kampaniyası keçirdir. Bu yığıma əsasən Bakının kəndlərindən Qala, Maştağa, Zığ, Bilgəh, Mərdəkan, Şüvəlan kəndlərindən qeyd olunmuş vaxta qədər əsasən isə payızın əvvəlinə qədər məhsullar gətirilir. Gətirilən xammallar zeytun məhsulları istehsal edən müəssisələrə göndərilərək müxtəlif növdə məhsullar istehsal olunur. Hansı ki, bu müəssisələrdə məhsullar müxtəlif formalarda yağlar, mü-

rəbbələr, dərman preparatları, kosmetoloji məhsullar şəklində istehsal olunaraq bazarlara çıxarılır. Ölkədə müxtəlif adlarda zeytun məhsulları istehsal olunaraq süfrələrimizə verilir. Viera, Tamaşa, Rafina, Süzmə, Final və Zeytun bağları adlı zeytun yağları mövcuddur. Ölkə daxilində istehsal olunan zeytun məhsulları istehsalında "Grand Agro " MMC müəssisəsinin əvəzsiz rolu vardır. Hansı ki, 2017-ci ildən fəaliyyətə başlayan bu müəssisənin əsas məqsədi əhalini yüksək keyfiyyətli məhsullarla təmin etməkdir. Bu müəssisə Agro investments şirkətlər qrupuna aiddir. Şirkətin direktoru Məcnun Məmmədov bu müəssisənin gələcək fəaliyyət istiqamətlərinə dair öz tövhəsində bildirmişdir ki, bizim gələcək planlarımızda əsas yeri Abşeron yarımadasında istixana sistemlərinin yaradılması, zeytun yağı zavodunun istehsalının tikintisinə başlanılması və eyni zamanda mövcud olan bağ ərazilərinin inkişaf etdirilməsi qarşımıza qoyduğumuz əsas məqsədlərimizdir. Şirkətin direktoru qeyd etmişdir ki, məhsullara olan tələbatı ödəmək üçün müəssisəmizin fəaliyyət sahəsini genişləndirərək daha çox məhsullar istehsal etmək lazımdır.

Apardığım araşdırmalar nəticəsində belə bir qənaətə gəldim ki, zeytun məhsulları keyfiyyət baxımından çox yüksək qiymətləndirilir. Bazarlarda bu məhsula tələbat olduqca yüksəkdir. Lakin hal-hazırki, şəraitdə aqroiqlim göstəriciləri bu bitkinin əkilməsinə imkan versədə, əkin sahələri olduqca azdır. Bu isə öz növbəsində yerli xammal əsasında istehsal olunan zeytun məhsularının istehsalının az olmasına gətirib çıxarır. Ölkədə məhsula olan tələbat istehsaldan daha çoxdur. Bazarlarda öz istehsal etdiyimiz zeytun məhsullar ilə yanaşı xaricdən gətirilən məhsullar da çoxluq təşkil edir. Məhz buna görə də zeytun məhsulları istehsal edən müəssisələr misal olaraq "Grand Agro" MMC müəssisəsi öz fəaliyyət istiqamətlərini daha da genişləndirərək daha çox məhsul istehsal etməlidirlər. Mən təklif edərdim ki, zeytun bitkisinin əkilməsi və istehsalı ilə məşğul olan müəssisələr bunu intensiv yollarla həyata keçirsinlər.

**Ədəbiyyat siyahısı:**

1. Mais Qasımov Azərbaycanın ədviyyat bitkiləri Bakı Azərnəsr 1992 səh23-25
2. Şükürov C.Z. Azərbaycanın meyvə-tərəvəz bitkilərinin müalicəvi əhəmiyyəti. Bakı, "Maarif" nəşriyyatı, 1990. 192 səh
3. www.kend teserrufati mehsullar.com
4. www.agriculture_2017
5. https://inolivia.com
6. https://internationalolivel.org
7. https://haciendaguzman.com
8. https://www.agro.gov.az/
9. https://az.wikipedia.org/wiki/Zeytun
10.http://www.ziraolives.com/az/products
11.https://az.wikipedia.org/wiki/Zeytun_

*Cəfərli Hacı Faiq oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

# AZƏRBAYCANDA MALİYYƏ SABİTLİYİNİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Maliyyə sabitliyi güclü və dayanıqlı maliyyə sisteminin əsasını təşkil edir. Maliyyə sistemi elə bir mühit və ya şərtlər daxilində sabit ola bilir ki, maliyyə institutlarının əksər hissəsi likvidlik çatışmamazlığı ilə üzləşməsin və iflasa uğramasın, həmçinində ən vacib maliyyə xidmətlərinin göstərilməsi ilə bağlı maneələr mövcud olmasın. Ölkəmizdə maliyyə sabitliyinin inkişaf etdirilməsi və müasir maliyyə-kredit sisteminin yaradılması üçün yeni iqtisadi inkişaf modeli hazırlanmış buna uyğun və iqtisadi islahatlar aparılmışdır. Ölkədə maliyyə-kredit institutları formalaşmış, kredit təşkilatlarının yaradılması prosesi təmin edilmiş və hal-hazırda müstəqil maliyyə-kredit siyasəti müvəffəqiyyətlə həyata keçirilir.

Azərbaycanda son 10-15 il müddətində müstəqil və dayanıqlı bank sistemi formalaşdırılmışdır. Hal-hazırda aparılan islahatlar nəticəsində bankların sayı minimuma endirilib. Banklarla yanaşı ölkədə Bank olmayan kredit təşkilatları və kredit ittifaqları fəaliyyət göstərir. 2019- cu ilin məlumatlarına əsasən mövcud olan bankların aktivlərinin ümumi həcmi 32,3 milyard manat təşkil etmişdir. 2015-2019 – cu illərdə banklarda aktivlərin vəziyyətini şəkil 1-dən görmək olar.




***Şəkil 1. 2015-2019-cu illər üzrə aktivlərin ümumi məbləği, mlrd manat, nisbi dinamikası %-lə və ÜDM-ə nisbəti %-lə.***

***(Mənbə: https://aba.az/aba-haqqında/illik-hesabat/)***

Azərbaycan Respublikasında 2019-cu il üzrə bank sektoru üzrə milli iqtisadiyyata kredit qoyuluşu 15 297,2 mlrd manat təşkil etmişdir. Onlardan 2 918,4 mlrd. manat qısamüddətli, 12 378,8 mlrd. manat uzunmüddətli kredit qoyuluşlarıdır. Bankların milli valyutada qoyduğu kredit 8,2 milyard manat, xarici valyutada isə kredit qoyuluşlarının cəmi 7,1 milyard manat dəyərində olmuşdur. Cədvəl-1 də Azərbaycanda 2017-2020 cu illər ərzində bankların sayı verilmişdir. 2017-ci ildə bankların sayı 30, 2018-2019- cu illərdə də bankların sayı 30 olaraq qalmışdır, lakin 2020-ci ilin son rübünə kimi bankların sayı 30-dan, 26-ya enmişdir. 2020-ci ilin ilk yarısında 4 kommersiya bankı bağlanmışdır. Ayrıca, bank sektorunda aktivlərin azalması və bəzi bankların bağlanmasının bir səbəbidə COVİD-19 pandemiyasıdır ki, pandemiya dövründə vətəndaşların iş yerlərinin bağlanması ilə kreditlərini ödəyə bilməməsi səbəbi dən problemli kreditlərin həcminin artması bankların gəlirliyini aşağıya salmışdır.

***Cədvəl 1.***

**Azərbaycan bankları 2017-2020-ci illər**

| İllər | Bankların sayı | |
|---|---|---|
| | Dövlət bankları | Özəl bankların sayı |
| 2017 | 2 | 28 |
| 2018 | 2 | 28 |
| 2019 | 2 | 28 |
| 2020,31 avqust | 2 | 24 |

***Cədvəl 2.***

***Azərbaycan Respublikasında 2019- cu il üçün mövcud bankların kredit portfeli***

| Sıra | Banklar | IVR/2019 | IIIR/2019 |
|---|---|---|---|
| 1 | Azərbaycan Beynəlxalq Bankı ASC | 2375,0 | 2247,1 |
| 2 | Kapital Bank ASC | 1821,2 | 1721,5 |
| 3 | Xalq Bank ASC | 1829,6 | 1544,9 |
| 4 | PAŞA Bank ASC | 1799,0 | 1681,8 |
| 5 | Premium Bank ASC | 567,6 | 493,5 |
| 6 | AccessBank QSC | 536,4 | 499,0 |
| 7 | AtaBank ASC | m/y | 374,7 |
| 8 | Unibank KB ASC | 450,5 | 425,1 |
| 9 | Bank Respublika ASC | 484,5 | 454,8 |
| 10 | Muğanbank ASC | 366,1 | 346,3 |
| 11 | Rabitəbank ASC | 376,9 | 365,5 |
| 12 | TuranBank ASC | 340,2 | 335,4 |
| 13 | Azərbaycan Sənaye Bankı ASC | 331,4 | 314,7 |
| 14 | Yelo Bank ASC | 304,3 | 290,0 |
| 15 | AFB Bank ASC | 356,9 | 284,6 |
| 16 | Expressbank ASC | 223,8 | 186,6 |
| 17 | AGBank ASC | 223,0 | 228,2 |

| | | | |
|---|---|---|---|
| 18 | NBCBank ASC | 246,9 | 222,2 |
| 19 | Bank BTB ASC | 212,9 | 185,9 |
| 20 | Bank of  Baku ASC | 338,2 | 316,2 |
| 21 | Yapı Kredi Bank Azərbaycan QSC | 187,3 | 181,1 |
| 22 | Azər Türk Bank ASC | 186,5 | 115,5 |
| 23 | Günay Bank ASC | 158,9 | 154,2 |
| 24 | Ziraat Bank Azərbaycan ASC | 145,4 | 130,6 |
| 25 | Amrahbank ASC | 114,2 | 115,5 |
| 26 | Bank Avrasiya ASC | 109,3 | 90,0 |
| 27 | Naxçıvanbank ASC | 92,4 | 84,7 |
| 28 | Bank VTB (Azərbaycan) ASC | 238,2 | 232,5 |
| 29 | Bank Melli İran Bakı filialı | 4,2 | 4,2 |
| 30 | Pakistan Milli Bankı NBP Bakı filialı | 0,9 | 0,9 |

***Mənbə : https://aba.az***

Cədvəl 2-dən də göründüyü kimi iri kredit portfelinə malik olan banklar kimi daha çox Azərbaycan Beynəlxalq Bankı, PAŞA bank, Xalq bank, Kapital bank, Premium  bank və s. diqqət çəkirlər.

İqtisadi inkişafın ən vacib prioritetlərinin reallaşdırılmasında valyuta ehtiyatlarının rolu böyükdür. Valyuta ehtiyatları milli iqtisadiyyatın inkişafına stimul verir, zəruri milli layihələrin, dövlət proqramlarının həyata keçirilməsi kimi funksiyaları yerinə yetirir. Hər bir ölkənin güclü valyuta ehtiyatı qiymətli iqtisadi-maliyyə aktivi kimi çıxış edir.

Azərbaycanın valyuta ehtiyatları 2019-cu il üzrə 48.403,1 milyon ABŞ dolları təşkil edib. Bunun 87,7 faizi və yaxud 42.463,7 milyon dolları Azərbaycan Dövlət Neft Fondunun (ARDNF), 12,3 faizi və yaxud 5.939,4 milyon dolları isə Azərbaycan Mərkəzi Bankının (AMB) payına düşür. Bu ilin I rübündə ölkənin valyuta ehtiyatları 2.351,2 milyon dollar və yaxud 5,1 faiz artıb. Belə ki, ARDNF-nin valyuta ehtiyatlarında 2.190,4 milyon dollar və yaxud 5,4 faiz, AMB-nin valyuta ehtiyatlarında isə 160,8 milyon dollar və yaxud 2,8 faiz artım olub.

Son 1 ildə ölkənin valyuta ehtiyatları 4.854,3 milyon dollar və yaxud 11,15 faiz artıb. İl ərzində ARDNF-nin valyuta ehtiyatları 4.427,6 milyon dollar və yaxud 11,6 faiz, AMB-nin valyuta ehtiyatları isə 426,7 milyon dollar və yaxud 7,7 faiz artıb. Bunu cədvəl 3-dən də aydın görmək olar.

| **Tarix** | **ARDNF-nin valyuta ehtiyatları** | **AMB-nin valyuta ehtiyatları** | **Azərbaycanın valyuta ehtiyatları** |
|---|---|---|---|
| | **(milyon ABŞ dolları)** | **(milyon ABŞ dolları)** | **(milyon ABŞ dolları)** |
| **2019** | 42.463,7 | 5.939,4 | 48.403,1 |
| **2018** | 38 036,10 | 5.512,7 | 43.548,8 |

Beləliklə, Azərbaycanda maliyyə sabitliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üzrə bir sıra mexanizmlər işlənib hazırlanmalı və həyata keçirilməlidir. Belə ki, maliyyə-kredit və bank risklərinin dərindən öyrənilməsi, iqtisadiyyatın dərindən təhlil olunması, geriləmələrə səbəb olan amillərin kompleks baxilması və adekvat tədbirlər görülməsi təmin olunmalıdır.

**Ədəbiyyat siyahısı:**


1. Ataşov B.X. (2016) "Maliyyə Bazarları" Bakı, "Kooperasiya". – 456 səh.
2. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. (2014) "Maliyyə Nəzəriyyəsi" Bakı, "Kooperasiya". – 648 səh.
3. Bulut C., Süleymanov E.B. "Dövlət Maliyyəsi" Bakı 2013.
4. Kamu Maliyesi, Abdurrahman Akdoğan, 13. Bs., Gazi Kitabevi, 2009, Ankara.
5. Kamu Maliyesi, AÖF Yayınları, 2007, Eskişehir.
6. Kamu Maliyesi Ders Notları, İsmail Güneş, http://idari.cu.edu.tr/igunes/econ.htm.
7. Kamu Maliyesi, Özhan Uluatam, 7.Bs., İmaj Yayıncılık, 2001,Ankara.



*Ələkbərova Ülviyyə Şəmsi qızı, magistrant,*
*Bakı Biznes Universiteti*


## BEYNƏLXALQ TİCARƏT ƏMƏLİYYATLARININ İNKİŞAFINDA BANKLARIN ROLU

Beynəlxalq ticarət ölkələr arasında mal və xidmətlərin ixracı və idxalı deməkdir. İxrac mal və xidmətlərin ölkədən kənarda reallaşdırılması, idxal isə ölkəyə gətirilən mal və xidmətlər deməkdir.Yuxarıda qeyd edildiyi kimi, beynəlxalq ticarət beynəlxalq sərhədə və ya ərazilərə kapital, mal və xidmət mübadiləsidir. Əksər ölkələrdə bu cür ticarət ümumi daxili məhsulun (ÜDM) əhəmiyyətli hissəsini təmsil edir. Beynəlxalq ticarət bütün tarix boyu mövcud olsa da (məsələn, İpək Yolu), iqtisadi, sosial və siyasi əhəmiyyəti son əsrlərdə artmaqdadır.

Beynəlxalq ticarət ölkələrə həm yerli, həm də mövcud olmayan bütün mallar və xidmətlər üçün bazarlarını genişləndirməyə imkan verir. Beynəlxalq ticarət nəticəsində bazar daha rəqabətlidir, bu da daha rəqabətli qiymətə səbəb olur ki, bu da istehlakçıya daha ucuz məhsul gətirir [1.25s.].

Beynəlxalq ticarət və iqtisadi əməliyyatlar ölkələr arasında həyata keçirilir. Mallar arasında ən çox ticarətə aparılan məhsullar istehlak mallarıdır, məsələn televizor və geyim; maşın kimi əsas mallar; xammal və ərzaq. Digər əməliyyatlar xidmət sahəsinə aiddir, məsələn, səyahət xidmətləri və xarici patentlər üçün ödənişlər.

Beynəlxalq ticarət və müşayiət olunan maliyyə əməliyyatları ümumiyyətlə bir millətin bolluqda istehsal etdiyi məhsullar müqabilində çatışmayan mallarla təmin etmək məqsədi ilə aparılır; digər iqtisadi siyasətlərlə işləyən bu cür əməliyyatlar bir

xalqın həyat səviyyəsini yaxşılaşdırmağa meyllidir. Beynəlxalq münasibətlərin müasir tarixinin bir çoxu xalqlar arasında sərbəst ticarətin təşviqi səylərinə aiddir.

Beynəlxalq ticarət, qiymətlərin və ya tələb və təklifin qlobal hadisələrdən təsirləndiyi dünya iqtisadiyyatına istinad edir. Məsələn, ABŞ-ın proqram işçiləri üçün viza siyasətinin dəyişdirilməsi Hindistanın proqram şirkətlərinə təsir edəcəkdir və ya Çin kimi ixracatçı ölkədə əmək dəyərinin artması ABŞ-dakı Çin mallarına görə daha çox pul ödəməyiniz demək ola bilər.

Beynəlxalq ticarət əməliyyatlarının üç növü var: ixrac ticarət, idxal ticarət və entrepot ticarət. Entrepot Ticarət ixrac və idxal ticarətinin birləşməsidir və eyni zamanda Re-export olaraq da tanınır. Malların bir ölkədən gətirilməsi və müəyyən dəyər əlavə edildikdən sonra başqa bir ölkəyə ixrac olunması deməkdir. Məsələn, Hindistan Çindən qızıl idxal edir, ondan zərgərlik düzəldir və sonra başqa ölkələrə ixrac edir. Beynəlxalq ticarət üçün nəyə ehtiyac var?

Ölkələr daxili tələbatı ödəmək üçün kifayət qədər qaynaq və ya gücü olmadıqda beynəlxalq ticarətə gedirlər. Beləliklə, ehtiyac duyulan malları idxal etməklə, bir ölkə öz daxili qaynaqlarından istifadə etdikləri məhsulları istehsal etmək üçün istifadə edə bilər. Bundan sonra ölkə profisiti beynəlxalq bazarda ixrac edə bilər. İlk növbədə bir xalq mal və xidmətlər aşağıdakı səbəblərə görə idxal edir:

1. Qiymət - xarici şirkətlər mal və xidmətlər daha ucuz istehsal edə və ya təklif edə bilirlərsə, onda xarici ticarətə getmək faydalı ola bilər.

2. Keyfiyyət - xaricdəki şirkətlər yaxşı keyfiyyətlər və xidmətlər təklif edə bilsələr. Məsələn, Şotlandiyadan olan Skot Viski üstün sayılır. Şotlandiya saniyədə 37 şüşə skotç ixrac edir.

3. Gərəklilik - xüsusi bir meyvə və ya mineral kimi bu məhsulu daxili istehsal etmək mümkün deyilsə. Məsələn, Yaponiyanın təbii neft ehtiyatı yoxdur və buna görə də bütün neftini idxal edir.

4. Tələb - bir ölkədə məhsula və ya xidmətə tələbat yerli istehsal edə biləcəyindən çoxdursa, o, idxal üçün gedir.

Beynəlxalq ticarətin digər bir faydası, rəqabət, innovasiya və bölgü iqtisadiyyatı inkişaf etdirməsidir.

Rəqabət - hər bir xalqın əmək, material və ya bilik kimi qaynaqları baxımından güclü tərəfləri var və hamısı dünya bazarında digər xalqların işi üçün birlikdə mübarizə apara bilər. Bir xalq zirvə səmərəliliyinə və effektivliyə çatdıqda, digər xalqlara nisbətən üstünlüyü inkişaf etdirirlər və ən yaxşılarına qədər bir məhsul və ya xidmətdə ixtisaslaşacaqlar. İstehlakçılar daha çox seçimdən satın ala bilirlər və satıcılar ən yaxşı məhsul və xidmətləri ən səmərəli etməklə biznes üçün rəqabət aparırlar. Beynəlxalq ticarəti qadağan etmək satıcıları bazara girməyə imkan vermir və digər xalqları bacardıqları ən yaxşısını istehsal etməyə həvəsləndirmir. Rəqabət, ən yaxşı mal və xidmətlər istehsal etmək üçün millətlərin böyümək, genişləndirmək və proseslərini yeniləmək üçün həyati əhəmiyyət daşıyır.

İnnovasiya - rəqabətin əsas şərtidir. Ticarət xalqlara mal və xidmətlərin daha yaxşı, daha ucuz və daha sürətli istehsalının yeni yollarını kəşf etməyə əsas verir. Yalnız özünə güvənən ölkələr, dünyanın qalan təklif etdiyi yeni inkişaflardan uzaq dururlar.

Yuxarıda qeyd edildiyi kimi, beynəlxalq ticarət iş innovasiyası təşviq edir. Protektsionistlər tez-tez eyni iş yerlərinin əvvəllər mövcud olmadığından narahatdırlar və bu doğrudur - yeni istehsallar çox vaxt köhnələrini əvəz edirlər. Məşhur bir nümunə, müasir Amerikada avtomobil istehsalçılarının bolluğu və Conestoga vaqon istehsalçılarının azlığıdır - halbuki 1800-cü illərdə bu belə olmazdı. Samsung kimi şirkətlər yeni Blu-ray pleyerləri yaradır, VHS oyunçusu deyil (və ya çox güman ki, heç yoxdur). Ticarət inkişaf etdikcə yeni texnologiya inkişaf edir. Beynəlxalq ticarətlə, bu yeniliklər daha çox insana çatır ki, onlar da irəliləmək üçün yenilik etməlidirlər. İstehlakçı ən yaxşı məhsulları ən yaxşı qiymətə almaqla qazana bilər.

Bölgü iqtisadiyyatı - Beynəlxalq ticarətdə iştirak edən millətlər məhsul və xidmətlər üçün miqyaslı iqtisadiyyatı inkişaf etdirə və gücləndirə bilirlər. Bir xalqın yalnız öz xalqı ilə deyil, bütün dünya ilə ticarət etməsi üçün bazar yeri (və sonrakı tələb) daha böyükdür. Daha çox istehlakçı bir məhsul və ya xidmət istədikdə millətlər qiymətləri aşağı sala bilər. Millətlər nə qədər çox məhsul və xidmətlər göstərə bilərsə, o məhsul və xidmət daha ucuz ola bilər. Bunun səbəbi, xərclərin daha çox məhsula yayılması və vahidin qiymətini aşağı salması ola bilər.

Son olaraq, beynəlxalq ticarət xalqların öz təbii ehtiyatlarını inkişaf etdirmələri və qlobal iqtisadiyyatda iştirak etmələri üçün vacibdir.

Banklar beynəlxalq ticarətin vacib vasitəçisidir. Likvidliyi təmin etməklə yanaşı, dünya ticarətinin beşdə birinə görə ödəniş təmin edirlər. Bununla da bank sektoru beynəlxalq biznesdə mühüm rol oynayır. Bu gün demək olar ki, bütün banklar beynəlxalq iş birliyinə daha yaxşı xidmət göstərmək üçün digər ölkələrin bankları ilə birgə ittifaqlar qurmuş və müxbir bank əlaqələri qurmuşlar. Banklar beynəlxalq bazarlarda əməliyyat aparan agentlərin alqı-satqısı arasında etimad bağlantısının formalaşmasında əsas rol oynayır. Yerli banklarda ölkə xaricində vasitəçi banklar mövcuddur ki, bu da beynəlxalq ödənişlərin həyata keçirilməsinə kömək edir, buna görə də yerli xalq tərəfindən mal və xidmətlərin alınması və ödənilməsini təmin edir.

Banklar beynəlxalq ticarət işini asanlaşdırmaq üçün bir çox cəhətdən köməkçi rol oynayır, bu da kapitala olan tələbatın maliyyələşdirilməsi, kapital mallarının maliyyələşdirilməsi, beynəlxalq ticarət üçün potensial bazarların müəyyənləşdirilməsi, alıcı və satıcıların müəyyənləşdirilməsi, beynəlxalq ticarət əməliyyatları üçün ödənişin asanlaşdırılması, idxalın verilməsini əhatə edir.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, bank sektorunun inkişaf etdirilməsində Beynəlxalq ticarət əməliyyatlarının yaradılmasının, təkmilləşdirilməsinin rolu böyükdür. Çünki, bank sektorunun inkişafında bu əməliyyatların tənzimlənməsi həmin sahənin işlərinin səviyyəsini olduqca yüksəldir. Əlavə olaraq, Banklar beynəlxalq ticarət işini asanlaşdırmaq üçün bir çox cəhətdən köməkçi rol oynayır, bu da kapitala olan tələbatın maliyyələşdirilməsi, kapital mallarının maliyyələşdirilməsi, beynəlxalq ticarət üçün potensial bazarların müəyyənləşdirilməsi, alıcı və satıcıların müəyyənləşdirilməsi, beynəlxalq ticarət əməliyyatları üçün ödənişin asanlaşdırılması, idxalın verilməsini əhatə edir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasinin xarici siyasətinin əsas istiqamətləri (1991-2016), Bakı – 2017.900s
2. Azərbaycanın xarici iqtisadi əlaqələri: reallıqlar və perspektivlər, Bakı-2015, 332s.
3. Əliyev A. Gömrük işi və dünya iqtisadiyyatinin inkişafi, Bakı – 2013, 122s.
4. Əliyev Ş. "Azərbaycanın xarici iqtisadi siyasəti". Sumqayıt – 2015.187s.
5. Hacızadə E. Dünya iqtisadiyyati və Azərbaycan, Bakı – 2018, 912s.
6. Həsənov Ə., Müasir beynəlxalq münasibətlər və Azərbaycanin xarici siyasəti, Bakı – 2005. 637s.
7. Həsənov R. Iqtisadi siyasət: metodologiya və praktika, Bakı – 2009.
8. Xasbulatov R.İ. Beynalxalq iqtisadi münasibətlər. Bakı. 2015. 808s
9. Məhərrəmov A. Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, Bakı – 2008, 400s.
10. www.banker.az
11. www.Prezident.az
12. www.respublica-news.az

*Atayev Kənan Nüsrət oğlu, magistrant,*
*Bakı Biznes Universiteti*

## AZƏRBAYCAN BEYNƏLXALQ BANKININ TİMSALINDA AKTİV ƏMƏLİYYATLARIN TƏHLİLİ

Çağdaş dövrümüzdə hər bir bankın əsas məqsədlərindən biri də maksimal formada mənfəət qazanmaqdır. Buna nail olmaq üçün bütün kommersiya bankları aktiv əməliyyatlardan istifadə edir. Aktiv əməliyyatlar dedikdə mənfəət əldə etmək üçün bankların öz sərəncamında olan xüsusi vəsaitlərindən və həmçinin cəlb edilmiş vəsaitlərindən əsas vasitə kimi istifadə etməsi nəzərdə tutulur. Kommersiya bankları aktiv əməliyyatları reallaşdırarkən sərəncamında olan xüsusi və cəlb olunmuş vəsaitlərdən fiziki və hüquqi şəxslərə kreditlər verir, investisiya qoyuluşlarını həyata keçirir və bütün bu əməliyyatlar banka faiz, dividentlər formasında gəlir gətirir. Bu vasitə ilə likvidlik normaları təmin edilir, investisyaların səmərəli nəticələrini əldə etmək üçün təşkilati – idarəetmə tədbirləri həyata keçirilir. Bankların aktiv əməliyyatları dedikdə, müəyyən formada gəlir yaratmaq üçün öz vəsaitlərini və cəlb edilmiş vəsaitlərini kredit formasında istifadə etməsi nəzərdə tutulur. Bu əməliyyatlarların tətbiqi nəticəsində bank müştərilərinə kredit verərək, müəyyən müddətdən sonra faizlə bərabər geri qayıtması nəticəsində gəlir əldə edir. Bu əməliyyatlar vasitəsilə banklar cəlb etdikləri vəsaitləri ehtiyacı olanlar arasında yerləşdirərək kreditor rolunda çıxış edirlər. Bütün kommersiya bankları aktiv əməliyyatları həyata keçirməyə məcburdur, ona görə ki, bankların mənfəəti bu əməliyyatlardan əsaslı surətdə asılıdır.

Kommersiya banklarının aktiv əməliyyatlarının nəticələri bank balansının aktiv

hissəsində əks etdirilir, və bütün bu göstəricilər əsasında bankın resurslarının yerləşdirilməsi xarakteri, onlardan istifadənin səmərəliliyi yoxlanılır və təhlil olunur. Müasir bazar iqtisadiyyatına keçid dövründə aktiv əməliyyatların xarakteri və əhəmiyyəti də dəyişikliyə məruz qalmışdır. Iqtisadiyyatın inzibati amirlik üsulları ilə idarə edildiyi zamandan fərqli olaraq keçid dövründə və müasir bazar iqtisadiyyatı şəraitində hər bir kommersiya bankı aktiv əməliyyatlarının elə optimal tətbiq formalarını müəyyən etməlidir ki, həmin əməliyyat nəticəsində ancaq səmərə əldə etmək mümkün olsun. Əks halda nə bank, nə də ki, ümumilikdə bank sistemi mövcud ola bilməz, iqtisadiyyat isə öz inkişaf tarazlığını itirər.

Kommersiya banklarının həyata keçirdikləri aktiv əməliyyatları aşağıdakı kimi qruplara ayırmaq olar:

Kredit, investisiya, hesablaşma, kassa və digər aktiv əməliyyatlardan ibarətdir. Kommersiya banklarının fəaliyyət göstəricilərinin sübut etdiyi kimi, bankların apardığı aktiv əməliyyatlar içərisində xüsusi çəki etibarilə aparıcı yeri kredit əməliyyatları tutur. Hər bir kommersiya bankının işi üçün məcburi şərt aktivlər ilə əməliyyatların statistik təhlilinin aparılmasıdır. Bununla bağlı olaraq bir sıra vəzifələr ortaya çıxır:

1.Kredit portfelinin strukturunun təhlili;

2.Kapital iştirakının dərəcəsinin təhlili;

3.Əməliyyatlar strukturunun təhlili və onların vaxt dəyişməsi;

4.Bank əməliyyatlarının strukturunun müqayisəsi;

5.Məcburi tənzimləyici minimum ehtiyyatlara uyğunluğun qiymətləndirilməsi;

6.Aktivin keyfiyyətinin, xüsusilə kredit riskinin qiymətləndirilməsinin müəyyən edilməsi;

7.Likvidlik dərəcəsinə əsasən qrup aktivləri üzrə əməliyyatlar.

Azərbaycan Respublikası Bank sektorunun icmal balansında 2019-cu ildə ölkəmizdə mövcud olan bankların cəmi aktivləri 32,722.8 manatdan, 31.08.2020- ci il tarixində isə 31,065.9 manat olmuş və müqayisədən də görüldüyü kimi cəmi aktivlərdə 2020-ci ildə azalma müşahidə edilmişdir. Tədqiqat obyekti kimi seçdiyim Azərbaycan Beynəlxalq Bankı(ABB) ölkənin ən böyük bankı kimi 2019 –cu il dekabrın 31-nə aktivləri 9,22 mlyard manat təşkil edib. Belə ki, 2018 –ci ilin sonuna Azərbaycan Beynəlxalq Bankının aktivləri 7,93 milyard manat təşkil edib. Nəticədə 2019-cu ildə bank aktivlərini 16,3% artıb. Yeni inkişaf mərhələsində olan Azərbaycan Beynəlxalq Bankı 2019-cu ili uğurlu nəticələrlə başa vurub və aktivlərinin həcminə, gəlirlilik səviyyəsinə görə liderliyini qoruyub saxlaya bilmişdir. Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, 2019-cu ildə Azərbaycan Beynəlxalq Bankının kapitalı 1,13 milyard manata çatıb, kredit portfeli isə 450 milyon manatdan, 2.37 milyard manatadək artıb. Azərbaycan Beynəlxalq Bankının 2020-ci ilin ilk 6 ayı üzrə hesabatına əsaslanaraq dedemək olar ki, bankın faiz gəlirləri 202 milyon 225 min manat təşkil edib. Bu məbləğin 120 milyon manatı müştərilərə verilən kreditlərdən, 54 milyon 406 min manatı banklar və digər maliyyə institutlarındakı depozitlərdən, 17.5 milyon manatı isə qiymətli kağızlar üzrə əməliyyatlardan daxil olub. 2019-cu ilin sonunda bankın faiz gəlirləri 51 milyon 549 min manat təşkil edib. Bankın xalis faiz gəlirlərini tapmaq üçün cari ilin faiz gəlirlərindən, ötən ilin yekun faiz gəlirləri çıxılır:

202.225 – 51.549 =150 milyon 676 min manat xalis faiz gəliri əldə olunub.

Aktiv əməliyyatların ən geniş yayılmış növlərindən biri də kredit əməliyyatlarıdır. Azərbaycan Beynəlxalq Bankı müştərilərinə bir sıra kreditlər, əmək haqqı kreditləri, pensiya kreditləri, istehlak kreditləri və ipoteka kreditləri təklif edir. Aşağıdakı cədvəldə illər üzrə kreditlərin növü və məbləği qeyd edilmişdir.

***Cədvəl 1.***

| **Müştərilərə verilən kreditlər** | **2018-ci il** | **2019-cu il** |
|---|---|---|
| 1.Fiziki şəxslərə verilmiş kreditlər | 925,377 manat | 1,193.240 manat |
| 2.Hüquqi şəxslərə verilmiş kreditlər | 851,626 manat | 1,095.309 manat |
| 3.İstehlak kreditləri | 320,067 manat | 518,466 manat |
| 4.İpoteka kreditləri | 531,559 manat | 576,843 manat |

***Mənbə: www.ibar.az***

Bankların aktiv əməliyyatlarından biridə investisiya əməliyyatlarıdır. Bu əməliyyatlar kommersiya banklarının qiymətli kağızlarla apardığı müxtəlif əməliyyatlardır və həmin əməliyyatlar nəticəsində bankların investisya portfeli formalaşır. Azərbaycan Beynəlxalq Bankı üzrə cəmi kapital qoyuluşlarının məbləği aşağıdakı (cədvəl 2 ) göstərilmişdir.

***Cədvəl 2.***

| **İllər üzrə Cəmi kapital qoyuluşları** | **Məbləğ** |
|---|---|
| 2018-ci il üzrə | 1,643.189 manat |
| 2019-cu il üzrə | 1,683.728 manat |

Kapital qoyuluşlarının tərkibinə isə ayrı-ayrılıqda bunlar daxildir; səhm kapitalı, əlavə ödənilmiş kapital, məzənnə fərqi üzrə ehtiyat, binalar üzrə yenidən qiymətləndirmə ehtiyyatı, investisiya qiymətli kağızları üzrə realizasiya edilməmiş gəlir, yığılmış defisit.

**Nəticə** etibarilə qeyd etmək lazımdır ki, yeni inkişaf mərhələsində olan Azərbaycan Beynəlxalq Bankı 2019 –cu ili uğurlu nəticələrlə başa vurub yəni aktivlərin həcminə, gəlirlik səviyyəsinə görə liderliyini qoruyub saxlaya bilmişdir və 2020-ci ildə də, bu uğurlar davam etdirilməkdədir.

## Ədəbiyyat siyahısı:


1. T.Əliyeva-"Dünya ölkələrinin bank sistemi" – 2016.
2. M.M.Bağırov- "Bank və bank əməliyyatları"(Ali məktəblər üçün dərslik) Bakı-2003
3. M.Əliyev – "Bankların inkişaf istiqamətləri".
4. R.A.Bəşirov – "Bank işi".Bakı – 2007
5. F.Ş.Kaşiyeva – "Pul, Kredit və Banklar".Bakı – 2011
6. Azərbaycan Banklar Asossasiyası.
7. www.ibar.az

*Cabbarlı Elvin Mənəf oğlu, magistrant,*
*Bakı Biznes Universteti*

# BANK SFERASINDA RƏQƏMSALLAŞDIRMANIN MAHİYYƏTİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Rəqəmsallaşdırma - iqtisadi inkişafın nəticələrinin praktikada təzahür forması olmaqla kağız daşıyıcılardakı məlumatların elektronlaşdırılmasıdır. Analoq formasında olan informasiyaların şəkil, audio, video məlumatların yalnız kompyuterin oxuya biləcəyi 0 və 1-lərə çevrilməsi prosesidir.

